“HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU”
PUBLİK HÜQUQİ ŞƏXS

Asif Qədirov

MÜLKİ MƏCƏLLƏ: SUALLAR VƏ CAVABLAR

(METODİK VƏSAİT)

BAKI - 2023

Asif Qədirov
Mülki Məcəllə: suallar və cavablar (metodik vəsait). – Bakı, 2023. – 493 s.

Hüquq üzrə fəlsəfə doktoru, dosent Asif Xanoğlan oğlu Qədirovun "Mülki Məcəllə: suallar və cavablar (metodik vəsait)" kitabı müasir dövrümüzdə mülki hüquq münasibətləri sahəsində mövcud olan bir çox məsələlərə aydınlıq gətirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Kitabda nəinki hüquqşünasları, həmçinin qeyri-hüquqşünasları da maraqlandıran bir sıra əhəmiyyətli məsələlər cavablandırılmışdır. İctimaiyyətə təqdim olunan kitabda suallar və cavablar sadə, anlaşıqlı dildə və məntiqə uyğun şəkildə tərtib edilmiş, mülki hüquq sahəsində aktual xarakterli məsələlərin əsas dairəsi, demək olar ki, tam əhatə olunmuşdur.

Bu kitabda təqdim edilən nöqteyi-nəzər yalnız müəllifə məxsusdur və Hüquq və İnsan Haqları İnstitutunun mövqeyini əks etdirməyə bilər.

ISBN 978-9952-568-87-5

© A.Qədirov, 2023
© "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxs, 2023

MÜNDƏRİCAT

Ön söz..... 8
1-ci fəsil. Mülki hüquq sahəsində qanunvericilik: Mülki Məcəllənin məqsəd və vəzifələrini əhatə edən suallar və cavablar..... 9
2-ci fəsil. Mülki hüquq və vəzifələr, onların müdafiəsinə dair suallar və cavablar..... 13
3-cü fəsil. Fiziki şəxslər: anlayışı, fəaliyyət qabiliyyəti və s. ətrafında suallar və cavablar..... 16
4-cü fəsil. Hüquqi şəxslər: anlayışı, növləri, hüquq qabiliyyəti və s. üzrə suallar və cavablar..... 29
§1. Əsas müddəalar 29
§2. Kommersiya təşkilatları 46
§3. Qeyri-kommersiya təşkilatları 99
5-ci fəsil. Ümumi müddəalarla bağlı suallar və cavablar 103
§1. Əşya hüququnun əsas anlayışları, onun obyektləri və yüklülüyü 103
§2. Əmlak hüquqlarının dövlət qeydiyyatı 105
6-cı fəsil. Mülkiyyət hüququnun ümumi müddəaları, anlayışı, məzmunu və s. üzrə suallar və cavablar 114
7-ci fəsil. Sahiblik hüququ ilə bağlı suallar və cavablar 118
8-ci fəsil. Mülkiyyət hüququnun məhdudlaşdırılmasını əhatə edən suallar və cavablar 120
9-cu fəsil. Mülkiyyət hüququnun əldə edilməsi və itirilməsinə dair suallar və cavablar..... 124
§1. Daşınmaz əşyalara mülkiyyət hüququnun əldə edilməsi..... 124
§2. Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi 126
§3. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi 131
§4. Mülkiyyət hüququnun itirilməsi 133
10-cu fəsil. Mülkiyyət hüququnun xüsusi növləri ilə bağlı suallar və cavablar..... 136
§1. Ümumi mülkiyyət..... 136
§2. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ 143
§3. Torpağa mülkiyyət hüququnun xüsusiyyətləri 149
11-ci fəsil. Əşyadan istifadə hüquqları ilə bağlı suallar və cavablar..... 155
§1. Tikintiyə vərəsəlik hüququ 155
§2. Özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ: servitut və uzufruktla bağlı suallar və cavablar..... 157
12-ci fəsil. Əşya təminat hüququ ilə bağlı suallar və cavablar 165
§1. Ümumi müddəalar..... 165
§2. Girov..... 167
§3. İpoteka 175

13-cü fəsil. Əqdlər haqqında ümumi müddəalarla bağlı suallar və cavablar 182
14-cü fəsil. Əqdlərin etibarsızlığı barədə suallar və cavablar 186
15-ci fəsil. Əqdlərdə razılıqla bağlı suallar və cavablar 192
16-cı fəsil. Əqdlərdə təmsilçilik, etibarnamə, etibarnamənin müddəti və s. üzrə suallar və cavablar 193
17-ci fəsil. Müddət anlayışı, müddətlərin hesablanması və s. ətrafında suallar və cavablar 197
18-ci fəsil. İddia müddəti ilə bağlı suallar və cavablar 199
19-cu fəsil. Öhdəliklər haqqında ümumi müddəalar: anlayışı, tərəfləri və s. üzrə suallar və cavablar 203
20-ci fəsil. Müqavilə hüququ ilə bağlı suallar və cavablar 205
§ 1. Müqavilə anlayışı və şərtləri 205
§2. Müqavilənin bağlanması 210
§3. Müqavilənin standart şərtləri 215
§4. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi ..... .217
21-ci fəsil. Öhdəliklərin icrası ilə bağlı suallar və cavablar 220
22-ci fəsil. Öhdəliklərin icra edilməməsi ilə bağlı suallar və cavablar 226
23-cü fəsil. Öhdəliklərin icra edilməməsinə görə məsuliyyətlə bağlı suallar və cavablar 230
24-cü fəsil. Öhdəliklərin icrasının təmin edilməsi ilə bağlı suallar və cavablar 234
§1. Öhdəliklərin icrasının təmin edilməsi haqqında ümumi müddəalar 234
§2. Dəbbə pulu 234
§3. Saxlama 236
§4. Zaminlik 237
§5. Qarantiya 239
§6. Beh 241
25-ci fəsil. Öhdəlikdə kreditorların və ya borcluların çoxluğuna dair suallar və cavablar 243
26-cı fəsil. Öhdəliklərin verilməsi barədə suallar və cavablar 246
27-ci fəsil. Öhdəliklərə xitam verilməsi ilə bağlı yaranan suallar və cavablar 248
28-ci fəsil. Mülki hüquqların həyata keçirilməsi zamanı ortaya çıxan suallar və cavablar 255
29-cu fəsil. Alqı-satqı münasibətləri ilə bağlı suallar və cavablar 259
§ 1. Alqı-satqı haqqında ümumi müddəalar 259
§ 2. Heyvanların, quşların və balıqların alqı-satqısı 274
§ 3. Pərakəndə alqı-satqı 276
§ 4. Malların göndərilməsi 281
§ 5. Daşınmaz əşyaların alqı-satqısı 287
§ 6. Tələblərin və digər hüquqların alqı-satqısı 288

§ 7. Faktorinq 289
§ 8. Sınama üçün alqı-satqı 290
30-cu fəsil. Satın almaqda üstünlük hüququ və digər üstünlük hüquqları ilə bağlı suallar və cavablar..... 291
31-ci fəsil. Dəyişdirmə müqaviləsi zamanı ortayan çıxan suallar və cavablar 293
32-ci fəsil. Bağışlama müqaviləsi kontekstində yaranan münasibətlərin tənzimlənməsinə dair suallar və cavablar 294
33-cü fəsil. Əmlak kirayəsi münasibətləri çərçivəsində suallar və cavablar 297
34-cü fəsil. İcarə müqaviləsinin tərəfləri arasında yaranan münasibətlər üzrə suallar və cavablar..... 310
§ 1. İcarə haqqında ümumi müddəalar 310
§ 2. Torpaq icarəsi müqaviləsi.....311
35-ci fəsil. Françayzinqlə bağlı suallar və cavablar 314
36-cı fəsil. Əvəzsiz istifadə ilə bağlı suallar və cavablar 315
37-ci fəsil. Borc, kredit və istehlak krediti müqaviləsi kontekstində yaranan münasibətlərin tənzimlənməsinə dair suallar və cavablar..... 317
§ 1. Borc müqaviləsi..... 317
§ 2. Kredit müqaviləsi 318
§ 3. İstehlak krediti müqaviləsi 322
38-ci fəsil. Lizinq müqaviləsi çərçivəsində yaranan münasibətləri əhatə edən suallar və cavablar.....329
39-cu fəsil. Podrat münasibətlərinin hüquqi tənzimlənməsinə dair suallar və cavablar..... 331
40-cı fəsil. Tapşırıq müqaviləsi kontekstində yaranan suallar və cavablar..... 334
41-ci fəsil. Brokerlik müqaviləsinin müddəalarına dair suallar və cavablar..... 336
42-ci fəsil. Ticarət nümayəndəsi (agent) ilə bağlı suallar və cavablar..... 337
43-cü fəsil. Kommersiya konsessiyası çərçivəsində hüquqi münasibətlərə dair suallar və cavablar 339
44-cü fəsil. Komissiya müqaviləsinə dair yaranan suallar və cavablar..... 342
45-ci fəsil. Saxlama müqaviləsindən irəli gələn hüquq və vəzifələrə dair suallar və cavablar..... 346
§1. Saxlama haqqında ümumi müddəalar 346
§2. Anbarlarda saxlama..... 347
§3. Mehmanxanalarda və restoranlarda əşyaların saxlanması 349
§4. Konsiqnasiya anbarında saxlama 351

46-cı fəsil. Daşıma müqaviləsinin tərəfləri arasında yaranan münasibətlərin hüquqi tənzimlənməsinə dair suallar və cavablar 353
§1. Sərnişin daşınması 353
§2. Yük daşınması 355
47-ci fəsil. Turist xidmətlərinin göstərilməsinə dair münasibətlərin tənzimlənməsi üzrə suallar və cavablar 361
48-ci fəsil. Renta müqaviləsi kontekstində suallar və cavablar 362
§1. Renta haqqında ümumi müddəalar 362
§2. Daimi renta 363
§3. Ömürlük renta 364
49-cu fəsil. Barışıq razılaşması və mövcud borcun etirafı haqqında mücərrəd müqaviləyə dair suallar və cavablar 366
50-ci fəsil. Sığorta müqaviləsi çərçivəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsinə dair suallar və cavablar 368
§ 1. Sığorta haqqında ümumi müddəalar 368
§2. Sığorta müqaviləsinə dair başlıca tələblər 375
§3. Sığorta hadisəsi və sığorta ödənişi 386
§4. Sığorta vasitəçiliyi 391
51-ci fəsil. Bank əmanətinə dair hüquq münasibətlərinə aid suallar və cavablar 394
52-ci fəsil. Bank hesabı müqaviləsinə dair suallar və cavablar 398
53-cü fəsil. Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar haqqında suallar və cavablar 403
§ 1. Hesablaşmalar haqqında ümumi müddəalar 403
§ 2. Ödəniş tapşırıqları ilə hesablaşmalar 403
§ 3. Akkreditiv üzrə hesablaşmalar 405
§ 4. İnkasso üzrə hesablaşmalar 407
54-cü fəsil. Qiymətli kağızlar ilə bağlı yaranan hüquq münasibətlərinə dair suallar və cavablar 414
§ 1. Qiymətli kağızlar haqqında ümumi müddəalar 414
§ 2. Veksel 418
§3. İstiqraz 424
§ 4. Daşınmaz əmlak sertifikatı 436
§ 5. Özəlləşdirmə qiymətli kağızları 437
§ 6. Qiymətli kağızların tədavülü 437
55-ci fəsil. Xüsusi mükafatlandırmanın açıq elan edilməsi. Müsabiqə barədə suallar və cavablar 443
56-cı fəsil. Oyunlar və mərclərin keçirilməsi sahəsində hüquqi tənzimləmələrə dair suallar və cavablar 445

57-ci fəsil. Özgə işlərini tapşırıqsız aparmaya dair yaranan suallar və cavablar 446
58-ci fəsil. Əsassız varlanma kontekstində hüquqi tənzimləməyə dair suallar və cavablar 448
59-cu fəsil. Mülki hüquq pozuntuları (deliktlər) çərçivəsində yaranan suallar və cavablar 450
60-cı fəsil. Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsinə dair suallar və cavablar 457
61-ci fəsil. Malın, işin və ya xidmətin qüsurları nəticəsində dəyən zərərin əvəzinin ödənilməsinə dair suallar və cavablar 462
62-ci fəsil. Vərəsəlik hüququnun ümumi müddəalarına dair suallar və cavablar 464
63-cü fəsil. Qanun üzrə vərəsəlik üzrə hüquq münasibətlərinə dair suallar və cavablar 468
64-cü fəsil. Vəsiyyət üzrə vərəsəliyin hüquqi tənzimlənməsi çərçivəsində suallar və cavablar 470
65-ci fəsil. Vəsiyyətnamənin forması barədə suallar və cavablar ... 472
66-cı fəsil. Mirasda məcburi pay haqqında suallar və cavablar 475
67-ci fəsil. Vəsiyyət tapşırığı (leqat) kontekstində yaranan suallar və cavablar 477
68-ci fəsil. Vəsiyyətnamənin dəyişdirilməsi və ya ləğvi zamanı yaranan münasibətlərin hüquqi tənzimlənməsinə dair suallar və cavablar 479
69-cu fəsil. Vəsiyyətnamənin icrası çərçivəsində yaranan suallar və cavablar 481
70-ci fəsil. Mirasın qəbul edilməsi və onun qəbulundan imtina olunmasına dair suallar və cavablar 483
71-ci fəsil. Mirasın bölüşdürülməsi kontekstində yaranan suallar və cavablar 487
72-ci fəsil. Vərəsələr tərəfindən kreditorların təmin edilməsi çərçivəsində yaranan suallar və cavablar 492
73-cü fəsil. Mirasın qorunması kontekstində hüquqi münasibətlərin tənzimlənməsinə dair suallar və cavablar 493

Ön söz

Hüquq sisteminin ən əsas sahələrindən biri olan mülki hüquq fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini, onların əmlak və şəxsi qeyri-əmlak hüquqlarının əmələ gəlməsi, həyata keçirilməsi və xitam verilməsi qaydalarını müəyyənləşdirir, müqavilə ilə yaranan öhdəlik münasibətlərini, habelə əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir.

Mülki hüquq sahəsinin tənzimlədiyi münasibətlər dairəsinin geniş olması onun öyrənilməsinin öz aktuallığını hər zaman qoruyub saxlamasına gətirib çıxarır. Mülki hüquq münasibətləri, əsasən, insanların gündəlik və uzunmüddətli tələbatlarının ödənilməsi məqsədilə meydana gəldiyindən onun öyrənilməsi istiqamətində insanlar arasında daha çox maarifləndirici işlərin aparılması zəruridir.

Mülki hüquq sahəsi üzrə dövlət tərəfindən qəbul edilmiş əsas və çox geniş əhatəli qanunvericilik aktı Azərbaycan Respublikasının Mülki Məcəlləsidir. 10 bölmə, 74 fəsil və 1325 maddədən ibarət olan bu yetərincə dolğun sənədin dərindən öyrənilməsi isə cəmiyyətin hüquq mədəniyyətinin inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan dilində mövcud olan mülki hüquq ədəbiyyatının sayca azlığı və Mülki Məcəllənin müddəalarının məzmunca detallı şəkildə təfsir olunmasının vacibliyi hazırkı vəsaitin tərtib edilməsinə ciddi zərurət yaratmışdır. Bu səbəbdən də təqdim etdiyimiz nəşr Mülki Məcəllənin normalarının daha diqqətlə, əhatəli şəkildə oxunması, bu normaların məzmununun daha dərindən anlaşılması məqsədinə xidmət edir.

Bu kitab həm tələbələrin, həm akademik işçilərin, həm də praktiki mütəxəssislərin istifadəsi üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı, qeyri-hüquqşünas şəxslər də hazırkı vəsaitdən istifadə etməklə, Mülki Məcəllənin müddəaları ilə konkret suallara verilmiş cavablar şəklində tanış olmaq imkanı əldə edəcəklər.

Mülki Məcəllənin maddələrinin məzmununun daha dərindən və detallı şəkildə öyrənilməsinə yardım edəcək bu vəsait Mülki Məcəlləyə edilmiş ən son əlavə və dəyişiklikləri də özündə əks etdirməklə, qüvvədə olan qanunvericiliyin daha keyfiyyətli şəkildə mənimsənilməsində mühüm vasitə kimi istifadə edilə bilər.

Kitabda Mülki Məcəllənin bütün maddələrini əhatə edən 4000-dən çox sual və cavab birləşdirilməklə, yetərincə geniş və əhatəli fəaliyyət həyata keçirilmiş, nəticədə hazırkı nəşr ərsəyə gətirilmişdir.

Məhəmməd Quluzadə,
Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri

1-ci FƏSİL
Mülki hüquq sahəsində qanunvericilik: Mülki Məcəllənin məqsəd və vəzifələrini əhatə edən suallar və cavablar

1. Mülki Məcəllənin (bundan sonra - MM) məqsədi nədən ibarətdir?

Mülki Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir (maddə 1).

2. MM-in vəzifələri nələrdir?

- Mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək;
- mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək;
-fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi və ailə həyatının, şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq;
- mülki dövriyyəni təmin etmək;
- sahibkarlıq fəaliyyətini dəstəkləmək;
- sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq.

3. Azərbaycan Respublikasının mülki qanunvericiliyi hansı aktlardan ibarətdir?

Azərbaycan Respublikasının mülki qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və MM-dən, digər qanunlardan və onların əsasında qəbul edilən, mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ hüquqi aktlardan ibarətdir (maddə 2).

4. Mülki qanunvericilik hansı münasibətləri tənzimləyir?

Mülki qanunvericilik mülki hüquq münasibətləri subyektlərinin hüquqi vəziyyətini, mülkiyyət hüququnun və başqa əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını müəyyənləşdirir, müqavilə və digər öhdəlik münasibətlərini, habelə sair əmlak münasibətlərini və onlarla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir.

5. Ailə, əmək münasibətləri, təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi, müəlliflik hüququ və əlaqədar hüquqlarla bağlı münasibətlər hansı aktlarla tənzimlənir?

Əgər ailə, əmək, torpaq, təbiəti mühafizə, müəlliflik və digər xüsusi qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlarla

6. İnsanın özgəninkiləşdirilməyən hüquq və azadlıqlarının, digər qeyri-maddi nemətlərin gerçəkləşdirilməsi və müdafiəsi ilə bağlı münasibətlər hansı aktlarla tənzimlənir?

Əgər bu münasibətlərin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, mülki qanunvericilik və başqa hüquqi aktlarla

7. Əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar hansı münasibətlərə tətbiq edilmir?

Bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə

8. Ələt azad iqtisadi zonasında mülki münasibətlər hansı qanunla tənzimlənir?

"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq

9. Qanundan aşağı qüvvəli normativ hüquqi aktlar mülki münasibətlərin tənzimlənməsi üçün hansı halda tətbiq edilir?

Yalnız o halda tətbiq edilir ki, onlar MM-ə uyğun gəlsin və ona zidd olmasın.

10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr Mülki Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə hansı hallar istisna edilməklə birbaşa tətbiq edilir?

Beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə (maddə 3)

11. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda hansı normalar tətbiq edilir?

Beynəlxalq müqavilənin normaları

12. Hansı nemətlər mülki hüquq münasibətlərinin obyektləri ola bilər?

Əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlər (maddə 4)

13. Kimlər mülki hüquq münasibətlərinin subyektləri ola bilərlər?

İstər sahibkarlıq fəaliyyəti ilə məşğul olan, istərsə də məşğul olmayan hər hansı fiziki və ya hüquqi şəxslər (maddə 5)

14. Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının digər şəxslərlə mülki hüquq münasibətləri hansı qanunlarla tənzimlənir?

Qanunda ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericiliklə

15. Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini hansı qaydada həyata keçirməyə borcludurlar?

Vicdanla

16. Mülki qanunvericiliyin prinsipləri hansılardır?

- Mülki hüquq subyektlərinin bərabərliyi;
- mülki hüquq subyektlərinin iradə sərbəstliyi;
- mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi;
- mülkiyyətin toxunulmazlığı;
- müqavilələr azadlığı;
- şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasının yolverilməzliyi;
- mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması;
- pozulmuş hüquqların bərpasının təmin edilməsi;
- mülki hüquqların məhkəmə müdafiəsi (maddə 6).

17. Fiziki və hüquqi şəxslər mülki hüquqları hansı qaydada həyata keçirirlər?

Öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir və hə-

yata keçirirlər. Onlar müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər.

18. Hansı hallarda mülki hüquqlar məhdudlaşdırıla bilər?

Dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda yalnız qanunla məhdudlaşdırıla bilər.

19. Malların və xidmətlərin hərəkəti üçün məhdudiyyətlər tətbiq oluna bilərmi?

Əgər insanların təhlükəsizliyinin təmin edilməsi, həyatının və sağlamlığının müdafiəsi, təbiətin və mədəni sərvətlərin qorunması üçün zəruridirsə, qanuna müvafiq surətdə tətbiq edilə bilər.

20. Maliyyə vəsaitinin hərəkəti üçün məhdudiyyətlərin tətbiq olunması MM-də nəzərdə tutulmuşdurmu?

Xeyr.

21. Mülki qanunvericilik müddəalarının geriyə qüvvəsi varmı? Onlar hansı münasibətlərə tətbiq edilir?

Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində nəzərdə tutulanlar (Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir) istisna olmaqla, mülki qanunvericilik müddəalarının geriyə qüvvəsi yoxdur və onlar qüvvəyə mindikdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilir (maddə 7).

22. Hansı hallarda mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilər?

Qanunla birbaşa nəzərdə tutulmuş hallarda

23. Hansı hallarda mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilməz?

Mülki hüquq subyektlərinə ziyan vurarsa və ya onların vəziyyətini pisləşdirərsə

24. Mülki qanunvericilik Azərbaycanın hansı ərazilərində qüvvədədir?

Azərbaycan Respublikasının istisnasız olaraq bütün ərazisində (maddə 8)

25. Mülki qanunvericilik kimlər üçün qüvvədədir?

Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslər üçün (maddə 9)

26. Mülki qanunvericiliklə müəyyənləşdirilmiş qaydalar əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin iştirak etdiyi münasibətlərə tətbiq olunurmu?

Əgər qanunda ayrı hal nəzərdə tutulmayıbsa, tətbiq olunur.

27. Qanunu bilməmək və ya onu yanlış başa düşmək hansı məsuliyyətdən azad edilməyə əsas verə bilər?

Qanunu bilməmək və ya onu yanlış başa düşmək qanunun tətbiq edilməməsinə və ya nəzərdə tutulmuş məsuliyyətdən azad edilməyə əsas verə bilməz.

28. Hansı qaydalar işgüzar adətlər sayılır?

Sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində təşəkkül tapan və geniş tətbiq edilən, qanunvericilikdə NƏZƏRDƏ tutulmayan davranış qaydası hansısa aktda qeyd edilib-edilmədiyindən asılı olmayaraq, işgüzar adət sayılır (maddə 10).

29. Hansı işgüzar adətlər tətbiq edilmir?

Qanunvericiliyə və ya müqaviləyə zidd olanlar

30. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə hansı normalar tətbiq edilir?

Əgər bu, onların mahiyyətinə zidd deyilsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları (qanunun analogiyası) (maddə 11)

31. Oxşar münasibətləri tənzimləyən mülki hüquq normaları olmadıqda tərəflərin hüquq və vəzifələri hansı qaydada tənzimlənir?

Mülki qanunvericilik prinsipləri əsas götürülməklə (hüququn analogiyası)

32. Hüququn analogiyası tətbiq edilərkən hansı qaydalar nəzərə alınmalıdır?

Ədalət, insaf və mənəviyyat tələbləri

33. Hansı normalar analogiya üzrə tətbiq edilməməlidir?

Xüsusi münasibətləri tənzimləyən mülki qanunvericilik müddəaları (istisna normaları)

34. Mülki hüquq münasibətlərini tənzimləyən hüquq normasının olmaması və ya onun qeyri-müəyyənliyi hansı halda məhkəmənin mülki işə baxmaqdan imtina etməsinə əsas verə bilər?

Heç bir halda.

35. Mülki hüquqların həyata keçirilməsinin siyasi hüquqlardan asılılığı mövcuddurmu?

Mülki hüquqların həyata keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası və ya qanunları ilə müəyyənləşdirilmiş siyasi hüquqlardan asılı deyildir (maddə 12).

36. Mülki hüquq münasibətlərinin subyektləri hansı hərəkətləri icra edə bilərlər?

Həm qanunla birbaşa qadağan olunmamış hərəkətləri, həm də qanunda bilavasitə nəzərdə tutulmamış hərəkətləri

37. Sahibkarlıq fəaliyyəti hansı fəaliyyətə deyilir?

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir (maddə 13).

2-ci FƏSİL
Mülki hüquq və vəzifələr, onların müdafiəsinə dair suallar və cavablar

38. Mülki hüquqlar və vəzifələr hansı əsas və hərəkətlərdən əmələ gəlir?

Mülki qanunvericilikdə nəzərdə tutulan əsaslardan, habelə fiziki və hüquqi şəxslərin qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin prinsiplərinə görə mülki hüquqlar və vəzifələr doğuran hərəkətlərindən (maddə 14)

39. Mülki hüquqların və vəzifələrin əmələ gəlməsinin əsasları hansılardır?

- Qanunvericilikdə nəzərdə tutulmuş müqavilələr (əmək müqavilələri istisna olmaqla) və başqa əqdlər, habelə qanunvericilikdə nəzərdə tutulmasa da, ona zidd olmayan müqavilələr və başqa əqdlər;
- dövlət orqanlarının və yerli özünüidarə orqanlarının qanunvericilikdə mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsası kimi nəzərdə tutulmuş aktları;
- mülki hüquqlar və vəzifələri müəyyənləşdirən məhkəmə aktları;
- qanunvericiliyin yol verdiyi əsaslar üzrə əmlak əldə edilməsi;
- elm, ədəbiyyat, incəsənət əsərlərinin, ixtiraların və əqli fəaliyyətin digər nəticələrinin yaradılması;
- başqa şəxsə zərər vurulması;
- əsassız varlanma;
- fiziki və hüquqi şəxslərin digər hərəkətləri;
- qanunvericiliyin mülki hüquq nəticələrinin baş verməsi ilə bağladığı hadisə.

40. Əmlak hüquqları hansı andan əmələ gəlir?

Əgər qanunla əmlak hüquqlarının yaranması üçün ayrı qayda nəzərdə tutulmayıbsa, dövlət qeydiyyatına alınmalı əmlak hüquqları onların qeydə alındığı andan

41. Fiziki və hüquqi şəxslərin özlərinə mənsub mülki hüquqlardan istifadə etməməsi bu hüquqlara xitam verilməsinə səbəb olurmu?

Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, bu, hüquqlara xitam verilməsinə səbəb olmur (maddə 15).

42. Fiziki və hüquqi şəxslərin öz hüquqlarını həyata keçirməsi ilə bağlı hansı hərəkətləri etməsinə yol verilmir?

Yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formalarda sui-istifadə edilməsinə (maddə 16).

43. Kimlər mülki hüquqlara hörmət bəsləməyə və onların müdafiəsinə kömək göstərməyə borcludurlar?

Bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, fiziki və hüquqi şəxslər (maddə 17)

44. Mülki hüquqların müdafiəsi hansı üsullarla həyata keçirilir?

Qanunvericilikdə nəzərdə tutulmuş qaydada və qanuna, ictimai qaydaya və əxlaqa zidd olmayan üsullarla (maddə 18)

45. Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının hansı aktı məhkəmə tərəfindən etibarsız sayıla bilər?

Mülki qanunvericiliyə uyğun gəlməyən, fiziki və ya hüquqi şəxsin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli akt (maddə 19)

46. Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini hansı şərtlə tələb edə bilər?

Bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın (maddə 21).

47. Zərər dedikdə, nə başa düşülür?

Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

48. Zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbin həcminin müəyyənləşdirilməsi zamanı hansı hal nəzərə alınmalıdır?

Zərərçəkənin, onun işçisinin və qanunvericiliklə nəzərdə tutulmuş hallarda üçüncü şəxslərin davranışının zərərin yaranmasına və artmasına hansı həcmdə şərait yaratması

49. Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını hansı şərtlə tələb edə bilər?

Bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin (maddə 23).

50. Yuxarıda göstərilən qayda, həmçinin, hansı halda tətbiq edilir?

Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.

51. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar kütləvi informasiya vasitələrində yayılmışdırsa, bu məlumatlar hansı qaydada təkzib edilməlidir?

Həmin kütləvi informasiya vasitələrində də təkzib edilməlidir.

52. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, bu məlumatlar hansı qaydada təkzib edilməlidir?

Həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir.

53. Digər hallarda təkzib qaydası hansı qaydada müəyyənləşdirilir?

Məhkəmə tərəfindən müəyyənləşdirilir.

54. Kütləvi informasiya vasitələrində hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş fiziki şəxsin hansı hüququ vardır?

Həmin kütləvi informasiya vasitələrində öz cavabının dərc edilməsi hüququ

55. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, həmçinin, hansı hüququ vardır?

Onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ

56. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyilsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin hansı ixtiyarı vardır?

İxtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin.

57. Bu maddənin (maddə 23) fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları daha hansı münasibətlərə tətbiq edilir?

Müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də

3-cü FƏSİL
Fiziki şəxslər: anlayışı, fəaliyyət qabiliyyəti və s. ətrafında suallar və cavablar

58. Fiziki şəxs kimə deyilir?

Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir (maddə 24).

59. Azərbaycan Respublikasında kimlər fiziki şəxslərdir?

Bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər

60. Fiziki şəxsin mülki hüquq qabiliyyəti özündə nəyi ehtiva edir?

Fiziki şəxsin mülki hüquq qabiliyyəti insanın mülki hüquqlara malik olmaq və mülki hüquq vəzifələri daşımaq qabiliyyətidir (maddə 25).

61. Fiziki şəxsin hüquq qabiliyyəti nə zaman yaranır və xitam olunur?

Onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır.

62. Vərəsə olmaq hüququ nə vaxtdan etibarən əmələ gəlir?

Maya bağlandığı andan əmələ gəlir, bu hüququn həyata keçirilməsi isə yalnız doğumdan sonra mümkündür.

63. Fiziki şəxs hüquq qabiliyyətindən məhrum edilə bilərmi?

Xeyr.

64. Fiziki şəxs təxəllüsdən (uydurma addan) istifadə edə bilərmi?

Qanunla nəzərdə tutulmuş hallarda və qaydada

65. Fiziki şəxsin adını dəyişdirməsi hansı nəticələrə səbəb olur?

Bu, onun əvvəlki adı ilə əldə etdiyi hüquq və vəzifələrə xitam vermir və ya bunları dəyişdirmir. Fiziki şəxs adını dəyişdirməsi barədə öz borclularına və kreditorlarına məlumat verməlidir və adının dəyişməsi barədə həmin şəxslərdə məlumatın olmamasının doğurduğu nəticələrin riskini daşıyır.

66. Adını dəyişdirmiş fiziki şəxsin nəyə ixtiyarı var?

İxtiyarı var ki, əvvəlki adına rəsmiləşdirilmiş sənədlərdə öz hesabına müvafiq dəyişikliklər aparılmasını tələb etsin.

67. Fiziki şəxsin doğularkən aldığı ad, habelə adını dəyişdirməsi hansı qaydada qeydə alınmalıdır?

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üçün müəyyənləşdirilmiş qaydada

68. Başqa şəxsin adı ilə hüquq və vəzifələr əldə edilməsinə yol verilirmi?

Xeyr.

69. Fiziki şəxsin adından qanunsuz istifadə nəticəsində ona vurulmuş ziyanın əvəzi hansı qaydada ödənilməlidir?

Mülki Məcəlləyə müvafiq surətdə

70. Fiziki şəxsin adı onun şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunan üsullarla və ya formada təhrif edildikdə və ya istifadə olunduqda hansı qaydalar tətbiq edilir?

MM-in 23-cü maddəsində nəzərdə tutulan aşağıdakı qaydalar tətbiq edilir:

1. Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Bu qayda faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.

2. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar mediada yayılmışdırsa, həmin mediada da təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir.

3. Mediada hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş (yayımlanmış) fiziki şəxsin həmin mediada öz cavabının dərc edilməsi (yayımlanması) hüququ vardır.

4. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

5. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin.

71. Hansı yer fiziki şəxsin yaşayış yeri sayılır?

Fiziki şəxsin adətən yaşadığı yer (maddə 27)

72. Şəxsin bir neçə yaşayış yeri ola bilərmi?

Bəli.

73. On dörd yaşına çatmamış şəxslərin yaşayış yeri hara sayılır?

Valideynlik hüquqlarını itirməmiş valideynlərinin yaşayış yeri

74. Qəyyumluq altında olan şəxsin yaşayış yeri hara sayılır?

Qəyyumun yaşayış yeri

75. Əgər şəxs hər hansı səbəbdən öz yaşayış yerini müəyyən müddətə tərk edirsə, o, yaşayış yerini itirirmi?

Xeyr.

76. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti özündə nəyi ifadə edir?

Şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətini (maddə 28).

77. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti nə zaman tam həcmdə əmələ gəlir?

Yetkinlik yaşına, yəni on səkkiz yaşına çatdıqda

78. Kimlərin fəaliyyət qabiliyyəti yoxdur?

7 yaşınadək olan yetkinlik yaşına çatmayanların (azyaşlılar)

79. Kimlərin məhdud fəaliyyət qabiliyyəti vardır?

7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların

80. Hansı hallarda yetkinlik yaşına çatmamış şəxs tam fəaliyyət qabiliyyətli sayıla bilir?

On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, o, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Hər iki valideynin, övladlığa götürənlərin və ya himayəçinin razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılır (emansipasiya).

81. Valideynlər, övladlığa götürənlər və himayəçi tam fəaliyyət qabiliyyətli sayılmış yetkinlik yaşına çatmayanın öhdəlikləri üçün, o cümlədən onun ziyan vurması nəticəsində əmələ gəlmiş öhdəliklər üçün məsuliyyət daşıyırmı?

Xeyr.

82. On səkkiz yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi halda, on səkkiz yaşına çatmamış fiziki şəxsin fəaliyyət qabiliyyətində hansı dəyişiklik baş verir?

O, nikaha girdiyi vaxtdan tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir. Nikah bağlanması nəticəsində əldə edilmiş fəaliyyət qabiliyyəti nikahın on səkkiz yaşına çatanadək pozulduğu halda da tam həcmdə saxlanılır.

83. Hansı halda məhkəmə yetkinlik yaşına çatmayan ərin (arvadın) tam fəaliyyət qabiliyyətini məhkəmə tərəfindən müəyyənləşdirilən andan itirməsi barədə qərar qəbul edə bilər?

Nikah etibarsız sayıldıqda

84. Kimlər məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıla bilər?

Ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslər

85. Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin adından əqdləri kim bağlayır?

Onun qəyyumu

86. Fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin bağladığı əqd sonradan etibarlı hesab edilə bilərmi?

Qəyyumun razılığı ilə ola bilər.

87. Fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsi məhkəmə hansı halda fəaliyyət qabiliyyətli sayır?

Sağaldığı və ya sağlamlıq vəziyyətinin xeyli yaxşılaşdığı halda

88. Hansı əqdlər istisna olmaqla, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər?

MM-in 29.2-ci maddəsində göstərilmiş əqdlər, yəni xırda məişət əqdləri, əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmayan əqdlər və qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdlər (maddə 29)

89. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd hansı halda etibarlıdır?

Sonradan onun valideynləri, övladlığa götürənlər və qəyyumlar tərəfindən bəyənildikdə

90. 7 yaşından 14 yaşınadək olan şəxslərin hansı əqdləri müstəqil bağlamaq ixtiyarı vardır?

- Xırda məişət əqdlərini;
- əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmur;
- qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdlər

91. 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın əqdləri, o cümlədən müstəqil bağladığı əqdlər üzrə əmlak məsuliyyətini hansı şərtlə onun valideynləri, övladlığa götürənlər və ya qəyyum daşıyır?

Bu şərtlə ki, həmin şəxslər öhdəliyin onların təqsiri üzündən pozulmadığını sübuta yetirməsinlər. Qanuna uyğun olaraq bu şəxslər azyaşlıların vurduqları ziyan üçün də cavabdehdirlər.

92. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar hansı hallar istisna olmaqla əqdləri öz qanuni nümayəndələrinin – valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə bağlayırlar?

MM-in 30.2-ci maddəsində göstərilənlər istisna olmaqla, yəni 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı olmadan müstəqil surətdə öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam vermək, elm, ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllifi hüquqlarını həyata keçirmək, xırda məişət əqdləri və əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmayan əqdlər və qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya

sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdləri bağlamaq, 16 yaşı tamam olmuş yetkinlik yaşına çatmayanların kooperativ üzvü olmaq ixtiyarı var (maddə 30).

93. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd daha hansı halda etibarlıdır?

Sonradan valideynləri, övladlığa götürənlər və ya himayəçi tərəfindən bəyənildikdə də

94. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların öz valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı olmadan müstəqil surətdə hansı ixtiyarları var?

- Öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam vermək;
- elm, ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllif hüquqlarını həyata keçirmək;
- xırda məişət əqdləri və əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmayan əqdlər və qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdləri bağlamaq.

95. On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayanların kooperativ üzvü olmaq ixtiyarı varmı?

Bəli.

96. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar müstəqil surətdə və öz qanuni nümayəndələrinin – valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə (MM-in 30.1 və 30.2-ci maddələrinə uyğun) bağladıqları əqdlər üzrə hansı qaydada əmlak məsuliyyəti daşıyırlar?

Müstəqil surətdə, MM-ə uyğun qaydada

97. Hansı halda məhkəmə 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanın (əgər, o, tam həcmdə fəaliyyət qabiliyyəti əldə etməyibsə) öz qazancı, təqaüdü və ya digər gəlirləri barəsində müstəqil sərəncam vermək hüququnu məhdudlaşdıra və ya ala bilər?

Yetərli əsaslar olduqda valideynlərin, övladlığa götürənlərin və ya himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının vəsatəti ilə

98. Fiziki şəxsin hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti hansı hallarda məhdudlaşdırıla bilər?

Yalnız qanunla müəyyənləşdirilmiş hallarda və qaydada (maddə 31)

99. Fiziki şəxslərin fəaliyyət qabiliyyətinin və ya onların sahibkarlıq fəaliyyəti və ya başqa fəaliyyətlə məşğul olmaq hüququnun məhdudlaşdırılmasının qanunla müəyyənləşdirilmiş şərtlərinin və qaydasının gözlənilməməsi nəyə səbəb olur?

Müvafiq məhdudiyyət qoymuş dövlət orqanının və ya digər orqanın aktının etibarsızlığına

100. Fiziki şəxsin hüquq qabiliyyətindən və ya fəaliyyət qabiliyyətindən tamamilə və ya qismən imtina etməsi və hüquq qabiliyyətinin və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına yönəldilmiş əqdlər hansı statusa malikdir?

Əhəmiyyətsiz əqdlər hesab olunurlar.

101. Spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyətliliyi barəsində hansı tədbir görülə bilər?

Fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla bilər (maddə 32).

102. Belə şəxsin üzərində hansı qaydada nəzarət tətbiq edilir?

Ona himayəçilik təyin edilir. Onun xırda məişət əqdləri bağlamaq ixtiyarı vardır. O, yalnız himayəçisinin razılığı ilə başqa əqdlər bağlaya bilər, habelə qazanc, pensiya və digər gəlirlər götürə bilər və bunlar barəsində sərəncam verə bilər.

103. Bu cür fiziki şəxs bağladığı əqdlər üzrə və vurduğu ziyan üçün hansı qaydada əmlak məsuliyyəti daşıyır?

Müstəqil surətdə

104. Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin himayəçinin razılığı tələb olunan hallarda belə razılıq olmadan bağladığı əqd hansı halda etibarlı hesab edilə bilər?

Sonradan himayəçinin yazılı razılığı ilə

105. Hansı halda məhkəmə şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasını ləğv edir və fiziki şəxsin üzərində təyin edilmiş himayəçilik məhkəmənin qərarına əsasən ləğv olunur?

Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan əsaslar aradan qalxdıqda

106. Qəyyumluq və himayəçilik hansı məqsədlər üçün təyin edilir?

Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün təyin edilir. Yetkinlik yaşına çatmayanlar üzərində qəyyumluq və himayəçilik, həmçinin onların tərbiyələndirilməsi məqsədilə təyin edilir (maddə 33).

107. Qəyyumların və himayəçilərin buna uyğun hüquq və vəzifələri hansı qanunla müəyyənləşdirilir?

Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə

108. Qəyyumlar və himayəçilər qəyyumluğunda olanların hüquq və vəzifələrini hansı qaydada müdafiə edirlər?

İstənilən şəxslərlə münasibətlərdə, o cümlədən məhkəmədə xüsusi səlahiyyət almadan

109. Yetkinlik yaşına çatmayanların üzərində qəyyumluq və himayəçilik hansı hallarda təyin edilir?

Valideynləri, onları övladlığa götürənlər olmadıqda, valideynləri məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edildikdə, habelə bu cür fiziki şəxslər başqa

səbəblərə görə valideyn himayəsindən məhrum olduqda, o cümlədən valideynləri onları tərbiyələndirməkdən və ya hüquq və mənafelərini müdafiə etməkdən boyun qaçırdıqda

110. Kimlər üzərində qəyyumluq təyin edilir?

On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar, habelə psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər

111. Qəyyumlar hansı statusa malikdirlər?

Qəyyumluqda olanların qanun üzrə nümayəndələri olur və onların adından və onların mənafeləri üçün bütün zəruri əqdləri bağlayırlar.

112. Kimlər üzərində himayəçilik təyin edilir?

On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər

113. Himayəçilər himayəçilikdə olan fiziki şəxslər barəsində hansı hərəkətləri edirlər?

Onların müstəqil surətdə bağlamağa ixtiyarı çatmadığı əqdlərin bağlanmasına razılıq verirlər. Himayəçilər himayədə olanlara öz hüquqlarını həyata keçirməkdə və vəzifələrini icra etməkdə kömək göstərir, habelə onları üçüncü şəxslərin sui-istifadəsindən qoruyurlar.

114. Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılması və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması barədə qərarın qanuni qüvvəyə mindiyi gündən etibarən hansı müddət ərzində məhkəmə həmin fiziki şəxs üzərində qəyyumluq və himayəçilik təyin edilməsi üçün onun yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanına bu barədə məlumat verməlidir?

Üç gün ərzində (maddə 34)

115. Hansı orqan onların qəyyumlarının və himayəçilərinin fəaliyyətinə nəzarət edir?

Qəyyumluqda olanların yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı

116. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini hansı müddət ərzində təyin edir?

Fiziki şəxs üzərində qəyyumluq və ya himayəçilik qoyulması zərurətinin ona məlum olduğu andan üç ay ərzində (maddə 35)

117. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsə qəyyum və ya himayəçi təyin edilənədək qəyyum və ya himayəçi vəzifələrini kim icra edir?

Qəyyumluq və himayəçilik orqanı

118. Qəyyumun və ya himayəçinin təyin edilməsi barədə kimlər məhkəməyə etiraz verə bilərlər?

Maraqlı şəxslər

119. Qəyyumlar və himayəçilər kimlərdən təyin edilir?
Yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərdən

120. Kimlər qəyyum və himayəçi təyin oluna bilməzlər?
Valideynlik hüquqlarından məhrum edilmiş fiziki şəxslər

121. Qəyyum və himayəçinin təyini zamanı hansı hallar nəzərə alınmalıdır?
Onun əxlaqi və digər şəxsi keyfiyyətləri, qəyyumluq və ya himayəçilik vəzifələrini yerinə yetirmək qabiliyyəti, onunla qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxs arasında mövcud münasibətlər, mümkünsə, həm də qəyyumluqda və ya himayədə olanın arzusu

122. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan və müvafiq sosial xidmət müəssisələrində olan və ya bu müəssisələrə yerləşdirilmiş fiziki şəxslərin qəyyumları və himayəçiləri kimlərdir?
Həmin müəssisələrdir.

123. Qəyyumluq və himayəçilik vəzifələri hansı qaydada icra edilir?
Qanunla nəzərdə tutulan hallardan başqa, əvəzsiz

124. Himayəçi ilə on altı yaşına çatmış himayədə olanın ayrılıqda yaşamasına qəyyumluq və himayəçilik orqanının razılığı ilə hansı şərtlə yol verilir?
Bu şərtlə yol verilir ki, ayrı yaşama himayədə olanın tərbiyəsinə, hüquq və mənafelərinin müdafiəsinə mənfi təsir göstərməsin.

125. Qəyyumlar və himayəçilər yaşayış yerinin dəyişməsi barədə hansı orqana məlumat verməyə borcludurlar?
Qəyyumluq və himayəçilik orqanlarına

126. Qəyyumlar və himayəçilər hansı hərəkətləri etməyə borcludurlar?
Öz qəyyumluğunda və ya himayəsində olan uşaqların, o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.12-ci və 118.13-cü maddələrinə uyğun olaraq övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddəti ilə yerləşdirilən uşaqların saxlanması, onlara baxılmasının və onların müalicəsinin təmin edilməsi, onların təhsil alması və tərbiyələnməsi qayğısına qalmağa, onların hüquq və mənafelərini qorumağa

127. MM-in 35.7-ci maddəsində göstərilən vəzifələr, yəni qəyyumların və himayəçilərin öz qəyyumluğunda və ya himayəsində olan uşaqların, o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.12-ci və 118.13-cü maddələrinə uyğun olaraq övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddəti ilə yerləşdirilən uşaqların saxlanmasını, onlara baxılmasını və onların müalicəsini təmin etmək, onların təhsil alması və tərbiyələnməsi qayğısına qalmaq, onların hüquq və mənafelərini qorumaq vəzifələri kimlərə həvalə edilmir?
Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış yetkinlik yaşına çatmış fiziki şəxslərin himayəçilərinə

128. Hansı halda qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın fəaliyyət qabiliyyətli sayılması və onun üzərindən qəyyumluğun və ya himayəçiliyin götürülməsi barədə məhkəmə qarşısında vəsatət qaldırmağa borcludur?

Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli sayılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda

129. Qəyyumluqda və ya himayədə olan fiziki şəxsin gəlirləri qəyyum və ya himayəçi tərəfindən hansı qaydada xərclənir?

Müstəqil surətdə sərəncam verməyə ixtiyarı çatdığı gəlirlər istisna olmaqla, onun gəlirləri, o cümlədən qəyyumluqda və ya himayədə olana onun əmlakının idarə edilməsindən çatası gəlirlər qəyyum və ya himayəçi tərəfindən yalnız və yalnız qəyyumluqda və ya himayədə olanın mənafeləri üçün, həm də qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi alınmaqla (maddə 36).

130. Qəyyum və ya himayəçi qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi olmadan hansı xərcləri qəyyumluqda və ya himayədə olana onun gəliri kimi çatası məbləğlər hesabına ödəyə bilər?

Qəyyumluqda və ya himayədə olanın saxlanması üçün zəruri xərcləri

131. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan qəyyum hansı əqdləri bağlaya bilməz?

Qəyyumluqda və ya himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair əqdləri, qəyyumluqda və ya himayədə olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdləri, habelə qəyyumluqda və ya himayədə olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdləri

132. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan himayəçi hansı əqdlərin bağlanmasına razılıq verə bilməz?

Qəyyumluqda və ya himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair əqdlərin, qəyyumluqda və ya himayədə olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdlərin, habelə qəyyumluqda və ya himayədə olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdlərin

133. Hansı hallar istisna olmaqla qəyyumun, himayəçinin, onların ərinin (arvadının) və yaxın qohumlarının ixtiyarı yoxdur ki, qəyyumluqda və ya himayədə olanla əqdlər bağlasın, habelə əqdlər bağlanarkən və ya qəyyumluqda və ya himayədə olanla qəyyumun və ya himayəçinin əri (arvadı) və onların yaxın qohumları arasında məhkəmə işləri aparılarkən qəyyumluqda və ya himayədə olanı təmsil etsinlər?

Qəyyumluqda və ya himayədə olana hədiyyə kimi əmlak verilməsi və ya onun əvəzsiz istifadəsinə əmlak verilməsi

134. Qəyyumluqda və ya himayədə olanın daşınar və qiymətli daşınmaz əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda hansı qaydalar tətbiq edilir?

Bu halda qəyyumluq və himayəçilik orqanı özünün müəyyənləşdirdiyi idarəçi ilə həmin əmlakın etibarnamə ilə idarə edilməsinə dair müqavilə bağlayır. Bu halda qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın etibarnamə ilə idarəetməyə verilməmiş əmlakı barəsində öz səlahiyyətlərini saxlayır (maddə 37).

135. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsi səlahiyyətlərini həyata keçirərkən idarəçiyə münasibətdə hansı qaydalar tətbiq edilir?

MM-in 36.2 və 36.3-cü maddələrində nəzərdə tutulan qaydalar tətbiq edilir, yəni:

1. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan qəyyum qəyyumluqda və ya himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair əqdləri, qəyyumluqda və ya himayədə olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdləri, habelə qəyyumluqda və ya himayədə olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdləri bağlaya bilməz, himayəçi isə onların bağlanmasına razılıq verə bilməz. Qəyyumluqda olanın əmlakının idarə edilməsi qaydası qanunvericiliklə müəyyənləşdirilir.

2. Qəyyumun, himayəçinin, onların ərinin (arvadının) və yaxın qohumlarının ixtiyarı yoxdur ki, qəyyumluqda və ya himayədə olana hədiyyə kimi əmlak verilməsi və ya onun əvəzsiz istifadəsinə əmlak verilməsi istisna olmaqla, qəyyumluqda və ya himayədə olanla əqdlər bağlasın, habelə əqdlər bağlanarkən və ya qəyyumluqda və ya himayədə olanla qəyyumun və ya himayəçinin əri (arvadı) və onların yaxın qohumları arasında məhkəmə işləri aparılarkən qəyyumluqda və ya himayədə olanı təmsil etsinlər.

136. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsinə hansı hallarda xitam verilir?

Əmlakın etibarnamə ilə idarə edilməsinə dair müqaviləyə xitam verilməsi üçün qanunvericilikdə nəzərdə tutulan əsaslar üzrə, habelə qəyyumluğa və ya himayəçiliyə xitam verildiyi hallarda

137. Hansı hallarda qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini öz vəzifələrinin icrasından azad edir?

Yetkinlik yaşına çatmayan şəxs valideynlərinə qaytarıldıqda və ya övladlığa götürüldükdə (maddə 38)

138. Hansı halda qəyyumluq və himayəçilik orqanı əvvəl təyin edilmiş qəyyumu və ya himayəçini, əgər bu, qəyyumluqda olanın mənafelərinə zidd deyilsə, öz vəzifələrinin icrasından azad edir?

Qəyyumluqda olan müvafiq sosial xidmət müəssisələrinə və ya digər oxşar müəssisəyə yerləşdirildikdə

139. Xəstəlik, əmlak vəziyyətinin dəyişməsi, qəyyumluqda olanla qarşılıqlı anlaşmanın yoxluğu kimi hallar olduqda qəyyum və ya himayəçi öz xahişi ilə vəzifələrinin icrasından azad edilə bilərmi?

Bəli, üzrlü səbəblər olduqda (xəstəlik, əmlak vəziyyətinin dəyişməsi, qəyyumluqda olanla qarşılıqlı anlaşmanın yoxluğu və i.a.)

140. Hansı hallarda qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini bu vəzifələrin icrasından kənarlaşdıra və təqsirli fiziki şəxsin qanunla müəyyənləşdirilmiş məsuliyyətə cəlb olunması üçün zəruri tədbirlər görə bilər?

Qəyyum və ya himayəçi onun üzərinə düşən vəzifələri gərəyincə yerinə yetirmədikdə, o cümlədən qəyyumluqdan və ya himayəçilikdən tamah məqsədilə istifadə etdikdə və ya qəyyumluqda olanı nəzarətsiz və lazımi köməksiz qoyduqda

141. Hansı halda yetkinlik yaşına çatmış fiziki şəxs üzərində qəyyumluğa və himayəçiliyə xitam verilir?

Qəyyumun, himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının ərizəsinə əsasən, məhkəmə qəyyumluqda olanın fəaliyyət qabiliyyətli sayılması və ya onun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi haqqında qərar çıxardıqda

142. Qəyyumluqda olan azyaşlı on dörd yaşına çatdıqda qəyyumun statusu barədə hansı dəyişiklik baş verir?

Onun üzərində qəyyumluğa xitam verilir, qəyyum vəzifələrini həyata keçirmiş fiziki şəxs isə bu barədə əlavə qərar çıxarılmadan yetkinlik yaşına çatmayanın himayəçisinə çevrilir.

143. Hansı hallarda yetkinlik yaşına çatmayan üzərində himayəçiliyə xüsusi qərarsız xitam verilir?

Qəyyumluqda olan yetkinlik yaşına çatmayanın on səkkiz yaşına çatdığı, habelə nikaha girdiyi və yetkinlik yaşına çatanadək tam fəaliyyət qabiliyyəti əldə etdiyi digər hallarda

144. Hansı halda şəxsin üzərində patronaj təyin edilə bilər?

Sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin xahişi ilə patronaj təyin edilə bilər, patronaj təyin edilməsi fiziki şəxsin hüquqlarının məhdudlaşdırılmasına səbəb olmur (maddə 39).

145. Yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin patronu (köməkçisi) kim tərəfindən təyin edilir?

Həmin fiziki şəxsin razılığı ilə qəyyumluq və himayəçilik orqanı tərəfindən

146. Patron (köməkçi) yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsə mənsub əmlak barəsində hansı qaydada sərəncam verir?

Fiziki şəxslə bağlanmış tapşırıq və ya etibarnamə ilə idarəetmə müqaviləsinə əsasən

147. Məişət tələbatının saxlanmasına və ödənilməsinə yönəldilən məişət əqdlərini və başqa əqdləri patron (köməkçi) hansı qaydada bağlayır?

Fiziki şəxsin razılığı ilə

148. Hansı halda patronaja xitam verilir?

MM-in 39.1-ci maddəsinə uyğun olaraq, yəni sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxs üzərində onun xahişi ilə təyin edilmiş patronaja patronajda olan fiziki şəxsin tələbi ilə

149. Patronajda olan fiziki şəxsin patronu (köməkçisi) hansı hallarda öz vəzifələrini yerinə yetirməkdən azad edilir?

MM-in 38-ci maddəsində nəzərdə tutulan, yəni Qəyyum və ya himayəçi onun üzərinə düşən vəzifələri gərəyincə yerinə yetirmədikdə, o cümlədən qəyyumluqdan və ya himayəçilikdən tamah məqsədi ilə istifadə etdikdə və ya qəyyumluqda olanı nə-

zarətsiz və lazımi köməksiz qoyduqda qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini bu vəzifələrin icrasından kənar edə bilər və təqsirli fiziki şəxsin qanunla müəyyənləşdirilmiş məsuliyyətə cəlb olunması üçün zəruri tədbirlər görə bilər.

150. Hansı halda maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə fiziki şəxsi xəbərsiz itkin düşmüş hesab edə bilər?

Əgər fiziki şəxsin olduğu yer məlum deyilsə və o, 2 il ərzində yaşayış yerində görünməmişsə (maddə 40)

151. İtkin düşmə haqqında son məlumatların alındığı günü müəyyənləşdirmək mümkün olmadıqda, xəbərsiz itkin düşmüş sayılma üçün müddətin hesablanması nə vaxtdan başlanır?

İtkin düşmüş haqqında son məlumatların alındığı aydan sonrakı ayın birinci günündən, həmin ayı müəyyənləşdirmək mümkün olmadıqda isə növbəti ilin yanvar ayının 1-dən

152. Xəbərsiz itkin düşmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra həmin şəxsin qanuni vərəsələri hansı ixtiyarı əldə edirlər?

Xəbərsiz itkin düşmüşün əmlakını etibar olunmuş əmlak kimi idarə etmək, o cümlədən ondan fayda götürmək

153. Xəbərsiz itkin düşmüş fiziki şəxsin qanuni əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda, əgər onun qanuni vərəsələri yoxdursa, məhkəmənin qərarı ilə bu əmlak kimə verilir?

Qəyyumluq və himayəçilik orqanı tərəfindən müəyyənləşdirilən və həmin orqanla bağlanan etibarnamə ilə idarəetmə müqaviləsi əsasında fəaliyyət göstərən şəxsə

154. Xəbərsiz itkin düşmüş şəxsin əmlakının idarəçisi itkin düşmüş şəxsin əmlakı barəsində hansı hərəkətləri edir?

Əmlakı hesabına onun borclarını ödəyir, əmlakı həmin şəxsin xeyrinə idarə edir, xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verir.

155. Əgər idarəçinin təyin edildiyi gündən üç il keçənədək şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında məhkəmə qərarı ləğv edilməzsə və şəxsin ölmüş sayılması haqqında məhkəməyə müraciət edilməzsə, qəyyumluq və himayəçilik orqanı hansı hərəkəti etməyə borcludur?

Fiziki şəxsin ölmüş sayılması haqqında ərizə ilə məhkəməyə müraciət etməlidir.

156. Hansı halda məhkəmə onun xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında qərarı, habelə onun əmlakının idarə olunması haqqında qərarı ləğv edir?

Xəbərsiz itkin düşmüş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə

157. Hansı hallarda şəxs məhkəmə qaydasında ölmüş elan edilə bilər?

Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa (maddə 41)

158. Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs nə zaman məhkəmə qaydasında ölmüş elan edilə bilər?

Hərbi əməliyyatların qurtardığı gündən azı iki il keçdikdən sonra

159. Hansı gün şəxsin ölüm günü sayılır?

Şəxsin ölmüş elan edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün

160. Hansı hallarda məhkəmə şəxsin həlakının güman edildiyi günü onun ölüm günü saya bilər?

MM-in 41.1 və 41.2-ci maddələrində nəzərdə tutulan hallarda, yəni:

1. Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa;

2. Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs hərbi əməliyyatların qurtardığı gündən azı iki il keçdikdən sonra o, məhkəmə qaydasında ölmüş elan edilə bilər;

3. Məhkəmə şəxsin hərbi əməliyyatlarda həlak olduğunu güman etməyə əsas verən halları nəzərə alaraq, onu bu müddət bitməzdən əvvəl, lakin hərbi əməliyyatların qurtardığı gündən altı aydan tez olmayaraq ölmüş elan edə bilər.

161. Hansı hallarda məhkəmə şəxsin ölmüş elan edilməsi barədə qərarı ləğv edir?

Ölmüş elan edilmiş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə (maddə 42)

162. Şəxs onun ölmüş elan edilməsindən sonra əvəzsiz olaraq başqa şəxsə verilmiş əmlakın qalan hissəsinin qaytarılmasını nə zaman tələb edə bilməz?

Nə vaxt gəlməsindən asılı olmayaraq tələb edə bilər.

163. Ölmüş elan edilmiş şəxsin əmlakını əvəzli əldə etmiş şəxs bu əmlakı ona qaytarmağa hansı halda borcludur?

O halda borcludur ki, əmlakı əldə edərkən onun ölmüş elan edilmiş şəxsin sağ olduğunu bildiyi sübuta yetirilsin.

164. Əgər ölmüş elan edilmiş şəxsin əmlakı dövlətin mədaxilinə keçirilmiş və satılmışdırsa, həmin şəxsin ölmüş elan edilməsi haqqında qərarın ləğvindən sonra əmlakın satışından götürülmüş məbləğ ona qaytarılırmı?

Bəli.

4-cü FƏSİL
Hüquqi şəxslər: anlayışı, növləri, hüquq qabiliyyəti və s. üzrə suallar və cavablar

§1. Əsas müddəalar

165. Hüquqi şəxs nədir?

Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir (maddə 43).

166. Hüquqi şəxsin nəyi olmalıdır?

Müstəqil balansı

167. Hüquqi şəxslər hansı qaydada yaradıla və fəaliyyət göstərə bilərlər?

Onlar bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər.

168. Azərbaycan Respublikası mülki hüquq münasibətlərində hansı formada iştirak edir?

Eynilə digər hüquqi şəxslər kimi iştirak edir, bu hallarda Azərbaycan Respublikasının səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

169. Bələdiyyələr mülki hüquq münasibətlərində hansı formada iştirak edir?

Eynilə digər hüquqi şəxslər kimi iştirak edirlər, bu hallarda bələdiyyənin səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

170. Hüquqi şəxslər hansı qurumlar ola bilər?

Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri), habelə ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan (publik hüquqi şəxslər) qurumlar ola bilər.

171. Qeyri-kommersiya qurumları olan hüquqi şəxslər hansı formalarda yaradıla bilər?

İctimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda

172. Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə hansı hallarda məşğul ola bilər?

Yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin.

173. Publik hüquqi şəxslərin fəaliyyəti hansı aktlarla tənzimlənir?

MM və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

174. Hüquqi şəxs hansı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır?

Dövlət qeydiyyatına alındığı andan (maddə 44)

175. Hüquqi şəxsin hüquq qabiliyyətinə nə zaman xitam verilir?

Onun ləğvinin başa çatdığı an

176. Kommersiya hüquqi şəxsləri hansı fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər?

Qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini

177. Hüquqi şəxslər siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hansı qaydada məşğul ola bilərlər?

Yalnız xüsusi icazə (lisenziya) əsasında

178. Hüquqi şəxsin hüquqları hansı hallarda və qaydada məhdudlaşdırıla bilər?

Yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada

179. Hüquqi şəxsin xüsusi icazə (lisenziya) alınması zəruri olan fəaliyyəti həyata keçirmək hüququ nə zaman yaranır və xitam olunur?

Bu hüquq belə lisenziyanın alındığı andan və ya lisenziyada göstərilən vaxtda əmələ gəlir və əgər qanunvericiliklə ayrı qayda müəyyənləşdirilməyibsə, lisenziyanın müddəti qurtardıqda xitam olunur.

180. Hüquqi şəxs hansı qaydada yaradılır?

Onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə (maddə 45)

181. Əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılırsa, təsisçilər müqavilə bağlayaraq hansı məsələləri müəyyənləşdirirlər?

Hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini

182. Hüquqi şəxsin təsisçiləri hansı öhdəliklər üzrə birgə məsuliyyət daşıyırlar?

Hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklər üzrə (maddə 46)

183. Hansı sənəd hüquqi şəxsin təsis sənədi hesab olunur?

Hüquqi şəxsin təsisçiləri tərəfindən təsdiq edilmiş nizamnaməsi (maddə 47)

184. Hansı hallar istisna olmaqla bir təsisçinin yaratdığı hüquqi şəxs həmin təsisçinin təsdiq etdiyi nizamnamə əsasında fəaliyyət göstərir?

"Banklar haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar

185. Hüquqi şəxsin nizamnaməsində hansı məsələlər müəyyənləşdirilir?

Hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydası

186. Qeyri-kommersiya hüquqi şəxsin nizamnaməsində nələrin müəyyənləşdirilməsinə yol verilmir?

Nizamnamədə onun fəaliyyətinin predmeti və məqsədləri müəyyənləşdirilir. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.

187. Nizamnamədə dəyişikliklər nə vaxtdan üçüncü şəxslər üçün hüquqi qüvvəyə minir?

Dövlət qeydiyyatına alındığı andan

188. Hüquqi şəxslər və onların təsisçiləri (iştirakçıları) nizamnamədəki dəyişiklikləri nəzərə almaqla hərəkət etmiş üçüncü şəxslərlə münasibətlərdə həmin dəyişikliklərin qeydə alınmadığına istinad edə bilərlərmi?

Xeyr.

189. Hüquqi şəxs harada və hansı qaydada dövlət qeydiyyatına alınmalıdır?

Müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmalıdır. Dövlət qeydiyyatının məlumatları, o cümlədən kommersiya təşkilatları üçün firma adı ümumi tanışlıq üçün açıq olan hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir (maddə 48).

190. Hüquqi şəxsin dövlət qeydiyyatına alınmasından imtina edilməsinə hansı hallarda yol verilir?

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda

191. Hüquqi şəxs hansı hallarda yenidən qeydə alınmalıdır?

Yalnız qanunla müəyyənləşdirilmiş hallarda

192. Hüquqi şəxsin orqanlarının seçilməsi və ya təyin edilməsi qaydası hansı qanunvericilik aktları ilə müəyyənləşdirilir?

Müvafiq olaraq, nizamnamə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının qanunları ilə (maddə 49)

193. Hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs təmsil etdiyi hüquqi şəxsin mənafeləri üçün vəzifələrini yerinə yetirərkən hansı hərəkətləri etməyə borcludur?

Vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etməyə, hüquqi şəxsin və onun bütün iştirakçılarının maraqlarına sadiq olmağa və hüquqi şəxsin maraqlarını öz maraqlarından üstün tutmağa, ehtiyatlı ol mağa, habelə qərarların qəbulu zamanı ədalətli və qərəzsiz olmağa

194. Həmin şəxs bu vəzifələrin hansı qaydada yerinə yetirilməsi üçün məsuliyyət daşıyır?

Hüquqi şəxsin maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün

195. Kimlərin tələbi ilə o, vəzifələrini pozduğu halda, pozuntu nəticəsində hüquqi şəxsə dəymiş zərərin əvəzini ödəməlidir?

Hüquqi şəxsin nizamnamə kapitalında ən azı 5 faiz paya (səhmə) malik olan iştirakçısının (iştirakçılarının)

196. Hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs hüquqi şəxsə və ya səhmdara (payçıya) dəyən zərərə görə hansı hallarda məsuliyyət daşıyır?

- Hüquqi şəxsin zərərlə işlədiyi halda və ya hüquqi şəxsin mənfəətinə qeyri-mütənasib həcmdə hüquqi şəxsin idarəetmə orqanlarının üzvlərinə bonusların ödənilməsi;
- hüquqi şəxsin əmlakının bazar şərtlərindən əhəmiyyətli dərəcədə aşağı şərtlərlə və qiymətlə özgəninkiləşdirilməsi və ya istifadəyə verilməsi;
- hüquqi şəxsə aidiyyəti olan şəxslərlə qanunun tələblərini pozan və ya hüquqi şəxsin maraqlarına təhlükə yaradan müqavilələrin bağlanması;
- hüquqi şəxsin bağlanmış müqavilələr əsasında malları (işləri, xidmətləri) onların real dəyərindən əhəmiyyətli dərəcədə yuxarı qiymətə satın alması;
- özü üçün, hüquqi şəxsə aidiyyəti olan şəxslər və ya digər şəxslər üçün maddi və qeyri-maddi əmlak nemətləri və bu cür əmlaka hüquqların təmin edilməsi məqsədilə hüquqi şəxsin əmlakının mənimsənilməsi və ya israf edilməsi;
- səhmdarlara (payçılara) münasibətdə ədalətsiz və ya onlara ziyan vuran əqdlərin bağlanması.

197. Hüquqi şəxsin adından çıxış edən, hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs barəsində hüquqi şəxsə vurulmuş zərərə görə hansı tədbir görülə bilər?

Hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə tutduğu vəzifədən kənarlaşdırıla bilər.

198. Hüquqi şəxsə vurulmuş zərərə görə hüquqi şəxsin adından çıxış edən şəxsin, hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxsin inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi onu hüquqi şəxsə dəymiş zərərin ödənilməsi vəzifəsindən azad edirmi?

Xeyr.

199. Hansı hallarda hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz paya (səhmə) malik olan iştirakçısı (iştirakçıları) hüquqi şəxs adından çıxış edən şəxsdən, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxsdən hüquqi şəxsdə olan və həmin hallarla bağlı bütün sənədlərə (konkret sənəd göstərilmədən) və ya məlumatlara baxış keçirmək məqsədilə həmin sənədləri (məlumatları) tələb edə bilər?

MM-in 49.4-cü maddəsində nəzərdə tutulan hallar, yəni hüquqi şəxsin zərərlə işlədiyi halda və ya hüquqi şəxsin mənfəətinə qeyri-mütənasib həcmdə hüquqi şəxsin idarəetmə orqanlarının üzvlərinə bonusların ödənilməsi, hüquqi şəxsin əmlakının bazar şərtlərindən əhəmiyyətli dərəcədə aşağı şərtlərlə və qiymətlə özgəninkiləşdirilməsi və ya istifadəyə

verilməsi, hüquqi şəxsə aidiyyəti olan şəxslərlə qanunun tələblərini pozan və ya hüquqi şəxsin maraqlarına təhlükə yaradan müqavilələrin bağlanması, hüquqi şəxsin bağlanmış müqavilələr əsasında malları (işləri, xidmətləri) onların real dəyərindən əhəmiyyətli dərəcədə yuxarı qiymətə satın alması, özü üçün, hüquqi şəxsə aidiyyəti olan şəxslər və ya digər şəxslər üçün maddi və qeyri-maddi əmlak nemətləri və bu cür əmlaka hüquqların təmin edilməsi məqsədilə hüquqi şəxsin əmlakının mənimsənilməsi və ya israf edilməsi, səhmdarlara (payçılara) münasibətdə ədalətsiz və ya onlara ziyan vuran əqdlərin bağlanması baş verdikdə və ya bu halların baş verməsinə dair əsaslı şübhələr olduqda

200. Bu halda müraciət olunan şəxs tərəfindən həmin iştirakçının tələbi hansı müddətdə təmin edilməlidir?

5 (beş) iş günü ərzində

201. İştirakçı baxış zamanı ona məlum olan və əldə etdiyi məlumatlar barəsində hansı qaydalara riayət etməlidir?

O, bu cür məlumatların konfidensiallığını qorumalı və qanunda nəzərdə tutulan hallar istisna olmaqla, üçüncü şəxslərə həmin məlumatları ötürməməlidir.

202. Hansı əqdlər aidiyyəti şəxslə əqd hesab edilir?

Hüquqi şəxsə aidiyyəti olan şəxslə həmin hüquqi şəxs arasında bağlanılan hər hansı əqd, razılaşma və yaxud əlaqəli əqdlər məcmusu

203. Hüquqi şəxsə aidiyyəti olan şəxslər kimlərdir?

- Hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvləri;
- hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri;
- hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin və hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları);
- hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs;
- hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslər;
- hüquqi şəxsin nizamnamə kapitalında ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxs;
- hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin olduğu və hüquqi şəxsin, nizamnamə kapitalında ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxslərdə ən azı 20 faiz paya (səhmlərə) malik olan hər hansı şəxs;
- hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin olduğu və hüquqi şəxsin, nizamnamə kapitalında ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxslərin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanlarının rəhbərləri;

- “Banklar haqqında” və “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş, müvafiq olaraq, banklara və investisiya fondlarına aidiyyəti olan digər şəxslər (maddə 49-1).

204. Hansı halda əqd hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır?

Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə

205. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə, həmin əqd kim tərəfindən qəbul olunur?

Hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, icra orqanı tərəfindən

206. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, icra orqanı tərəfindən qəbul olunur. Bu halda iştirakçıların ümumi yığıncağında, direktorlar şurasının (müşahidə şurasının) və kollegial icra orqanının iclaslarında kim səsvermədə iştirak edə bilməz?

Aidiyyəti şəxs olan iştirakçı (üzv)

207. Kimlər aidiyyəti şəxs qismində çıxış etdikdə onlarla hüquqi şəxs arasında əqd direktorlar şurasının (müşahidə şurasının), o olmadıqda isə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə bağlanılır?

Hüquqi şəxsin təkbaşına icra orqanının rəhbəri, habelə hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin və hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları) və hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslər.

208. Əqdin MM-in hansı müddəalarının pozulması ilə bağlanılması nəticəsində hüquqi şəxsə dəyən zərərə görə təqsiri olan şəxslər məsuliyyət daşıyır?

MM-in 49-1.2-ci və 49-1.3-cü maddələrinin tələblərinin pozulması ilə. Maddələrin məzmununa görə aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçı məsələ ilə əlaqədar olan səsvermədə iştirak edə bilməz. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini

təşkil etdikdə, həmin əqd hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, icra orqanı tərəfindən qəbul olunur. Bu halda iştirakçıların ümumi yığıncağında, direktorlar şurasının (müşahidə şurasının) və kollegial icra orqanının iclaslarında aidiyyəti şəxs olan iştirakçı (üzv) səsvermədə iştirak edə bilməz. Hüquqi şəxsin təkbaşına icra orqanının rəhbəri, habelə hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin və hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları) və hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslər aidiyyəti şəxs qismində çıxış etdikdə onlarla hüquqi şəxs arasında əqd direktorlar şurasının (müşahidə şurasının), o olmadıqda isə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə bağlanılır.

209. Əqdin digər tərəfi əqdin MM-in 49-1.2-ci(Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçı məsələ ilə əlaqədar olan səsvermədə iştirak edə bilməz.) və 49-1.3-cü maddələrinin (Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya banklara münasibətdə "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla, icra orqanı tərəfindən qəbul olunur. Bu halda iştirakçıların ümumi yığıncağında, direktorlar şurasının (müşahidə şurasının) və kollegial icra orqanının iclaslarında aidiyyəti şəxs olan iştirakçı (üzv) səsvermədə iştirak edə bilməz. Hüquqi şəxsin təkbaşına icra orqanının rəhbəri, habelə onun bu Məcəllənin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxsləri aidiyyəti şəxs qismində çıxış etdikdə onlarla hüquqi şəxs arasında əqd direktorlar şurasının (müşahidə şurasının), o olmadıqda isə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə bağlanılır.)tələbləri pozulmaqla bağlandığını bildikdə həmin əqd hansı qaydada mübahisələndirilə bilər?

Hüquqi şəxs və ya onun istənilən iştirakçısı MM-in 337.1-ci(Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər) və 339-cu maddələrinə (339.1. Hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış*, yaxud bu Məcəllənin 49.4-cü maddəsində müəyyən edilmiş hallara səbəb olan* əqd, habelə şəxsin ağır vəziyyətə düşməsi və digər tərəfin bundan istifadə etməsi nəticəsində həmin şəxsin özü üçün son dərəcə əlverişsiz şərtlərlə bağlamağa məcbur olduğu əqd (ağır şərtli əqd) zərərçəkən tərəfindən mübahisələndirilə bilər. Şəxs əqd bağlanması məqsədilə aldadıldıqda həmin əqdi mübahisələndirə bilər. Belə mübahisələndirmə əqdin aldatma olmadan bağlana bilməyəcəyinin aşkar olduğu hallarda həyata keçirilir. Əgər tərəflərdən biri, aşkar edilsəydi, digər tərəfin əqd bağlamayacağı hallar barəsində susmuşsa, aldadılmış tərəf əqdi mübahisələndirə bilər.

Barəsində susulan hallar barəsində məlumat vermək vəzifəsi yalnız o zaman ola bilər ki, digər tərəf vicdanla bunu gözləsin. Aldatma yolu ilə bağlanmış əqdin mübahisələndirilməsi üçün tərəfin yanlış məlumat verərkən fayda götürmək məqsədini, yaxud digər tərəfə zərər vurmaq məqsədini güdmüş olduğunun əhəmiyyəti yoxdur. Üçüncü şəxs tərəfindən aldadılma halında, əgər bu əqddən fayda götürən şəxs aldatmadan xəbərdar idisə və ya xəbərdar olmalı idisə, əqd mübahisələndirilə bilər. Əgər hər iki tərəf aldatma yolu ilə hərəkət etmişsə, onlardan heç birinin ixtiyarı yoxdur ki, aldadıldığına istinad edərək əqdi mübahisələndirsin və ya zərərin əvəzinin ödənilməsini tələb etsin. Əqdi bağlayan şəxsi əqdi bağlamağa məcburetmə (zorakılıq və ya hədələmə) ona hüquq verir ki, zorakılığın üçüncü şəxs tərəfindən törədildiyi halda da əqdi mübahisələndirsin. Xaraktercə şəxsə təsir göstərə bilən və ona şəxsən özünü və ya əmlakını real təhlükə gözlədiyini təlqin edə bilən məcburetmə əqdin etibarsızlığına səbəb olur. Məcburetmənin xarakteri qiymətləndirilərkən şəxsin yaşı və cinsi, həyat şəraiti nəzərə alınır. Məcburetmə tərəflərdən birinin arvadına (ərinə), digər ailə üzvlərinə və ya yaxın qohumlarına qarşı yönəldildikdə də əqdin mübahisələndirilməsinə əsas verir. Məcburetmənin məqsədi ilə vasitələrinin bir-birinə uyğun gəlmədiyi hallardan başqa, nə qanuna zidd məqsədlərlə, nə də qanuna zidd vasitələr tətbiq edilməklə həyata keçirilməyən hərəkətlər məcburetmə sayılmır) müvafiq olaraq əqdi mübahisələndirə bilər.

210. Hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) rəhbəri və ya üzvləri hansı məlumatı hüquqi şəxsin iştirakçılarına yazılı şəkildə təqdim etməlidirlər?

Özlərinin, MM-in 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin, yəni hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin və hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları) və hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı

211. Hüquqi şəxsin icra orqanının rəhbəri və ya digər üzvləri hansı məlumatı hüquqi şəxsin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda hüquqi şəxsin iştirakçılarına yazılı şəkildə təqdim etməlidirlər?

Özlərinin, MM-in 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin, yəni hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin və hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları) və hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı

212. Hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və ya üzvləri istisna olmaqla digər şəxslər özlərinin, MM-in 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin, yəni hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin və hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları) və hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərinin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxsin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı hansı orqana yazılı şəkildə təqdim etməlidirlər?

Hüquqi şəxsin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda isə hüquqi şəxsin icra orqanına

213. Qeyri-kommersiya təşkilatının adında nə göstərilməlidir?

Hüquqi şəxsin fəaliyyətinin xarakteri (maddə 50)

214. Qeyri-hökumət təşkilatlarının adında nələrdən istifadə edilə bilməz?

Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan)

215. Firma adı qanunla müəyyənləşdirilmiş qaydada qeydə alınmış hüquqi şəxsin ada münasibətdə hansı hüququ vardır?

Həmin addan istifadəyə müstəsna hüququ vardır.

216. Başqa hüquqi şəxsin firma adı ilə hüquqlar və vəzifələr əldə etməsinə yol verilirmi?

Xeyr, yol verilmir. Özgəsinin qeydə alınmış firma adından haqsız istifadə edən şəxs firma adına hüququ olanın tələbi ilə ondan istifadəyə son qoymalı və vurduğu zərərin əvəzini ödəməlidir.

217. Hansı yer hüquqi şəxsin olduğu yer sayılır?

Hüquqi şəxsin daimi fəaliyyət göstərən orqanının, siyasi partiyada rəhbər orqanlarının qərargahının yerləşdiyi yer (maddə 51)

218. Hüquqi şəxs öz öhdəlikləri üçün hansı qaydada cavabdehdir?

Ona mənsub bütün əmlakla (maddə 52)

219. MM-də və ya hüquqi şəxsin nizamnaməsində nəzərdə tutulan hallar istisna olmaqla, hüquqi şəxsin təsisçisi (iştirakçısı) onun hansı öhdəlikləri üçün cavabdehdir?

Həmin halda təsisçi (iştirakçı) hüquqi şəxsin öhdəlikləri üçün, hüquqi şəxs isə təsisçinin (iştirakçının) öhdəlikləri üçün cavabdeh deyildir.

220. Nümayəndəlik nədir?

Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölmədir (maddə 53).

221. Filial nədir?

Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölmədir.

222. Nümayəndəliklər və filiallar hansı statusa malikdirlər?

Onlar hüquqi şəxs deyillər və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Nümayəndəliklərin və filialların rəhbərləri hüquqi şəxs tərəfindən təyin edilir və onun etibarnaməsi əsasında fəaliyyət göstərirlər.

223. Təsisçiləri əcnəbilər və ya xarici hüquqi səxslər olan qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri hansı ölkənin vətəndaşları olmalıdırlar?

Azərbaycan Respublikasının vətəndaşları

224. Hansı təşkilat idarə sayılır?

Hüquqi şəxsin idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaların həyata keçirilməsi üçün yaratdığı təşkilat (maddə 54)

225. İdarə hansı qaydada fəaliyyət göstərir?

İdarə hüquqi şəxs deyildir və hüquqi şəxsin təsdiq etdiyi əsasnamə üzrə fəaliyyət göstərir.

226. İdarə ona təhkim edilmiş əmlak barəsində hansı qaydada sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir?

Qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyətinin məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun

227. İdarənin öhdəlikləri üçün məsuliyyət kimin üzərinə düşür?

İdarəni yaratmış hüquqi şəxsin

228. Hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) kimlərin qərarı ilə həyata keçirilə bilər?

Onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının (maddə 55)

229. Hansı hallarda hüquqi şəxsin bölünməsi və ya tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması şəklində yenidən təşkili məhkəmənin qərarı ilə həyata keçirilir?

Qanunla müəyyənləşdirilmiş hallarda

230. Məhkəmə hüquqi şəxsin idarə olunması üçün kimi təyin edir və ona nəyi tapşırır?

Kənar idarəçini və hüquqi şəxsi yenidən təşkil etməyi ona tapşırır

231. Kənar idarəçi hansı hərəkətləri yerinə yetirir?

Təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Kənar idarəçi məhkəmədə hüquqi şəxsin adından çıxış edir, bölünmə balansını tərtib edib baxılmaq üçün onu yenidən təşkil nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələri ilə birlikdə məhkəməyə verir.

232. Hansı akt qanunvericiliyin tələblərinə riayət edilməklə yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsasdır?

Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı

233. Hansı hal istisna olmaqla, hüquqi şəxs yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil edilmiş sayılır?

Qoşulma şəklində yenidən təşkil halı istisna olmaqla

234. Hüquqi şəxs başqa hüquqi şəxsin ona qoşulması şəklində yenidən təşkil edilərkən birinci hüquqi şəxs nə vaxtdan etibarən yenidən təşkil edilmiş sayılır?

Qoşulan hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan

235. Bankların yenidən təşkili hansı qanuna uyğun olaraq həyata keçirilir?

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa

236. Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin yenidən təşkil olunması hansı qaydada qadağan oluna bilər?

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada

237. Hüquqi şəxsin yenidən təşkil edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı nə zaman müvafiq icra hakimiyyəti orqanına göndərilir?

Dərhal.

238. Hüquqi şəxslər birləşdikdə onlardan hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq hansı hüquqi şəxsə keçir?

Yeni yaranmış hüquqi şəxsə (maddə 56)

239. Hüquqi şəxs digər hüquqi şəxsə qoşulduqda qoşulan hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq hansı hüquqi şəxsə keçir?

Əvvəlki hüquqi şəxsə

240. Hüquqi şəxs bölündükdə onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq hansı hüquqi şəxsə keçir?

Yeni yaranmış hüquqi şəxslərə

241. Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq hansı hüquqi şəxsə keçir?

Onların hər birinə

242. Bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə (təşkilati-hüquqi formanın dəyişməsi) yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq hansı hüquqi şəxsə keçir?

Yeni yaranmış hüquqi şəxsə

243. Təhvil aktında və bölünmə balansında hansı müddəalar olmalıdır?

Yenidən təşkil edilmiş hüquqi şəxsin bütün kreditorları və borcluları barəsində öhdəliklərinin hamısı, o cümlədən tərəflərin mübahisə etdikləri öhdəliklər üzrə hüquqi varislik haqqında müddəalar (maddə 57)

244. Təhvil aktı və bölünmə balansı hansı orqan tərəfindən təsdiq edilir?

Hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş onun təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı tərəfindən

245. Nizamnamələrlə birlikdə təhvil aktının və bölünmə balansının təqdim edilməməsi, habelə onlarda yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üzrə hüquq varisliyi haqqında müddəaların olmaması nəyə səbəb olur?

Yeni yaranmış hüquqi şəxsləri dövlət qeydiyyatına almaqdan imtina edilməsinə

246. Kimlər hüquqi şəxsin yenidən təşkili barəsində onun kreditorlarına yazılı bildiriş göndərməyə borcludurlar?

Hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı, MM-in 55.3-cü maddəsində(Məhkəmə hüquqi şəxsin kənar idarəçisini təyin edir və ona hüquqi şəxsi yenidən təşkil etməyi tapşırır. Kənar idarəçinin təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Kənar idarəçi məhkəmədə hüquqi şəxsin adından çıxış edir, bölünmə balansını tərtib edib baxılmaq üçün onu yenidən təşkil nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələri ilə birlikdə məhkəməyə verir. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, qanunvericiliyin tələblərinə riayət edilməklə yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsasdır) nəzərdə tutulan hallarda isə kənar idarəçi (maddə 58)

247. Hansı halda yeni yaranmış hüquqi şəxslər yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üçün onun kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar?

Əgər bölünmə balansı yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisini müəyyənləşdirməyə imkan vermirsə

248. Hüquqi şəxsin ləğvi nə deməkdir?

Onun hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən mövcudluğuna və fəaliyyətinə xitam verilməsi deməkdir (maddə 59).

249. Hüquqi şəxs hansı hallarda ləğv edilə bilər?

- Onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq;
- Hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda;

- Lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda, habelə MM-də, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan başqa hallarda məhkəmənin qərarı ilə;

- Məhkəmənin yekun qərarı ilə hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbir tətbiq edildikdə.

250. MM-in 59.2.1-ci maddəsində göstərilən əsaslar üzrə, yəni hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq hüquqi şəxsin ləğv edilməsi təşəbbüsü ilə çıxış edən iştirakçı və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı hüquqi şəxsin cari fəaliyyətinə rəhbərlik edən icra orqanından nəyi tələb edir?

Hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın (aktiv və passivlərinin vəziyyəti barədə) qəbul edilməsini tələb edir.

251. Hüquqi şəxsin icra orqanı hansı müddətdə bu bəyanatı qəbul edir və ya belə bəyanatın qəbul edilməsinin mümkünsüz olduğunu bildirir?

Ləğvetmə qərarından ən çoxu 20 gün əvvəl

252. İcra orqanı bəyanatın qəbul edilməsinin mümkünsüzlüyünü bildirdikdə, iştirakçıların ümumi yığıncağı hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olub-olmamasını təsdiq etmək məqsədilə kimi cəlb edə bilər?

Müstəqil auditoru

253. MM-in 59.2.2 və 59.2.3-cü maddələrində göstərilən əsaslar üzrə, yəni hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda və lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda, habelə bu Məcəllədə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan başqa hallarda məhkəmənin qərarı ilə hüquqi şəxsin ləğv edilməsi tələbini məhkəməyə kim irəli sürə bilər?

Qanunla bu cür tələb irəli sürmək hüququ verilmiş dövlət orqanı (qurumu)

254. Hansı qərarla hüquqi şəxsin təsisçilərinə (iştirakçılarına) və ya hüquqi şəxsin nizamnaməsi ilə onun ləğvi üçün vəkil edilmiş orqana hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə edilə bilər?

Hüquqi şəxsin ləğv edilməsi haqqında məhkəmənin qərarı ilə

255. Hansı əsasla ləğvetmə komissiyasına (təsviyəçiyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur?

MM-in 59.2.4-cü maddəsində göstərilən əsas üzrə, yəni məhkəmənin yekun qərarı ilə hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbir tətbiq edildikdə

256. Hansı halda hüquqi şəxs yalnız müflis olma nəticəsində ləğv edilə bilər?

Əgər ləğv edilən hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli deyilsə

257. Ləğvetmə prosesinin ümumi müddəti nə qədər olmalıdır?

Hüquqi şəxsin ləğv edilməsi barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir ildən çox olmamalıdır.

258. Həmin müddətin keçməsi nəyə səbəb olur?

Ləğvetmə prosesinin yenidən başlamasına

259. Xarici hüquqi şəxslərin filial və ya nümayəndəliklərinin ləğv edilməsi zamanı hüquqi şəxslərin ləğvi üçün hansı qaydalar tətbiq edilir?

MM və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydalar

260. Yerli bankların, onların filial, şöbə və nümayəndəliklərinin, habelə xarici bankların yerli filial və nümayəndəliklərinin ləğvi hansı qanunun tələbləri nəzərə alınmaqla həyata keçirilir?

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun

261. Hüquqi şəxsin onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada hansı məqsədlə qadağan oluna bilər?

Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə

262. Hüquqi şəxsin ləğv edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal hansı orqana göndərilir?

Müvafiq icra hakimiyyəti orqanına

263. Hüquqi şəxsin ləğvi haqqında qərarla ləğvetmə prosesi ilə bağlı ilkin olaraq hansı hərəkətlər yerinə yetirilir?

Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin edilir, MM-ə uyğun olaraq ləğvetmə qaydası və müddətləri müəyyənləşdirilir və ləğvetmə prosesi başlayır (maddə 60).

264. Ləğvetmə prosesi ərzində hüquqi şəxsin hüquq qabiliyyəti ilə bağlı hansı dəyişiklik baş verir?

Hüquq qabiliyyəti tam həcmdə saxlanılır.

265. Kim ləğv barədə qərar qəbul edildiyi tarixdən etibarən yalnız ləğvetmə prosesi çərçivəsində fəaliyyət göstərir?

Hüquqi şəxsin ləğv edilməsi haqqında qərar qəbul etmiş hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı

266. Ləğv edilən hüquqi şəxsin adından məhkəmədə kim çıxış edir?

Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici)

267. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) hansı məqsədlə onun işini davam etdirir?

Borcların ödənilməsi və qalıq gəlirin saxlanıla bilməsi üçün hüquqi şəxsin əmlakını iqtisadi cəhətdən səmərəli, qiymət baxımından sərfəli və tez bir zamanda satılması, borcların ödənilməsindən sonra qalan əmlakın iştirakçılar arasında bölüşdürülməsi məqsədilə

268. Kommersiya təşkilatı ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakın hüquqi müqəddəratı hansı qaydada həll edilir?

MM-in 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq həll edilir, yəni kommersiya təşkilatı ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı təşkilatın nizamnaməsində göstərilən məqsədlərə, bu, mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

269. Ləğvetmə komissiyasının üzvləri (təsviyəçi, ləğvedici) öz fəaliyyətləri zamanı hansı tələblərə riayət etməlidirlər?

MM-in 49.3-cü maddəsinin tələblərinə riayət etməlidirlər. Belə ki, hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs təmsil etdiyi hüquqi şəxsin mənafeləri üçün vəzifələrini yerinə yetirərkən vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etmək, hüquqi şəxsin və onun bütün iştirakçılarının maraqlarına sadiq olmaq və hüquqi şəxsin maraqlarını öz maraqlarından üstün tutmaq, ehtiyatlı olmaq, habelə qərarların qəbulu zamanı ədalətli və qərəzsiz olmağa borcludur. Həmin şəxs, bu vəzifələrin hüquqi şəxsin maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün məsuliyyət daşıyır. Hüquqi şəxsin nizamnamə kapitalında ən azı 5 faiz paya (səhmə) malik olan iştirakçısının (iştirakçılarının) tələbi ilə o, vəzifələrini pozduğu halda, pozuntu nəticəsində hüquqi şəxsə dəymiş zərərin əvəzini ödəməlidir.

270. Ləğvetmə komissiyasının üzvləri (təsviyəçi, ləğvedici) geri çağırıla və ya başqa şəxslərlə əvəz edilə bilərlərmi?

Təyin olunduqları qaydada geri çağırıla və ya başqa şəxslərlə əvəz edilə bilərlər.

271. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin olunduğu gündən sonra hansı müddətdə Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir?

10 gün müddətində

272. Bu məlumat sonradan daha neçə dəfə dərc etdirilir?

15-20 gün fasilə ilə daha iki dəfə

273. Kreditorların tələblərinin irəli sürülməsi müddəti ləğvetmə haqqında ilk məlumatın dərc edildiyi gündən etibarən hansı müddətdən az ola bilməz?

60 gündən (maddə 61)

274. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin olunduğu gündən sonra 15 gün müddətində hansı sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir?

Ləğvetmə barədə qərarı, MM-in 59.2-1-ci və 61.1-ci maddələrində göstərilən ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatı, ilk məlumatın dərc olunmasını təsdiq edən sənədi və möhürü

275. Hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı təqdim edilmiş məlumatları aldığı gündən hansı müddət ərzində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hüquqi şəxslərin dövlət reyestrinə daxil edir?

5 gün ərzində

276. Bundan sonra hüquqi şəxs tərəfindən sənədlərin tərtibi zamanı hansı dəyişiklik baş verir?

Üzərində "ləğv prosesindədir" yazılmış möhürdən istifadə olunur və bütün sənədlərdə onun adından sonra "ləğv prosesindədir" sözləri əlavə edilir.

277. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) ləğvetmə ilə bağlı mətbuatda elanın dərc olunduğu gün hansı hərəkətləri edir?

Hüquqi şəxsin ləğvi haqqında bütün məlum kreditorlara bildiriş göndərir, dövlət büdcəsinə məcburi ödənişlər və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları, habelə icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə borcların olub-olmamasını müəyyən etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edir.

278. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) hər hansı bir kreditorun irəli sürdüyü tələblə razılaşmadığı halda kreditorun nə kimi hüququ var?

Həmin kreditor məhkəmədə iddia qaldırmaq hüququna malikdir. Tələb barədə məhkəmə qərarı qəbul edilənədək onun təmin edilməsi üçün zəruri olan vəsait saxlanılmalıdır.

279. Kreditorların tələblərinin irəli sürülməsi müddəti bitdikdən sonra hansı müddətdə ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) aralıq ləğvetmə balansını tərtib edərək təsdiq edir və hüquqi şəxsin iştirakçılarına göndərir?

10 gün müddətində

280. Aralıq ləğvetmə balansına ən azı hansı məlumatlar daxil edilir?

Ləğv edilən hüquqi şəxsin əmlakının tərkibi, kreditorlarının tələbləri və debitor borcların siyahısı haqqında məlumatlar

281. Aralıq ləğvetmə balansı ilə razı olmayan hüquqi şəxsin nizamnamə kapitalında azı 10 faiz iştirak payına malik iştirakçısı hansı hərəkəti edə bilər?

Həmin balansı aldığı gündən 7 gün ərzində ümumi yığıncağın çağırılmasını tələb edə bilər.

282. Bu halda aralıq ləğvetmə balansı hansı orqan tərəfindən təsdiq ediməlidir?

İştirakçıların ümumi yığıncağı tərəfindən

283. Müflisolma prosesi nə vaxt başlamalıdır?

Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) hüquqi şəxsə məxsus əmlakın kreditorların tələblərini ödəmək üçün kifayət etmədiyini müəyyən etdikdə, dərhal müflisolma prosesinə başlamalıdır.

284. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) ləğv edilən hüquqi şəxsin kreditorlarına pul vəsaitini hansı qaydada ödəyir?

Ödəmə barədə tələblərin daxil olduğu növbəlilik qaydasında aralıq ləğvetmə balansına uyğun olaraq onun təsdiq edildiyi gündən başlayaraq

285. Bütün məlum olan kreditorlarla hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) ləğvetmə balansını və qalıq əmlakın iştirakçılar arasında bölünməsi (qeyri-kommersiya təşkilatı olduğu halda borclarının ödənilməsindən sonra artıq qalan əmlakın onun nizamnaməsində göstərilən məqsədə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilməsi yolu ilə istifadə edilməsi) planını əks etdirən hesabatı hansı müddətdə tərtib edir?

5 gün müddətində

286. Həmin balans və hesabat tərtib edildiyi gündən sonra 45 gündən gec olmayaraq kim tərəfindən təsdiq edilməlidir?

Hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı tərəfindən

287. Kreditorlar öz tələblərini nə vaxta qədər irəli sürə bilərlər?

Ləğvetmə balansı təsdiq edilənə qədər

288. Ləğvetmə balansı təsdiq edildikdən sonra 10 gün ərzində ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) nəyi təmin edir?

Qalan əmlakın təsdiq edilmiş bölünmə planına uyğun olaraq hüquqi şəxsin iştirakçılarına təqdim edilməsini, qeyri-kommersiya təşkilatı olduğu halda isə təsdiq edilmiş istifadə planına uyğun olaraq MM-in114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq, yəni borclarının ödənilməsindən sonra artıq qalan əmlakın onun nizamnaməsində göstərilən məqsədə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilməsi yolu ilə istifadə edilməsini

289. Əmlakın bölünməsi hansı qaydada həyata keçirilir?

İştirakçının payına mütənasib şəkildə

290. Ləğv edilən hüquqi şəxsin iştirakçısı və ya iştirakçının vərəsəsi olmadıqda qalıq əmlak barəsində hansı tədbir görülür?

Dövlətə verilir. Dövlətin adından həmin əmlakı müvafiq icra hakimiyyəti orqanı qəbul edir.

291. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) qalan əmlakın bölünməsindən və ya istifadə edilməsindən sonra 10 gün ərzində hansı sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına göndərir?

Təsdiq olunmuş ləğvetmə balansını, qalıq əmlakın bölünməsi (istifadə edilməsi) planını əks etdirən hesabatı, həmin əmlakın iştirakçılara təqdim edilməsini (qeyri-kommersiya təşkilatı olduğu halda isə MM-in 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə

uyğun olaraq, yəni borclarının ödənilməsindən sonra artıq qalan əmlakın onun nizamnaməsində göstərilən məqsədə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilməsi yolu ilə istifadə edilməsini) təsdiq edən sənədi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsində nəzərdə tutulmuş digər sənədləri

292. Hansı andan ləğv başa çatmış və hüquqi şəxsin mövcudluğuna son qoymuş sayılır?

Hüquqi şəxsin ləğvi bu barədə qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan

293. Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra əmlak meydana çıxarsa, məhkəmə hansı hərəkəti edə bilər?

Bunda maraqlı olan şəxsin ərizəsi əsasında ləğvetmə prosesini yenidən bərpa və yeni ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin edə bilər.

294. Bu ləğvetmə komissiyasının (təsviyəçinin, ləğvedicinin) yeganə vəzifəsi nədir?

Həmin əmlakı dərhal pula çevirmək və iştirakçılar arasında bölüşdürməkdir (qeyri-kommersiya təşkilatı olduğu halda isə MM-in 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq, yəni borclarının ödənilməsindən sonra artıq qalan əmlakın onun nizamnaməsində göstərilən məqsədə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilməsi yolu ilə istifadə etməkdir).

295. Hüquqi şəxsin dövlət reyestrindən çıxarılmasından sonra yeni öhdəliklərin meydana çıxması ləğvetmə prosesinin yenidən açılmasına səbəb olurmu?

Xeyr.

296. Hansı halda hüquqi şəxs məhkəmənin qərarı ilə müflis sayıla bilər?

Əgər hüquqi şəxs kreditorların tələblərini ödəməyə qadir deyilsə, məhkəmənin qərarı ilə (maddə 63)

297. Hüquqi şəxsin məhkəmə tərəfindən müflis sayılmasının əsasları və qaydası, müvafiq olaraq, hansı aktlarla müəyyənləşdirilir?

"Müflisləşmə və iflas haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunları ilə

§2. Kommersiya təşkilatları

298. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri hansı hüquqi şəxslərə aiddirlər?

Təsisçilərinin (iştirakçılarının) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan kommersiya təşkilatlarıdır (maddə 64).

299. Hansı əmlak mülkiyyət hüququ ilə onlara mənsubdur?

Təsisçilərin (iştirakçıların) maya qoyuluşları hesabına yaranmış əmlak, habelə təsərrüfat ortaqlığının və ya cəmiyyətinin öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak

300. Təsərrüfat ortaqlığını bir şəxs yarada bilərmi?

MM-də nəzərdə tutulan hallarda yarada bilər.

301. Təsərrüfat ortaqlıqları hansı formada yaradıla bilər?

Tam ortaqlıq və ya kommandit ortaqlığı formasında

302. Təsərrüfat cəmiyyətləri hansı formada yaradıla bilər?

Məhdud və ya əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında

303. Kimlər tam ortaqlıqların iştirakçıları və kommandit ortaqlıqlarında tam ortaqlar ola bilərlər?

Yalnız fərdi sahibkarlar və (və ya) kommersiya təşkilatları

304. Dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilərlərmi?

Xeyr.

305. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri hansı halda başqa təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin təsisçiləri (iştirakçıları) ola bilərlər?

MM-də nəzərdə tutulan hallar istisna olmaqla

306. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin əmlakına qoyulan maya nələrdən ibarət ola bilər?

Puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan

307. Təsərrüfat cəmiyyəti iştirakçısının mayasının pulla qiymətləndirilməsi hansı qaydada həyata keçirilir?

Cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir.

308. Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçılarının hansı hüquq və vəzifələri var?

- MM-də nəzərdə tutulan hallar istisna olmaqla, ortaqlığın və ya cəmiyyətin işlərinin idarə olunmasında iştirak edə bilər;
- nizamnamədə müəyyənləşdirilmiş qaydada ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məlumat ala və onun mühasibat kitabları və digər sənədləri ilə tanış ola bilər;
- mənfəət bölgüsündə iştirak edə bilər;
- ortaqlıq və ya cəmiyyət ləğv edildiyi halda kreditorlar ilə hesablaşmalardan sonra əmlakdan qalan hissəni və ya onun dəyərini ala bilərlər (maddə 65).

309. Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçılarının MM-də, ortaqlığın və ya cəmiyyətin nizamnaməsində nəzərdə tutulan başqa hüquqları da ola bilərmi?

Bəli.

310. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları hansı vəzifələrə malikdirlər?

- Nizamnamədə nəzərdə tutulan qaydada, miqdarda, üsullarla və müddətlərdə maya qoymalıdırlar;
- ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məxfi məlumatı açıqlamamalıdırlar;
- onun nizamnaməsində nəzərdə tutulan digər vəzifələri daşımalıdırlar.

311. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri iştirakçıların hansı orqanının qərarı ilə MM-də müəyyənləşdirilmiş qaydada başqa növlü təsərrüfat ortaqlıqlarına və cəmiyyətlərinə çevrilə bilər?

Ümumi yığıncağın qərarı ilə (maddə 66)

312. Ortaqlıq cəmiyyətə çevrilərkən cəmiyyətin iştirakçısı (səhmdarı) olmuş hər bir tam ortaq ortaqlıqdan cəmiyyətə keçmiş öhdəliklər üzrə hansı müddət ərzində özünün bütün əmlakı ilə subsidiar məsuliyyət daşıyır?

İki il ərzində

313. Keçmiş ortağın ona mənsub payları (səhmləri) özgəninkiləşdirməsi onu bu cür məsuliyyətdən azad edirmi?

Xeyr.

314. Təsərrüfat cəmiyyəti hansı halda törəmə sayılır?

O halda törəmə cəmiyyət sayılır ki, digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olur (maddə 67).

315. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin borcları üçün cavabdehdirmi?

Xeyr.

316. Törəmə cəmiyyətə onun üçün məcburi göstərişlər vermək hüququ olan əsas ortaqlıq və ya cəmiyyət həmin göstərişlərin icrası üçün törəmə cəmiyyətin bağladığı əqdlər üzrə hansı qaydada məsuliyyət daşıyır?

Onunla birgə məsuliyyət daşıyır.

317. Əsas ortaqlıq və ya cəmiyyət hansı halda törəmə cəmiyyətə onun üçün məcburi göstərişlər vermək hüququna malik sayılır?

Yalnız o halda ki, bu hüquq törəmə cəmiyyətlə müqavilədə nəzərdə tutulmuş olur.

318. Törəmə cəmiyyətin iştirakçıları (səhmdarları) əsas ortaqlıqdan və ya cəmiyyətdən onun təqsiri üzündən törəmə cəmiyyətə dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilərlərmi?

Bəli.

319. Hansı halda zərər əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən vurulmuş sayılır?

Yalnız əsas ortaqlığın və ya cəmiyyətin törəmə cəmiyyət üçün məcburi göstərişinin törəmə cəmiyyət tərəfindən icrası nəticəsində baş verdikdə

320.Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olduqda əsas ortaqlıq və ya cəmiyyət onun borcları üzrə hansı qaydada məsuliyyət daşıyır?

Subsidiar məsuliyyət

321. Törəmə cəmiyyət hansı halda əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olmuş sayılır?

Yalnız əsas ortaqlığın və ya cəmiyyətin onun üçün məcburi göstərişini icra etməsi nəticəsində müflis olduqda

322. Törəmə cəmiyyətin əsas cəmiyyətin səhmlərini (paylarını) almaq hüququ varmı?

Xeyr.

323. Təsərrüfat cəmiyyəti hansı halda asılı cəmiyyət sayılır?

O halda asılı cəmiyyət sayılır ki, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olur (maddə 68).

324. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxunu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxunu əldə edən təsərrüfat ortaqlığı və ya cəmiyyəti hansı hərəkəti etməlidir?

Bu barədə məlumatı ləngimədən dərc etdirməlidir.

325. Asılı cəmiyyətin əsas cəmiyyətin səhmlərini (paylarını) almaq hüququ varmı?

Xeyr.

326. Ortaqlıq hansı halda tam ortaqlıq sayılır?

O halda tam ortaqlıq sayılır ki, onun iştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyırlar (maddə 69).

327. Şəxs neçə tam ortaqlığın iştirakçısı ola bilər?

Yalnız bir tam ortaqlığın

328. Tam ortaqlığın firma adına dair hansı qaydaya riayət edilməlidir?

Onun bütün iştirakçılarının adları və "tam ortaqlıq" sözləri daxil edilməli və ya "və ortaqları" və "tam ortaqlıq" sözləri əlavə edilməklə, bir və ya bir neçə iştirakçının adı daxil edilməlidir.

329. Tam ortaqlığın nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilən məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından əlavə, hansı şərtlər göstərilməlidir?

Ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında; hər bir iştirakçının şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında; onların mayalarının tərkibi və maya qoyması qaydası haqqında; maya qoyulması üzrə vəzifələrin pozulmasına görə iştirakçıların məsuliyyəti haqqında (maddə 70)

330. Tam ortaqlığın fəaliyyəti və qərarların qəbulu hansı qaydada həyata keçirilir?

Tam ortaqlıq bütün iştirakçıların ümumi razılığı ilə idarə edilir. Onun nizamnaməsində qərarın iştirakçıların səs çoxluğu ilə qəbul olunduğu hallar nəzərdə tutula bilər (maddə 71).

331. Hansı halda tam ortaqlığın hər iştirakçısının bir səsi vardır?

Əgər nizamnamədə tam ortaqlıq iştirakçılarının səslərinin sayını müəyyənləşdirməyin başqa qaydası nəzərdə tutulmayıbsa

332. Ortaqlığın hər bir iştirakçısı ortaqlığın işlərini aparmağa vəkil edilib-edilmədiyindən asılı olmayaraq hansı hüquqa malikdir?

İşlərin aparılmasına dair bütün sənədlərlə tanış ola bilər. Bu hüquqdan imtina və ya onun məhdudlaşdırılması, o cümlədən ortaqlıq iştirakçılarının razılaşması üzrə imtina və ya məhdudlaşdırma əhəmiyyətsizdir.

333. Hansı halda tam ortaqlığın hər bir iştirakçısı ortaqlıq adından fəaliyyət göstərə bilər?

Əgər tam ortaqlığın nizamnaməsində onun bütün iştirakçılarının işləri birlikdə aparması və ya işlərin aparılmasının ayrı-ayrı iştirakçılara tapşırılması müəyyənləşdirilməyibsə (maddə 72)

334. Ortaqlığın iştirakçıları onun işlərini birlikdə apararkən hər bir əqdin bağlanması üçün kimlərin razılığı tələb edilir?

Ortaqlığın bütün iştirakçılarının

335. Əgər ortaqlığın iştirakçıları onun işlərinin aparılmasını iştirakçıların birinə və ya bəzilərinə tapşırarlarsa, qalan iştirakçılar ortaqlıq adından əqdlər bağlamaq üçün nə etməlidirlər?

Ortaqlığın işlərinin aparılmasının tapşırıldığı iştirakçıdan (iştirakçılardan) etibarnamə almalıdırlar.

336. Üçüncü şəxslərlə münasibətlərdə ortaqlıq tərəfindən onun iştirakçılarının səlahiyyətlərini məhdudlaşdıran nizamnamə müddəalarına istinad edilə bilinməməsində hansı hallar istisna təşkil edir?

Əqdin bağlandığı vaxt ortaqlıq iştirakçısının ortaqlıq adından fəaliyyət göstərmək hüququ olmadığını üçüncü şəxsin bildiyini və ya bilməli olduğunu ortaqlığın sübuta yetirdiyi hallar

337. Ortaqlığın işlərinin aparılması üzrə bir və ya bir neçə iştirakçıya verilmiş səlahiyyətlərə məhkəmə hansı hallarda ortaqlığın bir və ya bir neçə digər iştirakçısının tələbi ilə xitam verə bilər?

Ciddi əsaslar olduqda, o cümlədən vəkil edilmiş şəxs (şəxslər) öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda

338. Tam ortaqlığın iştirakçısı hansı hərəkətləri etməyə borcludur?

Nizamnamənin şərtlərinə uyğun olaraq ortaqlığın fəaliyyətində iştirak etməyə və ortaqlıq qeydə alınanadək onun şərikli kapitalına maya qoymağa borcludur (maddə 73).

339. Tam ortaqlıq iştirakçısının qalan iştirakçıların razılığı olmadan öz adından öz mənafeləri və ya üçüncü şəxslərin mənafeləri üçün ortaqlığın fəaliyyət predmetini təşkil edən əqdlərlə eyni xarakterli əqdlər bağlamağa ixtiyarı varmı?

Xeyr.

340. Bu qayda pozulduqda ortaqlıq öz mülahizəsi ilə nəyi tələb edə bilər?

Həmin iştirakçıdan ortaqlığa vurulmuş zərərin əvəzini ödəməyi və ya bu cür əqdlər üzrə əldə etdiyi bütün faydanı ortaqlığa verməyi tələb edə bilər.

341. Tam ortaqlığın mənfəəti və zərəri hansı qaydada bölüşdürülür?

Əgər nizamnamədə və ya iştirakçıların digər razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, iştirakçılar arasında onların şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür (maddə 74).

342. Ortaqlıq iştirakçısının mənfəət və zərərdə iştirakdan kənar edilməsi barədə razılaşma əldə oluna bilərmi?

Bu cür razılaşma əhəmiyyətsizdir.

343. Əgər ortaqlığın düşdüyü zərər nəticəsində onun xalis aktivlərinin dəyəri şərikli kapitalının miqdarından az olarsa, ortaqlığın götürdüyü mənfəət hansı qaydada bölüşdürülür?

Xalis aktivlərin dəyəri artıb şərikli kapitalın miqdarını ötənədək onun iştirakçıları arasında bölüşdürülmür.

344. Tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə hansı qaydada məsuliyyət daşıyırlar?

Özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət (maddə 75)

345. Tam ortaqlığın təsisçisi olmayan iştirakçı hansı öhdəliklər üzrə digər iştirakçılarla bərabər məsuliyyət daşıyır?

Onun ortaqlığa daxil olmasından əvvəl əmələ gəlmiş öhdəliklər üzrə

346. Ortaqlıqdan çıxmış iştirakçı ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə hansı müddət ərzində qalan iştirakçılarla bərabər məsuliyyət daşıyır?

Ortaqlığın onun çıxdığı il üçün fəaliyyəti barəsində hesabatın təsdiq edildiyi gündən iki il ərzində

347. 75-ci maddədə nəzərdə tutulan məsuliyyətin, yəni tam ortaqlıq iştirakçılarının onun öhdəlikləri üzrə məsuliyyətin məhdudlaşdırılması və ya aradan qaldırılması haqqında ortaqlıq iştirakçılarının razılaşması əldə oluna bilərmi?

Bu cür razılaşma əhəmiyyətsizdir.

348. Tam ortaqlığın hər hansı iştirakçısı ortaqlıqdan çıxdıqda və ya öldükdə, iştirakçılardan biri xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan və ya

məhdud fəaliyyət qabiliyyətli və ya müflis sayıldıqda, məhkəmənin qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil prosedurlarına başlandıqda, ortaqlıqda iştirak edən hüquqi şəxs ləğv olunduqda və ya iştirakçılardan birinin kreditoru tərəfindən tutma onun şərikli kapitaldakı payına uyğun əmlak hissəsinə yönəldildikdə ortaqlıq öz fəaliyyətini hansı halda davam etdirə bilər?

Əgər bu, ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında nəzərdə tutulubsa, davam etdirə bilər (maddə 76).

349. Hansı hallarda tam ortaqlıq iştirakçıları iştirakçılardan hər hansı birinin məhkəmə qaydasında ortaqlıqdan çıxarılmasını tələb edə bilərlər?

Qalan iştirakçıların yekdil qərarı ilə və bunun üçün ciddi əsaslar olduqda, məsələn, həmin iştirakçı öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda

350. Tam ortaqlıq iştirakçısının ortaqlıqda iştirakdan imtina etdiyini bildirərək ortaqlıqdan çıxmaq ixtiyarı varmı?

Bəli (maddə 77).

351. İştirakçı tam ortaqlıqda iştirakdan imtina etdiyini hansı müddət ərzində bildirməlidir?

Ortaqlıqdan faktik çıxmasına ən geci altı ay qalmış

352. Ortaqlıqdan çıxmaq hüququndan imtina haqqında ortaqlıq iştirakçıları arasında razılaşma əldə oluna bilərmi?

Bu cür razılaşma əhəmiyyətsizdir.

353. Tam ortaqlıqdan çıxmış iştirakçıya, əgər nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının əmlakının dəyəri hansı qaydada ödənilir?

Şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinin dəyəri ödənilir. Çıxan iştirakçı ilə qalan iştirakçılar arasında razılaşmaya əsasən əmlak dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər (maddə 78).

354. Çıxan iştirakçıya ortaqlıq əmlakından çatası hissə və ya onun dəyəri hansı hal istisna olmaqla onun çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir?

MM-in 80-ci maddəsində nəzərdə tutulan hal, yəni iştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına tutmanın yönəldilməsi istisna olmaqla, onun çıxdığı məqamda tərtib edilən balans üzrə

355. Tam ortaqlığın iştirakçısı öldükdə onun vərəsəsi tam ortaqlığa hansı halda daxil ola bilər?

Əgər ortaqlığın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yalnız digər iştirakçıların razılığı ilə

356. Tam ortaqlıqda iştirak etmiş və yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi olan hüquqi şəxs ortaqlığa hansı halda daxil ola bilər?

Əgər ortaqlığın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, onun digər iştirakçılarının razılığı ilə

357. Ortaqlığa daxil olmayan vərəsə (hüquq varisi) ilə hesablaşmalar hansı qaydada aparılır?

MM-in 78.1-ci maddəsinə uyğun aparılır, yəni tam ortaqlıqdan çıxmış iştirakçıya, əgər nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinin dəyəri ödənilir. Çıxan iştirakçı ilə qalan iştirakçılar arasında razılaşmaya əsasən, əmlak dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər. Çıxan iştirakçıya ortaqlıq əmlakından çatası hissə və ya onun dəyəri, bu Məcəllənin 80-ci maddəsində nəzərdə tutulan hal, yəni iştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına tutmanın yönəldilməsi istisna olmaqla, onun çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir.

358. Tam ortaqlıq iştirakçısının vərəsəsi (hüquq varisi) MM-in 75.2 və 75.3-cü maddələrinə uyğun olaraq, çıxan iştirakçının üçüncü şəxslər qarşısında cavab verməli olduğu ortaqlığın öhdəlikləri üzrə hansı həddə məsuliyyət daşıyır?

Ortaqlığın çıxan iştirakçısından ona keçmiş əmlak həddində

359. Əgər iştirakçılardan biri ortaqlıqdan çıxırsa, ortaqlığın şərikli kapitalında qalan iştirakçıların paylarının miqdarı necə dəyişir?

Əgər nizamnamədə və ya iştirakçıların başqa razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, müvafiq surətdə artır.

360. Tam ortaqlığın iştirakçısı şərikli kapitaldakı payını və ya onun bir hissəsini ortaqlığın başqa iştirakçısına və ya üçüncü şəxsə verə bilərmi?

Onun qalan iştirakçılarının razılığı ilə verə bilər (maddə 79).

361. Ortaqlıq iştirakçısının özünün bütün payını başqa şəxsə verməsi nəyə səbəb olur?

Onun ortaqlıqda iştirakına xitam verir və MM-in 75.2 və 75.3-cü maddələrində nəzərdə tutulan nəticələrə səbəb olur, yəni tam ortaqlığın təsisçisi olmayan iştirakçısı onun ortaqlığa daxil olmasından əvvəl əmələ gəlmiş öhdəliklər üzrə digər iştirakçılarla bərabər məsuliyyət daşıyır. Ortaqlıqdan çıxmış iştirakçı ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə ortaqlığın onun çıxdığı il üçün fəaliyyəti barəsində hesabatın təsdiq edildiyi gündən iki il ərzində qalan iştirakçılarla bərabər məsuliyyət daşıyır.

362. İştirakçının ortaqlıqda iştirakla bağlı olmayan borcları (şəxsi borcları) üzrə tutmanın iştirakçının tam ortaqlığın əmlakındakı payına yönəldilməsinə hansı halda yol verilir?

Yalnız onun başqa əmlakının borcları ödəməyə kifayət etmədiyi halda (maddə 80)

363. Ortaqlığın əmlakının ayrılmalı hissəsi və ya onun dəyəri hansı balans üzrə müəyyənləşdirilir?

Kreditorların ayırma tələbini irəli sürdükləri məqamda tərtib edilmiş balans üzrə

364. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına uyğun əmlaka tutmanın yönəldilməsi nəyə səbəb olur?

Onun ortaqlıqda iştirakına xitam verir və MM-in 75.3-cü maddəsində (Ortaqlıqdan çıxmış iştirakçı ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə ortaqlığın onun çıxdığı il üçün fəaliyyəti barəsində hesabatın təsdiq edildiyi gündən iki il ərzində qalan iştirakçılarla bərabər məsuliyyət daşıyır.)nəzərdə tutulan nəticələrə səbəb olur.

365. Tam ortaqlıq hansı halda ləğv edilir?

MM-in 59-cu maddəsində göstərilən əsaslar üzrə, yəni onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq, hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda, lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda, habelə bu Məcəllədə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan başqa hallarda məhkəmənin qərarı ilə, məhkəmənin yekun qərarı ilə hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbir tətbiq edildikdə, habelə ortaqlıqda yeganə bir iştirakçının qaldığı halda (maddə 81)

366. Həmin iştirakçının hansı müddət ərzində ortaqlığı MM-də müəyyənləşdirilmiş qaydada təsərrüfat cəmiyyətinə çevirmək ixtiyarı var?

Ortaqlıqda yeganə iştirakçı kimi qaldığı andan altı ay ərzində

367. Tam ortaqlıq daha hansı halda ləğv edilir?

MM-in 76.1-ci maddəsində nəzərdə tutulan hallarda, yəni tam ortaqlığın hər hansı iştirakçısı ortaqlıqdan çıxdıqda və ya öldükdə, iştirakçılardan biri xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli və ya müflis sayıldıqda, məhkəmənin qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil prosedurlarına başlandıqda, ortaqlıqda iştirak edən hüquqi şəxs ləğv olunduqda və ya iştirakçılardan birinin kreditoru tərəfindən tutma onun şərikli kapitaldakı payına uyğun əmlak hissəsinə yönəldildikdə əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa

368. Kommandit ortaqlığı hansı ortaqlığa deyilir?

Elə bir ortaqlıqdır ki, ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı, ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı – maya qoyanı (kommanditçi) vardır (maddə 82).

369. Kommandit ortaqlığında iştirak edən tam ortaqların hüquqi vəziyyəti və ortaqlığın öhdəlikləri üzrə onların məsuliyyəti hansı qaydalarla müəyyənləşdirilir?

MM-in tam ortaqlıq iştirakçıları haqqında qaydaları ilə

370. Şəxs neçə kommandit ortaqlığında tam ortaq ola bilər?

Yalnız bir.

371. Tam ortaqlığın iştirakçısı kommandit ortaqlığında tam ortaq ola bilərmi?

Xeyr.

372. Kommandit ortaqlığındakı tam ortaq tam ortaqlığın iştirakçısı ola bilərmi?

Xeyr.

373. Kommandit ortaqlığının firma adında hansı qaydalara riayət edilməlidir?

Bütün tam ortaqların adları ilə «kommandit ortaqlığı» sözləri və ya «və ortaqları» və «kommandit ortaqlığı» sözləri əlavə edilməklə, azı bir tam ortağın adı göstərilməlidir.

374. Hansı halda maya qoyan tam ortağa çevrilir?

Əgər kommandit ortaqlığının firma adına maya qoyanın adı daxil edilərsə

375. MM-in tam ortaqlıq haqqında qaydaları kommandit ortaqlığına hansı şərtlə tətbiq edilir?

Bu şərtlə tətbiq edilir ki, həmin qaydalar MM-in kommandit ortaqlığı haqqında qaydalarına zidd olmasın.

376. Kommandit ortaqlığının nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilmiş məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından savayı, daha hansı məlumatlar göstərilməlidir?

Ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında; tam ortaqlardan hər birinin şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında; onların qoyduqları mayaların tərkibi və maya qoyması qaydası haqqında, maya qoyulması üzrə vəzifələri pozmağa görə onların məsuliyyəti haqqında; maya qoyanların verdikləri mayaların məcmu miqdarı haqqında şərtlər (maddə 83)

377. Kommandit ortaqlığında idarəetməni kimlər həyata keçirirlər?

Tam ortaqlar (maddə 84).

378. Maya qoyanların hansı ixtiyarları yoxdur?

Kommandit ortaqlığının idarə edilməsində və işlərinin aparılmasında iştirak etmək, onun adından etibarnaməsiz çıxış etmək

379. Onlar hansı məsələlər barədə mübahisə edə bilməzlər?

Ortaqlığın idarə edilməsi və işlərinin aparılması üzrə tam ortaqların hərəkətləri barəsində

380. Kommandit ortaqlığına mayanın qoyulması nə ilə təsdiqlənir?

Maya qoyana ortaqlıq tərəfindən verilən iştirak şəhadətnaməsi ilə (maddə 85)

381. Maya qoyanın kommandit ortaqlığına hansı hüquqları var?

- Ortaqlığın mənfəətinin onun şərikli kapitaldakı payına düşən hissəsini nizamnamədə nəzərdə tutulan qaydada almaq;
- ortaqlığın illik hesabatları və balansları ilə tanış olmaq;
- maliyyə ili qurtardıqda ortaqlıqdan çıxmaq və nizamnamədə nəzərdə tutulan qaydada öz mayasını almaq;
- şərikli kapitaldakı payını və ya onun hissəsini digər maya qoyana və ya üçüncü şəxsə vermək.

382. Kimlər MM-in 93.3-cü maddəsində nəzərdə tutulan(Cəmiyyətin iştirakçıları iştirakçının payını (onun bir hissəsini) öz paylarının miqdarına mütənasib surətdə satın almaqda üstünlük hüququna malikdirlər Cəmiyyətin iştirakçısı

öz payını (onun bir hissəsini) özgəninkiləşdirmək istədikdə həmin payın (onun bir hissəsinin) satın alınmasını ilkin olaraq cəmiyyətin digər iştirakçılarına təklif etməlidir. Əgər cəmiyyətin iştirakçıları xəbərdar edildikləri gündən bir ay ərzində və ya cəmiyyətin nizamnaməsində və ya onun iştirakçılarının razılaşmasında nəzərdə tutulan başqa müddətdə öz üstünlük hüququndan istifadə etməzlərsə, iştirakçının payı üçüncü şəxsə özgəninkiləşdirilə bilər) şərtlərə və qaydaya tətbiqən payı (onun hissəsini) satın almaqda üçüncü şəxslər qarşısında üstünlük hüququna malikdirlər?

Maya qoyanlar

383. Hansı hal maya qoyanın ortaqlıqda iştirakına xitam verir?

Onun bütün payını başqa şəxsə verməsi

384. Kommandit ortaqlığının nizamnaməsində maya qoyanların başqa hüquqları da nəzərdə tutula bilərmi?

Bəli.

385. Kommandit ortaqlığı hansı hallarda ləğv edilir?

Kommandit ortaqlığına maya qoyanların hamısı həmin ortaqlıqdan çıxdıqda o, ləğv edilir. Kommandit ortaqlığı tam ortaqlığın ləğv edilməsi əsasları üzrə də ləğv edilir (maddə 86).

386. Kommandit ortaqlığında azı neçə tam ortaq və maya qoyan qalırsa, ortaqlıq saxlanılır?

Bir tam ortaq və bir maya qoyan

387. Kommandit ortaqlığı ləğv edildikdə, o cümlədən müflis olduqda kimlər ortaqlığın kreditorlarının tələbləri ödənildikdən sonra onun qalan əmlakından mayaları almaqda üstünlük hüququna malikdirlər?

Maya qoyanlar

388. Ortaqlığın bundan sonra qalan əmlakı hansı qaydada bölüşdürülür?

Əgər nizamnamədə və ya tam ortaqların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, tam ortaqlar arasında onların ortaqlığın şərikli kapitalındakı paylarına mütənasib surətdə

389. Hansı təsərrüfat cəmiyyəti məhdud məsuliyyətli cəmiyyət sayılır?

Bir və ya bir neçə şəxs (fiziki və (və ya) hüquqi şəxs) tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət (maddə 87)

390. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları hansı həddə məsuliyyət və risk daşıyırlar?

Onlar cəmiyyətin öhdəlikləri üzrə məsuliyyət daşımır, cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar.

391. Cəmiyyət hansı öhdəliklərə görə məsuliyyət daşımır?

Öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə

392. Cəmiyyət MM-ə müvafiq olaraq hansı yollarla yaradıla bilər?

Yeni cəmiyyətin yaradılması və ya MM-də müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) yolu ilə

393. Cəmiyyətin yaradılması hansı mərhələləri əhatə edir?

Təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını (MM-in 45.2-ci maddəsində nəzərdə tutulmuş halda) və ya cəmiyyətin yaradılması haqqında qərarın qəbul edilməsini (cəmiyyət bir şəxs tərəfindən yaradıldıqda), nizamnamə kapitalının ödənilməsini (cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa) və nizamnamənin hazırlanmasını

394. Cəmiyyətin yaradılması zamanı təsis yığıncağı nə zaman keçirilir?

Cəmiyyətin nizamnamə kapitalı təsisçilər tərəfindən tamamilə formalaşdırıldıqdan sonra (cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa)

395. Təsis yığıncağı nə zaman səlahiyyətlidir (yetərsay var)?

Bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə

396. Yetərsay olmadıqda yığıncaq hansı qaydada keçirilir?

Təkrarən keçirilir. Təkrarən keçirilən təsis yığıncağında da yetərsay olmadıqda, cəmiyyətin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baştutmamış hesab edilir və bu qərar 7 gün müddətində bütün təsisçilərin nəzərinə çatdırılır.

397. Cəmiyyətin yaradılması zamanı keçirilən təsis yığıncağının hansı səlahiyyəti var?

- Cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərini təsdiq edir;
- cəmiyyətin yaradılması barədə qərar qəbul edir və onun nizamnaməsini təsdiq edir;
- MM və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş cəmiyyətin idarəetmə orqanlarını təşkil edir;
- cəmiyyətin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar MM-ə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir.

398. Cəmiyyətin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərinin təsdiq edilməsi, idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən hansı qaydada qəbul edilir?

Yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə

399. Cəmiyyətin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri hansı qaydada məsliyyət daşıyırlar?

Birgə məsuliyyət

400. Məhdud məsuliyyətli cəmiyyətin firma adında nələr göstərilməlidir?

Cəmiyyətin adı, habelə «məhdud məsuliyyətli cəmiyyət» sözləri

401. Məhdud məsuliyyətli cəmiyyətin hüquqi vəziyyəti, habelə onun iştirakçılarının hüquq və vəzifələri hansı qanunla müəyyənləşdirilir?

MM ilə

402. Hansı əqd xüsusi əhəmiyyətli əqd hesab edilir?

Məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqd

403. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar harada qəbul edilir?

Cəmiyyətinin iştirakçılarının ümumi yığıncağında

404. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının sayı qanunvericiliklə müəyyənləşdirilmiş həddi keçərsə, hansı hərəkətlər edilməlidir?

O, bir il ərzində səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onun iştirakçılarının sayı azaldılıb qanunla müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir (maddə 88).

405. Məhdud məsuliyyətli cəmiyyətin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilərmi?

Xeyr.

406. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilmiş məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından savayı, daha hansı məlumatlar göstərilməlidir?

Cəmiyyətin nizamnamə kapitalının miqdarı haqqında; iştirakçılardan hər birinin payının miqdarı haqqında; onların qoyduqları mayaların tərkibi və maya qoyması qaydası haqqında, maya qoyulması üzrə öhdəlikləri pozmağa görə iştirakçıların məsuliyyətləri haqqında; cəmiyyəti idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qərarlar qəbul edilən məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında şərtlər (maddə 89)

407. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı nələrdən təşkil olunur?

Onun iştirakçılarının mayalarının dəyərindən

408. Cəmiyyətin nizamnamə kapitalının miqdarı hansı məbləğdən az ola bilməz?

Onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən (maddə 90)

409. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa, təsisçilər nizamnamə kapitalını nə vaxtadək tamamilə ödəməyə borcludurlar?

Cəmiyyət dövlət qeydiyyatına alınanadək

410. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının ödənilməsi müddətlə şərtləndirildiyi halda, bu müddət neçə aydan çox ola bilməz?

Üç aydan

411. Məhdud məsuliyyətli cəmiyyət iştirakçısının cəmiyyətin nizamnamə kapitalına maya qoymaq vəzifəsindən azad edilməsinə, o cümlədən cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad edilməsinə yol verilirmi?

Xeyr.

412. Əgər ikinci və ya hər bir növbəti maliyyə ili başa çatarkən məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, cəmiyyət hansı hərəkəti etməyə borcludur?

Öz nizamnamə kapitalının azaldığını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa

413. Hansı halda cəmiyyət ləğv edilməlidir?

Əgər cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının minimum miqdarından az olarsa

414. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı hansı qaydada və nəyin hesabına artırıla bilər?

Yalnız onun tam ödənilməsindən sonra MM-də və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə və (və ya) cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına

415. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin hansı orqanının qərarı ilə həyata keçirilir?

Ümumi yığıncağının

416. Nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılan miqdarı hansı məbləği keçməməlidir?

Cəmiyyətin xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və cəmiyyətin ehtiyat fondu arasındakı fərqi

417. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iştirakçıların əlavə payları hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada hansı orqanın qərarı ilə həyata keçirilir?

Cəmiyyətin ümumi yığıncağının

418. Bu qərarla hansı məbləğlər arasındakı nisbət müəyyən edilməlidir?

Əlavə payların ümumi dəyəri, həmçinin iştirakçının əlavə payının dəyəri və onun payının nominal dəyərinin artırıldığı məbləğ arasındakı nisbət müəyyən edilməlidir. Həmin nisbət iştirakçının payının nominal dəyərinin onun əlavə payına bərabər və ya ondan az məbləğdə arta biləcəyi nəzərə alınmaqla müəyyən edilir.

419. Hər bir iştirakçı hansı qaydada əlavə pay qoymaq hüququna malikdir?

Əlavə payların ümumi dəyərindən artıq olmayan, həmin iştirakçının nizamnamə kapitalında olan mayasının məbləğinə proporsional olaraq

420. İştirakçılar tərəfindən əlavə paylar hansı müddətdə qoyulmalıdır?

Bu barədə ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya ümumi yığıncağın qərarında müəyyən edilmiş müddətdə

421. Əlavə pay qoymaq üçün müəyyən edilmiş müddətin ötürülməsi nəyə səbəb olur?

Nizamnamə kapitalının qeyd edilən üsulla artırılmasının baş tutmamasına

422. MM-in 90.6-cı maddəsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının cəmiyyətin nizamnamə kapitalının artırılması haqqında qərarı hansı sənədlər əsasında qəbul edilir?

İştirakçının (iştirakçıların) əlavə maya qoyulması haqqında ərizəsi və (və ya) əgər nizamnamədə qadağan edilməmişdirsə, üçüncü şəxsin (şəxslərin) onun (onların) cəmiyyətə iştirakçı kimi qəbul edilməsi və maya qoyması haqqında ərizəsi əsasında

423. Ərizədə nələr göstərilir?

Mayaların məbləği və tərkibi, onların qoyulma qaydası və müddəti, iştirakçının və ya üçüncü şəxsin nizamnamə kapitalında malik olmaq istədikləri mayaların məbləği göstərilir. Ərizədə mayaların qoyulmasının və cəmiyyətə daxil olmanın digər şərtləri də göstərilə bilər.

424. Cəmiyyətin ümumi yığıncağı iştirakçıların ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarın qəbul edilməsi ilə eyni zamanda daha nə haqqında qərar qəbul edir?

Nizamnamə kapitalının məbləğinin və ərizə vermiş iştirakçının mayasının nominal dəyərinin artırılması ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında

425. Ümumi yığıncaq üçüncü şəxsin ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarla yanaşı, daha hansı məsələlər haqqında qərar qəbul edir?

Üçüncü şəxsin cəmiyyətə qəbul edilməsi, onun mayasının nominal dəyərinin müəyyən edilməsi və iştirakçıların mayalarının məbləğlərinin dəyişməsi ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında

426. Cəmiyyətə qəbul edilən üçüncü şəxsin mayasının nominal dəyəri nə qədər olmalıdır?

Onun payının dəyərinin məbləğinə bərabər və ya ondan az

427. Əgər nizamnamə kapitalının artırılması baş tutmamışdırsa, cəmiyyət nə etməlidir?

Ağlabatan müddətdə iştirakçıların əlavə mayalarını və üçüncü şəxslərin mayalarını müvafiq olaraq geri qaytarmalıdır.

428. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının azaldılması hansı qaydada həyata keçirilir?

Bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilə bilər. Bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nisbəti saxlanılmaqla həyata keçirilir.

429. Cəmiyyətin nizamnamə kapitalının azaldılması hansı orqanın qərarı əsasında həyata keçirilir?

Cəmiyyətin ümumi yığıncağının

430. Nizamnamə kapitalının azaldılması haqqında ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya cəmiyyətin ümumi yığıncağının qərarında müəyyən edilmiş müddətdə cəmiyyət hansı hərəkəti etməlidir?

Özünün bütün kreditorlarına bu barədə yazılı məlumat göndərməlidir.

431. Hansı müddətdə cəmiyyətin kreditorlarının cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsini və ya xitamını, düşdükləri zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır?

Məlumat alındığı gündən bir ay müddətində

432. Məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi hansı qaydada həyata keçirilir?

Cəmiyyətin ümumi yığıncağı tərəfindən qəbul edilən qərar əsasında cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada (maddə 90-1)

433. Məhdud məsuliyyətli cəmiyyətin hər bir iştirakçısının hansı məbləğdə mənfəət almaq hüququ var?

Nizamnamə kapitalındakı mayalarına uyğun olaraq

434. Xalis mənfəət ümumi yığıncağın qərarı qəbul edildikdən sonra hansı müddətdə ödənilməlidir?

Bir ay müddətində

435. Məhdud məsuliyyətli cəmiyyət hansı hallarda mənfəətin bölüşdürülməsi haqqında qərar qəbul edə bilməz?

- Əgər MM-in 90-1.1-ci maddəsində nəzərdə tutulan, yəni məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi haqqında qərar qəbul edildiyi anda cəmiyyət qanunla müəyyən edilmiş müflisləşmə və ya iflas əlamətlərinə uyğun gəlirsə və ya həmin qərarın qəbul edilməsi nəticəsində belə əlamətlər əmələ gələcəksə;
- əgər MM-in 90-1.1-ci maddəsində nəzərdə tutulan, yəni məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi haqqında qərar qəbul edildiyi anda cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından azdırsa və ya həmin qərarın qəbul edilməsi nəticəsində onun məbləğindən az olacaqsa

436. Məhdud məsuliyyətli cəmiyyətin ali orqanı hansı orqandır?

Onun iştirakçılarının ümumi yığıncağı (maddə 91)

437. Bir iştirakçısı olan cəmiyyətdə cəmiyyətin ümumi yığıncağının səlahiyyətləri kim tərəfindən həyata keçirilir?

İştirakçı tərəfindən təkbaşına

438. Cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya) təftiş komissiyası (müfəttiş) nə zaman yaradılır?

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda, habelə ictimai əhəmiyyətli qurumlarda

439. Məhdud məsuliyyətli cəmiyyətdə onun fəaliyyətinə cari rəhbərliyi həyata keçirən və iştirakçılarının ümumi yığıncağına hesabat verən hansı orqan yaradılır?

İcra orqanı (kollegial və ya təkbaşçı)

440. Hər bir iştirakçının hansı hüquqları var?

Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək (MM-in 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar, yəni aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyərinin hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etməsi və aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyərinin hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etməsi halları istisna olmaqla), şəxsən iştirak etmək və ya MM ilə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq, ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək

441. İştirakçıların həmin hüquqlarını məhdudlaşdıran hər hansı razılaşma və ya hərəkət həyata keçirilə bilərmi?

Hər hansı razılaşma və ya hərəkət etibarsızdır.

442. Cəmiyyətin iştirakçısı olmayan kollegial icra orqanının rəhbəri və üzvləri və ya cəmiyyətin təkbaşçı icra orqanının rəhbəri ümumi yığıncaqda hansı qaydada iştirak edə bilər?

Məşvərətçi səs hüququ ilə

443. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilən məsələlərdən başqa, cəmiyyətin nizamnaməsinə uyğun olaraq cəmiyyətin iştirakçılarının ümumi yığıncağının səlahiyyətlərinə digər məsələlər də aid edilə bilərmi?

MM ilə edilə bilər.

444. Nizamnamədə müəyyən edilib-edilməməsindən asılı olmayaraq, ümumi yığıncaq hansı məsələləri müzakirə edə bilər?

Cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni

445. Cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən hansı müddətdə çağırılır?

Nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq

446. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq nə zaman çağırılır?

Hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq

447. Növbədənkənar ümumi yığıncaq kimlər tərəfindən çağırılır?

İcra orqanının öz təşəbbüsü ilə, habelə direktorlar şurasının (müşahidə şurasının), təftiş komissiyasının (müfəttişin) və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə

448. Ləğvetmə prosesində olan cəmiyyətin növbədənkənar ümumi yığıncağı kim tərəfindən çağırılır?

Ləğvetmə komissiyası tərəfindən

449. Hansı halda ümumi yığıncaq səlahiyyətlidir?

Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında cəmiyyətin paylarının əlli faizindən artıq hissəsinə malik olan iştirakçılar iştirak etdikdə

450. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq hansı qaydada çağırılmalıdır?

Cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən

451. Yenidən çağırılan ümumi yığıncaq nə zaman səlahiyyətlidir?

Cəmiyyətin paylarının əlli faizinə malik olan iştirakçılar iştirak etdikdə

452. Təkrarən çağırılan ümumi yığıncaq nə zaman səlahiyyətlidir?

Cəmiyyətin paylarının 25 faizinə malik olan iştirakçılar iştirak etdikdə

453. Bir iştirakçıdan ibarət olan cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar kim tərəfindən qəbul edilir və rəsmiləşdirilir?

Həmin iştirakçı tərəfindən təkbaşına qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

454. Cəmiyyəti idarəetmə orqanlarının səlahiyyətləri, habelə onların qərarlar qəbul etməsi və cəmiyyətin adından çıxış etməsi qaydası hansı aktlara uyğun olaraq müəyyənləşdirilir?

MM-ə və cəmiyyətin nizamnaməsinə

455. Məhdud məsuliyyətli cəmiyyət iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətinə nələr aiddir?

- Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
- cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya) təftiş komissiyasını (müfəttişini) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- MM-in 49-1.2-ci və 87.10-cu maddələrində nəzərdə tutulmuş, yəni dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən və məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqdlərin bağlanması haqqında qərar qəbul etmək.

456. Məhdud məsuliyyətli cəmiyyət (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün nə etməlidir?

Hər il müstəqil auditor cəlb etməlidir (kənar audit).

457. Cəmiyyətin illik maliyyə hesabatlarının auditor yoxlanışı hər hansı iştirakçının tələbi ilə aparıldıqda, auditor yoxlanışı kimin hesabına aparılır?

Həmin yoxlamanı tələb edən iştirakçının hesabına

458. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası necə müəyyənləşdirilir?

Qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə

459. Cəmiyyətin işlərinin aparılması nəticələri haqqında cəmiyyət tərəfindən məlumatların dərc edilməsi (açıq hesabat) tələb olunurmu?

Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, xeyr.

460. "İctimai əhəmiyyətli qurumlar" dedikdə, hansı qurumlar başa düşülür?

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.9-cu maddəsində göstərilən kommersiya təşkilatları, yəni kredit təşkilatları, sığortaçılar, təkrarsığortaçılar, investisiya fondları və bu fondların idarəçiləri, qeyri-dövlət (özəl) sosial fondları, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər və maliyyə hesabatlarının tərtibi tarixində müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi meyar göstəricilərinin (illik gəliri, hesabat ili ərzində işçilərin orta sayı və balansın yekun məbləği) ikisindən yuxarı olan göstəricilərə malik kommersiya təşkilatları

461. MM-in 91.1-ci maddəsində nəzərdə tutulmuş halda, yəni cəmiyyətin nizamnaməsində nəzərdə tutulduqda yaradılmış direktorlar şurası (müşahidə şurası) hansı fəaliyyəti həyata keçirir?

Cəmiyyətin ümumi yığıncaqları arasındakı dövrdə onun icra orqanının fəaliyyətinə nəzarəti (maddə 91-1)

462. Əgər nizamnamədə təftiş komissiyasının seçilməsi (müfəttişin təyin edilməsi) nəzərdə tutulmamışdırsa, MM-ə uyğun olaraq təftiş komissiyasının (müfəttişin) səlahiyyətləri hansı orqana verilə bilər?

Direktorlar şurasına (müşahidə şurasına)

463. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) yaradılması və fəaliyyəti, habelə səlahiyyətlərinə xitam verilməsi qaydası hansı sənədlə müəyyən edilir?

Nizamnamə ilə

464. Kimlər direktorlar şurasının (müşahidə şurasının) üzvü ola bilməz?

Cəmiyyətin təkbaşına rəhbəri, kollegial icra orqanının rəhbəri (üzvü), kənar idarəçi

465. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) sədri onun iclaslarını hansı müddətdə çağırır və iclaslara sədrlik edir?

Üç ayda bir dəfədən az olmayaraq

466. Kimlərin tələbi ilə direktorlar şurasının (müşahidə şurasının) iclası şuranın sədri tərəfindən çağırılır?

Cəmiyyətin təftiş komissiyasının (müfəttişin), icra orqanının, şura üzvlərinin və nizamnamə ilə müəyyən edilə bilən digər şəxslərin

467. Şuranın iclasının keçirilməsi qaydaları hansı sənəd əsasında müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi ilə

468. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) iclasında səsvermə hansı qaydada həyata keçirilir?

Hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, şuranın sədrinin səsi həlledici hesab edilir.

469. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) iclasının yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən hansı akt tərtib edilir?

Protokol

470. Həmin protokol kimlər tərəfindən imzalanır?

Şuranın sədri və üzvləri tərəfindən

471. Cəmiyyətin icra orqanının fəaliyyəti və onun tərəfindən qərarların qəbul edilməsi qaydası hansı sənədlərlə müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi və daxili sənədləri ilə (maddə 91-2)

472. Cəmiyyətin kollegial icra orqanı kimlərdən ibarət ola bilər?

Yalnız fiziki şəxslərdən

473. Cəmiyyət və cəmiyyətin təkbaşına rəhbəri arasında müqavilə kim tərəfindən imzalanır?

Həmin şəxsin seçildiyi (təyin edildiyi) cəmiyyətin iştirakçılarının ümumi yığıncağında sədrlik edən şəxs və ya ümumi yığıncağın qərarı ilə müvəkkil edilən şəxs tərəfindən

474. Təkbaşına rəhbərin səlahiyyətləri hansı hal istisna olmaqla, fiziki şəxs tərəfindən həyata keçirilir?

MM-in 91-2.4-cü maddəsində nəzərdə tutulmuş halda, yəni cəmiyyətin nizamnaməsində nəzərdə tutulduqda

475. Hansı halda cəmiyyətin icra orqanının səlahiyyətləri müqavilə əsasında başqa fiziki və ya hüquqi şəxslərə (kənar idarəçiyə) verilə bilər?

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda

476. Kənar idarəçi icra orqanı kimi cəmiyyətə münasibətdə hansı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır?

İdarəetməni qeyri-qənaətbəxş həyata keçirməsi nəticəsində və üçüncü şəxslərə ziyan vurduğu zərərə görə

477. Hansı halda cəmiyyətin iştirakçılarının ümumi yığıncağının qərarı ilə təftiş komissiyası (müfəttiş) seçilir (təyin edilir)?

MM-in 91-ci maddəsində nəzərdə tutulmuş halda (maddə 91-3)

478. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası hansı sənədlə müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi ilə

479. Cəmiyyətin iştirakçısı olmayan şəxslərin də təftiş komissiyasına üzv seçilməsinə (müfəttiş təyin edilməsinə) yol verilirmi?

Bəli.

480. Kimlər təftiş komissiyasına üzv seçilə (müfəttiş təyin edilə) bilməz?

Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya kollegial icra orqanının rəhbəri (üzvü), təkbaşına rəhbər və ya kənar idarəçi

481. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) hansı hüquqları var?

Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaq və bu məqsədlə cəmiyyətin fəaliyyətinə aid olan bütün sənədləri əldə etmək

482. Təftiş komissiyasının (müfəttişin) tələbi ilə kimlər zəruri məlumatları şifahi və ya yazılı formada təqdim etməyə borcludurlar?

Direktorlar şurasının (müşahidə şurasının) və ya kollegial icra orqanının rəhbəri (üzvləri), təkbaşına rəhbər, kənar idarəçi

483. Hansı orqanın rəyi olmadan cəmiyyətin iştirakçılarının ümumi yığıncağı cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq edə bilməz, habelə mənfəət və zərərin bölüşdürülməsinə dair qərar qəbul edə bilməz?

Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) rəyi olmadan

484. Hansı cəmiyyət və qurumlarda daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün direktorlar şurası (müşahidə şurası) tərəfindən audit komitəsi yaradılır?

İştirakçılarının sayı əllidən çox olan cəmiyyətlərdə, habelə ictimai əhəmiyyətli qurumlarda (maddə 91-4)

485. Hansı halda iştirakçıların sayı əllidən çox olmayan cəmiyyətlərdə də audit komitəsi yaradılır?

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda

486. Kimlər audit komitəsinin üzvü ola bilməzlər?

Cəmiyyətin icra orqanının üzvləri və (və ya) cəmiyyətin iştirakçıları

487. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri audit komitəsinin üzvü ola bilərlərmi?

Bəli.

488. Cəmiyyətin fəaliyyətinin daxili auditi cəmiyyətin audit komitəsinin təşəbbüsü ilə hansı orqanların qərarı və ya tələbi ilə həyata keçirilir?

Ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin paylarının on faizindən artıq hissəsinə malik olan iştirakçıların və cəmiyyətin icra orqanının tələbi ilə

489. Audit komitəsi hansı orqana tabedir?
Direktorlar şurasına (müşahidə şurasına)

490. Cəmiyyətin yenidən təşkilinin və ləğvinin başqa əsasları, habelə onun yenidən təşkili və ləğvi qaydası hansı qanunla müəyyənləşdirilir?
MM ilə (maddə 92)

491. Məhdud məsuliyyətli cəmiyyət səhmdar cəmiyyətinə çevrilə bilərmi?
Bəli.

492. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətin nizamnamə kapitalındakı payını və ya onun bir hissəsini sata və ya başqa qaydada güzəşt edə bilərmi?
Bəli (maddə 93).

493. Kimlər iştirakçının payını (onun bir hissəsini) öz paylarının miqdarına mütənasib surətdə satın almaqda üstünlük hüququna malikdirlər?
Cəmiyyətin iştirakçıları

494. Cəmiyyətin iştirakçısı öz payını (onun bir hissəsini) özgəninkiləşdirmək istədikdə həmin payın (onun bir hissəsinin) satın alınmasını ilkin olaraq kimlərə təklif etməlidir?
Cəmiyyətin digər iştirakçılarına

495. Cəmiyyətin iştirakçıları hansı müddətdə öz üstünlük hüquqlarından istifadə etməzlərsə, iştirakçının payı üçüncü şəxsə özgəninkiləşdirilə bilər?
Xəbərdar edildikləri gündən bir ay ərzində və ya cəmiyyətin nizamnaməsində və ya onun iştirakçılarının razılaşmasında nəzərdə tutulan başqa müddətdə

496. Hansı halda cəmiyyət iştirakçının payını əldə etməyə borcludur?
Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsinə uyğun olaraq iştirakçının payının (onun bir hissəsinin) üçüncü şəxslərə özgəninkiləşdirilməsi mümkün olmadıqda, cəmiyyətin digər iştirakçıları isə onu satın almaqdan imtina etdikdə

497. İştirakçının payını (onun bir hissəsini) məhdud məsuliyyətli cəmiyyət özü əldə etdiyi halda cəmiyyət hansı hərəkəti etməyə borcludur?
Onu özünün nizamnaməsində nəzərdə tutulan müddətlərdə və qaydada başqa iştirakçılara və ya üçüncü şəxslərə satmağa və ya MM-in 90.4 və 90.5-ci maddələrinə uyğun olaraq öz nizamnamə kapitalını azaltmağa

498. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı paylar cəmiyyətin iştirakçısı olan fiziki şəxslərin vərəsələrinə və hüquqi şəxslərin hüquq varislərinə hansı şərtlə keçir?
O şərtlə keçir ki, cəmiyyətin nizamnaməsində payların onlara yalnız cəmiyyətin qalan iştirakçılarının razılığı ilə keçməsi nəzərdə tutulmasın.

499. Payın keçməsinə razılıq verməkdən imtina edilməsi nələrə səbəb olur?

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulan qaydada və şərtlərlə cəmiyyətin həmin payın həqiqi dəyərini iştirakçının vərəsələrinə (hüquq varislərinə) ödəməsi və ya həmin dəyərə bərabər əmlakı onlara naturada verməsi vəzifəsinin yaranmasına

500. İştirakçının şəxsi borcları üzrə tutmanın onun məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı payına yönəldilməsinə hansı halda yol verilir?

Yalnız onun başqa əmlakının borclarını ödəməyə kifayət etmədiyi halda (maddə 94)

501. Həmin iştirakçının kreditorları məhdud məsuliyyətli cəmiyyətdən tutmanın yönəldilməsi məqsədilə nəyi tələb edə bilərlər?

Cəmiyyətin əmlakının borclunun nizamnamə kapitalındakı payına uyğun hissəsinin dəyərini ödəməyi və ya bu əmlak hissəsini ayırmağı

502. Cəmiyyətin əmlakının ayrılmalı hissəsi və ya onun dəyəri hansı balans üzrə müəyyənləşdirilir?

Kreditorların tələb irəli sürdükləri məqamda tərtib edilmiş balans üzrə

503. İştirakçının məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı bütün payına tutmanın yönəldilməsi nəyə səbəb olur?

Onun cəmiyyətdə iştirakına xitam verir.

504. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı onun digər iştirakçılarının razılığından asılı olmayaraq istənilən vaxt cəmiyyətdən çıxa bilərmi?

Bəli (maddə 95).

505. Məhdud məsuliyyətli cəmiyyətdən çıxan iştirakçıya hansı əmlak hissəsi ödənilir?

Əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının nizamnamə kapitalındakı payına uyğun əmlak hissəsi (maddə 96)

506. Çıxan iştirakçının cəmiyyət ilə razılaşmasına əsasən əmlakın dəyərinin ödənilməsi hansı formada ödənişlə əvəz edilə bilər?

Əmlakın naturada verilməsi ilə

507. Əgər məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalına maya kimi əmlakdan istifadə hüququ verilmişdirsə, müvafiq əmlak cəmiyyətdən çıxan iştirakçıya qaytarılırmı?

Bəli.

508. Həmin əmlakın normal aşınma nəticəsində dəyərinin azalmasının əvəzi ödənilirmi?

Xeyr.

509. Hansı cəmiyyət əlavə məsuliyyətli cəmiyyət sayılır?

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət (maddə 97)

510. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə hansı qaydada məsuliyyət daşıyırlar?

Öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət

511. İştirakçılardan biri müflis olduqda cəmiyyətin öhdəlikləri üzrə onun məsuliyyəti hansı qaydada bölünür?

Əgər cəmiyyətin nizamnaməsində məsuliyyətin bölünməsinin ayrı qaydası nəzərdə tutulmayıbsa, qalan iştirakçılar arasında onların mayalarına mütənasib surətdə

512. Əlavə məsuliyyətli cəmiyyətin firma adında nələr göstərilməlidir?

Cəmiyyətin adı, habelə «məhdud məsuliyyətli cəmiyyət» sözləri

513. Hansı cəmiyyət səhmdar cəmiyyəti sayılır?

Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət (maddə 98)

514. Səhmdar cəmiyyətinin əmlakı hansı mənbələr hesabına yaranır?

Onun səhmlərinin yerləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində, habelə qanunla qadağan edilməmiş digər mənbələr hesabına

515. Səhmdar cəmiyyəti hansı formalarda yaradıla bilər?

MM-ə müvafiq olaraq yeni cəmiyyətin yaradılması və ya müvafiq olaraq, MM-də, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunlarında müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, bölünmə, ayrılma, çevrilmə) yolu ilə

516. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) onun öhdəlikləri üçün hansı həddə məsuliyyət və risk daşıyırlar?

Cavabdeh deyillər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.

517. Səhmdar cəmiyyəti bir şəxs (fiziki və ya hüquqi şəxs) tərəfindən yaradıla və ya cəmiyyətin bütün səhmlərini bir səhmdarın əldə etdiyi halda bir şəxsdən (fiziki və ya hüquqi şəxsdən) ibarət ola bilərmi?

Bəli.

518. Səhmdar cəmiyyətinin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilərmi?

Xeyr.

519. Səhmdar cəmiyyətinin firma adında nələr göstərilməlidir?

Onun adı, habelə "açıq səhmdar cəmiyyəti" və ya "qapalı səhmdar cəmiyyəti" sözləri

520. Səhmdar cəmiyyətinin hüquqi vəziyyəti və səhmdarların hüquq və vəzifələri, müvafiq olaraq, hansı qanunlara uyğun olaraq müəyyənləşdirilir?

MM-ə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarına

521. Dövlət müəssisələri özəlləşdirilərkən səhmdar cəmiyyətlərinin yaradılması xüsusiyyətləri hansı qanunvericiliklə müəyyənləşdirilir?

Həmin müəssisələrin özəlləşdirilməsinə dair qanunvericiliklə

522. Səhmdar cəmiyyətinin yaradılması nələri əhatə edir?

Təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını (MM-in 45.2-ci maddəsində nəzərdə tutulmuş halda, yəni bir neçə təsisçi tərəfindən yaradıldıqda) və ya səhmdar cəmiyyətinin yaradılması haqqında qərarın qəbul edilməsini (səhmdar cəmiyyəti bir şəxs tərəfindən yaradıldıqda), səhmlərin təsisçilər arasında bölüşdürülməsini və nizamnamənin hazırlanmasını (qəbul olunmasını)

523. Səhmdar cəmiyyətinin yaradılması zamanı təsis yığıncağı hansı müddətdə və halda keçirilir?

Təsisçilər arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş müddətdə, səhmdar cəmiyyətinin bütün səhmləri təsisçilər arasında bölüşdürüldükdə

524. Yetərsay təkrarən keçirilən təsis yığıncağında da olmadıqda, səhmdar cəmiyyətinin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir. Bu qərar bütün təsisçilərin nəzərinə hansı müddətdə çatdırılır?

Yeddi gün müddətində

525. Səhmdar cəmiyyətinin yaradılması zamanı keçirilən təsis yığıncağı nəyi təsdiq edir?

- Səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərini təsdiq edir;
- səhmdar cəmiyyətinin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;
- müvafiq olaraq, MM, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları və səhmdar cəmiyyətinin nizamnaməsi ilə nəzərdə tutulmuş səhmdar cəmiyyətinin idarəetmə, nəzarət və icra orqanlarını təşkil edir;
- səhmdar cəmiyyətinin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar MM-ə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir.

526. Səhmdar cəmiyyətinin təsis yığıncağında hansı qərarlar təsisçilər tərəfindən yekdilliklə qəbul edilir?

Cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərinin təsdiq edilməsi, idarəetmə, nəzarət və icra orqanlarının formalaşdırılması barədə qərarları

527. Səhmdar cəmiyyətinin təsisi zamanı səhmlərin buraxılışı və dövlət qeydiyatı, müvafiq olaraq, hansı qanunlarla müəyyən edilmiş qaydada həyata keçirilir?

MM, "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunları ilə

528. Səhmdar cəmiyyətinin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri hansı qaydada məsuliyyət daşıyırlar?

Birgə məsuliyyət

529. MM-in 98.4-cü, 98.5-ci və 98.11.1-ci maddələrində qeyd edilmiş məsələlərlə, yəni səhmdar cəmiyyətin iştirakçılarının onun öhdəlikləri üçün cavabdeh olmaması, cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyərində risk daşıması, səhmdar cəmiyyətin bir şəxs tərəfindən yaradılması, təsis yığıncağı tərəfindən səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərinin təsdiq edilməsi ilə əlaqədar banklara, sığortaçılara və qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə münasibətdə hansı qanunların müddəaları tətbiq edilir?

"Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarının müddəaları

530. 98.5-ci və 98.11.1-ci maddələrdə qeyd edilmiş məsələlərlə, yəni səhmdar cəmiyyətin bir şəxs tərəfindən yaradılması və təsis yığıncağı tərəfindən səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərinin təsdiq edilməsi ilə əlaqədar səhmdar investisiya fondlarına münasibətdə hansı qanunun müddəaları tətbiq edilir?

"İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları

531. Hansı halda səhmdar cəmiyyəti açıq səhmdar cəmiyyəti sayılır?

Səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bildikdə (maddə 99)

532. Hansı səhmdar cəmiyyəti buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər?

Açıq səhmdar cəmiyyəti

533. Açıq səhmdar cəmiyyəti illik hesabat və maliyyə hesabatlarından (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) başqa daha hansı məlumatları hamının tanış olması üçün hər il dərc etməyə borcludur?

- Hesabat dövrü üzrə maliyyə göstəriciləri;
- aidiyyəti şəxslərlə bağlanılmış və xüsusi əhəmiyyətli əqdlər;
- cəlb edilmiş maliyyə vəsaitləri;
- idarəetmə orqanları və vəzifəli şəxslər, onların əsas və əlavə iş yerləri;
- idarəetmə strukturu;
- inkişaf siyasəti;
- səhmdar kapitalının gəlirliliyi və dividend siyasəti;
- idarəetmə orqanlarının hər bir üzvünə verilən ödənişlər;
- investisiyaların həcmi və mənbəyi;
- cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliyi;
- ictimai layihələr.

534. Hansı əqd xüsusi əhəmiyyətli əqd hesab edilir?

Açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd

535. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar harada qəbul edilir və bu barədə məlumat açıqlanır?

Səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağında

536. Açıq səhmdar cəmiyyətləri ilə bağlı 99-cu maddənin tələbləri hansı hüquqi şəxslərə şamil edilmir?

Banklara və xarici bankların yerli filiallarına

537. Hansı səhmdar cəmiyyəti qapalı səhmdar cəmiyyətidir?

Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan cəmiyyət (maddə 100)

538. Bu cür cəmiyyət hansı hərəkətləri edə bilməz?

Buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz və ya başqa şəkildə onları əldə edilmək üçün şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz.

539. Qapalı səhmdar cəmiyyətinin iştirakçılarının sayı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddi keçərsə, onunla bağlı hansı tədbirlər görülməlidir?

Bir il ərzində açıq səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onların sayı azaldılıb müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

540. Qapalı səhmdar cəmiyyəti hansı sənədləri hamının tanış olması üçün dərc etməyə borcludur?

MM-in 99-cu maddəsində göstərilən sənədləri, yəni illik hesabatını və maliyyə hesabatlarını (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla), habelə hesabat dövrü üzrə maliyyə göstəricilərini, aidiyyəti şəxslərlə bağlanılmış və xüsusi əhəmiyyətli əqdləri, cəlb edilmiş maliyyə vəsaitlərini, idarəetmə orqanları və vəzifəli şəxslər, onların əsas və əlavə iş yerlərini, idarəetmə strukturunu, inkişaf siyasətini, səhmdar kapitalının gəlirliyi və dividend siyasətini, idarəetmə orqanlarının hər bir üzvünə verilən ödənişləri, investisiyaların həcmi və mənbəyini, cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliyini, ictimai layihələri

541. Kimlər cəmiyyətin səhmdarlarının satdıqları səhmləri əldə etməkdə üstünlük hüququna malikdirlər?

Qapalı səhmdar cəmiyyətinin digər səhmdarları (maddə 101)

542. Əgər səhmdarlardan heç biri cəmiyyətin nizamnaməsində nəzərdə tutulan müddətdə, lakin satış elan olunduğu tarixdən etibarən otuz gün ərzində özünün üstünlük hüququndan istifadə etməzsə, səhmdar cəmiyyəti hansı hüquqa malik olur?

Sonrakı otuz gün ərzində səhmdar cəmiyyəti həmin səhmləri onların mülkiyyətçisi ilə razılaşdırılmış qiymətə özü əldə edə bilər.

543. Hansı halda səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər və bu halda hansı şərtə riayət olunmalıdır?

Səhmdar cəmiyyəti səhmləri əldə etməkdən imtina etdikdə və ya onların qiymətinə dair razılığa gəlinmədikdə. Bu zaman səhmin satış qiyməti səhmdarlara və ya səhmdar cəmiyyətinə təklif edilən qiymətdən aşağı olmamalıdır.

544. Əks halda səhmdar cəmiyyəti məhkəmə qaydasında nəyi tələb edə bilər?

Həmin əqdin etibarsız hesab edilməsini və səhmin həmin qiymətə cəmiyyətə satılmasını

545. Qapalı səhmdar cəmiyyətinin səhmləri girov qoyulduqda və sonradan onlara girov saxlayan tərəfindən tutma yönəldildikdə müvafiq olaraq MM-in hansı qaydaları tətbiq edilir?

MM-in 101.1-ci maddəsinin qaydaları tətbiq edilir. Bu müddəaya əsasən, qapalı səhmdar cəmiyyətinin səhmdarları həmin cəmiyyətin digər səhmdarlarının satdıqları səhmləri əldə etməkdə üstünlük hüququna malikdirlər. Əgər səhmdarlardan heç biri cəmiyyətin nizamnaməsində nəzərdə tutulan müddətdə, lakin satış elan olunduğu tarixdən etibarən otuz gün ərzində özünün üstünlük hüququndan istifadə etməzsə, sonrakı otuz gün ərzində səhmdar cəmiyyəti həmin səhmləri onların mülkiyyətçisi ilə razılaşdırılmış qiymətə özü əldə edə bilər. Səhmdar cəmiyyəti səhmləri əldə etməkdən imtina etdikdə və ya onların qiymətinə dair razılığa gəlinmədikdə səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər. Bu zaman səhmin satış qiyməti səhmdarlara və ya səhmdar cəmiyyətinə təklif edilən qiymətdən aşağı olmamalıdır. Əks halda səhmdar cəmiyyəti həmin əqdin etibarsız hesab edilməsini və səhmin həmin qiymətə cəmiyyətə satılmasını məhkəmə qaydasında tələb edə bilər.

546. Əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, qapalı səhmdar cəmiyyətinin səhmləri kimlərə keçir?

Səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə

547. Cəmiyyət səhmlərin səhmdar olan fiziki şəxsin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə keçməsinə razılıq verməkdən imtina etdikdə hansı qaydalar tətbiq edilir?

MM-in 101.1-ci maddəsinin qaydaları tətbiq edilir. Bu müddəaya əsasən, qapalı səhmdar cəmiyyətinin səhmdarları həmin cəmiyyətin digər səhmdarlarının satdıqları səhmləri əldə etməkdə üstünlük hüququna malikdirlər. Əgər səhmdarlardan heç biri cəmiyyətin nizamnaməsində nəzərdə tutulan müddətdə, lakin satış elan olunduğu tarixdən etibarən otuz gün ərzində özünün üstünlük hüququndan istifadə etməzsə, sonrakı otuz gün ərzində səhmdar cəmiyyəti həmin səhmləri onların mülkiyyətçisi ilə razılaşdırılmış qiymətə özü əldə edə bilər. Səhmdar cəmiyyəti səhmləri əldə etməkdən imtina etdikdə və ya onların qiymətinə dair razılığa gəlinmədikdə səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər. Bu zaman səhmin satış qiyməti səhmdarlara və ya səhmdar cəmiyyətinə təklif edilən qiymətdən aşağı olmamalıdır. Əks halda səhmdar cəmiyyəti həmin əqdin etibarsız hesab edilməsini və səhmin həmin qiymətə cəmiyyətə satılmasını məhkəmə qaydasında tələb edə bilər.

548. Səhmdar cəmiyyətinin nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilən məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından savayı, həmçinin hansı məlumatlar göstərilməlidir?

Cəmiyyətin buraxdığı səhmlərin kateqoriyaları, onların nominal dəyəri və miqdarı haqqında; cəmiyyətin nizamnamə kapitalının miqdarı haqqında; səhmdarların hüquqları haqqında; cəmiyyəti idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında şərtlər (maddə 102)

549. Səhmdar cəmiyyətinin nizamnaməsinin tələblərinə riayət edilməsi kimlər üçün məcburidir?

Cəmiyyətin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları

550. Səhmdar cəmiyyəti öz səhmdarlarına nizamnamə, ona edilən əlavə və dəyişikliklər ilə bağlı hansı hüquqları verməlidir?

Onlarla tanış olmaq imkanı yaratmalıdır. Səhmdarın tələbi ilə nizamnamənin surəti ona verilməlidir.

551. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, cəmiyyətin nizamnaməsində əlavə və dəyişikliklər edilməsi qərarı səhmdarların ümumi yığıncağında hansı qaydada qəbul edilir?

Səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə

552. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı nələrdən təşkil olunur?

Cəmiyyətin səhmdarlar tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən (maddə 103)

553. Səhmdar cəmiyyətinin nizamnamə kapitalına qoyuluşların formaları, müvafiq olaraq, hansı aktlarla müəyyən edilir?

MM, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunları və təsisçilər arasında bağlanmış müqavilə ilə

554. Səhmdar cəmiyyətinin nizamnaməsinə qoyuluşlar hansı formalarda ola bilər?

Pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar

555. Səhmdar cəmiyyətinin yaradılması zamanı pul olmayan əmlakın dəyəri hansı orqanın qərarı ilə müəyyən edilir?

Təsis yığıncağının qərarı ilə, səhmdar cəmiyyəti yaradıldıqdan sonra isə - səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə

556. Cəmiyyətin nizamnamə kapitalı hansı miqdardan az ola bilməz?

Müvafiq icra hakimiyyəti orqanı və maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan

557. Səhmdar cəmiyyətinin təsisçiləri nə vaxta qədər nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar?

Cəmiyyət qeydə alınanadək

558. Səhmdarı cəmiyyətin səhmlərini ödəmək vəzifəsindən azad etməyə, o cümlədən cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad etməyə yol verilirmi?

Xeyr.

559. Hansı halda cəmiyyət öz nizamnamə kapitalının azalmasını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur?

Əgər ikinci və hər növbəti maliyyə ili başa çatarkən cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa

560. "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Poçt haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, hansı halda cəmiyyət ləğv edilməlidir?

Əgər cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa

561. Cəmiyyətin nizamnaməsində səhmlərin sayının, məcmu nominal dəyərinin və ya bir səhmdara mənsub səslərin maksimum sayının məhdudlaşdırılması müəyyənləşdirilə bilərmi?

Bəli.

562. Hansı orqanın qərarına əsasən səhmdar cəmiyyəti səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər?

Səhmdarların ümumi yığıncağının (maddə 104)

563. Səhmdar cəmiyyətinin səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları hansı orqan tərəfindən müəyyən edilir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən

564. Hansı səhmdarların cəmiyyət tərəfindən əlavə buraxılan səhmləri cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada satın almaqda üstünlük hüququ var?

Sadə (adi) və ya digər səsli səhmlərə sahib olan

565. Hansı orqanın qərarına əsasən, səhmdar cəmiyyəti səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər?

Səhmdarların ümumi yığıncağının qərarına əsasən (maddə 105)

566. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması haqqında səhmdarların ümumi yığıncağının qərarı qəbul edildiyi gündən hansı müddət ərzində cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir?

On beş təqvim günü müddətində

567. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra hansı müddət ərzində cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər?

Otuz təqvim günü ərzində

568. Səhmlərin bir hissəsinin satın alınması və ödənilməsi yolu ilə səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılmasına hansı şərtlə yol verilir?

O şərtlə yol verilir ki, belə imkan cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş olsun.

569. "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Poçt haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdar cəmiyyəti tərəfindən nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdardan aşağı endirilməsi nəyə səbəb olur?

Cəmiyyətin ləğvinə səbəb olur.

570. Səhmdar cəmiyyəti tərəfindən yerləşdirilmiş səhmlərin geri alınması hansı hallarda səhmdarların tələbi ilə həyata keçirilir?

MM və ya cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş hallarda (maddə 105-1)

571. Cəmiyyət nizamnamə kapitalının miqdarını və səhmlərin sayını azaltmaq məqsədilə hansı orqanın qərarı əsasında əvvəl yerləşdirilmiş səhmlərinin bir hissəsini geri ala bilər və bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri hansı tələbə cavab verməlidir?

Ümumi yığıncağın qərarı əsasında geri ala bilər və bu zaman nominal dəyər qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır.

572. Səhmlərin geri alınması səhm sahiblərinin razılığı ilə hansı hal istisna olmaqla ümumi yığıncaqda səhmin müəyyən olunmuş qiyməti ilə həyata keçirilir?

Səhmlərin geri alınması fond birjası vasitəsilə həyata keçirildiyi hal istisna olmaqla

573. Hansı hallarda cəmiyyətin səhmlərinin geri alınması qərarı qəbul edilə bilməz?

- Cəmiyyətin nizamnamə kapitalı tam formalaşmadıqda;
- cəmiyyətin ləğvi barədə qərar qəbul edildikdə;
- səhmdarların tələbi əsasında onların səhmlərinin geri alınması başa çatmadıqda.

574. Geri alınmış səhmlər geri satın alındığı tarixdən hansı müddətdə ya təkrarən yerləşdirilməli, ya da ümumi yığıncağın qərarı ilə ləğv edilməlidir?

Bir il müddətində

575. Səhmdar cəmiyyətinin səhmlərinin, istiqrazlarının və digər növ qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi, dövriyyəsi və ləğvi hansı aktlara müvafiq olaraq həyata keçirilir?

MM, MM-ə müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlara və cəmiyyətin nizamnaməsinə müvafiq olaraq (maddə 106)

576. Səhmdar cəmiyyətinin hansı səhmləri buraxmaq hüququ var?

Adi və imtiyazlı səhmlər

577. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının ümumi həcmində imtiyazlı səhmlərin payı nə qədər olmalıdır?

İyirmi beş faizdən çox ola bilməz.

578. İmtiyazlı səhm öz sahiblərinə hansı hüquqları verir?

Səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ və bu cür səhmlərin buraxılması şərtlərində nəzərdə tutulan digər hüquqları

579. İmtiyazlı səhmlər öz sahiblərinə cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququ verirmi?

MM-də və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş hallar istisna olmaqla, vermir.

580. Səhmdar cəmiyyətinin qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası hansı qaydalara müvafiq olaraq həyata keçirilir?

MM-in 1078-26-cı maddəsinə, yəni qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası qaydalarına uyğun olaraq

581. Səhmdar cəmiyyətinin səhmdarı kimdir?

Səhmdar cəmiyyətinin bir və ya daha çox sayda səhmlərinin MM ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir (maddə 106-1).

582. Səhmdar cəmiyyətinin adi səhminin sahibi olan səhmdarının qanunvericiliklə müəyyən edilmiş qaydada hansı hüquqları var?

- Cəmiyyətin idarə edilməsində MM, digər qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək (MM-in 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar, yəni aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyərinin hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etməsi və aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyərinin hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etməsi halları istisna olmaqla) və onun protokolunun surətini tələb etmək;
- cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- icra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və səhmdar cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;

- cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;

- bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

- bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq;

- MM-də və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

583. Səhmdar cəmiyyətinin imtiyazlı səhminin (hər bir növ üzrə) sahibi olan səhmdarının hüquqları hansı aktlarla müəyyən edilir?

MM və səhmdar cəmiyyətinin nizamnaməsi ilə

584. Səhmdar cəmiyyətinin nizamnaməsində hansı məsələlər üzrə qərarların qəbul edilməsində imtiyazlı səhm sahibi səs hüququ əldə edir?

- Səhmdar cəmiyyətinin yenidən təşkil edilməsi;

- səhmdar cəmiyyətinin ləğv edilməsi;

- səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin nizamnamədə edilməsi.

585. Səhmdar cəmiyyətinin səhmdarının vəzifələri hansılardır?

- Qanuna və (və ya) nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;

- səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə mərkəzi depozitara on təqvim günü ərzində yazılı bildiriş vermək;

- qanunvericiliklə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.

586. Səhmdar cəmiyyəti hansı müddətdə səhmdarlarının reyestrinin aparılmasını təmin etməlidir?

Dövlət qeydiyyatına alındığı tarixdən otuz təqvim günündən gec olmayaraq (maddə 106-2)

587. Səhmdar cəmiyyətinin səhmdarlarının reyestri hansı orqan tərəfindən aparılmalıdır?

Mərkəzi depozitar

588. Səhmdar hansı müddətdə cəmiyyətin icra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər?

İldə bir dəfə

589 Səhmdarın ildə bir dəfə cəmiyyətin icra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilməsi halında səhmdar cəmiyyətinin icra orqanı səhmdarların reyestrini hansı müddət ərzində həmin səhmdara təqdim etməlidir?

Beş gün ərzində

590. Səhmdar cəmiyyətinin xalis mənfəəti nə zaman yaranır?

Vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər (maddə 106-3).

591. Xalis mənfəətin səhmdar cəmiyyətinin maliyyə ili üzrə bölüşdürülməsi hansı orqanın qərarı ilə qəbul edilir?

Səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə

592. Səhmdar cəmiyyətinin dividendlərin ödənilməsi barədə öhdəlikləri nə zaman yaranır və icra edilir?

Onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir.

593. Səhmdarların tərkibinin dəyişməsi dividendlərin ödənilməsi barədə qərarın MM ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir edirmi?

Xeyr.

594. Adi səhm üzrə dividend nəyə deyilir?

Səhmdar cəmiyyətinin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

595. İmtiyazlı səhm üzrə dividend nəyə deyilir?

Səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, imtiyazlı səhm sahiblərinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində ödənilən vəsaitdir

596. Dividendlər və onların ödənilməsi qaydası haqqında qərar (həmin məsələ nizamnamədə müəyyən edilmədikdə) hansı orqan tərəfindən qəbul edilir?

Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya həmin orqanlar formalaşdırılmadıqda, cəmiyyətin icra orqanının təklifi ilə ümumi yığıncaq tərəfindən

597. Səhmdar cəmiyyəti adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) nə zaman həyata keçirir?

İmtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra

598. Hansı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür?

Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququnu verən imtiyazlı səhmlər üzrə dividendlər

599. Hansı halda səhmdar cəmiyyəti dividendləri elan edə və ödəyə bilməz?

Əgər səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa

600. Səhmdar cəmiyyətinin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə nələr aiddir?

- Cəmiyyətin nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əv-

vəl xitam vermək, bir şərtlə ki, cəmiyyətin nizamnaməsində bu məsələlərin həlli direktorlar şurasının (müşahidə şurasının) səlahiyyətinə aid edilməsin;

- cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
- cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
- MM-in 49-1.2-ci və 99.3-cü maddələrində nəzərdə tutulmuş, yəni dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən və açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdlərin bağlanması haqqında qərar qəbul etmək (maddə 107).

601. Hansı məsələlər həll edilmək üçün səhmdarların ümumi yığıncağı tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz?

MM ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər

602. Hansı hallarda direktorlar şurası (müşahidə şurası) yaradılır?

Səhmdarlarının sayı əllidən çox olan cəmiyyətdə, habelə ictimai əhəmiyyətli qurumlarda

603. Hansı məsələlər həll edilmək üçün direktorlar şurası (müşahidə şurası) tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz?

Nizamnamə ilə direktorlar şurasının (müşahidə şurasının) müstəsna səlahiyyətinə aid edilmiş məsələlər

604. Cəmiyyətin icra orqanı kimlər ola bilər?

Kollegial (idarə heyəti, müdiriyyət) və ya təkbaşçı (direktor, baş direktor)

605. İcra orqanının səlahiyyətlərinə nələr aiddir?

O, cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, direktorlar şurasına (müşahidə şurasına) və səhmdarların ümumi yığıncağına hesabat verir. MM ilə və ya cəmiyyətin nizamnaməsi ilə cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli cəmiyyətin icra orqanının səlahiyyətinə aiddir. "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların ümumi yığıncağının qərarı ilə cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa kommersiya təşkilatına və ya fərdi sahibkara (idarəçiyə) verilə bilər.

606. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının səlahiyyətləri, habelə onların qərarlar qəbul etməsi və cəmiyyətin adından çıxış etməsi qaydası hansı aktlara uyğun olaraq müəyyənləşdirilir?

MM, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarına və cəmiyyətin nizamnaməsinə uyğun olaraq

607. Hansı səhmdarların tələbi ilə səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışı hər bir vaxt keçirilməlidir?

Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan

608. Səhmdarların növbəti ümumi yığıncağı (illik ümumi yığıncaq) hansı qaydada çağırılmalıdır?

İldə bir dəfədən az olmayaraq (maddə 107-1)

609. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların illik ümumi yığıncağı hansı müddətdə və qaydada çağırılır?

Maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq direktorlar şurası (müşahidə şurası) tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir.

610. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda, səhmdarların ümumi yığıncağının çağırılması hansı orqan tərəfindən həyata keçirilir?

Cəmiyyətin icra orqanı tərəfindən

611. Səhmdarların ümumi yığıncağının çağırılmasına neçə gün qalmış yığıncağın çağırılması barədə kütləvi informasiya vasitələri ilə məlumat verilməli (qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olmaqla), habelə səhmdarlara və ya nominal saxlayıcılara bu barədə yazılı bildiriş göndərilməlidir?

45 gün qalmış

612. Nominal saxlayıcı həmin bildirişin kimə çatdırılmasını təmin etməlidir?

Səhmdara

613. Səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişdə nələr göstərilməlidir:

- Cəmiyyətin adı və olduğu yer;
- səhmdarların ümumi yığıncağının keçirilmə tarixi, vaxtı və ünvanı;
- səhmdarların ümumi yığıncağının gündəliyi;
- səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olma qaydası.

614. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların növbədənkənar ümumi yığıncağı hansı orqan tərəfindən çağırılır?

Direktorlar şurasının (müşahidə şurasının) öz təşəbbüsü ilə və ya təftiş komissiyasının (müfəttişin), yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə cəmiyyətin icra orqanı tərəfindən

615. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda səhmdarların növbədənkənar ümumi yığıncağı kim tərəfindən çağırılır?

İcra orqanının təşəbbüsü ilə

616. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı hansı hərəkətləri yerinə yetirməlidir?

- Üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olmaqla, bu barədə kütləvi informasiya vasitələrində elan verməlidir;

- beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;

- otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir.

617. Hansı halda ümumi yığıncaq səlahiyyətlidir?

Səhmdarların ümumi yığıncağında səsli səhmlərin ən azı altmış faizinin sahibləri iştirak etdikdə (maddə 107-2)

618. Səhmdarların ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq hansı qaydada çağırılmalıdır?

MM-in 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, yenidən çağırılmalıdır. Bu zaman ümumi yığıncağın gündəliyi dəyişdirilməməlidir. Yenidən çağırılan ümumi yığıncaq səsli səhmlərin 40 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir. MM-in 107-1.8-ci maddəsinə əsasən, səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olmaqla, bu barədə mediada elan verməli, beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməli, otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir.

619. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq hansı qaydada çağırılmalıdır?

MM-in 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq səsli səhmlərin 25 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir. MM-in 107-1.8-ci maddəsinə əsasən səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olmaqla, bu barədə mediada elan verməli, beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməli, otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir.

620. 107-2.3-cü maddəyə əsasən təkrarən çağırılan ümumi yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, səhmdar cəmiyyət hansı qaydada ləğv edilə bilər?

Maliyyə bazarlarına nəzarət orqanına məlumat verərək yetərsaydan asılı olmadan ümumi yığıncağın qərarı ilə və ya maliyyə bazarlarına nəzarət orqanının iddiası əsasında məhkəmənin qərarı ilə

621. Səhmdar ümumi yığıncaqda iştirak hüququnu hansı qaydada həyata keçirir?

Bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır (maddə 107-3).

622. Hansı halda səhmdar ümumi yığıncağın gündəliyində olan məsələ ilə bağlı səsvermədə qiyabi iştirak edə bilər?

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş halda, ümumi yığıncağın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, yazılı sənəd vasitəsilə

623. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, ümumi yığıncaqda səsvermə səlahiyyəti kimə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir?

Onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə

624. Səhmdarların ümumi yığıncağında səsvermə hansı prinsip əsasında həyata keçirilir?

"Bir səsli səhm — bir səsdir" prinsipi əsasında

625. Səhmdarlarının sayı yüzdən çox olan cəmiyyətlərin ümumi yığıncaqlarında səsvermənin nəticələrinin müəyyən edilməsi üçün hansı orqan yaradılmalıdır?

Sayı üç nəfərdən az olmayan hesablama komissiyası (maddə 107-4)

626. Hesablama komissiyasına kimlər daxil edilə bilməz?

Direktorlar şurasının (müşahidə şurasının) üzvləri, təftiş komissiyasının üzvləri (müfəttiş), icra orqanlarının üzvləri (təkbaşçı icra orqanı) və həmin vəzifələrə (vəzifəyə) seçilməyə namizədlər

627. Hesablama komissiyasının yaradılması qaydası hansı sənədlə müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi ilə

628. Səhmdarların ümumi yığıncağının qərarı hansı qaydada qəbul edilir?

MM və cəmiyyətin nizamnaməsi ilə başqa hal nəzərdə tutulmadıqda, MM-in 107-3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, yəni bir səsli səhm — bir səsdir" prinsipi əsasında ümumi yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə (maddə 107-5)

629. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar hansı qaydada qəbul edilir?

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qayda istisna olmaqla, səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə

630. Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar hansı müddət ərzində səhmdarlara elan edilməlidir?

On beş təqvim günündən gec olmayaraq

631. Səhmdarların ümumi yığıncağının protokolu yığıncaq bitdikdən sonra hansı müddətdə iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir?

Üç iş günündən gec olmayaraq (maddə 107-6)

632. Səhmdarların ümumi yığıncağının protokolunda nələr göstərilir?

- Ümumi yığıncağın keçirilmə vaxtı və yeri;
- ümumi yığıncağın gündəliyi;
- ümumi yığıncağın iştirakçılarının səsli səhmlərinin sayı;
- iştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;
- çıxışların xülasəsi;
- səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;
- ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.

633. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) öz səlahiyyətləri hüdudlarında hansı funksiyaları həyata keçirir?

MM-in 107.3-cü maddəsi ilə nəzərdə tutulmuş halda, yəni səhmdarlarının sayı əllidən çox olan cəmiyyətdə, habelə ictimai əhəmiyyətli qurumlarda cəmiyyətin direktorlar şurası (müşahidə şurası) yaradılır. O, ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir (maddə 107-7).

634. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin sayı və onlara olan tələblər hansı sənəd əsasında müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi ilə. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri üçün sayı və onlara dair tələblər qanunla da müəyyən edilə bilər.

635. Hansı halda otuz təqvim günü ərzində cəmiyyətin növbədənkənar ümumi yığıncağı çağırılaraq, direktorlar şurasına (müşahidə şurasına) yeni üzvlər seçilməlidir?

Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) tərkibi nizamnamədə nəzərdə tutulmuş sayın yarısına qədər azaldıqda

636. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri ümumi yığıncaqda MM ilə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada hansı müddətə seçilirlər?

Üç ildən artıq olmayan müddətə

637. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvü üçün tələblər hansılardır?

Fiziki şəxs olmalıdır. Direktorlar şurasının (müşahidə şurasının) üzvlüyünə, nizamnamədə başqa hal nəzərdə tutulmamışdırsa, cəmiyyətin səhmdarı olmayan şəxs də seçilə bilər. Cəmiyyətin icra orqanlarının üzvləri (təkbaşçı icra orqanı) direktorlar şurasına (müşahidə şurasına) üzv seçilə bilməz.

638. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya onun üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi hansı orqanın qərarı ilə həyata keçirilə bilər?

Ümumi yığıncağın qərarı ilə

639. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri kim ola bilər?

Sədr səhmdarların ümumi yığıncağı tərəfindən direktorlar şurasının (müşahidə şurasının) üzvləri arasından seçilir. Direktorlar şurasının (müşahidə şurasının) sədri şuraya rəhbərlik edir (maddə 107-8).

640. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclasları hansı qaydada çağırılır?

Cəmiyyətin sədri onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin), icra orqanının, şura üzvlərinin və nizamnamə ilə müəyyən edilə bilən digər şəxslərin tələbi ilə də direktorlar şurasının (müşahidə şurasının) iclası şuranın sədri tərəfindən çağırılır. Şuranın iclasının keçirilməsi qaydaları cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir (maddə 107-9).

641. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclasında səsvermə hansı qaydada aparılır?

Hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, şuranın sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

642. Cəmiyyətin icra orqanına kimlər seçilə bilməz?

Direktorlar şurasının (müşahidə şurasının) üzvləri (maddə 107-10)

643. Cəmiyyətin icra orqanının səlahiyyətlərinə hansı məsələlər daxildir?

MM, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları və nizamnamə ilə cəmiyyətin idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələlər

644. Cəmiyyətin kollegial icra orqanının üzvlərinin sayı və tərkibi, habelə fəaliyyətinin qaydaları hansı aktlarla müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə

645. Cəmiyyətin icra orqanının üzvlərinin eyni zamanda digər təşkilatda vəzifə tutmasına yol verilirmi?

Qanunvericiliyə zidd olmadıqda, cəmiyyətin ümumi yığıncağının və ya direktorlar şurasının (müşahidə şurasının) razılığı ilə yol verilir.

646. Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə MM-in 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda, yəni bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etdikdə cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı hansı orqana yazılı şəkildə təqdim etməlidirlər?

Cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına

647. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması hansı aktlar əsasında həyata keçirilə bilər?

MM, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında

648. Cəmiyyətin icra orqanının və ya direktorlar şurasının (müşahidə şurasının) üzvü mülkiyyətində olan qiymətli kağızlarla əqdi bağlamaqdan əvvəl bu barədə məlumatı harada açıqlamalıdır?

Kütləvi informasiya vasitələrində

649. Hansı səhmdar cəmiyyətin icra orqanının üzvü seçilə bilməz?

Cəmiyyətin səhmlərinin iyirmi faizinə malik olan səhmdar

650. Hansı cəmiyyətlərdə maliyyə-təsərrüfat fəaliyyətinə nəzarətin həyata keçirilməsi üçün ümumi yığıncaqda təftiş komissiyası (müfəttiş) seçilir (təyin edilir)?

Səhmdarların sayı əllidən çox olan cəmiyyətlərdə (maddə 107-11)

651. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda daha hansı cəmiyyətlərdə təftiş komissiyası (müfəttiş) seçilə (təyin edilə) bilər?

Səhmdarların sayı əllidən çox olmayan cəmiyyətlərdə

652. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası hansı sənəd əsasında müəyyən edilir?

Cəmiyyətin nizamnaməsi ilə

653. Kimlər təftiş komissiyasının üzvü (müfəttiş) ola bilməzlər?

Cəmiyyətin səhmdarı, direktorlar şurasının (müşahidə şurasının) və cəmiyyətin icra orqanlarının üzvü

654. Cəmiyyətin təftiş komissiyası üzvlərinin (müfəttişin) səlahiyyət müddəti hansı müddətə müəyyən edilir?

Nizamnamə ilə üç ildən artıq olmayan müddətə

655. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təftişi hansı əsaslarla həyata keçirilir?

Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) təşəbbüsü ilə ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və cəmiyyətin icra orqanının tələbi ilə

656. Bu maddənin (107-11-ci maddənin) tələbləri, yəni səhmdar cəmiyyətin təftiş komissiyasına dair tələblər hansı hüquqi şəxslərə şamil edilmir?

Banklara və xarici bankların yerli filiallarına

657. Direktorlar şurası (müşahidə şurası) tərəfindən audit komitəsi hansı məqsədlə yaradılır?

Səhmdarların sayı əllidən çox olan cəmiyyətlərdə, habelə ictimai əhəmiyyətli qurumlarda daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün (maddə 107-12)

658. Hansı halda səhmdarların sayı əllidən çox olmayan cəmiyyətlərdə də audit komitəsi yaradılır?

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda

659. Kimlər audit komitəsinin üzvü ola bilməzlər?

Cəmiyyətin icra orqanının üzvləri və (və ya) cəmiyyətin iştirakçıları

660. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri audit komitəsinin üzvü ola bilərlərmi?

Bəli.

661. Cəmiyyətin fəaliyyətinin daxili auditi hansı əsaslarla həyata keçirilir?

Cəmiyyətin audit komitəsinin təşəbbüsü ilə ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və cəmiyyətin icra orqanının tələbi ilə

662. Audit komitəsi hansı orqana tabedir?

Cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına)

663. Səhmdar cəmiyyəti hansı orqanın qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər?

Səhmdarların ümumi yığıncağının qərarı ilə (maddə 108)

664. Səhmdar cəmiyyətinin yenidən təşkilinin və ləğvinin başqa əsasları və qaydası hansı aktlarla müəyyənləşdirilir?

MM, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları ilə

665. Səhmdar cəmiyyəti məhdud məsuliyyətli cəmiyyətə çevrilə bilərmi?

"Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, çevrilə bilər.

666. Kooperativ hansı məqsədlə yaradılır?

Fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə (maddə 109)

667. Kooperativ üzvü kimdir?

MM-in tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ (MM-in 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar, yəni aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyərinin hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etməsi və aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyərinin hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etməsi halları istisna olmaqla) olan fiziki və (və ya) hüquqi şəxsdir.

668. Kooperativin ortaq (assosiativ) üzvü kimdir?

MM-in tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı və yalnız mütləq pay haqqı ödəmiş və koopera-

tivə qəbul edilmiş, onun fəaliyyətində iştirak etmək və MM-də nəzərdə tutulan hallar istisna olmaqla səs hüququna malik olmayan fiziki və (və ya) hüquqi şəxsdir.

669. Kooperativ üzvünün əmlak pay haqqı nəyə deyilir?

Nizamnamə ilə müəyyənləşdirilən qaydada və həcmdə üzvlər tərəfindən ödənilən daşınar və (və ya) daşınmaz əmlakdan, habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarət olan pay haqqıdır.

670. Mütləq əmlak pay haqqı nəyə deyilir?

Üzv tərəfindən mütləq qaydada ödənilən, kooperativin fəaliyyətində iştirak etmək, səs vermək və əsas kooperativ ödənişlərini almaq hüququ verən əmlak payıdır.

671. Əlavə əmlak pay haqqı nəyə deyilir?

Üzv tərəfindən MM-in 109.5-ci maddəsində göstərilən pay haqqından, yəni mütləq əmlak pay haqqından əlavə, öz arzusu ilə ödənilən və kooperativ ödənişlərindən (əsas kooperativ ödənişlərindən) başqa, həmçinin dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ verən paydır.

672. Üzvlük haqqı nəyə deyilir?

Üzvlük haqqı - iştirakçının kooperativ üzvlüyünə daxil olması zamanı bununla bağlı xərclərin ödənilməsi üçün verilən pul məbləğidir.

673. Kooperativ üzvünün hansı ödənişləri almaq hüququ vardır?

Kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) və dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ

674. Kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) hansı mənfəətin tərkib hissəsidir?

Üzvlərin mütləq əmlak pay haqqına, kooperativdə şəxsi əməyinə və digər növ fəaliyyətinə mütənasib surətdə onlara ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

675. Dividend (əlavə kooperativ ödənişləri) hansı mənfəətin tərkib hissəsidir?

Yalnız səs hüququna malik olan üzvlərə onların əlavə əmlak pay haqlarına və kooperativin ortaq (assosiativ) üzvlərinin mütləq əmlak pay haqlarına mütənasib surətdə ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

676. Kooperativin nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilən məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından savayı, daha hansı məlumatlar göstərilməlidir?

Kooperativ üzvlərinin pay haqlarının miqdarı haqqında; pay haqlarının verilməsi qaydası və onların verilməsi öhdəliyinin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti haqqında; kooperativin idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında; kooperativin düşdüyü zərərin ödənilməsi qaydası haqqında şərtləri, sənədlərin tərtibi qaydaları (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, kooperativ üzvlərinin ümumi yığıncağının və digər idarəetmə orqanlarının protokollarının tərtibi və sair)

677. Kooperativ sahibkarlıq fəaliyyətini həyata keçirə bilərmi?

Qanunla qadağan olunmayan istənilən sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada həyata keçirə bilər.

678. Fəaliyyət xarakterinə görə kooperativlər hansı növlərdə ola bilər?

İstehsal, istehlak, qarışıq (istehsal-istehlak) və digər növlərdə

679. Kooperativ öz üzvləri ilə hansı müqavilələr bağlaya bilər?

Onların istehsal etdiyi məhsulları kooperativə satmaq, iş və xidmətləri yerinə yetirmək barədə

680. Dövlət orqanları, bələdiyyələr, digər fiziki və hüquqi şəxslər koopertivlə münasibətlərini hansı qaydada qururlar?

Müqavilə əsasında qururlar. Dövlət orqanları və bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, kooperativlərin təsərrüfat, maliyyə, təşkilati (idarəetmə orqanlarının formalaşdırılması) və digər fəaliyyətinə müdaxilə etmirlər.

681. Kooperativdə maliyyə-təsərrüfat fəaliyyətinin operativ və mühasibat uçotu, statistika hesabatı hansı qaydada aparılır?

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada

682. Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün muzdla işçilər tutmaq hüququna malikdir. Kooperativin belə işçilərlə əmək münasibətləri hansı qanunvericiliklə tənzimlənir?

Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə

683. Kooperativin, şəxsi əməyini tətbiq etməklə onun fəaliyyətində iştirak edən üzvləri ilə əmək münasibətləri hansı aktlarla tənzimlənir?

Azərbaycan Respublikasının əmək qanunvericiliyi, MM və kooperativin nizamnaməsi ilə

684. Kooperativin adında nə əks olunmalıdır?

Onun fəaliyyətinin əsas məqsədi, habelə "kooperativ" sözü

685. Kənd təsərrüfatı kooperativlərinin təşkili və fəaliyyəti hansı aktlarla tənzimlənir?

MM və "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

686. Kooperativ kimlər tərəfindən yaradılır?

Beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən (maddə 109-1)

687. Kooperativ yaratmaq məqsədilə fiziki və (və ya) hüquqi şəxslər təşəbbüs qrupu yaradırlar. Təşəbbüs qrupunun vəzifələrinə nələr daxildir?

- Pay haqqı fondunun həcmi və onun yaranma mənbələri göstərilməklə kooperativin nəzərdə tutulan fəaliyyətinin əsaslandırılması;
- kooperativin nizamnamə layihəsinin hazırlanması;

- kooperativin üzvlüyünə daxil olmaq barədə fiziki və (və ya) hüquqi şəxslərdən ərizələrin qəbul edilməsi;

- kooperativin təsis yığıncağının hazırlanması və keçirilməsi.

688. Kooperativin təsis yığıncağı hansı məsələləri həll edir?

Kooperativin yaradılması və onun üzvlüyünə daxilolma barədə qərar qəbul edir; kooperativin nizamnaməsini təsdiq edir; MM-in 111-ci maddəsinin müddəalarını, yəni kooperativdə idarəetməyə dair tələbləri nəzərə almaqla kooperativin idarəetmə orqanlarını formalaşdırır.

689. Kooperativin üzvləri öz aralarında hansı müqaviləni bağlayırlar?

MM-in 45.2-ci maddəsinə uyğun olaraq (kooperativ bir neçə təsisçi tərəfindən yaradıldıqda) təsis müqaviləsi.

690. Kooperativin təsis yığıncağının qərarı hansı aktla rəsmiləşdirilir?

Protokolla

691. Kimlər kooperativin üzvü ola bilərlər?

Kooperativin nizamnaməsini qəbul edən və nizamnamə ilə müəyyənləşdirilmiş qaydada və həcmdə üzvlük haqqı və əmlak pay haqqı ödəyən 16 yaşına çatmış fiziki şəxslər və (və ya) hüquqi şəxslər (maddə 109-2)

692. Kooperativin üzvü olan hüquqi şəxslər kooperativdə kimin vasitəsilə təmsil olunmalıdırlar?

Qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq səlahiyyət verdikləri nümayəndələri vasitəsilə

693. Kooperativin üzvləri kooperativin işində hansı formada iştirak edirlər?

Onun fəaliyyət xarakterinə əsasən şəxsi əməyini tətbiq etməklə və ya tətbiq etməməklə

694. Kooperativin üzvü başqa kooperativin də üzvü ola bilərmi?

Kooperativin nizamnaməsində ayrı hal nəzərdə tutulmayıbsa, ola bilər.

695. Kooperativin üzvlərinə onların mütləq əmlak paylarına görə dividendlər ödənilirmi?

Ortaq (assosiativ) üzvlər istisna olmaqla, ödənilmir.

696. Kooperativin üzvü hansı hallarda kooperativin ümumi yığıncağının qərarına əsasən kooperativdə ortaq (assosiativ) üzvlüyə keçə bilər?

Yaşına və səhhətinə görə pensiyaya çıxdıqda, kooperativdən kənarda seçkili işə keçdikdə, hərbi xidmətə çağırıldıqda və kooperativin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda

697. Kooperativin ortaq (assosiativ) üzvünün mütləq əmlak pay haqqının miqdarı və pay haqqı üzrə ödənilən dividendlərin şərtləri hansı sənədlə müəyyənləşdirilir?

Kooperativin nizamnaməsinə uyğun olaraq ortaq (assosiativ) üzvlə kooperativ arasında bağlanılan müqavilə əsasında

698. Hansı halda kooperativin digər üzvlərinin mütləq pay haqqı miqdarından artıq məbləğdə müəyyənləşdirilə bilər?

Kooperativin ortaq (assosiativ) üzvünün mütləq əmlak pay haqqının miqdarı kooperativin nizamnaməsində müəyyənləşdirildikdə

699. Kooperativin ortaq (assosiativ) üzvü hansı hal istisna olmaqla səs hüququna malik deyil?

Onun kooperativdə üzvlüyü ilə bağlı şərtlərin kooperativin nizamnaməsində dəyişdirilməsi halları istisna olmaqla

700. Kooperativin üzvlüyünə qəbul hansı qaydada həyata keçirilir?

Üzv olmaq istəyən şəxsin kooperativə rəsmi müraciəti əsasında nizamnamə ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. Kooperativin üzvünə üzvlük kitabçası verilir. Kitabçada göstərilən yazıların məzmunu kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir (maddə 109-3).

701. Kooperativin üzvlərinin hansı hüquqları var?

- Kooperativə daxil olmaq və könüllü qaydada kooperativdən çıxmaq;
- kooperativin idarə edilməsində və fəaliyyətində iştirak etmək, kooperativin orqanlarını seçmək və onlara seçilmək;
- kooperativin fəaliyyətinə dair məlumat almaq və onun maliyyə, eləcə də digər sənədləri ilə tanış olmaq;
- kooperativin fəaliyyətinin yaxşılaşdırılması, onun orqanlarının və vəzifəli şəxslərinin işində olan nöqsanların aradan qaldırılması barədə təkliflər vermək;
- mənfəətin bölüşdürülməsində iştirak etmək və digər ödənişləri almaq;
- kooperativ ləğv edildikdə kreditorlarla hesablaşmalardan sonra əmlakın onun payına düşən hissəsini və ya bu hissənin dəyərini almaq;
- kooperativin üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan və güzəştlərdən istifadə etmək;
- MM və kooperativin nizamnaməsi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək (maddə 109-4).

702. MM-in 109-4.1.2-ci və 109-4.1.7-ci maddələrində nəzərdə tutulan hüquqlar, yəni kooperativin idarə edilməsində və fəaliyyətində iştirak etmək, kooperativin orqanlarını seçmək və onlara seçilmək və kooperativin üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan və güzəştlərdən istifadə etmək hüququ kimlərə şamil olunmur?

Kooperativin ortaq (assosiativ) üzvlərinə

703. Kooperativin fəaliyyətində şəxsi əməyi ilə iştirak edən üzvlərin göstərilən hüquqlardan savayı, daha hansı hüququ var?

Öz əməyinə görə pul və ya natura ilə əməkhaqqı almaq hüququ

704. Kooperativin üzvlərinin hansı vəzifələri var?

- Kooperativə daxil olduqda nizamnamədə nəzərdə tutulmuş qaydada və həcmdə üzvlük haqqı və mütləq əmlak pay haqqı vermək və kooperativin fəaliyyəti ilə əlaqədar üzərinə götürdüyü digər öhdəlikləri yerinə yetirmək;
- nizamnaməyə əməl etmək, kooperativin orqanlarının qərarlarını yerinə yetirmək;

- MM-in 110.4-cü maddəsində nəzərdə tutulmuş hallarda və qaydada (Kooperativin üzvləri əmələ gəlmiş zərəri illik balansın təsdiqindən sonra iki ay ərzində əlavə haqlar vermək yolu ilə ödəməyə borcludurlar. Bu vəzifə yerinə yetirilmədikdə kreditorların tələbi ilə kooperativ məhkəmə qaydasında ləğv edilə bilər. Kooperativin üzvləri onun öhdəlikləri üçün kooperativin hər bir üzvünün əlavə haqqının verilməmiş hissəsi həddində birgə subsidiar məsuliyyət daşıyırlar) kooperativdə əmələ gəlmiş zərərin ödənilməsində iştirak etmək;

- qanun və nizamnamə ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

705. Kooperativin əmlakı (vəsaitləri) nələrdən ibarətdir?

Onun əsas fondlarından, dövriyyə vəsaitindən və balansında göstərilən digər maddi dəyərlərdən (maddə 110)

706. Kooperativin əmlakının formalaşdırılması mənbələri hansı vəsaitlər ola bilər?

Onun öz vəsaiti və cəlb edilmiş vəsait

707. Kooperativ öz vəsaitini hansı mənbələr hesabına formalaşdırır?

Onun nizamnaməsində nəzərdə tutulmuş əmlak pay haqları, sahibkarlıq fəaliyyətindən, öz vəsaitlərinin banklarda və digər kredit təşkilatlarında, qiymətli kağızlarda yerləşdirilməsindən daxil olan gəlirlər, kreditlər, fiziki və hüquqi şəxslərin ianələri və qanunla qadağan olunmayan digər mənbələr hesabına

708. Kooperativ tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş qaydada cəlb edilən vəsaitin həcmi hansı məbləğdən çox olmamalıdır?

Kooperativin ümumi vəsaitlərinin (əmlakının) 50 faizindən

709. Kooperativ ittifaqı onun mülkiyyətində olan əmlakı hansı qaydada istifadə edə bilər?

Müqavilə əsasında istifadə edilmək üçün onun üzvü olan kooperativə verə və ittifaqın nizamnaməsində müəyyənləşdirilmiş digər məqsədlər üçün istifadə edə bilər.

710. Əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativin üzvü nə vaxtadək pay haqqını tamamilə verməyə borcludur?

Kooperativ qeydə alınanadək

711. Bölünməz fondların yaradılmasına dair qərarı kooperativin üzvləri hansı qaydada qəbul edirlər?

Əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yekdilliklə

712. Kooperativin üzvləri əmələ gəlmiş zərəri illik balansın təsdiqindən sonra hansı müddət ərzində əlavə haqlar vermək yolu ilə ödəməyə borcludurlar?

İki ay ərzində

713. Bu vəzifə yerinə yetirilmədikdə nəticəsi nə ola bilər?

Kreditorların tələbi ilə kooperativ məhkəmə qaydasında ləğv edilə bilər.

714. Kooperativin üzvləri onun öhdəlikləri üçün hansı qaydada məsuliyyət daşıyırlar?

Kooperativin hər bir üzvünün əlavə haqqının verilməmiş hissəsi həddində birgə subsidiar məsuliyyət

715. Kooperativin ləğvindən sonra qalan əmlak hansı qaydada bölüşdürülür?
Kooperativin üzvləri arasında onun nizamnaməsinə uyğun olaraq

716. Kooperativin pay fondunu hansı əmlak təşkil edir?
Kooperativ üzvlərinin kooperativə verdiyi əmlak pay haqları (maddə 110-1)

717. Kooperativə daxil olarkən ödənilən üzvlük haqqı pay fonduna daxildirmi?
Daxil deyil və kooperativin üzvü kooperativdən çıxdıqda qaytarılmır.

718. Kooperativ üzvlərinin pay haqlarına onların şəxsi borclarına görə tutma hansı halda və qaydada yönəldilə bilər?
Yalnız MM-in 112.5-ci maddəsində nəzərdə tutulmuş halda və qaydada, yəni həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə

719. Kooperativin pay fondunun və mütləq payın həcmi, mütləq və əlavə payların ödənilmə qaydası, əmlakla (əmlak hüquqları ilə) ödənilən payların qiymətləndirilmə qaydası hansı sənədlə müəyyənləşdirilir?
Nizamnamə ilə

720. Əgər ikinci və sonrakı illərin sonunda kooperativin xalis aktivlərinin dəyəri pay fondunun dəyərindən az olarsa, kooperativ üzvlərinin ümumi yığıncağı hansı addımı atmağa borcludur?
Pay fondunun azaldığını elan etməyə və onu qanunvericilikdə müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa

721. Pay fondunun miqdarı hansı məbləğdən artıq olmamalıdır?
Kooperativin xalis aktivlərinin miqdarından

722. Kooperativin pay fondunun miqdarı onun xalis aktivlərinin miqdarından artıq olduqda kooperativin pay fondu hansı qaydada azaldılmalıdır?
Göstərilən fərq məbləğində mütləq pay haqlarının proporsional azaldılması yolu

723. Kooperativin pay fondunun artırılmasına hansı qaydada yol verilir?
Mütləq pay haqları miqdarının artırılması ilə

724. Kooperativin mənfəəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məcburi ödənişlər verildikdən sonra hansı xərclərə yönəldilir?
Kooperativin nizamnaməsində nəzərdə tutulmuş hallarda və qaydada kooperativin fondlarına, kreditorlarla hesablaşmaların həyata keçirilməsinə, kooperativin nizamnaməsi ilə müəyyənləşdirilmiş digər məqsədlərə və (və ya) kooperativ ödənişlərinin və dividendlərin ödənilməsinə (maddə 110-2)

725. Kooperativin mənfəəti hansı qaydada bölüşdürülür?
Kooperativin üzvləri arasında onların pay (mütləq və əlavə) haqları məbləğinə, habelə kooperativin fəaliyyətində şəxsi əməyi ilə və (və ya) digər formada iştirakına uyğun olaraq

726. Kooperativ öz öhdəliklərinə görə hansı əmlakla cavabdehdir?

Ona məxsus olan əmlakı ilə (maddə 110-3)

727. Kooperativ öz üzvlərinin öhdəliklərinə görə məsuliyyət daşıyırmı?

Kooperativ öz üzvlərinin fəaliyyəti ilə əlaqədar götürdükləri öhdəliklərinə və MM-in 112.5-ci maddəsində nəzərdə tutulmuş hal (Kooperativ üzvünün şəxsi borclarına görə tutmanın kooperativ üzvünün payına yönəldilməsinə yalnız həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan qaydada yol verilir. Kooperativ üzvünün borclarına görə tutma kooperativin bölünməz fondlarına yönəldilə bilməz) istisna olmaqla başqa öhdəliklərinə (borclarına) görə məsuliyyət daşımır.

728. Kooperativ yaradıldıqdan sonra ona üzv olan şəxs hansı öhdəliklərə görə məsuliyyət daşıyır?

Üzv olmasından əvvəl kooperativin götürdüyü öhdəliklərə görə, bir şərtlə ki, nizamnamədə ayrı qayda nəzərdə tutulmasın.

729. Kooperativin üzvləri kooperativin öhdəliklərinə görə hansı qaydada məsuliyyət daşıyırlar?

Subsidiar məsuliyyət

730. Kooperativ üzvlərinin kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyəti nə zaman yaranır?

Kooperativin öz öhdəliklərinin silinməsi üçün kifayət qədər vəsaitləri olmadıqda yaranır və MM-in 110.4-cü maddəsinə müvafiq qaydada, yəni kooperativin hər bir üzvünün əlavə haqqının verilməmiş hissəsi həddində müəyyənləşdirilir.

731. Kooperativin ali idarəetmə orqanı hansıdır?

Onun üzvlərinin ümumi yığıncağıdır (maddə 111).

732. Hansı kooperativdə onun icra orqanlarının fəaliyyətinə nəzarət edən müşahidə şurası yaradıla bilər?

Üzvlərinin sayı əllidən çox olan

733. Müşahidə şurası üzvlərinin kooperativ adından fəaliyyət göstərmək ixtiyarı varmı?

Xeyr.

734. Kooperativin icra orqanları hansılardır?

İdarə heyəti və (və ya) onun sədridir.

735. İcra orqanları hansı orqanlara hesabat verirlər?

Müşahidə şurasına və kooperativ üzvlərinin ümumi yığıncağına

736. Kimlər kooperativin müşahidə şurasının və idarə heyətinin üzvləri, habelə kooperativin sədri ola bilərlər?

Yalnız kooperativin üzvləri

737. Müşahidə şurasının və ya icra orqanının üzvü oxşar kooperativin üzvü ola bilərmi?

Xeyr.

738. Kooperativin üzvü eyni zamanda müşahidə şurasının üzvü və idarə heyətinin və ya kooperativin sədri ola bilərmi?

Xeyr.

739. Kooperativin idarəetmə orqanlarının səlahiyyətləri və onların qərarlar qəbul etməsi qaydası hansı sənəd əsasında müəyyənləşdirilir?

Kooperativin nizamnaməsi ilə

740. Kooperativ üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə nələr aiddir?

- Kooperativin nizamnaməsini dəyişdirmək;
- kooperativin müşahidə şurasını yaratmaq və onun üzvlərinin səlahiyyətlərinə xitam vermək, habelə kooperativin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə xitam vermək, bir şərtlə ki, kooperativin nizamnaməsinə görə bu hüquq onun müşahidə şurasına verilmiş olmasın;
- kooperativ üzvlərini qəbul etmək və çıxarmaq;
- kooperativin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək və zərəri bölüşdürmək;
- kooperativin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- MM-in 49-1.2-ci maddəsində nəzərdə tutulmuş, yəni dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdlərin bağlanması haqqında qərar qəbul etmək;
- kooperativin nizamnaməsi ilə ümumi yığıncağın müstəsna səlahiyyətinə başqa məsələlərin həlli də aid edilə bilər.

741. Kooperativin ümumi yığıncağının və ya müşahidə şurasının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri onlar həll edilmək üçün kooperativin icra orqanlarına verə bilərlərmi?

Xeyr.

742. Ümumi yığıncaqda qərarlar qəbul edilərkən kooperativ üzvünün neçə səsi var?

Bir.

743. Hansı kooperativlərdə kooperativ üzvlərinin ümumi yığıncağı kooperativin nizamnaməsinə uyğun olaraq müvəkkillərin yığıncağı şəklində keçirilə bilər?

Üzvlərinin sayı 200-dən çox olan

744. Müvəkkillər açıq və ya gizli səsvermə yolu ilə seçilərkən hansı qaydalar nəzərə alınır?

Müvəkkil seçilən kooperativ üzvlərinin sayı; müvəkkillərin səlahiyyətlərinin müddəti; onların seçilmə qaydası.

745. Müvəkkillər öz səlahiyyətlərini başqa şəxslərə, o cümlədən kooperativ üzvlərinə verə bilərlərmi?

Xeyr.

746. MM-in və kooperativin nizamnaməsinin kooperativ üzvlərinin hansı orqanı barədə müddəaları müvəkkillərin yığıncağına da şamil edilir?

Ümumi yığıncağı

747. Kooperativ üzvlərinin ümumi yığıncağı nə zaman səlahiyyətlidir?

Üzvlərin (yaxud, onların nümayəndələrinin) yarıdan çoxu iştirak etdikdə

748. Müvəkkillərin yığıncağı nə zaman səlahiyyətlidir?

Seçilmiş müvəkkillərin yarıdan çoxu iştirak etdikdə

749. Kooperativ üzvlərinin ümumi yığıncağı hansı qaydada çağırılır?

İdarə heyəti (sədr) tərəfindən ildə bir dəfədən az olmayaraq nizamnamə ilə müəyyənləşdirilmiş müddətlərdə və qaydada, ancaq maliyyə ilinin başa çatmasından ən geci üç ay keçənədək

750. Kooperativ üzvlərinin növbədənkənar ümumi yığıncağı kimlərin tələbi ilə çağırılır?

İdarə heyətinin (sədrin), müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) təşəbbüsü, yaxud səs hüququna malik olan üzvlərin azı dörddə birinin

751. Kimlərin tələbi ilə kooperativ üzvlərinin növbədənkənar ümumi yığıncağı idarə heyəti (sədr) tərəfindən on beş gün müddətində kooperativin nizamnaməsində müəyyənləşdirilmiş qaydada çağırılır?

İdarə heyətinin (sədrin), müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) təşəbbüsü, yaxud səs hüququna malik olan üzvlərin ən azı dörddə birinin tələbi ilə

752. Kooperativin müşahidə şurası yaradıldıqda onun üzvlərinin sayı və səlahiyyət müddəti hansı orqan tərəfindən müəyyənləşdirilir?

Kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən

753. Müşahidə şurasının iclası hansı halda və qaydada çağırılır?

Zərurət olduqda, lakin yarım ildə bir dəfədən az olmayaraq

754. Hansı hallarda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən müşahidə şurası, yaxud onun ayrı-ayrı üzvləri onların səlahiyyət müddəti bitməzdən əvvəl geri çağırıla bilər?

Nizamnamədə nəzərdə tutulmuş hallarda

755. Kooperativin idarə heyəti və (və ya) onun sədri hansı fəaliyyəti həyata keçirir?

Kooperativ üzvlərinin ümumi yığıncaqları arasındakı dövrdə kooperativin cari fəaliyyətinə rəhbərlik edir, onun işlərini aparır, kooperativi təmsil edir.

756. Hansı halda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən onun üzvlərindən kooperativin idarə heyəti seçilir?

Kooperativ üzvlərinin sayı əllidən çox olduqda

757. İdarə heyətinə rəhbərliyi kim həyata keçirir?

Kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən seçilən (təyin edilən) sədr

758. Kooperativin idarə heyətinin və (və ya) onun sədrinin seçilməsi (təyin edilməsi), onların səlahiyyətləri və səlahiyyət müddəti, idarə heyəti sədrinin kooperativin əmlakına sərəncam vermək hüququ, onun əmək haqqı, məsuliyyəti, habelə vaxtından əvvəl vəzifədən azad edilməsi (istefa verməsi) əsasları və qaydası hansı sənədlə müəyyənləşdirilir?

Kooperativin nizamnaməsi ilə

759. Kooperativ üzvlərinin ümumi yığıncağı kooperativin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirmək məqsədilə kimləri seçir?

Kooperativ üzvlərinin sayı əllindən çox olduqda təftiş komissiyasını (azı üç nəfərdən ibarət), kooperativ üzvlərinin sayı əllidən az olduqda isə müfəttişi

760. Kooperativin təftiş komissiyası (müfəttişi) hansı səlahiyyətlərə malikdir?

- Maliyyə-təsərrüfat ilinin nəticələrinə görə kooperativin maliyyə vəziyyətini yoxlayır;
- kooperativ üzvlərinin ümumi yığıncağının və müşahidə şurasının sayı on faizdən artıq olan üzvlərinin tələbi ilə, habelə öz təşəbbüsü ilə kooperativin maliyyə-təsərrüfat fəaliyyətini növbədənkənar yoxlayır.

761. Kooperativin təftiş komissiyası (müfəttişi) yoxlamanın nəticələrini hansı qaydada təqdim edir?

Yoxlamanın nəticələrinə əsasən, kooperativin idarəetmə orqanlarına rəy təqdim edir.

762. Müşahidə şurası və idarə heyətinin qərarı ilə razılaşmadıqda təftiş komissiyası (müfəttiş) hansı orqana müraciət edə bilər?

Kooperativ üzvlərinin ümumi yığıncağına

763. Kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən təftiş komissiyası, yaxud onun ayrı-ayrı üzvləri və ya müfəttiş səlahiyyət müddəti bitməzdən əvvəl geri çağırıla bilərmi?

Nizamnamədə nəzərdə tutulmuş hallarda, çağırıla bilər.

764. Kooperativ üzvünün kooperativdən çıxmaq ixtiyarı var. Bu halda ona münasibətdə hansı hərəkətlər edilməlidir?

Ona payının dəyəri ödənilməli və ya payına uyğun əmlak verilməli, habelə kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişlər verilməlidir (maddə 112).

765. Kooperativin çıxan üzvünə payın dəyərinin ödənilməsi və ya başqa əmlakın verilməsi nə zaman həyata keçirilir?

Əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, maliyyə ili qurtardıqdan və kooperativin maliyyə hesabatları təsdiq edildikdən sonra

766. Kooperativin üzvü hansı hallarda kooperativdən çıxarıla bilər?

Kooperativin nizamnaməsi ilə ona həvalə olunmuş vəzifələri icra etmədikdə və ya lazımınca icra etmədikdə, habelə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan başqa hallarda ümumi yığıncağın qərarı ilə

767. Kooperativdən çıxarılmış kooperativ üzvünün hansı ödənişləri almaq hüququ var?

MM-in 112.1-ci maddəsinə uyğun olaraq, yəni maliyyə ili qurtardıqdan və kooperativin maliyyə hesabatları təsdiq edildikdən sonra payını və kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişləri

768. Kooperativin üzvü öz payını və ya onun bir hissəsini kooperativin digər üzvünə verə bilərmi?

Əgər kooperativin nizamnaməsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, verə bilər.

769. Payın (onun bir hissəsinin) kooperativin üzvü olmayan fiziki şəxsə verilməsinə hansı halda yol verilir?

Yalnız kooperativin razılığı ilə

770. Belə halda kimlər həmin payı (onun bir hissəsini) almaqda üstünlük hüququna malikdirlər?

Kooperativin digər üzvləri

771. Hansı halda pay üçüncü şəxsə özgəninkiləşdirilə bilər?

Əgər kooperativin üzvləri kooperativin nizamnaməsində nəzərdə tutulan müddət ərzində öz üstünlük hüququndan istifadə etməzlərsə

772. Kooperativin üzvü öldükdə onun vərəsələri kooperativin üzvlüyünə qəbul edilə bilərlərmi?

Əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, edilə bilərlər.

773. Əks halda kooperativin ölmüş üzvünün payının dəyəri barəsində kooperativ tərəfindən hansı tədbir görülür?

Onun vərəsələrinə ödənilir.

774. Kooperativ üzvünün şəxsi borclarına görə tutmanın kooperativ üzvünün payına yönəldilməsinə hansı qaydada yol verilir?

Yalnız həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan qaydada

775. Kooperativ üzvünün borclarına görə tutma kooperativin bölünməz fondlarına yönəldilə bilərmi?

Yalnız həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan qaydada

776. Kooperativ hansı orqanın qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər?

Onun üzvlərinin ümumi yığıncağının qərarı ilə (maddə 113)

§3. Qeyri-kommersiya təşkilatları

777. Hansı əmlak ictimai birliyin mülkiyyətidir?

İctimai birliyin təsisçilərinin (iştirakçılarının) ictimai birliyə verdikləri əmlak (maddə 114)

778. İctimai birlik bu əmlakdan hansı məqsədlər üçün istifadə edir?

Onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün

779. İctimai birliklərin iştirakçıları həmin birliklərin mülkiyyətinə verdikləri əmlaka, o cümlədən üzvlük haqlarına hüquqlarını saxlayırlarmı?

Xeyr.

780. İctimai birliklərin iştirakçıları birliyin öhdəlikləri üçün hansı qaydada məsuliyyət daşıyırlar?

İştirakçılar ictimai birliklərin öhdəlikləri üçün, ictimai birliklər isə öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımırlar.

781. İctimai birlik ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı hansı istiqamətə yönəldilir?

İctimai birliyin nizamnaməsində göstərilmiş məqsədlərə, bu, mümkün olmadıqda isə dövlət büdcəsinə

782. Fond hansı statusa malikdir?

O, üzvlüyü olmayan, fiziki və (və ya) hüquqi şəxslərin əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatdır (maddə 115).

783. Fond yaradılarkən onun nizamnamə kapitalı hansı miqdardan az olmamalıdır?

On min manatdan

784. Hansı əmlak fondun mülkiyyətidir?

Fondun təsisçilərinin (təsisçisinin) verdiyi əmlak onun mülkiyyətidir. Fond həmin əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

785. Fond öz əmlakından istifadə haqqında hesabatları hansı vaxt aralığında dərc etməyə borcludur?

Hər il

786. Təsisçilər yaratdıqları fondun öhdəlikləri üçün hansı qaydada məsuliyyət daşıyırlar?

Təsisçilər yaratdıqları fondun öhdəlikləri üçün, fond isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

787. Fondun idarə edilməsi və onun orqanlarının formalaşdırılması qaydası hansı sənədlə müəyyənləşdirilir?

Fondun təsisçilər tərəfindən təsdiq edilən nizamnaməsi ilə

788. Fondun nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilmiş məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından savayı, daha hansı məlumatlar göstərilməlidir?

Fondun "fond" sözü də daxil edilmiş adı, fondun məqsədləri haqqında məlumatlar; fondun orqanları haqqında, o cümlədən fondun fəaliyyətinə nəzarət edən himayəçilik şurası haqqında, fondun vəzifəli şəxslərinin təyin edilməsi və azad edilməsi qaydası haqqında, fondun ləğvi zamanı onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında məlumatlar

789. Fondun nizamnaməsi fondun orqanları tərəfindən hansı halda dəyişdirilə bilər?

Bir şərtlə dəyişdirilə bilər ki, nizamnamədə onun bu qaydada dəyişdirilməsi imkanı nəzərdə tutulmuş olsun (maddə 116).

790. Hansı hallarda nizamnaməyə dəyişikliklər edilməsi hüququ fondun orqanlarının və ya fondun nizamnaməsi ilə onun fəaliyyətinə nəzarət etməyə vəkil edilmiş orqanın ərizəsinə əsasən məhkəməyə mənsubdur?

Əgər nizamnamənin dəyişməz şəkildə saxlanılması fondun təsis edilməsi zamanı qabaqcadan nəzərə alınması mümkün olmayan nəticələrə səbəb olarsa, nizamnamədə isə nizamnamənin dəyişdirilməsi imkanı nəzərdə tutulmazsa və nizamnamə vəkil edilmiş şəxslər tərəfindən dəyişdirilməzsə

791. Fondun ləğvi haqqında qərarı hansı orqan qəbul edə bilər?

Maraqlı şəxslərin ərizəsinə əsasən yalnız məhkəmə

792. Fond hansı hallarda ləğv edilə bilər?

- Fondun əmlakı onun məqsədlərinin həyata keçirilməsinə kifayət etmədikdə və lazımi əmlakın əldə edilməsi ehtimalı real olmadıqda;
- fondun məqsədlərinə çatmaq mümkün olmadıqda, bu məqsədlər isə lazımi şəkildə dəyişdirilə bilmədikdə;
- öz fəaliyyətində fond nizamnamədə nəzərdə tutulan məqsədlərdən yayındıqda;
- qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

793. Fond ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı hansı istiqamətə yönəldilir?

Fondun nizamnaməsində göstərilən məqsədlərə, bu, mümkün olmadıqda isə dövlət büdcəsinə

794. Kommersiya təşkilatları hansı məqsədlə ittifaqlar yarada bilərlər?

Özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən, dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda) məqsədilə (maddə 117)

795. Hansı halda ittifaq MM ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir və ya sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada bilər və ya bu cür cəmiyyətdə iştirak edə bilər?

Əgər iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilirsə

796. Qeyri-kommersiya təşkilatları hansı məqsədlə ittifaqlar yarada bilərlər?

Özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədilə

797. Hansı əmlak ittifaqın mülkiyyətidir?

İttifaqın təsisçilərinin (iştirakçılarının) ittifaqa verdikləri əmlak onun mülkiyyətidir, bu əmlakdan ittifaq onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

798. İttifaq öz iştirakçılarının öhdəlikləri üçün hansı qaydada məsuliyyət daşıyır?

Məsuliyyət daşımır.

799. İttifaqın iştirakçıları onun öhdəlikləri üçün hansı qaydada məsuliyyət daşıyırlar?

Nizamnamədə nəzərdə tutulan miqdarda və qaydada subsidiar məsuliyyət daşıyırlar.

800. İttifaqın adında nələr göstərilməlidir?

Onun iştirakçılarının fəaliyyətinin əsas predmeti, habelə "ittifaq" sözü

801. İttifaq ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı hansı istiqamətə yönəldilir?

İttifaqın nizamnaməsində göstərilmiş məqsədlərə, bu, mümkün olmadıqda isə dövlət büdcəsinə

802. İttifaqın nizamnaməsində MM-in 47.2-ci maddəsində göstərilmiş məlumatlardan, yəni hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydasından savayı, daha hansı məlumatlar göstərilməlidir?

İttifaq iştirakçılarının verdikləri haqların miqdarı, tərkibi və verilməsi qaydası, haqq verilməsi öhdəliyini pozmağa görə onların məsuliyyəti haqqında, ittifaqın idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya ittifaq iştirakçılarının şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında, ittifaqın ləğv edildiyi halda onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında məlumatlar (maddə 118)

803. İttifaq iştirakçılarının onun xidmətlərindən əvəzsiz istifadə etmək ixtiyarı varmı?

Əgər ittifaqın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, vardır (maddə 119).

804. İttifaqın iştirakçısı nə zaman ittifaqdan çıxa bilər?

Maliyyə ili qurtardıqda

805. İttifaqın iştirakçısı maliyyə ili qurtardıqda ittifaqdan çıxa bilər. Bu halda o, əgər ittifaqın nizamnaməsində ayrı müddət nəzərdə tutulmayıbsa, çıxdığı gündən hansı müddətdə ittifaqın öhdəlikləri üçün öz haqqına mütənasib subsidiar məsuliyyət daşıyır?

Bir il ərzində

806. İttifaqın iştirakçısı hansı halda və qaydada digər iştirakçıların qərarı ilə ittifaqdan çıxarıla bilər?

İttifaqın nizamnaməsində müəyyənləşdirilmiş hallarda və qaydada

807. İttifaqa yeni iştirakçı daxil ola bilərmi?

İştirakçıların razılığı ilə daxil ola bilər.

808. İttifaqa yeni iştirakçının daxil olması onun daxil olanadək ittifaqın əmələ gəlmiş öhdəlikləri üçün hansı məsuliyyəti ilə şərtləndirilə bilər?

Onun subsidiar məsuliyyəti ilə

5-ci FƏSİL
Ümumi müddəalarla bağlı suallar və cavablar

§1. Əşya hüququnun əsas anlayışları, onun obyektləri və yüklülüyü

809. MM-ə uyğun olaraq hansı obyektlər əşya sayılır?
Yalnız fiziki obyektlər (maddə 135)

810. Pullar və sənədli qiymətli kağızlar əşya hesab olunurmu?
Bəli.

811. Əmlak hansı nemətlərin toplusudur?
İstənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin

812. Əşyaların hüquqi vəziyyəti bitkilərə və heyvanlara da şamil edilirmi?
Əgər qanunvericilikdə ayrı qayda müəyyənləşdirilməyibsə, bəli

813. Hansı əşyalar daşınmaz əşya hesab olunur?
Torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır. Torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir.

814. Hansı əşyalar daşınar əşya hesab olunur?
Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar sayılır.

815. Qeyri-maddi əmlak nemətləri nələri əhatə edir?
Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi nemətlərdir. Qeyri-maddi əmlak nemətləri (tələblər və hüquqlar) ilə bağlı münasibətlər onların hər birinə aid olan xüsusi qanunvericiliyin müddəalarına müvafiq olaraq tənzimlənir.

816. Hansı əşyalar bölünməz əşyalardır?
Təyinatı dəyişdirilmədən bölünə bilməyən və ya qanunun göstərişinə görə bölünməli olmayan əşyalar bölünməz əşyalardır.

817. Hansı əşyalar əvəzedilməz əşyalardır?
Başqa əşyalardan yalnız özlərinə xas əlamətlərə görə ayrılmış fərdi-müəyyən əşyalar əvəzedilməz əşyalar sayılır.

818. Hansı əşyalar əvəzedilən əşyalardır?
Növ əlamətlərinə görə fərqlənən, dövriyyədə adətən say, ölçü və ya çəki ilə müəyyənləşdirilən daşınar əşyalar əvəzedilən əşyalar sayılır.

819. Hansı əşyalar istehlak edilən əşyalardır?

Təyinatı istehlak olunmaqdan və ya özgəninkiləşdirilməkdən ibarət olan daşınar əşyalar istehlak edilən əşyalardır.

820. Hansı əşyalar mürəkkəb əşyalar hesab edilir?

Əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Mürəkkəb əmlak barəsində bağlanmış əqdin qüvvəsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun bütün tərkib hissələrinə şamil edilir.

821. Əşyanın mülkiyyətçisi onun tərkib hissələrinin də mülkiyyətçisi hesab olunurmu?

Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.

822. Hansı əşyalar əşyanın ləvazimatı hesab olunur?

Ümumi anlamda və ya əsas əşya mülkiyyətçisinin aydın iradəsinə əsasən təsərrüfatın daimi aparılması, əsas əşyanın istifadəsi və ya saxlanması üçün nəzərdə tutulan və ona uyğunlaşdırılan daşınar əşyalar əşyanın ləvazimatıdır. Əgər əşya ləvazimatdırsa, onun bu keyfiyyəti əsas əşyadan müvəqqəti ayrıldığı halda da saxlanılır. Əgər ayrı razılaşma yoxdursa, əşyaya sahiblik onun ləvazimatına da şamil edilir.

823. Əşyanın bəhəri nələr hesab olunur?

Əşyanın verdiyi gəlir, artım və (və ya) üstünlük əşyanın bəhəridir. Ayrılanadək bəhər əşyanın tərkib hissəsidir.

824. Bəhərin mükiyyəti kimə aiddir?

Əşyanın mülkiyyətçisi kimdirsə, əşyanın təbii bəhəri də onun mülkiyyətindədir.

825. Hansı şərtlə əşyalar universal hüquq varisliyi qaydasında (vərəsəlik, hüquqi şəxsin yenidən təşkili) və ya başqa üsulla sərbəst surətdə özgəninkiləşdirilə və ya bir şəxsdən başqasına keçə bilər?

Dövriyyədən çıxarılmayıbsa və ya onların dövriyyəsi məhdudlaşdırılmayıbsa (maddə 136)

826. Əşyanın yüklülüyü nəyə deyilir?

Əşyanın yüklülüyü - qanun və ya əqd əsasında əşyaya mülkiyyət hüququnun hər hansı formada məhdudlaşdırılmasıdır (maddə 138).

827. Hüququn yüklülüyü nəyə deyilir?

Hüququn yüklülüyü - qanun və əqd əsasında mülki hüquqların və ya tələblərin hər hansı formada məhdudlaşdırılmasıdır

§2. Əmlak hüquqlarının dövlət qeydiyyatı

828. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar hansı hallarda qeydə alınmalıdır?

MM-də və qanunvericilikdə nəzərdə tutulan hallarda (maddə 139)

829. Daşınar əmlaka hüquqlar hansı halda dövlət qeydiyyatına alınmalıdır?

Yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda

830. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı hansı sənəddə həyata keçirilir?

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində

831. Məkana görə daşınmaz əmlak obyektlərinin məlumat bazası olan ünvan reyestri hansı məqsədlə aparılır?

Xüsusi vasitələrdən istifadə edilmədən yerləşdiyi yerin müəyyənləşdirilməsini və onların fərdiləşdirilməsini təmin edir.

832. Ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi hansı qaydada həyata keçirilir?

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada

833. Daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün nələr əsas hesab olunur?

- Qanunla müəyyən edilmiş qaydada icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən müvafiq olaraq dövlətə və ya bələdiyyələrə məxsus olan daşınmaz əmlakın özgəninkiləşdirilməsinə, icarəsinə, istifadəsinə, ipotekaya qoyulmasına dair qəbul olunmuş aktlar;
- qanunla müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış təşkilatlar tərəfindən keçirilən açıq hərracın nəticələrinə dair yekun protokol, habelə təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokol;
- daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr, vərəsəlik hüququ haqqında, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında, yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr, daşınmaz əmlak sertifikatı;
- qanuni qüvvəyə minmiş məhkəmə qərarları;
- 2006-cı il iyulun 6-dək müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş daşınmaz əmlak üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri;
- mənzil-tikinti kooperativi binasında yaşayış (qeyri-yaşayış) sahəsinin verilməsi barədə mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı (qanunvericiliklə nəzərdə tutulmuş pay haqqı tam ödənildikdə);
- 2007-ci il mayın 22-dək müvafiq icra hakimiyyəti orqanlarının nəzdində olan bağ təsərrüfatı idarələri tərəfindən vətəndaşlara ayrılmış bağ sahələrinə dair verilən icarə müqavilələri, sərəncamlar və orderlər, kollektiv bağçılıq-yoldaşlıq təsərrüfatının

üzvlərinin siyahısına müvafiq olaraq verilmiş üzvlük kitabçası və ya üzvlərin iclasının protokolundan çıxarış;

- "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən sənədlər (maddə 139-1).

834. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə minənədək (2013-cü il yanvarın 1-dək) inşa edilmiş tikililərə dair daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün hansı sənədlər əsas hesab olunur?

- Hündürlüyü 12 metrədək olan yaşayış evlərinə münasibətdə - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə və ya yaşayış evinin istismara qəbul aktı;

- çoxmənzilli binalara, qeyri-yaşayış binalarına və hündürlüyü 12 metrdən çox olan yaşayış evlərinə münasibətdə - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə, müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı, istismara qəbul aktı

835. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə mindikdən (2013-cü il yanvarın 1-dən) sonra inşa edilən tikililərə dair daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün hansı sənədlər əsas hesab olunur?

- Tikintisinə icazə tələb olunan tikinti obyektləri üçün - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikintiyə icazə verilməsi barədə qərar, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti obyektinin istismarına icazə;

- məlumatlandırma icraatının tətbiq edildiyi tikinti obyektləri üçün - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, sifarişçi tərəfindən tikinti başa çatdıqdan sonra tikinti barədə məlumatlandırılan orqana (quruma) sifarişli poçt göndərişi ilə və ya bilavasitə məlumat verilməsini təsdiq edən sənəd;

- Azərbaycan Respublikasının Mənzil Məcəlləsi qüvvəyə minənədək (2009-cu il oktyabrın 1-dək) dövlət və ya ictimai mənzil fondundan yaşayış sahəsinin verilməsinə dair müvafiq icra hakimiyyəti orqanının sərəncamı, order və ya mənzil kirayəsi müqaviləsi;

- 2006-cı il iyulun 6-dan 2009-cu il iyunun 24-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən daşınmaz əmlaka dair verilmiş şəhadətnamələr.

836. Reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, hansı prezumpsiya qüvvədədir?

Həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası (maddə 140)

837. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd hansı hallar istisna olmaqla, həqiqi hesab edilir?

Bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla

838. Əgər daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyilsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs nəyi tələb edə bilər?

Daşınmaz əmlakın dövlət reyestrindəki qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini (maddə 141)

839. Hansı hallarda daşınmaz əmlakın dövlət reyestrinin mötəbərliyinə qarşı etiraz edilə bilər?

MM-in 141.1-ci maddəsində nəzərdə tutulmuş hallarda, yəni daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyilsə

840. Daşınmaz əmlakın dövlət reyestrinə etirazla bağlı qeydin daxil edilməsi hansı qaydada həyata keçirilir?

Məhkəmənin qərarı və ya reyestrdə düzəlişin aparılması ilə hüququna toxunulan şəxsin razılığı ilə

841. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin təsdiqlənməsi zamanı notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər nələri yoxlamalıdır?

Əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu (maddə 144)

842. Sərəncam hüququ hansı qaydada təsdiqlənir?

Sərəncam verən tərəfin daşınmaz əmlakın dövlət reyestrinə əsasən bu hüquqa malik olması və ya ixtiyarlı şəxsin ona həmin səlahiyyəti verməsi ilə təsdiqlənir. Bu səlahiyyət də notariat qaydasında təsdiqlənməlidir.

843. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr hansı qaydada təsdiqlənir?

Notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış texniki göstəricilərinə uyğun qaydada.

844. Sərəncam verən tərəfin sərəncam hüququnun və öhdəliklərinin, eləcə də əmlakın mövcud yüklülüyünün daşınmaz əmlakın dövlət reyestrində yoxlanılması hansı qaydada təmin olunur?

MM-in 148.3-cü maddəsinə uyğun olaraq. Belə ki, daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlakın dövlət reyestrindən daşınmaz əmlaka dair çıxarışın, həmin əmlakın təsvirinin, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair məlumatların notarius və ya qanunla müəyyən edilmiş hallarda notariat hərəkəti etməyə hüququ ça-

tan digər vəzifəli şəxslər tərəfindən əldə edilməsini, habelə daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və (və ya) təsdiq edilmiş və həmin əmlak barəsində qeydiyyatın aparılması üçün əsas hesab edilən sənədin təsdiqləndikdən dərhal sonra elektron formada daşınmaz əmlakın dövlət reyestrinə ötürülməsini təmin etmək məqsədilə notariuslarla və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslərlə daşınmaz əmlakın dövlət reyestri arasında elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində məlumat və sənəd mübadiləsi imkanı, onların həmin sistemlər vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə birbaşa çıxışı təmin olunmalıdır.

845. Daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin hansı nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır?

İnformasiya sistemləri vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi

846. Belə müqavilə hansı sənəd hesab olunur?

Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunur.

847. Hansı halda notariat qaydasında təsdiqləmə tələb olunmur?

Əgər əldə edən qanuni qüvvəyə minmiş məhkəmə qərarına və ya ona bərabər olan sənədə, o cümlədən notariat qaydasında təsdiqləməyə istinad edirsə

848. Daşınmaz əmlaka mülkiyyət hüququ hansı bölünmə planı əsasında bölünə bilər?

Əmlakın fiziki cəhətdən bölünməsini nəzərdə tutmayan, lakin yaranacaq ümumi paylı mülkiyyətdə payların nisbətini faizlə müəyyənləşdirən bölünmə planı

849. Mülkiyyətçinin bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində nə zaman qeydə alınır?

Mülkiyyətçi tərəfindən tərtib edilən bölünmə planı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq edildikdən sonra

850. Hansı binalar tikintisi başa çatmayan binalar hesab olunur?

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə müvafiq olaraq tikintisinə icazə alınmış, lakin həmin Məcəlləyə uyğun olaraq istismarına icazə verilməmiş binalar tikintisi başa çatmayan binalar hesab edilir (maddə 144-1).

851. Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış şəxs bölünmə planına əsasən yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə nə zaman sərəncam verə bilər?

Bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqdan sonra

852. Bölünmə planına əsasən mülkiyyətindəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında müqavilələr barəsində hansı tədbirlər görülməlidir?

Notariat qaydasında təsdiqlənməli və tərkib hissələri əldə edən şəxslərin xeyrinə MM-in 147-ci maddəsinə (torpaq sahəsi barədə təminat qeydinə) uyğun olaraq təminat qeydi aparılmalıdır.

853. MM-in 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə (bölünmə planına əsasən mülkiyyətindəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında müqavilələr) digər müddəalarla yanaşı, daha hansı məsələlər açıq-aydın ifadə edilməlidir?

Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların alqı-satqı şərtləri, təminat qeydinin aparılmasına dair torpaq sahəsi mülkiyyətçisinin və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin MM-in 178.8-ci maddəsində nəzərdə tutulan satıcının (podratçının) müqavilədə müəyyənləşdirilən müddətdə binanın tikintisini başa çatdırmaq və istismarına icazə almaq, tərkib hissəni əldə etmək istəyən şəxsin (sifarişçinin) isə razılaşdırılmış məbləği hissə-hissə vaxtında satıcıya ödəmək öhdəlikləri və 147.2-ci maddəsində nəzərdə tutulan torpaq sahəsinin mülkiyyətçisinin öz mülkiyyətində olan torpaq sahəsi barədə təminat qeydinin aparılmasına və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin həmin torpaq sahəsi barədə öz xeyrinə təminat qeydinin aparılmasına dair razılıqları, habelə MM-in 178.8-ci maddəsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsindən sonra torpaq sahəsində müvafiq paya və tərkib hissəyə mülkiyyət hüququnun xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı

854. Xeyrinə təminat qeydi aparılmış şəxs tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissənin bağlı olduğu pay ilə əlaqədar hüquqlarını və öhdəliklərini hansı qaydada üçüncü şəxsə ötürə bilər?

Yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisini məlumatlandırmaqla notariat qaydasında təsdiq edilmiş müqavilə əsasında

855. Müqavilədə digər müddəalarla yanaşı, hansı məsələlər aydın şəkildə ifadə edilməlidir?

Hüquqların və öhdəliklərin ötürüldüyü məqamda mövcud olmuş həcmi və həmin həcmdə ötürülməsi, aparılmış təminat qeydində hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklərin edilməsinə dair hər iki tərəfin razılıqları aydın ifadə edilməlidir. Belə hüquqlar və öhdəliklər onların üçüncü şəxsə ötürüldüyü məqamda mövcud olmuş həcmdə və şərtlərlə ötürülməlidir.

856. Notarius bu müqaviləni təsdiqlədikdən sonra hansı hərəkətlər icra edilməlidir?

Notarius dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə, habelə təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisinə göndərməlidir. Belə müqavilə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydində müvafiq dəyişikliklərin edilməsinə dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq qeydiyyat hərəkətləri aparılır.

857. Daşınmaz əmlaka sahiblik və istifadə hüququ hansı andan əmələ gəlir?

Onun barəsində əqdin notariat qaydasında təsdiq edildiyi andan (məhkəmə qərarı və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərar əsasında yaranan hüquq istisna olmaqla) (maddə 146).

858. Daşınmaz əmlak üzərində sərəncam vermək hüququ nə vaxtdan əmələ gəlir?

Həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində ərazilər üzrə qeydiyyatı tarixindən

859. Hansı əmlak barəsində müqavilələrin notariat qaydasında təsdiqlənməsinə yol verilmir və bu cür əmlak barəsində bağlanmış müqavilələr etibarsız sayılır?

Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində

860. MM-in 146.2-ci maddəsi ("Daşınmaz əmlak üzərində sərəncam vermək hüququ həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində ərazilər üzrə qeydiyyatı tarixindən əmələ gəlir.") və "Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində müqavilələrin notariat qaydasında təsdiqlənməsinə yol verilmir və bu cür əmlak barəsində bağlanmış müqavilələr etibarsız sayılır." müddəası hansı hallara şamil edilmir?

İpoteka kreditindən istifadə etməklə əldə olunan yaşayış sahəsinin üzərində alıcının mülkiyyət hüququ, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınanadək həmin yaşayış sahəsinin alqı-satqısı və ipotekaya qoyulmasına dair qarışıq müqavilənin notariat qaydasında təsdiq edilməsi hallarına

861. Daşınmaz əmlakı və ya ona dair hüquqları əldə edən şəxs məhkəmə qərarına və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərara istinad edirsə, bu halda ərizəyə hansı sənədlər əlavə edilməlidir?

Həmin qərarın notariat qaydasında təsdiqlənmiş surəti və daşınmaz əmlakın texniki göstəricilərini əks etdirən sənədlər

862. Daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlakın və ya ona dair hüquqların qeydiyyatı hansı tarix üzrə aparılır?

Ərizənin daxil olduğu tarix üzrə

863. Daşınmaz əmlaka dair müqavilələrin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasına görə kimlər məhkəmə məsuliyyəti daşıyırlar?

Daşınmaz əmlaka dair müqaviləni təsdiqləyən notarius, qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər və müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsi

864. Dövlət hansı iddialara görə reqressant qismində çıxış edir?

Daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlaka dair müqavilələrin qeydiyyatının aparılmaması və ya qeydiyyatın düzgün olmaması, qeydiyyatın natamam olması ilə bağlı iddialara görə

865. Hansı məqsədlə daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə təminat qeydi aparıla bilər?

Torpaq sahəsi (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) ilə bağlı hər hansı hüququn əldə edilməsinə yönəlmiş tələbləri təmin etmək məqsədilə (maddə 147)

866. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılmasının xüsusiyyətləri hansı qaydada müəyyən olunur?

MM-in 147-ci maddəsinin (torpaq sahəsi barədə təminat qeydinin) tələbləri nəzərə alınmaqla, 144-1-ci maddədə müəyyən olunur.

867. Təminat qeydinin aparılması üçün nə tələb olunur?

Torpaq sahəsinin mülkiyyətçisi ilə torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxs arasında notarial formada bağlanılmış müqavilə

868. Müqavilədə digər müddəalarla yanaşı, daha hansı məsələlər aydın şəkildə ifadə edilməlidir?

Torpaq sahəsinin mülkiyyətçisinin öz mülkiyyətində olan torpaq sahəsi barədə təminat qeydinin aparılmasına və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin həmin torpaq sahəsi barədə öz xeyrinə təminat qeydinin aparılmasına dair razılıqları, habelə müvafiq tələblər yerinə yetirildikdən sonra müqavilədən irəli gələn hüquqların xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı

869. Təminat qeydi nə vaxtdan yaranır?

Daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı vaxtdan

870. Hansı müddətdə torpaq sahəsi barədə növbəti təminat qeydi aparıla bilməz?

Torpaq sahəsi barədə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə

871. Daşınmaz əmlakın dövlət reyestrini aparan orqanın və notariusların torpaq sahəsi barədə təminat qeydinin aparılması ilə bağlı hərəkətləri hansı aktlarla tənzimlənir?

Mülki Məcəllə, "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunları ilə

872. Notarius təminat qeydinin aparılması üçün bağlanılması nəzərdə tutulan müqavilənin qanunauyğunluğunu müəyyən etdikdən sonra hansı hərəkətlər icra edilməlidir?

Onu notariat qaydasında təsdiq edib daşınmaz əmlakın dövlət reyestrinə göndərir və daşınmaz əmlakın dövlət reyestrində 3 gün ərzində təminat qeydi aparılır.

873. Torpaq sahəsi barədə təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsinə və ya ona olan hüquqa dair bağlanan müqavilələr və (və ya) digər formada verilən sərəncamlar hansı hissədə etibarsızdır?

Təminat qeydinin əsası olmuş tələbin həyata keçirilməsinə təsir etdiyi və ya mane olduğu hissədə

874. Həmin qayda sərəncamın məcburi icra və ya həbsin qoyulması qaydasında və ya əmlak inzibatçısı tərəfindən iflas prosesi zamanı verildiyi halda da tətbiq edilirmi?

Bəli.

875. Daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə aparılmış təminat qeydi hansı hallarda öz hüquqi qüvvəsini itirir:

- Xeyrinə təminat qeydi aparılmış şəxsin MM-in 147.2-ci maddəsində nəzərdə tutulan torpaq sahəsinə hüquq əldə etmək barədə müqavilədən irəli gələn hüquqları MM-ə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqda;
- MM-in 147.2-ci maddəsində nəzərdə tutulan torpaq sahəsinə hüquq əldə etmək barədə müqavilə MM-in müqavilənin dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı 421-424-cü maddələrinə uyğun olaraq ləğv edildikdə;
- aparılmış təminat qeydində MM-in 144-1.6-cı maddəsində nəzərdə tutulan müqavilə əsasında hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklər edildikdə

876. Torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsi üçün MM-in 147.2-ci maddəsinə uyğun olaraq torpaq sahəsinə hüquq əldə etmək barədə bağlanılan müqavilədə şəxs nə zaman həmin torpaq sahəsinin əldə edilməsinin maliyyələşdirilməsi məqsədilə ipoteka müqaviləsi bağlaya bilər?

Xeyrinə təminat qeydi aparılan şəxsin ipoteka kreditindən istifadə etmək imkanı müəyyən edildiyi halda

877. Həmin ipoteka hansı məqsədə xidmət edə bilər?

Yalnız ipoteka predmeti olan torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsinin maliyyələşdirilməsi üçün istifadə olunan kreditin təminatına

878. Daşınmaz əmlakın təsviri, dövlət qeydiyyatına alınmış hüquqlar və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış kimlərə verilir?

Qanunla müəyyən edilmiş qaydada hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə və qanunla nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq dövlət orqanlarına və bələdiyyələrə (maddə 148)

879. Daşınmaz əmlaka olan hüquqlarına toxunulmuş şəxs qeydiyyatın çıxarılması və ya dəyişdirilməsi haqqında iddianı hansı hallarda qaldıra bilər?

Əgər daşınmaz əmlaka hüquqların qeydiyyatı əsassızdırsa və ya düzgün qeydiyyat əsassız çıxarılmışsa və ya dəyişdirilmişsə (maddə 149)

880. Bu zaman vicdanlı üçüncü şəxslərin qeydiyyatla əlaqədar əldə etdikləri hüquqlar saxlanılırmı?

Bəli.

881. Hansı halda maraqlı şəxs məhkəmə qaydasında qeydiyyatın ləğvini tələb edə bilər?

Əgər daşınmaz əmlak tam məhv olarsa və bunun nəticəsində onun qeydiyyatı hər cür hüquqi mənasını itirərsə (maddə 150)

882. Daşınmaz əmlakın məhv olması kim tərəfindən təsdiqlənməlidir?

Daşınmaz əmlakın dövlət reyestrini tərtib edən müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsi tərəfindən

883. İstənilən maraqlı şəxs qeydiyyatın ləğvi barəsində xəbər tutduğu vaxtdan hansı müddət ərzində məhkəməyə şikayət edə bilər?

On gün ərzində

6-cı FƏSİL
Mülkiyyət hüququnun ümumi müddəaları, anlayışı, məzmunu və s. üzrə suallar və cavablar

884. Mülkiyyət hüququ nədir?

Subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur (maddə 152).

885. Sahiblik hüququ nədir?

Əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

886. İstifadə hüququ nədir?

Əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər.

887. Sərəncam hüququ nədir?

Əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

888. Mülkiyyətçi əmlak barəsində hansı hərəkətləri icra edə bilər?

Qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

889. Hüquqdan sui-istifadə nədir?

Mülkiyyətdən başqalarına ziyan vuran şəkildə istifadədir; bu zaman mülkiyyətçinin mənafe üstünlüyü dəqiq ifadə edilməmişdir və onun hərəkətlərinin zəruriliyi əsaslı deyildir.

890. Hansı halda istifadə və ya qulluq və saxlama vəzifəsi müəyyənləşdirilə bilər?

Əgər əşyanın tətbiq edilməməsi və ya ona qulluq olunmaması ictimai mənafelərə qəsd edirsə, istifadə və ya qulluq və saxlama vəzifəsi müəyyənləşdirilə bilər. Bu halda mülkiyyətçinin üzərinə həmin vəzifələri özü icra etmək və ya müvafiq muzd müqabilində əşyanı başqa şəxslərin istifadəsinə vermək vəzifəsi qoyula bilər.

891. Əmlakın etibarnaməli idarəçiliyə verilməsi mülkiyyət hüququnun etibarnaməli idarəçiyə keçməsinə səbəb olurmu?

Səbəb olmur; o, əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi üçüncü şəxsin mənafeyi naminə idarə etməlidir.

892. Əmlakın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski kimin üzərindədir?

Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun mülkiyyətçisinin üzərinə düşür.

893. Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri kimlər ola bilərlər?

Hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası (maddə 153)

894. Qanunvericiliklə hansı əmlak növləri müəyyənləşdirilir?

Yalnız dövlət mülkiyyətində və ya bələdiyyələrin mülkiyyətində ola bilən

895. Əmlakın fiziki və ya hüquqi şəxsin mülkiyyətində, Azərbaycan Respublikasının və ya bələdiyyələrin mülkiyyətində olmasından asılı olaraq əmlaka mülkiyyət hüququnun, əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququnun əldə edilməsi və ona xitam verilməsi xüsusiyyətləri hansı qaydada müəyyənləşdirilir?

Yalnız qanunla müəyyənləşdirilə bilər.

896. Hansı əmlak fiziki və hüquqi şəxslərin mülkiyyətində ola bilər?

Qanunvericiliyə uyğun olaraq fiziki və ya hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, istənilən əmlak (maddə 154)

897. Fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın miqdarı və dəyəri məhdudlaşdırıla bilərmi?

MM-in 6.3-cü maddəsində nəzərdə tutulan məqsədlər, yəni Dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün qanunvericilik yolu ilə məhdudiyyətlərin müəyyənləşdirildiyi hallar istisna olmaqla, məhdudlaşdırılmır.

898. Kommersiya və qeyri-kommersiya hüquqi şəxsləri hansı əmlakın mülkiyyətçiləridir?

Onların təsisçilərinin (iştirakçılarının, üzvlərinin) maya və ya haqq kimi onlara verdikləri əmlakın, habelə həmin hüquqi şəxslərin başqa əsaslar üzrə əldə etdikləri əmlakın

899. Hansı əmlak dövlət mülkiyyətidir?

Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak (maddə 155)

900. Fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar kimin mülkiyyətidir?

Dövlətin.

901. Dövlət büdcəsinin vəsaiti kimin mülkiyyətidir?

Azərbaycan Respublikasının.

902. Dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verə bilərmi?

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda nəzərdə tutulmuş qaydada, edə bilər.

903. Yerli büdcənin vəsaiti kimin mülkiyyətidir?

Bələdiyyələrin (maddə 156).

904. Əgər mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi hansı hüquqa malikdir?

Qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə mülkiyyətçi həmin hərəkətlərə son qoyulmasını məhkəmə vasitəsilə tələb edə bilər (maddə 157).

905. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edərkən, bu şəxsin əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu halda (vicdansız sahib), hansı hərəkətləri edə bilər?

Əmlakın onda olduğu bütün vaxt ərzində onun götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb edə bilər; vicdanlı sahibdən isə onun əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu vaxtdan və ya əmlakın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə məhkəmə bildirişini aldığı vaxtdan götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb edə bilər.

906. Vicdansız sahib, həmçinin, hansı zərəri ödəməlidir?

Əmlakın mülkiyyətçisinə əmlakın onda olması ilə bağlı bütün zərərin əvəzini

907. Vicdanlı sahib hansı zərərin əvəzini ödəməyə borclu deyildir?

Əvəzi ödənilərkən yoxa çıxan və ya zərər çəkən əmlakın, o cümlədən əmlakdan gəlir götürdüyünə görə zərərin əvəzini

908. İstər vicdanlı sahib, istərsə də vicdansız sahib hansı məsrəflərin əvəzinin ödənilməsini mülkiyyətçidən tələb edə bilərlər?

Əmlakdan gəlirin mülkiyyətçiyə düşdüyü vaxtdan sonra əmlaka sərf etdiyi zəruri məsrəflərin əvəzinin ödənilməsini

909. Vicdanlı sahib əmlaka edilən yaxşılaşdırmalarla bağlı hansı hüquqa malikdir?

O, əmlaka zərər yetirmədən ondan ayrıla bilən öz yaxşılaşdırmalarını özündə saxlaya bilər. Yaxşılaşdırmaları bu cür ayırmaq mümkün olmadıqda vicdanlı sahib əmlakın dəyərindən artıq olmamaq şərti ilə, onu yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilər.

910. Dövlət ehtiyacları tələb etdikdə, dövlət tərəfindən mülkiyyət yalnız "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda hansı məqsədlə alınır?

Dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin çəkilməsi və quraşdırılması, sərhədboyu zolaqda dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edil-

məsi, müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikilməsi, dövlət əhəmiyyətli dağ-mədən sənayesi obyektlərinin tikilməsi məqsədilə

911. Mülkiyyət hüququ ilə yanaşı, daha nələr əmlak hüquqları sayılır?

- Girov hüququ;
- əmlakdan istifadə hüququ;
- servitutlar (maddə 158).

912. Əmlak hüquqları həmin əmlakın mülkiyyətçisi olmayan şəxslərə də mənsub ola bilərmi?

Bəli.

913. Əmlaka mülkiyyət hüququnun başqa şəxsə keçməsi həmin əmlaka olan digər əmlak hüquqlarının xitamına səbəb olurmu?

Olmur, bir şərtlə ki, əldə edən şəxs əmlakın yüklülüyünün olmamasına münasibətdə vicdanlı olsun.

7-ci FƏSİL
Sahiblik hüququ ilə bağlı suallar və cavablar

914. Sahiblik hansı formada əldə edilir?
Əşyaya faktik sahibliyə nail olmaqla (maddə 159)

915. Əgər sahib əşyanı məhdud əşya və ya şəxsi sahiblik hüququnun həyata keçirilməsi üçün kiməsə vermişsə, sahiblik məsələsi hansı formada tənzimlənir?
Bu halda, onların hər ikisi sahibdirlər. Onlardan birincisi vasitəli, ikincisi isə vasitəsiz sahibdir (maddə 160).

916. Əşyaya faktik sahib olmağa mahiyyətcə müvəqqəti iqtidarsızlıq və ya imkansızlıq əşyaya sahibliyi ləğv edirmi?
Xeyr (maddə 162).

917. Sahiblik hansı qaydada verilir?
Əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur (maddə 163).

918. Əşyaya sahiblik hansı halda əşya verilmədən də əldə edilə bilər?
Əgər üçüncü şəxs və ya özgəninkiləşdirən özü xüsusi hüquq münasibətləri əsasında əşyaya sahibliyi davam etdirirsə

919. Sahibliyin bu cür verilməsi nə zaman etibarlı olur?
Üçüncü şəxs üçün yalnız özgəninkiləşdirən ona bu barədə bildiriş verdikdə

920. Üçüncü şəxs əşyanı əldə edənə verməkdən hansı əsaslarla imtina edə bilər?
Özgəninkiləşdirənə verməkdən imtina etmək üçün istinad etdiyi əsaslarla

921. Fraxtverənə və ya anbara verilmiş mallar üçün hansı halda mallar verilmiş sayılır?
Onları təmsil edən order sənədi verildikdə bu sənədin verilməsi malın özünün verilməsi sayılır.

922. Əgər həm order sənədini vicdanlı əldə edən, həm də malı vicdanlı əldə edən varsa, kimə üstünlük verilir?
Malı vicdanlı əldə edənə

923. Sahiblikdən məhrum olan onun üçün qanunsuz sahibdən nə tələb edə bilər?
Sahibliyin qaytarılmasını

924. Hansı hərəkət qadağan edilmiş özbaşınalıq sayılır?
Sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma (maddə 164)

925. Hər bir sahibin qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün nəyə ixtiyarı var?

Güc işlətmək ixtiyarı var. Bu zaman o, şəraiti nəzərə almaqla, əsassız güc hərəkətlərindən çəkinməlidir.

926. Sahiblikdən məhrumetmə iddiası hansı hallarda istisna edilir?

Faktik sahib və ya onun hüquq sələfi barəsində səhv addım olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə

927. Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib hansı hüquqlara malikdir?

O, pozucudan pozuntulara son qoymağı tələb edə bilər. Pozuntuların davam edəcəyindən ehtiyat olunduqda sahib onlara son qoyulması üçün iddia verə bilər (maddə 165).

928. Hansı hallarda bu cür iddia istisna edilir?

Pozucu və ya onun hüquq sələfi üçün sahib qanunsuz olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə

929. Qadağan edilmiş özbaşınalıq üzrə iddiaya hansı halda yol verilir?

Yalnız o halda yol verilir ki, sahib qəsdin və təqsirkarın ona məlum olmasından dərhal sonra əşyanın qaytarılmasını və ya pozuntunun aradan qaldırılmasını tələb etsin.

930. İddia müddəti nə qədər təşkil edir?

Hətta qəsd və təqsirkar sahibə sonralar da məlum olarsa, məhrumetmə və ya pozuntu anından başlayaraq bir il təşkil edir.

931. Daşınar əşyanın sahibi haqqında nə ehtimal edilir?

Ehtimal edilir ki, o, əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir. Hər hansı əvvəlki sahib haqqında ehtimal edilir ki, öz sahibliyi zamanı o, mülkiyyətçi olmuşdur (maddə 166).

932. Kim vicdansız sahibdir?

Sahiblik hüququ olmadığını bilən və ya bilməli olan sahib

933. Daşınar əşya üzərində məhdud əşya hüququna və ya şəxsi hüquqa iddia edən daşınar əşya sahibi barəsində nə ehtimal edilir?

Onun bu cür hüququnun olduğu ehtimal edilir. Lakin o, həmin əşyanı aldığı şəxsin bu cür hüququ olduğunu ehtimal edə bilməz.

934. Kimin torpaq sahəsinə mülkiyyət hüququnun və sahiblik haqqında iddia hüququnun olduğu ehtimal edilir?

Yalnız o şəxsin ki, onun sahiblik hüququ daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsinin qeydə alınmasından irəli gəlir. Lakin torpaq sahəsinin faktik sahibi sahiblikdən özbaşına məhrumedilmə və ya sahibliyin pozulması barədə iddia verə bilər.

8-ci FƏSİL
Mülkiyyət hüququnun məhdudlaşdırılmasını əhatə edən suallar və cavablar

935. Mülkiyyət hüququ məhdudlaşdırıla bilərmi?
MM-də müəyyənləşdirilmiş hallarda edilə bilər (maddə 169).

936. Hər bir daşınmaz əmlak mülkiyyətçisi, əgər quyuların qazılması, drenaj, qaz və başqa boruların, habelə yerüstü və yeraltı elektrik xətlərinin çəkilməsi onun torpaq sahəsindən istifadə edilmədən qətiyyən mümkün deyilsə və ya hədsiz yüksək məsrəflər hesabına mümkündürsə, o, həmin tədbirlərin həyata keçirilməsinə hansı şərtlə icazə verməlidir?
Bununla əlaqədar dəyən zərərin əvəzinin qabaqcadan tam ödənilməsi şərti ilə

937. Yerüstü xətlərin çəkildiyi hallarda, əgər fövqəladə hallar əsas verirsə, yüklü torpaq sahəsinin mülkiyyətçisi nəyi tələb edə bilər?
Tələb edə bilər ki, həmin xəttin keçdiyi ağlabatan həcmdə torpaq sahəsi tam əvəzi ödənilməklə ondan ayrılsın.

938. Çəkilmənin dəyərini kim ödəməlidir?
İxtiyarlı şəxs ödəməlidir, lakin xüsusi halların əsas verdiyi yerlərdə dəyərin ağlabatan hissəsi mülkiyyətçinin hesabına aid edilə bilər.

939. Hansı əmlak qonşunun sahəsi və ya əmlakı sayılır?
İkitərəfli təsirlərin törəyə biləcəyi hər bir torpaq sahəsi və ya digər daşınmaz əmlak (maddə 170)

940. Qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, daha hansı öhdəlikləri daşıyırlar?
Onlar bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən, işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

941. Hansı hallarda torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz?
Əgər öz sahəsindən istifadə etməkdə ona maneçilik yaranmırsa və ya hüququ əhəmiyyətsiz dərəcədə pozulursa (maddə 171)

942. Eyni qayda daha hansı hallarda qüvvədə olur?
Təsirin əhəmiyyətli olduğu, lakin digər torpaq sahəsindən və ya başqa daşınmaz əmlakdan adi istifadədən törəndiyi və istifadəçilərin həmin növü üçün normal təsərrüfat fəaliyyəti sayılan tədbirlərlə qarşısının alına bilmədiyi hallarda

943. Əgər mülkiyyətçi bu cür təsirə dözməyə borcludursa, o, təsiri əmələ gətirən torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisindən hansı hallarda pul formasında müvafiq kompensasiya tələb edə bilər?

Təsirin həmin ərazi üçün təsdiq edilən adi istifadədən və iqtisadi cəhətdən yol verilən hədlərdən yüksək olduğu hallarda

944. Torpaq sahəsinin mülkiyyətçisi özünün torpaq sahəsindən istifadə hüququna yolverilməz şəkildə qəsd edən qurğularla bağlı hansı hüquqa malikdir?

Belə qurğuların qonşu sahədə tikilməsinin və ya istismarının qadağan olunmasını tələb edə bilər (maddə 172).

945. Əgər torpaq sahəsinin mülkiyyətçisi tikinti zamanı qonşu sahənin sərhədlərini qərəzsiz pozarsa, həmin sahənin mülkiyyətçisi nə etməlidir?

Pozuntu aşkar edilməzdən qabaq və ya aşkar edilən kimi pozucuya etiraz bildirildiyi hallardan başqa, həmin pozuntuya dözməlidir. Sərhədi pozmuş qonşu pul kompensasiyası ödəməli və bundan sonra onu hər il ödəməlidir.

946. Qonşuluq hüququnun göstərişlərini pozan binalara hansı qaydalar tətbiq edilir?

Çıxıntılı binalar haqqında qaydalar (maddə 172)

947. Başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular hansı şərtlə yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar?

Bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun (maddə 173).

948. Üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilərmi?

Bəli.

949. Əgər üst tikili əsassızdırsa və hüququna toxunulmuş şəxs bunu bilsə də, vaxtında etiraz etməzsə, nəticəsi nə ola bilər?

Üst tikilini ucaldan şəxsə, şəraitin haqq qazandırdığı hallarda, ağlabatan əvəz ödənilməklə, üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər.

950. Əgər qonşu sahədəki binanın uçub torpaq sahəsinə tökülməsi təhlükəsi varsa, mülkiyyətçi qonşudan nəyi tələb edə bilər?

Həmin təhlükənin qarşısının alınması üçün lazımi tədbirlər görməyi

951. Qonşu çıxıntılı budaqları və kökləri hansı hallarda kəsib özündə saxlaya bilər?

Əgər çıxıntılı budaqlar və uzanan köklər qonşunun mülkiyyətinə ziyan vurarsa və onun şikayəti ilə ağlabatan müddətdə aradan qaldırılmazsa (maddə 174)

952. Ağac və ya kol meyvəsi qonşunun torpaq sahəsinə düşdükdə kimin meyvəsi sayılır?

Qonşunun torpaq sahəsinin meyvəsi sayılır.

953. Əgər mülkiyyətçi tikililər və üst tikililər olan torpaq sahələrində çıxıntılı budaqların olmasına yol verirsə, həmin budaqlarda yetişən meyvələrə onun hüququ çatırmı?

Bəli.

954. Bu göstərişlər hansı torpaq sahələrinə şamil edilmir?

Meşə.

955. Əgər torpaq sahəsi mülkiyyətçisinin öz sahəsindən ictimai yola, elektrik, neft, qaz və su təchizatı xətlərinə keçidi yoxdursa, o, nəyi tələb edə bilər?

O, tələb edə bilər ki, qonşular ona tam əvəzi ödənilməklə zəruri keçid ayırsınlar (maddə 175).

956. Tələb ilk növbədə hansı qonşuya yönəldilir?

O qonşuya qarşı yönəldilir ki, mülkiyyət və keçid münasibətləri ilə əlaqədar keçid verilməsinin ondan tələb edilməsi daha yolverilən dir; daha sonra tələb keçidin daha az zərər vurduğu qonşulara yönəldilir.

957. Sahələrindən zəruri yol və ya birləşdirici xətt keçəcək qonşular hansı hüquqa malikdirlər?

Onlara müvafiq kompensasiya ödənilməlidir. Tərəflər arasında razılaşmaya əsasən, kompensasiya birdəfəlik ödəniş şəklində verilə bilər.

958. Zəruri yola və ya birləşdirici xəttə dözmək vəzifəsi hansı halda əmələ gəlmir?

Əgər torpaq sahəsi ilə artıq mövcud olmuş əlaqə xətləri mülkiyyətçinin özbaşına hərəkətləri nəticəsində ləğv edilərsə

959. Hasarlama xərclərini kim çəkməlidir?

Hasarın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi (maddə 176)

960. İki torpaq sahəsi arasında barı vasitəsilə və ya sərhəd kimi istifadə edilən başqa qurğu ilə mərz çəkildikdə nə ehtimal edilir?

Ehtimal edilir ki, torpaq sahələrinin mülkiyyətçiləri həmin qurğudan istifadə etməkdə bərabər hüquqlara malikdirlər və onunla bağlı xərcləri öz mənafelərinə mütənasib surətdə ödəməlidirlər.

961. Əgər hər iki qonşunun sərhəd kimi istifadə edilən qurğudan birlikdə yararlanmağa haqları çatırsa, onlar bu qurğudan hansı formada istifadə edə bilərlər?

Elə istifadə edə bilərlər ki, birgə istifadə zamanı qonşuya maneçilik yaranmasın.

962. Torpaq sahəsinin mülkiyyətçisi qonşu sahənin mülkiyyətçisindən möhkəm ayırıcı mərz çəkilməsində və ya mövcud olmuş, lakin uçmuş və ya zədələnmiş mərzin bərpasında iştirak etməyi tələb edə bilərmi?

Bəli.

963. Mərz çəkilməsi xərcləri hansı qaydada bölünür?

İki qonşunun razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onların arasında bərabər bölünür.

964. Mərz qonşulardan birinin razılığı olmadan uçurula və ya dəyişdirilə bilərmi?

Nə qədər ki, qonşulardan biri mərz qurğusunun olmasında maraqlıdır, həmin mərz onun razılığı olmadan uçurula və ya dəyişdirilə bilməz.

965. Əgər dəqiq sərhədləri müəyyənləşdirmək mümkün deyilsə, sərhəd məsələsi necə həll edilir?

Bunun üçün qonşuların faktik sahibliyi həlledici əhəmiyyət daşıyır. Faktik sahibliyi müəyyənləşdirmək mümkün olmadıqda, mübahisəli ərazi sahələr arasında bərabər bölüşdürülür. Əgər belə bölgü ədalətsiz nəticələr doğurarsa, tərəflərdən birinin ərizəsi ilə sərhədi məhkəmə müəyyənləşdirir.

966. Əgər təbii fəlakət və ya təsadüfi hadisələr nəticəsində əşyalar özgə torpaq sahəsinə düşərsə və ya vəhşi heyvanlar istisna olmaqla, heyvanlar özgə ərazisinə keçərsə, mülkiyyətçi hansı öhdəliyi daşıyır?

Həmin torpaq sahəsinin mülkiyyətçisi ixtiyarlı şəxsin onların arxasınca gəlib onları götürməsinə icazə verməlidir (maddə 177).

967. Heyvanlar özgə ərazisinə keçərsə, dəyən zərər üçün torpaq sahəsinin mülkiyyətçisi hansı hüquqa malikdir?

O, əvəz ödənilməsini tələb edə bilər və bununla əlaqədar həmin əşyaları saxlamaq hüququna malikdir.

9-cu FƏSİL
Mülkiyyət hüququnun əldə edilməsi və itirilməsinə dair suallar və cavablar

§1. Daşınmaz əşyalara mülkiyyət hüququnun əldə edilməsi

968. Daşınmaz əmlaka mülkiyyət hüququ əldə edənə nə zaman keçir?

Qanunla müəyyənləşdirilmiş əsaslarla onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan (maddə 178)

969. Əgər qanuna müvafiq olaraq daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət reyestrində qeydə alınmadan başqa şəxsə keçməsi mümkündürsə, onda şəxs hansı öhdəliyi daşıyır?

O, bu barədə dövlət reyestrinə məlumat verməlidir.

970. Yeni yaranmış daşınmaz əmlaka mülkiyyət hüququ nə vaxtdan əmələ gəlir?

Onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan

971. Əgər daşqın, torpağın səpələnməsi və ya yerdəyişməsi, çayın yatağının və ya səviyyəsinin dəyişməsi nəticəsində, yaxud başqa şəkildə yeni ərazi meydana gəlmişsə, o, hansı sahəyə birləşdirilir?

Bitişik torpaq sahəsinə birləşdirilir.

972. Torpağın bir torpaq sahəsindən digərinə yerdəyişməsi sahələrin hüdudlarının dəyişməsinə səbəb olurmu?

Xeyr.

973. Əgər daşınmaz əmlakın dövlət reyestrində əsassız qeydə alınmış mülkiyyətçi qeydəalmanın əsassız olduğunu bilməyərək, torpaq sahəsinə 10 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, həmin şəxs bu torpaq sahəsinin mülkiyyətçisi sayılırmı?

Bəli.

974. Əgər şəxs daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmamış daşınmaz əmlaka faktik mülkiyyətçi hüququ ilə 30 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, o, mülkiyyətçi kimi qeydə alınmasını tələb edə bilərmi?

Bəli.

975. Eyni şərtlərlə bu hüquq, həmçinin, hansı sahibə mənsubdur?

O, daşınmaz əmlakın sahibinə mənsubdur ki, onun mülkiyyətçisi daşınmaz əmlakın dövlət reyestrindən bəlli olmasın və ya 30 il əvvəl ölmüş və ya mülkiyyətin sahiblik müddətinə görə əldə edilməsi müddətinin əvvəlində xəbərsiz itkin düşmüş elan olunsun.

976. Bu halda qeydiyyat hansı qaydada aparılmalıdır?

Rəsmi elan olunmuş müddətdə etiraz verilmədikdən və ya rədd edildikdən sonra yalnız məhkəmənin qərarı ilə aparılmalıdır.

977. Sahibsiz daşınmaz əşyalar, habelə ictimai sular və becərilməyə yararsız torpaqlar, məsələn, qayalar, yüksək dağlar və onlardan çağlayan bulaqlar, habelə faydalı qazıntılar kimə mənsubdur?

Dövlətə.

978. Tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxslə binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi (satıcı) arasında hansı münasibətlər əmələ gəlir?

MM-in 39-cu fəsli (Podrat) ilə nəzərdə tutulan podrat münasibətləri əmələ gəlir və belə münasibətlərdə torpaq sahəsinin mülkiyyətçisi (satıcı) podratçı, tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxs isə sifarişçi hesab edilir.

979. Bu zaman digər öhdəliklərlə yanaşı, satıcı (podratçı) və sifarişçi hansı vəzifəni daşıyır?

Satıcı (podratçı) MM-in 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə (bölünmə planına əsasən mülkiyyətindəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında müqavilədə) müəyyənləşdirilən müddətdə binanın tikintisini başa çatdırmaq və istismarına icazə almaq, tərkib hissəni əldə etmək istəyən şəxs (sifarişçi) isə razılaşdırılmış məbləği hissə-hissə vaxtında satıcıya ödəmək vəzifəsi daşıyır.

980. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisinin (satıcının, podratçının) və (və ya) həmin binanın tərkib hissəsini əldə etmək istəyən şəxsin dəyişməsi onlar arasında yaranan münasibətlərə MM-in 39-cu fəslində (podrat) nəzərdə tutulan podrat münasibətlərinin tətbiqini istisna etməlidirmi?

Xeyr, etməməlidir.

981. Daşınmaz əmlaka sahiblik müddətinə əsaslanan şəxs hüquq varisi olduğu şəxsin bu əmlaka sahiblik etdiyi bütün müddəti öz sahiblik müddətinə birləşdirə bilərmi?

Bəli (maddə 179).

982. Əmlaka öz əmlakı kimi sahiblik edən şəxs əldə etmə müddəti ilə əlaqədar daşınmaz əmlaka mülkiyyət hüququnu əldə edənə qədər öz sahibliyini kimlərdən müdafiə etmək hüququna malikdir?

Əmlakın mülkiyyətçisi olmayan və MM-də və ya müqavilədə nəzərdə tutulmuş digər əsasa görə ona sahiblik hüquqları olmayan üçüncü şəxslərdən

983. Əldə etmə müddəti ilə əlaqədar daşınmaz əmlakı əldə etmiş şəxsin həmin əmlaka mülkiyyət hüququ nə vaxtdan əmələ gəlir?

Bu hüququn daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan

984. Hansı əmlak özbaşına tikinti sayılır?

Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak (maddə 180)

985. Özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə edirmi?
Xeyr.

986. Özbaşına tikinti aparmış şəxsin tikintiyə dair sərəncam vermək - onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı varmı?
Xeyr.

987. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən hansı şəxs üçün tanına bilər?
O şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun.

988. Hansı halda, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz?
Əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozursa və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa

989. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş bina və qurğular hansı qaydada sökülə bilər?
Müvafiq icra hakimiyyəti orqanlarının və ya maraqlı tərəfin müraciəti üzrə qəbul edilmiş məhkəmənin qərarı əsasında

§2. Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi

990. Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi ona hansı əsasla verməlidir?
Həqiqi hüquq əsasında (maddə 181)

991. Əşyanın verilməsi nələri əhatə edir?
Əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi; əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsi, bu zaman əvvəlki mülkiyyətçi birbaşa sahib kimi qala bilər; mülkiyyətçinin üçüncü şəxsdən sahibliyi tələb etmək hüququnu əldə edənə verməsi

992. Əmlakdan istifadə nəticəsində götürülən bəhərə, məhsula və gəlirə mülkiyyət hüququ hansı əsaslarla əldə edilir?
MM-in 135.12-ci maddəsində nəzərdə tutulan əsaslarla. Bu müddəaya əsasən, əşyanın verdiyi gəlir, artım və (və ya) üstünlük əşyanın bəhəridir. Ayrılanadək bəhər əşyanın tərkib hissəsidir. Əşyanın mülkiyyətçisi kimdirsə, əşyanın təbii bəhəri də onun mülkiyyətindədir.

993. Mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən hansı əsaslarla əldə edilə bilər?
Alqı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya bu əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında

994. Əgər şəxs beş il fasiləsiz daşınar əşyaya öz mülkiyyəti kimi sahiblik etmişdirsə, o, həmin əşyaya mülkiyyət hüququ əldə edirmi (əldə etmə müddəti)?
Bəli.

995. Fasiləsiz sahiblik etmiş şəxsin hansı halda daşınar əşyanı əldə etməsi yolverilməzdir?

Əgər əldə edən əşyaya vicdansız sahiblik edirdisə və ya sonradan əşyanın ona məxsus olmamasını bilmişdirsə

996. Hüquqi şəxs yenidən təşkil edildikdə, ona mənsub olmuş əmlaka mülkiyyət hüququ hansı hüquqi şəxsə keçir?

Yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi olan hüquqi şəxsə (hüquqi şəxslərə)

997. Əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olurmu?

Bəli (maddə 182).

998. Hansı halda şəxs vicdanlı əldə edən sayılmır?

Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə

999. Vicdanlılıq faktı hansı ana qədər mövcud olmalıdır?

Əşya verilənə qədər.

1000. Daşınar əşyanın mülkiyyətçisi bu əşyanı itirmişsə, əşya ondan oğurlanmışsa və ya iradəsinin ziddinə olaraq başqa şəkildə onun sahibliyindən çıxmışsa, yaxud əldə edən onu əvəzsiz almışsa, həmin əşyanı əldə edən vicdanlı ola bilərmi?

Xeyr.

1001. Bu məhdudiyyətlər hansı əmlaklara tətbiq olunmur?

Auksionda özgəninkiləşdirilmiş pula, sənədli qiymətli kağızlara və əşyalara

1002. Mülkiyyətin əldə edənə keçməsi üçün əşyanın verilməsi əvəzinə qiymətli kağız verilməsi məcburidirsə, hansı andan mülkiyyət əldə edənə keçmiş sayılır?

Qiymətli kağıza mülkiyyət hüququ əldə edildiyi andan (maddə 183)

1003. Şəxs hansı şərtlər ödəndiyi zaman sahibsiz daşınar əşyanı sahibliyə qəbul etdikdə ona mülkiyyət hüququ əldə edir?

Əgər sahibsiz daşınar əşyanın mənimsənilməsi MM ilə qadağan edilməmişsə və ya onu mənimsəmək hüququna malik olmuş başqa şəxsin hüquqlarını pozmursa (maddə 184)

1004. Hansı hallarda daşınar əşya sahibsiz sayılır?

Əgər daşınar əşyanın mülkiyyətçisi yoxdursa və ya məlum deyilsə və ya keçmiş mülkiyyətçisi mülkiyyətdən imtina edərək əşyaya sahibliyə xitam verirsə

1005. Mülkiyyət hüququndan imtina etmək məqsədilə mülkiyyətçinin atdığı və ya digər şəkildə əl çəkdiyi daşınar əşyanı (atılmış əmlakı) başqa şəxslər öz mülkiyyətinə yönəldə bilərmi?

Bəli (maddə 185).

1006. Mülkiyyətində, sahibliyində və ya istifadəsində torpaq sahəsi, sututar və ya başqa obyekt olan şəxs orada hansı əmlaklar olduğu təqdirdə onlardan isti-

fadəyə başlamaqla və ya əmlakı mülkiyyətə yönəltdiyini göstərən digər hərəkətlər etməklə, onu öz mülkiyyətinə yönəltmək hüququna malikdir?

Dəyəri əlli beş manatdan aşkar aşağı olan atılmış əmlak və ya atılmış metal qırıntıları, zay məhsul, faydalı qazıntıların çıxarılması zamanı əmələ gələn təpəciklər, istehsal tullantıları və başqa tullantılar olduğu təqdirdə

1007. Atılmış başqa əmlak ona sahibliyə başlamış şəxsin mülkiyyətinə nə zaman daxil olur?

O zaman daxil olur ki, bu əmlak həmin şəxsin ərizəsi ilə məhkəmə tərəfindən sahibsiz hesab edilir.

1008. İtirilmiş əşyanı tapan şəxs hansı öhdəliyi daşıyır?

O, tapıntı barədə onu itirmiş şəxsə, onun mülkiyyətçisinə, səlahiyyətli şəxsə və ya əgər mülkiyyətçi məlum deyilsə, polisə dərhal xəbər verməli və həmin əşyanı qaytarmalıdır (maddə 186).

1009. Hansı hallar istisna olmaqla, əşyanı tapan şəxs bu barədə xəbər verdiyi vaxtdan bir illik müddət keçdikdən sonra tapıntıya mülkiyyət hüququ əldə edir?

Əşyanı tapan şəxsə mülkiyyətçinin məlum olduğu və ya mülkiyyətçinin əşyaya hüququnun artıq polisə bildirildiyi hallar istisna olmaqla

1010. Səlahiyyətli şəxs tapılmış əşyanı qəbul edirsə, onu tapan şəxs hansı miqdarda bəxşiş tələb edə bilər?

Tapılmış əşyanın dəyərinin beş faizinədək miqdarda

1011. Əşyanı tapan şəxs səlahiyyətli şəxsdən həmin əşyanın saxlanması xərclərinin əvəzini ödəməyi də tələb edə bilərmi?

Bəli.

1012. Hansı halda bəxşiş almaq hüququ əmələ gəlmir?

Əgər əmlakı tapan tapıntı barədə məlumat verməmişsə və ya onu gizlətməyə cəhd göstərmişsə

1013. Əşyanı tapan şəxs mülkiyyətdən imtina edirsə, səlahiyyətli orqan bir il keçdikdən sonra əşya barəsində hansı tədbirləri görə bilər?

Əşyanı auksionda sataraq fayda götürə bilər və ya söhbət azqiymətli əşyadan gedirsə, onu pulsuz özgəninkiləşdirə bilər və ya məhv edə bilər.

1014. Hansı hallarda bir illik müddət tətbiq olunmur və onların özgəninkiləşdirilməsi nəticəsində əldə edilmiş məbləğ mülkiyyətçiyə qaytarılır?

Əgər tapıntı heyvan və ya tez xarab olan əşyadırsa, yaxud saxlanması böyük xərc tələb edən əşyadırsa

1015. Dəfinə, yəni torpağa basdırılmış və ya başqa üsulla gizlədilmiş pul və ya digər əşyanın mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmadıqda, onlar kimin mülkiyyətinə daxil olur?

Dəfinənin gizlədildiyi əmlakın (torpaq sahəsinin, tikilinin və s.) mənsub olduğu şəxslə dəfinəni aşkar etmiş şəxsin mülkiyyətinə, həm də, əgər onların razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bərabər paylar şəklində daxil olur (maddə 187).

1016. Dəfinə onun gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə, kimə verilməlidir?

Həmin torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinə

1017. Aşkar edilən dəfinə tarix və ya mədəniyyət abidələrinə aid, elmi dəyərli əmlak olduqda, kimin mülkiyyətinə verilməlidir?

Dövlət mülkiyyətinə verilməlidir.

1018. Bu zaman dəfinənin gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisi və dəfinəni aşkar etmiş şəxs birlikdə hansı miqdarda bəxşiş almaq hüququna malikdirlər?

Dəfinənin dəyərinin əlli faizi miqdarında. Bu şəxslərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bəxşiş onların arasında bərabər bölünür.

1019. Belə dəfinə ilə bağlı bəxşiş hansı halda bütünlüklə əmlakın mülkiyyətçisinə verilir?

Onun gizlədildiyi əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə

1020. Bu maddənin qaydaları kimlərə tətbiq edilmir?

Dəfinə aşkar etmək üçün qazıntı və axtarış aparılması əmək və ya qulluq vəzifələrinə aid olan şəxslərə

1021. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, şəxsin özünə mənsub olmayan materialların emalı yolu ilə hazırladığı yeni daşınar əmlaka mülkiyyət hüququnu kim əldə edir?

Materialların mülkiyyətçisi (maddə 188)

1022. Emalın dəyəri materialların dəyərindən əhəmiyyətli dərəcədə yüksək olduqda, yeni əmlaka mülkiyyət hüququnu kim əldə edir?

Vicdanla hərəkət edərək, materialları özü üçün emal etmiş şəxs

1023. Materialları emal etmiş şəxsin vicdansız hərəkətləri nəticəsində onları itirən materialların mülkiyyətçisi nə tələb edə bilər?

Yeni əmlakın öz mülkiyyətinə verilməsini və ona vurulan zərərin əvəzinin ödənilməsini

1024. Qanunvericiliyə, mülkiyyətçinin verdiyi ümumi icazəyə və ya yerli adətə uyğun olaraq meşələrdə, sututarlarda və ya başqa ərazidə giləmeyvə yığılmasına, balıq tutulmasına, heyvan ovuna və ya hamıya müyəssər olan digər əmlakın yığılmasına yol verildiyi hallarda müvafiq əmlaka mülkiyyət hüququnu kim əldə edir?

Onu yığan və ya ovlayan şəxs (maddə 189)

1025. Daşınar əşyanın torpaq sahəsi ilə bağlılıq tərzi onu həmin sahənin tərkib hissəsinə çevirmişsə, əşyanın mülkiyyətçisi kim hesab olunur?

MM-in 135.10-cu maddəsinə uyğun olaraq, torpaq sahəsinin mülkiyyətçisi eyni zamanda həmin əşyanın da mülkiyyətçisi olur. MM-in 135.10-cu maddəsinə əsasən, maddi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya də-

yişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir (maddə 190).

1026. Daşınar əşyaların bir-birinə bağlılığı nəticəsində onlar yeni vahid əşyanın tərkib hissələrinə çevrildikdə və ya daşınar əşyalar birləşdikdə, yeni əşyanın mülkiyyətçisi kim olur?

Onların əvvəlki sahibləri bu yeni əşyanın mülkiyyətçiləri olurlar (maddə 191).

1027. Daşınar əşyaların bir-birinə bağlılığı nəticəsində onlar yeni vahid əşyanın tərkib hissələrinə çevrildikdə və ya daşınar əşyalar birləşdikdə, onların əvvəlki sahibləri bu yeni əşyanın mülkiyyətçiləri olduqları üçün paylar hansı qaydada müəyyənləşdirilir?

Paylar həmin əşyaların birləşməzdən əvvəlki dəyərinə uyğun müəyyənləşdirilir.

1028. Əşyalardan biri, bərqərar olmuş rəyə görə, baş əşya sayılırsa, əşyanın ləvazimatının mülkiyyətçisi kim hesab olunur?

Onun mülkiyyətçisi həmin əşyanın ləvazimatına da mülkiyyət əldə edir.

1029. MM-in 188-ci, 190-cı və 191-ci maddələrinə (emal, torpaq sahəsinin tərkib hissəsinə mülkiyyətin əldə edilməsi və birləşmə nəticəsində yaranan əşyaya birgə mülkiyyət) müvafiq olaraq mülkiyyətini itirən və ya hüquqları başqa qaydada pozulan şəxs mülkiyyətçi olmuş şəxsdən zərərin əvəzinin ödənilməsini tələb edə bilərmi?

Bəli (maddə 191-1).

1030. Hansı halda, MM-in 191-1.1-ci maddəsində nəzərdə tutulmuş mülkiyyətini itirən və ya hüquqları başqa qaydada pozulan şəxsin mülkiyyətçi olmuş şəxsdən zərərin əvəzinin ödənilməsi barədə tələbi əmələ gəlmir?

Əgər yeni mülkiyyətçi əşyanı əvəzli müqavilə əsasında üçüncü şəxsdən əldə edibsə

1031. Nəzarətsiz və ya otlamağa buraxılmış mal-qaranı və ya digər nəzarətsiz heyvanları tutan şəxs hansı öhdəlik daşıyır?

Onları mülkiyyətçisinə qaytarmalıdır, heyvanların mülkiyyətçisi və ya onun olduğu yer bilinmədikdə isə, onları tutduğu andan ən geci üç gün keçənədək aşkar etdiyi heyvanlar barədə polisə xəbər verməlidir; polis mülkiyyətçinin axtarılması üçün tədbirlər görməlidir (maddə 192).

1032. Heyvanları tutan şəxs mülkiyyətçinin axtarıldığı müddətdə hansı hüquqa malikdir?

Onları özündə saxlaya və istifadə edə bilər, yaxud saxlanmaq və istifadə üçün başqa şəxsə verə bilər.

1033. Nəzarətsiz heyvanları tutan şəxs, habelə saxlanmaq və istifadə üçün onların verildiyi şəxslər heyvanların tələf olması və ya azarlaması üçün hansı halda məsuliyyət daşıyırlar?

Təqsirli olduqda, onların dəyəri həddində məsuliyyət daşıyırlar.

1034. Heyvanları saxlayan və onlardan istifadə edən şəxs hansı halda onlara mülkiyyət hüququ əldə edir?

Nəzarətsiz ev heyvanlarının tutulması barədə xəbər verildiyi gündən altı ay müddətində onların mülkiyyətçisi aşkar edilməzsə və ya özü onlara hüququnu bildirməzsə

1035. Nəzarətsiz ev heyvanlarının tutulması barədə xəbər verildiyi gündən altı ay müddətində onların mülkiyyətçisi aşkar edilməzsə və ya özü onlara hüququnu bildirməzsə onlar dövlət mülkiyyətinə nə zaman daxil olur?

Həmin şəxs saxladığı heyvanları mülkiyyətə götürməkdən imtina etdikdə

1036. Heyvanlar başqa şəxsin mülkiyyətinə keçdikdən sonra onların əvvəlki mülkiyyətçisi gəldikdə, o, hansı qaydada heyvanların qaytarılmasını tələb edə bilər?

Əgər həmin heyvanların ona bağlılığını saxladığını sübut edən hallar olarsa, yeni mülkiyyətçi ilə razılaşma əsasında müəyyənləşdirilən şərtlərlə, razılaşma əldə edilmədikdə isə məhkəmə yolu ilə

1037. Nəzarətsiz heyvanlar mülkiyyətçisinə qaytarıldıqda, onları saxlamış şəxs hansı hüquqa malikdir?

Heyvanlardan istifadə nəticəsində götürdüyü mənfəəti çıxmaq şərti ilə, onların saxlanması ilə bağlı çəkdiyi zəruri xərclərin əvəzinin heyvanların mülkiyyətçisi tərəfindən ödənilməsi hüququna

1038. Nəzarətsiz heyvanları tutmuş şəxs bəxşiş hüququna malikdirmi?

MM-in 186.3-cü maddəsinə uyğun olaraq, malikdir. Yəni səlahiyyətli şəxs tapılmış əşyanı qəbul edirsə, onu tapan şəxs tapılmış əşyanın dəyərinin beş faizinədək miqdarda bəxşiş tələb edə bilər. Bundan başqa, əşyanı tapan şəxs səlahiyyətli şəxsdən həmin əşyanın saxlanması xərclərinin əvəzini ödəməyi də tələb edə bilər. Əmlakı tapan tapıntı barədə məlumat verməmişsə və ya onu gizlətməyə cəhd göstərmişsə, bəxşiş almaq hüququ əmələ gəlmir.

§3. Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi

1039. Tələblər və hüquqlar yeni şəxsə hansı vəziyyətdə keçir?

Köhnə sahibində olduğu vəziyyətdə (maddə 193)

1040. Hüququn və tələbin güzəşti barədə lazımınca təsdiqlənmiş sənədin əldə edənə verilməsi ilə bağlı həmin sənədin təsdiqlənməsi üçün zəruri xərclər kimin üzərinə qoyulur?

Yeni sahibin üzərinə

1041. Tələb sahibi (kreditor) borclunun razılığı olmadan tələbi üçüncü şəxsə hansı şərtlə güzəşt edə bilər (tələbin güzəşti)?

Bu şərtlə ki, həmin güzəşt öhdəliyin mahiyyətinə, onun borclu ilə razılaşmasına və ya qanunvericiliyə zidd olmasın (maddə 194).

1042. Güzəştin yolverilməzliyi barədə borclu ilə razılaşma hansı halda mümkündür?

Yalnız borclunun üzrlü mənafeyi olduğu halda

1043. Tələbin güzəşti hansı əsasla həyata keçirilir?

Tələbin sahibi ilə üçüncü şəxs arasında bağlanan müqavilə ilə həyata keçirilir və belə hallarda ilk sahibin yerini üçüncü şəxs tutur.

1044. Bu zaman tələbin sahibi ilə borclu arasında bağlanmış müqaviləyə dəyişiklik edilməsi tələb olunurmu?

Xeyr.

1045. Hansı tələblərin güzəşt edilməsinə yol verilmir?

Kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblərin, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin

1046. Sadə yazılı və ya notarial formada bağlanmış əqdə əsaslanan tələbin güzəşti hansı formada həyata keçirilməlidir?

Müvafiq yazılı formada

1047. Adlı sənədli qiymətli kağız, habelə daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı ilə bağlı tələbin güzəşti hansı qaydada həyata keçirilir?

Həmin qiymətli kağızlar üzrə indossament yolu ilə

1048. Tələbin güzəşti barədə borcluya məlumat verilənə qədər o, tələbin ilk sahibi qarşısında öhdəliklərini icra edə bilərmi?

Bəli (maddə 195).

1049. Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ilkin kreditorun tələbi yeni kreditora hansı həcmdə və şərtlərlə keçir?

Hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə (maddə 196)

1050. Xüsusilə, hansı hüquqlar yeni kreditora keçir?

Öhdəliyin icrasını təmin edən hüquqlar, habelə tələblə bağlı olan digər hüquqlar, o cümlədən ödənilməmiş faizlərə hüquqlar

1051. Əgər tələb sahibi eyni tələbin güzəşti barədə bir neçə şəxslə şərtləşərsə, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, tələb kimə keçir?

Onun sahibinin daha əvvəl münasibətlər yaratdığı şəxsə (maddə 197)

1052. Bunu müəyyənləşdirmək mümkün olmadıqda, tələb kimə keçir?

Haqqında borcluya daha əvvəl məlumat verilmiş şəxsə

1053. Eyni qayda gələcəkdə yaranan tələblərə də şamil edilirmi?

Bəli.

1054. Borclu yeni kreditora öhdəliyi nə vaxta qədər icra etməyə bilər?

Tələbin həmin şəxsə keçdiyinə dair sübutlar ona təqdim edilənədək (maddə 198)

1055. Tələbi başqa şəxsə güzəşt etmiş kreditor hansı hərəkətləri etməyə borcludur?

Ona tələb hüququnu təsdiqləyən sənədləri təqdim etməyə və tələbin həyata keçirilməsi üçün əhəmiyyət daşıyan məlumatları bildirməyə

1056. Borclu öhdəlik üzrə tələblərin yeni kreditora güzəşt edildiyi barədə bildirişi aldığı məqamda ilkin kreditora qarşı malik olduğu etirazları yeni kreditorun tələbinə qarşı irəli sürə bilərmi?

Bəli (maddə 199).

1057. Əgər borclu borc öhdəliyi barədə sənəd vermişsə, borc öhdəliyinin təqdim edilməsi üzrə tələbin güzəşti zamanı o, yeni kreditor qarşısında nəyə istinad edə bilməz?

Ona istinad edə bilməz ki, öhdəlik münasibətlərinə girməsi və onların təsdiqi yalnız görüntü yaratmaq üçün edilmişdir və ya ilkin kreditorla razılaşmaya görə güzəşt istisna edilmişdir, amma güzəşt zamanı yeni kreditorun işin təfsilatını bildiyi və ya bilməli olduğu hallar istisna təşkil edir.

1058. Qanuna, məhkəmənin və ya digər səlahiyyətli dövlət orqanının qərarına əsasən həyata keçirilən tələbin güzəştinə hansı qaydalar tətbiq olunur?

Hüquqlara və tələblərə mülkiyyət hüququnun əldə edilməsi qaydaları (maddə 202)

§4. Mülkiyyət hüququnun itirilməsi

1059. Hansı hallarda daşınmaz əmlaka mülkiyyət hüququ itirilir?

Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat yazısı ləğv edildikdə, habelə daşınmaz əmlak tamamilə məhv olduqda (maddə 203)

1060. Hansı hallarda sahibliyin itib-itməməsindən asılı olmayaraq, daşınar əşyaya mülkiyyət hüququ itirilir?

Daşınar əşyanın mülkiyyətçisi mülkiyyət hüququndan imtina etdikdə, əşya məhv olduqda və ya sonralar hər hansı başqa şəxs bu əşyaya mülkiyyət hüququ əldə etdikdə

1061. Qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla həyata keçirilən hansı tədbirlərdən başqa, əmlakın mülkiyyətçidən məcburi alınmasına yol verilmir?

- Öhdəliklər üzrə tutmanın əmlaka yönəldilməsi;
- qanuna görə həmin şəxsə mənsub ola bilməyən əmlakın özgəninkiləşdirilməsi;
- sahənin alınması ilə əlaqədar daşınmaz əmlakın özgəninkiləşdirilməsi;
- təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satın alınması;
- rekvizisiya;
- müsadirə.

1062. Dövlət mülkiyyətində olan əmlak hansı qaydada fiziki və hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilir?

Özəlləşdirmə haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada

1063. Fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın dövlətin və cəmiyyətin ehtiyacları üçün özgəninkiləşdirilməsinin hüquqi əsasını nə təşkil edir?

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin IV hissəsi (Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər).

1064. Daşınmaz əmlaka mülkiyyət hüququndan və ya digər hüquqdan imtina edilməsi üçün hansı tədbirlərin görülməsi zəruridir?

İxtiyarlı şəxsin bu hüquqdan imtina etdiyi barədə ərizəsi və həmin ərizənin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması (maddə 204)

1065. Daşınmaz əmlaka mülkiyyət hüququndan və ya digər hüquqdan imtina haqqında ərizə nə zaman məcburi qüvvə alır?

Bu barədə daşınmaz əmlakın dövlət reyestrində qeyd yazıldıqdan sonra

1066. Daşınar əmlaka mülkiyyət hüququndan və ya digər hüquqdan imtina üçün mülkiyyətçi hansı hərəkətləri icra etməlidir?

Bu barədə yazılı elan verməli və ya həmin əmlaka hər hansı hüququnu saxlamaq niyyəti olmadan əmlaka sahiblik etməkdən, ondan istifadə etməkdən və ona dair sərəncam verməkdən kənarlaşmasını aşkar göstərən başqa hərəkətləri yerinə yetirməlidir.

1067. Mülkiyyətçinin öhdəlikləri üzrə tutmanın əmlaka yönəldilməsi yolu ilə əmlakın alınması hansı qaydada həyata keçirilir?

Müqavilədə tutmanın yönəldilməsinin ayrı qaydası nəzərdə tutulmayıbsa, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa və ya məhkəmə qərarına əsasən (maddə 205).

1068. Tutmanın yönəldildiyi əmlakla bağlı mülkiyyətçinin mülkiyyət hüququna hansı andan xitam verilir?

Alınmış əmlakın keçdiyi şəxsin həmin əmlaka mülkiyyət hüququnun yarandığı andan

1069. Əgər qanunun yol verdiyi əsaslara görə şəxsin mülkiyyətinə qanunla ona mənsub ola bilməyən əmlak düşmüşsə, həmin əmlakı mülkiyyətçi hansı müddətdə özgəninkiləşdirməlidir?

Qanunla ayrı müddət müəyyənləşdirilməyibsə, əmlaka mülkiyyət hüququnun əmələ gəldiyi andan bir il ərzində (maddə 206)

1070. Mülkiyyətçi əmlakı MM-in 206.1-ci maddəsində göstərilən müddətlərdə, yəni əmlaka mülkiyyət hüququnun əmələ gəldiyi andan bir il ərzində özgəninkiləşdirmədikdə, belə əmlak barəsində hansı tədbir görülməlidir?

Onun xarakterini və təyinatını nəzərə almaqla, dövlət orqanının ərizəsi üzrə məhkəmənin çıxardığı qərara əsasən, məcburi satılaraq satış pulu isə keçmiş mülkiyyətçiyə verilməli və ya dövlət mülkiyyətinə verilərək dəyəri keçmiş mülkiyyətçiyə ödənilməlidir.

1071. Əgər qanunun yol verdiyi əsaslara görə fiziki və ya hüquqi şəxsin mülkiyyətinə əldə edilməsinə xüsusi icazə tələb olunan və mülkiyyətçiyə belə icazənin verilməsindən imtina edilən əmlak düşərsə, bu əmlak hansı qaydada özgəninkiləşdirilməlidir?

Həmin mülkiyyətçiyə mənsub ola bilməyən əmlak üçün müəyyənləşdirilmiş qaydada

1072. Torpaq sahəsində olan binaları, qurğuları və ya digər daşınmaz əmlakı dövlət hansı hallarda satınalma yolu ilə ala bilər?

Mülkiyyət hüququna xitam verilmədən həmin sahənin dövlət ehtiyacları üçün alınmasının mümkün olmadığı hallarda (maddə 207)

1073. Qanuna uyğun olaraq xüsusilə qiymətli və dövlət tərəfindən qorunan sərvətlər sırasına daxil edilmiş mədəni sərvətlər hansı halda məhkəmənin qərarına əsasən dövlət tərəfindən satınalma yolu ilə mülkiyyətçidən alına bilər?

Əgər sərvətlərin mülkiyyətçisi həmin sərvətləri təsərrüfatsızcasına saxlayırsa, bu isə onların öz əhəmiyyətini itirəcəyi qorxusunu törədirsə (maddə 208)

1074. Mədəni sərvətlər satın alınarkən onların dəyəri hansı qaydada ödənilir?

Mülkiyyətçiyə tərəflərin razılaşması ilə, mübahisə olduqda isə məhkəmə tərəfindən müəyyənləşdirilmiş miqdarda

1075. Hansı hallarda müvafiq dövlət orqanlarının qərarı ilə mülkiyyətçidən əmlak qanunla müəyyənləşdirilmiş qaydada və şərtlərlə, dəyəri mülkiyyətçiyə ödənilməklə cəmiyyətin mənafeləri üçün alına bilər (rekvizisiya)?

Təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda (maddə 209)

1076. Əmlakı rekvizisiya edilmiş şəxs əmlakından qalanın qaytarılmasını məhkəmə yolu ilə nə zaman tələb edə bilər?

Rekvizisiya üçün əsas götürülmüş halların təsiri qurtardıqda

1077. Mülkiyyət hüququna xitam verən Azərbaycan Respublikasının qanunu qəbul edildikdə bu qanunun qəbulu nəticəsində mülkiyyətçiyə dəyən zərərin əvəzi ona hansı qaydada ödənilir?

Zərər, o cümlədən əmlakın dəyəri dövlət tərəfindən ödənilir (maddə 210).

1078. Mülkiyyət hüququna xitam verildikdə əmlak hansı qaydada qiymətləndirilir?

Onun bazar qiymətinə əsasən (maddə 211)

1079. Müsadirənin mahiyyətini nə təşkil edir?

Müsadirə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məhkəmə qərarı ilə əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasıdır (maddə 212).

10-cu FƏSİL
Mülkiyyət hüququnun xüsusi növləri ilə bağlı suallar və cavablar

§1. Ümumi mülkiyyət

1080. İki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara hansı əsasla mənsubdur?

Ümumi mülkiyyət hüququ əsasında (maddə 213)

1081. Əşya mülkiyyət hüququnda hansı formalarda ola bilər?

Mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər.

1082. Ümumi mülkiyyət nə zaman yaranır?

Təyinatı dəyişdirilmədən bölünə bilməyən əşyanın (bölünməz əşya) və ya MM-ə görə bölünməli olmayan əşyanın iki və ya bir neçə şəxsin mülkiyyətinə daxil olması zamanı

1083. Bölünən əşyaya ümumi mülkiyyət hansı hallarda yaranır?

MM-də və ya müqavilədə nəzərdə tutulmuş hallarda

1084. Ümumi əşyaya bu şəxslərin paylı mülkiyyəti hansı qaydada müəyyənləşdirilə bilər?

Birgə mülkiyyət iştirakçılarının razılaşması ilə, razılaşma əldə edilmədikdə isə məhkəmənin qərarına əsasən

1085. Ümumi mülkiyyətin hər bir mülkiyyətçisi ümumi mülkiyyətdə olan əşya barəsində üçüncü şəxslərə qarşı hansı tələblər irəli sürə bilər?

Ümumi mülkiyyətin hər bir mülkiyyətçisi əmlakı yalnız bütün mülkiyyətçilərin xeyrinə tələb edə bilər.

1086. Ümumi mülkiyyətdə olan əşya girov qoyula və ya başqa şəkildə yüklü edilə bilərmi?

Digər mülkiyyətçilərlə razılaşma əsasında mülkiyyətçilərdən birinin xeyrinə və mənafeyi üçün girov qoyula və ya başqa şəkildə yüklü edilə bilər.

1087. Ümumi mülkiyyətdə olan əşyaya qulluq edilməsi və onun saxlanması xərcləri kimin üzərinə qoyulur?

MM-də və ya müqavilədə ayrı qayda müəyyənləşdirilməyibsə, mülkiyyətçilərin üzərinə bərabər şəkildə qoyulur.

1088. Əgər paylı mülkiyyət mülkiyyətçilərinin payları MM-ə əsasən təyin edilə bilmirsə və bütün mülkiyyətçilərin razılaşması ilə müəyyənləşdirilməyibsə, paylar hansı qaydada bölünür?

Paylar bərabər sayılır (maddə 214).

1089. Paylı mülkiyyətin mülkiyyətçilərinin ümumi mülkiyyətin yaradılmasına və artırılmasına qoyduğu mayadan asılı olaraq, onların paylarının müəyyənləşdirilməsi və dəyişdirilməsi qaydası təyin edilə bilərmi?

Bəli, paylı mülkiyyətin bütün mülkiyyətçilərinin razılaşması ilə edilə bilər.

1090. Paylı mülkiyyətin mülkiyyətçisi ümumi mülkiyyətdən istifadənin müəyyənləşdirilmiş qaydasına əməl etməklə öz hesabına bu əmlakı yaxşılaşdıran əlavələr etmişsə və həmin əlavələr əmlakdan ayrıla bilməzsə, bu halda o, hansı hüquqa malikdir?

Ümumi mülkiyyət hüququnda öz payının müvafiq surətdə artırılması hüququna malikdir.

1091. Paylı mülkiyyətdə olan əşyaya sahiblik və ondan istifadə hansı qaydada həyata keçirilir?

Onun bütün mülkiyyətçilərinin razılaşması əsasında, razılaşma əldə edilmədikdə isə məhkəmənin müəyyənləşdirdiyi qaydada (maddə 215)

1092. Paylı mülkiyyətin mülkiyyətçisi ümumi əşyanın öz payına uyğun hissəsinin onun sahibliyinə və istifadəsinə verilməsi mümkün olmadıqda hansı hüquqa malikdir?

Onun payına düşən əşyaya sahiblik və ondan istifadə edən digər mülkiyyətçilərdən müvafiq əvəz ödəməyi tələb edə bilər.

1093. Paylı ümumi mülkiyyətin mülkiyyətçiləri mülkiyyətçilərdən hər birinə mənsub olan hansı səlahiyyətləri ləğv edə və ya məhdudlaşdıra bilməzlər?

- Əşyanın dəyərini və işlənməyə yararlılığını saxlamaq üçün ondan istifadə üzrə hərəkətlərin yerinə yetirilməsini tələb etmək, belə hərəkətlər yerinə yetirilmədikdə isə onların yerinə yetirilməsi barədə məhkəmənin qərar çıxarmasını tələb etmək səlahiyyəti;
- əşyaya dəymək qorxusu olan və ya dəyə biləcək zərərin qarşısını almaq üçün dərhal görülməli olan tədbirləri bütün şərikli sahiblər hesabına müstəqil həyata keçirmək səlahiyyəti.

1094. Hər bir mülkiyyətçi əşyaya sahiblik, ondan istifadə və ona dair sərəncam verməkixtiyarına hansı həddə malikdir?

Qalan mülkiyyətçilərin hüquqları ilə bir araya sığan dərəcədə

1095. Əşyanı özgəninkiləşdirmək və ya yüklü etmək, habelə onun təyinatını dəyişmək üçün bütün iştirakçıların razılığı hansı şərtlə tələb olunur?

Bu şərtlə ki, onlar yekdilliklə ayrı qayda barədə razılaşmasınlar.

1096. Hansı halda ümumi mülkiyyətdəki payın iştirakçıları əşyanı ipoteka və ya torpaq sahələrinə yüklü edə bilməzlər?

Əgər ümumi mülkiyyətdəki paylar üzrə ipotekalar və ya torpaq sahələrinə yüklülüklər varsa

1097. Paylı mülkiyyətdə olan əşyaya dair sərəncam verilməsi hansı əsasla həyata keçirilir?

Əşyanın bütün mülkiyyətçilərinin razılaşması əsasında

1098. Paylı mülkiyyətin mülkiyyətçisi öz payını əvəzi ödənilməklə özgəninkiləşdirdikdə hansı qaydalara əməl etməlidir?

MM-də nəzərdə tutulmuş qaydalara

1099. Mülkiyyətçilər arasında razılaşma ilə ayrı qayda nəzərdə tutulmayıbsa, paylı mülkiyyətdə olan əşyanın istifadəsindən götürülən bəhər, məhsul və gəlir hansı qaydada bölüşdürülür?

Ümumi əmlakın tərkibinə daxil olur və paylı mülkiyyətin mülkiyyətçilərinin paylarına uyğun surətdə onların arasında bölüşdürülür (maddə 216).

1100. Paylı mülkiyyətin hər bir mülkiyyətçisi vergilərin, rüsumların ödənilməsində və ümumi əmlak üzrə digər ödənişlərin verilməsində, habelə həmin əmlakın saxlanması və qorunması xərclərinin çəkilməsində hansı formada iştirak etməlidir?

Öz payına uyğun surətdə (maddə 217)

1101. Mülkiyyətçilərdən birinin zərurət olmadan və qalan mülkiyyətçilərin razılığını almadan çəkdiyi xərclərin əvəzi kim tərəfindən ödənilməlidir?

Qalan mülkiyyətçilər tərəfindən ödənilməməlidir. Bu zaman yaranan mübahisələr məhkəmə qaydasında həll olunur.

1102. Əşyanın dəyərini artırmaq və ya sərfəliliyini və işlənməyə yararlılığını yüksəltmək məqsədilə aparılan təzələmə və yenidənqurma işləri üçün kimlərin razılığı zəruridir?

Əşyadakı payların çox hissəsini təmsil edən mülkiyyətçilərin əksəriyyətinin razılığı

1103. Hansı dəyişikliklər iştirakçıların razılığı olmadan aparıla bilməz?

Əşyanın əvvəlki təyinatı üzrə işlədilməsini və ya istifadəsini iştirakçılardan biri üçün əhəmiyyətli dərəcədə və həmişəlik çətinləşdirən və ya sərfəsiz edən dəyişikliklər

1104. Əgər dəyişiklik iştirakçıların birindən onun imkanları xaricində olan, o cümlədən payının əmlak dəyəri ilə tənasübsüzlüyünə görə imkanları xaricində olan xərclər tələb edirsə, dəyişiklik onun razılığı olmadan hansı halda həyata keçirilə bilər?

Yalnız o halda həyata keçirilə bilər ki, qalan iştirakçıların hamısı onun payına düşən məsrəfləri, bunlar onun üçün mümkün olan məbləğdən çoxdursa, öz öhdələrinə götürsünlər.

1105. Əşyanın yalnız xarici görünüşünün yaxşılaşdırılması və ya ondan istifadənin əlverişliliyinin artırılması üçün nəzərdə tutulan tikinti işlərini və ya başqa işləri hansı qaydada görməyə icazə verilir?

Ancaq bütün mülkiyyətçilərin razılığı ilə

1106. Əgər eyni zamanda əşyadakı payların çox hissəsini təmsil edən mülkiyyətçilərin əksəriyyətinin razılığı ilə bu cür işlərin görülməsi haqqında sərəncam verilirsə, həmin işlər bununla razılaşmamış iştirakçının istəyindən asılı olmayaraq hansı şərtlə görülə bilər?

Bu şərtlə ki, həmin işlərlə əlaqədar onun istifadə və sərəncam hüququ həmişəlik məhdudlaşdırılmasın, qalan iştirakçılar yalnız müvəqqəti məhdudiyyət üçün ona əvəz ödəsinlər və xərclərin onun payına düşən hissəsini öz üzərlərinə götürsünlər.

1107. Ümumi paylı mülkiyyət hüququndakı pay üçüncü şəxsə satılarkən paylı mülkiyyətin qalan mülkiyyətçiləri satılan payı hansı hal istisna olmaqla, satıldığı qiymətə və digər bərabər şərtlər əsasında almaqda üstünlük hüququna malikdirlər?

Açıq hərracdan satış halı istisna olmaqla (maddə 218)

1108. Ümumi mülkiyyət hüququndakı payın satışı üçün açıq hərraca paylı mülkiyyətin bütün mülkiyyətçiləri razılıq vermədikdə hərrac keçirilə bilərmi?

MM-in 224.2-ci maddəsində nəzərdə tutulan hallarda keçirilə bilər. Bu müddəaya əsasən, payın naturada ayrılması mümkün deyilsə və ya paylı və ya birgə mülkiyyətin qalan iştirakçıları buna etiraz edirlərsə, kreditorun ixtiyarı var ki, borclunun öz payını bazar qiyməti ilə ümumi mülkiyyətin qalan iştirakçılarına satmasını və satışdan əldə edilmiş vəsaitin borcun ödənilməsinə yönəldilməsini tələb etsin. Ümumi mülkiyyətin qalan mülkiyyətçiləri borclunun payını almaqdan imtina etdikdə kreditorun ixtiyarı var ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb etsin. Borclunun ümumi mülkiyyət hüququndakı payı ipoteka predmeti olduqda, həmin paya tutmanın yönəldilməsi "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

1109. Payın satıcısının öz payını üçüncü şəxsə satmaq niyyəti olarsa, bu barədə hansı hərəkətləri icra etməlidir?

Payın qiymətini və digər satış şərtlərini göstərməklə paylı mülkiyyətin qalan mülkiyyətçilərinə yazılı bildiriş verməlidir.

1110. Hansı hallarda satıcı öz payını istədiyi şəxsə sata bilər?

Əgər paylı mülkiyyətin qalan mülkiyyətçiləri daşınmaz əmlaka mülkiyyət hüququndakı satılan payı satın almaqdan imtina edərlərsə və ya bildirişin verildiyi gündən 45 gün ərzində onu əldə etməzlərsə, daşınar əmlaka mülkiyyət hüququndakı payı isə 15 gün ərzində əldə etməzlərsə

1111. Pay satın almaqda üstünlük hüququ pozulmaqla satıldıqda paylı mülkiyyətin hər hansı digər iştirakçısının hansı müddətdə hüququ var ki, alıcının hüquq və vəzifələrinin ona keçirilməsini məhkəmə qaydasında tələb etsin?

Üç ay ərzində.

1112. Payı satın almaqda üstünlük hüququnun güzəşt edilməsinə yol verilirmi?

Xeyr.

1113. Pay hansı qaydada özgəninkiləşdirildikdə MM-in 218-ci maddəsinin (satın almaqda üstünlük hüququnun) qaydaları tətbiq edilir?

Pay dəyişmə müqaviləsinə əsasən özgəninkiləşdirildikdə

1114. Ümumi mülkiyyət hüququndakı pay hansı andan müqavilə üzrə əldə edənə keçir?

Əgər tərəflərin razılaşmasında ayrı vaxt nəzərdə tutulmayıbsa, müqavilənin bağlandığı andan (maddə 219)

1115. Doğurduğu hüquqlar dövlət qeydiyyatına alınmalı olan müqavilə üzrə ümumi mülkiyyət hüququndakı payın keçməsi anı hansı vaxtdan müəyyənləşdirilir?

Həmin hüquqların dövlət qeydiyyatına alındığı vaxtdan

1116. Paylı mülkiyyətin mülkiyyətçiləri ümumi əşyanın bölünməsi və ya ondan payın ayrılması üsulu və şərtləri haqqında razılığa gələ bilmədikdə paylı mülkiyyətin mülkiyyətçisi hansı hüquqa malikdir?

Öz payının naturada ayrılmasını məhkəmə qaydasında tələb edə bilər (maddə 220).

1117. Əgər paylı mülkiyyətin mülkiyyətçisi payın naturada ayrılmasına yol vermirsə və ya bu, ümumi mülkiyyətdə olan əşyaya tənasübsüz zərər vurmadan mümkün deyilsə, ayrılan mülkiyyətçi hansı hüquqa malikdir?

Öz payının dəyərinin paylı mülkiyyətin digər mülkiyyətçiləri tərəfindən ona ödənilməsi hüququna

1118. 220-ci maddəyə (paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ondan payın ayrılması) əsasən, paylı mülkiyyətin mülkiyyətçisinə naturada ayrılan əşyanın onun mülkiyyət hüququndakı payına tənasübsüzlüyü hansı qaydada aradan qaldırılır?

Müvafiq pul məbləğinin ödənilməsi və ya başqa kompensasiya ilə

1119. Paylı mülkiyyətin mülkiyyətçisinə naturada pay ayrılması əvəzinə qalan mülkiyyətçilər tərəfindən kompensasiya ödənilməsinə hansı şərtlə yol verilir?

Onun öz razılığı ilə

1120. Hansı hallarda məhkəmə mülkiyyətçinin razılığı olmadan paylı mülkiyyətin qalan iştirakçılarının öhdəsinə ona kompensasiya ödənilməsi vəzifəsini qoya bilər?

Mülkiyyətçinin payı cüzi olduqda, real surətdə ayrıla bilmədikdə və ümumi əmlakdan istifadə edilməsində onun mühüm mənafeyi olmadıqda

1121. Mülkiyyətçi bu maddəyə uyğun kompensasiya aldığı andan hansı hüququnu itirir?

Ümumi əmlakdakı paya olan hüququnu

1122. Hansı halda məhkəmə əmlakın açıq hərracdan satılması və satış pulunun ümumi mülkiyyətin mülkiyyətçiləri arasında onların paylarına mütənasib surətdə bölüşdürülməsi haqqında qərar qəbul edə bilər?

MM-in 220.3-220.5-ci maddələrində müəyyənləşdirilmiş qaydalara əsasən, ümumi əmlakın bölünməsi və ya ondan pay ayrılması açıq-aşkar məqsədəuyğun olmadıqda. Qeyd edilən müddəalara əsasən, paylı mülkiyyətin mülkiyyətçiləri ümumi əşyanın bölünməsi və ya ondan payın ayrılması üsulu və şərtləri haqqında razılığa gələ bilmədikdə paylı mülkiyyətin mülkiyyətçisi öz payının naturada ayrılmasını məhkəmə

qaydasında tələb edə bilər. Əgər payın naturada ayrılmasına yol vermirsə və ya bu, ümumi mülkiyyətdə olan əşyaya tənasübsüz zərər vurmadan mümkün deyilsə, ayrılan mülkiyyətçi öz payının dəyərinin paylı mülkiyyətin digər mülkiyyətçiləri tərəfindən ona ödənilməsi hüququna malikdir. Bu maddəyə əsasən paylı mülkiyyətin mülkiyyətçisinə naturada ayrılan əşyanın onun mülkiyyət hüququndakı payına tənasübsüzlüyü müvafiq pul məbləğinin ödənilməsi və ya başqa kompensasiya ilə aradan qaldırılır. Paylı mülkiyyətin mülkiyyətçisinə naturada pay ayrılması əvəzinə qalan mülkiyyətçilər tərəfindən kompensasiya ödənilməsinə onun öz razılığı ilə yol verilir. Mülkiyyətçinin payı cüzi olduqda, real surətdə ayrıla bilmədikdə və ümumi əmlakdan istifadə edilməsində onun mühüm mənafeyi olmadıqda, məhkəmə həmin mülkiyyətçinin razılığı olmadan da paylı mülkiyyətin qalan iştirakçılarının öhdəsinə ona kompensasiya ödənilməsi vəzifəsini qoya bilər. Mülkiyyətçi bu maddəyə uyğun kompensasiya aldığı andan ümumi əmlakdakı paya hüququnu itirir.

1123. Ümumi paylı mülkiyyət hüquqlarına hansı formalarda xitam verilir?

Fiziki bölgü, öz istəyi ilə satış və ya hərracdan satış və satış pulunun bölünməsi və ya bütün əşyanın bir və ya bir neçə iştirakçının adına qeydə alınması və qalan iştirakçılara əvəz verilməsi ilə (maddə 221)

1124. Əgər iştirakçılar hüquqa xitam verilməsi növünə dair razılığa gəlməsələr, əşya hansı qaydada bölünür?

Məhkəmənin qərarı ilə fiziki bölünür, bu, əşyanın dəyəri əhəmiyyətli dərəcədə azalmadan mümkün olmadıqda isə açıq hərracdan və ya iştirakçılar üçün hərracdan satılır.

1125. Fiziki bölgü bərabər olmayan payların əvəzinin pulla ödənilməsi ilə birləşdirilə bilərmi?

Bəli.

1126. Kimlər birgə mülkiyyətin mülkiyyətçiləridir?

Birgə mülkiyyətin əmələ gəlməsi üçün əsas olmuş ümumiliyin iştirakçıları (maddə 222)

1127. Birgə mülkiyyətdə olan əşyaya dair sərəncamçılıq hansı qaydada həyata keçirilir?

Bütün mülkiyyətçilərin razılığı ilə həyata keçirilir və əmlaka dair sərəncam verilməsi haqqında əqdi mülkiyyətçilərdən hansının bağlamasından asılı olmayaraq bu razılıq ehtimal edilir.

1128. Birgə mülkiyyətin hər bir mülkiyyətçisi ümumi əşyaya dair sərəncam verilməsi haqqında əqdlər bağlaya bilərmi?

Əgər bütün mülkiyyətçilərin razılaşmasından ayrı qayda irəli gəlmirsə, edə bilər.

1129. Birgə mülkiyyətin mülkiyyətçilərindən birinin ümumi əmlaka dair sərəncam verilməsi ilə əlaqədar bağladığı əqd həmin mülkiyyətçinin lazımi səlahiyyətlərinin olmaması mülahizələrinə əsasən qalan iştirakçıların tələbi ilə hansı halda etibarsız sayıla bilər?

Yalnız o halda etibarsız sayıla bilər ki, əqdin başqa tərəfinin bunu bildiyi və ya bilməli olduğu sübuta yetirilsin.

1130. Birgə mülkiyyətin digər mülkiyyətçiləri razılıq verməddikdə borclu ayrıca birgə mülkiyyətçiyə olan tələbini əvəzləşdirə bilərmi?

Xeyr.

1131. Birgə mülkiyyət hüququna hansı halda xitam verilir?

Əşyanın özgəninkiləşdirilməsi və ya birgə mülkiyyətin əmələ gəlməsinə əsas vermiş ümumiliyin mövcudluğuna son qoyulması ilə (maddə 223)

1132. Birgə mülkiyyətin mülkiyyətçiləri tərəfindən ümumi əşyanın bölünməsi və ya onlardan birinin payının ayrılması nə zaman həyata keçirilə bilər?

Mülkiyyətçilərdən hər birinin payı qabaqcadan müəyyənləşdirildikdən sonra

1133. Ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları hansı formada müəyyən olunur?

Əgər onların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, bərabər sayılır.

1134. Ümumi əşyanın bölünməsi və ondan pay ayrılması əsasları və qaydası hansı akt əsasında müəyyənləşdirilir?

MM-in 220-ci maddəsinin (paylı mülkiyyətdə olan əşyanın bölünməsi və ondan payın ayrılması) müddəalarına əsasən müəyyənləşdirilir.

1135. Paylı və ya birgə mülkiyyət mülkiyyətçisinin başqa əmlakı kifayət etmədikdə onun kreditoru hansı tələb hüququna malikdir?

Borclunun ümumi əşyadakı payına tutmanın yönəldilməsi üçün həmin payın ayrılmasını tələb edə bilər (maddə 224).

1136. Əgər payın naturada ayrılması mümkün deyilsə və ya paylı və ya birgə mülkiyyətin qalan iştirakçıları buna etiraz edirlərsə, kreditorun nəyə ixtiyarı var?

İxtiyarı var ki, borclunun öz payını bazar qiyməti ilə ümumi mülkiyyətin qalan iştirakçılarına satmasını və satışdan əldə edilmiş vəsaitin borcun ödənilməsinə yönəldilməsini tələb etsin.

1137. Ümumi mülkiyyətin qalan mülkiyyətçiləri borclunun payını almaqdan imtina etdikdə kreditorun nəyə ixtiyarı var?

İxtiyarı var ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb etsin.

1138. Borclunun ümumi mülkiyyət hüququndakı payı ipoteka predmeti olduqda, həmin paya tutmanın yönəldilməsi hansı qaydada həyata keçirilir?

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada

1139. Ərlə arvadın hansı əmlakı onların ümumi mülkiyyətidir?

Əgər nikah kontraktında və ya onların arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, nikah dövründə qazandıqları əmlak (maddə 225)

1140. Hansı əmlak ərlə arvadın hər birinin ayrıca mülkiyyətidir?

Nikaha girənədək ər-arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak

1141. Hansı əmlak istisna olmaqla, fərdi istifadədə olan əmlak (paltar, ayaqqabı və i.a.) nikah dövründə ərlə arvadın ümumi vəsaiti hesabına əldə edilmiş olsa da, ondan istifadə etmiş arvadın (ərin) mülkiyyəti sayılır?

Daş-qaş və digər zinət şeyləri istisna olmaqla

1142. Ər-arvaddan hər birinin əmlakı hansı halda onların birgə mülkiyyəti sayıla bilər?

Nikah dövründə ərlə arvadın ümumi əmlakı və ya ərin (arvadın) şəxsi əmlakı hesabına həmin əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoyulduğu (əsaslı təmir, yenidənqurma, yeni avadanlıqla təchizetmə və i.a.) müəyyənləşdirildikdə

1143. Hansı halda həmin qayda tətbiq edilmir?

Əgər nikah kontraktında və ya ərlə arvadın razılaşmasında ayrı qayda nəzərdə tutularsa

1144. Ərin (arvadın) öhdəlikləri üzrə tutma onun mülkiyyətində olan əmlaka, habelə onun ərlə arvadın ümumi əmlakındakı payına hansı şərtlə yönəldilə bilər?

O şərtlə yönəldilə bilər ki, nikah kontraktında ayrı qayda nəzərdə tutulmuş olmasın.

1145. Daşınmaz əmlaka birgə hüququ olan ərin (arvadın) razılığı olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış hüquq barədə bağlanmış müqavilənin etibarsızlığı əldə edənin belə hüququn yalnız müqavilə tərəfinə məxsus olması barədə vicdanlı olduğu hallara da aiddirmi?

Bəli.

1146. Əgər müqavilə üzrə tərəf müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, əldə edən hansı hüquqa malikdir?

Həmin tərəfdən etibarsızlıqdan irəli gələn zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

§2. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ

1147. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ hansı mahiyyət kəsb edir?

Ümumi paylı daşınmaz mülkiyyətə olan hüquqdur, yəni binanın müəyyən hissələrindən müstəsna istifadə etmək və onların içərisində bəzək-tamamlama işləri aparmaq üçün mülkiyyətçinin xüsusi hüquq əldə etməsidir (maddə 226).

1148. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi öz otaqlarını idarə etməkdə, onlardan istifadə etməkdə və bəzək-tamamlama işləri aparmaqda hansı şərtlə sərbəstdir?

O, digər belə mülkiyyətçinin eyni hüquqları həyata keçirməsini çətinləşdirməməli və ümumi tikinti elementlərini, qurğuları zədələməməli və ya onların funksiyasını və ya zahiri görkəmini pisləşdirməməlidir.

1149. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi ona mənsub yaşayış otağına sahiblik, ondan istifadə və ona dair sərəncam hüquqlarını hansı formada həyata keçirir?

Otağın təyinatına uyğun

1150. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi müqavilə əsasında onu icarəyə verə bilərmi?

Bəli.

1151. Yaşayış binalarında sənaye istehsalatlarının yerləşdirilməsinə yol verilirmi?

Xeyr.

1152. Yaşayış binasının hansı əmlakı ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsinin mülkiyyətçilərinə mənsubdur?

Mənzildən kənarda və ya mənzil daxilində yerləşən, birdən çox mənzilə xidmət edən ümumi otaqları, dayaq konstruksiyaları, mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlığı, habelə yerləşdiyi torpaq sahəsi (maddə 227)

1153. Yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin hansı hərəkətlərə ixtiyarı yoxdur?

Yaşayış binasının ümumi əmlakına mülkiyyət hüququndakı payını özgəninkiləşdirməyə, habelə həmin payın yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququndan ayrılıqda verilməsinə səbəb olan digər hərəkətləri yerinə yetirməyə

1154. Yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin ailə üzvləri və digər şəxslər yaşayış binasından istifadə hüququna hansı şərtlə malikdirlər?

Bu şərtlə malikdirlər ki, həmin hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınsın (maddə 228).

1155. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququnun əmələ gəlməsi, həyata keçirilməsi şərtləri və xitamı hansı sənəd əsasında müəyyənləşdirilir?

Mülkiyyətçi ilə bağlanan, notariat qaydasında təsdiqlənən yazılı razılaşma ilə

1156. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda, bu hüquqa hansı qaydada xitam verilə bilər?

Mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən, bazar qiyməti ilə müvafiq kompensasiya verilməsi yolu ilə

1157. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ nələrin müstəqil predmeti ola bilməz?

Alqı-satqının, girovun və icarənin

1158. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxs həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı kimlərdən tələb edə bilər?

Mülkiyyətçi də daxil olmaqla istənilən şəxsdən

1159. Yaşayış evinə və ya mənzilə mülkiyyət hüququnun keçməsi yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün əsas deyil. Lakin bu zaman hansı hal istisna təşkil edir?

Yaşayış otağından istifadə hüququ olan şəxsin mülkiyyət hüququndan imtina barəsində həmin hüquq keçənədək notariat qaydasında təsdiqlənmiş öhdəlik verdiyi hal

1160. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin ailə üzvləri hansı uşaqlarını həmin yaşayış binasına köçürmək ixtiyarına malikdirlər?

Öz yetkinlik yaşına çatmayan uşaqlarını

1161. Digər ailə üzvlərinin (ərin, arvadın) köçürülməsinə hansı şərtlə yol verilir?

Yalnız mülkiyyətçinin razılığı ilə

1162. Həmin şəxslərin yaşayış binasının tərkib hissəsindən istifadə hüququ mülkiyyətçi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılırmı?

Bəli.

1163. Yaşayış binasının tərkib hissəsindən mülkiyyətçinin ailə üzvlərinin istifadə etmək hüququ nə vaxtdan etibarən yaranır?

MM-in qüvvəyə mindiyi gündən

1164. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının ləğvi tələb edilə bilərmi?

Xeyr (maddə 229).

1165. Yaşayış binasının ayrı-ayrı tərkib hissələri və ya onların bölümləri xüsusi hüquqların obyekti ola bilərmi?

Bəli (maddə 230).

1166. Bu hissələr və bölümlər hansı tələblərə cavab verməlidir?

Mənzil kimi və ya işgüzar və ya digər məqsədlər üçün otaq vahidləri kimi qapalı olmalı və onların öz girişi olmalıdır, lakin tərkiblərində ayrı-ayrı yardımçı otaqlar ola bilər. Bu cür vahidlər «yaşayış binasının tərkib hissələrinin vahidləri» adlandırılır.

1167. Əgər daşınmaz əmlakın dövlət reyestrində yaşayış binasının tərkib hissəsinin müəyyən mülkiyyətçisinin xeyrinə heç bir xüsusi hüquq qeydə alınmayıbsa, hansı predmetlər və hüquqlar yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətindədir?

- Torpaq və bina tikilməsinə əsas verəcək tikintiyə vərəsəlik hüququ;
- yaşayış binasının və onun tərkib hissələrinin digər mülkiyyətçilərinin otaqlarının konstruksiyası, konstruktiv strukturu və möhkəmliyi üçün əhəmiyyət daşıyan və binanın zahiri simasını və görkəmini müəyyənləşdirən tikinti elementləri;
- digər bu cür mülkiyyətçilərin öz otaqlarından istifadəsinə xidmət üçün nəzərdə tutulan qurğular (maddə 231).

1168. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi kimin barəsində əldə etmədə üstünlük hüququna malik deyildir?

Yaşayış binasının tərkib hissəsinin digər mülkiyyətçisindən onun payını əldə etmiş və ya sonrakı razılaşma yolu ilə bu cür üstünlük hüququnu başqasına vermiş və daşınmaz əmlakın dövlət reyestrində xeyrinə təminat qeydi aparılmış üçüncü şəxs barəsində (maddə 232)

1169. Yaşayış binasının tərkib hissəsinin özgəninkiləşdirilməsi, onun istifadə hüququ və ya mənzil hüququ ilə yüklü edilməsi, habelə kirayəyə verilməsi hansı halda hüquqi qüvvəyə malikdir?

Yalnız o halda hüquqi qüvvəyə malikdir ki, yaşayış binasının tərkib hissəsinin qalan mülkiyyətçiləri müvafiq qərar qəbul edərək, onlara məlumat verildiyi andan 14 gün ərzində buna etiraz etməsinlər (maddə 232).

1170. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatla təsbit edilir. Qeydiyyat nələr əsasında tələb edilə bilər?

- Mülkiyyətçilərin yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququndakı paylarının rəsmiləşdirilməsinə dair müqavilə;
- daşınmaz əmlak mülkiyyətçisinin və ya müstəqil və sürəkli tikinti hüququ sahibinin belə mülkiyyətin paylarının yaradılması və onların yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququna rəsmiləşdirilməsi barədə ərizəsi (maddə 233).

1171. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququnun əsaslandırılması aktında ərazi bölgüsündən başqa, yaşayış binasının hər bir tərkib hissəsinin payı hansı qaydada göstərilməlidir?

Daşınmaz əmlakın və ya tikinti hüququnun yüzdə bir və ya mində bir misli ilə

1172. Payların dəyərinin dəyişdirilməsi üçün kimin razılığı və icazəsi tələb olunur?

Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının

1173. Hansı halda mülkiyyətçilərdən hər birinin düzəliş hüququ var?

Əgər mülkiyyətçinin payı yanlış müəyyənləşdirilmişsə və ya binada və ya onun həndəvərində tikinti dəyişiklikləri nəticəsində yanlış olmuşdursa

1174. Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququna hansı əsasla xitam verilir?

Daşınmaz əmlakın və ya tikinti hüququnun məhvi ilə və daşınmaz əmlakın dövlət reyestrində qeydlə (maddə 234)

1175. Hansı halda yaşayış binasının tərkib hissəsinin istənilən mülkiyyətçisindən mülkiyyət hüququna xitam verilməsi tələb edilə bilər?

Əgər bina onun dəyərinin yarısından çox ölçüdə dağılmışdırsa və mülkiyyətçi özü üçün, demək olar, dözülməz yüklülüklər olmadan binanın bərpasına qadir deyilsə. Lakin yaşayış binasının tərkib hissələrinin mülkiyyətçiləri ümumi mülkiyyətə sahibliyi davam etdirmək niyyətindədirlərsə, qalan mülkiyyətçilərə peşman haqqı ödəmək yolu ilə hüquqa xitam verilməsinin qarşısını ala bilərlər.

1176. Yaşayış binasının tərkib hissələrinin mülkiyyətçiləri birgə mülkiyyətin yüklülüklərinin ödənilməsində və birgə idarəetmə xərclərində hansı qaydada iştirak etməlidirlər?

Öz dəyər paylarına mütənasib surətdə

1177. Mülkiyyətçilərin haqları hesabına ödənilməli olan yüklülüklərə və xərclərə nələr aiddir?

- Torpaq sahəsinin və yaşayış binasının birgə hissələrinin, habelə birgə konstruksiyalarının və qurğularının saxlanmasına, cari təmirinə və yeniləşdirilməsinə çəkilən xərclər;
- idarəçiyə haqq ödənilməsi də daxil olmaqla, idarəetmə fəaliyyətinə çəkilən xərclər;
- bütövlükdə yaşayış binasının tərkib hissələrinin mülkiyyətçilərindən tutulan ödənişlər və vergilər (maddə 235).

1178. Yaşayış binasının tərkib hissəsinin hər hansı mülkiyyətçisi xərclər üçün haqları üç il ərzində ödəmədikdə yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı hansı hüquqlara malik olur?

- Yaşayış binasının tərkib hissələrinə mülkiyyətdə onun payı üçün ipotekanı qeydə aldırmaq hüququna malikdir. İpotekanın qeydə alınmasını idarəçi və ya əgər o, təyin edilməyibsə, əksəriyyətin qərarı ilə və ya məhkəmə tərəfindən vəkil edilmiş yaşayış binasının tərkib hissələrinin mülkiyyətçilərindən hər hansı biri və ödənilməmiş haqların girov kimi verildiyi kreditor tələb edə bilər;
- yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin otaqlarında olan və onların avadanlıqla təchiz edilməsi və istifadəsi üçün nəzərdə tutulan daşınar əşyaları girov qoymaq hüququna malikdir.

1179. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının MM-də göstərilən səlahiyyətlərindən savayı, daha hansı səlahiyyətləri var?

- Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı tərəfindən idarəçinin səlahiyyətinə aid edilməmiş bütün idarəetmə məsələlərini həll etmək;
- idarəçini təyin etmək və onun fəaliyyətinə nəzarət etmək;
- idarəetmə məsələlərinin həllini, o cümlədən idarəçiyə məsləhət verilməsini, onun idarəetmə fəaliyyətinin yoxlanılmasını, bu barədə yığıncağa hesabat verilməsini və ərizələr təqdim edilməsini tapşıra biləcəyi komissiyanı və ya nümayəndəni seçmək;
- hər il xərclər smetasına, mülkiyyətçilər arasında xərclərin hesablanmasına və bölgüsünə icazə verməkdir;
- səliqə-sahmanın qorunması və yeniləşdirmə işlərinin aparılması üçün yeniləşdirmə fondunun yaradılması haqqında qərar qəbul etmək;
- binanı yanğından və digər təhlükələrdən, habelə məsuliyyəti sığorta etdirmək (maddə 236).

1180. Hansı halda yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağını idarəçi çağırır və aparır?

Əgər idarəçi təyin edilirsə və ayrı qərar qəbul olunmursa

1181. Əgər idarəçi təyin olunmursa, yaxud o, təyinatdan imtina edirsə, yığıncağı kim çağıra bilər?

Yaşayış binasının ümumi dəyərinin azı 10 faizini təmsil edən hər hansı mülkiyyətçi (və ya mülkiyyətçilərin hər hansı çoxluğu)

1182. Yığıncağın protokolunu kim saxlamalıdır?

İdarəçi və ya yaşayış binasının tərkib hissəsinin sədrlik edən mülkiyyətçisi

1183. Yaşayış binasının tərkib hissəsi bir neçə şəxsə birlikdə mənsubdursa, onların neçə səsi vardır?

Yalnız bir səsi

1184. Səsvermə hüququnun həyata keçirilməsi barədə yaşayış binasının tərkib hissələri vahidinin mülkiyyətçisi və uzufruktuarının razılığa gəlməməsi nə ilə nəticələnir?

Bu halda uzufruktuar, sadəcə, faydalı olan və ya bəzəklər və ya rahatlıqlar yaradılmasına yönəldilən tikinti tədbirlərindən başqa, bütün idarəetmə məsələlərində səsvermə hüququ olan şəxs sayılır.

1185. Yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağının qərarlar çıxarmağa hansı halda ixtiyarı var?

O halda ixtiyarı var ki, payların yarısına sahib olan mülkiyyətçilərin yarısı, lakin onların azı ikisi yığıncaqda iştirak etsin və ya təmsil olunsun.

1186. Yetərsay olmadıqda yığıncaq hansı qaydada çağırılır?

İkinci dəfə çağırılır, həm də o, birinci yığıncaqdan azı on gün keçəndən sonra keçirilməlidir.

1187. Hansı halda ikinci yığıncağın qərarlar çıxarmağa ixtiyarı var?

O halda ixtiyarı var ki, yaşayış binasının tərkib hissələrinin bütün mülkiyyətçilərinin üçdə bir hissəsi, lakin onların azı ikisi yığıncaqda iştirak etsin və ya təmsil olunsun.

1188. Hansı halda yaşayış binasının tərkib hissəsinin hər hansı mülkiyyətçisi idarəçinin məhkəmə tərəfindən təyin olunmasını tələb edə bilər?

Əgər yaşayış binasının tərkib hissələri mülkiyyətçilərinin yığıncağı idarəçini təyin edə bilməzsə

1189. Həmin hüquqa eyni zamanda kim malikdir?

Bunda əsaslı marağı olan şəxs, məsələn, girov saxlayan və sığortaçı

1190. Hansı halda yaşayış binasının tərkib hissəsinin istənilən mülkiyyətçisi bir ay ərzində idarəçinin məhkəmə qaydasında geri çağırılmasını tələb edə bilər?

Əgər mülkiyyətçilərin yığıncağı mühüm səbəblərə etinasızlıq göstərərək idarəçinin geri çağırılmasını rədd edərsə

1191. Məhkəmənin təyin etdiyi idarəçi hansı vaxta qədər məhkəmənin razılığı olmadan geri çağırıla bilməz?

Təyin edildiyi müddət qurtaranadək

1192. İdarəçi qanunun göstərişlərinə və mülkiyyətçilər yığıncağının qərarlarına uyğun olaraq hansı hərəkətləri yerinə yetirir?

Birgə mülkiyyətin idarə edilməsi üzrə bütün hərəkətləri yerinə yetirir, mümkün zərərin qarşısının alınması və ya aradan qaldırılması üçün özü tədbirlər görür. O, birgə xərcləri və yaşayış binasının tərkib hissələrinin ayrı-ayrı mülkiyyətçilərinin yüklülüklərini bölüşdürür, onlara hesab təqdim edir, haqlar alır, nağd pul vəsaitini idarə edir və ondan təyinatı üzrə istifadə edir (maddə 237).

1193. İdarəçi hansı məsələlərə nəzarət edir?

O, xüsusi hüquqların həyata keçirilməsi, torpaq sahəsinin və yaşayış binasının birgə hissələrindən, habelə birgə qurğulardan istifadə zamanı qanunun göstərişlərinin və evdə yaşayış qaydalarının gözlənilməsinə nəzarət edir.

1194. İdarəçi hansı işlərdə yaşayış binasının tərkib hissələrinin həm bütün mülkiyyətçilərini, həm də ayrı-ayrı mülkiyyətçilərini kənarda təmsil edir?

Birgə mülkiyyətin idarə edilməsi sahəsində onun qanuni vəzifələri dairəsinə daxil olan bütün işlərdə

1195. Özünün və ya qarşı tərəfin başladığı məhkəmə proseslərini aparmaq üçün ona iddianın təmin edilməsi barədə sərəncamdan başqa, kimin qabaqcadan verdiyi səlahiyyət də lazımdır?

Mülkiyyətçilər yığıncağının

1196. Bütövlükdə, yaşayış binasının tərkib hissələrinin mülkiyyətçilərinə ünvanlanmış ərizələr, tələblər, məhkəmə qərarları və sərəncamlar idarəçiyə hansı qaydada çatdırıla bilər?

Onun yaşayış yeri üzrə və ya əşyanın olduğu yer üzrə çatdırıla bilər və həmin andan qüvvəyə minir.

§3. Torpağa mülkiyyət hüququnun xüsusiyyətləri

1197. Torpaq sahəsinin ərazi sərhədləri hansı əsasla təyin edilir?

Daşınmaz əmlakın dövlət reyestrinin ixtiyarlı şəxsinin mülkiyyətçiyə verdiyi sənədlər əsasında (maddə 238)

1198. Torpaq sahəsinə mülkiyyət hüququ həmin sahənin sərhədləri daxilində yerləşən səth (torpaq) qatına və qapalı sututarlara, meşələrə və bitkilərə də şamil edilirmi?

Əgər qanunla ayrı qayda müəyyənləşdirilməyibsə, edilir.

1199. Yerin təki və faydalı qazıntılar kimin mülkiyyətidir?

Əgər qanunla ayrı qayda nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının mülkiyyətidir.

1200. Fiziki şəxslər dövlət və bələdiyyə mülkiyyətində olan, hamının buraxılması üçün açıq torpaq sahələrində heç bir icazə almadan sərbəst şəkildə təbiət obyektlərindən hansı hədlərdə istifadə edə bilərlər?

Qanunvericiliyin, habelə müvafiq torpaq sahəsi mülkiyyətçisinin yol verdiyi hədlərdə (maddə 239)

1201. Torpaq sahəsinin mülkiyyətçisi hansı şərtlə sahədə binalar və qurğular ucalda bilər, onları yenidən qura və ya uçura bilər, öz sahəsində başqa şəxslərin tikinti aparmasına icazə verə bilər?

Şəhərsalma və tikinti normalarını və qaydalarını, habelə torpaq sahəsinin təyinatı ilə bağlı tələbləri gözləmək şərti ilə (maddə 240)

1202. Mülkiyyətçinin özünə mənsub torpaq sahəsində özbaşına tikinti aparmasının nəticələri hansı qaydada müəyyənləşdirilir?

MM-in 180-ci maddəsi ilə (Özbaşına tikinti və onun nəticələri)

1203. Torpaq sahəsinin mülkiyyətçisi onu başqa şəxslərin istifadəsinə, o cümlədən icarəsinə verə bilərmi?

Bəli (maddə 241).

1204. Dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsindən istifadə hüququ fiziki və hüquqi şəxslərə hansı əsasla və qaydada verilir?

Torpaq sahələrini bu cür istifadəyə verməyə vəkil edilmiş dövlət orqanının və ya yerli özünüidarə orqanının qərarına əsasən, qanunla müəyyənləşdirilmiş qaydada

1205. Hansı hallarda torpaq sahəsindən istifadə hüququnu binanın, qurğunun və digər daşınmaz əmlakın mülkiyyətçisi əldə edə bilər?

MM-in 243-cü maddəsində (daşınmaz əmlak mülkiyyətçisinin torpaq sahəsindən istifadə hüququ) nəzərdə tutulan hallarda

1206. Hüquqi şəxs yenidən təşkil edilərkən ona mənsub torpaq sahəsindən istifadə hüququ kimə keçir?

Onun hüquq varisinə

1207. İstifadəsinə torpaq sahəsi verilmiş şəxs bu sahəni hansı qaydada icarəyə və ya əvəzsiz istifadəyə verə bilər?

Yalnız onun mülkiyyətçisinin razılığı ilə (maddə 242)

1208. Başqa şəxsə mənsub torpaq sahəsində olan daşınmaz əmlakın mülkiyyətçisi həmin əmlakın yerləşdiyi torpaq sahəsi hissəsindən istifadə hüququna malikdirmi?

Bəli (maddə 243).

1209. Özgə torpaq sahəsində yerləşən daşınmaz əmlaka mülkiyyət hüququ başqa şəxsə keçərkən, o, torpaq sahəsinin müvafiq hissəsindən istifadə hüququnu hansı şərtlərlə və həcmdə əldə edir?

Daşınmaz əmlakın əvvəlki mülkiyyətçisi ilə eyni şərtlərlə və eyni həcmdə

1210. Torpaq sahəsinə mülkiyyət hüququnun başqa şəxsə keçməsi həmin torpaq sahəsində yerləşən daşınmaz əmlakın mülkiyyətçisinin sahədən istifadə hüququnun xitamı və ya dəyişdirilməsi üçün əsasdırmı?

Xeyr.

1211. Əgər torpaq sahəsinin mülkiyyətçisi ilə torpaq istifadəçisi arasındakı müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, hansı halda torpaq istifadəçisinin həmin torpaq sahəsində tikdiyi binalara, qurğulara və başqa daşınmaz əmlaka mülkiyyət hüququ torpaq sahəsinin mülkiyyətçisinə keçir?

Torpaq sahəsindən istifadə hüququna xitam verildikdə (maddə 244)

1212. Torpaq sahəsinin mülkiyyətçisinə mənsub olan və həmin sahədə yerləşən binaya və ya qurğuya mülkiyyət hüququ keçərkən tərəflərin razılaşması ilə müəyyənləşdirilən torpaq sahəsinə hüquqlar binanı (qurğunu) əldə edənə keçir. Bu zaman torpaq sahəsinin hansı hissəsinə mülkiyyət hüququ əldə edənə keçir?

Bina (qurğu) yerləşən və ondan istifadə üçün zəruri olan hissəsinə (maddə 245)

1213. MM-in 157.9-cu maddəsinə uyğun olaraq (dövlət ehtiyacları tələb etdikdə), torpaqların dövlət ehtiyacları üçün alınması haqqında qərar hansı qaydada qəbul edilir?

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada (maddə 246)

1214. Torpağın alınması haqqında qərar qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı bu barədə kimə yazılı bildiriş göndərməlidir?

Torpaq sahəsinin mülkiyyətçisinə

1215. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun 35.3-cü maddəsinə uyğun olaraq torpağın alqı-satqı müqaviləsi bağlandıqdan sonra alan orqan 90 (doxsan) təqvim günü ərzində hansı hərəkətləri həyata keçirir?

- Mülkiyyətçiyə torpağın dəyərini tam ödəyir;
- torpaqla bağlı hüquqların dövlətə verilməsi (keçməsi) üçün öz xərcləri hesabına lazımi tədbirlər görür;
- satılan torpaq mülkiyyətçinin, onun ailəsinin yaşayış yeri olduğu halda, torpağın dəyəri mülkiyyətçiyə tam ödənildikdən sonra "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun V fəslinə uyğun olaraq mülkiyyətçiyə torpağı boşaltmaqda və yeni yaşayış yerinə köçməkdə köməklik göstərir.

1216. MM-in 246-249-cu maddələrinin (torpaqların dövlət ehtiyacları üçün alınması, torpaqların alınması və ya torpağa dair hüquqları ilə bağlı alınmanın təsirinə məruz qalan şəxslərə verilən kompensasiya, məhkəmə təsdiqi və torpağın alınması barədə qərarın hüquqi qüvvəsi) müddəaları dövlət ehtiyacları üçün alınan torpaqla yanaşı, daha hansı əşyalara şamil edilir?

Həmin torpaqda yerləşən və ya yerləşməyən, eyni məqsədlərlə alınan torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşyalara

1217. Torpağın alınmasından imtina hesab edilən hallarda imtina edilmiş alınmanın obyekti olan torpağın hansı müddət ərzində alınmasına təkrar başlanıla bilməz?

Ən azı 3 (üç) il ərzində

1218. Torpaqların dövlət ehtiyacları üçün alınması, bununla bağlı kompensasiya məbləğinin hesablanması və ödənilməsi qaydaları, habelə bu sahədə tərəflər arasında yaranan digər münasibətlər hansı qanunla tənzimlənir?

"Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

1219. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən alınan torpaq üçün kompensasiyanın məbləği hansı üsullarla hesablanır?

- Torpağın bazar qiymətinin müəyyən edilməsi ilə;
- torpağın qiymətinin bazar qiyməti əsasında ədalətli müəyyən edilməsi üçün alınan torpağın yerləşdiyi ərazidə torpaq bazarı olmadıqda və ya mövcud torpaq bazarı real bazar qiymətinin müəyyən edilməsi üçün kifayət etmədikdə, yaxud alınan torpağın əvəzinə digər torpaq verildikdə, bərpa qiymətinin müəyyən edilməsi ilə (maddə 247).

1220. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət ehtiyacları üçün alınacaq hər hansı torpaqla bağlı kompensasiyanın məbləği müəyyən edilərkən hansı amillər nəzərə alınır?

- İddiaçılara ödəniləcək kompensasiya elə prinsipə əsaslanmalıdır ki, torpaqlarını tərk etmələrinin və başqa yerə köçürülmələrinin tələb olunması ilə bağlı və onun nəticəsində zərər və narahatlıq çəkən bütün şəxslərin əmlakları, dolanışıq üçün vasitələri, gəlirləri, yaşayış standartları onların məruz qaldıqları zərər və narahatlığın baş verdiyindən sonra ağlabatan müddətdə, köçürülənədək malik olduqları şəraitdən əlverişsiz şəraitə düşməmələri baxımından bərpa edilsin;
- ödəniləcək kompensasiya qiymətləndirilərkən, mövcud inflyasiya;
- torpağın (tikilinin) "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilmiş bazar qiyməti;
- alınmanın təsirinə məruz qalan şəxsdən torpağın müəyyən hissəsinin alındığı hallarda alınan torpağın həmin şəxsin saxlanılan (alınmayan) torpağından ayrılması nəticəsində şəxsə dəyə biləcək zərər;
- alınmanın təsirinə məruz qalan şəxsdən torpağa sahibliyin əldə edilməsi nəticəsində həmin şəxsin digər daşınar və ya daşınmaz əmlakına, yaxud həqiqi gəlirinə dəyən və ya dəyə biləcək zərər;
- alınma nəticəsində şəxs yaşayış, sahibkarlıq fəaliyyətini həyata keçirdiyi və ya iş yerini dəyişməyə məcbur edilmişdirsə, belə yerdəyişmədən irəli gələn bütün xərclər və itkilər.

1221. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət ehtiyacları üçün alınan torpağa veriləcək kompensasiyanın məbləği müəyyən edilərkən, hansı amillər nəzərə alınmır?

- Alınmaya səbəb olan təcililiyin dərəcəsi;
- alınmanın təsirinə məruz qalan şəxsin torpaqdan çıxmaqdan boyun qaçırması;
- torpağın gələcəkdə istifadəsindən irəli gələ biləcək qiymətinin azalması;
- torpağın gələcəkdə istifadəsindən irəli gələ biləcək qiymətinin artması;
- alınan torpaqda hər hansı tikilinin lazımi vəziyyətdə saxlanılması üçün zəruri olan yenidən qurulmasına və kənd təsərrüfatı məqsədləri üçün torpaqda məhsulun davamlı becərilməsinə vəsait qoyuluşu halları istisna olmaqla "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq siyahıya alınma tarixindən sonra alınan torpağa sərf edilən yenidənqurma və digər əlavələrlə bağlı xərclər.

1222. Dövlət ehtiyacları üçün alınan torpaqlara görə kompensasiya hansı formalarda ödənilir?

- İtirilmiş torpaqla müqayisə ediləcək keyfiyyətə, ölçüyə, istehsal potensialına malik olan torpaq sahəsi;

- itirilmiş yaşayış sahəsi və ya tikili ilə müqayisə ediləcək keyfiyyətə, ölçüyə və istifadə imkanına malik olan yaşayış sahəsi və ya tikili;

- kənd təsərrüfatı torpaqları itirildikdə, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan torpaqdan əlavə kənd təsərrüfatı torpağında istifadə etmək üçün bitkilər və toxumlar;

- "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş ümumi istifadədə olan əmlakla bağlı təminatlar;

- torpaq və digər kapital itkisinə görə bu fəslin müddəalarına uyğun olaraq, müəyyən edilmiş məbləğdə birdəfəlik pul ödənişi;

- yerdəyişmə nəticəsində azalmış və ya itirilmiş gəlirin təmin edilməsi və ya əvəz edilməsi üçün müəyyən müddətə ödənişlər;

- itirilmiş torpaqda əldə edilən qida məhsullarının və ya əvvəllər belə qida məhsullarını əldə etmək üçün istifadə olunmuş itirilmiş gəlirin əvəzinə müəyyən müddət ərzində qida məhsulları ilə mütəmadi təchizat;

- yerdəyişmə nəticəsində itirilmiş iş imkanlarının əvəz edilməsi məqsədilə iş əldə etmək üçün alınmanın təsirinə məruz qalan şəxslərə yeni vərdişləri aşılamaqla və ya torpağın alınması layihəsi nəticəsində açılan iş imkanlarından istifadə etməklə əlaqədar təlimin təmin edilməsi;

- alınmanın təsirinə məruz qalan şəxslərlə alan orqan arasında müəyyən edilən və ya razılaşdırılan digər kompensasiya formaları.

1222. Alınmanın təsirinə məruz qalan şəxsdən alınan torpaqla bağlı sahibliyin əldə edilməsi nə zaman həyata keçirilə bilər?

Yalnız məhkəmə tərəfindən müvafiq qərar qəbul edildikdən sonra (maddə 248)

1224. Alınan torpağın yerləşdiyi ərazi vahidi üzrə məhkəməyə müraciət olunması alan orqan tərəfindən nələrin təsdiq olunması üçün edilir?

- Torpağın alınmasının "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmasının;

- alınan torpağa sahibliyin "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq əldə olunmasının;

- alınmanın təsirinə məruz qalan şəxslərə ödəniləcək kompensasiyanın növünün və məbləğinin.

1225. Torpağının alınmasına, torpağının üzərində sahibliyin əldə olunmasına və ya təklif olunan kompensasiyaya etiraz edən alınmanın təsirinə məruz qalan şəxs hansı əsaslardan biri və ya bir neçəsi ilə məhkəməyə ərizə verə bilər?

- Torpağın alınmasının "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olması;

- torpağın alındığı layihənin həyata keçirilməsi üçün lazım olmaması;

- təklif olunan kompensasiyanın ədalətli olmaması;

- alan orqanın müvafiq səlahiyyətlərə malik olmaması;

- "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedurlara riayət edilməməsi və ya düzgün və ədalətli riayət edilməməsi.

1226. Torpaq üzərində hüquqların alınma prosedurlarını başa çatdırmaq üçün tələb olunan hər hansı hərəkətlərlə əlaqədar alınmanın təsirinə məruz qalan şəxsin üzərinə hər hansı xərc, ödəmə, yaxud başqa maliyyə tələbləri qoyula və ya alına bilərmi?

Xeyr, heç biri qoyula və ya alına bilməz.

1227. Hansı tarixdən torpaq alınan torpaq kimi tanınır və alınan torpaqla bağlı digər öhdəliklər yerinə yetirilməlidir?

- Torpağın alınması barədə qərarın qəbul edildiyi tarixdən və qeyd edilən tarixdən aşağıdakı öhdəliklər yerinə yetirilir:

- həmin torpaq alınan torpaq kimi tanınır;

- alınan torpaqda yaşayan və ya ondan istifadə edən "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən siyahıya alınmış şəxslər alınmanın təsirinə məruz qalan hesab edilir;

- alan orqan alınan torpağın alınması ilə bağlı tələb olunan tədbirləri yerinə yetirmək öhdəliyini daşıyır;

- köçürülmə planı və (və ya) təlimatı tələb olunan hallarda, alan orqan onların alınmanın təsirinə məruz qalan şəxslərlə məsləhətləşməklə ağlabatan müddətdə hazırlanmasını təmin etmək öhdəliyini daşıyır;

- alan orqan alınmanın təsirinə məruz qalan şəxslərə və torpağın alınması nəticəsində zərər çəkəcək digər şəxslər və təşkilatlara ödəniləcək kompensasiyanın müəyyən edilməsi məqsədi ilə alınan torpağın və həmin torpaqda yerləşən tikililərin (inşası başa çatdırılmamış tikililər də daxil olmaqla), məhsulun, bitkilərin, bütün digər təbii əşyaların və tikilmiş əmlakın qiymətləndirilməsində qiymətləndirmə komissiyasına kömək etmək öhdəliyini daşıyır;

- alan orqan alınmanın təsirinə məruz qalan şəxslərə və torpağın alınması nəticəsində zərər çəkəcək digər şəxslərə və təşkilatlara kompensasiya ödəmək öhdəliyini daşıyır;

- alan orqan kompensasiyanın ödənilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarından vəsait almaq üçün zəruri sənədləri hazırlamaq öhdəliyini daşıyır (maddə 249).

1228. Torpağın alınması barədə qərarın qəbul edildiyi tarixdən sonra həmin tarixədək mülkiyyətində alınan torpaq olan şəxslərin hansı hüquqları istisna olmaqla, həmin torpaqla bağlı bütün hüquqları kompensasiya almaq hüququna çevrilir?

Sahiblik və istifadə hüquqları

1229. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, hansı hallar istisna olmaqla bu hüquq qanunla müəyyən olunmuş qaydada digər şəxslərə keçə bilər?

Dövlətin hüquqları alınmamış hər hansı torpağın alınmasından imtina etdiyi hallar və torpağın alınmasından imtina hesab edilən hallar istisna olmaqla

1230. Alan orqan torpağın alınması haqqında qərarın və həmin qərarın hüquqi qüvvəsinə dair arayışın surətini kimlərin diqqətinə çatdırmaq vəzifəsi daşıyır?

Alınmanın təsirinə məruz qalan şəxslərin

11-ci FƏSİL
Əşyadan istifadə hüquqları ilə bağlı suallar və cavablar

§1. Tikintiyə vərəsəlik hüququ

1231. Tikintiyə vərəsəlik hüququ tikinti üçün zəruri olmayan, lakin binadan daha yaxşı istifadə etməyə imkan verən torpaq sahəsi hissəsinə şamil edilə bilərmi?

Bəli (maddə 250).

1232. Tikintiyə vərəsəlik hüququnun müddəti tərəflərin razılaşması ilə müəyyənləşdirilir, lakin bu, torpaq sahələri üçün hansı müddətdən çox ola bilməz?

Xüsusi mülkiyyətdə olan torpaq sahələri üçün - doxsan doqquz ildən, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar üçün isə - qırx doqquz ildən çox ola bilməz.

1233. Tikintiyə vərəsəlik hüququ haqqında müqavilə nə zaman etibarlıdır?

Notariat qaydasında təsdiqləndikdə (maddə 251)

1234. Tikintiyə hüququn məzmunu və həcmi haqqında, məsələn, binaların mövqeyi, forması, genişləndirilməsi və təyinatı haqqında, habelə tikinti aparılmamış və həmin hüququn həyata keçirilməsi üçün istifadə edilə bilən sahələrdən istifadə haqqında müqavilə müddəaları kimlər üçün məcburidir?

Tikintiyə vərəsəlik hüququnu əldə edən hər bir şəxs üçün

1235. Eyni qayda daha hansı öhdəlik üçün etibarlıdır?

Tikintiyə vərəsəlik hüququ subyektinin müəyyən şərtlər yarandıqda bu hüququ daşınmaz əmlakın mülkiyyətçisinə vermək öhdəliyi üçün də

1236. Əgər tikintiyə vərəsəlik hüququ haqqında müqavilənin qüvvəsinə xitam verilirsə, mövcud binalar kimə keçir?

Torpaq sahəsinin mülkiyyətçisinə keçir (mülkiyyətçiyə qayıtma) və onun torpaq sahəsinin tərkib hissələrinə çevrilir (maddə 252).

1237. Tikintiyə vərəsəlik hüququ nə zaman ləğv edilir?

Onun verildiyi müddət qurtardıqda və ya tərəflər qarşılıqlı razılaşmaya gəldikdə

1238. Hansı halda torpaq sahəsinin mülkiyyətçisi tikintiyə vərəsəlik hüququnun ondan irəli gələn bütün hüquq və yüklülüklərlə birlikdə ona keçməsini tələb edərək həmin hüquqa vaxtından əvvəl xitam verilməsinə nail ola bilər?

Əgər tikintiyə vərəsəlik hüququnu əldə etmiş şəxs öz əşya hüququnu kobudcasına aşırsa və ya müqavilə öhdəliklərini pozursa

1239. Torpaq sahəsinin mülkiyyətçisi müqaviləyə xitam verildikdən sonra ona keçən binalar üçün hansı hərəkəti icra etməlidir?

Tikintiyə vərəsəlik hüququ olmuş şəxsə ağlabatan kompensasiya ödəməlidir.

1240. Tikintiyə vərəsəlik hüququ vaxtından əvvəl qayıtdıqda kompensasiya hansı qaydada hesablanır?

Tikintiyə vərəsəlik hüququ subyektinin təqsirli davranışı kompensasiyanın azaldılması üçün əsas kimi nəzərə alınmaqla

1241. Tikintiyə vərəsəlik hüququ hansı halda torpaq sahəsinin mülkiyyətçisinə keçir?

Yalnız o halda torpaq sahəsinin mülkiyyətçisinə keçir və ya ona xitam verilir ki, kompensasiya ödənilmiş olsun və ya girov qoyulsun.

1242. Tikintiyə vərəsəlik hüququ olmuş şəxsə verilən kompensasiya tikintiyə vərəsəlik hüququnun girov kimi verildiyi kreditorlar üçün hansı rolu oynayır?

Onlar üçün qarantiya sayılır, onların razılığı olmadan tikintiyə vərəsəlik hüququnun əvvəlki subyektinə kompensasiya ödəmək olmaz.

1243. Əgər kompensasiya ödənilmirsə və ya girov qoyulmursa, tikintiyə vərəsəlik hüququnun əvvəlki subyekti və ya tikintiyə vərəsəlik hüququnun girov kimi verildiyi kreditor nəyi tələb edə bilər?

Tələb edə bilər ki, tikintiyə vərəsəlik hüququnun ləğv edilməsi əvəzinə kompensasiya barədə tələbin təmin edilməsi üçün eyni dərəcəli ipoteka qeydə alınsın.

1244. Əgər kompensasiya ödənilmirsə və ya girov qoyulmursa, tikintiyə vərəsəlik hüququnun əvvəlki subyekti və ya tikintiyə vərəsəlik hüququnun girov kimi verildiyi kreditorun tələbi ilə ipotekanın qeydiyyatı hansı müddətdə aparılmalıdır?

Tikintiyə vərəsəlik hüququna xitam verilməsindən ən geci üç ay keçənədək

1245. Hansı məsələlər barədə tikintiyə vərəsəlik hüququnun əsaslandırılması üçün zəruri olan formada razılaşmalar qəbul edilə və daşınmaz əmlakın dövlət reyestrində təminat qeydi aparıla bilər?

Kompensasiyanın miqdarı və müəyyənləşdirilməsi proseduru haqqında, habelə kompensasiya vermək vəzifəsinin ləğvi və torpaq sahəsinin əvvəlki vəziyyətinin bərpası haqqında

1246. Binanın məhvi tikintiyə vərəsəlik hüququna xitam verilməsinə səbəb olurmu?

Xeyr, tikintiyə vərəsəlik hüququ olan şəxs ondan imtina edə bilər ki, bunun da nəticəsində ona xitam verilir.

1247. Daşınmaz əmlakın mülkiyyətçisi tikintiyə vərəsəlik hüququ üçün haqq almaq hüququna malikdirmi?

Bəli (maddə 253).

1248. Mülkiyyətçi hansı halda tikintiyə vərəsəlik hüququna birtərəfli qaydada xitam verə bilər?

Yalnız iki il ərzində ödənişlərin verilməməsi ilə əlaqədar

1249. Tikintiyə vərəsəlik hüququ üçün haqq ödənilməsinin təmin edilməsi məqsədilə torpaq sahəsi mülkiyyətçisinin tikintiyə vərəsəlik hüququnun həmin subyekti barəsində nəyə ixtiyarı var?

İxtiyarı var ki, daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış tikintiyə

vərəsəlik hüququ üçün girov hüququnu ən çoxu üç illik haqq həcmində qeydə aldırsın. Əgər qarşılıqlı öhdəlik bərabər illik haqlar şəklində müəyyənləşdirilməyibsə, bərabər bölgü zamanı üç ilə düşən məbləğin girovu üçün qanuni hüquq tələb edilə bilər.

1250. Girov hüququ nə zaman qeydə alına bilər?
Tikintiyə vərəsəlik hüququnun mövcud olduğu dövrdə istənilən vaxt

1251. Girov hüququnun hərracda açıq satış vasitəsilə ləğvinə yol verilirmi?
Xeyr.

1252. Kim torpaq sahəsini satın almaqda üstünlük hüququna malikdir?
Tikintiyə vərəsəlik hüququ olan şəxs (maddə 254)

1253. Kim tikintiyə vərəsəlik hüququnu satın almaqda üstünlük hüququna malikdir?
Torpaq sahəsinin mülkiyyətçisi

§2. Özgəsinin daşınmaz əşyasından məhdud istifadə hüququ: servitut və uzufruktla bağlı suallar və cavablar

Servitut

1254. Servitutun mahiyyəti nədən ibarətdir?
Servitut daşınmaz əşyanın digər daşınmaz əşya mülkiyyətçisinin xeyrinə elə yüklü edilməsidir ki, bu zaman ona (digər daşınmaz əşyanın mülkiyyətçisinə) ayrı-ayrı hallarda əşyadan istifadə etməyə icazə verilir və ya daşınmaz əşyanın mülkiyyətçisinə müəyyən hərəkətləri yerinə yetirməyə və ya mülkiyyət hüququndan irəli gələn digər hüquqları həyata keçirməyə icazə verilmir (maddə 255).

1255. Daşınmaz əşyanın servitutla yüklülüyü həmin əşyanın mülkiyyətçisini sahiblik, istifadə, sərəncam hüquqlarından məhrum edirmi?
Xeyr.

1256. Servitut hansı münasibətlərin müstəqil predmeti ola bilməz?
Alqı-satqının, girovun və icarənin

1257. Servitut hansı ehtiyacların təmin edilməsi üçün təyin oluna bilər?
Torpaq sahəsindən piyada və avtomobillə keçidin, elektrik, rabitə xətlərinin və boru kəmərlərinin çəkilişinin və istismarının, su təchizatının və meliorasiyanın, habelə daşınmaz əmlak mülkiyyətçisinin servitut qoyulmadan təmin edilə bilinməyən digər ehtiyaclarının

1258. Mülkiyyətçi özünə mənsub digər daşınmaz əşya hesabına öz daşınmaz əşyasına servitut vermək hüququna malikdirmi?
Bəli.

1259. Servitut nə zaman baş tuta bilər?
Yalnız o zaman baş tuta bilər ki, bu, servitutu almış şəxsə öz daşınmaz əşyasından istifadə etməkdə lazımi güzəştlər və imkanlar yaratsın.

1260. Servitutla yüklü edilmiş daşınmaz əşyaya hüquqlar başqa şəxsə keçdikdə servitut saxlanılırmı?

Bəli.

1261. Daşınmaz əşya müəyyən şəxsin xeyrinə servitutla yüklü edilərkən, şəxsi servitut adlanan bu cür yüklülük nədən ibarət olur?

Ondan ibarət olur ki, mülkiyyətçidən başqa, həmin şəxs binadan və ya onun bir hissəsindən özü və ya ailəsi üçün mənzil kimi istifadə edə bilir.

1262. Şəxsi servitut başqa şəxslərə verilə bilərmi?

Xeyr.

1263. Servitutun əldə edilməsi və qeydə alınması üçün hansı müddəalar qüvvədədir?

Torpağa mülkiyyət haqqında müddəalar (maddə 256)

1264. Servitut verilməsinə dair müqavilə nə zaman etibarlıdır?

Notariat qaydasında təsdiqləndikdə

1265. Servitut almış şəxs (ixtiyarlı şəxs) servitutun saxlanması və həyata keçirilməsi üçün tələb olunan hər şeyi edə bilər, lakin o, öz hüququndan imkan daxilində hansı qaydada istifadə etməlidir?

Elə istifadə etməlidir ki, bu, yüklü olan mülkiyyətçinin mənafelərinə zidd olmasın və ona lüzumsuz narahatlıq yaratmasın (maddə 257).

1266. Servitutla yüklü olan mülkiyyətçi hansı hərəkətlərdən çəkinməlidir?

Servitutun həyata keçirilməsinin qarşısını alan və ya onu çətinləşdirən heç bir hərəkət etməməlidir.

1267. Servitutun məzmununa nələr daxildir?

Servitutun qüvvədə olma müddəti və şərtləri (maddə 258)

1268. Servitutun məzmunu harada qeyd olunmalıdır?

Daşınmaz əmlakın dövlət reyestrindəki qeydiyyat yazısında

1269. Qeydiyyat yazısında servitutla yüklü olan daşınmaz əşyanın planı hansı formada göstərilməlidir?

Servitutun yeri ilə birlikdə

1270. Əgər servitutun həyata keçirilməsi zamanı ixtiyarlı şəxs öz hüquqlarının həyata keçirilməsində maneələrlə qarşılaşarsa, bunların aradan qaldırılması üçün o, hansı hüquqlara malikdir?

Vicdanlı sahib ilə eyni hüquqlara (maddə 259)

1271. Əgər servitutun həyata keçirilməsi zamanı ixtiyarlı şəxsin və onun daşınmaz əşyasının tələbatı dəyişərsə, yüklü olan mülkiyyətçini əlavə yüklü etmək imkanına yol verilirmi?

Xeyr.

1272. Əgər servitutun həyata keçirilməsi üçün qurğu varsa, onun saxlanması xərclərini kim çəkməlidir?

İxtiyarlı şəxs

1273. Hansı halda mülkiyyətçi və ixtiyarlı şəxsin hər ikisi qurğunun saxlanması xərclərini çəkirlər?

Qurğu həm də yüklü olan mülkiyyətçinin mənafelərinə xidmət üçün nəzərdə tutulduqda

1274. Yüklü olan mülkiyyətçi ixtiyarlı şəxsin tələbatını nəzərə alaraq servitutun bir yerdən başqa yerə keçirilməsini hansı halda tələb edə bilər?

O şərtlə tələb edə bilər ki, özünün yerdəyişmədə maraqlı olduğunu sübuta yetirsin və yerdəyişmə xərclərini öz öhdəsinə götürsün.

1275. Əgər ixtiyarlı şəxsin servitut qoyulmuş daşınmaz əşyası bölünərsə, hər bir bölünmüş hissə üçün ayrılıqda servitut müəyyənləşdirilməlidirmi?

Bəli (maddə 260).

1276. Bu qaydaya hansı şərtlə yol verilə bilər?

Yalnız yüklü olan mülkiyyətçinin vəziyyətini pisləşdirməmək şərti ilə

1277. Daşınmaz əşyanın digər hissəsinə bölgüdən sonra servitut hansı halda təsir göstərmir?

Əgər yüklü olan daşınmaz əşyanın bölünməsi nəticəsində servitut hissələrdən yalnız birinə şamil edilirsə

1278. Daşınmaz əmlakın dövlət reyestrinin əməkdaşları ixtiyarlı şəxsə həmin servitutun ləğv edilməsi xahişi barəsində məlumat verməlidirlər. Əgər o, buna etiraz etməzsə, ləğvetməni hansı müddətdə həyata keçirməlidirlər?

Bir ay ərzində

1279. Servitutla yüklü olan daşınmaz əşyanın mülkiyyətçisi xeyrinə servitut qoyulmuş ixtiyarlı şəxslərdən sahədən istifadə üçün haqq tələb edə bilərmi?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, bəli (maddə 261).

1280. Haqqın miqdarı hansı qaydada müəyyənləşdirilir?

Tərəflərin razılaşması ilə, razılaşmaya gəlmək mümkün olmadıqda isə məhkəmənin qərarı ilə

1281. Hansı halda hər cür servituta xitam verilir?

Yüklü olan və ya ixtiyarı verilmiş daşınmaz əşya tamamilə məhv olarkən (maddə 262)

1282. Hansı halda servituta xitam verilə bilər?

Yüklü olan mülkiyyətçinin tələbi ilə servituta onun qoyulduğu əsaslar aradan qalxdığına görə

1283. Hansı halda mülkiyyətçi servituta xitam verilməsini məhkəmə yolu ilə tələb edə bilər?

Fiziki və ya hüquqi şəxsə mənsub daşınmaz əşya servitutla yüklü olma nəticəsində öz təyinatına uyğun istifadə edilə bilmədikdə

1284. Əgər ixtiyarı verilmiş daşınmaz əşyanın mülkiyyətçisi yüklü olan daşınmaz əşyanın mülkiyyətçisi olursa, o, servituta xitam verə bilərmi?

Bəli.

1285. Nə vaxtadək servitut əşya hüququ kimi saxlanılır?

Xitam verilənədək

1286. Hansı halda yüklü olan daşınmaz əşyanın mülkiyyətçisi ona xitam verilməsini tələb edə bilər?

Əgər ixtiyarı verilmiş daşınmaz əşya üçün servituta hər cür maraq itmişdirsə

1287. Hansı halda kompensasiya müqabilində servitut qismən və ya tamamilə əvəz edilə bilər?

Əgər ixtiyarı verilmiş daşınmaz əşyanın mülkiyyətçisinin hələ də marağı varsa, lakin bu maraq yüklülüyə nisbətən cüzidirsə

Uzufrukt

1288. Uzufruktun mahiyyəti nədən ibarətdir?

Uzufrukt əşyanın və ya hüquqların elə yüklülüyüdür ki, bu zaman xeyrinə yüklülük müəyyənləşdirilən şəxs (uzufruktuar) onlardan istifadə etmək və fayda götürmək hüququna malikdir, lakin mülkiyyətçidən fərqli olaraq bu əşyanı və hüquqları girov qoymaq, özgəninkiləşdirmək və ya vərəsəlik üzrə vermək hüququna malik deyil (maddə 263).

1289. Uzufrukt ayrı-ayrı faydaların istisna edilməsi ilə məhdudlaşdırıla bilərmi?

Bəli.

1290. Uzufrukt hansı formalarda ola bilər?

Pullu və ya pulsuz, müvəqqəti və ya uzufruktuarın bütün ömrü boyu mövcud ola bilər.

1291. Uzufruktun verilməsi üçün hansı hərəkətlərin edilməsi zəruridir?

Daşınar əşyalar və ya hüquqlarla bağlı halda onların uzufruktuara keçməsi, daşınmaz əşyalarla bağlı halda isə onların daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması (maddə 264)

1292. Uzufrukt verilərkən hansı müddəalar qüvvədə olur?

Mülkiyyət hüququ haqqında müddəalar

1293. Uzufruktun verilməsi nəyi nəzərdə tutur?

Onun tərkib hissələrinin müəyyənləşdirilə bilən olmasını

1294. Uzufruktdan əvvəl mülkiyyətçi və uzufruktuar uzufrukt üzrə verilən obyektlərin vəziyyətini təsvir edə bilərlərmi?

Bəli (maddə 265).

1295. Mülkiyyətçinin razılığı olmadan uzufruktuar istifadə məqsədini dəyişdirə bilərmi?

Xeyr.

1296. Uzufruktuarın əşyadan onun adi təsərrüfat tətbiqi nəticəsində əldə edilməmiş bəhəri və faydanı əldə etmək ixtiyarı varmı?

Bəli.

1297. Əgər uzufruktuar etməyə borclu olmadığı xərclər çəkmişsə və ya yeniliklər tətbiq etmişsə, qaytarma zamanı tapşırıqsız idarəçi kimi onlar üçün kompensasiya tələb edə bilərmi?

Bəli.

1298. Hansı halda uzufruktuar həmin qurğuları geri götürə bilər?

Əgər onun yaratdığı qurğular üçün mülkiyyətçi kompensasiya vermək niyyətində deyilsə. Lakin uzufruktuar əşyanın əvvəlki vəziyyətini bərpa etməyə borcludur.

1299. Uzufruktuar əşya barəsində hansı hüquqlara malikdir?

Əşyaya sahiblik, ondan istifadə və əşyadan fayda götürmək

1300. Öz hüququnu həyata keçirərkən o, hansı qaydalara uyğun hərəkət etməlidir?

Vicdanlı təsərrüfatçılıq qaydalarına uyğun

1301. Uzufruktuar əşyanın normal aşınması üçün məsuliyyət daşıyırmı?

Xeyr.

1302. Uzufruktuar əşya barəsində hansı hərəkətləri etməyə borcludur?

Cari xərcləri ödəməyə, əşyanı təmir etməyə, habelə ona normal təsərrüfat qulluğunun qayğısına qalmağa

1303. Mülkiyyətçinin əşyanın dəyişdirilməsi və ya dəyərinin azaldılması nəticəsində kompensasiya iddiaları, habelə uzufruktuarın xərclər üçün kompensasiya və ya qurğuların geri götürülməsi iddiaları hansı müddətdə qüvvədən düşür?

Əşyanın qaytarılmasından bir il sonra

1304. Bəhərlər hansı halda uzufruktuara mənsubdur?

Əgər uzufruktuarın ixtiyarlı olduğu dövrdə təsərrüfatın lazımınca aparılması çərçivəsində yetişdirilmişsə

1305. Uzufrukt obyektləri üzrə haqq və digər vaxtaşırı xidmətlər, hətta onların icra müddəti istifadə hüququna xitam verildikdən sonra çatdıqda belə, hansı müddətdə uzufruktuara mənsubdur?

Uzufruktuarın hüququnun başlandığı gündən hüququna xitam verildiyi anadək

1306. Uzufruktuar hansı halda uzufruktu həyata keçirilmək üçün başqa şəxsə verə bilər?

Əgər uzufrukt yalnız müəyyən şəxsə verilməyibsə

1307. Uzufruktuar əşyanı hansı müddət üçün müvafiq surətdə sığorta etdirməyə borcludur?

Uzufruktun mövcud olduğu bütün dövr üçün

1308. Əgər əşya və ya onun bir hissəsi məhv olarsa, zədələnərsə və ya onun saxlanması üçün gözlənilməz xərclər lazım gələrsə, uzufruktuar hansı tədbirləri görməlidir?

O, bunu ləngimədən mülkiyyətçiyə bildirməli, mənfi nəticələri aradan qaldırmaq üçün mülkiyyətçinin həyata keçirdiyi tədbirlərə və hərəkətlərə dözməlidir.

1309. Əgər bu tədbirləri uzufruktuar özü həyata keçirirsə, uzufrukt qurtardıqda o, hansı hüquqa malikdir?

Həmin tədbirlər və hərəkətlər nəticəsində əşyaya əlavə etdiyi predmetləri ayıra bilər və ya bunun üçün mülkiyyətçidən müvafiq kompensasiya tələb edə bilər.

1310. Uzufruktuar əşyanın məhv olması və dəyərinin azalması üçün hansı halda məsuliyyət daşıyır?

Əgər zərərin onun təqsiri üzündən baş vermədiyini sübuta yetirməzsə

1311. Uzufruktuar əşyadan düzgün istifadə ilə əlaqədar predmetlərin dəyərinin azalmasının əvəzini ödəməyə borcludurmu?

Xeyr.

1312. Daşınmaz əşyanın uzufruktuarı göz qoymalıdır ki, daşınmaz əşyadan həddən artıq istifadə edilməsin. Bu həddən artıq əldə edilmiş bəhərlər kimə mənsubdur?

Mülkiyyətçiyə

1313. Uzufruktuara torpaq sahəsinin təsərrüfat təyinatında hansı dəyişikliklər etməyə icazə verilmir?

Mülkiyyətçi üçün mühüm zərərə səbəb ola biləcək hər hansı dəyişikliklər

1314. Uzufruktuar torpaq sahəsini hansı həddə dəyişdirə bilməz?

Əhəmiyyətli dərəcədə

1315. Uzufruktuar işlətdiyi əşyalara mülkiyyət hüququ əldə edirmi?

Əgər ayrı qayda müəyyənləşdirilməyibsə, mülkiyyət hüququ əldə edir, lakin istifadə hüququ qüvvəyə minənədək onların mövcud olmuş dəyərinin əvəzini ödəməyə borcludur.

1316. Mülkiyyətçi əşyadan hər bir qanunsuz istifadəyə və ya təyinatından kənar istifadəyə etiraz edə bilər. Əgər uzufruktuar etiraza məhəl qoymursa, mülkiyyətçi hansı hüquqa malikdir?

Mülkiyyətçi vurulmuş ziyanın əvəzinin ödənilməsini və ya uzufrukta xitam verilməsini məhkəmə qaydasında tələb edə bilər (maddə 266)

1317. Mülkiyyətçi hansı halda uzufruktuardan girov tələb edə bilər?

Əşyasının və ya hüquqlarının təhlükədə olduğunu sübuta yetirərsə

1318. Hansı halda mülkiyyətçi qarantiyanı sübut gətirmədən və əşya verilənədək tələb edə bilər?

Əgər uzufruktun predmeti istehlak edilən əşyalardan və ya qiymətli kağızlardan ibarətdirsə

1319. Qarantiya alınması üçün iddia kimin barəsində irəli sürülə bilməz?

İstifadə hüququnu saxlamaqla predmeti mülkiyyətçiyə bağışlamış şəxs barəsində

1320. Əgər uzufruktuar onun üçün təyin edilmiş ağlabatan müddət ərzində girov verməzsə və ya mülkiyyətçinin etirazına baxmayaraq əşyadan qanunsuz istifadəyə son qoymazsa, məhkəmə hansı tədbiri görməlidir?

Qərar qəbul edənədək onu əşyaya sahiblikdən məhrum etməlidir.

1321. Mülkiyyətçi və uzufruktuar əşyanın onların hesabına qiymətləndirilməsini nə zaman tələb edə bilərlər?

İstənilən vaxt

1322. Əgər əşyanın qorunması üçün daha mürəkkəb işlərin və ya tədbirlərin görülməsi zəruridirsə, uzufruktuar hansı hərəkətləri etməlidir?

Bu barədə mülkiyyətçiyə məlumat verməli və lazım gəldikdə bunların mülkiyyətçinin qüvvəsi ilə həyata keçirilməsinə icazə verməlidir. Əgər mülkiyyətçi bunu etməzsə, uzufruktuar həmin işləri və tədbirləri mülkiyyətçinin hesabına özü görə bilər.

1323. Uzufruktuar və mülkiyyətçi hansı xərcləri çəkirlər?

Adi saxlama və təsərrüfat istifadəsi xərclərini, bununla bağlı müvafiq borclar üzrə faizləri, habelə vergiləri və rüsumları uzufruktuar ixtiyarlı olduğu müddətə uyğun ödəyir. Əgər vergilər və ayırmalar mülkiyyətçidən tutulursa, uzufruktuar onların əvəzini eyni həcmdə ödəməlidir. Bütün başqa xərcləri mülkiyyətçi çəkir.

1324. Mənzilə uzufrukt nələri ehtiva edir?

Mənzilə uzufrukt binada və ya onun bir hissəsində mənzilə malik olmaq ixtiyarından ibarətdir. O, üçüncü şəxslərə verilə bilməz və vərəsəlik üzrə keçmir (maddə 267).

1325. Mənzilə uzufrukta hansı müddəalar şamil edilir?

İstifadə hüququ haqqında müddəalar

1326. Uzufruktuar öz ailəsinin üzvlərini və ya binada onunla birgə yaşayanları öz mənzilinə götürə bilərmi?

Əgər mülkiyyətçi birbaşa şərt qoymayıbsa, edə bilər.

1327. Mənzilin saxlanma xərclərini uzufruktuar hansı halda çəkir?

Əgər uzufruktuarın müstəsna mənzil hüququ varsa, o, mənzilin adi saxlanması xərclərini çəkir. Əgər onun birgə istifadəyə hüququ varsa, mənzilin saxlanması xərclərini mülkiyyətçi çəkir.

1328. Uzufrukta hansı hallarda xitam verilir?

Əşya tamamilə məhv olduqda, uzufruktun müddəti bitdikdə, uzufruktuar uzufruktdan imtina etdikdə, habelə uzufruktuarın ölümü ilə əlaqədar olaraq, hüquqi şəxslər üçün isə onların buraxılması ilə əlaqədar olaraq (maddə 268)

1329. Uzufrukt qurtardıqda uzufruktuar nə etməyə borcludur?

Əşyanı mülkiyyətçiyə qaytarmağa borcludur.

1330. Əgər uzufrukt mülkiyyətlə birlikdə bir şəxsin əlinə düşərsə, uzufrukta xitam verilirmi?

Bəli.

1331. Mülkiyyətçi məhv olmuş əşyanı bərpa edərsə, əşyaya uzufrukt da bərpa olunurmu?

Bəli.

1332. Əgər məhv olmuş əşyanın əvəzi verilirsə, uzufrukt davam edirmi?

Uzufrukt əvəz kimi verilmiş əşyaya keçir.

12-ci FƏSİL
Əşya təminat hüququ ilə bağlı suallar və cavablar

§1. Ümumi müddəalar

1333. Girov və ipoteka hüququ nəyi ehtiva edir?

Girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda, borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur (maddə 269).

1334. Girov və ipoteka hüququ nədən ibarətdir?

Əşya hüquqlarının məhdudlaşdırılmasından

1335. Girov hansı əşya hüquqlarının məhdudlaşdırılmasıdır?

Daşınar əşyalara (ipoteka obyekti olan daşınar əşyalardan başqa) olan əşya hüquqlarının

1336. Hüquqların girov qoyulması mümkündürmü?

MM ilə nəzərdə tutulmuş hallarda, mümkündür.

1337. İpoteka hansı əşya hüquqlarının məhdudlaşdırılmasıdır?

Daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara

1338. Girov və ipoteka girov qoyanın (borclunun) hansı hüququdur?

Girov saxlayan (kreditor) qarşısında onun əsas öhdəliyinin icrasının təmin edilməsi üçün əlavə (aksessor) əşya hüququdur.

1339. Əşyaya girov və ipoteka hüququ nələrə şamil edilir?

Əşyaya mülkiyyət hüququna aid olan hər şeyə

1340. Girovla və ipoteka ilə təmin edilmiş öhdəlik üzrə kreditorun (girov saxlayanın və ipoteka saxlayanın) borclunun həmin öhdəliyi icra etmədiyi hal üçün hansı hüququ vardır?

Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın dəyərindən həmin əşyanın mənsub olduğu şəxsin (girov qoyanın və ipoteka qoyanın) digər kreditorlarına nisbətən üstün qaydada təminat almaq hüququ

1341. MM-in 266.6-cı maddəsində müəyyənləşdirilmiş prinsipə (adi saxlama və təsərrüfat istifadəsi xərcləri, bununla bağlı müvafiq borclar üzrə faizlər, habelə vergilər və rüsumlardan başqa bütün digər xərclərin mülkiyyətçi tərəfindən ödənilməsi prinsipinə) əsasən, girov saxlayanın (ipoteka saxlayanın) girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanın itirilməsi və ya zədələnməsi üçün, onun kimin xeyrinə sığortalanmasından asılı olmayaraq, sığorta ödənişindən hansı şərtlə təminat almaq hüququ var?

O şərtlə ki, itki və ya zədələnmə girov saxlayanın (ipoteka saxlayanın) cavabdeh olduğu səbəblərdən baş verməsin.

1342. Girov və ipoteka hüququ hansı əşya və hüquqlar üçün verilir?

Başqasına verilə bilən bütün əşyalar və hüquqlar üçün

1343. Girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşya məhv olduqda və ya zədələndikdə, yaxud girov saxlayanın (ipoteka saxlayanın) yanında girov qoyulmuş hüquqa xitam verildikdə və ya bu hüquq pozulduqda hansı hüquq irəli gəlir?

Əvəz almaq tələbinin irəli sürülməsi hüququ

1344. Girov və ipoteka hüququnun verildiyi tələb hansı formalarda ola bilər?

Tələb adlı, orderli və ya adsız ola bilər. O, həm girov qoyana (ipoteka qoyana) və ya mülkiyyətçinin özünə qarşı, həm də başqa şəxsə qarşı tələb ola bilər.

1345. Girov və ipoteka hansı əsasla əmələ gəlir?

Müqavilə üzrə (maddə 270)

1346. Əşyanı girov qoyan (ipoteka qoyan) kim ola bilər?

Yalnız onun mülkiyyətçisi (maddə 271)

1347. Mülkiyyətçi olmayan şəxsdən ipoteka (girov) hüququnun əldə edilməsinin hüquqi nəticələri hansı qaydada müəyyən edilir?

MM-in 140-cı (daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası) və 182-ci (vicdanlı əldə edən) maddələrinin müddəalarına uyğun olaraq

1348. Girov qoyan (ipoteka qoyan) kimlər ola bilər?

Həm borclu, həm də üçüncü şəxs

1349. Hüququ girov qoyan kim ola bilər?

Həmin hüququn mənsub olduğu şəxs

1350. Girov saxlayan (ipoteka saxlayan) kimdir?

Borclunun onun qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üçün girov qoyanın əşyası barəsində müqavilədə göstərilmiş əsaslar üzrə girov və ya ipoteka hüququ olan şəxsdir (maddə 272).

1351. Girov saxlayana və ya ipoteka saxlayana girov qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əşyanı mənimsəmək hüququ verən razılaşma əldə oluna bilərmi?

Buna yönələn hər cür razılaşma etibarsızdır (maddə 273).

1352. İpoteka ilə yüklü edilmiş əşyanın mülkiyyətçisinin dəyişməsi ipoteka hüququnu hansı formada dəyişdirir?

Dəyişdirmir (maddə 274).

1353. Girov qoyulmuş əşyanın mülkiyyətçisinin dəyişməsi girov hüququnu dəyişdirirmi?

"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, dəyişdirmir.

§2. Girov

1354. Hansı hüquqlar istisna olmaqla, istənilən əşyalar və tələblər girov predmeti ola bilər?

İpoteka predmeti olan əşyalar, habelə mülki dövriyyədən çıxarılmış əşyalar və kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblər, o cümlədən alimentlər, həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər və digər şəxsə güzəşt olunması qanunla qadağan edilmiş sair hüquqlar (maddə 276)

1355. Bölünməz əşyalar hissə-hissə girov qoyula bilərmi?

Xeyr.

1356. Hansı aktivlər dövlət borcu və ya dövlət tərəfindən zəmanət verilmiş borc üzrə öhdəliklərin yerinə yetirilməsinin təminatı məqsədilə girov qoyula bilməz?

Azərbaycan Respublikasının dövlətə məxsus aktivləri, onun beynəlxalq ehtiyatları və gələcəkdə yarana biləcək aktivləri

1357. Ümumi birgə mülkiyyətdə olan əşya hansı halda girov qoyula bilər?

Yalnız bütün mülkiyyətçilərin yazılı razılığı olduqda (maddə 277)

1358. Ümumi paylı mülkiyyətin mülkiyyətçilərindən hər hansı biri ümumi əşyaya hüquqdakı payını digər mülkiyyətçilərin razılığı olmadan girov qoya bilərmi?

Bəli.

1359. Girov saxlayanın tələbi ilə həmin paya tutma yönəldildikdə və o, satıldıqda MM-in hansı qaydaları tətbiq edilir?

Satın almaqda üstünlük hüququ haqqında qaydalar

1360. Girov saxlayanın girov predmeti olan əşyaya girov hüququ, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, hansı əmlaka da şamil edilir?

Onun ləvazimatına, habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan digər əmlaka da şamil edilir (maddə 278).

1361. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov saxlayanın tələbini girov hansı həcmdə təmin edir?

Faktik təminat məqamında malik olduğu həcmdə (maddə 279)

1362. Bu tələbə həmçinin nələr daxildir?

Faizlər, dəbbə pulu, icranın gecikdirilməsi ilə vurulmuş zərərin əvəzinin ödənilməsi, habelə girov qoyulmuş əşyanın saxlanması və salamatlığı üçün girov saxlayanın zəruri xərcləri və tutma xərcləri

1363. Girov müqaviləsi hansı formada bağlanmalıdır?

Yazılı (maddə 280)

1364. Girov müqaviləsində hansı məlumatlar göstərilməlidir?

Tərəflərin adı və yaşayış yeri (olduqları yer), girovun predmeti, girovla təmin edilən öhdəliyin mahiyyəti, ölçüsü (yuxarı həddi) və icra müddəti göstərilməlidir.

1365. MM-də nəzərdə tutulan hallarda girov müqaviləsi hansı qaydada rəsmiləşdirilməlidir?

Notariat qaydasında təsdiqlənməli, girov hüququ isə dövlət qeydiyyatına alınmalıdır.

1366. Bu maddənin qaydalarına riayət edilməməsi nəyə səbəb olur?

Girov müqaviləsinin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsiz sayılır.

1367. Girov hüququ nə vaxtdan etibarən əmələ gəlir?

Girov müqaviləsinin bağlandığı andan, girov hüququnun dövlət qeydiyyatına alınmalı olduğu hallarda isə onun qeydə alındığı andan (maddə 281)

1368. Əgər müqaviləyə görə girov predmeti girov saxlayanda olmalıdırsa, girov hüququ nə zaman əmələ gəlir?

Girov predmetinin ona verildiyi an

1369. Girov predmeti müqavilə bağlanana qədər verildikdə, girov hüququ nə zaman əmələ gəlir?

Müqavilənin bağlandığı andan

1370. Girovda olan əmlak digər girovun predmeti (sonrakı girov) ola bilərmi?

Bəli (maddə 282).

1371. Sonrakı girova hansı halda yol verilir?

Onun əvvəlki girov müqavilələri ilə qadağan edilmədiyi halda

1372. Sonrakı girov zamanı sonrakı girov saxlayanın tələbləri hansı qaydada ödənilir?

"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallar nəzərə alınmaqla, əvvəlki girov saxlayanın tələbləri ödənildikdən sonra girov predmetinin dəyərindən ödənilir.

1373. Girov qoyulmuş əşyanın kimdə olmasından asılı olaraq girov qoyan və ya girov saxlayan, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, hansı fəaliyyətləri həyata keçirməlidirlər?

- Girov qoyulmuş əşyanı itirilmə və zədələnmə risklərindən onun tam dəyərində, əşyanın tam dəyəri girovla təmin edilən tələbin ölçüsündən artıqdırsa, tələbin ölçüsündən az olmayan məbləğdə sığorta etdirməlidir;
- girov qoyulmuş əşyanın salamatlığının təmin edilməsi, o cümlədən üçüncü şəxslərin qəsdlərindən və tələblərindən müdafiəsi üçün tədbirlər görməlidir;
- girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsi yarandıqda digər tərəfi dərhal xəbərdar etməlidir (maddə 283).

1374. Girov saxlayan və girov qoyan digər tərəfdə olan girov qoyulmuş əşya barəsində sənədlər üzrə və faktik surətdə nələri yoxlaya bilərlər?

Mövcudluğunu, miqdarını, vəziyyətini və saxlanma şəraitini

1375. Hansı halda girov qoyan girova vaxtından əvvəl xitam verilməsini tələb edə bilər?

Girov saxlayan öz vəzifələrini kobudcasına pozaraq girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsini doğurduqda

1376. Girov qoyan girov predmetindən onun təyinatına uyğun istifadə edə, o cümlədən ondan bəhər və gəlir götürə bilərmi?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, edə bilər (maddə 284).

1377. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyan girov predmetini özgəninkiləşdirə, başqa şəxsin icarəsinə və ya əvəzsiz istifadəsinə verə və ya ona dair digər sərəncamlar verə bilərmi?

Yalnız girov saxlayanın razılığı ilə edə bilər.

1378. Girov qoyanın girov qoyulmuş əmlakı vəsiyyət etmək hüququnu məhdudlaşdıran razılaşma əldə oluna bilərmi?

Belə razılaşma əhəmiyyətsizdir.

1379. Girov saxlayan ona verilmiş girov predmetindən hansı hallarda istifadə edə bilər?

Yalnız müqavilədə nəzərdə tutulan hallarda

1380. Müqaviləyə əsasən, girov saxlayanın üzərinə hansı məqsədlə girov predmetindən bəhər və gəlir götürmək vəzifəsi qoyula bilər?

Əsas öhdəliyin ödənilməsi məqsədilə və ya girov qoyanın mənafeləri üçün

1381. Əgər girov müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyulmuş əşyanın təsadüfən məhv olması, itirilməsi və ya təsadüfən zədələnməsi riski kimin üzərinə düşür?

Girov qoyanın (maddə 285)

1382. Girov saxlayan ona verilmiş girov predmetinin tamamilə və ya qismən məhv olması, itirilməsi və ya zədələnməsi üçün hansı halda məsuliyyət daşıyır?

Məsuliyyətdən azad edilə biləcəyini sübuta yetirməsə

1383. Girov saxlayan girov predmetinin ona verildiyi zaman hansı məbləğdə qiymətləndirildiyindən asılı olmayaraq girov predmetinin itirilməsinə və zədələnməsinə görə hansı məbləğdə məsuliyyət daşıyır?

İtirilməsinə görə onun həqiqi dəyəri məbləğində, zədələnməsinə görə isə dəyərinin azaldığı məbləğdə məsuliyyət daşıyır.

1384. Əgər zədələnmə nəticəsində girov predmeti öz birbaşa təyinatı üzrə istifadə edilə bilməyəcək dərəcədə dəyişmişsə, girov qoyan hansı hüquqa malikdir?

Ondan imtina edə bilər və onun itirilməsi üçün əvəz tələb edə bilər.

1385. Girov predmetinin dəyişdirilməsinə hansı qaydada yol verilir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov saxlayanın razılığı ilə (maddə 286)

1386. Girov predmeti məhv olduqda və ya zədələndikdə və ya ona mülkiyyət hüququna xitam verildikdə girov qoyan hansı hərəkətləri etməlidir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov predmetini ağlabatan müddətdə bərpa etməli və ya eyni dəyərli başqa əmlakla əvəz etməlidir (maddə 287).

1387. Müqavilə şərtlərinə görə girov saxlayana ona verilmiş girov predmetindən istifadə hüququ verildikdə o, digər şəxslərdən, o cümlədən girov qoyandan onun hüququnun hər cür pozuntularını aradan qaldırmağı tələb edə bilərmi?

Bəli, bu pozuntular sahiblikdən məhrumetmə ilə birləşdirilmədikdə belə, tələb edə bilər (maddə 288).

1388. MM-in 274.2-ci maddəsi, yəni "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, girov qoyulmuş əşyanın mülkiyyətçisinin dəyişməsinin girov hüququnu dəyişdirməməsi nəzərə alınmaqla, girov qoyulmuş əşyaya mülkiyyət hüququ həmin əşyanın əvəzli və ya əvəzsiz özgəninkiləşdirilməsi nəticəsində və ya universal hüquq varisliyi qaydasında girov qoyandan başqa şəxsə keçdikdə girov hüququ qüvvədə qalırmı?

Bəli.

1389. Girov qoyanın hüquq varisi hansı statusa malikdir?

O, girov qoyanın yerini tutur və əgər girov saxlayanla razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyanın bütün vəzifələrini daşıyır (maddə 289).

1390. Girov qoyanın girov predmeti olan əşyası hüquq varisliyi qaydasında bir neçə şəxsə keçdikdə hüquq varislərindən (əmlakı əldə edənlərdən) hər biri girovla təmin edilmiş öhdəliyin icra edilməməsinin girovdan irəli gələn nəticələrini hansı həcmdə daşıyır?

Həmin əmlakın ona keçmiş hissəsinə mütənasib surətdə

1391. Hansı halda hüquqi varislər birgə girov qoyanlar olurlar?

Girov predmeti bölünməz olduqda və ya başqa əsaslara görə hüquq varislərinin ümumi mülkiyyətində qaldıqda

1392. Hansı hallarda girov hüququ əvəz kimi verilmiş əşyaya şamil edilir və ya müvafiq surətdə, girov saxlayan girov qoyana çatası əvəzin məbləğindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir?

Girov qoyanın girov predmeti olan əşyaya mülkiyyət hüququna qanunla müəyyənləşdirilmiş əsaslar üzrə və qaydada, dövlət ehtiyacları üçün satınalma, rekvizisiya və ya milliləşdirmə nəticəsində xitam verildikdə və girov qoyana başqa əşya və (və ya) müvafiq əvəz verildikdə (maddə 290)

1393. Girov predmeti olan əşya tutmanın ona yönəldilməsi və ya cinayət törətmək üstündə sanksiya şəklində girov qoyandan qanunla müəyyənləşdirilmiş qaydada alındıqda girov saxlayan hansı hüququ əldə edir?

Həmin əşyanın dəyərindən öz tələbinin üstün ödənilməsi hüququnu əldə edir.

1394. Girov predmeti olan əşyanın mülkiyyətçisinin əslində digər şəxs olması əsasında həmin əşyanın girov qoyandan alınması nə ilə nəticələnir?

Bu əmlak barəsində girova xitam verilir.

1395. Girov saxlayan hansı qaydaları gözləməklə girov müqaviləsi üzrə öz hüquqlarını başqa şəxsə verə bilər?

Kreditorun hüquqlarının tələbin güzəşti yolu ilə verilməsi qaydalarını (maddə 291)

1396. Girovla təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə, hansı halda girova xitam verilir?

Əgər girov qoyan yeni borclunun əvəzinə cavabdeh olacağı barədə kreditora razılıq verməyibsə (maddə 292)

1397. Hansı hallarda girov saxlayan girovla təmin edilmiş öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər?

- Girov predmeti onu saxlayan girov qoyanın sahibliyindən girov müqaviləsinin şərtlərinə uyğun olmayaraq çıxdıqda;
- girov qoyan girov predmetinin əvəz edilməsi qaydalarını pozduqda;
- əgər girov qoyan MM-in 287-ci maddəsində nəzərdə tutulan hüquqdan (girov predmetinin bərpa və əvəz edilməsi) istifadə etməyibsə, girov predmeti girov saxlayanın cavabdeh olmadığı səbəblərdən itirildikdə (maddə 293).

1398. Hansı hallarda girov saxlayan girovla təmin edilmiş öhdəliyin vaxtından əvvəl icrasını tələb edə bilər, tələbi yerinə yetirilmədikdə isə tutmanı girov predmetinə yönəldə bilər?

- Girov qoyan sonrakı girov qaydasını pozduqda;
- girov qoyan MM-in 283.1 və 283.2-ci maddələrində nəzərdə tutulan vəzifələri yerinə yetirmədikdə, yəni girov qoyulmuş əşyanı itirilmə və zədələnmə risklərindən onun tam dəyərində, əşyanın tam dəyəri girovla təmin edilən tələbin ölçüsündən artıqdırsa, tələbin ölçüsündən az olmayan məbləğdə sığorta etdirmədikdə, girov qoyulmuş əşyanın salamatlığının təmin edilməsi, o cümlədən üçüncü şəxslərin qəsdlərindən və tələblərindən müdafiəsi üçün tədbirlər görmədikdə, girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsi yarandıqda digər tərəfi dərhal xəbərdar etmədikdə, girov qoyulmuş əşyanın mövcudluğunu, miqdarını, vəziyyətini və saxlanma şəraitini sənədlər üzrə və faktik surətdə yoxlaya bilmədikdə;
- girov qoyan girov qoyulmuş əşyadan istifadə və ona dair sərəncam verilməsi qaydalarını pozduqda

1399. Girova hansı hallarda xitam verilir?

- Girovla təmin edilmiş öhdəliyə xitam verildikdə;
- MM-in 283.3-cü maddəsində nəzərdə tutulan əsaslar olduqda, yəni girov saxlayan öz vəzifələrini kobudcasına pozaraq girov qoyulmuş əşyanın itirilməsi və ya zədələnməsi təhlükəsini doğurduqda girov qoyanın tələbi ilə;
- əgər girov qoyan MM-in 288.2-ci maddəsində nəzərdə tutulan hüquqdan (girov predmetindən istifadə hüququna dair hər cür pozuntularını aradan qaldırmağı tələb etmək) istifadə etməyibsə, girov qoyulmuş əşya məhv olduqda və ya girov qoyulmuş hüquqa xitam verildikdə;
- tutma yönəldilməsi ilə bağlı girov qoyulmuş əmlak satıldıqda (maddə 294)

1400. Girovla təmin edilmiş öhdəliyin icrası nəticəsində və ya girov qoyanın tələbi ilə girova xitam verildikdə girov qoyulmuş əşyanı saxlamış girov saxlayan nə etməlidir?

Onu dərhal girov qoyana qaytarmağa borcludur.

1401. Girov saxlayanın (kreditorun) tələblərinin ödənilməsi üçün tutma hansı hallarda yönəldilə bilər?

Girov qoyulmuş əşyaya borclu girovla təmin edilmiş öhdəliyi onun cavabdeh olduğu səbəblərdən icra etmədikdə və ya lazımınca icra etmədikdə (maddə 295)

1402. Girov saxlayanın tələbinin məhkəməyə müraciət edilmədən girov qoyulmuş əşya hesabına ödənilməsinə hansı əsasla yol verilir?

Girov saxlayanla girov qoyanın notariat qaydasında təsdiqlənmiş razılaşması əsasında

1403. Girov saxlayanın tələbinin məhkəməyə müraciət edilmədən, girov qoyulmuş əşya hesabına ödənilməsinə dair girov saxlayanla girov qoyanın notariat qaydasında təsdiqlənmiş razılaşması olmadıqda girov saxlayanın (kreditorun) tələbinin girov qoyulmuş əşyanın dəyərindən ödənilməsi hansı qaydada həyata keçirilir?

Məhkəmənin qərarı ilə (maddə 296)

1404. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun şamil edildiyi yüklülük predmetinə tutmanın yönəldilməsi hansı qaydada həyata keçirilir?

Həmin Qanunla müəyyən edilmiş qaydada

1405. Girov predmetinə tutma məhkəmənin qərarı ilə hansı hallarda yönəldilə bilər?

- Girov müqaviləsinin bağlanması üçün başqa şəxsin razılığı və icazəsi tələb olunduqda;
- girov predmeti cəmiyyət üçün mühüm tarixi, bədii və ya mədəni dəyərli əşya olduqda.

1406. Girov qoyulmuş əşya hansı üsullarla satıla bilər?

Hərracda (açıq auksionda) və ya "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda istənilən üsulla (maddə 297)

1407. Girov qoyulmuş əşyanın satılmasından əldə olunan məbləğ hansı ardıcıllıqla bölüşdürülür?

- Girov qoyulmuş əşyanın saxlanması, salamatlığı, yaxşılaşdırılması və onun satılmasına çəkilmiş xərclərin ödənilməsinə;
- "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada daha üstün hüquqa malik olan tələblərin ödənilməsinə;
- girov saxlayanın tələblərinin ödənilməsinə;
- "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada daha aşağı hüquqa malik olan tələblərin ödənilməsinə yönəldilir (maddə 298).

1408. MM-in 298.1-ci maddəsində nəzərdə tutulmuş ödənişlər, yəni girov qoyulmuş əşyanın saxlanması, salamatlığı, yaxşılaşdırılması və onun satılmasına çəkilmiş xərclər, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada daha üstün hüquqa malik olan tələblərlə bağlı ödənişlər, girov saxlayanın tələbləri ilə bağlı ödənişlər, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada daha aşağı hüquqa malik olan tələblərə dair ödənişlər həyata keçirildikdən sonra girov qoyulmuş əşyanın satışından əldə olunan vəsaitin qalan hissəsi girov qoyulmuş əşyanın satılmasından sonra hansı müddətdə girov qoyana qaytarılır?

10 (on) iş günü müddətində

1409. Əgər girov qoyulmuş əşyanın satışından götürülən məbləğ girov saxlayanın tələbini ödəmək üçün yetərli deyilsə, girov saxlayan hansı hüquqa malikdir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, çatışmayan məbləği borclunun başqa əşyasından almaq hüququna malikdir. Bu halda girov saxlayanın girova əsaslanan üstünlük hüququ yoxdur.

1410. Nə vaxta qədər girov qoyan və (və ya) borclu girovla təmin edilmiş öhdəliyi və ya öhdəliyin gecikdirilmiş hissəsini icra edərək girov predmetinə tutmanın yönəldilməsinə xitam verə bilər?

Tutma yönəldilməsi ilə bağlı girov predmetinin satışı həyata keçirilənə (alqı-satqı müqaviləsi bağlananadək və ya hərracın nəticələri üzrə protokol imzalananadək), yaxud "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq girov predmeti girov saxlayanın mülkiyyətinə keçənə qədər girov qoyan və (və ya) borclu girovla təmin edilmiş öhdəliyi və ya öhdəliyin gecikdirilmiş hissəsini icra edərək girov predmetinə tutmanın yönəldilməsinə xitam verə bilər (maddə 299).

1411. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsinə və ya onun satışına xitam verilməsini tələb edən şəxs həmin əşyaya tutmanın yönəldilməsi və onun satışı ilə bağlı çəkilmiş xərclərin əvəzini kimə ödəməyə borcludur?

Girov saxlayana

1412. Girov hansı növlərdə ola bilər?

- Saxlanc;
- əşyanın lombardda girovu;
- hüquqların girovu;
- pul vəsaitinin girovu;
- sabit girov;
- dövriyyədəki malların girovu (maddə 300).

1413. Saxlancın mahiyyəti nədən ibarətdir?

O, elə girovdur ki, onun predmeti girov saxlayanın sahibliyinə verilir (maddə 301).

1414. Şəxsi istehlak üçün nəzərdə tutulan daşınar əşyanın fiziki şəxslərdən qısamüddətli kreditlərin təmin edilməsi məqsədilə girov götürülməsini kimlər həyata keçirə bilərlər?

Sahibkarlıq fəaliyyəti qaydasında buna xüsusi icazəsi (lisenziyası) olan ixtisaslaşdırılmış təşkilatlar – lombardlar (maddə 302).

1415. Əşyanın lombardda girovu haqqında müqavilə hansı qaydada rəsmiləşdirilir?

Lombardın girov bileti verməsi yolu ilə

1416. Saxlanca qoyulan əşyalar hara verilir?

Lombarda.

1417. Lombard girov götürdüyü əşyanı hansı məbləğdə girov qoyanın xeyrinə sığorta etdirməlidir?

Onun girova qəbul olunduğu anda eyni növlü və keyfiyyətli əşyanın bazar qiymətinə uyğun müəyyənləşdirilən qiymətinin tam məbləğində

1418. Lombardın girov qoyulmuş əşyadan istifadə etmək və ona dair sərəncam vermək ixtiyarı varmı?

Xeyr.

1419. Lombard girov qoyulmuş əşya ilə bağlı hansı halda məsuliyyət daşıyır?

Əşyanın itirilməsi və zədələnməsi üçün

1420. Əşyanın lombardda girovu ilə təmin edilmiş kredit məbləği müəyyənləşdirilmiş müddətdə qaytarılmadıqda lombard hansı hüquqa malikdir?

Həmin əşyanı açıq hərracdan realizə edə (sata) bilər. Bundan sonra lombardın girov qoyana (borcluya) qarşı tələbləri, hətta girov qoyulmuş əşyanın satışından götürülən məbləğ onların tam ödənilməsi üçün yetərli olmadıqda belə, ləğv edilir.

1421. Əşyanın lombardda girovu haqqında müqavilənin hansı şərtləri əhəmiyyətsizdir?

Girov qoyanın hüquqlarını MM-in ona verdiyi hüquqlara nisbətən məhdudlaşdıran şərtləri

1422. Hüquq girov qoyularkən girov predmeti nə hesab olunur?

Özgəninkiləşdirilə bilən hüquq, o cümlədən torpaq sahəsinin, binanın, qurğunun, yaşayış evinin (mənzilin) icarəsi hüququ, mülkiyyətdəki paya hüquq, borc tələbi (maddə 303).

1423. Müddətli hüquq hansı müddətdə girov predmeti ola bilər?

Yalnız onun qüvvədə olma müddəti bitənədək

1424. Girov qoyulmuş hüququn borclusuna girov haqqında nə zaman bildiriş verilməlidir?

Dərhal.

1425. Dövlət qeydiyyatına alınmalı olan hüququn girovu nə vaxtdan etibarən etibarlıdır?

Onun qeydiyyatını həyata keçirən dövlət orqanında qeydə alındığı andan

1426. Sənədli qiymətli kağızla təsdiqlənmiş hüquq girov qoyularkən o, kimə verilir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov saxlayana və ya bankın və ya notariusun depozitinə

1427. Girov predmeti olan pul vəsaiti harada saxlanılır?

Bankın və ya notariusun depozit hesabında (maddə 304)

1428. Bu məbləğin üstünə hesablanan faizlər kimə mənsubdur?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyana

1429. Sabit girovun predmeti kimdə saxlanılır?

Girov saxlayanın qıfılı altında və ya girovu ifadə edən nişanlar vurulmaqla, girov qoyanda (maddə 305)

1430. Dövriyyədəki malların girovu zamanı girov qoyulan malları saxlayan girov qoyana hansı hüquq verilir?

Girov qoyulmuş əmlakın (əmtəə ehtiyatları, xammal, materiallar, yarımfabrikatlar, hazır məhsul və i.a.) tərkibini və natural formasını dəyişdirmək hüququ (maddə 306)

1431. Girov qoyanın özgəninkiləşdirdiyi dövriyyədəki mallar hansı andan girov predmeti olmur?

Əldə edənin mülkiyyətinə keçdiyi andan

1432. Girov qoyanın əldə etdiyi, girov müqaviləsində göstərilən mallar hansı andan etibarən girov predmeti olur?

Girov qoyanın onlara mülkiyyət hüququnun əmələ gəldiyi andan

1433. Dövriyyədəki mallar girov qoyulduqda, tərəflər onların ümumi dəyərinin girov müqaviləsində göstərilən dəyərdən aşağı düşməməsini şərtləndirə bilərlər. Bu zaman hansı fəaliyyətlər göstərilir?

- Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyulmuş dövriyyədəki malların dəyərinin azalmasına girovla təmin edilmiş öhdəliyin icra edilmiş hissəsinə mütənasib surətdə yol verilir;

- girov qoyan girov qoyulmuş malların qeydiyyatı kitabını tərtib etməyə borcludur. Həmin kitaba malların girov qoyulması şərtləri haqqında və girov qoyulmuş malların tərkibinin və ya natural formasının dəyişməsinə səbəb olan bütün əməliyyatlar, o cümlədən onların emalı haqqında sonuncu əməliyyat günü üçün qeydlər daxil edilir.

1434. Girov qoyan dövriyyədəki malların girovu şərtlərini pozduqda girov saxlayan hansı hüquqa malikdir?

Girov qoyulmuş mallara öz nişanlarını vurmaq yolu ilə onlarla bağlı əməliyyatları pozuntu aradan qaldırılanadək dayandıra bilər.

§3. İpoteka

1435. İpoteka müqaviləsində hansı məlumatlar göstərilməlidir?

Tərəflərin adı və yaşayış yeri (olduqları yer), ipotekanın predmeti, onun adı, olduğu yer və eyniləşdirilməsi üçün yetərli olan digər təsviri, əsas öhdəliyin mahiyyəti, ölçüsü (məbləği), əmələ gəlməsi əsasları və icra müddəti, bu öhdəliyin əsaslan-

dığı müqavilənin tərəfləri, bağlandığı yer, tarix, həmçinin qanunla müəyyən edilmiş imperativ normalar nəzərə alınmaqla ipoteka saxlayanın tələbinin ipoteka predmeti hesabına yönəldilməsi barədə şərtlər, ipoteka predmetinin satış üsulu, ipoteka predmetinin ilkin satış qiyməti və ya bu qiyməti müəyyən edəcək müstəqil qiymətləndiricilər, ipoteka predmeti açıq bazarda satılarkən satışı həyata keçirməli şəxs və ipoteka predmetinin satılmasından əldə olunacaq gəlirlərin bölüşdürülməsi qaydası və növbəliliyi, ipoteka qoyanın elektron poçt ünvanı (maddə 307)

1436. İpoteka müqaviləsində ipotekanın predmeti olan əşya ilə bağlı hansı məlumatlar qeyd olunmalıdır?

Əşyanın hansı hüquqa əsasən ipoteka verənə mənsub olduğu və ipoteka verənin bu hüququnu qeydə almış dövlət orqanı

1437. Əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində bununla bağlı nə göstərilməlidir?

Onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri

1438. Əgər ipoteka ilə təmin edilən öhdəlik hissə-hissə icra olunmalıdırsa, ipoteka müqaviləsində bununla bağlı hansı məsələlər göstərilməlidir?

Müvafiq ödənişlərin müddətləri və ya dövriliyi, onların məbləğləri və ya bu məbləğləri müəyyənləşdirməyə imkan verən şərtlər

1439. İpoteka müqaviləsi hansı formada bağlanmalıdır?

İpoteka verən və ipoteka saxlayan tərəfindən, habelə ipoteka verən borclu deyilsə, borclu tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə yazılı formada

1440. İpoteka müqaviləsi hansı qaydada təsdiqlənməlidir?

Notariat qaydasında

1441. Ümumi ipoteka necə xarakterizə olunur?

O, elə ipotekadır ki, onun predmeti bir neçə əşyadır və ümumi tələbin ödənilməsi üçün əşyaların hər birindən istifadə edilir. Kreditorun tələbi onun arzusu ilə istənilən əşya hesabına ödənilə bilər (maddə 308).

1442. Mülkiyyətçinin ipotekasının mahiyyəti nədir?

O deməkdir ki, təmin edilməsi üçün ipotekanın mövcud olduğu tələb əmələ gəlmir, ona xitam verilir və ya həmin tələb əşyanın mülkiyyətçisinə keçdikdə ipoteka da ona keçir. Bu halda digər hüquqların növbəliliyi dəyişmir.

1443. Daşınmaz və daşınar əmlakın ipotekası hansı qaydada qeydə alınmalıdır?

Daşınmaz əmlakın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində, daşınar əmlakın ipotekası haqqında müqavilə isə dövlət qeydiyyatına alınmalı olan daşınar əmlakın rəsmi reyestrində qeydə alınmalıdır (maddə 309).

1444. İpoteka və tələb yeni kreditora hansı həcmdə keçir?

Köhnə kreditorda olduğu kimi

1445. Daşınmaz əmlakın dövlət reyestrində hansı məlumatların qeydiyyatı düzgün hesab edilir? Bu halda borclu nəyə istinad edə bilməz?

Kreditorun maraqlarına cavab verən məlumatların qeydiyyatı düzgün hesab edilir. Bu halda borclu tələbin mövcud olmamasına istinad edə bilməz.

1446. Hansı halda adıçəkilən qayda tətbiq edilmir?

Əgər yeni kreditor reyestrdəki yazıların düzgün olmadığını bilirdisə

1447. Eyni bir əşya ipoteka ilə bir neçə dəfə yüklü edilə bilərmi?

Bəli (maddə 310).

1448. Yüklü edilmənin növbəliliyi hansı qaydada müəyyənləşdirilir?

İpotekanın dövlət qeydiyyatı anı ilə

1449. Əşyanın mülkiyyətçisi nə zaman kreditoru təmin edə bilər?

Tələbin icra müddəti çatdıqda (maddə 311)

1450. Tələbin icra müddəti çatdıqda kreditoru daha kim təmin edə bilər?

Şəxsi borclu

1451. Əgər mülkiyyətçi şəxsi borclu deyildirsə, tələb ona nə zaman keçir?

Mülkiyyətçinin kreditoru təmin etdiyi vaxt

1452. Kreditoru təmin edərkən mülkiyyətçi nəyi tələb edə bilər?

Daşınmaz əmlakın dövlət reyestrinə və ya daşınar əmlakın digər rəsmi reyestrinə müvafiq qeydlərin yazılması üçün zəruri olan sənədləri və ipotekaya xitam verilməsini

1453. Əgər şəraitin pisləşməsi nəticəsində ipoteka üçün təhlükə yaranırsa, ipoteka saxlayanın nəyə ixtiyarı var?

Bu təhlükəni aradan qaldırmaq üçün ipoteka verənə müvafiq müddət təyin etməyə (maddə 312).

1454. Əgər əşya sığortalanmışsa, şərait pisləşdikdən sonra sığorta təşkilatı sığortalıya sığorta məbləğini nə zaman ödəyə bilər?

Yalnız zərərin baş verməsi faktının ipoteka saxlayana bildirildiyi vaxt

1455. Əgər ipoteka saxlayan məbləğdən əşyanın bərpası üçün istifadə olunmayacağından ehtiyat edirsə, hansı hüquqa malikdir?

O, məbləğin ödənilməsinə mane ola bilər.

1456. Əgər ipoteka verənin öz vəzifələrini icra edə bilmədiyi aşkar olarsa, ipoteka saxlayan nəyi tələb edə bilər?

Əşyanın ona verilməsini

1457. Bu tələb üzrə qərar hansı qaydada qəbul edilir?

Məhkəmə qaydasında

1458. İpoteka verənin ipoteka saxlayan qarşısında hansı razılaşması etibarsızdır?

Öz üzərinə əşyanı özgəninkiləşdirməmək, əşyadan istifadə etməmək və ya onu digər şəkildə yüklü etməmək öhdəliyini götürməsini nəzərdə tutan razılaşma

1459. Bu cür əqdlərin üçüncü şəxslər üçün etibarlığı nədən asılı ola bilməz?

İpoteka saxlayanların razılığından

1460. İpoteka və onun əsasında duran tələb başqa şəxsə hansı formada verilə bilər?

Yalnız eyni vaxtda və birlikdə (maddə 313)

1461. Tələb yeni ipoteka saxlayana verildikdə ipoteka da ona keçirmi?

Bəli.

1462. Tələbin verilməsi hansı şərtlə etibarlı sayılır?

Yalnız o şərtlə etibarlı sayılır ki, ipoteka qoyulması haqqında notariat qaydasında təsdiqlənmiş sənəd yeni ipoteka saxlayana verilsin və daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınsın.

1463. İpoteka və tələb yeni ipoteka saxlayana hansı qaydada keçir?

Köhnə ipoteka saxlayan üçün olduğu qaydada (maddə 314)

1464. Daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınmış məlumatlar ipoteka saxlayanın mənafeləri əsas götürülməklə düzgün hesab edilir. Bu halda ipoteka verən nəyə istinad edə bilməz?

Tələbin mövcud olmadığına

1465. Hansı halda adıçəkilən qayda tətbiq edilmir?

Əgər yeni ipoteka saxlayan reyestrdəki yanlış qeydlərdən xəbərdar olmuşdursa

1466. İpotekanın reallaşdırılması nəticəsində vəziyyəti pisləşmiş hər hansı üçüncü şəxsin nəyə ixtiyarı var?

Tələbi icra etmək və bu yolla ipotekanı özünə keçirmək ixtiyarı (maddə 315)

1467. İpoteka saxlayan təmin edilərkən bu şəxs nəyi tələb edə bilər?

Müvafiq surətdə təsdiqlənmiş sənədləri və özünün ipoteka saxlayan kimi qeydə alınmasını

1468. Əgər şəxsi borclu ipoteka saxlayanı təmin edirsə, bu, nə ilə nəticələnir?

İpoteka ona keçir. Bu zaman o, mülkiyyətçidən əvəz verməyi tələb edə bilər.

1469. Hansı halda kreditor mülkiyyətçiyə çevrilir?

Əgər ipoteka saxlayan tələbdən və ya ipotekadan imtina edirsə (maddə 316)

1470. İmtina hansı şərtlə hüquqi qüvvəyə malik olur?

O şərtlə hüquqi qüvvəyə malik olur ki, daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınsın.

1471. Borclu təminat vasitəsi ipoteka olan əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, ipoteka saxlayan nəyi tələb edə bilər?

Daşınmaz əşyanın satılmasını (maddə 317)

1472. Satış hansı qaydada həyata keçirilir?

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

1473. Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa, ipoteka verilməsi xərclərini kim çəkir?

Borclu (maddə 318).

1474. Əgər əşya ipoteka ilə yüklü edilmişsə və əgər ipoteka verildikdən sonra mülkiyyətçi ipotekada dəyişikliklər və ya əlavələr etmişsə və bu zaman onları da tələbin təminatı kimi verməyə borclu deyilsə, o, hansı hüquqa malikdir?

Həmin dəyişiklikləri və əlavələri geri götürərək əşyanın əvvəlki vəziyyətini bərpa edə bilər.

1475. Daşınmaz əşyanın dəyərinin azalması üçün məsuliyyət kimin üzərinə düşür?

Mülkiyyətçinin

1476. Əgər borclu icrasını təmin etmək üçün əşyanın ipotekaya verildiyi öhdəliklərin yerinə yetirilməsini gecikdirmişsə, ipoteka saxlayan hansı hüquqa malikdir?

İpoteka ilə yüklü edilmiş obyekti açıq hərracdan satmaq hüququna (maddə 319)

1477. Borclunun ipoteka ilə təmin olunmuş öhdəliklərini yerinə yetirmədiyi və ya yerinə yetirilməsini gecikdirdiyi hallarda hansı razılaşma etibarsızdır?

Daşınmaz əmlaka mülkiyyət hüququnun bilavasitə kreditora keçməsi barədə razılaşma

1478. İpoteka ilə təmin edilən tələb icra edilmədikdə, ipoteka saxlayan və borclu ipoteka tələbi təmin edilən anda satışın açıq hərracdan fərqli olan başqa formaları barədə razılığa gələ bilərlərmi?

Bəli.

1479. Bu razılıqda daha nə nəzərdə tutula bilər?

Nəzərdə tutula bilər ki, ipoteka predmeti borclunun borclarının tam hesablanması şərtilə bazar qiymətinə satılsın və (və ya) satış zamanı ipoteka predmeti olmuş mənzili (yaşayış sahəsini) əldə edən şəxs qarşısında gələcəkdə borcluya və onun ailə üzvlərinə həmin mənzilin (yaşayış sahəsinin) kirayəçisi olmaq hüququ verən şərt qoyulsun.

1480. İpoteka ilə yüklü edilmiş obyektin tutmaya yönəldilməsi xərcləri hansı qaydada tutulur?

Satınalma qiymətindən tutulur.

1481. Açıq hərracdan satışa çıxarılan ipoteka predmetinin ilkin satış qiyməti hansı qaydada müəyyən edilir?

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

1482. Hansı halda təkrar hərrac keçirilir?

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda hərrac baş tutmamış elan edildikdə

1483. Təkrar hərrac hansı qaydada elan edilməli və keçirilməlidir?

Birinci hərracın formasında elan edilməli və həmin qaydada keçirilməlidir.

1484. Təkrar hərracın təşkilatçısı hansı şərtlə ipoteka predmetini ilkin satış qiyməti ilə, təkrar hərracın birinci hərracın iştirakçısı olmadığı səbəbindən keçirildiyi halda isə ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxara bilər?

O şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hərracın keçirilməsi xərclərinin və hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini açıq hərracdan satan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun.

1485. Hərrac üzrə xərclər kimin üzərinə qoyulur?

Mülkiyyətçinin.

1486. İpoteka predmetinin satışından götürülən məbləğ ipoteka saxlayanın tələbinin ödənilməsi üçün yetərli deyildirsə, o, çatışmayan məbləğlə bağlı hansı hüquqa malikdir?

Əgər ipoteka müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, borclunun başqa əmlakından almaq hüququna malikdir.

1487. Bu halda (ipoteka predmetinin satışından götürülən məbləğ ipoteka saxlayanın tələbinin ödənilməsi üçün yetərli deyildirsə və ipoteka saxlayan borclunun başqa əmlakından almaq hüququndan istifadə edirsə) ipoteka saxlayanın ipotekaya əsaslanan üstünlük hüququ varmı?

Xeyr.

1488. Əgər bir neçə ipoteka saxlayan varsa, ipoteka ilə yüklü edilmiş obyektin satışından götürülmüş xalis gəlirdən ipoteka saxlayanların tələbləri hansı formada ödənilir?

Onların hüquqlarının qeydiyyat növbəliliyinə uyğun (maddə 320)

1489. Əgər növbəlilik və ya ixtiyarlı şəxslərdən hər birinə mənsub məbləğ mübahisəlidirsə, nə vaxta qədər ödəniş həyata keçirilmir?

Onların növbəliliyi və ya ipoteka saxlayanlardan hər birinə çatası məbləğ müəyyənləşdirilənə qədər

1490. Qalıq kimə ödənilir?

Satılmış əşyanın mülkiyyətçisinə

1491. Torpaq sahəsi hansı formalarda yüklü edilə bilər?

Elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən pul məbləği (ipoteka borcu) ödənilməli olar. Yüklülük elə şəkildə də müəyyənləşdirilə bilər ki, pul məbləği üzrə faizlər ödənilməli olar, habelə daşınmaz əmlak üzrə digər əlavə öhdəliklər icra edilməli olar (maddə 321).

1492. İpoteka borcuna müvafiq surətdə ipoteka haqqında göstərişlər hansı şərtlə tətbiq edilir?

Onlardan ipoteka borcunun arxasında tələblərin ehtimal olunduğunun irəli gəlməməsi şərti ilə

1493. İpoteka ipoteka borcuna, o isə ipotekaya keçirilə bilərmi?

Tərəflərin razılaşması ilə, bəli.

1494. Renta borcu verilərkən daha hansı məbləğ müəyyənləşdirilməlidir?

Onun satın alınmasını mümkün edən məbləğ (maddə 322)

1495. Satınalma məbləği hansı qaydada göstərilməlidir?

Daşınmaz əmlakın dövlət reyestrində

1496. Daşınmaz əmlakın mülkiyyətçisi ipoteka saxlayana hansı tələbi irəli sürə bilər?

Yalnız şəxsi borcluya məxsus olan qarşılıqlı tələb irəli sürə bilər; xüsusi olaraq bu, pul öhdəliklərinin əvəzləşdirilməsi və tələbdən şikayətin verilməsi ilə bağlı qarşılıqlı tələblərdir (maddə 323-1).

1497. Adıçəkilən qayda daha hansı hala aiddir?

Mülkiyyətçinin ipoteka saxlayanın şəxsi borclusu olduğu hala da

13-cü FƏSİL
Əqdlər haqqında ümumi müddəalarla bağlı suallar və cavablar

1498. Əqdin mahiyyəti nədən ibarətdir?

Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir (maddə 324).

1499. Əqdlər hansı formalarda ola bilər?

Birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli)

1500. Hansı əqd birtərəfli əqddir?

MM-ə və ya tərəflərin razılaşmasına uyğun olaraq bağlanması üçün bir tərəfin iradə ifadəsinin zəruri və yetərli olduğu əqd

1501. Müqavilənin bağlanması üçün nə zəruridir?

İki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd)

1502. İradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu hansı qaydada müəyyənləşdirilməlidir?

Təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında

1503. Hansı halda əqd mövcud deyildir?

Əgər nə zahiri ifadəyə görə, nə də başqa hallara görə iradənin məzmunu dəqiq müəyyənləşdirilə bilmirsə

1504. Başqa tərəfin qəbul etməsi tələb olunan iradə ifadəsi hansı andan etibarlı olur?

Başqa tərəfə çatdığı andan (maddə 325)

1505. Əqdi bağlamış şəxsin ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi nə zaman baş verərsə, iradə ifadəsinin etibarlığına təsir göstərməyə bilər?

İradə ifadəsindən sonra

1506. Birtərəfli əqd kimin üçün vəzifələr yaradır?

Onu bağlamış şəxs üçün (maddə 326)

1507. Əqd başqa şəxslər üçün hansı halda vəzifələr yarada bilər?

Yalnız MM-də və ya həmin şəxslərlə razılaşmada müəyyənləşdirilmiş hallarda

1508. Birtərəfli əqdlərə öhdəliklər və ya müqavilələr haqqında ümumi müddəalar hansı halda tətbiq edilir?

O halda tətbiq edilir ki, bu, MM-ə, əqdin birtərəfli xarakterinə və mahiyyətinə zidd gəlməsin (maddə 327).

1509. Hansı halda əqd şərtlə bağlanmış sayılır?

Əgər tərəflər hüquq və vəzifələrin əmələ gəlməsini baş verib-verməyəcəyi məlum olmayan hallardan asılı etmişlərsə (maddə 328)

1510. Hansı şərt etibarsızdır və belə şərtdən asılı olan əqd tamamilə etibarsızdır?

MM-in müəyyənləşdirdiyi tələblərə zidd olan, yaxud icrası mümkün olmayan şərt

1511. Tərəflərin iradəsindən asılı olan şərt, yəni baş verməsi və ya baş verməməsi yalnız tərəflərin əqddəki arzusundan asılı olan şərt və belə şərtlə bağlanmış əqd hansı statusa malikdir?

Etibarsızdır.

1512. Pozitiv şərt nə deməkdir?

O deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verəcəyi şərtlə bağlanmışdır. Əgər həmin müddət bitmiş və hadisə baş verməmişsə, şərt qüvvədən düşmüş sayılır.

1513. Əgər müddət müəyyənləşdirilməyibsə, pozitiv şərt nə zaman yerinə yetirilə bilər?

İstənilən vaxt

1514. Hadisənin baş verməsinin mümkünsüzlüyü aydın olduqda pozitiv şərt qüvvədən düşmüş sayıla bilərmi?

Bəli.

1515. Neqativ şərt nə deməkdir?

O deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verməyəcəyi şərti ilə bağlanmışdır. Əgər həmin müddət bitənədək hadisə baş verməzsə və ya həmin hadisənin baş verməsinin mümkünsüzlüyü müddət bitənədək aydın olarsa, şərt yerinə yetirilmiş sayılır.

1516. Əgər müddət müəyyənləşdirilməyibsə, neqativ şərt nə zaman yerinə yetirilmiş sayılır?

Yalnız hadisənin baş verməyəcəyinin aydın olduğu vaxt

1517. Hansı halda əqd təxirəsalıcı şərtlə bağlanmış sayılır?

Əqddə nəzərdə tutulan hüquq və vəzifələrin əmələ gəlməsi gələcəkdə gözlənilən və ya naməlum hadisədən və ya artıq baş versə də, hələlik tərəflərə bəlli olmayan hadisədən asılı olduqda

1518. Hansı əqd ləğvedici şərtlə bağlanmış sayılır?

O əqd ləğvedici şərtlə bağlanmış sayılır ki, həmin şərtin baş verməsi əqdin xitamına səbəb olur və əqd bağlananadək mövcud olmuş vəziyyəti bərpa edir.

1519. Müəyyən şərtlə bağlanmış əqddə əgər şərt müəyyən müddətdə baş verərsə və şəxs həmin hərəkəti icra etmiş olarsa, o, hansı öhdəliyi daşıyır?

Bu hərəkət nəticəsində əmələ gəlmiş ziyanın əvəzini digər tərəfə ödəməlidir.

1520. Şərtin baş verməsinin sərfəli olmadığı tərəf şərtin baş verməsinə vicdansızcasına maneçilik törədərsə, şərt baş vermiş sayılırmı?

Bəli.

1521. Şərtin baş verməsinin sərfəli olduğu tərəf şərtin baş verməsinə vicdansızcasına kömək göstərdikdə şərt baş vermiş sayılırmı?

Xeyr.

1522. Əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanılmış əqd hansı statusa malikdir?

Etibarsızdır (maddə 329).

1523. Əqdlər hansı formada bağlanır?

Şifahi və ya yazılı (sadə və ya notarial)

1524. Şifahi bağlana bilən əqd hansı halda bağlanmış sayılır?

O halda bağlanmış sayılır ki, şəxsin əqdi bağlamaq iradəsi onun rəftarından məlum olur.

1525. Susmaq MM-də və ya tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda nəyin ifadəsi sayılır?

Əqdi bağlamaq iradəsinin ifadəsi

1526. Əqd hansı qaydada bağlanmalıdır?

Onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə. Əqd onun məzmununu dəyişilməz formada maddi daşıyıcıda əks etdirməyə imkan verən elektron və ya digər texniki vasitələrin köməyi ilə bağlanıldıqda da yazılı formaya riayət edilmiş hesab edilir və bu halda iradəsini ifadə edən şəxsi dürüst müəyyən etməyə imkan verən hər hansı üsuldan istifadə olunmuşdursa, imza tələbi yerinə yetirilmiş hesab edilir. Qanunla, digər hüquqi aktlarla və ya tərəflərin razılaşması ilə şəxsi dəqiq müəyyən etməyə imkan verən xüsusi üsul (üsullar) müəyyənləşdirilə bilər (maddə 331).

1527. Əqdlərin bağlanması zamanı mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə edilməsinə hansı hallarda və qaydada yol verilir?

Qanunda, digər hüquqi aktlarda və ya tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda və qaydada

1528. Əgər fiziki şəxs fiziki çatışmazlıq, xəstəliyinə və ya savadsızlığına görə əqdi özü imzalaya bilmirsə, əqdi başqa fiziki şəxs imzalaya bilərmi?

Şəxsin xahişi ilə edə bilər.

1529. Başqa fiziki şəxsin imzası hansı qaydada təsdiqlənməlidir?

Əqdi bağlayanın özünün imzalaya bilməməsinin səbəbləri göstərilməklə, notarius tərəfindən və ya bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxs tərəfindən

1530. Əqdlərin elektron ticarət zamanı bağlanılması və elektron imza ilə təsdiq edilməsi ilə bağlı məsələlər hansı qanunvericiliklə tənzimlənir?

Elektron ticarət haqqında və elektron sənəd dövriyyəsinə dair Azərbaycan Respublikasının qanunvericiliyi ilə

1531. Əqdin notariat qaydasında təsdiqlənməsi hansı qaydada həyat keçirilir?

MM-in 331-ci maddəsinin (yazılı əqd) tələblərinə uyğun gələn sənəddə notariusun və ya bu cür notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi yolu ilə (maddə 334)

1532. Əqdin notarial təsdiqlənməsi qaydası hansı qanunla müəyyənləşdirilir?

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

1533. Əgər tərəflərdən biri əqddən əmələ gələn hüququn dövlət qeydiyyatına alınmasından boyun qaçırırsa, onda qeydiyyat hansı qaydada həyata keçirilir?

Digər tərəfin ərizəsi ilə məhkəmənin qərarı əsasında (maddə 336)

14-cü FƏSİL
Əqdlərin etibarsızlığı barədə suallar və cavablar

1534. Hansı əqd etibarsızdır?
MM-də müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd (maddə 337)

1535. Etibarsız əqdlər hansı formalarda ola bilər?
Mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər formasında

1536. Əqd barəsində mübahisə edildikdə əqd nə vaxtdan etibarən etibarsızdır?
Bağlandığı andan

1537. Müqavilənin mübahisə edilməsi hansı qaydada həyata keçirilir?
Müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə münasibətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir.

1538. Əhəmiyyətsiz əqd hansı əqd hesab olunur?
Məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir.

1539. Etibarsız əqd hüquqi nəticələrə səbəb olurmu?
Onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, xeyr.

1540. Bu cür əqd nə vaxtdan etibarən etibarsızdır?
Bağlandığı andan

1541. Əqd etibarsız olduqda, əgər MM-də onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflər hansı öhdəliyi daşıyırlar?
Tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmağa, alınanları eynilə qaytarmaq mümkün olmadıqda isə (o cümlədən, alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunduqda) onun dəyərini pulla ödəməlidir.

1542. Hansı növ əqdlər zərərçəkən tərəfindən mübahisələndirilə bilər?
Hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış, yaxud MM-in 49.4-cü maddəsində müəyyən edilmiş hallara, yəni hüquqi şəxs adından çıxış edən şəxsin, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxsin hüquqi şəxsə və ya səhmdara (payçıya) dəyən zərərə görə məsuliyyət daşımasına səbəb olan əqd, habelə şəxsin ağır vəziyyətə düşməsi və digər tərəfin bundan istifadə etməsi nəticəsində həmin şəxsin özü üçün son dərəcə əlverişsiz şərtlərlə bağlamağa məcbur olduğu əqd (ağır şərtli əqd) (maddə 339)

1543. Şəxs əqd bağlanması məqsədilə aldadıldıqda həmin əqdi mübahisələndirə bilər. Belə mübahisələndirmə hansı hallarda həyata keçirilir?
Əqdin aldatma olmadan bağlana bilməyəcəyinin aşkar olduğu hallarda

1544. Susulan hallar barəsində məlumat vermək vəzifəsi nə zaman ola bilər?
Yalnız o zaman ola bilər ki, digər tərəf vicdanla bunu gözləsin.

1545. Aldatma yolu ilə bağlanmış əqdin mübahisələndirilməsi üçün tərəfin yanlış məlumat verərkən fayda götürmək məqsədini, yaxud digər tərəfə zərər vurmaq məqsədini güdmüş olduğunun nə kimi əhəmiyyəti var?
Əhəmiyyəti yoxdur.

1546. Üçüncü şəxs tərəfindən aldadılma halında əqd nə zaman mübahisələndirilə bilər?
Əgər bu əqddən fayda götürən şəxs aldatmadan xəbərdar idisə və ya xəbərdar olmalı idisə

1547. Hansı halda tərəflərdən heç birinin ixtiyarı yoxdur ki, aldadıldığına istinad edərək əqdi mübahisələndirsin və ya zərərin əvəzinin ödənilməsini tələb etsin?
Əgər hər iki tərəf aldatma yolu ilə hərəkət etmişsə

1548. Əqdi bağlayan şəxsi əqdi bağlamağa məcburetmə (zorakılıq və ya hədələmə) ona hansı hüququ verir?
Hüquq verir ki, zorakılığın üçüncü şəxs tərəfindən törədildiyi halda da əqdi mübahisələndirsin.

1549. Xaraktercə şəxsə təsir göstərə bilən və ona şəxsən özünü və ya əmlakını real təhlükə gözlədiyini təlqin edə bilən məcburetmə nəyə səbəb olur?
Əqdin etibarsızlığına

1550. Məcburetmənin xarakteri qiymətləndirilərkən hansı hallar nəzərə alınır?
Şəxsin yaşı və cinsi, həyat şəraiti

1551. Məcburetmə tərəflərdən birinin arvadına (ərinə), digər ailə üzvlərinə və ya yaxın qohumlarına qarşı yönəldildikdə də əqdin mübahisələndirilməsinə əsas verirmi?
Bəli.

1552. Hansı hərəkətlər məcburetmə sayılmır?
Məcburetmənin məqsədi ilə vasitələrinin bir-birinə uyğun gəlmədiyi hallardan başqa, nə qanuna zidd məqsədlərlə, nə də qanuna zidd vasitələr tətbiq edilməklə həyata keçirilməyən hərəkətlər

1553. Əgər 339.1, 339.2 və 339.4-cü maddələrdə göstərilən əsaslardan biri üzrə əqd etibarsız sayılmışdırsa, MM-in hansı qaydaları tətbiq edilir?
337.5-ci maddənin qaydaları. Həmin maddəyə əsasən, əqd etibarsız olduqda, əgər bu Məcəllədə onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmağa, alınanları eynilə qaytarmaq mümkün olmadıqda isə (o cümlədən alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunduqda) onun dəyərini pulla ödəməlidir.

1554. MM-in 339.1-339.4-cü maddələrində göstərilən əsaslar (hakimiyyətdən sui-istifadə nəticəsində, aldatma, zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdlər) üzrə əqd etibarsız sayıla bilərmi?

Zərərçəkənin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.

1555. Uydurma əqdin mahiyyəti nədən ibarətdir?

Bu əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir (maddə 340).

1556. Yalan əqdin mahiyyəti nədən ibarətdir?

Bu əqd başqa əqdi pərdələmək məqsədilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir.

1557. Yalan əqdə hansı qaydalar tətbiq edilir?

Onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar

1558. Qeyri-ciddiliyin seziləcəyi ümidi ilə qeyri-ciddi (zarafatla) edilmiş iradə ifadəsi etibarlı hesab olunurmu?

Xeyr (maddə 341).

1559. Qeyri-ciddi əqd nəticəsində digər tərəfə zərər dəydikdə, hansı halda zərərin əvəzi ödənilməlidir?

Əgər digər tərəf əqdin qeyri-ciddiliyindən xəbərdar olmamışdırsa və xəbərdar ola bilməzdisə

1560. Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd etibarsızdır. Belə əqdin tərəflərindən hər biri hansı öhdəliyi daşıyır?

Aldıqlarının hamısını digər tərəfə eynilə qaytarmalı, alınanları eynilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla ödəməlidir (maddə 342).

1561. Hansı halda fəaliyyət qabiliyyətli tərəf dəymiş real zərərin əvəzini də ödəməlidir?

Əgər fəaliyyət qabiliyyətli tərəf digər tərəfin fəaliyyət qabiliyyəti olmadığını bilirdisə və ya bilməli idisə

1562. Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd hansı halda etibarlı sayıla bilər?

Onun xeyrinə olduqda qəyyumunun razılığı ilə

1563. Spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxsin hansı əqdi himayəçinin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər?

Öz himayəçisindən razılıq almadan əmlaka dair sərəncam verilməsi barədə bağladığı əqd (maddə 343)

1564. 343-cü maddənin (fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin bağladığı əqdin etibarsızlığı) qaydaları hansı əqdlərə şamil edilmir?

Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin müstəqil bağlamağa hüququ çatan xırda məişət əqdlərinə

1565. Yetkinlik yaşına çatmayanın (azyaşlının) bağladığı əqd nə zaman etibarsızdır?

MM-in 29-cu maddəsində nəzərdə tutulmuş hallar (14 yaşınadək olan yetkinlik yaşına çatmayanların bağlaya bildiyi əqdlər) istisna olmaqla, əgər yetkinlik yaşına çatmayanın (azyaşlının) on dörd yaşı tamam olmamışdırsa (maddə 344)

1566. Neçə yaşında olan yetkinlik yaşına çatmayanın MM-in tələblərinə görə valideynlərindən, övladlığa götürənlərdən və ya himayəçidən razılıq almasının tələb edildiyi hallarda onlardan razılıq almadan bağladığı əqd etibarsızdır?

On dörd yaşından on səkkiz yaşınadək (maddə 345)

1567. 345-ci maddənin qaydaları hansı əqdlərə şamil edilmir?

MM-in qaydalarına müvafiq surətdə tam fəaliyyət qabiliyyətli olmuş yetkinlik yaşına çatmayanların əqdlərinə

1568. Fəaliyyət qabiliyyətli olsa da, əqd bağlandığı zaman öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə fiziki şəxsin bağladığı əqd kimlərin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər?

Onun özünün və ya əqd bağlanması nəticəsində hüquqları və ya qanunla qorunan mənafeləri pozulmuş digər şəxslərin iddiası ilə (maddə 346)

1569. Sonradan fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsin bağladığı əqd hansı halda onun qəyyumunun iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər?

Əgər əqdin bağlandığı zaman fiziki şəxsin öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi sübuta yetirilərsə

1570. Şüurun itməsi və ya müvəqqəti psixi pozuntu zamanı edilmiş iradə ifadəsi etibarsız sayıla bilərmi?

Bəli.

1571. Ruhi xəstə şəxsin iradə ifadəsi hansı halda etibarsızdır?

Real şəraitin düzgün qavranışına uyğun gəlmədikdə və şəxs məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıldıqda

1572. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd kimin tərəfindən mübahisələndirilə bilər?

Belə yanılmanın təsiri altında hərəkət etmiş şəxs tərəfindən (maddə 347)

1573. Vacib əhəmiyyətli yanılma hansı hallardır?

- Şəxs razılıq verdiyi əqdi deyil, başqa əqdi bağlamaq istəmişdir;
- şəxs bağlamağı arzuladığı əqdin məzmunu barəsində səhv etmişdir;
- tərəflərin vicdanlılıq prinsipini rəhbər tutmaqla əqdin əsası kimi nəzərdən keçirdikləri hallar mövcud deyildir.

1574. Əqdin motivləri barəsində yanılma, hansı hallar istisna edilməklə, vacib əhəmiyyətə malik deyildir?

Onun razılaşma predmeti olduğu hallar

1575. Kontragentin şəxsiyyəti barəsində yanılma nə zaman vacib sayılır?

O zaman vacib sayılır ki, əqdin bağlanması üçün kontragentin şəxsiyyəti və ya şəxsi keyfiyyətlərinin nəzərə alınması başlıca əsasdır.

1576. Predmetin əsas xüsusiyyətləri barədə yanılma nə zaman vacib sayılır?

O zaman vacib sayılır ki, predmetin dəyərinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edir.

1577. Yazılı əqdlər bağlanarkən buraxılmış xırda səhvlər düzəlişə və mübahisəyə hüquq verirmi?

Düzəlişə hüquq verir, lakin mübahisə etməyə hüquq vermir.

1578. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş tərəf hansı halda özünə dəymiş real zərərin əvəzini ödəməyi digər tərəfdən tələb edə bilər?

Yanılmanın digər tərəfin təqsiri üzündən əmələ gəldiyini sübuta yetirərsə

1579. Bu, sübuta yetirilməsə, vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş tərəf hansı öhdəliyi daşıyır?

Digər tərəfin tələbi ilə ona dəymiş real zərərin əvəzini ödəməyə, hətta yanılmanın yanılan tərəfdən asılı olmayan səbəblərdən əmələ gəldiyi hallarda da borcludur.

1580. Hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı əqd hansı halda həmin hüquqi şəxs və ya onun təsisçisi tərəfindən mübahisələndirilə bilər?

Əgər əqddə iştirak edən digər tərəfin onun qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu sübuta yetirilərsə (maddə 349)

1581. Əgər şəxsin əqd bağlamaq səlahiyyətləri müqavilə ilə və ya hüquqi şəxsin orqanının səlahiyyətləri onun nizamnaməsi ilə etibarnamədə, MM-də müəyyənləşdirilənə və ya əqdin bağlandığı şəraitə görə aşkar sayıla bilənə nisbətən məhdudlaşdırılarsa və əqd bağlanarkən həmin şəxs və ya orqan bu məhdudiyyətlərdən kənara çıxarsa, əqd hansı qaydada mübahisələndirilə bilər?

Yalnız onda iştirak edən digər tərəfin göstərilən məhdudiyyətləri bildiyinin və ya bilməli olduğunun sübuta yetirildiyi hallarda, mənafeləri üçün məhdudiyyətlər qoyulmuş şəxs tərəfindən (maddə 350)

1582. Əhəmiyyətsiz əqd nə vaxtdan etibarən etibarsızdır?

Onun bağlandığı andan (maddə 351)

1583. Əgər əhəmiyyətsiz əqdi bağlamış şəxs onu təsdiq edərsə, onun hərəkətləri necə qiymətləndirilir?

Əqdin yenidən bağlanması kimi

1584. Əgər əqdi onun barəsində mübahisə etmək hüququna malik şəxs təsdiq edirsə, bununla o, hansı hüququnu itirir?

Mübahisə etmək hüququnu

1585. Əgər əhəmiyyətsiz ikitərəfli əqdi hər iki tərəf təsdiq edirsə, şübhələrin olduğu halda onlar nə etməyə borcludurlar?

Əgər əqd lap əvvəldən etibarlı olsaydı, onlara çatası hər şeyi bir-birinə verməyə

1586. Təsdiqetmə nə zaman etibarlı olur?

Yalnız o zaman etibarlı olur ki, müqavilə və ya əqd əxlaq tələblərinə zidd olmasın və üçüncü şəxslərin mənafelərini pozmasın.

1587. Əqdin bir hissəsinin etibarsızlığı onun qalan hissələrinin etibarsızlığına hansı halda səbəb olmur?

O halda səbəb olmur ki, əqd onun etibarsız hissəsi daxil edilmədən də bağlana bilərdi (maddə 352).

1588. Tərəflər əqdin etibarsızlığını bildikdən sonra etibarlı olmasını arzuladıqda, hansı halda başqa əqdin qaydaları tətbiq edilir?

Əgər etibarsız əqd başqa əqd üçün nəzərdə tutulan tələblərə uyğun gəlirsə (maddə 353)

1589. Əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia hansı müddətdə irəli sürülə bilər?

Onun icrasına başlanıldığı gündən bir il ərzində (maddə 354)

1590. MM-in 347.1-ci maddəsində nəzərdə tutulmuş hal (vacib əhəmiyyətli yanılmanın təsiri altında əqd bağlandığı hal) istisna olmaqla, maraqlı şəxs hansı müddətdə əqdi mübahisə edə bilər?

Əqdin bağlanmasına təsir etmiş zorakılığa və ya hədəyə son qoyulduğu gündən və ya əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində

1591. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd hansı müddətdə mübahisə edilə bilər?

Mübahisəyə əsasən məlum olduğu andan bir ay ərzində

15-ci FƏSİL
Əqdlərdə razılıqla bağlı suallar və cavablar

1592. Əgər əqdin etibarlılığı üçüncü şəxsin razılığından asılıdırsa, onda həm razılıq, həm də razılıqdan imtina hansı formada ifadə edilə bilər?

İstər bir tərəfin, istərsə də digər tərəfin qarşısında (maddə 355)

1593. Razılıq üçün müəyyənləşdirilmiş əqd formasına riayət edilməsi tələb olunurmu?

Xeyr.

1594. Əqdin bağlanmasına verilmiş icazə (qabaqcadan verilmiş icazə) nə vaxt ləğv edilə bilər?

Əgər tərəflər ayrı qayda haqqında razılığa gəlməyiblərsə, əqd bağlananadək (maddə 356)

1595. İcazənin (qabaqcadan verilmiş razılığın) ləğv edilməsi barədə kimə məlumat verilməlidir?

Hər iki tərəfə.

1596. Əqdin bağlanmasının bəyənilməsi (sonradan verilən razılıq) hansı andan geriyə təsir qüvvəsinə malikdir?

Əgər MM ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əqdin bağlandığı andan (maddə 357)

1597. Səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi hansı halda etibarlıdır?

Əgər səlahiyyətli şəxsin icazəsi (qabaqcadan verilmiş razılığı) ilə həyata keçirilirsə (maddə 358)

1598. Əşyaya və ya hüquqa dair sərəncam verilməsi hansı halda etibarlı olur?

Əgər səlahiyyətli şəxs bunu bəyənirsə

16-cı FƏSİL
Əqdlərdə təmsilçilik, etibarnamə, etibarnamənin müddəti və s. üzrə suallar və cavablar

1599. Hansı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir?

Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd (maddə 359)

1600. Səlahiyyət təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilərmi?

Bəli.

1601. Kimlər təmsilçi deyillər?

Özgə mənafeyi üçün olsa da, öz adından fəaliyyət göstərən şəxslər (kommersiya vasitəçiləri, müflisləşmə zamanı müsabiqə idarəçiləri, vərəsəlik zamanı vəsiyyət icraçıları və i.a.), habelə gələcəkdə mümkün ola biləcək əqdlər barəsində danışıqlara başlamağa vəkil edilmiş şəxslər

1602. Təmsilçi hansı əqdləri bağlaya bilməz?

Təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O, həmçinin, kommersiya təmsilçiliyi halı və qiymətli kağızlar bazarında investisiya şirkəti fəaliyyəti istisna olmaqla, eyni zamanda təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz.

1603. Hansı əqdlərin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir?

Xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də MM-də göstərilən digər əqdlərin

1604. Əgər başqa şəxsin (təmsil edilənin) adından əqdi bağlayan şəxsin (təmsilçinin) başqa şəxsin (təmsil edilənin) adından hərəkət etmək səlahiyyəti olmazsa və ya bu səlahiyyət aşılarsa, əqdin digər tərəfinin təmsilçidən həmin əqdin icrasını və ya əqdin bağlanması nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardırmı?

O şərtlə ki, başqa şəxs (təmsil edilən) əqdi sonradan bəyənməsin (maddə 360).

1605. Təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün nə vaxdan etibarən əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir?

Əqdin bağlandığı andan

1606. Kim kommersiya təmsilçisi sayılır?

Sahibkarlıq fəaliyyəti sahəsində müqavilələr bağlanarkən sahibkarları daimi və müstəqil surətdə təmsil edən şəxs (maddə 361)

1607. Əqddə müxtəlif tərəflərin eyni vaxtda kommersiya təmsilçiliyinə hansı halda yol verilir?

Həmin tərəflərin razılığı ilə və MM-də nəzərdə tutulan digər hallarda

1608. Kommersiya təmsilçisi şərtləşdirilmiş muzdu və tapşırığın icrası zamanı çəkdiyi xərclərin əvəzini müqavilə tərəflərinin bərabər paylarla ödəməsini hansı şərtlə tələb edə bilər?

Onların arasındakı razılaşmada ayrı qaydanın nəzərdə tutulmaması şərti ilə

1609. Kommersiya təmsilçiliyi hansı əsasla həyata keçirilir?

Yazılı formada bağlanmış və təmsilçinin səlahiyyətlərinin göstərildiyi müqavilə əsasında, belə göstərişlər olmadıqda isə həmçinin etibarnamə əsasında

1610. Kommersiya təmsilçisi ticarət əqdləri barədə ona bəlli olmuş məlumatların sirrini ona verilmiş tapşırığı icra etdikdən sonra da saxlamağa borcludurmu?

Bəli.

1611. Etibarnamənin mahiyyəti nədən ibarətdir?

Bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır (maddə 362).

1612. Təmsil edilən təmsilçinin əqd bağlaması üçün yazılı vəkaləti bilavasitə müvafiq üçüncü şəxsə təqdim edə bilərmi?

Bəli.

1613. Notarial forma tələb edən əqdlərin bağlanması üçün etibarnamə hansı qaydada təsdiqlənməlidir?

Notariat qaydasında

1614. Nələr notariat qaydasında təsdiqlənən etibarnamələrə bərabər tutulur?

- Hospitallarda, sanatoriyalarda və digər hərbi-müalicə müəssisələrində müalicədə olan hərbi qulluqçuların və başqa şəxslərin həmin müəssisənin rəisi, onun tibbi hissə üzrə müavini, böyük və ya növbətçi həkim tərəfindən təsdiqlənmiş etibarnamələri;
- hərbi qulluqçuların etibarnamələri, hərbi hissələrin, birləşmələrin, idarələrin və hərbi təlim məktəblərinin yerləşdiyi, lakin notariat ofislərinin və notariat əməliyyatları aparan digər orqanların olmadığı məntəqələrdə isə həmçinin fəhlə və qulluqçuların, onların ailə üzvlərinin və hərbi qulluqçuların ailə üzvlərinin bu hissənin, birləşmənin, idarənin və ya məktəbin komandiri (rəisi) tərəfindən təsdiqlənmiş etibarnamələri;
- azadlıqdan məhrumetmə yerlərində olan şəxslərin müvafiq azadlıqdan məhrumetmə yerinin rəisi tərəfindən təsdiqlənmiş etibarnamələri.

1615. Əmək haqqının və əmək münasibətləri ilə bağlı digər haqların, müəlliflərin və ixtiraçıların haqlarının, pensiyaların, müavinətlərin və təqaüdlərin, fiziki şəxslərin banklardakı əmanətlərinin və poçt göndərmələrinin, o cümlədən pul və bağlamaların alınması üçün etibarnamə hansı qaydada təsdiqlənə bilər?

Etibar edənin işlədiyi və ya təhsil aldığı təşkilat, onun yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı və müalicə olunduğu stasionar müalicə müəssisəsinin müdiriyyəti, sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslərə münasibətdə isə həmin müəssisələrin müdiriyyəti tərəfindən

1616. Hüquqi şəxs adından etibarnamə hansı formada verilir?

Onun rəhbərinin və ya nizamnaməsi ilə buna vəkil edilmiş digər şəxsin imzası ilə, həmin təşkilatın möhürü vurulmaqla

1617. Teleqrafla, habelə sənədin rabitə işçisi tərəfindən yola salındığı digər rabitə növləri ilə göndərilən etibarnamə kimin tərəfindən təsdiqlənir?

Rabitə orqanları tərəfindən

1618. Etibarnamə hansı müddətə verilə bilər?

MM-in 363.3-cü maddəsində nəzərdə tutulmuş hal (etibarnamənin nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutduğu hal) istisna olmaqla, istənilən müddətə (maddə 363)

1619. Əgər etibarnamədə müddət göstərilməyibsə, o, hansı müddətdə qüvvəsini saxlayır?

Bağlandığı gündən bir il ərzində

1620. Bağlandığı tarix göstərilməyən etibarnamə hansı hüquqi nəticə yaradır?

O, əhəmiyyətsizdir.

1621. Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə hansı müddətədək qüvvəsini saxlayır?

Notarius tərəfindən təsdiqləndikdə etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək

1622. Nəqliyyat vasitəsinə dair sərəncamvermə hüququnu nəzərdə tutan etibarnamə hansı müddətdən artıq verilə bilməz?

Bir ildən artıq olmayan müddətə

1623. Etibarnamə verilmiş şəxs vəkil edildiyi hərəkətləri şəxsən özü etməlidir. O, hansı halda həmin hərəkətlərin icrasını başqa şəxsə etibar edə bilər?

Etibarnamə ilə buna vəkil edildikdə və ya etibarnaməni verənin mənafelərinin qorunması üçün şəraitin buna məcbur etdiyi halda (maddə 364)

1624. Səlahiyyətləri başqa şəxsə verən bunu etibarnaməni verənə bildirməli və səlahiyyətləri verdiyi şəxs barəsində ona lazımi məlumat verməlidir. Bu vəzifənin icra edilməməsi səlahiyyəti verənin üzərinə hansı məsuliyyət qoyur?

Səlahiyyətləri verdiyi şəxsin hərəkətlərinə görə öz hərəkətləri üçün olduğu kimi məsuliyyət qoyur.

1625. Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamənin qüvvədə olma müddəti hansı müddətdən artıq ola bilməz?

Onun verilməsi üçün əsas götürülmüş etibarnamənin qüvvədə olma müddətindən

1626. Etibarnamənin qüvvəsinə hansı hallar nəticəsində xitam verilir?

- Etibarnamənin müddətinin bitməsi;
- etibarnamədə nəzərdə tutulan hərəkətlərin həyata keçirilməsi;
- etibarnaməni vermiş şəxs tərəfindən onun ləğv edilməsi;
- etibarnamə verilmiş şəxsin imtinası;

- adından etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;
- adına etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;
- etibarnaməni vermiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması;
- etibarnamə verilmiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması (maddə 365).

1627. Etibarnamə vermiş şəxs etibarnaməni və ya başqasına etibaretməni nə zaman ləğv edə bilər, etibarnamə verilmiş şəxs ondan nə vaxt imtina edə bilər?
İstənilən vaxt.

1628. Etibarnamə vermiş və sonradan onu ləğv etmiş şəxs bu barədə kimləri xəbərdar etməyə borcludur?
Etibarnamə verilmiş şəxsi, habelə etibarnaməni qarşılarında təmsil edilmək üçün verdiyi ona məlum üçüncü şəxsləri

1629. MM-in 365.1.5 (adından etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi) və 365.1.7-ci (etibarnaməni vermiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması) maddələrində nəzərdə tutulan əsaslara görə etibarnaməyə xitam verildiyi hallarda kimlərin üzərinə də eynilə bu cür vəzifə qoyulur?
Etibarnaməni vermiş şəxsin hüquq varisləri üzərinə

1630. Etibarnamə verilmiş şəxsin etibarnaməyə xitam verildiyini bildiyi və ya bilməli olduğu vaxtadək yerinə yetirdiyi hərəkətlər nəticəsində əmələ gələn hüquq və vəzifələr etibarnaməni vermiş şəxs və onun hüquq varisləri üçün üçüncü şəxslər barəsində qüvvəsini saxlayır. Hansı halda bu qayda tətbiq edilmir?
Əgər üçüncü şəxs etibarnamənin qüvvəsinə xitam verildiyini bilirdisə və ya bilməli idisə

1631. Etibarnaməyə xitam verildikdə onun verildiyi şəxs və ya hüquq varisləri hansı öhdəliyi daşıyırlar?
Dərhal etibarnaməni qaytarmağa borcludurlar.

1632. Etibar edilmişi başqasına etibaretmə nə zaman qüvvədən düşür?
Etibarnaməyə xitam verildikdə

17-ci FƏSİL
Müddət anlayışı, müddətlərin hesablanması və s. ətrafında suallar və cavablar

1633. Müddətin mahiyyəti nədən ibarətdir?

Mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxtdır (maddə 367).

1634. Əqdlə müəyyənləşdirilən və ya məhkəmə tərəfindən təyin edilən müddət hansı qaydada müəyyənləşdirilir?

Təqvim tarixi ilə və ya illər, aylar, həftələr, günlər və ya saatlar ilə hesablanan vaxtın bitməsi ilə

1635. Müddət daha hansı formada müəyyənləşdirilə bilər?

Hökmən baş verməli olan hadisənin göstərilməsi ilə

1636. Vaxt dövrü ilə müəyyənləşdirilmiş müddətin axımı nə zaman başlanır?

Təqvim tarixindən və ya müddətin başlanması üçün müəyyənləşdirilmiş hadisənin baş verməsindən sonrakı gün (maddə 368)

1637. İllərlə hesablanan müddət nə zaman qurtarır?

Müddətin sonuncu ilinin müvafiq ayında və günündə

1638. Yarım illə müəyyənləşdirilmiş müddətə hansı qaydalar tətbiq edilir?

Aylarla hesablanan müddətlər üçün qaydalar (maddə 369)

1639. Yarım il hansı qaydada hesablanır?

Altı aya bərabər sayılır, yarım il isə ilin əvvəlindən hesablanmağa başlanır.

1640. Rüblərlə hesablanan müddət hansı qaydada hesablanır?

Rüblərə aylarla hesablanan müddətlər üçün qaydalar tətbiq edilir. Həm də rüb üç aya bərabər sayılır, rüblər isə ilin əvvəlindən hesablanmağa başlanır.

1641. Aylarla hesablanan müddət nə zaman qurtarır?

Müddətin sonuncu ayının müvafiq günündə qurtarır. Aylarla hesablanan müddətin qurtarması müvafiq günü olmayan aya düşdükdə müddət həmin ayın sonuncu günü qurtarır.

1642. Yarım ayla müəyyənləşdirilmiş müddət necə hesablanır?

Günlərlə hesablanan müddət kimi qiymətləndirilir və on beş günə bərabər sayılır.

1643. Həftə ilə hesablanan müddət necə hesablanır?

Yeddi günə bərabərdir və müddətin sonuncu həftəsinin müvafiq günündə qurtarır.

1644. Günlərlə hesablanan müddət necə hesablanır?

Müddətin sonuncu gününün başa çatması ilə bir vaxtda qurtarır.

1645. Hansı halda on beş gün axırda hesablanmalıdır?

Əgər müddət bir və ya bir neçə tam aydan və ayın yarısından ibarətdirsə

1646. Müddət uzadıldıqda yeni müddət necə hesablanır?

Bitmiş müddətin sonundan

1647. Hansı halda ay otuz günlə, il isə üç yüz altmış beş günlə hesablanır?

Əgər vaxt aylarla və ya illərlə, özü də onların birgə qurtarmasına zərurətin olmaması ilə müəyyənləşdirilərsə

1648. Ayın başlanğıcı, ortası və axırı necə hesablanır?

Ayın birinci günü ayın başlanğıcı, on beşinci günü ayın ortası, sonuncu günü isə ayın axırı sayılır.

1649. Hansı halda hərəkət növbəti iş günündə yerinə yetirilməlidir?

Əgər hərəkət müəyyən gündə yerinə yetirilməlidirsə və həmin gün qeyri-iş günüdürsə (maddə 370)

1650. Hansı halda sonrakı iş günü müddətin qurtardığı gün sayılır?

Əgər müddətin sonuncu günü qeyri-iş gününə düşürsə

1651. Yazılı ərizələr və bildirişlər nə zaman vaxtında verilmiş sayılır?

Əgər müddətin sonuncu günü saat iyirmi dördədək rabitə təşkilatına təhvil verilərsə (maddə 371)

18-ci FƏSİL
İddia müddəti ilə bağlı suallar və cavablar

1652. Müddət başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna şamil edilirmi?
Bəli (maddə 372).

1653. Hansı müddət iddia müddəti sayılır?
Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət

1654. Ümumi iddia müddəti neçə il təşkil edir?
On il (maddə 373).

1655. Müqavilə tələbləri üzrə iddia müddəti neçə ildir?
Üç il.

1656. Daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti neçə ildir?
Altı il.

1657. Vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti neçə ildir?
Üç il.

1658. MM-in 18-ci fəslində (İddia müddəti) müəyyənləşdirilmiş qaydalar xüsusi iddia müddətlərinə də şamil edilirmi?
Əgər qanunla ayrı hal müəyyənləşdirilməyibsə, edilir.

1659. İddia müddətləri və onların hesablanması qaydası hansı qaydada müəyyənləşdirilir?
Əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, MM ilə (maddə 374)

1660. İddia müddətləri axımının dayandırılması və kəsilməsi əsasları hansı qaydada müəyyənləşdirilir?
MM ilə

1661. Hansı tələb iddia müddətinin keçməsindən asılı olmayaraq məhkəmə tərəfindən baxılmağa qəbul edilir?
Hüququn müdafiəsi haqqında tələb (maddə 375)

1662. Məhkəmə tərəfindən iddia müddəti hansı əsasla tətbiq edilir?
Yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında

1663. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdırmı?
Bəli.

1664. Əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddəti keçirmi?

Bəli (maddə 376).

1665. İddia müddətinin axımı nə vaxtdan başlanır?

Şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən (maddə 377)

1666. İcra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı nə zaman başlanır?

İcra müddəti bitdikdə

1667. İcra müddəti müəyyənləşdirilməmiş və ya tələbetmə məqamı ilə müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı nə vaxtdan başlanır?

Kreditorun öhdəliyi icra etmək tələbini irəli sürmək hüququnun əmələ gəldiyi andan başlanır, borcluya həmin tələbin icrası üçün güzəştli müddət verildikdə isə iddia müddəti göstərilən müddət bitdikdən sonra hesablanmağa başlanır.

1668. Reqres öhdəliklər üzrə iddia müddətinin axımı nə vaxtdan başlanır?

Əsas öhdəliyin icrası anından

1669. Öhdəlikdə şəxslərin dəyişilməsi iddia müddətinin və onun hesablanması qaydasının dəyişilməsinə səbəb olurmu?

Xeyr (maddə 378).

1670. İddia müddətinin axımı hansı hallarda dayandırılır?

- İddianın irəli sürülməsinə fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hal (qarşısıalınmaz qüvvə) mane olduqda;
- iddiaçı və ya cavabdeh hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olduqda;
- müvafiq icra hakimiyyəti orqanı öhdəliklərin icrası üçün möhlət (moratorium) müəyyənləşdirdikdə;
- fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni təmsilçisi olmadıqda;
- müvafiq münasibəti tənzimləyən qanunun və ya digər normativ hüquqi aktın qüvvəsi dayandırıldıqda;
- tərəflər arasında yaranmış mübahisə üzrə mediasiya prosesi tətbiq edildikdə (maddə 379).

1671. Fiziki şəxslərin həyatına və ya sağlamlığına dəymiş zərərin əvəzinin ödənilməsi haqqında iddialar üzrə iddia müddətinin axımı hansı müddətdə dayandırılır?

Fiziki şəxsin müvafiq orqana pensiya və müavinət təyin edilməsi haqqında müraciəti ilə əlaqədar olaraq pensiya və ya müavinət təyin edilənədək və ya təyin etməkdən imtina olunanadək

1672. İddia müddətinin axımı hansı şərtlə dayandırılır?

O şərtlə dayandırılır ki, MM-in 379-cu maddəsində (iddia müddəti axımının dayandırılması) göstərilmiş hallar iddia müddətinin son altı ayında, həmin müddət altı

aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində əmələ gəlsin və ya mövcud olmaqda davam etsin.

1673. Hansı gündən etibarən müddətin axımı davam edir?

Müddətin dayandırılmasına əsas vermiş halın sona çatdığı gündən. Müddətin qalan hissəsi altı aya qədər uzadılır, iddia müddəti altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddətinə qədər uzadılır.

1674. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar dayandırılmış iddia müddətinin axımı hansı tarixdən davam edir?

"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tarixdən

1675. Hansı dövrdə ərlə arvad arasındakı tələblər üzrə iddia müddətinin axımı dayandırılır?

Nikahın mövcud olduğu dövrdə

1676. Daha hansı tələblər üzrə adıçəkilən qayda tətbiq edilir?

Uşaqlar yetkinlik yaşına çatanadək uşaqlarla valideynlər arasındakı tələblər üzrə, habelə bütün qəyyumluq dövründə qəyyumlarla (himayəçilərlə) qəyyumluqda (himayədə) olanlar arasındakı tələblər üzrə

1677. Əgər tələbi qanuni təmsilçisi olmayan məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan şəxs irəli sürürsə, iddia müddəti hansı müddətə dayandırılmış sayılır?

Həmin şəxs tam fəaliyyət qabiliyyətli olanadək və ya onun üçün təmsilçi təyin edilənədək

1678. Hansı halda iddia müddətinin axımı kəsilir?

Müəyyənləşdirilmiş qaydada iddia irəli sürüldükdə, habelə borclu şəxs borcu etiraf etməsini göstərən hərəkətlər etdikdə (maddə 380)

1679. Fasilədən sonra iddia müddəti yenidən başlanır. Fasiləyə qədər keçmiş vaxt yeni müddətə daxil edilirmi?

Xeyr.

1680. Əgər iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı hansı qaydada davam edir?

Ümumi qaydada (maddə 381)

1681. Əgər cinayət işində irəli sürülmüş iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı hansı vaxtadək dayandırılır?

İddianı baxılmamış saxlayan hökm qanuni qüvvəyə minənədək

1682. Müddətin dayandırıldığı vaxt iddia müddətinə daxil edilirmi?

Xeyr.

1683. İddia müddətinin axımı dayandırıldıqda müddətin qalan hissəsi altı aydan az olduqda hansı müddətə uzadılır?

Altı aya qədər.

1684. İddiaçının şəxsiyyəti ilə bağlı hallara görə (ağır xəstəlik, köməksiz vəziyyət, savadsızlıq və i.a.) iddia müddətinin ötürülməsi səbəbini məhkəmənin üzrlü saydığı müstəsna hallarda hansı tədbir görülməlidir?

Fiziki şəxsin pozulmuş hüququ müdafiə edilməlidir (maddə 382).

1685. İddia müddətinin ötürülməsi səbəbləri hansı halda üzrlü sayıla bilər?

İddia müddətinin son altı ayında, həmin müddət altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində baş verdikdə

1686. Borclu və ya digər mükəlləfiyyətli şəxs vəzifəsini iddia müddəti bitdikdən sonra icra etmişsə, icra etdiyini geri tələb edə bilərmi?

İcra zamanı icra müddətinin bitdiyini bilməmiş olsa da, edə bilməz (maddə 383).

19-cu FƏSİL
Öhdəliklər haqqında ümumi müddəalar: anlayışı, tərəfləri və s. üzrə suallar və cavablar

1687. İddia müddəti nələrə şamil edilmir?

- Şəxsi qeyri-əmlak hüquqlarının və digər qeyri-maddi nemətlərin müdafiəsi haqqında tələblər;
- əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələbləri;
- fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər. Lakin bu cür zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il bitdikdən sonra irəli sürülmüş tələblər ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir;
- mülkiyyətçinin və ya digər sahibin onun hüququnun hər cür pozuntularının aradan qaldırılması haqqında tələbləri, özü də bu pozuntular sahiblikdən məhrumetmə ilə birləşdirilmiş olmasa belə;
- dövlət və ya bələdiyyə orqanının və ya onların vəzifəli şəxslərinin əmlaka sahiblik, ondan istifadə və ya ona dair sərəncam üzrə mülkiyyətçinin hüquqlarını pozmuş aktının etibarsız sayılması haqqında mülkiyyətçinin tələbləri;
- MM ilə müəyyənləşdirilmiş hallarda digər tələblər (maddə 384).

1688. Öhdəliyə əsasən, tərəflər hansı hərəkətləri icra etməlidirlər?

Bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır (maddə 385).

1689. Öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır. Lakin öhdəliyin əmələ gəlməsindəki hansı hallar müqavilənin bağlanması üçün istisna təşkil edir?

Öhdəliyin zərər vurulması, əsassız varlanma və ya MM-də nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisnadır (maddə 386).

1690. MM-in 385-ci maddəsində nəzərdə tutulmuş öhdəliklər (borclunun kreditorun xeyrinə müəyyən hərəkəti etməsi, məsələn, pul ödəməsi, əmlak verməsi, iş görməsi, xidmətlər göstərməsi və i.a. və ya müəyyən hərəkətdən çəkinməsi) müqavilənin hazırlanması əsasında da əmələ gələ bilərmi?

Bəli.

1691. Danışıqların iştirakçısı digər iştirakçının təqsirli hərəkəti nəticəsində bağlanmayan müqavilənin bağlanması üçün çəkdiyi xərclərin əvəzini ödəməyi digər iştirakçıdan tələb edə bilərmi?

Bəli.

1692. Elektron formada bağlanan əqdlərdən irəli gələn öhdəliklərin məzmunu və icrası ilə bağlı məsələlər, hansı istisna nəzərə alınmaqla, MM ilə tənzimlənir?

Elektron ticarət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulanlar istisna olmaqla

1693. Öhdəlikdə borclunun tərəfində iştirak edən şəxslərdən birinə qarşı kreditorun tələblərinin etibarsızlığı, eləcə də bu cür şəxsə qarşı tələb üzrə iddia müddətinin keçməsi özlüyündə kreditorun belə şəxslərin qalanlarına qarşı tələblərinə toxunurmu?

Xeyr (maddə 387).

1694. Hansı halda öhdəlik üçüncü şəxslər üçün öhdəliyin bir və ya hər iki tərəfi barəsində hüquqlar yarada bilər?

Tərəflərin razılaşmasında nəzərdə tutulmuş hallarda

1695. Hansı əqdlərdə dövlət qulluqçusu digər tərəf ola bilməz?

Tərəflərdən biri dövlət qulluqçusunun işlədiyi dövlət orqanı olan əqdlərdə həmin dövlət qulluqçusu tərəf ola bilməz.

20-ci FƏSİL
Müqavilə hüququ ilə bağlı suallar və cavablar

§ 1. Müqavilə anlayışı və şərtləri

1696. Müqavilənin mahiyyəti nədən ibarətdir?

Mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır (maddə 389).

1697. Müqavilələrə hansı qaydalar tətbiq edilir?

İki və çoxtərəfli əqdlərə dair qaydalar

1698. Müqavilədən əmələ gələn öhdəliklərə hansı müddəalar tətbiq edilir?

MM-in 20-ci fəslinin ("Müqavilə hüququ") qaydalarında və müqavilələrin ayrı-ayrı növlərinə dair MM-in qaydalarında ayrı hal nəzərdə tutulmayıbsa, öhdəliklər haqqında ümumi müddəalar

1699. İkidən çox tərəfin bağladığı müqavilələrə müqavilə haqqında ümumi müddəalar hansı şərtlə tətbiq edilir?

O şərtlə tətbiq edilir ki, bu, həmin müqavilələrin çoxtərəfli xarakterinə zidd olmasın.

1700. Fiziki və hüquqi şəxslər MM-də nəzərdə tutulmayan müqavilələr bağlaya bilərlərmi?

MM-ə zidd olmamaq şərtilə, bəli (maddə 390).

1701. Müqavilə hansı qaydalara uyğun gəlməlidir?

Onun bağlandığı vaxt qüvvədə olan qanunla və digər hüquqi aktlarla müəyyənləşdirilmiş, tərəflər üçün məcburi qaydalara (imperativ normalara)

1702. Əgər müqavilə bağlandıqdan sonra onu bağlayarkən qüvvədə olmuş qaydalardan fərqlənən, tərəflər üçün məcburi başqa qaydalar müəyyənləşdirən qanun qəbul edilmişsə, bağlanmış müqavilənin şərtləri qüvvəsini saxlayır. Bu zaman hansı hallar istisna təşkil edir?

Qanunda onun qüvvəsinin əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil olunmasının müəyyənləşdirildiyi hallar istisna təşkil edir.

1703. Hansı hallar istisna olmaqla, müqavilə bağlamağa məcburetməyə yol verilmir?

Müqavilə bağlamaq vəzifəsinin MM və ya könüllü götürülmüş öhdəlikdə nəzərdə tutulduğu hallar

1704. Tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən ayrı hal irəli gəlmirsə, qarışıq müqavilə üzrə tərəflərin münasibətlərinə hansı qaydalar müvafiq hissələrdə tətbiq edilir?

Qarışıq müqavilədə ünsürləri olan müqavilələrə dair qaydalar

1705. Müqavilə şərtlərinin tərəflərin istəyi ilə müəyyənləşdirilməsində hansı hallar istisna təşkil edir?

Müvafiq şərtin məzmununun MM-də göstərildiyi hallar

1706. Müqavilə şərti tərəflərin razılaşması ilə ayrı qaydanın müəyyənləşdirilmədiyi halda tətbiq edilən normada (dispozitiv norma) nəzərdə tutulubsa, tərəflər hansı hüquqa malikdir?

Tərəflər razılaşma əsasında bu normanın tətbiqini istisna edə bilər və ya onun nəzərdə tutduğundan fərqli şərt müəyyənləşdirə bilərlər.

1707. Müqavilə tərəfləri arasında dispozitiv normanın tətbiqinin istisna edilməsi və ya onun nəzərdə tutduğundan fərqli şərtin müəyyənləşdirilməsi barədə razılaşma olmadıqda müqavilə şərti hansı formada müəyyənləşdirilir?

Dispozitiv norma ilə

1708. Əgər müqavilə şərti onun iştirakçıları tərəfindən və ya dispozitiv norma ilə müəyyənləşdirilməyibsə, müvafiq şərtlər hansı qaydada müəyyənləşdirilir?

Tərəflərin münasibətlərinə tətbiq edilə bilən işgüzar adətlərlə

1709. Tərəflərdən birinin özünün bütün gələcək əmlakını və ya onun bir hissəsini digər tərəfə verməyi, yaxud onu uzufruktla yüklü etməyi öhdəsinə götürdüyü müqavilənin etibarsız sayılması zamanı hansı hallar istisna təşkil edir?

Müqavilənin gələcək əmlakın ayrı-ayrı predmetləri barəsində bağlandığı hallar, habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar (maddə 391)

1710. Sağ olan şəxsin miras əmlakı barəsində başqa şəxslərin bağladığı müqavilə hansı hüquqi statusa malikdir?

Etibarsızdır (maddə 392).

1711. Eyni qayda daha hansı aktlara tətbiq edilir?

Sağ olan şəxsin miras əmlakından məcburi paylar və (və ya) onun vəsiyyət tapşırığı barəsində bağlanmış müqavilələrə

1712. MM-in 392.1-ci maddəsinin qaydası (sağ olan şəxsin miras əmlakı barəsində başqa şəxslərin bağladığı müqavilə etibarsızlığı) hansı müqavilələrə tətbiq edilmir?

Qanun üzrə gələcək vərəsələrin qanun üzrə vərəsəlik zamanı onlardan birinin payı haqqında və məcburi pay haqqında bağladıqları müqavilələrə

1713. Tərəflərdən birinin hazırda olan əmlakı bütünlüklə və ya onun bir hissəsini digər tərəfə verməyi, yaxud onu uzufruktla yüklü etməyi öhdəsinə götürdüyü müqavilənin notariat qaydasında təsdiqlənməsi zamanı hansı hallar istisna təşkil edir?

Müqavilənin hazırda olan əmlakın ayrı-ayrı predmetləri barəsində bağlandığı hallar (maddə 393)

1714. Bir tərəfin daşınmaz əşyaya mülkiyyəti və ya digər əşya hüquqlarını digər tərəfə vermək və ya əldə etmək barədə öhdəlik götürdüyü müqavilə hansı qaydada təsdiqlənməlidir?

Notariat qaydasında (maddə 394)

1715. Əgər şəxs öz əşyasını özgəninkiləşdirmək və ya yüklü etmək barəsində öhdəlik götürürsə, bu öhdəlik hansı halda əşyanın ləvazimatına da şamil edilir?

"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmadıqda (maddə 395)

1716. Hansı halda müqavilə öhdəlikləri barədə qaydalar digər qeyri-müqavilə öhdəliklərinə də tətbiq edilir?

Öhdəliyin xarakterindən ayrı hal irəli gəlmirsə (maddə 396)

1717. Hansı halda müqavilə əvəzli sayılır?

Müqaviləyə görə tərəf öz vəzifələrinin icrası müqabilində haqq və ya digər qarşılıqlı əvəz almalıdırsa (maddə 397)

1718. Hansı halda müqavilə əvəzsiz sayılır?

Müqaviləyə görə bir tərəf digər tərəfdən haqq və ya digər qarşılıqlı əvəz almadan ona nə isə verməyi öhdəsinə götürürsə

1719. Hansı halda müqavilənin əvəzli olduğu ehtimal edilir?

MM-dən, müqavilənin məzmunundan və ya mahiyyətindən ayrı hal irəli gəlmirsə

1720. Müqavilə bağlandıqdan sonra qiymətin dəyişdirilməsinə hansı şərtlərlə yol verilir?

Müqavilədə və ya MM-də nəzərdə tutulmuş hallarda və qaydada (maddə 398)

1721. Əvəzli müqavilədə qiymət nəzərdə tutulmayıbsa və müqavilə şərtlərinə əsasən müəyyənləşdirilə bilməzsə, müqavilənin icrası üçün pul hansı qaydada ödənilməlidir?

Müqayisəyə gələ bilən hallarda oxşar mallar, işlər və ya xidmətlər üçün adətən alınan qiymət üzrə

1722. Müqavilə nə vaxtdan etibarən qüvvəyə minir və tərəflər üçün məcburi olur?

Bağlandığı andan (maddə 399)

1723. Tərəflərin bağladıqları müqavilənin şərtlərinin onların müqavilə bağlanana qədər yaranmış münasibətlərinə də tətbiq edilməsi barədə razılıq əldə oluna bilərmi?

Bəli.

1724. Müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə nə vaxta qədər qüvvədə sayılır?

Öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər

1725. Müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəfləri müqavilənin həmin müddət qurtarana qədər yol verilmiş pozulmasına görə məsuliyyətdən azad edirmi?

Xeyr.

1726. Əgər müqavilə tərəflərindən biri bazarda üstün mövqe tutursa, o, hansı öhdəliyi daşıyır?

Fəaliyyətin bu sahəsində kontragentlə müqavilə bağlamaqdan əsassız imtina etməməli, habelə kontragentə qeyri-bərabər şərtlərini təklif etməməlidir (maddə 400).

1727. Sahibkarlıq məqsədi olmadan və ya özünün zəruri ehtiyaclarının ödənilməsi üçün əmlak və ya xidmət əldə edən və ya onlardan istifadə edən şəxslə, əgər digər tərəf özünün sahibkarlıq fəaliyyəti həddində hərəkət edirsə, müqavilə bağlamaqdan imtina edilə bilərmi?

Əsassız olaraq müqavilə bağlamaqdan imtina edilə bilməz.

1728. İlkin müqavilənin mahiyyəti nədən ibarətdir?

İlkin müqaviləyə görə tərəflər həmin müqavilədə nəzərdə tutulmuş şərtlərlə əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi barədə gələcəkdə müqavilə (əsas müqavilə) bağlamağı öhdələrinə götürürlər (maddə 402).

1729. İlkin müqavilə hansı formada bağlanılır?

Əsas müqavilə üçün nəzərdə tutulmuş formada

1730. İlkin müqavilənin formasına dair qaydalara əməl edilməməsi nəyə səbəb olur?

Onun əhəmiyyətsizliyinə

1731. İlkin müqavilədə hansı şərtlər göstərilməlidir?

Əsas müqavilənin predmetini, habelə digər mühüm şərtlərini müəyyənləşdirməyə imkan verən şərtlər

1732. Əgər ilkin müqavilədə tərəflərin əsas müqaviləni hansı müddətə bağlamağı öhdələrinə götürdükləri müəyyənləşdirilməyibsə, əsas müqavilə hansı müddətdə bağlanmalıdır?

İlkin müqavilənin bağlandığı andan bir il müddətində

1733. Əgər əsas müqavilə tərəflərin onu bağlamalı olduğu müddət qurtarana qədər bağlanmazsa və ya tərəflərdən biri digər tərəfə həmin müqaviləni bağlamaq barədə təklif göndərməzsə, bu, hansı nəticəni yaradır?

İlkin müqavilədə nəzərdə tutulmuş öhdəliklərə xitam verilir.

1734. Niyyət razılaşmasında (niyyət protokolunda və s.) tərəflərin ona ilkin müqavilə qüvvəsi vermək iradəsi birbaşa ifadə olunmayıbsa, bu, hansı nəticəni yaradır?

Mülki hüquq nəticələri doğurmur.

1735. Üçüncü şəxsin xeyrinə müqavilənin mahiyyəti nədən ibarətdir?

Üçüncü şəxsin xeyrinə müqavilə elə müqavilədir ki, onun tərəfləri borclunun icranı müqavilədə göstərilmiş və ya göstərilməmiş, öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ olan üçüncü şəxsə həyata keçirməli olduğunu müəyyənləşdirirlər (maddə 403).

1736. Hansı halda üçüncü şəxsin xeyrinə bağlanmış müqavilənin icrasını həm kreditor, həm də üçüncü şəxs tələb edə bilər?

Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, yaxud öhdəliyin mahiyyətindən hər hansı ayrı hal irəli gəlmirsə

1737. Xüsusi qeyd-şərt olmadıqda işin hallarına, o cümlədən onun məqsədinə əsasən nələr müəyyənləşdirilməlidir?

- Üçüncü şəxs hüquq əldə etməlidir, yoxsa əldə etməməlidir;
- bu hüquq dərhal, yoxsa müəyyən ilkin şərtlər olduqda əmələ gəlir;
- üçüncü şəxsin razılığı olmadan onun hüququna xitam verməyə və ya hüququnu dəyişməyə müqavilə tərəflərinin ixtiyarı var, yoxsa yox.

1738. Müqavilədə üçüncü şəxsin xeyrinə qeyd-şərt qoymuş tərəf kontragentin razılığından asılı olmayaraq, müqavilədə göstərilən üçüncü şəxsi dəyişə bilərmi?

Bəli.

1739. Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, hansı andan etibarən tərəflər bağladıqları müqaviləni üçüncü şəxsin razılığı olmadan ləğv edə və ya dəyişdirə bilməzlər?

Üçüncü şəxsin müqavilə üzrə öz hüququndan istifadə etmək niyyətini borcluya bildirdiyi andan

1740. Üçüncü şəxs müqavilə üzrə ona verilmiş hüquqdan imtina etdikdə, kreditor həmin hüquqdan istifadə edə bilərmi?

Əgər MM-ə və müqaviləyə zidd deyilsə, edə bilər.

1741. Törəmə maliyyə alətinin mahiyyəti nədən ibarətdir?

Törəmə maliyyə aləti hər hansı baza aktivini almaq, satmaq və ya dəyişdirmək hüququnu təsbit edən müqavilədir (maddə 403-1).

1742. Törəmə maliyyə alətlərinin standartlaşdırılmış formada fond birjası vasitəsilə yerləşdirilməsi və tədavülü qaydası hansı orqan tərəfindən müəyyən edilir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən

1743. Törəmə maliyyə alətlərinə nələr aiddir?

Fyuçers, opsion və svop.

1744. Fyuçersin mahiyyəti nədən ibarətdir?

Fyuçers baza aktivinin müəyyənləşdirilmiş növdə və sayda əvvəlcədən razılaşdırılmış tarixə və qiymətə alqı-satqısı üzrə törəmə maliyyə alətidir.

1745. Opsionun mahiyyəti nədən ibarətdir?

Opsion sahibinə birtərəfli qaydada baza aktivini almaq, satmaq və ya svop etmək hüququnu verən törəmə maliyyə alətidir.

1746. Svopun mahiyyəti nədən ibarətdir?

Svop iki tərəf arasında eyni növ baza aktivlərinin dəyişdirilməsi üzrə törəmə maliyyə alətidir.

1747. Müqavilə şərtlərini təfsir edərkən məhkəmə müqavilədəki söz və ifadələrin hərfi mənasından əlavə, daha nələri nəzərə alır?

Tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini (maddə 404)

1748. Əgər müqavilənin ayrı-ayrı ifadələri müxtəlif cür təfsir edilə bilərsə, hansı mənaya üstünlük verilir?

Müqaviləni bağlamış tərəflərin yaşayış yerində adətən qəbul olunmuş mənaya üstünlük verilir.

1749. Tərəflərin yaşayış yerləri müxtəlif olduqda, hansı yer həlledici sayılır?

Akseptantın yaşayış yeri

1750. Müqavilədə bir-birini istisna edən və ya çoxmənalı ifadələr olduqda, hansı mənaya üstünlük verilməlidir?

Müqavilənin məzmununa digərlərindən daha çox uyğun gələn mənaya

1751. Qarışıq müqavilələr təfsir edilərkən hansı müqavilələr haqqında normalar tətbiq edilir?

İcranın mahiyyətinə daha yaxın olan və ona uyğun gələn

§2. Müqavilənin bağlanması

1752. Hansı şərtlər mühüm sayılır?

Müqavilənin predmetinə dair şərtlər, MM-də həmin növ müqavilələr üçün mühüm və ya zəruri adlandırılmış şərtlər, habelə tərəflərdən birinin müraciəti ilə barəsində razılaşma əldə edilməli olan bütün şərtlər mühüm sayılır (maddə 405).

1753. Müqavilə hansı qaydada bağlanır?

Tərəflərdən birinin oferta (müqavilə bağlamaq təklifi) göndərməsi və digər tərəfin onu aksept etməsi (təklifin qəbulu) vasitəsilə

1754. Müqavilə hansı şərtlə əqdlərin bağlanması üçün nəzərdə tutulan hər hansı formada bağlana bilər?

O şərtlə ki, MM-də həmin növ müqavilə üçün müəyyən forma təyin edilməsin (maddə 406)

1755. Əgər tərəflər müqaviləni müəyyən formada bağlamaq barəsində şərtləşiblərsə, həmin müqavilə nə zaman bağlanmış sayılır?

Müqavilə şərtləşdirilmiş formaya salındıqdan sonra

1756. Yazılı formada müqavilə hansı formalarda bağlana bilər?

Tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə, habelə MM-in 331.1-ci maddəsinə uyğun olaraq məktubların, teleqramların, elektron sənədlərin və ya digər verilənlərin mübadiləsi yolu ilə

1757. Müqavilə hansı an bağlanmış sayılır?

Oferta göndərmiş şəxsin onun akseptini aldığı anda (maddə 407)

1758. Sadə yazılı müqavilə hansı andan bağlanmış sayılır?

Müvafiq qaydada imzalandığı andan

1759. Notarial qaydada təsdiq edilməli müqavilə hansı andan bağlanmış sayılır?

Müvafiq qaydada təsdiq edildiyi andan

1760. Müqavilə bağlanması haqqında təklif (oferta) nə zaman verilmiş sayılır?

O zaman verilmiş sayılır ki, bir və ya bir neçə şəxsə ünvanlanmış bu təklifdə onu vermiş şəxsin (oferentin) razılıq (aksept) olduqda, öz təklifinin icrasına hazır olduğu ifadə edilsin (maddə 408).

1761. Ofertada müqavilənin hansı şərtləri əks olunmalıdır?

Mühüm şərtləri

1762. Şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifdə (o cümlədən reklamda) bilavasitə ayrı qayda göstərilməyibsə, bu təklif nə hesab olunur?

Ofertaya dəvət

1763. Oferta hansı andan onu göndərmiş şəxsi bağlı edir?

Ünvan sahibinin onu aldığı andan

1764. Ofertanın geri götürülməsinə dair bildiriş nə zaman daxil olarsa, oferta verilməmiş sayılır?

Ofertadan əvvəl və ya onun özü ilə eyni vaxtda daxil olduqda

1765. Ünvan sahibinin aldığı oferta nə zaman geri götürülə bilməz?

Əgər ofertanın özündə ayrı qayda şərtləşdirilməyibsə, yaxud təklifin mahiyyətindən və ya verildiyi şəraitdən ayrı qayda irəli gəlmirsə, onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində

1766. Hansı halda təklif ümumi oferta sayılır?

Əgər müqavilənin bütün mühüm şərtlərini əks etdirən təklifdən onu irəli sürmüş şəxsin təklifdə göstərilmiş şərtlərlə müqaviləni cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünürsə

1767. Ofertanın ünvanlandığı şəxsin hansı cavabı aksept sayılır?

Ofertanı qəbul etməsi haqqında cavabı (maddə 409)

1768. Aksept hansı şərtlərə cavab verməlidir?
Tam və qeyd-şərtsiz olmalıdır.

1769. Susmaq aksept sayılırmı?
Əgər MM-dən, işgüzar adətdən və ya tərəflərin əvvəlki işgüzar münasibətlərindən ayrı qayda irəli gəlmirsə, aksept sayılmır.

1770. Oferta almış şəxsin onun aksepti üçün müəyyənləşdirilmiş müddətdə ofertada göstərilən müqavilə şərtlərini yerinə yetirmək (malları yola salmaq, xidmətlər göstərmək, işlər görmək, müvafiq məbləği ödəmək və s.) üçün hərəkətlər etməsi aksept sayılırmı?
Əgər MM-də ayrı qayda nəzərdə tutulmayıbsa və ya ofertada ayrı qayda göstərilməyibsə, aksept sayılır.

1771. Aksept oferentə gec çatdıqda və akseptdən onun vaxtında göndərildiyi məlum olduqda, aksept hansı halda gecikmiş sayıla bilər?
Aksept yalnız o halda gecikmiş sayıla bilər ki, oferent bu barədə digər tərəfə dərhal məlumat vermiş olsun.

1772. Oferta göndərmiş tərəf digər tərəfin gec alınmış akseptini qəbul etdiyi barədə hansı müddətdə məlumat verərsə, müqavilə bağlanmış sayılır?
Dərhal məlumat verərsə

1773. Akseptin geri götürülməsi haqqında bildiriş oferta göndərmiş şəxsə nə zaman çatdıqda aksept alınmamış sayılır?
Akseptdən əvvəl və ya onunla bir vaxtda çatdıqda

1774. Əgər ofertada aksept üçün müddət müəyyənləşdirilibsə, ofertanı göndərmiş şəxs aksepti hansı müddətdə aldıqda müqavilə bağlanmış sayılır?
Ofertada göstərilən müddət ərzində

1775. Əgər yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməyibsə, müqavilə hansı şərtlə bağlanmış sayılır?
O şərtlə bağlanmış sayılır ki, oferta göndərmiş şəxs aksepti MM-də müəyyənləşdirilmiş müddət qurtarana qədər, belə müddət müəyyənləşdirilmədikdə isə bunun üçün zəruri olan müddət ərzində almış olsun.

1776. Əgər oferta aksept üçün müddət göstərilmədən, şifahi edilmişsə, digər tərəf ofertanın akseptini hansı müddətdə bildirdikdə müqavilə bağlanmış sayılır?
Dərhal.

1777. Hansı hallar istisna olmaqla, ünvanında olan şəxsə verilmiş oferta dərhal qəbul və ya rədd edilməlidir?
MM-in 409.8-ci maddəsində nəzərdə tutulmuş hallar. Bu maddəyə əsasən, əgər yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməyibsə, müqavilə bu şərtlə bağlanmış sayılır ki, oferta göndərmiş şəxs aksepti MM-də müəyyənləşdirilmiş müddət qurtarana qədər, belə müddət müəyyənləşdirilmədikdə isə bunun üçün zəruri olan müddət ərzində almış olsun.

1778. Hansı hallar istisna olmaqla, ünvanında olmayan şəxsə verilmiş oferta yalnız oferta vermiş şəxsin adətən cavab gözləyə biləcəyi müddətədək qəbul edilə bilər?

MM-in 409.8-ci maddəsində nəzərdə tutulmuş hallar. Bu maddəyə əsasən, əgər yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməyibsə, müqavilə bu şərtlə bağlanmış sayılır ki, oferta göndərmiş şəxs aksepti MM-də müəyyənləşdirilmiş müddət qurtarana qədər, belə müddət müəyyənləşdirilmədikdə isə bunun üçün zəruri olan müddət ərzində almış olsun.

1779. Hansı aksept yeni oferta sayılır?

Oferta üçün gecikmiş aksept (maddə 410)

1780 Hansı cavab ofertadan imtina və eyni zamanda yeni təklif sayılır?

Əgər cavabda müqaviləni ofertada nəzərdə tutulduğundan fərqlənən başqa şərtlərlə bağlamağa razılıq ifadə olunmuşsa

1781. Əgər müqavilədə onun bağlandığı yer göstərilməyibsə, müqavilə harada bağlanmış sayılır?

Ofertanı göndərmiş fiziki şəxsin yaşayış yerində və ya hüquqi şəxsin olduğu yerdə (maddə 411)

1782. İstehlakçı ilə öz müəssisəsinin hüdudları daxilində küçədə, evin qabağında və buna bənzər yerlərdə ticarət edən şəxs arasında bağlanan müqavilə hansı halda etibarlıdır?

Yalnız o halda etibarlıdır ki, istehlakçı bir həftə müddətində müqavilədən yazılı surətdə imtina etməsin. Amma müqavilənin bağlandığı zaman icra olunduğu hallar istisna təşkil edir.

1783. Müqavilə hərrac keçirilməsi yolu ilə bağlana bilərmi?

Əgər müqavilənin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, bağlana bilər. Müqavilə hərracı udan şəxslə bağlanır (maddə 414).

1784. Hərracın təşkilatçısı kimi kimlər çıxış edə bilərlər?

Əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi və ya ixtisaslaşdırılmış təşkilat

1785. İxtisaslaşdırılmış təşkilat hərracın təşkilatçısı kimi hansı qaydada iştirak edir?

Əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi ilə müqavilə əsasında hərəkət edir və onların adından və ya öz adından çıxış edir.

1786. Hansı hallarda əmlakın və ya əmlak hüququnun satışı barədə müqavilələr yalnız hərrac keçirilməsi yolu ilə bağlana bilər?

MM-də göstərilən hallarda

1787. Hərrac hansı formada keçirilir?

Auksion və ya müsabiqə formasında keçirilir. Ən yüksək qiymət təklif etmiş şəxs auksionda hərracı udmuş sayılır, hərracın təşkilatçısının qabaqcadan təyin etdiyi müsabiqə komissiyasının rəyinə əsasən ən yaxşı şərtlər təklif etmiş şəxs isə müsabiqə üzrə hərracı udmuş sayılır.

1788. Hərracın formasını kim müəyyənləşdirir?

Qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, satılan əmlakın mülkiyyətçisi və ya satılan əmlak hüququnun sahibi

1789. Auksionlar və müsabiqələr hansı formalarda keçirilə bilər?

Açıq və qapalı ola bilər. Açıq auksionda və açıq müsabiqədə istənilən şəxs iştirak edə bilər. Qapalı auksionda və qapalı müsabiqədə yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edirlər (maddə 415).

1790. Təşkilatçı hərracın keçirilməsini hansı müddətdə bildirməlidir?

Qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, hərracın keçirilməsinə ən gec 30 gün qalmış

1791. Bildirişdə hansı məlumatlar olmalıdır?

Hərracın vaxtı, yeri və forması, onun predmeti və keçirilmə qaydası, o cümlədən hərracda iştirakın rəsmiləşdirilməsi, hərracı udan şəxsin müəyyənləşdirilməsi, habelə başlanğıc qiyməti haqqında və qanunvericiliklə müəyyənləşdirilmiş digər məlumatlar

1792. Əgər hərracın predmeti müqavilə bağlamaq hüququdursa, qarşıdakı hərrac barədə bildirişdə hansı məlumat göstərilməlidir?

Bunun üçün verilən müddət

1793. Əgər MM-də və ya hərracın keçirilməsi barədə bildirişdə ayrı qayda nəzərdə tutulmayıbsa, bildirişi göndərən açıq hərrac təşkilatçısı hansı müddət ərzində hərracı keçirməkdən imtina edə bilər?

Auksionu keçirməkdən istədiyi vaxt, lakin onun keçirilməsi gününə ən geci üç gün qalmış, müsabiqəni keçirməkdən isə onun keçirilməsinə ən geci otuz gün qalmış

1794. Açıq hərracın təşkilatçısı onu keçirməkdən həmin müddətləri pozmaqla imtina etdikdə, hansı öhdəliyi daşıyır?

İştirakçılara dəyən real zərərin əvəzini ödəməlidir.

1795. Qapalı auksionun və ya qapalı müsabiqənin təşkilatçısı hərracdan imtina edilməsinə görə hansı öhdəliyi daşıyır?

Bildiriş göndərildikdən sonra məhz hansı müddətdə imtina edildiyindən asılı olmayaraq, dəvət etdiyi iştirakçılara dəyən real zərərin əvəzini ödəməlidir.

1796. Hərracın iştirakçılarının hərracın keçirilməsinə dair verdikləri beh onlara hansı qaydada qaytarılır?

Hərrac keçirilmədikdə beh geri qaytarılmalıdır. Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin də behi qaytarılır. Hərracı udmuş şəxslə müqavilə bağlandıqda, onun verdiyi behin məbləği bağlanmış müqavilə üzrə öhdəliklərin icrası hesabına daxil edilir.

1797. Hərracı udmuş şəxsin və hərracın təşkilatçısının auksionun və ya müsabiqənin keçirildiyi gün hərracın nəticələri haqqında imzaladıqları protokol hansı qüvvəyə malikdir?

Müqavilə qüvvəsinə

1798. Hərracı udmuş şəxsin protokolu imzalamaqdan boyun qaçırması hansı nəticə yaradır?

Verdiyi behi itirir. Protokolu imzalamaqdan boyun qaçıran hərrac təşkilatçısı hərracı udan şəxsə behi ikiqat məbləğdə qaytarmalı, habelə hərracda iştirak etmək nəticəsində dəyən zərərin əvəzini ödəməlidir.

1799. Əgər hərracın predmeti yalnız müqavilə bağlamaq hüququ olmuşsa, belə müqaviləni tərəflər hansı müddətdə imzalamalıdırlar?

Hərrac qurtardıqdan və protokol rəsmiləşdirildikdən sonra iyirmi gündən və ya bildirişdə göstərilən başqa müddətdən gec olmayaraq

1800. Tərəflərdən biri müqavilə bağlamaqdan boyun qaçırdıqda, digər tərəf hansı tələblə məhkəməyə müraciət edə bilər?

Müqaviləni bağlamağa məcbur etmək, habelə onu bağlamaqdan boyun qaçırılması nəticəsində vurulan zərərin əvəzini ödəmək tələbi ilə

1801. MM-də müəyyənləşdirilmiş qaydaları pozmaqla keçirilən hərrac kimin iddiası üzrə məhkəmə tərəfindən etibarsız sayıla bilər?

Maraqlı şəxsin (maddə 416)

1802. Hərracın etibarsız sayılması nəyə səbəb olur?

Hərracı udmuş şəxslə bağlanan müqavilənin etibarsızlığına

§3. Müqavilənin standart şərtləri

1803. Müqavilənin standart şərtlərinin mahiyyəti nədən ibarətdir?

Əvvəlcədən ifadə edilmiş, dəfələrlə istifadə üçün nəzərdə tutulan elə şərtlərdir ki, bunları bir tərəf (təklif edən) digər tərəfə təqdim edir və əvvəlcədən müəyyənləşdirilmiş normalardan fərqlənən və bu normaları tamamlayan qaydalar onların vasitəsilə müəyyənləşdirilir (maddə 417).

1804. Əgər tərəflər müqavilənin şərtlərini müfəssəl müəyyənləşdirmişlərsə, bunlar müqavilənin standart şərtləri sayılırmı?

Xeyr.

1805. Hansı şərtlərə standart şərtlərə nisbətən üstünlük verilir?

Tərəflərin bilavasitə razılaşdırdıqları şərtlərə

1806. Müqavilənin standart şərtləri onu təklif etmiş tərəflə digər tərəf arasında bağlanmış müqavilənin tərkib hissəsinə hansı halda çevrilir?

Yalnız o halda çevrilir ki, təklif etmiş tərəf müqavilənin bağlandığı yerdə əyani qeyd yazsın və bu şərtlərə istinad etsin, digər tərəf isə həmin şərtlərlə tanış olmaq və razıdırsa, bu şərtləri qəbul etmək imkanına malik olsun (maddə 418).

1807. Əgər müqavilənin digər tərəfi sahibkardırsa, müqavilənin standart şərtləri hansı şərtlə müqavilənin tərkib hissəsi olur?

O şərtlə müqavilənin tərkib hissəsi olur ki, işgüzar münasibətlərdə zəruri olan ehtiyat göstərdiyi halda o, bunu nəzərdə tutmalı olsun.

1808. Müqavilələrin standart şərtlərinin formaca qeyri-adi olduğuna görə digər tərəfin nəzərdə tuta bilmədiyi müddəaları müqavilənin tərkib hissəsinə çevrilirmi?

Xeyr (maddə 419).

1809. Müqavilənin standart şərtləri təfsir edilərkən rast gəlinən bütün qeyri-müəyyənliklər kimin ziyanına (əleyhinə) təfsir edilir?

Onları özündə əks etdirən şərtlərin müqaviləyə daxil edilməsini təklif etmiş tərəfin

1810. Təklif etmiş tərəfin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər barəsində tətbiq etdiyi müqavilənin standart şərtlərində nələr etibarsız sayılır?

- Təklif etmiş tərəfin təklifi qəbul etmək, yaxud ondan imtina etmək və ya bu və ya digər işi icra etmək üçün tənasübsüz surətdə uzun və ya aşkar qısa müddət (təklifin qəbul və icra edilməsi müddətləri) müəyyənləşdirdiyini ifadə edən müddəalar;
- təklif etmiş tərəfin öz öhdəliklərinin icrası üçün əvvəlcədən müəyyənləşdirilmiş normalardan fərqlənən, tənasübsüz surətdə uzun və ya kifayət qədər aydın olmayan müddətlər (öhdəliklərin pozulması zamanı müddətlər) müəyyənləşdirdiyini ifadə edən müddəalar;
- təklif etmiş tərəfə əsassız olaraq və müqavilədə göstərilmiş əsaslar olmadan öz öhdəliyinin icrasından imtina etmək hüququ (müqavilədən imtina şərti) verən müddəalar;
- təklif etmiş tərəfə vəd olunmuş işi dəyişdirmək və ya ondan imtina etmək hüququ verən müddəalar, o şərtlə ki, bu barədə razılaşma müqavilənin digər tərəfi üçün qeyri-məqbul olsun (dəyişiklik edilməsi şərti);
- təklif etmiş tərəfə müqavilənin digər tərəfindən çəkilmiş xərclər üçün tənasübsüz surətdə yüksək əvəz (çəkilmiş xərclərin tənasübsüz surətdə yüksək əvəzi) tələb etmək hüququ verən müddəalar (maddə 420).

1811. Müqavilənin standart şərti müqaviləyə daxil edilmiş olsa da, hansı halda etibarsızdır?

Etimad və vicdanlılıq prinsiplərinə zidd olaraq müqavilənin digər tərəfi üçün zərərlidirsə

1812. Təklif etmiş tərəfin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər barəsində tətbiq etdiyi müqavilənin standart şərtlərində daha nələr etibarsız sayılır?

- Qiymətlərin əsassız qısa müddətdə yüksəldilməsini (qiymətlərin qısamüddətli yüksəldilməsi) nəzərdə tutan müddəalar;
- müqavilə tərəfinin ona MM ilə verilmiş öhdəliklərin icrasından imtina etmək hüququnu və ya müqavilənin digər tərəfi öz öhdəliklərini yerinə yetirənə qədər müqavilənin icrasından imtina etmək hüququnu (icradan imtina hüququ) məhdudlaşdıran və ya istisna edən müddəalar;
- müqavilənin tərəfini şübhəsiz və ya məhkəmə qərarı ilə müəyyənləşdirilmiş tələblərin əvəzləşdirilməsi hüququndan məhrum edən müddəalar (qarşılıqlı tələblərin əvəzləşdirilməsinin qadağan edilməsi);
- təklif etmiş tərəfi müqavilənin digər tərəfini xəbərdar etməyə və ya öhdəliyin icrası üçün ona müddət verməyə dair (öhdəliyin icrası barədə xəbərdaretmə; müddət təyinetmə) qanunla nəzərdə tutulan vəzifədən azad edən müddəalar;
- zərərin miqdarından çox olan məbləğin tələb edilməsinə dair razılaşma (zərərin əvəzinin ödənilməsinə dair yüksəldilmiş tələb);

- təklif etmiş tərəfin və ya onun təmsilçisinin kobud ehtiyatsızlığı üzündən tələbin pozulması nəticəsində vurulan zərər üçün məsuliyyəti (ehtiyatsızlıq üçün məsuliyyəti) istisna edən və ya məhdudlaşdıran müddəalar;

- təklif etmiş tərəfin əsas öhdəliyi pozduğu halda müqavilənin digər tərəfinin müqavilədən imtina etmək hüququnu məhdudlaşdıran və ya onu bu hüquqdan məhrum edən və ya müqavilənin digər tərəfini icra etməmə nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum edən və ya 420.3.6-cı maddəyə (müqavilənin standart şərtlərinə daxil edilən təklif etmiş tərəfin və ya onun təmsilçisinin kobud ehtiyatsızlığı üzündən tələbin pozulması nəticəsində vurulan zərər üçün məsuliyyəti (ehtiyatsızlıq üçün məsuliyyəti) istisna edən və ya məhdudlaşdıran müddəaların etibarsızlığı) zidd olaraq onun bu hüququnu məhdudlaşdıran (əsas öhdəliyinin icrası tələbinin pozulması) müddəalar;

- təklif etmiş tərəfin öhdəliyi hissə-hissə icra etdiyi halda müqavilənin digər tərəfini bütövlükdə müqavilənin icra edilməməsi üçün zərərin əvəzinin ödənilməsini tələb etmək və ya əgər o, hissə-hissə icrada daha maraqlı deyilsə (öhdəlik hissə-hissə icra edildikdə marağın itməsi), müqavilədən imtina etmək hüququndan məhrum edən müddəalar;

- təklif etmiş tərəfin yeni mallar göndərilərkən və işlər görülərkən əşyanın qüsurları üçün məsuliyyətini nəzərdə tutan qaydalardan fərqli olaraq məhdudlaşdıran müddəalar.

§4. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi

1813. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi, əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, hansı qaydada mümkündür?

Tərəflərin razılaşması ilə (maddə 421)

1814. Tərəflərdən birinin tələbi ilə müqavilə hansı hallarda dəyişdirilə və ya ləğv edilə bilər?

Yalnız digər tərəf müqaviləni əhəmiyyətli dərəcədə pozduqda və ya MM-də və ya müqavilədə nəzərdə tutulan digər hallarda

1815. Tərəflərdən birinin müqaviləni pozması nə zaman əhəmiyyətli pozuntu sayılır?

O zaman əhəmiyyətli pozuntu sayılır ki, bunun digər tərəfə vurduğu zərər nəticəsində o, müqavilə bağlanarkən ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olur.

1816. Nə zaman müqavilə müvafiq surətdə ləğv edilmiş və ya dəyişdirilmiş sayılır?

Müqavilənin tamamilə və ya hissə-hissə icrasından birtərəfli imtina edildikdə və belə imtinaya MM ilə və ya tərəflərin razılaşması ilə yol verildikdə

1817. Tərəflərin müqavilə bağlayarkən əsas götürdükləri şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi, hansı halda onun dəyişdirilməsinə və ya ləğv edilməsinə əsas verir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa və ya onun mahiyyətindən ayrı qayda irəli gəlmirsə (maddə 422)

1818. Şəraitin dəyişməsi hansı halda əhəmiyyətli sayılır?

O halda əhəmiyyətli sayılır ki, əgər tərəflər bu dəyişməni ağlabatan şəkildə əv-

vəlcədən görə bilsəydilər, müqaviləni əhəmiyyətli dərəcədə fərqlənən şərtlərlə bağlayar və ya ümumiyyətlə, bağlamazdılar.

1819. Tərəflərin müqavilənin əsasında durmuş təsəvvürlərinin yanlış çıxması şəraitin dəyişməsinə bərabər tutulurmu?

Bəli.

1820. Əgər tərəflər müqavilənin əhəmiyyətli dərəcədə dəyişmiş şəraitə uyğunlaşdırılması və ya ləğv edilməsi barədə razılığa gəlməsələr, eyni zamanda hansı şərtlər olduqda müqavilə maraqlı tərəfin tələbi ilə məhkəmə tərəfindən ləğv edilə bilər?

- Müqavilənin bağlandığı məqamda tərəflər şəraitin bu dərəcədə dəyişməyəcəyini əsas götürmüşlər;
- şəraitin dəyişməsini doğuran elə səbəblərdir ki, əmələ gəldikdən sonra bu səbəbləri maraqlı tərəf müqavilənin xarakterinə və dövriyyənin şərtlərinə görə ondan tələb edilən qayğı və ehtiyatla aradan qaldıra bilməz;
- müqavilənin şərtləri dəyişdirilmədən onun icra edilməsi tərəflərin müqaviləyə uyğun əmlak mənafeləri nisbətini o dərəcədə pozar və maraqlı tərəfə o qədər zərər vurardı ki, o, müqavilə bağlanarkən ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olardı;
- işgüzar adətlərdən və ya müqavilənin mahiyyətindən şəraitin dəyişməsi riskini maraqlı tərəfin daşıdığı irəli gəlmir.

1821. Əhəmiyyətli dərəcədə dəyişmiş şəraitə görə müqavilə ləğv edilərkən tərəflərdən hər hansı birinin tələbi ilə məhkəmə müqavilənin ləğv edilməsi nəticələrini müəyyənləşdirən zaman nəyi əsas götürür?

Müqavilənin icrası ilə əlaqədar çəkilmiş xərclərin tərəflər arasında ədalətli bölüşdürülməsi zərurətini

1822. Şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilənin dəyişdirilməsinə hansı hallarda məhkəmənin qərarı ilə yol verilir?

Müqavilənin ləğvinin ictimai mənafelərə zidd olduğu və ya tərəflərə müqavilənin məhkəmə tərəfindən dəyişdirilmiş şərtlərlə icrası üçün zəruri məsrəflərdən xeyli çox olan zərər vuracağı müstəsna hallarda

1823. Müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında razılaşma hansı formada bağlanır?

Əgər MM-dən, müqavilədən və ya işgüzar adətlərdən ayrı qayda irəli gəlmirsə, müqavilə ilə eyni formada (maddə 423)

1824. Tərəf müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi tələbini məhkəməyə hansı halda irəli sürə bilər?

Yalnız müqaviləni dəyişdirmək və ya ləğv etmək təklifindən digər tərəfin imtinasını aldıqda və ya təklifdə göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə otuz gün müddətində ondan cavab almadıqda

1825. Müqavilənin dəyişdirilməsi və ya ləğvi tərəflərin öhdəlikləri ilə bağlı hansı nəticə yaradır?

Müqavilə dəyişdirilərkən tərəflərin öhdəlikləri dəyişdirilmiş şəkildə saxlanılır, müqavilə ləğv edilərkən tərəflərin öhdəliklərinə xitam verilir (maddə 424).

1826. Müqavilə dəyişdirilərkən və ya ləğv edilərkən, hansı andan öhdəliklər dəyişdirilmiş və ya xətm edilmiş sayılır?

Əgər tərəflərin razılaşmasından və müqavilənin dəyişdirilməsi xarakterindən ayrı qayda irəli gəlmirsə, müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında tərəflərin razılaşmasının bağlandığı andan, müqavilə məhkəmə qaydasında dəyişdirildikdə və ya ləğv edildikdə isə müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi andan

1827. Tərəflər müqavilənin dəyişdirildiyi və ya ləğv edildiyi anadək öhdəlik üzrə icra etdiklərinin qaytarılmasını tələb edə bilərlərmi?

Əgər MM ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, edə bilməzlər.

1828. Əgər müqavilənin dəyişdirilməsinə və ya ləğvinə onu tərəflərdən birinin əhəmiyyətli dərəcədə pozması əsas vermişdirsə, digər tərəf hansı tələb hüququna maikdir?

Müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

21-ci FƏSİL
Öhdəliklərin icrası ilə bağlı suallar və cavablar

1829. Öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflər hansı qaydada hərəkət etməlidirlər?

Vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və MM-in tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə (maddə 425)

1830. Öhdəlikləri icra edərkən tərəflər hansı qaydada hərəkət etməlidirlər?

Müqavilənin yerinə yetirilməsinə zəmin yaratmaq üçün birgə hərəkət etməli və müqavilənin məqsədinə çatmağa maneçilik törədə biləcək və ya öhdəliklərin icrasını təhlükəyə məruz qoya biləcək hər cür hərəkətlərdən çəkinməlidirlər.

1831. Öhdəliklərin icrası yeri hansı qaydada müəyyənləşdirilir?

Əgər MM ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, tərəflərin iradəsi ilə (maddə 426)

1832. Əgər öhdəliyin icrası yeri müəyyənləşdirilməyibsə, icra hansı yerlərdə həyata keçirilməlidir?

- Torpaq sahəsinin, binanın, qurğunun və ya digər daşınmaz əmlakın verilməsi öhdəliyi üzrə - əmlakın olduğu yerdə;
- öhdəlik müəyyən əşyanın verilməsindən ibarətdirsə - müqavilənin bağlandığı an həmin əşyanın olduğu yerdə;
- bütün digər öhdəliklər üzrə - borclunun yaşayış yerində, borclu hüquqi şəxsdirsə - öhdəlik münasibətinin əmələ gəldiyi vaxt onun olduğu yerdə.

1833. Öhdəlik borclunun istehsal müəssisəsində əmələ gəldikdə, hansı halda borclunun müəssisəsinin olduğu yerdə icra edilir?

Əgər müəssisə onun yaşayış yerində deyilsə

1834 Yalnız borclunun göndərmə xərclərini öz öhdəsinə götürdüyünə əsaslanmaqla təyinat yerinin öhdəliyin icrası yeri olduğu qənaətinə gəlmək olarmı?

Xeyr.

1835. Əgər öhdəliyin icrası müddəti təyin edilibsə, kreditor müddət çatanadək onun icrasını tələb edə bilərmi?

Xeyr (maddə 427).

1836. Əgər öhdəliyin icrası müddəti təyin edilibsə, borclu onu vaxtından əvvəl icra edə bilərmi?

Bəli.

1837. Hansı halda kreditor öhdəliyin dərhal icrasını tələb edə bilər, borclu isə onu ağlabatan müddətdə icra etməyə borcludur?

Əgər öhdəliyin icrası müddəti təyin edilməyibsə və ya şəraitə görə onu təyin etmək mümkün deyilsə

1838. Əgər öhdəlik onun icrası gününü və ya icra edilməli olduğu vaxt dövrünü nəzərdə tutursa və ya müəyyənləşdirməyə imkan verirsə, öhdəlik nə zaman icra edilməlidir?

Öhdəlik həmin gün və ya bu cür dövr ərzində istənilən an icra edilməlidir.

1839. Ağlabatan müddətdə icra edilməmiş öhdəliyi, eləcə də icra müddəti tələbetmə anı ilə müəyyənləşdirilmiş öhdəliyi borclu hansı şərtlə kreditorun icra tələbini irəli sürdüyü gündən yeddi gün müddətində icra etməyə borcludur?

O şərtlə ki, MM-dən, öhdəliyin şərtlərindən, işgüzar adətlərdən və ya öhdəliyin mahiyyətindən icranı başqa müddətdə həyata keçirmək vəzifəsi irəli gəlməsin.

1840. Əgər öhdəliyin icrası müddəti hər hansı şərtin baş verməsindən asılıdırsa, öhdəlik nə vaxtdan icra edilməlidir?

Həmin şərtin baş verdiyi gündən

1841. Əgər kreditor icranı almaqdan üzrlü səbəbə görə imtina etməzsə, borclu icra ilə bağlı hansı hüquqa malikdir?

Öhdəliyi vaxtından əvvəl icra edə bilər (maddə 428).

1842. Öhdəliyin tərəflərinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması ilə bağlı öhdəliyin vaxtından əvvəl icrasına hansı halda yol verilir?

Yalnız öhdəliyin vaxtından əvvəl icrasının mümkünlüyü MM-də və ya öhdəlik şərtlərində nəzərdə tutulduqda və ya işgüzar dövriyyə adətlərindən və ya öhdəliyin mahiyyətindən irəli gəldikdə

1843. Əgər icra vaxtı müəyyənləşdirilibsə, şübhələr yarandıqda nə ehtimal edilir?

Ehtimal edilir ki, kreditor həmin müddətə qədər tələbin icrasını tələb edə bilməz, borclu isə öhdəliyi vaxtından əvvəl icra edə bilər.

1844. Öhdəliyin icrası üçün borclunun xeyrinə hər hansı müddət təyin edildikdə, qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa kreditor dərhal icranı hansı halda tələb edə bilər?

Əgər borclu ödəniş qabiliyyətini itirərsə və ya şərtləşdirilmiş təminatı azaldarsa, yaxud ümumiyyətlə, belə təminat verə bilməzsə

1845. Öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilirmi?

Əgər MM-də ayrı qayda nəzərdə tutulmayıbsa, yol verilmir (maddə 430).

1846. Öhdəliyin tərəflərinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması ilə bağlı öhdəliyin icrasından birtərəfli imtinaya və ya belə öhdəliyin şərtlərinin birtərəfli dəyişdirilməsinə hansı hallarda yol verilir?

Əgər MM-dən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, müqavilədə nəzərdə tutulan hallarda

1847. Borclu hansı hallarda öhdəliyi şəxsən icra etməlidir?

Öhdəliyin icrasının onun özündən asılı olduğu hallarda, habelə bunun MM-dən, müqavilədən və ya öhdəliyin təbiətindən irəli gəldiyi hallarda (maddə 431)

1848. Bütün digər hallarda öhdəlik hansı qaydada icra edilə bilər?

Borclunun əvəzinə üçüncü şəxs də icra edə bilər və buna borclunun razılığı tələb edilmir. Bu halda kreditorla bağlanmış müqaviləyə dəyişiklik edilməsi tələb olunmur.

1849. Kreditor üçüncü şəxsin təklif etdiyi icranı hansı halda qəbul etməyə bilər?

Əgər borclu bunun əleyhinədirsə

1850. Əgər kreditor borcluya mənsub əşyaya məcburi icra yönəldərsə, onda kimlər kreditoru təmin etmək hüququna malikdir?

Məcburi icra nəticəsində bu əşyaya hüquqlarının itirilməsi təhlükəsi yaranan hər hansı şəxs

1851. Üçüncü şəxs kreditoru təmin etdikdə, tələb hüququ hansı qaydada keçir?

Həmin şəxsə keçir. Lakin tələb kreditorun zərərinə olaraq keçməməlidir.

1852. Borclu öhdəliyi hansı halda hissə-hissə icra edə bilər (öhdəliyin hissə-hissə icrası)?

Əgər kreditor razıdırsa (maddə 432)

1853. Kreditor öhdəliyin hissə-hissə icrasını qəbul etməyə bilərmi?

Əgər MM-də, öhdəliyin şərtlərində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, etməyə bilər.

1854. Hansı halda icra zamanı borclunun özünün müəyyənləşdirdiyi öhdəlik ödənilir?

Əgər borclu kreditora bir neçə eyni növlü öhdəlik icra etməlidirsə və onun icra etdikləri bütün öhdəliklərin ödənilməsi üçün yetərli deyilsə

1855. Əgər borclu ödənilən öhdəliyi müəyyənləşdirməzsə, öhdəliklər hansı qaydada ödənilir?

Ödənilmə müddəti çatmış öhdəliklərdən müvafiq olaraq kreditorda daha az təminatı olan öhdəlik əvvəlcə ödənilir, bərabər təminatlı öhdəliklərdən borclu üçün daha ağır olanı, eyni dərəcədə ağır olan öhdəliklərdən daha köhnə öhdəlik, eyni müddətli öhdəliklərin isə hamısı ödənilir.

1856. Əgər borclu əsas öhdəliyin icrasından başqa, faizləri və xərcləri də ödəməlidirsə, bütün borcun ödənilməsi üçün yetərli olmayan öhdəliyin icrası hesaba hansı qaydada daxil edilir?

Əvvəlcə xərclərin hesabına, sonra faizlərin hesabına və nəhayət, əsas öhdəliyin hesabına

1857. Borclu öz öhdəliyini kimə ödəməlidir?

Kreditora və ya qanunla və ya məhkəmənin qərarı ilə icranı qəbul etməyə ixtiyarı çatan şəxsə (maddə 433)

1858. Əgər öhdəliyin icrasını ixtiyarsız şəxs qəbul edərsə, öhdəlik hansı şərtlə icra olunmuş sayılır?

Kreditorun buna razılıq verməsi və ya bu icradan fayda götürməsi şərti ilə

1859. Öhdəliyin icrası zamanı borclu icranın qəbulu ilə bağlı hansı hüquqa malikdir?

İcranı kreditorun özünün və ya ixtiyarlı şəxsin qəbul etməsinə dair sübutların təqdim olunmasını tələb edə bilər və bu cür tələbin irəli sürülməməsinə görə nəticələrin riskini daşıyır.

1860. Bir neçə öhdəlikdən biri (alternativ öhdəlik) icra edilməli olduqda seçmək hüququ kimə mənsubdur?

Əgər müqavilədən, MM-dən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, borcluya mənsubdur (maddə 434).

1861. Seçmək hüququ kreditora mənsubdursa, borclu bununla bağlı hansı hüquqa malikdir?

Ona ağlabatan müddət təyin edərək öhdəliyi seçməsini tələb edə bilər. Kreditor öhdəliyi vaxtında seçməzsə, həmin müddət keçdikdən sonra seçmək hüququ borcluya keçir.

1862. Əgər borclunun icra edilməli iki hərəkətin birindən imtina etməyə ixtiyarı çatırsa, digər hərəkəti icra etmək öhdəliyi qüvvədə qalırmı?

Bəli.

1863. Alternativ öhdəliyin seçilməsi hansı qaydada yerinə yetirilir?

Bunun digər tərəfə bəyan edilməsi və ya icranın həyata keçirilməsi vasitəsilə yerinə yetirilir. Seçilmiş öhdəlik əzəldən icra edilməli öhdəlik sayılır.

1864. MM-in 434.1, 434.2 və 434.3-cü maddələrinin qaydaları (alternativ öhdəliklə bağlı müddəalar) daha hansı hallarda tətbiq edilir?

Seçim predmetinin icra edilməli ikidən çox öhdəlikdən ibarət olduğu hallarda

1865. Kreditor müqavilədə nəzərdə tutulandan ayrı icranı qəbul etməyə borcludurmu?

Bu hüquqa malikdir, lakin qəbul etməyə borclu deyil (maddə 435).

1866. Bu qayda icranın dəyərinin daha çox olduğu halda da qüvvədə qalırmı?

Bəli.

1867. Əgər icranın keyfiyyəti müqavilədə müfəssəl müəyyənləşdirilməyibsə, borclu icranı hansı keyfiyyətdə yerinə yetirməlidir?

Ən azı orta keyfiyyətli iş görməli və orta keyfiyyətli əşya verməlidir (maddə 436).

1868. Əgər müqavilənin predmeti fərdi-müəyyən əşyadırsa, kreditor başqa əşyanı qəbul etməyə borcludurmu?

Onun dəyəri daha yüksək olsa da, qəbul etməyə borclu deyil (maddə 437).

1869. Əgər borclu fərdi-müəyyən əşyanı verməyə borcludursa, o, əşyanın verilməsi ilə bağlı hansı öhdəlik daşıyır?

O, orta tipli və keyfiyyətli eyni əşyanı verməlidir. Əgər borclu həmin əşyanın verilməsi üçün zəruri olan özündən asılı hər şeyi etmişdirsə, borc öhdəliyi bu əşya ilə məhdudlaşır.

1870. Hansı əşyaya münasibətdə borclu öhdəliyi həmişə icra etməyə borcludur?

Əgər müqavilənin predmeti əvəz edilə bilən əşyadırsa (növlü əşya) (maddə 438)

1871. Pul öhdəliyi hansı formada ifadə edilməlidir?

Pul öhdəliyi manatla ifadə edilməlidir. Əgər tərəflərdən biri xarici fiziki və ya hüquqi şəxsdirsə, tərəflər pul öhdəliyini, əgər bu, qanunla qadağan edilməyibsə, xarici valyutada da müəyyənləşdirə bilərlər (maddə 439).

1872. Əgər xarici valyutada olan pul öhdəliyi Azərbaycan Respublikasında ödənilməlidirsə, hansı hal istisna olmaqla, o, manatla ödənilir?

Ödənişin xarici valyutada aparılmalı olduğunun şərtləşdirildiyi hallar istisna olmaqla

1873. Yenidən hesablama ödəniş anında hansı məzənnə qiyməti üzrə aparılır?

Ödəniş yerinin məzənnə qiyməti üzrə

1874. Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, onlar hansı qaydada hesablanır?

Əgər MM ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında

1875. Öhdəlikdən kənar ödənilmiş pul hansı qaydalara uyğun olaraq geri tələb edilə bilər?

Əsassız varlanma qaydalarına

1876. Əgər pul öhdəliyinin icra yeri barəsində şübhə varsa, öhdəlik hansı yer üzrə icra edilməlidir?

Kreditorun olduğu yer üzrə (fiziki şəxsin yaşayış yeri və ya hüquqi şəxsin olduğu yer üzrə)

1877. Əgər ödənişin aparılmalı olduğu yerdə və ya ölkədə kreditorun pul köçürülməsi üçün nəzərdə tutulan bank hesabı varsa, borclu öz pul öhdəliyini hansı hallar istisna olmaqla, həmin hesaba köçürmə yolu ilə yerinə yetirə bilər?

Kreditorun etiraz etdiyi hallar istisna olmaqla

1878. Əgər ödəniş müddəti çatanadək pul vahidinin dəyəri (məzənnə) artmış və ya azalmışsa və ya valyuta dəyişmişsə, borclu ödənişi hansı məzənnə üzrə yerinə yetirməlidir?

Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin əmələ gəldiyi vaxta uyğun məzənnə üzrə

1879. Valyuta dəyişdikdə mübadilə münasibətlərinin əsasını hansı məzənnə təşkil etməlidir?

Valyutanın dəyişdiyi gün həmin pul vahidləri arasında mövcud olmuş məzənnə

1880. Əgər kreditorun xeyrinə olaraq borcluya müxtəlif öhdəliklərdən irəli gələn bir neçə oxşar icra həvalə edilmişsə və icra edilənlər bütün borcların ödənilməsi üçün yetərli deyilsə, borc hansı qaydada ödənilir?

Borclunun icra zamanı seçdiyi öhdəlik ödənilir, borclu seçmədikdə isə ödəniş müddəti birinci çatan borc ödənilir (maddə 440).

1881. Əgər tələblərin icra müddətləri eyni vaxtda çatarsa, hansı tələb birinci növbədə ödənilməlidir?

İcrası borclu üçün daha ağır olan tələb

1882. Əgər tələblər eyni dərəcədə ağırdırsa, hansı tələb birinci növbədə icra olunmalıdır?

Daha az təmin edilmiş tələb

1883. Hansı hal qarşılıqlı icra sayılır?

Tərəflərdən birinin öhdəliyi icra etməsi müqaviləyə uyğun olaraq digər tərəfin öz öhdəliklərini icra etməsi ilə şərtləndirildikdə (maddə 441)

1884. Mükəlləfiyyətli tərəf müqavilədə şərtləşdirilmiş öhdəliyin icrasını həyata keçirmədikdə və ya həmin icranın müəyyənləşdirilmiş müddətdə həyata keçirilməyəcəyini aşkar edən hallar olduqda qarşılıqlı icra öhdəsinə düşən tərəf hansı hüquqa malikdir?

Öz öhdəliyinin icrasını dayandıra bilər və ya öhdəliyin icrasından imtina edib zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

1885. Əgər müqavilədə şərtləşdirilmiş öhdəliyin icrası tam həcmdə həyata keçirilməzsə, qarşılıqlı icra öhdəsinə düşən tərəf hansı hüquqa malikdir?

Öz öhdəliyinin icrasını dayandıra bilər və ya həyata keçirilməmiş icraya müvafiq hissədə icradan imtina edə bilər.

1886. Hansı halda digər tərəf müqavilədə şərtləşdirilmiş öhdəliyinin icrasını həyata keçirmədiyinə baxmayaraq, digər tərəf öz öhdəliyini icra etməlidir?

Öhdəliyin qarşılıqlı icrası həyata keçirilərsə

1887. MM-in 441.2-441.4-cü maddələrində öhdəliklərin qarşılıqlı icrası ilə bağlı nəzərdə tutulan qaydalar hansı halda tətbiq edilir?

Müqavilədə ayrı qayda nəzərdə tutulmadıqda

22-ci FƏSİL
Öhdəliklərin icra edilməməsi ilə bağlı suallar və cavablar

1888. Öhdəliyin icra edilməməsi dedikdə nə başa düşülür?

Onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür (maddə 442).

1889. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Hansı halda bu qayda qüvvədə olmur?

Borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda (maddə 443)

1890. Zərər hansı qaydalara uyğun müəyyənləşdirilir?

MM-in 21-ci maddəsində nəzərdə tutulan qaydalara (Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür. Zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbin həcminin müəyyənləşdirilməsi zamanı zərərçəkənin, onun işçisinin və qanunvericiliklə nəzərdə tutulmuş hallarda üçüncü şəxslərin davranışının zərərin yaranmasına və artmasına hansı həcmdə şərait yaratması nəzərə alınmalıdır)

1891. Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, zərər müəyyənləşdirilərkən hansı qiymətlər nəzərə alınır?

Öhdəliyin icra edilməli olduğu yerdə kreditorun tələbini borclunun könüllü ödədiyi gün mövcud olmuş qiymətlər, tələb könüllü ödənilmədikdə isə məhkəmənin qərar çıxardığı gün mövcud olmuş qiymətlər

1892. Əldən çıxmış fayda müəyyənləşdirilərkən nələr nəzərə alınır?

Kreditorun onu əldə etmək üçün gördüyü tədbirlər və bu məqsədlə apardığı hazırlıq işləri

1893. Borclu icranı gecikdirdikdə kreditor ona öhdəliyin icrası üçün zəruri vaxt təyin edə bilər. Əgər borclu öhdəliyi bu müddətdə də icra etməzsə, kreditor hansı tələbi irəli sürə bilər?

Öhdəliyin icrası əvəzinə zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

1894. Hansı hallarda əlavə müddət təyin edilməsi zərurəti yoxdur?

Əgər əlavə müddətin təyin edilməsinin hər hansı nəticə verməyəcəyi aydındırsa və ya zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan dərhal istifadəyə hər iki tərəfin mənafeləri əsas götürülməklə haqq qazandıran xüsusi hallar mövcuddursa

1895. Əgər öhdəlikdə ayrı qayda nəzərdə tutulmayıbsa və ondan ayrı qayda irəli gəlmirsə, borclunun üzərinə hansı zərərin əvəzini ödəmək vəzifəsi qoyulur?

Yalnız qəsdən və ya ehtiyatsızlıqdan edilmiş hərəkətlər nəticəsində dəymiş zərərin

1896. Borclunun öhdəliyi qəsdən edilmiş hərəkətlər nəticəsində icra etməməsi zamanı onun zərərin əvəzini ödəməkdən azad edilməsi barədə tərəflər qabaqcadan razılıq əldə edə bilərmi?

Bu, yolverilməzdir.

1897. Borclu öz qanuni təmsilçisinin və öhdəliklərinin icrası üçün hansı həcmdə məsuliyyət daşımalıdır?

Xidmətlərindən istifadə etdiyi digər şəxslərin hərəkətləri üçün özünün təqsirli hərəkətləri üçün olan həcmdə

1898. Borclu icra predmetini başqa şəxsdən almalı olduqda və onu ala bilmədikdə icra üçün məsuliyyət daşıyırmı?

Əgər müqavilədən ayrı qayda irəli gəlmirsə, icra etməmək üçün məsuliyyət daşıyır.

1899. İcranı gecikdirmiş borclu kreditor qarşısında hansı həddə məsuliyyət daşıyır?

Gecikdirmə nəticəsində vurduğu zərər üçün və gecikdirmə zamanı təsadüfən baş vermiş icra mümkünsüzlüyünün nəticələri üçün (maddə 445)

1900. Hansı hallar borclunun icranı gecikdirməsi sayılır?

- Öhdəliyin onun icrası üçün müəyyənləşdirilmiş müddətdə icra edilməməsi;
- icra müddəti çatanadək kreditorun etdiyi xəbərdarlıqdan sonra da öhdəliyin icra edilməməsi

1901. Hansı hərəkətlər xatırlatmaya bərabər tutulur?

Öhdəliyin icrası barədə iddia irəli sürülməsi, habelə icraya dair yazılı tələbin çatdırılması

1902. Hansı halda borclu icranı xatırlatmasız gecikdirmiş sayılır?

İcra üçün təqvim günü təyin edildikdə, əgər borclu təyin edilmiş vaxtadək öhdəliyi icra etməzsə

1903. İcraya qədər öhdəlik ləğv edildikdə, hansı halda eyni qayda qüvvədə olur?

Əgər icra müddəti təyin edilmişsə və onu ləğvetmə anından təqvim üzrə hesablamaq mümkündürsə

1904. Öhdəlik nə zaman icra edilməyəndə gecikdirmə sayılmır?

Borclunun təqsiri olmadan baş vermiş hallar nəticəsində

1905. Borclu hansı halda təsadüfi hallar üçün də məsuliyyət daşıyır?

Zərərin öhdəliyin vaxtında icrası zamanı da əmələ gələ biləcəyini sübuta yetirməzsə

1906. MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə kreditor hansı tələb hüququna malikdir?

Gecikdirilmiş vaxt üçün gecikdirilmiş məbləğə illik beş faiz ödənilməsini tələb edə bilər.

1907. Faizdən faiz ödənilə bilərmi?

Bu, yolverilməzdir.

1908. Kreditor borclunun icranı gecikdirməsi nəticəsində icraya marağını itirdikdə, hansı hüquqa malikdir?

İcranı qəbul etməkdən imtina edə və zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

1909. Nə vaxtadək borclu icranı gecikdirmiş sayılmır?

Öhdəlik kreditorun gecikdirməsi nəticəsində icra edilə bilmədiyi müddətdə

1910. Kreditorun icranı gecikdirməsi borcluya gecikdirmə nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsi hüququnu hansı şərtlə verir?

O şərtlə ki, kreditor gecikdirmənin nə onun, nə də icranı qəbul etməyin həvalə olunduğu şəxslərin cavabdeh olmadıqları hallara görə baş verdiyini sübuta yetirməsin (maddə 446).

1911. Pul öhdəliyi üzrə borclu kreditorun icranı gecikdirdiyi müddət üçün faizlər ödəməyə borcludurmu?

Xeyr.

1912. Kreditorun icranı gecikdirməsi zamanı borclu öhdəliyin icra edilməməsi üçün hansı şərtlə məsuliyyət daşıyır?

Yalnız bu şərtlə məsuliyyət daşıyır ki, icra borclunun qərəzi və ya kobud ehtiyatsızlığı nəticəsində qeyri-mümkün olsun.

1913. Gecikdirmə zamanı kreditor onun təqsirindən asılı olmayaraq hansı məsuliyyəti daşıyır?

- Müqavilə predmetinin saxlanması ilə əlaqədar çəkilmiş artıq xərclərin əvəzini borcluya ödəməlidir;
- əşyanın təsadüfən korlanması və ya məhv olması riski onun üzərinə düşür;
- pul öhdəliyi üçün faizlər almaq hüququna daha malik deyildir.

1914. Əgər təklif edilmiş icra vaxtınadək borclu kreditorun hərəkəti üçün təyin edilmiş müddət ərzində öhdəliyi icra etməyə qadir deyilsə, kreditor icranı gecikdirmiş sayılırmı?

Xeyr.

1915. Borclu öhdəliyi yalnız kreditor tərəfindən qarşılıqlı öhdəliyin icrasından sonra icra etməli olduğu halda kreditor icranı nə zaman gecikdirmiş sayılır?

O zaman gecikdirmiş sayılır ki, təklif olunmuş icradan imtina etmədən qarşılıqlı öhdəliyin tələb olunan icrasını təklif etmir.

1916. Əgər öhdəliyin icrası müddəti müəyyənləşdirilməyibsə və ya borclu təyin edilmiş vaxtadək öhdəliyi icra etmək hüququna malik deyilsə, kreditor təklif olunmuş icranı qəbul etməyə müvəqqəti imkanı olmadığına görə icranı gecikdirmiş sayılmır, bu zaman hansı hal istisnadır?

Borclunun buna qədər ağlabatan müddətdə ona icranı təklif etdiyi hallar istisna təşkil edir.

1917. Hansı halda borclunun icra vəzifəsi təklif edilmiş əşya ilə məhdudlaşır, onun məhv olması və ya təsadüfən zədələnməsi riski isə kreditora keçir?

Əgər öhdəliyin predmeti fərdi-müəyyən əşyadırsa və kreditorun icranı gecikdirməsinin səbəbi təklif edilmiş eyni növlü əşyadan imtinadırsa

1918. Əgər ikitərəfli müqavilənin bir tərəfi müqavilədən irəli gələn öhdəlikləri icra etmirsə, müqavilənin digər tərəfi nə zaman müqavilədən imtina edə bilər?

Öhdəliklərin icrası üçün təyin etdiyi əlavə müddət nəticəsiz qurtardıqdan sonra (maddə 447)

1919. Hansı halda xəbərdarlıq edilməsi əlavə müddət təyin olunmasına bərabər tutulur?

Əgər öhdəliyin pozulması xarakteri əsas götürülməklə əlavə müddət tətbiq edilmirsə

1920. Əgər öhdəliyin yalnız bir hissəsi icra edilməmişsə, kreditor müqavilədən hansı halda imtina edə bilər?

Yalnız öhdəliyin qalan hissəsinin icrasına marağını itirdiyi halda

1921. Hansı hallarda əlavə müddət təyin edilməsi və ya xəbərdarlıq edilməsi zərurəti yoxdur?

- Bunun heç bir nəticə verməyəcəyi aydın olduqda;
- öhdəlik müqavilədə təyin edilmiş müddətdə icra edilmədikdə və müqaviləyə görə kreditor münasibətlərin davam etdirilməsini öhdəliyin vaxtında icrası ilə bağladıqda;
- xüsusi əsaslara görə və qarşılıqlı mənafelər nəzərə alınmaqla müqavilənin dərhal ləğv edilməsinə haqq qazandırıldıqda

1922. Hansı hallarda müqavilədən imtina yolverilməzdir?

- Öhdəliyin pozuntusu cüzi olduqda;
- öhdəliyin pozulması üçün tamamilə və ya əsasən kreditorun özü məsuliyyət daşıdıqda;
- öhdəliyin qarşısında borclu tərəfindən artıq irəli sürülmüş və ya müqavilədən imtina edildikdən dərhal sonra irəli sürüləcək qarşılıqlı tələb olduqda

1923. Müqavilədən imtina üçün əsasların baş verəcəyi aşkar olduqda kreditor müqavilədən nə vaxtadək imtina edə bilər?

İcra müddəti qurtaranadək

1924. Əgər ikitərəfli müqaviləyə görə borclu onun üzərinə qoyulmuş öhdəliklərdən imtina edə bilərsə, ona bu hüququ verən hal isə kreditorun təqsiri üzündən yaranmışsa, o, hansı hüququnu saxlayır?

Cavab icrası almaq hüququnu

1925. Hansı halda bu qayda tətbiq edilmir?

Əgər cavab icrası üçün əsas kreditorun icranı almağı ləngitdiyi vaxt əmələ gələrsə

1926. Müqavilədən çıxarkən kreditor müqavilənin icra edilməməsi nəticəsində ona dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilər. Hansı halda bu qayda tətbiq edilmir?

Müqavilədən çıxmaq üçün əsas borclunun təqsiri üzündən yaranmadıqda

23-cü FƏSİL
Öhdəliklərin icra edilməməsinə görə məsuliyyətlə bağlı suallar və cavablar

1927. Borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi hansı hallar üçün cavabdehdir?

Əgər MM ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bütün hallar üçün (maddə 448)

1928. Borclunu təqsirə görə, yəni qərəzə və ya kobud ehtiyatsızlığa görə məsuliyyətdən qabaqcadan azad etmək olarmı?

Xeyr.

1929. Borclu öz qanuni təmsilçilərinin və öhdəliyinin tamamilə və ya hissə-hissə icrası üçün xidmətlərindən istifadə etdiyi şəxslərin hərəkəti və ya hərəkətsizliyi üçün hansı dərəcədə məsuliyyət daşımalıdır?

Öz hərəkəti və ya hərəkətsizliyi üçün olan dərəcədə

1930. Borclu öhdəliyin pozulmasına görə hansı şərtlə məsuliyyət daşımır?

O şərtlə məsuliyyət daşımır ki, pozuntunun onun cavabdeh olmadığı haldan irəli gəldiyini və müqavilə bağlanarkən onun həmin halı nəzərə ala biləcəyini, yaxud bu halı və ya onun nəticələrini istisna edə və ya aradan qaldıra biləcəyini gözləməyin mümkün olmadığını sübuta yetirsin.

1931. Hansı halda borclu maneə və icra qabiliyyətinə onun təsiri barədə kreditora dərhal məlumat verməlidir?

Borclu maneədən xəbərdardırsa və ya xəbərdar olmalıdırsa

1932. Əgər kreditor məlumatı dərhal almazsa, borclu hansı məsuliyyəti daşıyır?

Məlumatın vaxtında alınmaması ilə əlaqədar kreditorun düşdüyü zərər üçün

1933. Özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitlə bağlı hansı öhdəlik icra edilməlidir?

Həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir (maddə 449).

1934. Qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin miqdarı hansı qaydada müəyyənləşdirilir?

Pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi ilə

1935. Borc məhkəmə qaydasında tutulduqda məhkəmə kreditorun tələbini hansı gün üçün bank uçot dərəcəsini əsas götürməklə ödəyə bilər?

Qərarın çıxarıldığı gün üçün

1936. Bank uçot dərəcəsini hansı orqan müəyyənləşdirir?

Azərbaycan Respublikasının Mərkəzi Bankı

1937. Əgər kreditorun pul vəsaitindən qanunsuz istifadə nəticəsində ona dəyən zərər MM-in 449.1-ci maddəsinə əsasən ona çatası faizlərin məbləğindən çoxdursa, kreditor hansı tələb hüququna malikdir?

Borcludan həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

1938. Özgə vəsaitindən istifadə üçün faizlər hansı günə qədər tutulur?

Əgər bu Məcəllədə və ya müqavilədə faizlərin hesablanması üçün daha qısa müddət müəyyənləşdirilməyibsə, həmin vəsait məbləğinin kreditora ödənildiyi günə qədər

1939. Öhdəliyin lazımınca icra edilmədiyi halda dəbbə pulunun və zərərin əvəzinin ödənilməsi borclunu öhdəliyin naturada icrasından azad edirmi?

Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, etmir (maddə 450).

1940. Öhdəliyin icra edilmədiyi halda zərərin əvəzinin ödənilməsi və onun icra edilməməsi üçün dəbbə pulunun ödənilməsi borclunu öhdəliyin naturada icrasından azad edirmi?

Əgər MM-də və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, edir.

1941. Kreditorun gecikdirilmə nəticəsində marağını itirdiyi icranı qəbul etməkdən imtina etməsi, habelə peşman haqqı kimi müəyyənləşdirilmiş dəbbə pulunun ödənilməsi borclunu öhdəliyin naturada icrasından azad edirmi?

Bəli.

1942. Borclu əmlakı hazırlamaq və kreditorun mülkiyyətinə vermək və ya əmlakı kreditorun istifadəsinə vermək və ya onun üçün müəyyən işi görmək və ya ona müəyyən xidməti göstərmək öhdəliyini icra etmədikdə kreditor hansı hüquqa malikdir?

Əgər MM-dən, müqavilədən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, ağlabatan qiymətə və ağlabatan müddətdə öhdəliyin icrasını üçüncü şəxslərə tapşıra bilər və ya onu öz qüvvələri ilə icra edə bilər və çəkdiyi zəruri xərclərin və digər zərərin əvəzini ödəməyi borcludan tələb edə bilər (maddə 451).

1943. Fərdi-müəyyən əşyanı kreditorun mülkiyyətinə və ya əvəzli istifadəsinə vermək öhdəliyi icra edilmədikdə kreditor həmin əmlakın borclunun əlindən alınmasını və öhdəlikdə nəzərdə tutulan şərtlərlə ona verilməsini tələb edə bilər. Bu hüquq hansı halda aradan qalxır?

Əmlakın üçüncü şəxsə mülkiyyət hüququ ilə verildiyi halda (maddə 452)

1944. Fərdi-müəyyən əşyanı kreditorun mülkiyyətinə və ya əvəzli istifadəsinə vermək öhdəliyi icra edilmədikdə kreditor öhdəliyin predmeti olan əmlakın ona verilməsini tələb etmək əvəzinə nəyi tələb edə bilər?

Zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

1945. Kreditor nə vaxta qədər əsas borcluya qarşı tələb irəli sürməlidir?

MM-ə və ya öhdəliyin şərtlərinə görə, əsas borclu olan digər şəxsin məsuliyyətinə əlavə məsuliyyət (subsidiar məsuliyyət) daşıyan şəxsə qarşı tələblərini irəli sürənədək (maddə 453)

1946. Hansı halda bu tələb subsidiar məsuliyyət daşıyan şəxsə qarşı irəli sürülə bilər?

Əgər əsas borclu kreditorun tələbini ödəməkdən imtina etmişsə və ya kreditor irəli sürdüyü tələb üçün ondan ağlabatan müddətdə cavab almamışsa

1947. Əgər kreditorun əsas borcluya tələbi əsas borclunun qarşılıqlı tələbinin əvəzləşdirilməsi yolu ilə ödənilə bilərsə, kreditor bu tələbin ödənilməsini subsidiar məsuliyyət daşıyan şəxsdən tələb edə bilərmi?

Xeyr.

1948. Subsidiar məsuliyyət daşıyan şəxs kreditorun ona qarşı irəli sürdüyü tələbi ödəyənədək hansı öhdəliyi daşıyır?

Bu barədə əsas borclunu xəbərdar etməlidir, həmin şəxsə qarşı iddia irəli sürüldükdə isə əsas borclunu işdə iştiraka cəlb etməlidir.

1949. Əks halda əsas borclu hansı hüquqa malikdir?

Subsidiar məsuliyyət daşıyan şəxsin reqres tələbinə qarşı kreditorun tələblərinə qarşı olan etirazlarını irəli sürmək hüququna malikdir.

1950. Öhdəliklərin ayrı-ayrı növləri üzrə və müəyyən fəaliyyət növü ilə bağlı öhdəliklər üzrə zərərin əvəzinin tam ödənilməsi hüququ məhdudlaşdırıla bilərmi?

Qanunla məhdudlaşdırıla bilər (məhdud məsuliyyət) (maddə 454).

1951. Qoşulma müqaviləsi üzrə və ya kreditorun istehlakçı kimi çıxış edən fiziki şəxs olduğu digər müqavilə üzrə borclunun məsuliyyət ölçüsünün məhdudlaşdırılması haqqında razılaşma hansı halda əhəmiyyətsizdir?

Əgər həmin öhdəlik növü və ya həmin pozuntu üçün məsuliyyət ölçüsü MM ilə müəyyənləşdirilmişsə və əgər razılaşma öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyətə səbəb olan hallar baş verənə qədər bağlanmışsa

1952. Borclunun öhdəliyini icra etmək üçün onun işçilərinin yerinə yetirdikləri hərəkətlər borclunun hərəkətləri sayılır. Hansı halda borclu bu hərəkətlər üçün məsuliyyət daşıyır?

Əgər həmin hərəkətlər öhdəliyin icra edilməməsinə və lazımınca icra edilməməsinə səbəb olmuşsa (maddə 456)

1953. Hansı halda məhkəmə borclunun məsuliyyətinin ölçüsünü müvafiq surətdə azaldır?

Əgər öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi hər iki tərəfin təqsiri üzündən baş vermişsə. Kreditor icra etməmək və ya lazımınca icra etməmək nəticəsində dəyən zərərin miqdarının artmasına qəsdən və ya ehtiyatsızlıq üzündən kömək göstərdikdə və ya zərəri azaltmaq üçün ağlabatan tədbirlər görmədikdə də məhkəmə borclunun məsuliyyətinin ölçüsünü azalda bilər (maddə 458).

1954. MM-in 458.1-ci maddəsinin qaydaları (öhdəliyin hər iki tərəfin təqsiri üzündən pozulmasının nəticələri) hansı hallarda da tətbiq edilir?

MM-ə və ya müqaviləyə görə borclunun öz təqsirindən asılı olmayaraq öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşıdığı hallarda müvafiq surətdə tətbiq edilir.

1955. Zərərin əvəzini ödəməyə borclu olan şəxs hansı vəziyyəti bərpa etməlidir?

Əvəz ödəməyə borclu edən hal baş verməsəydi, mövcud olacaq vəziyyəti (maddə 459)

1956. Əgər bədən xəsarəti və ya sağlamlığa zərər vurulması nəticəsində zərərçəkən əmək qabiliyyətini itirmişsə və ya bu qabiliyyəti azalmışsa, yaxud onun tələbatı artırsa, zərərçəkənə zərərin əvəzi hansı qaydada ödənilməlidir?

Aylıq dolanacaq xərcinin verilməsi ilə

1957. Əgər vacib əsaslar olduğu aşkardırsa, zərərçəkən dolanacaq xərclərinin əvəzinə hansı tələb irəli sürə bilər?

Kompensasiya verilməsini tələb edə bilər.

1958. Hansı halda kreditora pul əvəzi verilə bilər?

Əgər ilkin vəziyyətin bərpası yolu ilə zərərin əvəzinin ödənilməsi mümkün deyilsə və ya bunun üçün tənasübsüz surətdə böyük xərclər zəruridirsə

1959. Qabaqcadan razılaşmaya əsaslanaraq, öhdəliyin pozulması nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan imtina edilə bilərmi?

Bu, yolverilməzdir.

1960. Zərərin həcmi müəyyənləşdirilərkən nələr nəzərə alınmalıdır?

Öhdəliyin lazımınca icrası barəsində kreditorun mənafeləri nəzərə alınmalıdır. Zərərin həcminin müəyyənləşdirilməsi üçün müqavilənin icrası yeri və vaxtı da nəzərə alınmalıdır.

24-cü FƏSİL
Öhdəliklərin icrasının təmin edilməsi ilə bağlı suallar və cavablar

§1. Öhdəliklərin icrasının təmin edilməsi haqqında ümumi müddəalar

1961. Öhdəliklərin icrası hansı üsullarla təmin edilə bilər?

Girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh ilə və MM-də və ya müqavilədə nəzərdə tutulan digər üsullarla (maddə 460)

1962. Öhdəliyin icrasının təmin edilməsi barədə razılaşmanın etibarsızlığı əsas öhdəliyin etibarsızlığına səbəb olurmu?

Xeyr.

1963. Əsas öhdəliyin etibarsızlığı onu təmin edən öhdəliyin etibarsızlığına səbəb olurmu?

Əgər MM ilə ayrı qayda müəyyənləşdirilməyibsə, olur.

1964. Öhdəliklərin icrası üçün təminat vermiş şəxs kreditorun razılığı ilə onu başqa təminatla əvəz edə bilərmi?

Bəli (maddə 461).

§2. Dəbbə pulu

1965. Dəbbə pulunun (cərimə, penya) mahiyyəti nədən ibarətdir?

Qanun və ya müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğidir (maddə 462).

1966. Əgər öhdəliyin məzmununu hərəkətdən çəkinmək təşkil edirsə, dəbbə pulu hansı andan tutulmalıdır?

Hərəkətin edildiyi andan

1967. Dəbbə pulunun ödənilməsi tələbi üzrə kreditor ona zərər vurulduğunu sübuta yetirməyə borcludurmu?

Xeyr.

1968. Hansı halda kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz?

Əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa

1969. Hansı halda öhdəliyin icra edilməməsi üçün dəbbə pulu haqqında qəbul edilmiş razılaşma, hətta həmin vədin etibarsızlığı tərəflərə məlum olsa belə, etibarsızdır?

Əgər öhdəliyin icrası barədə vəd MM-ə görə etibarsız sayılırsa

1970. Əgər borclu öz öhdəliyini icra etdiyinə görə dəbbə pulu tutulması barədə mübahisə edirsə, o, icranı hansı şərtlə sübuta yetirməlidir?

O şərtlə ki, öhdəlik hərəkətdən çəkinməkdən ibarət olmasın.

1971. Dəbbə pulu haqqında razılaşma hansı formada bağlanmalıdır?

Əsas öhdəliyin formasından asılı olmayaraq yazılı formada (maddə 463)

1972. Yazılı formaya riayət edilməməsi dəbbə pulu haqqında razılaşma ilə bağlı hansı hüquqi nəticə yaradır?

Dəbbə pulu haqqında razılaşmanın etibarsızlığına səbəb olur.

1973. Kreditor qanunla müəyyənləşdirilmiş dəbbə pulunun ödənilməsini, tərəflərin razılaşmasında onun ödənilməsi vəzifəsinin nəzərdə tutulub-tutulmadığından asılı olmayaraq, tələb edə bilərmi?

Bəli (maddə 464).

1974. Hansı halda tərəflər qanun üzrə dəbbə pulunun miqdarını artıra bilərlər?

Əgər qanunla qadağan edilməyibsə

1975. Əgər borclu öhdəliyin icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd edirsə, kreditor müqavilənin icrası əvəzinə dəbbə pulu ödənilməsini tələb edə bilər. Hansı halda bu tələb istisna olunur?

Əgər kreditor borcluya cərimə ödənilməsini tələb etdiyini elan edərsə (maddə 465)

1976. Əgər kreditorun icra etməmək nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüququ varsa, o, tutulmalı olan cəriməni zərərin minimum məbləği kimi tələb edə bilər. Bununla kreditorun digər zərərin tutulması hüququ istisna edilirmi?

Xeyr.

1977. Əgər borclu öhdəliyin lazımınca icra edilməməsi, o cümlədən müəyyənləşdirilmiş müddətdə icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd etmişsə, kreditor hansı hüquqa malikdir?

Cərimənin ödənilməsini və öhdəliyin icrasını tələb edə bilər.

1978. Əgər kreditor icranı qəbul etmişsə, cərimənin tutulmasını hansı halda tələb edə bilər?

Yalnız icranı qəbul edərkən bu hüququ özündə saxlamış olduğu halda

1979. Əgər borclu pul cəriməsinin ödənilməsi əvəzinə başqa hərəkəti icra edəcəyini vəd edirsə, MM-in hansı müddəaları tətbiq edilir?

465.1 və 465.2-ci maddələrinin tələbləri:

- Əgər borclu öhdəliyin icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd edirsə, kreditor müqavilənin icrası əvəzinə dəbbə pulu ödənilməsini tələb edə bilər. Əgər kreditor borcluya cərimə ödənilməsini tələb etdiyini elan edərsə, öhdəliyin icra edilməsi barədə tələb istisna olunur. Əgər kreditorun icra etməmək nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüququ varsa, o, tutulmalı olan cəriməni zərərin minimum məbləği kimi tələb edə bilər. Bununla kreditorun digər zərərin tutulması hüququ istisna edilmir.

- Əgər borclu öhdəliyin lazımınca icra edilməməsi, o cümlədən müəyyənləşdirilmiş müddətdə icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd etmişdirsə, kreditor cərimənin ödənilməsini və öhdəliyin icrasını tələb edə bilər. Əgər kreditorun lazımınca icra etməmək nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüququ varsa, kreditor onun ödənilməsini tələb edə bilər. Əgər kreditor icranı qəbul etmişsə, cərimənin tutulmasını yalnız icranı qəbul edərkən bu hüququ özündə saxlamış olduğu halda tələb edə bilər.

1980. Əgər öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün dəbbə pulu müəyyənləşdirilmişsə, zərərin dəbbə pulu çatmamış hissəsinin əvəzi ödənilirmi?

Bəli (maddə 466).

1981. Qanunda və ya müqavilədə hansı hallar nəzərdə tutula bilər?

- Zərərin deyil, yalnız dəbbə pulunun tutulmasına yol verilə bilər;
- dəbbə pulundan artıq zərər tam məbləğdə tutula bilər;
- kreditorun seçiminə uyğun, ya dəbbə pulu, ya da zərər tutula bilər.

1982. Öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məhdud məsuliyyətin müəyyənləşdirildiyi hallarda dəbbə pulu çatmayan və ya dəbbə pulundan yuxarı hissədə və ya onun əvəzinə ödənilməli olan zərər hansı həddə tutula bilər?

Həmin məhdudiyyətlə müəyyənləşdirilmiş həddə qədər

1983. Məhkəmə işin hallarını nəzərə alaraq hansı dəbbə pulunu azalda bilər?

Tənasübsüz surətdə yüksək olan dəbbə pulunu (maddə 467)

1984. Tənasüb müəyyənləşdirilərkən nələr nəzərə alınır?

Kreditorun həm əmlak mənafeləri, həm də bütün əsaslı mənafeləri

1985. Dəbbə pulunun miqdarının azaldılması nə zaman istisna edilir?

Ödənildikdən sonra

§3. Saxlama

1986. Borcluya və ya borclunun göstərdiyi şəxsə verilməli əmlak kreditorda olduqda, hansı halda kreditorun həmin əmlakı müvafiq öhdəlik icra edilənədək saxlamaq ixtiyarı var?

Əgər borclu həmin əmlakı ödəmək və ya kreditora bununla bağlı xərclərin və digər zərərin əvəzini ödəmək öhdəliyini vaxtında icra etməzsə (maddə 468)

1987. Tərəfləri sahibkarlar kimi fəaliyyət göstərən öhdəlikdən əmələ gələn tələblər də əmlakın saxlanması ilə təmin edilə bilərmi?

Əmlakın və ya ona çəkilən xərclərin və digər zərərin əvəzinin ödənilməsi ilə bağlı olmasa da, edilə bilər.

1988. Əmlakı saxlayan kreditorun tələbləri hansı qaydada ödənilir?

Girovla təmin edilmiş tələblərin ödənilməsi üçün nəzərdə tutulan həcmdə və qaydada əmlakın dəyərindən ödənilir (maddə 469).

§4. Zaminlik

1989. Zaminlik müqaviləsi üzrə zamin hansı məsuliyyəti öz üzərinə götürür?

Başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün (maddə 470)

1990. Zaminlik müqaviləsi gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün də bağlana bilərmi?

Bəli.

1991. Zaminlik müqaviləsi hansı formada bağlanmalıdır?

Yazılı formada bağlanmalıdır. Yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur (maddə 471).

1992. Borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, hansı halda zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar?

Əgər MM-də və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa (maddə 472)

1993. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, zamin kreditor qarşısında hansı həcmdə məsuliyyət daşıyır?

Faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, borclu ilə eyni həcmdə

1994. Birgə zamin olmuş şəxslər, əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, kreditor qarşısında məsuliyyət daşıyırlarmı?

Bəli, birgə məsuliyyət daşıyırlar.

1995. Zaminin borcluya göstərdiyi xidmətlər üçün muzd almaq hüququ varmı?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, belə bir hüququ var (maddə 473).

1996. Əgər zaminlik müqaviləsindən ayrı qayda irəli gəlmirsə, zamin kreditorun tələbinə qarşı hansı etirazlar irəli sürə bilər?

Borclunun irəli sürə biləcəyi etirazları (maddə 474).

1997. Zamin kreditorun tələbinə qarşı etirazlar irəli sürmək hüququnu nə zaman itirir?

Hətta borclunun onlardan imtina etdiyi və ya öz borcunu etiraf etdiyi halda da itirmir.

1998. Zamin kreditorun tələbini ödəyənədək hansı öhdəliyi daşıyır?

Bu barədə borclunu xəbərdar etməyə, zaminə qarşı iddia irəli sürüldükdə isə borclunu işdə iştiraka cəlb etməyə borcludur.

1999. Zamin MM-in 474.2-ci maddəsində göstərilən vəzifələri (zaminin kreditorun tələbini ödəyənədək bu barədə borclunu xəbərdar etmək, zaminə qarşı iddia irəli sürüldükdə isə borclunu işdə iştiraka cəlb etmək) yerinə yetirmədikdə borclu zaminin reqres tələbinə qarşı hansı hüquqa malikdir?

Kreditora qarşı etirazlar irəli sürə bilər.

2000. Öhdəliyi icra etmiş zaminə kreditorun həmin öhdəlik üzrə hüquqları və kreditora girov saxlayan kimi mənsub olmuş hüquqlar hansı həcmdə keçir?

Zaminin kreditorun tələbini ödədiyi həcmdə (maddə 475)

2001. Zamin borcludan kreditora ödənilmiş məbləğdən faizlər ödəməyi və borclunun əvəzinə məsuliyyətlə bağlı çəkdiyi digər zərərin əvəzini ödəməyi tələb edə bilərmi?

Bəli.

2002. Zamin öhdəliyi icra etdikdən sonra kreditor hansı hərəkətləri etməyə borcludur?

Borcluya qarşı tələbi təsdiqləyən sənədləri zaminə təqdim etməyə və həmin tələbi təmin edən hüquqları verməyə

2003. MM-in 475-ci maddəsində (öhdəliyi icra etmiş zaminin hüquqları) müəyyənləşdirilmiş qaydalar hansı halda tətbiq edilir?

MM-də və ya zaminin borclu ilə müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda və onlar arasında münasibətlərdən ayrı qayda irəli gəlmədikdə

2004. Zaminliklə təmin edilən öhdəliyi icra etmiş borclu bu barədə dərhal kimə məlumat verməlidir?

Zaminə (maddə 476).

2005. Zaminliyə hansı hallarda xitam verilir?

- Zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda;
- əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməmişsə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə;
- kreditor borclunun və ya zaminin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə;
- zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda (maddə 477).

2006. Belə müddət təyin edilmədikdə zaminliyə nə zaman xitam verilir?

Onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda

2007. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə nə zaman xitam verilir?

Zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda

§5. Qarantiya

2008. Qarantiyanın mahiyyəti nədən ibarətdir?

Qarantiyaya əsasən, qarant (bank, digər kredit təşkilatı və ya sığorta təşkilatı) digər şəxsin (prinsipalın) xahişi ilə prinsipalın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir (maddə 478).

2009. Qarantiya nəyi təmin edir?

Prinsipalın benefisiar qarşısında öhdəliyini (əsas öhdəliyi) lazımınca icra etməsini (maddə 479)

2010. Qarantiya verilməsinə görə prinsipal qarant qarşısında hansı öhdəliyi daşıyır?

Ona şərtləşdirilmiş muzd ödəyir.

2011. Qarantın benefisiar qarşısında qarantiya ilə nəzərdə tutulan öhdəliyi hansı xarakterlidir?

Müstəqil öhdəlikdir və icrasının təminatı üçün verildiyi əsas öhdəlikdən, hətta qarantiyada bu öhdəliyə istinad edilsə belə, asılı deyildir (maddə 480).

2012. Qarantiya qarant tərəfindən geri götürülə bilərmi?

Əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, götürülə bilməz (maddə 481).

2013. Qarantiya üzrə benefisiara mənsub olan, qaranta qarşı tələb irəli sürmək hüququ başqa şəxsə verilə bilərmi?

Əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, verilə bilməz (maddə 482).

2014. Qarantiya nə zaman qüvvəyə minir?

Əgər qarantiyada ayrı müddət nəzərdə tutulmayıbsa, verildiyi gündən (maddə 483)

2015. Benefisiarın qarantiya üzrə pul məbləği ödənilməsinə dair tələbi hansı formada təqdim edilməlidir?

Qarantiyada göstərilmiş sənədlər qoşulmaqla, qaranta yazılı formada (maddə 484)

2016. Tələbdə və ya ona qoşmada benefisiar nəyi göstərməlidir?

Prinsipalın təminatı üçün qarantiya verilmiş əsas öhdəliyi pozmasının nədən ibarət olduğunu

2017. Benefisiarın tələbi qaranta hansı müddətdə təqdim edilməlidir?

Qarantiyada müəyyənləşdirilmiş verilmə müddəti qurtaranadək

2018. Benefisiarın tələbini aldıqda qarant ləngimədən hansı hərəkətləri icra etməlidir?

Bu barədə prinsipala məlumat verməli və tələbin surətini ona aid bütün sənədlərlə birlikdə prinsipala təqdim etməlidir (maddə 485).

2019. Qarant qoşulmuş sənədlərlə birlikdə benefisiarın tələbinə hansı müddətdə baxmalıdır?

Qarantiyada göstərilmiş müddətdə, müddət göstərilmədikdə isə ağlabatan müddətdə baxmalı, həmin tələbin və ona qoşulmuş sənədlərin qarantiya şərtlərinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirməyə ciddi diqqət göstərməlidir.

2020. Hansı halda qarant tələbi ödəməkdən imtina edir?

Əgər benefisiarın tələbi və ya ona qoşulmuş sənədlər qarantiya şərtlərinə uyğun deyilsə və ya qarantiyada təyin edilmiş müddət qurtardıqdan sonra qaranta təqdim edilmişdirsə (maddə 486)

2021. Qarant benefisiarın tələbini ödəməkdən imtina etdiyi barədə benefisiara hansı müddətdə məlumat verməlidir?

Dərhal.

2022. Əgər benefisiarın tələbini ödəyənə qədər qaranta məlum olsa ki, qarantiya ilə təmin edilmiş əsas öhdəlik tamamilə və ya müvafiq hissədə artıq icra edilmişdir, digər əsaslara görə xətm edilmişdir və ya etibarsızdır, bu barədə o, hansı hərəkətləri icra etməlidir?

Dərhal benefisiara və prinsipala məlumat verməlidir. Bu cür məlumat verildikdən sonra qarant benefisiardan təkrarən aldığı tələbi ödəməlidir.

2023. Qarantın benefisiar qarşısında qarantiyada nəzərdə tutulan öhdəliyi nə ilə məhdudlaşır?

Qarantiya verilmiş məbləğin ödənilməsi ilə (maddə 487)

2024. Qarantın qarantiya üzrə öhdəliyi yerinə yetirməməsi və ya lazımınca yerinə yetirməməsi üçün benefisiar qarşısında məsuliyyəti qarantiya verilmiş məbləğlə məhdudlaşırmı?

Əgər qarantiyada ayrı hal nəzərdə tutulmayıbsa, məhdudlaşmır.

2025. Qarantın benefisiar qarşısında qarantiya üzrə öhdəliyinə hansı hallarda xitam verilir?

- Qarantiya verilmiş məbləğ benefisiara ödənildikdə;
- qarantiyada müəyyənləşdirilmiş müddət qurtardıqda;
- benefisiar qarantiya üzrə hüquqlarından imtina etdikdə və onu qaranta qaytardıqda;
- benefisiar qarantı onun öhdəliyindən azad etməsi barədə yazılı ərizə vermək yolu ilə qarantiya üzrə hüquqlarından imtina etdikdə (maddə 488).

2026. MM-in 488.1.1, 488.1.2 və 488.1.4-cü maddələrində nəzərdə tutulan əsaslar üzrə (qarantiya verilmiş məbləğ benefisiara ödənildikdə, qarantiyada müəyyənləşdirilmiş müddət qurtardıqda, benefisiar qarantı onun öhdəliyindən azad etməsi barədə yazılı ərizə vermək yolu ilə qarantiya üzrə hüquqlarından imtina etdikdə) qarantın öhdəliyinə xitam verilməsi qarantiyanın ona qaytarılıb-qaytarılmadığından asılı ola bilərmi?

Xeyr.

2027. Qarantiyaya xitam verildiyindən xəbər tutan qarant bu barədə ləngimədən hansı öhdəliyi icra etməlidir?

Prinsipala məlumat verməlidir.

2028. Qarantın qarantiya üzrə benefisiara ödənilmiş məbləğlərin əvəzinin ödənilməsini prinsipaldan reqres qaydasında tələb etmək hüququ hansı qaydada müəyyənləşdirilir?

Qarantla prinsipalın icrası üçün qarantiya verilmiş razılaşması ilə (maddə 489)

2029. Qarant prinsipaldan qarantiya şərtlərinə uyğun olmadan və ya qarantın benefisiar qarşısında öhdəliyinin pozulmasına görə benefisiara ödənilmiş məbləğlərin əvəzini tələb edə bilərmi?

Əgər qarantın prinsipalla razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, edə bilməz.

§6. Beh

2030. Behin mahiyyəti nədən ibarətdir?

Müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədilə razılığa gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəfə verəcəyi ödənişlər hesabına verdiyi pul məbləğidir (maddə 491).

2031. Beh haqqında razılaşma hansı formada bağlanılmalıdır?

Məbləğindən asılı olmayaraq yazılı formada bağlanmalıdır. Beh haqqında razılaşma daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı olduqda, notariat qaydasında təsdiq edilməlidir.

2032. Daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı beh haqqında razılaşmanın notariat qaydasında təsdiq edilməsi zamanı behi alana münasibətdə hansı qaydalar tətbiq edilir?

MM-in 225.6-cı maddəsində nəzərdə tutulmuş qaydalar tətbiq edilir, yəni daşınmaz əmlaka birgə hüququ olan ərin (arvadın) razılığı olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış hüquq barədə bağlanmış müqavilə etibarsız hesab edilir. Bu, həmçinin əldə edənin belə hüququn yalnız müqavilə tərəfinə məxsus olması barədə vicdanlı olduğu hallara da aiddir. Əgər müqavilə üzrə tərəf müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, əldə edən həmin tərəfdən etibarsızlıqdan irəli gələn zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

2033. Hansı hallarda ödənilən məbləğ, əgər əksi sübuta yetirilməsə, avans kimi ödənilmiş sayılır?

Müqavilə üzrə tərəfin verəcəyi ödənişlər hesabına ödənilmiş məbləğin beh olub-olmadığına şübhə yarandıqda, o cümlədən behin məbləğindən asılı olmayaraq beh haqqında razılaşmanın yazılı formada bağlanmaması nəticəsində şübhə yarandıqda

2034. Hansı halda beh qaytarılmalıdır?

Öhdəliyin icrasına başlanana qədər ona tərəflərin razılaşması üzrə və ya icranın mümkün olmaması nəticəsində xitam verildikdə (maddə 492)

2035. Hansı halda beh digər tərəfdə qalır?
Əgər müqavilənin icra edilməməsi üçün beh vermiş tərəf məsuliyyət daşıyırsa

2036. Hansı halda tərəf digər tərəfə behin iki mislini ödəməlidir?
Əgər müqavilənin icra edilməməsi üçün beh almış tərəf məsuliyyət daşıyırsa

2037. Müqavilənin icra edilməməsi üçün məsuliyyət daşıyan tərəf, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, hansı öhdəliyi daşıyır?
Beh məbləği hesaba alınmaqla, zərərin əvəzini digər tərəfə ödəməyə borcludur.

25-ci FƏSİL
Öhdəlikdə kreditorların və ya borcluların çoxluğuna dair suallar və cavablar

2038. Hansı halda şəxslər birgə kreditorlardır?

Əgər bir neçə şəxs onlardan hər birinin tam icranı tələb edə biləcəyi şəkildə icranı tələb etməyə səlahiyyətlidirlərsə, borcluya isə yalnız birdəfəlik icra həvalə edilirsə (maddə 493)

2039. Birgə səlahiyyətlər hansı əsasla əmələ gəlir?

Müqaviləyə, qanuna və ya öhdəlik predmetinin bölünməzliyinə əsasən

2040. Hansı halda borclu öhdəliyi öz arzusu ilə istənilən kreditora icra edə bilər?

Əgər kreditorlardan biri MM-in 493.1-ci maddəsində nəzərdə tutulan tələblə (tam icranın tələbi) borcluya qarşı etiraz irəli sürməmişsə (maddə 494)

2041. Əgər birgə kreditorlardan biri borclu barəsində tələbdən imtina edirsə, bu, borclu barəsində hansı nəticəni yaradır?

Borclu həmin kreditora çatası hissəni ödəməkdən azad edilir (maddə 496).

2042. Əgər birgə kreditorun bir neçə vərəsəsi varsa, onlardan hər birinə borca hüquq hansı hissədə keçir?

Yalnız onun vərəsəlik payına uyğun hissəsi keçir (maddə 498).

2043. Əgər birgə kreditorlar arasında ayrı qayda müəyyənləşdirilməyibsə, onların öz qarşılıqlı münasibətlərində payları necə bölünür?

Bərabər bölünür (maddə 499).

2044. Hansı halda şəxslər birgə borclulardır?

Əgər öhdəliyin icrası bir neçə şəxsə onlardan hər birini öhdəliyin tam icrasında iştirak etməyə borclu edən şəkildə həvalə edilirsə, kreditor isə yalnız birdəfəlik icranı tələb etmək hüququna malikdirsə (maddə 500).

2045. Birgə öhdəlik hansı əsaslarla əmələ gəlir?

Müqaviləyə, qanuna və ya öhdəlik predmetinin bölünməzliyinə əsasən

2046. Birgə borclunun kreditora qarşı hansı qarşılıqlı tələbləri irəli sürmək ixtiyarı vardır?

Müqavilənin mahiyyətindən irəli gələn və ya yalnız özünün hüququ çatan, yaxud birgə borcluların hamısı üçün ümumi olan bütün tələbləri (maddə 502)

2047. Borclulardan birinin öhdəliyi tam icra etməsi qalan borcluları icradan azad edirmi?

Bəli (maddə 503).

2048. Borclulardan birinin öhdəliyi tam icra etməsinin qalan borcluların icradan azad etməsi qaydası daha nə zaman qüvvədə olur?

Borclunun kreditor qarşısında həyata keçirdiyi əvəzləşdirmə barəsində

2049. Birgə borclulardan biri ilə bağlı faktlardan hansı həcmdə istifadə edilə bilər?

Əgər öhdəlik münasibətlərinin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, yalnız həmin şəxs barəsində (maddə 504)

2050. Birgə borclulardan biri barəsində iddia verilməsi kreditoru qalan borclular barəsində də iddia vermək hüququndan məhrum edirmi?

Xeyr (maddə 505).

2051. Kreditorun birgə borclulardan birindən icranın qəbulunu ləngitməsinin nəticələri qalan birgə borclular barəsində də qüvvədədirmi?

Bəli (maddə 506).

2052. Birgə borclulardan birinin icra müddətlərinə riayət etməməsinin nəticələrindən qalan birgə borclular barəsində istifadə oluna bilərmi?

Xeyr.

2053. Əgər birgə borclulardan birinin bir neçə vərəsəsi vardırsa, onlardan hər biri tələbi hansı həcmdə icra etməyə borcludur?

Öz miras payına mütənasib surətdə (maddə 507)

2054. Əgər birgə borclulardan birinin bir neçə vərəsəsi vardırsa, onlardan hər biri hansı halda tələbi öz miras payına mütənasib surətdə icra etməyə borclu deyil?

Əgər tələb bölünməzdirsə

2055. Əgər kreditorun tələbi birgə borclulardan birinin borcu ilə birləşdirilirsə, qalan borclular barəsində öhdəliyə hansı miqdarda xitam verilir?

Həmin borclunun payına düşən miqdarda (maddə 508)

2056. Birgə öhdəliyi icra etmiş borclu, əgər müqavilədə və ya MM-də ayrı qayda müəyyənləşdirilməyibsə, qalan borclular barəsində hansı qaydada reqres qaydasında tələb hüququna malikdir?

Onların paylarına mütənasib surətdə, lakin öz payı çıxılmaqla (maddə 509)

2057. Əgər borcluların məsuliyyətinin həcmini müəyyənləşdirmək mümkün deyilsə, onlar bir-biri qarşısında hansı həcmdə məsuliyyət daşıyırlar?

Eyni dərəcədə

2058. Kreditor qarşısında birgə öhdəliyi icra edən birgə borcluya kreditorun hansı tələb və hüququ keçir?

Digər borclulara qarşı tələbi, habelə MM-in 196-cı maddəsində (kreditorun başqa şəxsə güzəşt edilən tələblərinin həcmi) nəzərdə tutulmuş qaydada kreditorun digər borclulara münasibətdə hüququ. Maddənin mətninə əsasən əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ilkin kreditorun tələbi yeni kreditora hüququn keçdiyi məqamda mövcud olmuş həcmdə və şərtlərlə keçir. Xüsusilə, öhdəliyin icrasını təmin edən hüquqlar, habelə tələblə bağlı olan digər hüquqlar, o cümlədən ödənilməmiş faizlərə hüquq yeni kreditora keçir. Tələb güzəşt edildikdə

yeni kreditora girov və ipoteka hüququ, habelə ona verilmiş zaminlik üzrə hüquqlar keçir. Yeni kreditor məcburi icra və müflisolma halı üçün tələblə bağlı üstünlük hüququnu həyata keçirə bilər.

2059. Əgər borclulardan birinin ödəniş qabiliyyəti olmazsa, ona düşən pay hansı qaydada bölüşdürülür?

Ödəniş qabiliyyətli bütün digər borclular arasında mütənasib surətdə (maddə 510)

2060. Əgər birgə borclu birgə öhdəlikdən fayda götürmüşsə, belə fayda götürməmiş birgə borclu hansı hüquqa malikdir?

Öz öhdəliyinin icrası üçün fayda götürmüş birgə borcludan təminat tələb edə bilər (maddə 511).

2061. Birgə borclulardan biri barəsində müddətin axımının dayandırılmasının və ya xitamının digər borclular barəsində qüvvəsi varmı?

Yoxdur (maddə 512).

26-cı FƏSİL
Öhdəliklərin verilməsi barədə suallar və cavablar

2062. Kreditor ilə borclu arasında bağlanmış müqaviləyə əsasən, borclunun öhdəliyi üçüncü şəxsə verilə bilər; bu, nə ilə nəticələnir?

Bunun nəticəsində öhdəliyi alan üçüncü şəxs əvvəlki borclunu əvəz edir (maddə 522).

2063. Əgər borclu ilə öhdəliyin üçüncü şəxsə veriləcəyi barədə razılaşma əldə edilərsə, bu, nə zaman etibarlı olur?

Yalnız kreditorun icazəsi ilə

2064. İcazə hansı halda verilir?

Yalnız borclunun və ya üçüncü şəxsin kreditoru öhdəliyin verilməsindən xəbərdar etdiyi halda

2065. Tərəflər müqaviləni nə vaxtadək dəyişdirə və ya ləğv edə bilərlər?

İcazə verilənədək

2066. Hansı halda öhdəlik verilmiş sayılmır?

İcazə verməkdən imtina edilərsə

2067. Kreditor icazə verməyənədək, öhdəliyi üzərinə götürmüş şəxs hansı öhdəliyi daşıyır?

Şübhə olduğu halda borcluya münasibətdə kreditoru vaxtında təmin etmək öhdəliyi daşıyır. Kreditorun icazə verməkdən imtina etdiyi halda da eyni qayda qüvvədə olur.

2068. Əgər torpaq sahəsi əldə edən şəxs özgəninkiləşdirənlə müqaviləyə əsasən özgəninkiləşdirənin torpaq sahəsinə ipoteka barəsində öhdəliyini öz üzərinə götürürsə, kreditor öhdəliyin verilməsinə icazəni hansı halda verə bilər?

Yalnız özgəninkiləşdirənin ona bu barədə bildiriş göndərdiyi halda (maddə 523)

2069. Əgər bildirişin alınmasından altı ay keçmişsə, icazə hansı halda verilmiş sayılır?

Kreditorun həmin müddət ərzində özgəninkiləşdirənə imtina etmədiyi halda

2070. Özgəninkiləşdirən hansı halda bildiriş göndərə bilər?

Yalnız o halda bildiriş göndərə bilər ki, mülkiyyətçi əldə edəni daşınmaz əmlakın dövlət reyestrində qeydə aldırmış olsun.

2071. Bildiriş hansı tələblərə riayət edilməklə tərtib edilir?

Yazılı şəkildə tərtib edilir və öhdəliyi qəbul edənin əvvəlki borclunu əvəz etdiyini göstərir, bu şərtlə ki, kreditor altı ay ərzində bundan imtina etməsin.

2072. Öhdəliyi qəbul etmiş şəxs kreditora qarşı hansı etirazlar irəli sürə bilər?

Kreditorla əvvəlki borclunun hüquq münasibətlərindən irəli gələn etirazları (maddə 524)

2073. O, hansı tələbi hesaba ala bilməz?
Əvvəlki borcluya mənsub tələbi

2074. Öhdəliyi qəbul etmiş şəxs kreditora qarşı hansı etirazlar irəli sürə bilməz?
Öhdəlik qəbul edənlə əvvəlki borclu arasında olan, öhdəliyin verilməsinin əsasında duran hüquq münasibətindən irəli gələn etirazları

2075. Tələb üçün verilmiş zaminlik və girov hüququ nə zaman ləğv edilir?
Öhdəliyin verilməsi nəticəsində (maddə 525)

2076. Əgər tələb üçün ipoteka mövcuddursa, hansı nəticələr baş verir?
Kreditorun ipotekadan etiraz etdiyi zaman baş verən eyni nəticələr

2077. Nə zaman bu göstərişlər tətbiq edilmir?
Əgər zamin və ya öhdəliyin verildiyi məqamda yüklü əşyanın mənsub olduğu şəxs razılıq verərlərsə

2078. Müflisolma halı üçün tələblə bağlı üstünlük hüququ hansı əmlak barəsində həyata keçirilə bilməz?
Müflisolma zamanı öhdəliyi qəbul edənin əmlakı barəsində

2079. Əgər kimsə müqaviləyə əsasən, başqa şəxsin əmlakını qəbul edirsə, həmin şəxsin kreditorları əvvəlki borclunun məsuliyyətinin davam etməsinə baxmayaraq, hansı pretenziyalarını əmlakı qəbul edənə qarşı irəli sürə bilərlər?
Müqavilənin bağlandığı andan özlərinin həmin vaxtadək mövcud olmuş pretenziyalarını (maddə 526)

2080 Əmlakı qəbul edənin məsuliyyəti nələrlə məhdudlaşır?
Alınmış əmlakın tərkibi və müqavilə üzrə ona mənsub olan tələblərlə

2081. Əmlakı qəbul edənin məsuliyyəti onunla əvvəlki borclu arasındakı razılaşmaya əsasən istisna edilə və ya məhdudlaşdırıla bilərmi?
Xeyr.

27-ci FƏSİL
Öhdəliklərə xitam verilməsi ilə bağlı yaranan suallar və cavablar

2082. Öhdəliyə hansı əsaslar üzrə tamamilə və ya qismən xitam verilir?

İcra, depozitə qoyma, qarşılıqlı əvəzləşdirmə, borcu bağışlama, müddətin keçməsi nəticəsində və MM-də və ya müqavilədə nəzərdə tutulan digər əsaslar üzrə (maddə 527)

2083. Öhdəliyə tərəflərdən birinin tələbi ilə xitam verilməsinə hansı hallarda yol verilir?

Yalnız MM-də və ya müqavilədə nəzərdə tutulan hallarda

2084. Öhdəliyə nəyin nəticəsində xitam verilir?

Onun kreditorun xeyrinə lazımınca icrası (icra) nəticəsində (maddə 528)

2085. Öhdəliyin icrası kimi təklif olunmuş hərəkəti qəbul edən kreditor, əgər onu öhdəliyin icrası kimi təsdiq etmək niyyətində deyildirsə, nəyi sübut etməlidir?

Sübut etməlidir ki, o, icra edilməli öhdəlik deyil, başqasıdır və ya natamamdır və ya lazımi öhdəlik deyildir (maddə 529).

2086. Əgər borclu kreditora öhdəliyin təsdiqi üçün borc sənədi vermişdirsə, kreditor icranı qəbul edərkən nə etməlidir?

Həmin sənədi qaytarmalı, qaytarmaq mümkün olmadıqda isə bunu icranı təsdiq etmək üçün verdiyi sənəddə göstərməlidir.

2087. İcranın tamamilə və ya hissə-hissə qəbulunu təsdiqləyən sənəd nə ilə əvəz edilə bilər?

Qaytarılan borc sənədinin üstündə qeydlə

2088. Borc sənədinin borcluda olması, nə qədər ki, ayrı hal sübuta yetirilməyib, nəyi təsdiqləyir?

Öhdəliyə xitam verildiyini

2089. Borcun alınması barədə tərtib edilmiş, faizlərə dair məlumatlar göstərilməmiş sənəd nəyi nəzərdə tutur?

Nəzərdə tutur ki, həm faizlər ödənilmişdir, həm də pul öhdəliyinə tamamilə xitam verilir.

2090. Borc vaxtaşırı, hissə-hissə ödənilərkən onun sonuncu hissəsinin ödənilməsi barədə sənəd nəyi ehtimal etməyə əsas verir?

Nə qədər ki, ayrı hal müəyyənləşdirilməyib, ondan əvvəlki hissənin də ödənildiyini ehtimal etməyə

2091. Əgər kreditor borc sənədini qaytara bilmirsə, borclu nəyi tələb edə bilər?

Öhdəliyə xitam verildiyi barədə rəsmən təsdiqlənmiş arayış verilməsini

2092. İcra haqqında kreditorun və ya buna vəkil edilmiş şəxsin tərtib etdiyi sənəddə hansı məlumatlar göstərilməlidir?

Borcun həcmi və növü, borclunun və ya borcu ödəyən şəxsin adı, icranın vaxtı və yeri haqqında məlumatlar

2093. Tərəflərin razılaşması ilə öhdəliyə icra əvəzinə hansı qaydada xitam verilə bilər?

Peşman haqqı verilməsi (pul ödənilməsi, əmlak verilməsi və i.a.) ilə

2094. İcra haqqında sənədin verilməsi xərcləri kimin öhdəsinə qoyulur?

Əgər borclu ilə kreditor arasında razılaşmadan ayrı hal irəli gəlmirsə, borclunun öhdəsinə (maddə 530)

2095. Hansı halda icra haqqında sənədin verilməsi ilə bağlı artmış xərclər kreditorun və ya onun vərəsələrinin öhdəsinə qoyulur?

Əgər kreditor yaşayış yerini dəyişdirərsə və ya vəfat edərsə və başqa yaşayış yerində onun vərəsələri qalarsa

2096. Tərəflər arasında mövcud olmuş ilkin öhdəliyin eyni şəxslər arasında digər predmet və ya icra üsulu (novasiya) nəzərdə tutan başqa öhdəliklə əvəz edilməsi haqqında tərəflərin razılaşması ilə hansı hüquqi nəticə baş verir?

Öhdəliyə xitam verilir (maddə 531).

2097. Hansı öhdəliklər barəsində novasiyaya yol verilmir?

Həyata və ya sağlamlığa vurulmuş zərərin əvəzinin və alimentlərin ödənilməsi üzrə öhdəliklər barəsində

2098. Novasiya ilkin öhdəliklə bağlı olan əlavə öhdəliklərə xitam verirmi?

Əgər ayrı qayda nəzərdə tutulmayıbsa, verir.

2099. Hansı halda borclu icra predmetini saxlanmaq üçün məhkəməyə və ya notariata verə bilər, pulları və ya sənədli qiymətli kağızları isə notariusun depozit hesabına qoya bilər?

Əgər kreditor icranın qəbulunu yubandırırsa və ya onun olduğu yer məlum deyildirsə (maddə 532)

2100. Depozitə qoyma barəsində borclu hansı müddətdə kreditora bildiriş göndərməlidir?

Ləngimədən

2101. Əgər depozitə qoyulmuş əşyanın qaytarılması istisnadırsa, borclu öz öhdəliyindən hansı səbəblə azad edilir?

Çünki bu halda depozitə qoyma öhdəliyin kreditora icra edilməsinə bərabər tutulur.

2102. Hansı halda borclu kreditorun depozitə qoyulmuş əşyanı almaq hüququnu qarşılıqlı öhdəliyin icrasından asılı edə bilər?

Əgər borclu öhdəliyi yalnız kreditor öz öhdəliyini icra etdikdən sonra icra etməlidirsə

2103. Depozitə qoyma harada həyata keçirilməlidir?
Öhdəliyin icra edildiyi yerdəki məhkəmədə və ya notariatda (maddə 533)

2104. Əgər borclu depozitə qoymanı başqa yerdə həyata keçirərsə, hansı öhdəlik daşıyır?
Kreditorun bununla əlaqədar düşə biləcəyi zərərin əvəzini ödəməlidir.

2105. Əgər depozitə qoyulmuş əşya məhkəməyə və ya notariata poçtla göndərilmişsə, depozitin qüvvədə olma müddəti hansı tarixə keçirilir?
Əşyanın göndərilmək üçün poçta verildiyi tarixə.

2106. Hansı predmetlər saxlanmağa qəbul edilmir?
Tez xarab olan (maddə 534)

2107. Əgər öhdəlik predmeti olan daşınar əşya tez xarab olduğuna və ya saxlanması tənasübsüz surətdə yüksək xərclərlə bağlı olduğuna görə depozitə qoyulmaq üçün yararlı deyildirsə, borclu hansı hüquqa malikdir?
Borclu onu öhdəliyin icra yerində hərracdan sata bilər, satış pulunu isə depozitə qoya bilər.

2108. Saxlanma harada həyata keçirilməlidir?
İcra yerində (maddə 535)

2109. Saxlama ilə bağlı bütün xərclər kimin üzərinə düşür?
Kreditorun (maddə 537)

2110. Borclu saxlanmağa verdiyi predmetin kreditor tərəfindən qəbul edilənə qədər qaytarılmasını hansı şərtlə tələb edə bilər?
Bu şərtlə ki, lap əvvəldən o, qaytarmadan imtina etməmiş olsun (maddə 538).

2111. Borclu predmetin qaytarılmasını tələb edirsə, saxlama baş tutmuş sayılırmı?
Xeyr.

2112. Hansı hallarda borclu depozitə saxlamağa təhvil verdiyi predmeti geri götürə bilər?
Kreditor predmetdən imtina edirsə və ya MM-in 539-cu maddəsində müəyyənləşdirilən müddət, yəni 3 il qurtarmışsa.

2113. Hansı halda saxlama xərcləri borclunun üzərinə düşür?
Borclu predmeti geri götürürsə

2114. Məhkəmə və ya notarius icra predmetini hansı müddətdə saxlayır?
Üç ilədək müddətə (maddə 539)

2115. Əgər həmin müddət ərzində kreditor predmeti qəbul etməzsə, bu, nə ilə nəticələnir?
Bu barədə borcluya məlumat verilməklə, ondan təhvil verdiyi predmeti geri götürməsi tələb olunur.

2116. Hansı halda predmet dövlət əmlakı sayılır?

Borclu predmeti geri götürülmə üçün zəruri olan müddət ərzində almazsa

2117. Tələblərə onların əvəzləşdirilməsi yolu ilə nə zaman xitam verilə bilər?

Əgər iki şəxs arasında mövcud olan qarşılıqlı tələblərin icra müddəti çatmışsa (maddə 540)

2118. Tələblərin əvəzləşdirilməsi həmçinin hansı halda mümkündür?

Tələblərdən birinin icra müddətinin hələ çatmadığı, lakin bu tələbə hüququ olan tərəfin əvəzləşdirməyə tərəfdar olduğu halda da

2119. Tələblərin əvəzləşdirilməsi hansı qaydada həyata keçirilir?

Bu barədə digər tərəfə məlumat verməklə

2120. Məlumat nə zaman etibarsızdır?

Hər hansı şərtlə və ya müddətin müəyyənləşdirilməsi ilə bağlı olduqda

2121. Əvəzləşdirmə hansı şərtlə aparıla bilər?

Bu şərtlə aparıla bilər ki, tələb onun güzəşt edilməsi barədə borclunun bildiriş aldığı anda mövcud olmuş əsasa görə əmələ gəlsin və tələbin müddəti o alınana qədər çatsın və ya həmin müddət göstərilməsin və ya tələbetmə anı ilə müəyyənləşdirilsin (maddə 541).

2122. Hansı halda tələbin müddəti öhdəliklərin əvəzləşdirilməsini istisna etmir?

Əgər tələbin əvəzləşdirilməsinin hələ mümkün olduğu vaxtadək tələb üzrə müddət keçməyibsə (maddə 542)

2123. Yalnız digər tələbin həcmindən az olan həcm nə zaman əvəzləşdirilir?

Əgər əvəzləşdirilən tələblər bir-birini tam ödəmirsə (maddə 543).

2124. Öhdəliklərin icrası üçün müxtəlif yerlər nəzərdə tutulduqda da onların əvəzləşdirilməsinə yol verilirmi?

Bəli (maddə 544).

2125. Hansı hallarda öhdəliklərin əvəzləşdirilməsinə yol verilmir?

- Tələblərin əvəzləşdirilməsi razılaşma yolu ilə əvvəlcədən istisna edilmişsə;
- öhdəliyin predmetinə tutmanı yönəltmək olmazsa və ya öhdəliyin predmeti yaşayış vasitəsidirsə;
- öhdəlik sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsini nəzərdə tutursa;
- digər tərəfin ərizəsi ilə tələbə iddia müddəti tətbiq edilməli olduqda və bu müddət keçdikdə;
- alimentlərin tutulması ilə bağlı olduqda;
- bu, Azərbaycan Respublikasının və ya bələdiyyənin tələbidirsə; digər tərəfin qarşılıqlı əvəzləşdirmə tələbi hansı orqanın vəsaitindən ödənilməlidirsə, öhdəliyin də həmin orqanın xeyrinə icra edilməli olduğu hallar istisna təşkil edir;
- MM-də nəzərdə tutulmuş digər hallarda (maddə 545).

2126. Kreditorun borclunu onun üzərinə düşən vəzifədən azad etməsi (borcun bağışlanması) ilə öhdəliyə xitam verilirmi?

Bu şərtlə ki, həmin hərəkət kreditorun əmlakı barəsində başqa şəxslərin hüquqlarını pozmasın (maddə 546).

2127. Birgə borclulardan birinə borcun bağışlanması digər birgə borcluları da azad edir, ancaq hansı hal istisnadır?

Kreditorun onlara qarşı tələbini özündə saxlaması halı istisna təşkil edir (maddə 547).

2128. Bu istisna halda kreditor hansı hüquqa malikdir?

Azad edilmiş borclunun payını çıxmaqla, qalan birgə borclular barəsində yalnız bir tələbdən istifadə edə bilər.

2129. Borcun əsas borcluya bağışlanması zaminləri də azad edirmi?

Bəli (maddə 548).

2130. Zaminin borcu ödəməkdən azad edilməsi əsas borclunu öhdəliyin icrasından azad edirmi?

Xeyr.

2131. Zaminlərdən birinin borcu ödəməkdən azad edilməsi digər borcluları da azad edirmi?

Bəli.

2132. İkitərəfli müqavilənin tərəflərindən birinin öz tələbindən imtina etməsi öhdəliyin xitamına səbəb olurmu?

Xeyr, həmin tərəf digər tərəfin də öz tələbindən imtina etməsinə qədər müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etməlidir (maddə 549).

2133. Tələbə, yəni digər şəxsdən hərəkətin edilməsini və ya edilməməsini tələb etmək hüququna müddətin keçməsinə görə xitam verilə bilərmi?

Bəli (maddə 550).

2134. Əgər MM ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bütün tələblər neçə il keçdikdən sonra qüvvəsini itirir?

On il (adi müddət) (maddə 551)

2135. Hansı tələblər beş il keçdikdən sonra qüvvəsini itirir?

- Kirayə haqqı, icarə haqqı, kapital üçün faizlər və digər vaxtaşırı ödənişlər haqqında tələblər;
- ərzaq məhsulları, qida və içki satışı və ya gələnlərə yaşayış yeri verilməsi üzrə tələblər;
- zavod tikintisi, mallar satışları, daşımalar üzrə tələblər, sərbəst peşə adamlarının (məsələn, həkimlərin, vəkillərin və ya məsləhətçilərin) tələbləri, habelə işçilərin əmək münasibətləri üzrə tələbləri;
- məhkəmə qərarına əsasən əmələ gələn tələb otuz il keçdikdən sonra qüvvəsini itirir. Bu qayda tələbin daha qısa müddətlə bağlı olduğu halda da tətbiq edilir.

2136. Müddətin axımı nə zaman başlanır?
Tələbin icra müddətinin çatması ilə (maddə 552)

2137. Müddət hesablanarkən müddətin başlandığı gün nəzərə alınırmı?
Xeyr.

2138. Öhdəliyin məzmunu hərəkətsizlikdirsə, müddət nə vaxtdan başlanır?
Bu öhdəliyin yerinə yetirilmədiyi andan

2139. Hansı hallarda müddətin axımı başlanmır və müddət dayandırılır?
- Öhdəliyin icrasına möhlət verildikdə və ya öhdəlik götürən başqa halla əlaqədar onun icrasından müvəqqəti imtina etmək hüququna malik olduqda;
- müddətin son altı ayı ərzində məhkəmə baxışının dayandırılması nəticəsində ixtiyarlı şəxs öz hüququnun məhkəmə müdafiəsini həyata keçirmək imkanından məhrum olana qədər. Bu cür imkansızlıq qarşısıalınmaz qüvvə nəticəsində baş verdikdə də eyni qayda qüvvədə olur;
- söhbət ərlə arvadın tələblərindən gedirsə, nikah pozulana qədər. Eyni qayda uşaqlar yetkinlik yaşına çatanadək valideynlərin və uşaqların tələbləri üçün və qəyyumluq və himayəçilik üzrə münasibətlər dövründə qəyyumun və qəyyumluqda olanın tələbləri üçün də qüvvədədir;
- söhbət təmsilçisi olmayan məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan şəxsdən gedirsə, bu şəxsin fəaliyyət qabiliyyətini itirdiyi andan altı ay keçənədək.

2140. Müddətin axımı kəsilirsə, kəsilmə anınadək keçən vaxt nəzərə alınırmı?
Nəzərə alınmır; yeni müddət yalnız kəsilmə qurtardıqdan sonra başlanır.

2141. Hansı hallarda müddətin axımı kəsilir?
- Mükəlləfiyyətli şəxs tələbi ixtiyarlı şəxsə hissə-hissə ödənişlərlə, faizlər ödəməklə, təminat verməklə və ya digər üsulla icra edirsə;
- ixtiyarlı şəxs məhkəməyə iddia verirsə (maddə 553).

2142. Müddətin kəsilməsi nə vaxtadək davam edir?
İddia üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı qəbul edilənədək

2143. Müddət keçdikdən sonra mükəlləfiyyətli şəxsin öhdəliyin icrasından imtina etmək hüququ varmı?
Bəli (maddə 554).

2144. Öhdəlik müddətin keçdiyini bilmədən icra olunduqda belə, müddətin keçməsinə görə qüvvəsini itirmiş tələbin ödənilməsi üçün icra olunmuşları geri istəmək olarmı?
Xeyr.

2145. Müddətin keçməsi tərəflərin razılaşması ilə istisna edilə və ya çətinləşdirilə bilərmi?
Xeyr.

2146. Tərəflər müddətin keçməsinin sadələşdirilməsi, o cümlədən onun qısaldılması barədə razılaşa bilərlərmi?

Bəli.

2147. Borclu və kreditor eyni şəxs olduqda, bu, hansı hüquqi nəticəni yaradır?

Öhdəliyə xitam verilir (maddə 555).

2148. İcra mümkün olmadıqda, yəni icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə, bu, hansı hüquqi nəticəni yaradır?

Öhdəliyə xitam verilir (maddə 556).

2149. Borclunun öhdəliyi yerinə yetirməsi hansı səbəblə mümkün olmadıqda, kreditor öhdəlik üzrə özünün icra etdiklərini qaytarmağı tələb edə bilməz?

Kreditorun təqsirli hərəkətləri nəticəsində

2150. Dövlət və ya bələdiyyə orqanının qəbul etdiyi akt nəticəsində öhdəliyin icrası tamamilə və ya qismən qeyri-mümkün olduqda, öhdəliyin icrası müddəti uzadıldıqda, bu hal nə ilə nəticələnir?

Öhdəliyə tamamilə və ya müvafiq hissədə xitam verilir (maddə 557).

2151. Öhdəliyə tamamilə və ya müvafiq hissədə xitam verilməsi halında dövlət və ya bələdiyyə vurulmuş ziyanla əlaqədar verilə bilən iddialar üzrə reqressant qismində çıxış edir. Bunun nəticəsində zərər çəkmiş tərəflər hansı hüquqa malikdirlər?

MM-in 19-cu (dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının aktının etibarsız sayılması) maddəsinə uyğun olaraq zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər.

2152. Öhdəliyin xitamı üçün əsas olmuş dövlət və ya bələdiyyə orqanının aktı müəyyənləşdirilmiş qaydada etibarsız sayıldıqda, hansı halda öhdəlik bərpa edilir?

Əgər tərəflərin razılaşmasından və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə və öhdəliyin icrasına kreditorun marağı itməyibsə

2153. Əgər borclunun şəxsi iştirakı olmadan icra mümkün deyilsə, onun ölümü nəyə səbəb olur?

Öhdəliyin xitamına (maddə 558)

2154. Hansı halda kreditorun ölümü öhdəliyin xitamına səbəb olur?

İcra şəxsən kreditor üçün nəzərdə tutulmuşdursa

2155. Hansı andan öhdəliklərə xitam verilir?

Hüquqi şəxsin (borclunun və ya kreditorun) ləğvinin qeydə alındığı andan (maddə 559)

28-ci FƏSİL
Mülki hüquqların həyata keçirilməsi zamanı ortaya çıxan suallar və cavablar

2156. Hüquqdan hansı məqsədlə istifadə edilməsi yolverilməzdir?

Yalnız başqalarına ziyan vurmaq məqsədilə (maddə 560)

2157. Hüquqdan sui-istifadə əsası üzərində həyata keçirilən razılaşmalar və hərəkətlər hansı statusa malikdir?

Etibarsızdır.

2158. Hüquqdan sui-istifadə hansılardır?

- Qeyri-qanuni və ya müqavilənin ziddinə əldə edilmiş hüquqların həyata keçirilməsi;
- şəxsin öz vəzifələrini kobudcasına pozmasına baxmayaraq hüquqlarını həyata keçirməsi;
- müdafiə edilməli olan şəxsi mənafeyin əsaslarını təşkil etməyən hüququn həyata keçirilməsi;
- digər tərəfin güvəndiyi və güvənmiş olduğu əvvəlki rəftara zidd hüququn həyata keçirilməsi;
- bir və ya daha çox kommersiya hüquqi şəxslərinin bazarda və ya istehsal sektorunda özünün əlverişli vəziyyətindən sui-istifadə etməsi, əgər bu, mal dövriyyəsi və ya istehsal xidmətləri üçün bazar şəraitinin xeyli pozulması ilə nəticələnə bilərsə, məsələn:
- alqı-satqının tənasübsüz qiymətlərinə və ya əqdin digər şərtlərinə birbaşa və ya dolayısı ilə məcburetmə;
- istehlakçıların zərərinə istehsalın, satışın və ya texniki inkişafın məhdudlaşdırılması;
- müqavilə üzrə tərəfdaşlar üçün bərabər dəyərli xidmətlərdən ötrü rəqabətdə onların mənafelərinə toxunulmasına səbəb olan müxtəlif şərtlər tətbiq edilməsi;
- müqavilənin bağlanmasının elə bir müəyyən şərtlə bağlılığı ki, həmin şərtə görə müqavilə üzrə tərəfdaşlar nə obyektiv surətdə, nə də ticarət adətlərinə görə müqavilənin predmeti ilə əlaqədar olmayan əlavə xidmətləri yerinə yetirməli olurlar;
- kommersiya hüquqi şəxslərinin razılaşmaları, öz aralarında razılaşdırdıqları hərəkət metodları, əgər bunlar mal dövriyyəsi və ya istehsal xidmətləri üçün bazar şəraitinin xeyli pozulması ilə nəticələnə bilərsə və rəqabətin qarşısının alınması, məhdudlaşdırılması və ya təhrif edilməsi məqsədi daşıyarsa və ya buna kömək edərsə, o cümlədən:
- qiymətlərin və ya əqdlərin digər şərtlərinin birbaşa və ya dolayısı ilə təyin edilməsi;
- istehsala nəzarətin, satışın, texniki inkişafın və ya investisiyaların məhdudlaşdırılması;
- bazarların və ya təchizat mənbələrinin bölünməsi;
- MM-in 560.3.5.3-cü və 560.3.5.4-cü maddələrində göstərilən praktika (müqavilə üzrə tərəfdaşlar üçün bərabər dəyərli xidmətlərdən ötrü rəqabətdə onların mənafelərinə toxunulmasına səbəb olan müxtəlif şərtlər tətbiq edilməsi və müqavilənin bağlanmasının elə bir müəyyən şərtlə bağlılığı ki, həmin şərtə görə müqavilə üzrə tərəfdaşlar nə obyektiv surətdə, nə də ticarət adətlərinə görə müqavilənin predmeti ilə əlaqədar olmayan əlavə xidmətləri yerinə yetirməli olurlar).

2159. Hansı fəaliyyətlər dövlətin inhisarındadır və dövlət bu məqsədlə mülki-prosessual qanunla və icra haqqında qanunvericiliklə tənzimlənən metodlar tətbiq edir?

Mülki hüquqların həyata keçirilməsinin təmin edilməsi, güc və ya məcburetmə tətbiq olunması (maddə 561)

2160. Əgər MM-ə və ya müqaviləyə görə borclunun kreditor barəsində hüququ və ya bununla əlaqədar ödəniş müddəti çatmış tələbi varsa, borclu hansı hüquqa malikdir?

Onun barəsində öhdəlik icra edilənədək öz öhdəliyinin icrasından imtina edə bilər (ləngitmə hüququ) (maddə 562).

2161. Hansı halda qarşılıqlı müqaviləyə görə öhdəliyi birinci icra etməli olan şəxs digər tərəf öhdəliyini yerinə yetirənə və ya öz öhdəliyi üçün təminat verənə qədər öhdəliyin icrasından imtina edə bilər?

Əgər qarşılıqlı müqavilə bağlandıqdan sonra digər tərəfin vəziyyəti xeyli pisləşərsə və bunun nəticəsində qarşılıqlı öhdəliyin icrası hüququ təhlükə altında olarsa

2162. Hansı halda ləngitmə hüququ istisna edilir?

Əgər ləngitmə predmeti qanunsuz əldə edilmişsə

2163. Hansı halda kreditor qarantiyalar vermək yolu ilə ləngitmə hüququnun həyata keçirilməsinin qarşısını ala bilər?

Əgər qarşılıqlı icra olunan öhdəliklər qarşılıqlı müqavilənin predmeti deyilsə

2164. Kreditorun iddiası üzrə ləngitmə hüququ nə zaman həyata keçirilə bilər?

Yalnız o zaman həyata keçirilə bilər ki, borcluya öhdəliyi ancaq kreditorun öz öhdəliyini icra etdiyi vaxt icra etmək (eyni vaxtda icra) vəzifəsi tapşırıla bilsin.

2165. Vəzifənin bu cür tapşırılması əsasında kreditor, əgər borclu icranın qəbulunu gecikdirərsə, hansı hüquqa malikdir?

Öz öhdəliyini icra etmədən məcburi icra tələb edə bilər.

2166. Zəruri müdafiə vəziyyətində edilən hərəkət hansı statusa malikdir?

Hüquqa uyğundur, yəni hüquqa zidd deyildir və bu zaman vurulan ziyanın əvəzi ödənilməməlidir (maddə 563).

2167. Zəruri müdafiə hansı mahiyyətə malikdir?

Elə şəkildə özünümüdafiədir ki, o, özünə və ya digər şəxslərə qarşı hüquqa zidd real həmlənin dəf edilməsi üçün zəruridir.

2168. Əgər hər hansı şəxs zəruri müdafiə həddini təqsirli şəkildə aşmışsa və ya zəruri müdafiə vəziyyətini qəsdən törətmişsə və ya hüquqa zidd hərəkətin qarşısını almaq üçün zəruri olan ilkin şəraitin mövcudluğu barədə təqsirli şəkildə yanılmışsa, hansı öhdəliyi daşıyır?

Vurulmuş ziyanın əvəzini ödəməlidir.

2169. Müdafiə zamanı son zərurət vəziyyətində edilən hərəkət hansı şərtlə hüquqa uyğundur, yəni hüquqa zidd deyildir və bu zaman vurulan ziyanın əvəzi ödənilməməlidir?

Bu şərtlə ki, ziyan son zərurət vəziyyətinin baş verməsinə səbəb olmuş təhlükəni yaradan şəxsə və ya əşyaya vurulsun (maddə 564).

2170. Son zərurət hansı mahiyyətə malikdir?

Elə vəziyyətdir ki, həmin vəziyyətdə başqa vasitələrlə qarşısı alına bilməyən real təhlükənin qarşısını almaq üçün qarşısı alınmış təhlükəyə nisbətən daha az ziyan vurulur.

2171. Son zərurət vəziyyətində ziyanın vurulduğu faktik halları nəzərə almaqla, onun əvəzinin ödənilməsi hansı üçüncü şəxsin üzərinə qoyula bilər?

Ziyanı vurmuş şəxs kimin mənafeyi üçün hərəkət etmişsə, həmin şəxsin

2172. Hansı halda son zərurət vəziyyətində ziyan vurmuş şəxs onun əvəzini ödəməlidir?

Əgər son zərurət vəziyyətində vurulmuş ziyan qarşısı alınmış ziyandan çoxdursa

2173. Hansı hallarda özünəyardım məqsədilə əşyanı alan, məhv edən və ya zədələyən, yaxud gizlənə biləcək mükəlləfiyyətli şəxsi tutan və ya özünün yerinə yetirməli olduğu hərəkətlər barəsində mükəlləfiyyətli şəxsin müqavimətinin qarşısını alan şəxsin hərəkətləri hüquqa zidd sayılmır?

Səlahiyyətli dövlət orqanlarının köməyi vaxtında yetişmədikdə və təcili müdaxilə edilmədən hüququn həyata keçirilməsinin qeyri-mümkün olacağı və ya xeyli çətinləşəcəyi təhlükəsi olduqda (maddə 565)

2174. Özünəyardım hansı hədləri aşa bilməz?

Təhlükənin qarşısını almaq və ya onu dəf etmək üçün zəruri olan hədləri

2175. Kiminsə əlindən əşya alındıqda bu barədə hansı müddətdə bəyanat verilməlidir?

Dərhal

2176. Hansı hallarda lap əvvəldən özünəyardım tədbirləri qeyri-hüquqi sayılır?

Özünəyardım tədbirləri həyata keçirildikdən bilavasitə sonra təsdiq olunmaq üçün səlahiyyətli dövlət orqanına bəyan edilmədikdə və ya həmin orqan belə bəyanatı yolverilməz və ya əsassız bəyanat kimi rədd etdikdə

2177. Hansı halda özünəyardım tədbirləri etmiş şəxs, yanılmanın ehtiyatsızlıqdan irəli gəlmədiyi halda belə, ziyanın əvəzini digər tərəfə ödəməlidir?

Özünəyardım tədbirləri hüquqa zidd halın qarşısını almaq üçün zəruri olan ilkin şəraitin mövcudluğu barədə yanlış mülahizə ilə həyata keçirildikdə

2178. Öhdəliyin icrası barədə məlumatı kimlər verməlidirlər?

- MM və ya müqavilə üzrə bu vəzifənin tapşırıldığı şəxs;
- borclunun işlərini tamamilə və ya qismən həyata keçirən şəxs;
- gəlir və xərclərlə bağlı idarəetmə barədə hesabat verməli olan şəxs (maddə 566).

2179. Əgər məlumat verməli olan şəxs məlumatı yalnız böyük xərc çəkməklə verə bilərsə, xərci kim çəkir?

Kreditor.

2180. Verilmiş məlumatın lazımi vicdanlılıqla tərtib olunmadığını ehtimal etməyə əsas olduqda, kreditorun tələbi ilə borclu və ya vəkil edilmiş şəxs hansı öhdəliyi daşıyır?

Məlumatın vicdanla tərtib olunduğuna yazılı surətdə inandırmaq öhdəliyi

2181. Məhkəmə mübahisəsi əmələ gəldikdə, bu cür yazılı inandırmanın hansı qüvvəsi vardır?

Sübutetmə qüvvəsi

29-cu FƏSİL
Alqı-satqı münasibətləri ilə bağlı suallar və cavablar

§ 1. Alqı-satqı haqqında ümumi müddəalar

2182. Alqı-satqı müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür (maddə 567).

2183. Satıcı hansı əşyanı alıcıya verməyə borcludur?

Alqı-satqı müqaviləsində nəzərdə tutulan əşyanı (maddə 568)

2184. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, satıcı əşyanı alıcıya verməklə bir vaxtda nələri də verməyə borcludur?

Onun ləvazimatını, habelə əşyaya aid olan, qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulan sənədləri də (texniki pasportu, keyfiyyət sertifikatını, istismar təlimatını və i.a.).

2185. Satıcının əşyanı alıcıya vermək vəzifəsinin icrası müddəti hansı qaydada müəyyənləşdirilir?

Alqı-satqı müqaviləsi ilə, müqavilə həmin müddəti müəyyənləşdirməyə imkan vermədikdə isə MM-in 427-ci maddəsində nəzərdə tutulan qaydalara (öhdəliyin icrası müddətinə) uyğun (maddə 569)

2186. Hansı halda müqavilə qəti müəyyənləşdirilmiş müddətədək icra edilmək şərti ilə bağlanmış sayılır?

Əgər alqı-satqı müqaviləsinin icrası müddətinin pozulduğu halda alıcının ona marağının itməsi müqavilədən aydın şəkildə irəli gəlirsə

2187. Satıcı müqavilədə müəyyənləşdirilmiş müddət çatanadək və ya müddət keçdikdən sonra həmin müqaviləni hansı halda icra edə bilər?

Yalnız alıcının razılığı ilə

2188. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, satıcının əşyanı alıcıya vermək vəzifəsi hansı məqamda icra edilmiş sayılır?

- Müqavilədə satıcının əşyanı çatdırmaq vəzifəsi nəzərdə tutulubsa, əşyanın alıcıya və ya onun göstərdiyi şəxsə təhvil verildiyi məqamda;
- əşya alıcıya və ya onun göstərdiyi şəxsə əşyanın olduğu yerdə verməlidirsə, onun alıcının ixtiyarına verildiyi məqamda (maddə 570).

2189. Nə zaman əşya alıcının ixtiyarına verilmiş sayılır?

Əşya müqavilədə nəzərdə tutulan müddətdə lazımi yerdə verilməyə hazır olduqda və müqavilənin şərtlərinə müvafiq surətdə alıcı bundan xəbərdar olduqda

2190. Hansı halda əşya verilməyə hazır sayılmır?

Əgər əşya nişanlanma yolu ilə və ya başqa şəkildə müqavilənin məqsədləri üçün eyniləşdirilməyibsə

2191. Alqı-satqı müqaviləsindən satıcının əşyanı çatdırmaq və ya olduğu yerdə alıcıya vermək vəzifəsinin irəli gəlmədiyi hallarda satıcının əşyanı alıcıya vermək vəzifəsi hansı məqamda icra edilmiş sayılır?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın alıcıya çatdırılmaq üçün daşıyıcıya və ya rabitə təşkilatına təhvil verildiyi məqamda

2192. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski hansı andan alıcıya keçir?

Müqaviləyə uyğun olaraq satıcının əşyanı alıcıya vermək vəzifəsini icra etmiş sayıldığı andan (maddə 571)

2193. Yolda olduğu vaxt satılmış əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski hansı andan alıcıya keçir?

Alqı-satqı müqaviləsində və ya işgüzar dövriyyə adətlərində ayrı qayda nəzərdə tutulmayıbsa, alqı-satqı müqaviləsinin bağlandığı andan

2194. Əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riskinin malın birinci daşıyıcıya təhvil verildiyi andan alıcıya keçməsi barədə müqavilə şərti alıcının tələbi ilə məhkəmə tərəfindən hansı halda etibarsız sayıla bilər?

O halda etibarsız sayıla bilər ki, müqavilənin bağlandığı anda satıcı əşyanın itirildiyini və ya zədələndiyini bilirdi və ya bilməli idi, lakin bu barədə alıcıya məlumat verməmişdir.

2195. Hansı hal istisna olmaqla, satıcı alıcıya üçüncü şəxslərin hüquqlarından azad əşya verməyə borcludur?

Alıcının üçüncü şəxslərin hüquqları ilə yüklü olan əşyanı qəbul etməyə razılıq verdiyi hal (maddə 572)

2196. Satıcının bu vəzifəni icra etməməsi alıcıya hansı şərtlə əşyanın qiymətinin azaldılmasını və ya alqı-satqı müqaviləsinin ləğvini tələb etmək hüququ verir?

Bu şərtlə ki, alıcının həmin əşyaya üçüncü şəxslərin hüquqları olduğunu bildiyi sübuta yetirilməsin.

2197. MM-in 572.1-ci maddəsində nəzərdə tutulan qaydalar əşyanın verildiyi məqamda üçüncü şəxslərin əşyaya iddialarının olduğu və satıcının bu iddiaları bildiyi halda hansı şərtlə müvafiq surətdə tətbiq edilir?

Əgər sonralar həmin iddialar müəyyənləşdirilmiş qaydada hüquqa uyğun sayılmışsa.

2198. Alqı-satqı müqaviləsi icra edilənədək əmələ gəlmiş əsaslar üzrə üçüncü şəxslər əşyanı alıcıdan geri aldıqda, hansı halda alıcıya dəymiş zərərin əvəzini ödəməyə borcludur?

Satıcı, alıcının həmin əsasların mövcudluğunu bildiyini sübuta yetirməsə (maddə 573)

2199. Alıcının əldə etdiyi malı ondan üçüncü şəxslərin tələb etdiyi halda satıcının məsuliyyətdən azad edilməsi və ya bu məsuliyyətin məhdudlaşdırılması haqqında tərəflərin razılaşması əldə edilə bilərmi?

Xeyr, əhəmiyyətsizdir.

2200. Əgər üçüncü şəxs alqı-satqı müqaviləsi icra edilənədək əmələ gəlmiş əsas üzrə alıcıya qarşı əşyanın geri alınması barədə iddia irəli sürərsə, alıcı və satıcı nə etməyə borcludur?

Alıcı satıcını işdə iştiraka cəlb etməyə, satıcı isə alıcı tərəfində bu işə daxil olmağa (maddə 574)

2201. Alıcının satıcını işdə iştiraka cəlb etməməsi satıcını hansı şərtlə alıcı qarşısında məsuliyyətdən azad edir?

Bu şərtlə ki, satıcı işdə iştirak etməklə satılmış əşyanın alıcıdan geri alınmasına yol verməyəcəyini sübuta yetirsin.

2202. Hansı satıcı alıcının işi yanlış apardığını sübuta yetirmək hüququndan məhrum olur?

Alıcının işdə iştiraka cəlb etdiyi, lakin işdə iştirak etməmiş satıcı

2203. Əgər satıcı satılmış əşyanı alıcıya verməkdən imtina edirsə, alıcı hansı hüquqa malikdir?

Alqı-satqı müqaviləsinin icrasından imtina edə bilər (maddə 575).

2204. Satıcı fərdi-müəyyən əşyanı verməkdən imtina etdikdə alıcı satıcıya qarşı hansı tələbləri irəli sürə bilər?

MM-in 452-ci maddəsində nəzərdə tutulan tələbləri, yəni həmin əmlakın satıcının əlindən alınmasını və öhdəlikdə nəzərdə tutulan şərtlərlə ona verilməsini və ya zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

2205. Əgər satıcı verməli olduğu əşyaya aid ləvazimatı və ya sənədləri alıcıya vermirsə və ya verməkdən imtina edirsə, alıcı hansı hüquqa malikdir?

Bunların verilməsi üçün ona ağlabatan müddət təyin edə bilər (maddə 576).

2206. Satıcı əşyaya aid ləvazimatı və ya sənədləri göstərilmiş müddətdə vermədikdə, alıcı hansı hüquqa malikdir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, əşyadan imtina edə bilər.

2207. Alıcıya verilməli əşyaların miqdarı alqı-satqı müqaviləsində hansı formada ifadə olunur?

Müvafiq ölçmə vahidləri ilə və ya pulla (maddə 577)

2208. Əşyaların miqdarı haqqında şərt hansı qaydada razılaşdırıla bilər?

Müqavilədə onun müəyyənləşdirilməsi qaydasının təyin edilməsi yolu ilə

2209. Əgər alqı-satqı müqaviləsi verilməli əşyaların miqdarını müəyyənləşdirməyə imkan vermirsə, bu, hansı nəticəni yaradır?

Müqavilə bağlanmış sayılmır.

2210. Satıcı alqı-satqı müqaviləsini pozaraq alıcıya müqavilədə müəyyənləşdirildiyindən az miqdarda əşya verdikdə, alıcı hansı hüquqa malikdir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, çatışmayan miqdarda əşya verilməsini tələb edə bilər və ya verilmiş əşyadan və onu ödəməkdən imtina edə bilər, əşya ödənilmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər (maddə 578).

2211. Əgər satıcı alıcıya alqı-satqı müqaviləsində nəzərdə tutulan miqdardan çox əşya verərsə, alıcı hansı öhdəliyi daşıyır?

MM-in 595.1-ci maddəsində nəzərdə tutulan qaydada satıcıya bu barədə bildiriş verməlidir, yəni alıcı alqı-satqı müqaviləsinin miqdar, çeşid, keyfiyyət, komplektlik, tara və (və ya) qab haqqında şərtlərinin pozulmasına dair satıcıya müqavilədə nəzərdə tutulan müddətdə, belə müddət müəyyənləşdirilmədikdə isə, müqavilənin müvafiq şərtinin pozuntusu əşyanın xarakterinə və təyinatına görə aşkar edilməli olduqdan sonra ağlabatan müddətdə bildiriş verməlidir.

2212. Satıcı alıcının bildirişini aldıqdan sonra ağlabatan müddətdə əşyaların müvafiq hissəsinə dair sərəncam verməzsə, alıcı hansı hüquqa malikdir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, bütün əşyaları qəbul edə bilər.

2213. Alıcı alqı-satqı müqaviləsində göstərilən miqdardan çox əşyanı qəbul etdikdə, əlavə qəbul edilmiş əşyalar hansı qiymətlə ödənilir?

Əgər tərəflərin razılaşması ilə ayrı qiymət müəyyənləşdirilməyibsə, müqaviləyə uyğun qəbul edilmiş mal üçün müəyyənləşdirilmiş qiymətlə ödənilir.

2214. Əgər alqı-satqı müqaviləsinə görə növlər, modellər, ölçülər, rənglər və ya digər əlamətlər üzrə müəyyən nisbətdə (çeşiddə) əşyalar verilməlidirsə, satıcı alıcıya hansı çeşiddə əşyalar verməyə borcludur?

Tərəflərin razılaşdırdıqları çeşiddə (maddə 579)

2215.Əgər alqı-satqı müqaviləsində çeşid və onun müəyyənləşdirilməsi qaydası göstərilməyibsə, lakin öhdəliyin mahiyyətindən alıcıya əşyaların çeşiddə verilməli olduğu irəli gəlirsə, satıcı hansı hüquqa malikdir?

Müqavilənin bağlandığı məqamda alıcının ona məlum olmuş tələbatını əsas götürməklə alıcıya əşyaları çeşiddə verə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

2216. Satıcı alqı-satqı müqaviləsində nəzərdə tutulan əşyaları müqaviləyə uyğun gəlməyən çeşiddə verdikdə alıcı hansı hüquqa malikdir?

Onları qəbul etməkdən və ödəməkdən imtina edə bilər, ödəmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər (maddə 580).

2217. Əgər satıcı alıcıya alqı-satqı müqaviləsinə uyğun çeşiddə əşyalarla yanaşı, çeşid haqqında şərti pozmaqla əşyalar verərsə, alıcının hansı seçim ixtiyarı var?

- Çeşid haqqında şərtə uyğun gələn əşyaları qəbul etsin, qalan əşyalardan isə imtina etsin;
- verilmiş əşyaların hamısından imtina etsin;
- çeşid haqqında şərtə uyğun gəlməyən əşyaların müqavilədə nəzərdə tutulan çeşiddə əşyalarla əvəz olunmasını tələb etsin;
- verilmiş əşyaların hamısını qəbul etsin.

2218. Alqı-satqı müqaviləsinin şərtinə uyğun gəlməyən çeşiddə əşyalardan imtina edərkən və ya çeşid haqqında şərtə uyğun gəlməyən malların əvəz olunması tələbini irəli sürərkən alıcı hansı hüquqa malikdir?

Həmin malların pulunu ödəməkdən imtina edə də bilər, onları ödəmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər.

2219. Alqı-satqı müqaviləsinin çeşid haqqında şərtinə uyğun gəlməyən əşyalar hansı halda qəbul edilmiş sayılır?

O halda qəbul edilmiş sayılır ki, alıcı onları qəbul etdikdən sonra ağlabatan müddətdə satıcıya öz imtinasını bildirməsin.

2220. Əgər alıcı çeşidi alqı-satqı müqaviləsinə uyğun gəlməyən əşyalardan imtina etməzsə, onları hansı qiymətlə ödəməlidir?

Satıcı ilə razılaşdırılmış qiymətlə

2221. Satıcı qiymətin razılaşdırılması üçün ağlabatan müddətdə zəruri tədbirlər görmədikdə, alıcı əşyaları hansı qiymətlə ödəyir?

Müqavilənin bağlandığı an müqayisəyə gələn şəraitdə oxşar əşyalar üçün adətən alınan qiymətlə

2222. Əşyaların çeşidi haqqında şərtin pozulmasının nəticələri ilə bağlı Mülki Məcəllədə nəzərdə tutulan qaydalar hansı halda tətbiq edilir?

Alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda

2223. Satıcı alıcıya hansı keyfiyyətdə əşya verməyə borcludur?

Keyfiyyəti alqı-satqı müqaviləsinə uyğun gələn (maddə 581)

2224. Alqı-satqı müqaviləsində əşyanın keyfiyyəti haqqında şərtlər olmadıqda, satıcı alıcıya hansı tələbə cavab verən əşyanı verməyə borcludur?

Bu cür malın adətən istifadə edildiyi məqsədlərə yarayan əşya

2225. Əgər müqavilə bağlanarkən alıcı əşyanı əldə etməsinin konkret məqsədləri barəsində satıcıya məlumat vermişdirsə, satıcı alıcıya hansı tələbə cavab verən əşyanı verməyə borcludur?

Həmin məqsədlər üçün istifadəyə yarayan əşya

2226. Əşyanı nümunəyə və (və ya) təsvirə əsasən satarkən, satıcı alıcıya hansı tələbə cavab verən əşyanı verməyə borcludur?

Nümunəyə və (və ya) təsvirə uyğun gələn

2227. Satılan əşyanın keyfiyyəti barəsində məcburi tələblər olduqda, sahibkarlıq fəaliyyəti ilə məşğul olan satıcı alıcıya hansı tələbə cavab verən əşyanı verməyə borcludur?

Həmin məcburi tələblərə uyğun gələn

2228. Hansı əsasla satıcı keyfiyyət üçün müəyyənləşdirilmiş məcburi tələblərə nisbətən daha yüksək tələblərə uyğun gələn əşya verə bilər?

Tərəflər arasında razılaşmaya əsasən

2229. Satıcının alıcıya verməli olduğu əşya hansı şərt gözlənilməklə, alıcıya verildiyi məqamda MM-in 581-ci maddəsində nəzərdə tutulan tələblərə (əşyaların keyfiyyəti) uyğun gəlməlidir?

Bu şərtlə ki, alqı-satqı müqaviləsində əşyanın həmin tələblərə uyğunluğunu müəyyənləşdirməyin ayrı məqamı nəzərdə tutulmasın (maddə 582).

2230. Verilən əşya hansı müddət ərzində yararlı olmalıdır?

Bu cür əşyaların adətən istifadə edildiyi məqsədlər üçün ağlabatan müddət ərzində

2231. Alqı-satqı müqaviləsində satıcının əşyanın keyfiyyəti üçün qarantiya verməsinin nəzərdə tutulduğu halda satıcı alıcıya hansı tələbə cavab verən əşyanı verməlidir?

MM-in 581-ci maddəsində nəzərdə tutulan tələblərə (əşyaların keyfiyyəti) müqavilə ilə müəyyənləşdirilmiş vaxt (qarantiya müddəti) ərzində uyğun gəlməli əşya

2232. Əşyanın keyfiyyəti üçün qarantiya onun tərkib hissələrinə (komplektləşdirici məmulata) də şamil edilirmi?

Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, edilir.

2233. Qarantiya müddətinin axımı hansı məqamdan başlanır?

Əgər alqı-satqı müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, əşyanın alıcıya verildiyi məqamdan (maddə 583)

2234. Əgər alıcı müqavilə ilə qarantiya müddəti müəyyənləşdirilmiş əşyadan istifadə etmək imkanından satıcıdan asılı səbəblərə görə məhrum olarsa, qarantiya müddətinin axımı nə zaman başlanır?

Satıcı müvafiq səbəbləri aradan qaldırdıqdan sonra

2235. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, qarantiya müddəti hansı şərtlə əşyada aşkar edilmiş qüsurlara görə ondan istifadənin mümkün olmadığı müddət qədər artırılır?

Bu şərtlə ki, əşyanın qüsurları haqqında satıcıya MM-in 595.1-ci maddəsində müəyyənləşdirilmiş qaydada bildiriş verilsin. Belə ki, alıcı alqı-satqı müqaviləsinin miqdar, çeşid, keyfiyyət, komplektlik, tara və (və ya) qab haqqında şərtlərinin pozulmasına dair satıcıya müqavilədə nəzərdə tutulan müddətdə, belə müddət müəyyənləşdirilmədikdə isə, müqavilənin müvafiq şərtinin pozuntusu əşyanın xarakterinə və təyinatına görə aşkar edilməli olduqdan sonra ağlabatan müddətdə bildiriş verməlidir.

2236. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, komplektləşdirici məmulat üçün qarantiya müddəti nə zaman başlanır?

Əsas məmulat üçün qarantiya müddətinə bərabər sayılır və əsas məmulat üçün qarantiya müddəti ilə eyni vaxtda başlayır

2237. Satıcının qarantiya müddəti ərzində qüsurları aşkar edilmiş əşyanın (komplektləşdirici məmulatın) əvəzinə verdiyi əşya (komplektləşdirici məmulat) üçün nə qədər qarantiya müddəti müəyyənləşdirilir?

Əgər alqı-satqı müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, əvəz edilmiş əşya (komplektləşdirici məmulat) ilə eyni qarantiya müddəti

2238. Qanunvericilik hansı qaydada əşyanın təyinatı üzrə istifadəyə yararlılığına həddqoyan müddət (yararlılıq müddəti) müəyyənləşdirə bilər?

Dövlət standartlarının məcburi tələbləri və ya digər məcburi qaydalar ilə (maddə 584)

2239. Satıcı yararlılıq müddəti müəyyənləşdirilmiş əşyanı alıcıya hansı hesabla verməlidir?

Elə hesabla verməlidir ki, yararlılıq müddəti bitənədək əşyadan təyinatı üzrə istifadə edilə bilsin.

2240. Əşyanın yararlılıq müddəti hansı qaydada müəyyənləşdirilir?

Onun hazırlandığı gündən hesablanan, istifadəyə yararlılığını göstərən vaxt dövrü ilə və ya əşyanın istifadəyə yararlılığının bitdiyi tarixlə (maddə 585)

2241. Qanunvericilikdə, dövlət standartlarının məcburi tələblərində və ya alqı-satqı müqaviləsində əşyanın keyfiyyətinin yoxlanması nəzərdə tutula bilərmi?

Bəli (maddə 586).

2242. Əgər MM-in 586.1-ci maddəsinə, yəni qanunvericiliyə, dövlət standartlarının məcburi tələblərinə və ya alqı-satqı müqaviləsinə uyğun olaraq, əşyanın keyfiyyətinin yoxlanması qaydası müəyyənləşdirilməyibsə, əşyanın keyfiyyəti hansı qaydada yoxlanılır?

İşgüzar dövriyyə adətlərinə və ya alqı-satqı müqaviləsi üzrə verilməli əşyanın yoxlanmasının adətən tətbiq edilən digər şərtlərinə müvafiq surətdə

2243.Əgər qanunvericilikdə, dövlət standartlarının məcburi tələblərində və ya alqı-satqı müqaviləsində satıcının alıcıya verilən əşyanın keyfiyyətini yoxlamaq vəzifəsi (sınama, analiz, müayinə və i.a.) nəzərdə tutulmuşdursa, satıcı hansı öhdəliyi daşıyır?

Əşyanın keyfiyyətinin yoxlanıldığına dair alıcıya sübutlar təqdim etməlidir.

2244. Əgər satıcı əşyanın qüsurları barəsində qabaqcadan məlumat verməmişsə, lazımi keyfiyyəti olmayan əşyanın verildiyi alıcının, satıcının təqsiri olub-olmamasından asılı olmayaraq, satıcıdan öz seçimi ilə nələri tələb etməyə ixtiyarı var?

- Alış qiymətinin mütənasib azaldılmasını;
- əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırılmasını;
- əşyanın qüsurlarının aradan qaldırılması üçün özünün çəkdiyi xərclərin əvəzinin ödənilməsini (maddə 587).

2245. Əşyanın keyfiyyətinə aid tələblər əhəmiyyətli dərəcədə pozulduqda (aradan qaldırıla bilməyən qüsurlar, tənasübsüz xərclər və ya vaxt sərf etmədən aradan qaldırıla bilməyən qüsurlar aşkar edildikdə və ya dəfələrlə aşkar edilən və ya aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan və digər bu cür qüsurlar olduqda) alıcının öz seçimi ilə nələri etməyə ixtiyarı var ?

- Alqı-satqı müqaviləsinin icrasından imtina etməyə və əşya üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb etməyə;
- lazımi keyfiyyəti olmayan əşyanın müqaviləyə uyğun əşya ilə əvəz olunmasını tələb etməyə.

2246. Lazımi keyfiyyətdə olmayan malın verilməsi ilə bağlı (MM-in 587.1 və 587.2-ci maddələrində)göstərilmiş qüsurların aradan qaldırılması və ya əşyanın əvəz edilməsi tələbini alıcı hansı halda irəli sürə bilər?

Əgər əşyanın xarakterindən və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə

2247. Komplektə daxil olan əşya hissələri lazımi keyfiyyətli olmadıqda alıcı əşyanın həmin hissəsi barədə hansı hüquqları həyata keçirə bilər?

MM-in 587.1 və 587.2-ci maddələrində nəzərdə tutulan hüquqları:

- Əgər satıcı əşyanın qüsurları barəsində qabaqcadan məlumat verməmişsə, lazımi keyfiyyəti olmayan əşyanın verildiyi alıcının ixtiyarı var ki, satıcının təqsiri olub-olmamasından asılı olmayaraq, satıcıdan öz seçimi ilə aşağıdakıları tələb etsin:
- alış qiymətinin mütənasib azaldılması;
- əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırılması;
- əşyanın qüsurlarının aradan qaldırılması üçün özünün çəkdiyi xərclərin əvəzinin ödənilməsi.

Əşyanın keyfiyyətinə aid tələblər əhəmiyyətli dərəcədə pozulduqda (aradan qaldırıla bilməyən qüsurlar, tənasübsüz xərclər və ya vaxt sərf etmədən aradan qaldırıla bilməyən qüsurlar aşkar edildikdə və ya dəfələrlə aşkar edilən və ya aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan və digər bu cür qüsurlar olduqda) alıcının ixtiyarı var ki, öz seçimi ilə:

- alqı-satqı müqaviləsinin icrasından imtina etsin və əşya üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb etsin;
- lazımi keyfiyyəti olmayan əşyanın müqaviləyə uyğun əşya ilə əvəz olunmasını tələb etsin.

2248. Əgər alıcı əşyanın qüsurları ilə əlaqədar alqı-satqı müqaviləsinin ləğvini və ya alınmış əşyanın müqaviləyə uyğun əşya ilə əvəz edilməsini tələb edərsə, o, qüsurlu əşyanı satıcıya hansı qaydada qaytarmağa borcludur?

Öz hesabına qaytarmağa borcludur.

2249. Bu zaman tərəflərin müqavilə üzrə əldə etdiklərinin geri qaytarılması hansı qaydada həyata keçirilir?

MM-in 157-ci maddəsi ilə (mükiyyətin müdafiəsi) müəyyən edilmiş qaydada

2250. Hansı halda əşyanın qüsurları üçün satıcı cavabdehdir?

Əgər alıcı əşyanın qüsurlarını alıcıya verilməzdən əvvəl və ya həmin məqamadək yaranan səbəblərdən əmələ gəldiyini sübuta yetirərsə (maddə 588)

2251. Satıcı keyfiyyət qarantiyası verdiyi əşyanın qüsurları üçün hansı halda cavabdehdir?

O halda cavabdehdir ki, əşyanın qüsurlarını əşya alıcıya verildikdən sonra alıcı tərəfindən ondan istifadə və ya onun saxlanması qaydalarının pozulması və ya üçüncü şəxslərin hərəkətləri nəticəsində və ya qarşısıalınmaz qüvvənin təsiri ilə əmələ gəldiyini sübuta yetirməsin.

2252. Əgər alqı-satqı müqaviləsi ilə ayrı qayda müəyyənləşdirilməyibsə, alıcı əşyanın qüsurları ilə bağlı tələbləri hansı şərtlə irəli sürə bilər?

Əşya üçün qarantiya müddəti müəyyənləşdirilibsə, alıcı əşyanın qüsurları ilə

bağlı tələbləri həmin qüsurları qarantiya müddəti ərzində aşkara çıxardığı halda, əşya üçün qarantiya və ya yararlılıq müddəti müəyyənləşdirilməyibsə, həmin əşyanın alıcıya verildiyi gündən iki il ərzində irəli sürə bilər (maddə 589).

2253. Əgər əşya üçün qarantiya və ya yararlılıq müddəti müəyyənləşdirilməyibsə, alıcı əşyanın qüsurları ilə bağlı tələbləri hansı müddətdə irəli sürə bilər?

Həmin əşyanın alıcıya verildiyi gündən iki il ərzində və ya alqı-satqı müqaviləsi ilə nəzərdə tutulmuş daha uzun müddətdə

2254. Daşınmalı və ya poçtla göndərilməli əşyanın qüsurlarının aşkar edilməsi müddəti hansı gündən hesablanır?

Əşyanın təyinat yerinə çatdırıldığı gündən

2255. Əgər əşya üçün qarantiya müddəti müəyyənləşdirilibsə, alıcı əşyanın qüsurları ilə bağlı tələbləri hansı halda irəli sürə bilər?

Həmin qüsurları qarantiya müddəti ərzində aşkara çıxardığı halda

2256. Alqı-satqı müqaviləsində komplektləşdirici məmulat üçün əsas məmulata nisbətən daha qısa qarantiya müddəti müəyyənləşdirildikdə alıcı komplektləşdirici məmulatın qüsurları ilə bağlı tələbləri hansı halda irəli sürə bilər?

Həmin qüsurları əsas məmulatın qarantiya müddəti ərzində aşkara çıxardığı halda

2257. Müqavilədə komplektləşdirici məmulat üçün əsas məmulata nisbətən daha uzun qarantiya müddəti müəyyənləşdirildikdə alıcı əşyanın qüsurları ilə bağlı tələbləri hansı halda irəli sürə bilər?

Əsas məmulatın qarantiya müddətinin bitib-bitmədiyindən asılı olmayaraq komplektləşdirici məmulatın qüsurlarını onun qarantiya müddəti ərzində aşkara çıxardığı halda

2258. Yararlılıq müddəti müəyyənləşdirilmiş əşyanın qüsurları ilə bağlı tələbləri alıcı hansı halda irəli sürə bilər?

Həmin qüsurları əşyanın yararlılıq müddəti ərzində aşkara çıxardığı halda

2259. Müqavilədə nəzərdə tutulan qarantiya müddəti iki ildən az olduqda və alıcı əşyanın qüsurlarını qarantiya müddəti bitəndən sonra, lakin əşyanın ona verildiyi gündən iki il ərzində aşkar etdikdə, satıcı hansı şərtlə məsuliyyət daşıyır?

Bu şərtlə məsuliyyət daşıyır ki, alıcı əşyanın qüsurlarının əşya alıcıya verilənədək əmələ gəldiyini və ya həmin məqamadək yaranmış səbəblərdən əmələ gəldiyini sübuta yetirsin.

2260. Satıcı alıcıya hansı şərtlərə uyğun gələn əşya verməyə borcludur?

Alqı-satqı müqaviləsinin komplektlik haqqında şərtlərinə

2261. Alqı-satqı müqaviləsində əşyanın komplektliyi müəyyənləşdirilmədikdə, satıcı alıcıya komplektliyi hansı qaydada müəyyənləşdirilən əşya verməyə borcludur?

İşgüzar dövriyyə adətləri ilə və ya adətən irəli sürülən digər tələblərlə (maddə 590)

2262. Əgər alqı-satqı müqaviləsində satıcının alıcıya əşyaların müəyyən toplusunu komplekt şəklində vermək vəzifəsi nəzərdə tutulubsa, öhdəlik hansı andan icra edilmiş sayılır?

Komplektə daxil olan bütün əşyaların verildiyi andan (maddə 591)

2263. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, satıcı komplektə daxil olan bütün əşyaları alıcıya hansı qaydada verməyə borcludur?

Eyni vaxtda

2264. Komplektsiz əşya verildiyi halda alıcı satıcıdan öz seçimi ilə nələri tələb edə bilər?

- Alış qiymətinin mütənasib surətdə azaldılmasını;
- əşyanın komplektinin ağlabatan müddətdə tamamlanmasını (maddə 592).

2265. Əgər satıcı əşyanın komplektinin tamamlanması barədə alıcının tələbini ağlabatan müddətdə yerinə yetirməzsə, alıcının öz seçimi ilə nələri etməyə ixtiyarı var ?

- Komplektsiz əşyanın komplektli əşya ilə əvəz olunmasını tələb etməyə;
- alqı-satqı müqaviləsinin icrasından imtina etməyə və ödədiyi pul məbləğinin qaytarılmasını tələb etməyə.

2266. Komplektsiz əşya verilməsinin nəticələri (MM-in 592.1 və 592.2-ci maddələrində nəzərdə tutulan nəticələr) satıcının alıcıya əşya komplekti vermək vəzifəsini pozduğu halda da tətbiq edilirmi?

Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, tətbiq edilir.

2267. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, satıcı alıcıya əşyanı tarada və (və ya) qabda verməlidir, bu zaman hansı əşya istisna təşkil edir?

Xarakterinə görə taralaşdırılması və (və ya) qablaşdırılması tələb olunmayan əşya (maddə 593)

2268. Əgər alqı-satqı müqaviləsində taraya və qaba aid tələblər müəyyənləşdirilməyibsə, əşya hansı üsulla taralaşdırılmalı və (və ya) qablaşdırılmalıdır?

Belə mal üçün adi üsulla, belə üsul olmadıqda isə bu cür əşyaların adi şəraitdə salamatlığını təmin edən üsulla

2269. Əgər qanunla müəyyənləşdirilmiş qaydada taraya və (və ya) qaba aid məcburi tələblər nəzərdə tutulmuşdursa, sahibkarlıq fəaliyyəti ilə məşğul olan satıcı alıcıya əşyanı hansı formada verməlidir?

Həmin məcburi tələblərə uyğun gələn tarada və (və ya) qabda

2270. Taralaşdırılmalı və (və ya) qablaşdırılmalı əşya alıcıya tarasız və (və ya) qabsız verildikdə və ya qeyri-münasib tarada və (və ya) qabda verildikdə alıcının hansı hüququ var?

İxtiyarı var ki, əgər müqavilədən, öhdəliyin mahiyyətindən və ya əşyanın xarak-

terindən ayrı qayda irəli gəlmirsə, əşyanı taralaşdırmağı və (və ya) qablaşdırmağı və ya qeyri-münasib taranı və (və ya) qabı dəyişdirməyi tələb etsin (maddə 594).

2271. MM-in 594.1-ci maddəsində nəzərdə tutulan hallarda (əşyanın tarasız və (və ya) qabsız verilməsinin və ya qeyri-münasib tarada və (və ya) qabda verilməsinin nəticələri) alıcı satıcıya qarşı bu bənddə göstərilən tələblərin əvəzinə hansı tələbləri verə bilər?

Lazımi keyfiyyəti olmayan əşyanın verilməsindən irəli gələn tələbləri

2272. Alıcı alqı-satqı müqaviləsinin miqdar, çeşid, keyfiyyət, komplektlik, tara və (və ya) qab haqqında şərtlərinin pozulmasına dair satıcıya hansı müddətdə bildiriş verməlidir?

Müqavilədə nəzərdə tutulan müddətdə, belə müddət müəyyənləşdirilmədikdə isə, müqavilənin müvafiq şərtinin pozuntusu əşyanın xarakterinə və təyinatına görə aşkar edilməli olduqdan sonra ağlabatan müddətdə (maddə 595)

2273. MM-in 595.1-ci maddəsində nəzərdə tutulan qaydanın yerinə yetirilmədiyi halda satıcı alıcının ona çatışmayan miqdarda əşya verilməsinə, alqı-satqı müqaviləsinin keyfiyyət və ya çeşid haqqında şərtlərinə uyğun gəlməyən əşyanın dəyişdirilməsinə, əşyanın qüsurlarının aradan qaldırılmasına, komplektinin tamamlanmasına və ya komplektsiz əşyanın komplektli əşya ilə əvəz edilməsinə, əşyanın taralaşdırılmasına və (və ya) qablaşdırılmasına və ya qeyri-münasib taranın və (və ya) qabın dəyişdirilməsinə dair tələblərini ödəməkdən hansı halda tamamilə və ya qismən imtina edə bilər?

O halda tamamilə və ya qismən imtina edə bilər ki, alıcının həmin qaydanı yerinə yetirməməsinin onun tələbini ödəməyin qeyri-mümkünlüyünə səbəb olduğunu və ya müqavilənin pozulması haqqında vaxtında bildiriş aldığı halda çəkəcəyi xərclərə nisbətən tənasübsüz xərclər çəkdiyinə səbəb olduğunu sübuta yetirsin.

2274. Hansı halda MM-in 595.1 və 595.2-ci maddələrində nəzərdə tutulan müddəalara istinad edilə bilməz?

Əgər satıcı alıcıya verilmiş əşyaların alqı-satqı müqaviləsinin şərtlərinə uyğun gəlmədiyini bilirdisə və ya bilməli idisə

2275. Alıcı ona verilən əşyanı qəbul etməyə borcludur, amma hansı hallar istisna təşkil edir?

Onun əşyanı dəyişdirməyi tələb etməyə və ya alqı-satqı müqaviləsinin icrasından imtina etməyə ixtiyarı çatdığı hallar (maddə 596)

2276. Alıcı alqı-satqı müqaviləsini pozaraq əşyanı qəbul etmədikdə və ya onun qəbulundan imtina etdikdə satıcı hansı hüquqa malikdir?

Alıcıdan əşyanı qəbul etməyi tələb edə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

2277. Alıcı əşyanı alqı-satqı müqaviləsində nəzərdə tutulan qiymətlə və ya əgər müqavilədə qiymət nəzərdə tutulmayıbsa və müqavilənin şərtləri əsas götürülməklə müəyyənləşdirilə bilinmirsə, hansı öhdəliyi daşıyır?

MM-in 398.3-cü maddəsinə uyğun müəyyənləşdirilmiş qiymətlə (əvəzli müqa-

vilədə qiymət nəzərdə tutulmayıbsa və müqavilə şərtlərinə əsasən müəyyənləşdirilə bilməzsə, müqavilənin icrası üçün pul müqayisəyə gələ bilən hallarda oxşar mallar, işlər və ya xidmətlər üçün adətən alınan qiymət üzrə ödənilməlidir) ödəməyə, habelə müqaviləyə və ya adətən irəli sürülən tələblərə müvafiq surətdə ödəniş üçün zəruri olan hərəkətləri öz hesabına yerinə yetirməyə borcludur (maddə 597).

2278. Qiymət əşyanın çəkisindən asılı olaraq müəyyənləşdirildikdə, nəyə görə təyin edilir?

Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, xalis çəkiyə görə təyin edilir.

2279. Alqı-satqı müqaviləsində əşyanın qiymətini şərtləndirən göstəricilərdən (maya dəyəri, məsrəflər və i.a.) asılı olaraq onun qiymətinin dəyişdirilməli olduğu nəzərdə tutulduqda, lakin qiymətin dəyişdirilməsi üsulu müəyyənləşdirilmədikdə, qiymət hansı qaydada müəyyənləşdirilir?

Müqavilənin bağlandığı an və əşyanın təhvil verildiyi an üçün həmin göstəricilərin nisbəti əsas götürülməklə müəyyənləşdirilir.

2280. Satıcı əşyanı vermək vəzifəsinin icrasını gecikdirdikdə qiymət hansı qaydada müəyyənləşdirilir?

Müqavilənin bağlandığı an və əşyanın verilməsinin müqavilədə nəzərdə tutulan anı üçün, müqavilədə həmin an nəzərdə tutulmadıqda isə MM-in 427-ci maddəsinə uyğun (öhdəliyin icrası müddəti) müəyyənləşdirilmiş an üçün həmin göstəricilərin nisbəti əsas götürülməklə.

2281. Alıcı əşyanı nə zaman ödəməlidir?

Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa və öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, satıcıdan bilavasitə təhvil almazdan əvvəl və ya təhvil aldıqdan sonra (maddə 598).

2282. Alıcı verilmiş əşyanın qiymətini satıcıya hansı formada ödəməlidir?

Əgər alqı-satqı müqaviləsində əşyanın hissə-hissə ödənilməsi nəzərdə tutulmayıbsa, tam ödəməyə borcludur.

2283. Əgər alıcı alqı-satqı müqaviləsinə uyğun olaraq verilmiş əşyanı vaxtında ödəmirsə, satıcı hansı tələb hüququna malikdir?

Əşyanı ödəməyi və MM-in 449-cu maddəsinə (pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət) uyğun faizləri ödəməyi tələb edə bilər.

2284. Əgər alıcı alqı-satqı müqaviləsini pozmaqla əşyanı qəbul etməkdən və ödəməkdən imtina edirsə, satıcı hansı hüquqa malikdir?

Öz seçimi ilə əşyanın ödənilməsini tələb edə bilər və ya müqavilənin icrasından imtina edə bilər.

2285. Alqı-satqı müqaviləsinə uyğun olaraq satıcının alıcıya təkcə onun ödədiyi əşyaları deyil, digər əşyaları da verməyə borclu olduğu hallarda satıcının nəyə ixtiyarı vardır?

İxtiyarı var ki, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, əvvəl verilmiş əşyaların hamısı tam ödənilənədək həmin əşyaların verilməsini dayandırsın.

2286. Alqı-satqı müqaviləsində alıcının əşyanı satıcıdan almazdan əvvəl tam və ya qismən ödəmək (qabaqcadan ödəniş) vəzifəsinin nəzərdə tutulduğu hallarda alıcı ödənişi hansı müddətdə həyata keçirir?

Müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə MM-in 427-ci maddəsinə (öhdəliyin icrası müddəti) uyğun müəyyənləşdirilmiş müddətdə (maddə 599)

2287. Alıcı əşyanı qabaqcadan ödəmək vəzifəsini icra etmədikdə hansı qaydalar tətbiq edilir?

Öhdəliklərin qarşılıqlı icrası (MM-in 441-ci maddəsində) nəzərdə tutulan qaydalar

2288. Qabaqcadan ödəniş məbləğini almış satıcı əşyanı müəyyənləşdirilmiş müddətdə vermək vəzifəsini icra etmirsə, alıcı hansı tələb hüququna malikdir?

Ödədiyi əşyanın verilməsini və ya əşya üçün qabaqcadan ödədiyi məbləğin qaytarılmasını tələb edə bilər.

2289. Satıcı qabaqcadan ödənilmiş əşyanı vermək vəzifəsini icra etmədikdə və alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda hansı qaydada faizlər ödənilməlidir?

Əşyanın müqaviləyə görə verilməli olduğu gündən alıcıya verildiyi və ya qabaqcadan ödədiyi məbləğin ona qaytarıldığı günədək qabaqcadan ödəniş məbləğindən MM-in 449-cu maddəsinə (pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət) uyğun faizlər ödənilməlidir. Müqavilədə satıcının alıcıdan qabaqcadan ödəniş məbləğini aldığı gündən həmin məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

2290. Alqı-satqı müqaviləsində əşyanın alıcıya verildikdən müəyyən müddət sonra ödənilməsinin (əşyaların nisyə satışının) nəzərdə tutulduğu halda alıcı ödənişi hansı müddətdə həyata keçirməlidir?

Müqavilədə nəzərdə tutulan müddətdə, müqavilədə belə müddət nəzərdə tutulmadıqda isə MM-in 427-ci maddəsinə (öhdəliyin icrası müddəti) uyğun müəyyənləşdirilmiş müddətdə (maddə 600)

2291. Əşyaların nisyə satışı satış günü hansı qiymətlər üzrə həyata keçirilir?

Qüvvədə olmuş qiymətlər üzrə həyata keçirilir. Nisyə satılmış əşyaların qiymətinin sonradan dəyişməsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, yenidən hesablaşmaya səbəb olmur.

2292. Satıcı əşyanı vermək vəzifəsini icra etmədikdə hansı qaydalar tətbiq edilir?

MM-in 441-ci maddəsində (öhdəliklərin qarşılıqlı icrası) nəzərdə tutulan qaydalar

2293. Əşyanı təhvil almış alıcı onu alqı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə satıcı hansı tələb hüququna malikdir?

Verilmiş əşyanın ödənilməsini və ya ödənilməmiş malın qaytarılmasını tələb edə bilər.

2294. Alıcı verilmiş əşyanı müqavilədə nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə və MM-də və ya alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda gecikdirilmiş məbləğdən hansı qaydada faizlər ödənilməlidir?

Malın müqaviləyə görə ödənilməli olduğu gündən ödənildiyi günədək MM-in 449-cu maddəsinə (pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət) uyğun faizlər ödənilməlidir. Müqavilədə alıcının satıcı tərəfindən əşyanın verildiyi gündən başlayaraq əşyanın qiymətinə uyğun məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

2295. Hissə-hissə ödəmə şərti ilə əşyanın nisyə satılması haqqında müqavilə hansı halda bağlanmış sayılır?

O halda bağlanmış sayılır ki, alqı-satqı müqaviləsinin digər mühüm şərtləri ilə yanaşı, əşyanın qiyməti, ödənişlərin qaydası, müddətləri və məbləğləri nəzərdə tutulmuş olsun (maddə 601).

2296. Hissə-hissə ödəmə şərti ilə malın nisyə satılması haqqında müqaviləyə hansı qaydalar tətbiq edilir?

MM-in 600.2-600.5-ci maddələrində nəzərdə tutulan qaydalar:

- Əşyaların nisyə satışı satış günü qüvvədə olmuş qiymətlər üzrə həyata keçirilir. Nisyə satılmış əşyaların qiymətinin sonradan dəyişməsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, yenidən hesablaşmaya səbəb olmur;
- satıcı əşyanı vermək vəzifəsini icra etmədikdə bu Məcəllənin 441-ci maddəsində nəzərdə tutulan qaydalar tətbiq edilir;
- əşyanı təhvil almış alıcı onu alqı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə satıcı verilmiş əşyanın ödənilməsini və ya ödənilməmiş malın qaytarılmasını tələb edə bilər;
- alıcı verilmiş əşyanı müqavilədə nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə və bu Məcəllədə və ya alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda gecikdirilmiş məbləğdən malın müqaviləyə görə ödənilməli olduğu gündən ödənildiyi günədək pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyətə uyğun faizlər ödənilməlidir. Müqavilədə alıcının satıcı tərəfindən əşyanın verildiyi gündən başlayaraq əşyanın qiymətinə uyğun məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

2297. Əşyanı sığorta etdirməyə borclu olan tərəf müqavilənin şərtlərinə uyğun sığortanı həyata keçirmədikdə digər tərəf hansı hüquqa malikdir?

Digər tərəf əşyanı sığorta etdirə və borclu tərəfdən sığortaya çəkdiyi xərclərin əvəzini ödəməyi tələb edə bilər və ya müqavilənin icrasından imtina edə bilər (maddə 602)

2298. Hazırlanmalı və ya istehsal edilməli malların göndərilməsinə dair müqavilələr hansı halda alqı-satqı müqavilələrinə bərabər tutulur?

Əgər sifarişçi həmin malların hazırlanması və ya istehsalı üçün zəruri materialların mühüm hissəsini göndərməyi öz öhdəsinə götürürsə, habelə əgər mal göndərən tərəfin vəzifələrinin daha böyük hissəsi işlərin görülməsindən və ya başqa xidmətlərin göstərilməsindən ibarət deyilsə (maddə 604)

2299. Əşyaların alqı-satqısı haqqında müddəalar hansı münasibətlərə tətbiq olunmur?

Auksion satışı çərçivəsində, icraat və ya digər məhkəmə tədbirləri əsasında əşyaların əldə edilməsinə, habelə qiymətli kağızların və ya ödəniş vasitələrinin və elektrik enerjisinin əldə edilməsinə (maddə 605)

2300. Əgər daşınar əşyanın satıcısı alıcı tərəfindən alış qiyməti ödənilənədək əşyaya mülkiyyət hüququnu özündə saxlamışdırsa (mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərt), şübhə halında nə ehtimal edilir?

Ehtimal edilir ki, mülkiyyətin verilməsi alış qiyməti tam ödənilənədək təxirəsalıcı şərtlə həyata keçirilir və əgər alıcı alış qiymətinin ödənilməsini gecikdirirsə, satıcının müqaviləni ləğv etmək və (və ya) həmin daşınar əşyaya tutma yönəltmək hüququ vardır (maddə 606).

2301. Satıcının satılmış əşyaya (MM-in 606.1-ci maddəsindən irəli gələn) əşya hüquqlarına alıcının vəkil etdiyi şəxslər, habelə alıcının kreditorları da riayət etməlidirlər. Bu halda «vəkil edilmiş şəxs» dedikdə kim başa düşülür?

Alıcının ödəniş qabiliyyətinin olmaması ilə əlaqədar onun əmlakını kreditorlarının mənafeləri üçün idarə etməyə təyin olunmuş idarəçi və ya hər hansı digər şəxs

2302. MM-in 606.2-ci maddəsi (Satıcının satılmış əşyaya bu Məcəllənin 606.1-ci maddəsindən irəli gələn əşya hüquqlarına alıcının vəkil etdiyi şəxslər, habelə alıcının kreditorları da riayət etməlidirlər) kreditorların üstün və ya bərabər hüquqlarını məhdudlaşdıra bilərmi?

Xeyr, onlar əşyaya girov hüququna və ya həbsin və ya icraatın nəticəsi olmayan digər təminat hüququna malikdirlər və ya müsadirə ilə əlaqədar olaraq avtomobillər, gəmilər və ya təyyarələr barəsində saxlama hüququnu və ya istifadə hüququnu həyata keçirə bilərlər.

2303. Hansı halda alıcı mülkiyyət hüququ ona keçənədək əşyanı, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa və ya əşyanın təyinatından və xassələrindən ayrı qayda irəli gəlmirsə, özgəninkiləşdirə bilməz və ya ona dair digər sərəncam verə bilməz?

Alqı-satqı müqaviləsində alıcıya verilmiş əşyaya mülkiyyət hüququnun mal ödənilənədək satıcıda qaldığı nəzərdə tutulduqda

2304. Əgər icraat çərçivəsində satış həyata keçirilirsə, satışı həyata keçirməyə və ya ona rəhbərlik etməyə ixtiyarı çatan şəxsə və onun cəlb etdiyi köməkçilərə, o cümlədən protokolu tərtib edən katibə nə etməyə icazə verilmir?

Satışa çıxarılmış obyekti nə şəxsən və ya başqa şəxs vasitəsilə özü üçün, nə də təmsil etdiyi digər şəxslər üçün almağa (maddə 607)

2305. İcraat çərçivəsindən kənarda satış həyata keçirilərkən satış tapşırığı zaminə hansı əsasla verilir?

Obyektin satışını üçüncü şəxsin hesabına həyata keçirmək səlahiyyəti verən qanuni göstəriş əsasında

2306. Eyni qayda nə zaman tətbiq edilir?

Ödəniş qabiliyyətinin olmadığı halda icraat zamanı idarəçinin həyata keçirdiyi satışda da

2307. Alqının qadağan edilməsi tələbləri (MM-in 607.1-ci maddəsi) pozulmaqla həyata keçirilmiş alqı hansı şərtlə etibarlıdır?

Bu şərtlə etibarlıdır ki, satışın borclular, mülkiyyətçilər və ya kreditorlar kimi çıxış edən iştirakçıları onunla razılaşsınlar.

§ 2. Heyvanların, quşların və balıqların alqı-satqısı

2308. Əgər "Heyvanların, quşların və balıqların alqı-satqısı" adlı paraqrafın müddəalarından ayrı qayda irəli gəlmirsə, heyvanların, quşların və balıqların alqı-satqısına hansı müddəalar tətbiq edilir?

Əşyaların alqı-satqısı haqqında ümumi müddəalar (maddə 608)

2309. Heyvan, quş və balıq satıcısı hansı halda məsuliyyət daşıyır?

Yalnız müqaviləyə aşağıda müəyyənləşdirilmiş uyğunsuzluqlar (başlıca qüsurlar) üçün və yalnız bu qüsurların konkret müddətlər (qarantiya müddətləri) ərzində aşkara çıxdığı halda (maddə 609)

2310. Faydalı və damazlıq heyvanların satıldığı halda nələr başlıca qüsur sayılır?

- Cıdır və yük heyvanlarında - manqo, şüurun azalması ilə baş beyinin sağalmaz xəstəliyi, qırtlağın və ya traxeyanın və ya ağ ciyərlərin və ya ürəyin sağalmaz xəstəliyi nəticəsində tənəffüsün çətinləşməsi, habelə gözün daxili orqanlarının iltihablı dəyişməsi - 14 günlük qarantiya müddəti ilə;

- qaramalda - heyvanın vəziyyəti ümumən pisləşməklə vərəm xəstəliyi - 14 günlük qarantiya müddəti ilə, habelə ağ ciyərlərin tam iltihabı - 28 günlük qarantiya müddəti ilə;

- davarda - qoturluq - 14 günlük qarantiya müddəti ilə, qızıl yel - 3 günlük qarantiya müddəti ilə; taun - 10 günlük qarantiya müddəti ilə.

2311. Yeyinti məhsulları əldə etmək məqsədilə heyvanların kəsilmək üçün satıldığı halda nələr başlıca qüsur sayılır:

- Cıdır və yük heyvanlarında - manqo - 14 günlük qarantiya müddəti ilə;

- qaramalda - heyvanın çəkisinin yarıdan çoxunu insanın qidalanması üçün yararsız etmiş vərəm xəstəliyi - 14 günlük qarantiya müddəti ilə;

- qoyunlarda və keçilərdə - ümumi hidropos - 14 günlük qarantiya müddəti ilə;

- donuzlarda - heyvanın çəkisinin yarıdan çoxunu insanın qidalanması üçün yararsız etmiş vərəm xəstəliyi - 14 günlük qarantiya müddəti ilə, habelə trixin - 14 günlük qarantiya müddəti ilə.

2312. Digər heyvanlar, quşlar və balıqlar satılarkən başlıca qüsurlar hansı qaydada müəyyənləşdirilir?

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən, normativ hüquqi aktlar olmadıqda isə müqavilə ilə

2313. Qarantiya müddəti nə vaxtdan başlanır?

Riskin alıcıya keçdiyi günün sonundan

2314. Yazılı müqavilədə tərəflər MM-in 609-cu maddəsində (heyvan, quş və balıq satıcısının məsuliyyətinin başlıca qüsurlarla məhdudlaşdırılmasını) nəzərdə tutulan məsuliyyətin məhdudlaşdırılmasının xüsusi şərtləri barəsində razılığa gələ bilərlər. Həmin şərtlərə əsasən hansı dəyişikliklər müəyyən oluna bilər?

Başlıca qüsurların olmamasına və ya müəyyən xassələrin olmasına təminat verilə bilər, qarantiya müddətləri uzadıla və ya qısaldıla bilər (maddə 610).

2315. Qarantiya müddəti ərzində hər hansı başlıca qüsur aşkar edildikdə nə ehtimal olunur?

Ehtimal olunur ki, həmin qüsur riskin alıcıya keçdiyi ana qədər mövcud idi (maddə 611).

2316. Heyvanlarda, quşlarda və balıqlarda başlıca qüsurların olması nəticəsində alıcı qiymətin azaldılmasını tələb edə bilərmi?

Xeyr, yalnız müqavilənin ləğvini tələb edə bilər (maddə 612).

2317. Bu halda alıcı cavabdeh olmadığı hallarla əlaqədar heyvanı, quşu və ya balığı qaytara bilmədikdə, o cümlədən başqasına satması, onun tələf olması, xəstələnməsi və ya kəsilməsi nəticəsində qaytara bilmədikdə də müqavilənin ləğvini tələb edə bilərmi?

Bəli.

2318. Heyvanın, quşun və ya balığın kəsildiyi halda alıcı hansı öhdəliyi daşıyır?

Onu qaytarmaq əvəzinə dəyərini ödəyir.

2319. Əgər müqavilə ləğv edilənədək alıcının cavabdeh olduğu hallar nəticəsində heyvanın, quşun və ya balığın vəziyyəti əhəmiyyətsiz dərəcədə pisləşmişdirsə, alıcı hansı öhdəliyi daşıyır?

Onun dəyərinin azalmasını kompensasiya etməlidir.

2320. Heyvandan, quşdan və ya balıqdan istifadə nəticəsində hər hansı faydanın əvəzini alıcı hansı halda ödəyir?

Yalnız bu cür faydanı əldə etmiş olduğu halda

2321. Müqavilə ləğv edildiyi halda satıcı alıcıya hansı xərclərin əvəzini ödəməlidir?

Heyvanın yemlənməsinə və bəslənməsinə, baytarlıq müayinələrinə və qulluğuna çəkilmiş xərclərin, habelə heyvanın məcburən öldürülməsinə və uzaqlaşdırılmasına çəkilmiş xərclərin əvəzini

2322. Müəyyən cins əlamətləri olan heyvan, quş və ya balıq alıcısı müqavilənin ləğvi əvəzinə nəyi tələb edə bilər?

Tələb edə bilər ki, müqaviləyə uyğun gəlməyən heyvanın, quşun və ya balığın əvəzinə ona müqaviləyə uyğun gələn heyvan verilsin.

2323. Əgər satıcı heyvanın, quşun və ya balığın hər hansı başlıca qüsurlarının olmadığına və ya hər hansı konkret xassələrinin olduğuna xüsusi qarantiya verirsə və onlar bu qarantiyaya uyğun gəlmirsə, alıcı hansı tələbi irəli sürə bilər?

Müqavilənin ləğvini və ya icra edilməmə nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

2324. Alıcı hər hansı başlıca qüsur əsasında ona mənsub hüquqlardan hansı halda məhrum olur?

O halda məhrum olur ki, qarantiya müddəti qurtardıqdan sonra üç gündən gec

olmayaraq və ya əgər heyvan, quş və ya balıq həmin müddət bitənədək öldürülərsə və ya digər şəkildə tələf olarsa, heyvanın, quşun və ya balığın ölümündən sonra satıcıya bu qüsur barəsində məlumat vermir və ya ona bu barədə bildiriş göndərmir və ya qüsur əsasında ona qarşı iddia irəli sürmür (maddə 613).

2325. Hansı halda bu hüquq itmir?

Əgər satıcı bu qüsur barəsində qəsdən susmuşdursa

2326. Satıcının müqavilənin ləğv edilməsi, dəyişdirmə üçün göndərilmə və ya zərərin əvəzinin ödənilməsi hüquqları müddətin keçməsinə görə qüvvədən nə zaman düşür?

Qarantiya müddəti qurtardıqdan iki ay sonra

§ 3. Pərakəndə alqı-satqı

2327. Pərakəndə alqı-satqı müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Pərakəndə alqı-satqı müqaviləsinə görə malların pərakəndə satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan şəxsi, ailə, ev və ya digər istifadə üçün nəzərdə tutulan malı alıcıya verməyi öhdəsinə götürür (maddə 614).

2328. Fiziki şəxs olan alıcının iştirakı ilə pərakəndə alqı-satqı müqaviləsi ilə əlaqədar MM ilə tənzimlənməyən münasibətlərə hansı aktlar tətbiq edilir?

"İstehlakçıların hüquqlarının qorunması haqqında" Qanun və ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktlar

2329. Pərakəndə alqı-satqı müqaviləsi hansı andan lazımi formada bağlanmış sayılır?

Əgər pərakəndə alqı-satqı müqaviləsində, o cümlədən alıcının qoşulduğu standart formaların şərtlərində ayrı qayda nəzərdə tutulmayıbsa, satıcının alıcıya kassa və ya əmtəə çekini və ya malın ödənildiyini təsdiq edən digər sənədi verdiyi andan (maddə 615)

2330. Malın qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanmış reklamda, kataloqlarda və malların təsvirlərində təklif edilməsi hansı halda ümumi oferta sayılır?

Əgər bu, pərakəndə alqı-satqı müqaviləsinin bütün mühüm şərtlərini əhatə edirsə (maddə 616)

2331. Satış yerində (piştaxtalarda, vitrinlərdə və i.a.) malların qoyulması, onların nümunələrinin nümayiş etdirilməsi və ya satılan mallara dair məlumatların (malların təsvirlərinin, kataloqlarının, fotoşəkillərinin və i.a.) təqdim edilməsi ümumi oferta sayılırmı? Sayılırsa, hansı hal istisna təşkil edir?

Qiymətin və pərakəndə alqı-satqı müqaviləsinin digər mühüm şərtlərinin göstərilib-göstərilmədiyindən asılı olmayaraq, sayılır. Satıcının müəyyən malların satış üçün nəzərdə tutulmadığını aşkar müəyyənləşdirdiyi hal istisnadır.

2332. Satıcı satışa təklif edilən mal haqqında alıcıya hansı qaydada informasiya verməyə borcludur?

Qanunvericilikdə müəyyənləşdirilmiş və pərakəndə ticarətdə adətən irəli sürülən tələblərə uyğun olan zəruri və düzgün informasiya (maddə 617)

2333. Pərakəndə alqı-satqı müqaviləsi bağlananadək alıcının hansı şərtlə malı gözdən keçirmək, öz yanında malın xassələrinin yoxlanılmasını və ya ondan istifadənin nümayiş olunmasını tələb etmək ixtiyarı vardır?

Bir şərtlə ki, bu, malın xarakterinə görə istisna edilməsin və pərakəndə ticarətdə qəbul edilmiş qaydalara zidd olmasın.

2334. Alıcıya (MM-in 617.1 və 617.2-ci maddələrində) satışa təklif edilmiş mala dair məlumatı satış yerində dərhal almaq imkanı verilmədikdə o, hansı tələb hüququna malikdir?

Satıcıdan pərakəndə alqı-satqı müqaviləsinin bağlanmasından əsassız boyun qaçırılması nəticəsində dəyən zərərin əvəzini ödəməyi tələb edə bilər, müqavilə bağlanmış olduqda isə ağlabatan müddətdə müqavilənin icrasından imtina edə bilər, mal üçün ödədiyi məbləğin geri qaytarılmasını və digər zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

2335. Alıcıya mal haqqında müvafiq informasiya almaq imkanı verməyən satıcı malın alıcıya verilməsindən sonra əmələ gəlmiş qüsurları üçün hansı şərtlə məsuliyyət daşıyır?

Bu şərtlə ki, alıcı həmin qüsurların onda belə informasiyanın olmaması ilə əlaqədar əmələ gəldiyini sübuta yetirsin.

2336. Pərakəndə alqı-satqı müqaviləsi alıcının malı müqavilədə müəyyənləşdirilmiş müddətdə qəbul etməsi şərti ilə bağlana bilər. Bu müddət ərzində mal başqa alıcıya satıla bilərmi?

Xeyr (maddə 618).

2337. Alıcının gəlməməsi və ya malın müqavilədə müəyyənləşdirilmiş müddətdə qəbul edilməsi üçün zəruri olan digər hərəkətlərin yerinə yetirilməməsi satıcı tərəfindən alıcının müqavilənin icrasından imtina etməsi kimi qiymətləndirilə bilərmi?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, qiymətləndirilə bilər.

2338. Malın müqavilədə müəyyənləşdirilmiş müddətdə alıcıya verilməsini təmin etmək üçün satıcının çəkdiyi əlavə xərclər malın qiymətinə daxil edilirmi?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, daxildir.

2339. Malın nümunə üzrə pərakəndə alqı-satqı müqaviləsi hansı andan icra edilmiş sayılır?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, malın müqavilədə göstərilmiş yerə çatdırıldığı andan, müqavilədə malın verilməsi yeri müəyyənləşdirilmədikdə isə malın fiziki şəxsin yaşayış yeri üzrə və ya hüquqi şəxsin olduğu yer üzrə alıcıya çatdırıldığı andan (maddə 619)

2340. Mal verilənədək alıcı pərakəndə alqı-satqı müqaviləsinin icrasından hansı şərtlə imtina edə bilər?

Bu şərtlə imtina edə bilər ki, satıcıya müqavilənin yerinə yetirilməsi üzrə hərəkətlərin icrası ilə əlaqədar çəkdiyi zəruri xərclərin əvəzini ödəsin.

2341. Malların avtomatlardan istifadə etməklə satıldığı hallarda, avtomatların sahibi hansı məlumatları avtomatda yerləşdirməklə və ya başqa üsulla təqdim etmək yolu ilə alıcılara malların satıcısı haqqında informasiya verməyə borcludur?

Satıcının adı (firma adı), olduğu yer, habelə malı almaq üçün alıcının yerinə yetirməli olduğu hərəkətlər haqqında məlumatları (maddə 620)

2342. Avtomatlardan istifadə etməklə pərakəndə alqı-satqı müqaviləsi hansı andan bağlanmış sayılır?

Alıcının malı almaq üçün zəruri hərəkətləri yerinə yetirdiyi andan

2343. Əgər ödənilmiş mal alıcıya verilmirsə, satıcı alıcının tələbi ilə nə etmək öhdəliyi daşıyır?

Dərhal malı ona təqdim etməyə və ya ödədiyi məbləği qaytarmağa borcludur.

2344. Avtomatda pulların xırdalanması, ödəniş nişanlarının əldə edilməsi və ya valyuta mübadiləsi üçün istifadə edildiyi hallarda, hansı qaydalar tətbiq edilir?

Əgər öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, pərakəndə alqı-satqı haqqında qaydalar

2345. Pərakəndə alqı-satqı müqaviləsi malın alıcıya çatdırılması şərti ilə bağlandıqda satıcı müqavilədə müəyyənləşdirilmiş müddətdə malı hansı qaydada çatdırmağa borcludur?

Alıcının göstərdiyi yerə çatdırmağa, alıcı malın çatdırılma yerini göstərmədikdə isə alıcı olan fiziki şəxsin yaşayış yerinə və ya hüquqi şəxsin olduğu yerə çatdırmağa (maddə 621)

2346. Pərakəndə alqı-satqı müqaviləsi hansı andan icra edilmiş sayılır?

Malın alıcıya, alıcı olmadıqda isə müqavilənin bağlandığını və ya malın çatdırılmasının rəsmiləşdirildiyini göstərən qəbzi və ya digər sənədi təqdim etmiş istənilən şəxsə təhvil verildiyi andan icra edilmiş sayılır, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlməsin.

2347. Müqavilədə malın alıcıya təhvil verilmək üçün çatdırılma vaxtı müəyyənləşdirilmədikdə mal hansı müddətdə çatdırılmalıdır?

Alıcının tələbi alındıqdan sonra ağlabatan müddətdə çatdırılmalıdır.

2348. Alıcı malı hansı qiymətlə ödəməyə borcludur?

Əgər öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, pərakəndə alqı-satqı müqaviləsinin bağlandığı an satıcının elan etdiyi qiymətlə (maddə 622)

2349. Pərakəndə alqı-satqı müqaviləsində malın qabaqcadan ödənilməsinin nəzərdə tutulduğu halda alıcının müqavilədə müəyyənləşdirilmiş müddətdə malı ödəməməsi nə ilə nəticələnir?

Əgər tərəflərin razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, alıcının müqavilənin icrasından imtina etməsi ilə

2350. Malların pərakəndə nisyə alqı-satqı müqavilələrinə, o cümlədən alıcı tərəfindən malların hissə-hissə ödənilməsi şərti ilə bağlanmış müqavilələrə hansı qaydalar tətbiq edilməməlidir?

MM-in 600.5-ci maddəsində nəzərdə tutulan qaydalar:

- Alıcı verilmiş əşyanı müqavilədə nəzərdə tutulan müddətdə ödəmək vəzifəsini icra etmədikdə və bu Məcəllədə və ya alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda gecikdirilmiş məbləğdən malın müqaviləyə görə ödənilməli olduğu gündən ödənildiyi günədək bu Məcəllənin 449-cu maddəsinə (pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət) uyğun faizlər ödənilməlidir. Müqavilədə alıcının satıcı tərəfindən əşyanın verildiyi gündən başlayaraq əşyanın qiymətinə uyğun məbləğdən faizlər ödəmək vəzifəsi nəzərdə tutula bilər.

2351. Alıcı malın hissə-hissə ödənilməsi üçün malı nə zaman ödəyə bilər?

Müqavilədə müəyyənləşdirilmiş müddət ərzində istədiyi vaxt

2352. Alıcı hansı müddət ərzində aldığı malı alış yerində və satıcının elan etdiyi digər yerlərdə başqa ölçülü, formalı, qabaritli, fasonlu, rəngli və ya quruluşlu oxşar mala dəyişdirə bilər?

Əgər satıcı tərəfindən daha uzun müddət elan edilməyibsə, qeyri-ərzaq malının ona verildiyi andan on dörd gün ərzində (maddə 623)

2353. Bu zaman qiymətdə fərq olduqda satıcı ilə lazımi hesablaşma aparılır. Satıcıda dəyişdirilmək üçün zəruri mal olmadıqda alıcı hansı hüquqa malikdir?

Əldə etdiyi malı satıcıya qaytara bilər və mal üçün ödədiyi pul məbləğini geri ala bilər.

2354. Alıcının malın dəyişdirilməsi və ya qaytarılması haqqında tələbi hansı şərtlə ödənilməlidir?

Bu şərtlə ödənilməlidir ki, mal işlədilmiş olmasın, istehlak xassələri qorunub saxlanılsın və həmin satıcıdan alındığına dair sübutlar olsun.

2355. Dəyişdirilməli və ya qaytarılmalı olmayan malların siyahısı hansı qaydada təyin edilir?

Xüsusi hüquqi aktlar ilə müəyyənləşdirilmiş qaydada.

2356. Alıcıya lazımi keyfiyyəti olmayan mal satıldıqda, əgər malın qüsurları satıcı tərəfindən qabaqcadan bildirilməyibsə, alıcı öz seçimi ilə nələri tələb edə bilər ?

- Keyfiyyətsiz malın lazımi keyfiyyətli malla əvəz edilməsini;
- alış qiymətinin mütənasib surətdə azaldılmasını;
- malın qüsurlarının təxirə salınmadan əvəzsiz qaydada aradan qaldırılmasını;
- malın qüsurlarının aradan qaldırılmasına çəkilmiş xərclərin əvəzinin ödənilməsini (maddə 624).

2357. Malın xassələri onun aşkar edilmiş qüsurlarını aradan qaldırmağa imkan vermədikdə (ərzaq malları, məişət kimyası malları və i.a.) alıcı hansı hüquqa malikdir?

Öz seçimi ilə həmin malın lazımi keyfiyyətli malla dəyişdirilməsini və ya alış qiymətinin mütənasib surətdə azaldılmasını tələb edə bilər.

2358. Keyfiyyətsiz malın lazımi keyfiyyətli malla əvəz edilməsi, alış qiymətinin mütənasib surətdə azaldılması, malın qüsurlarının təxirə salınmadan əvəzsiz qaydada aradan qaldırılması, malın qüsurlarının aradan qaldırılmasına çəkilmiş xərclərin əvəzinin ödənilməsi, malın lazımi keyfiyyətli malla dəyişdirilməsi və ya alış qiymətinin mütənasib surətdə azaldılması göstərilmiş tələblərini irəli sürmək əvəzinə alıcı hansı tələbi irəli sürə bilər?

Pərakəndə alqı-satqı müqaviləsinin icrasından imtina edə bilər və mal üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər (maddə 624).

2359. Pis keyfiyyətli mal pərakəndə alqı-satqı müqaviləsinə uyğun gələn lazımi keyfiyyətli malla əvəz edilərkən satıcı hansı ödənişi tələb edə bilməz?

Malın müqavilədə müəyyənləşdirilmiş qiyməti ilə onun dəyişdirildiyi və ya dəyişdirilməsinə dair məhkəmə qərarının çıxarıldığı an mövcud olmuş qiyməti arasındakı fərqin ödənilməsini (maddə 625)

2360. Pis keyfiyyətli mal oxşar, lakin ölçüsünə, fasonuna, növünə və ya digər əlamətlərinə görə başqa olan lazımi keyfiyyətli malla əvəz edilərkən hansı məbləğ ödənilməlidir?

Dəyişdirilən malın dəyişdirilmə anındakı qiyməti ilə lazımi keyfiyyəti olmayan malın əvəzinə verilən malın qiyməti arasındakı fərq

2361. Əgər satıcı alıcının tələbini yerinə yetirmirsə, dəyişdirilən malın qiyməti və onun əvəzinə verilən malın qiyməti hansı gün üçün müəyyənləşdirilir?

Məhkəmə tərəfindən malın dəyişdirilməsinə dair qərarın çıxarıldığı gün üçün

2362. Malın alış qiymətinin mütənasib surətdə azaldılması tələbinin irəli sürüldüyü halda, malın hansı gün üçün qiyməti hesaba alınır?

Malın həmin tələbin irəli sürüldüyü an üçün qiyməti

2363. Alıcının tələbi könüllü surətdə yerinə yetirilmədikdə, malın hansı gün üçün qiyməti hesaba alınır?

Məhkəmə tərəfindən qiymətin mütənasib surətdə azaldılmasına dair qərarın çıxarıldığı gün üçün qiyməti

2364. Lazımi keyfiyyəti olmayan malı satıcıya qaytararkən alıcı hansı gün üçün müvafiq malın qiyməti arasındakı fərqin ödənilməsini tələb edə bilər?

Malın pərakəndə alqı-satqı müqaviləsində müəyyənləşdirilmiş qiyməti ilə onun tələbinin könüllü surətdə yerinə yetirildiyi an üçün

2365. Tələb könüllü surətdə yerinə yetirilmədikdə alıcı hansı gün üçün müvafiq malın qiyməti arasındakı fərqin ödənilməsini tələb edə bilər?

Məhkəmə qərarının çıxarıldığı gün üçün

§ 4. Malların göndərilməsi

2366. Göndərmə müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Göndərmə müqaviləsinə görə mal göndərən - sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı istehsal etdiyi və ya satın aldığı malları sahibkarlıq fəaliyyətində və ya şəxsi, ailə, ev və digər bu cür istifadə ilə bağlı olmayan başqa məqsədlər üçün istifadə edilməkdən ötrü şərtləşdirilmiş müddətdə və ya müddətlərdə alıcıya verməyi öhdəsinə götürür (maddə 627).

2367. Tərəflər göndərmə müqaviləsinin qüvvədə olduğu müddət ərzində malların ayrı-ayrı partiyalar ilə göndərilməsini nəzərdə tutduqda və bu partiyaların göndərilməsi müddətləri (göndərmə dövrləri) müqavilədə müəyyənləşdirilmədikdə, mallar hansı qaydada göndərilməlidir?

Əgər qanunvericilikdən, öhdəliyin mahiyyətindən və ya işgüzar dövriyyə adətlərindən ayrı qayda irəli gəlmirsə, bərabər partiyalar ilə aybaay göndərilməlidir (maddə 629).

2368. Göndərmə müqaviləsində göndərmə dövrləri ilə yanaşı, malların göndərilməsi cədvəli də (on günlük, günlük, saatlıq və i.a.) müəyyənləşdirilə bilərmi?

Bəli.

2369. Mallar alıcının razılığı ilə vaxtından qabaq göndərilə bilər. Vaxtından qabaq göndərilmiş və alıcı tərəfindən qəbul edilmiş mallar hansı malların miqdarına daxil edilir?

Növbəti dövrdə göndərilməli olan malların miqdarına

2370. Mal göndərən göndərmə müqaviləsinin tərəfi olan alıcıya və ya müqavilədə alıcı kimi göstərilmiş şəxsə malları hansı üsul ilə göndərir?

Yollama (vermə) üsulu ilə (maddə 630)

2371. Hansı halda mal göndərən malları yollama sərəncamında göstərilmiş mal alanlara yollayır (verir)?

Göndərmə müqaviləsində alıcının mal göndərənə malları mal alanlara yollamaq (vermək) haqqında göstərişlər (yollama sərəncamı) vermək hüququnun nəzərdə tutulduğu halda

2372. Yollama sərəncamının məzmunu və alıcı tərəfindən onun mal göndərənə verilməsi müddəti hansı qaydada müəyyənləşdirilir?

Müqavilə ilə

2373. Əgər müqavilədə yollama sərəncamının verilməsi müddəti nəzərdə tutulmayıbsa, o, mal göndərənə nə zaman verilməlidir?

Göndərmə dövrünün başa çatmasına ən geci otuz gün qalmış

2374. Alıcının yollama sərəncamını müəyyənləşdirilmiş müddətdə verməməsi mal göndərənə hansı hüququ verir?

Ya göndərmə müqaviləsinin icrasından imtina etmək, ya da alıcıdan malları ödəməyi tələb etmək hüququ verir. Bundan başqa, mal göndərən yollama sərəncamının verilməməsi ilə əlaqədar dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər

2375. Mal göndərən malları hansı formada və şərtlərlə çatdırır?

Göndərmə müqaviləsində nəzərdə tutulan nəqliyyatla və müqavilədə müəyyənləşdirilmiş şərtlərlə (maddə 631)

2376. Müqavilədə malların hansı nəqliyyat növü ilə və ya hansı şərtlərlə çatdırıldığının müəyyənləşdirilmədiyi hallarda nəqliyyat növünü seçmək və ya malların çatdırılması şərtlərini müəyyənləşdirmək hüququ kimə məxsusdur?

Əgər qanunvericilikdən, öhdəliyin mahiyyətindən və ya işgüzar dövriyyə adətlərindən ayrı qayda irəli gəlmirsə, mal göndərənə mənsubdur

2377. Göndərmə müqaviləsində alıcının (mal alanın) malları mal göndərənin olduğu yerdə alması (malların seçilməsi) nəzərdə tutula bilər. Əgər müqavilədə malların seçilməsi müddəti nəzərdə tutulmayıbsa, alıcı (mal alan) malları hansı müddətdə seçməlidir?

Onların hazır olduğu barədə mal göndərəndən bildiriş aldıqdan sonra ağlabatan müddətdə

2378. Ayrıca göndərmə dövründə malları tam göndərməmiş mal göndərən malların göndərilməmiş miqdarını nə zaman göndərməlidir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, göndərmə müqaviləsinin qüvvədə olduğu müddət ərzində növbəti dövrdə (dövrlərdə) (maddə 632)

2379. Mal göndərən malları göndərmə müqaviləsində və ya alıcının yollama sərəncamında göstərilmiş bir neçə mal alana yolladığı halda bir mal alana müqavilədə və ya yollama sərəncamında nəzərdə tutulan miqdardan artıq göndərilmiş mallar, digər mal alanlara tam göndərilməmənin tamamlanması hesabına daxil edilirmi?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, edilmir.

2380. Alıcı göndərilməsi gecikdirilmiş malların qəbulundan mal göndərənə bildiriş verməklə imtina edə bilərmi? Əgər edə bilərsə, alıcı hansı müddətədək göndərdiyi malları qəbul etməyə və ödəməyə borcludur?

Əgər göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, edə bilər. Alıcı mal göndərənin bildirişi aldığı vaxtadək göndərdiyi malları qəbul etməyə və ödəməyə borcludur.

2381. Tam göndərilməsi tamamlanmalı olan malların çeşidi hansı qaydada müəyyənləşdirilir?

Tərəflərin razılaşması ilə (maddə 633)

2382. Belə razılaşma olmadıqda mal göndərən malların göndərilməmiş miqdarını hansı qaydada tamamlamağa borcludur?

Buna yol verildiyi dövr üçün müəyyənləşdirilmiş çeşiddə

2383. Bir addan olan malların göndərmə müqaviləsində nəzərdə tutulduğundan artıq miqdarda göndərilməsi eyni çeşidə daxil olan digər adlı malların tam göndərilməməsinin tamamlanması hesabına daxil edilirmi?

Xeyr.

2384. Hansı hal istisna olmaqla, tam göndərilmə tamamlanmalıdır?

Bu cür göndərmənin alıcının qabaqcadan yazılı razılığı ilə həyata keçirildiyi hal.

2385. Alıcı (mal alan) göndərmə müqaviləsinə uyğun göndərilmiş malların qəbulunu təmin edən hansı hərəkətləri yerinə yetirməyə borcludur?

Bütün zəruri hərəkətləri (maddə 634)

2386. Hansı hallar istisna olmaqla, alıcı bildiriş vermədikdə, mal qəbul olunmuş hesab edilir?

Malların qüsurlarını gözdən keçirməklə müəyyən etmək mümkün olmayan hallar

2387. Göndərilmiş malları nəqliyyat təşkilatından aldıqda alıcı (mal alan) malları hansı qaydada qəbul etməlidir?

Malların nəqliyyat və müşayiət sənədlərində göstərilmiş məlumatlara uyğunluğunu yoxlamalı, habelə nəqliyyat təşkilatından bu malları nəqliyyatın fəaliyyətini tənzimləyən qanunvericilikdə nəzərdə tutulan qaydaları gözləməklə

2388. Göndərmə müqaviləsinə uyğun olaraq alıcı (mal alan) mal göndərənin verdiyi maldan imtina etdikdə hansı hərəkətləri etməyə borcludur?

Bu malın salamatlığını təmin etməyə (məsuliyyətlə saxlamağa) və mal göndərənə ləngimədən bildiriş göndərməyə borcludur (maddə 635).

2389. Mal göndərən alıcının (mal alanın) məsuliyyətlə saxlamağa qəbul etdiyi malı hansı müddətdə aparmağa və ya ona dair sərəncam verməyə borcludur?

Ağlabatan müddətdə

2390. Əgər mal göndərən mala dair bu müddətdə sərəncam verməzsə, alıcı hansı hüquqa malikdir?

Malı sata bilər və ya mal göndərənə qaytara bilər

2391. Alıcının çəkdiyi hansı zəruri xərclərin əvəzini mal göndərən ödəməlidir?

Malın məsuliyyətlə saxlanmağa qəbul edilməsi, satılması və ya satıcıya qaytarılması ilə əlaqədar

2392. Bu zaman malın satışından götürülən vəsait hansı məbləğ çıxılmaqla mal göndərənə verilir?

Alıcıya çatan məbləğ çıxılmaqla

2393. Müqavilədə müəyyənləşdirilmiş əsaslar olmadan alıcı mal göndərəndən malı qəbul etmədikdə və ya onun qəbulundan imtina etdikdə mal göndərən hansı tələb hüququna malikdir?

Alıcıdan malı ödəməyi tələb edə bilər.

2394. Göndərmə müqaviləsində alıcı (mal alan) tərəfindən malların mal göndərənin olduğu yerdə seçilməsi nəzərdə tutulduqda, alıcı malları hansı qaydada gözdən keçirməyə borcludur?

Əgər öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, alıcı malları onların verildiyi yerdə gözdən keçirməyə borcludur (maddə 636).

2395. Alıcının (mal alanın) göndərmə müqaviləsi ilə müəyyənləşdirilmiş müddətdə, belə müddət olmadıqda isə malların hazır olduğu barədə mal göndərənin bildirişini aldıqdan sonra ağlabatan müddətdə malları seçməməsi mal göndərənə hansı hüququ verir?

Müqavilənin icrasından imtina etmək və ya alıcıdan malları ödəməyi tələb etmək hüququ verir.

2396. Alıcı göndərilən malları hansı qaydada ödəyir?

Göndərmə müqaviləsində nəzərdə tutulan hesablaşma qaydasını və formasını gözləməklə ödəyir. Əgər tərəflərin razılaşmasında hesablaşma qaydası və forması müəyyənləşdirilməyibsə, hesablaşmalar ödəniş tapşırıqları ilə həyata keçirilir (maddə 637).

2397.Göndərmə müqaviləsində malların mal alan (ödəyici) tərəfindən ödənilməsi nəzərdə tutulduqda və o, ödənişdən əsassız imtina etdikdə və ya malları müqavilədə müəyyənləşdirilmiş müddətdə ödəmədikdə mal göndərən hansı tələb hüququna malikdir?

Alıcıdan göndərilmiş malları ödəməyi tələb edə bilər.

2398. Göndərmə müqaviləsində malların komplektə daxil olan ayrı-ayrı hissələrlə göndərilməsi nəzərdə tutulduqda, alıcı malları nə zaman ödəyir?

Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, komplektə daxil olan sonuncu hissə yollandıqdan (seçildikdən) sonra

2399. Əgər göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı (mal alan) malın göndərildiyi çoxdəfəlik taranı və paketləmə vasitələrini hansı müddətdə və qaydada qaytarmağa borcludur?

Müqavilə ilə müəyyənləşdirilmiş qaydada və müddətlərdə (maddə 638)

2400. Malın digər tarası, habelə qabı mal göndərənə hansı hallarda qaytarılmalıdır?

Yalnız müqavilədə nəzərdə tutulmuş hallarda

2401. Lazımi keyfiyyəti olmayan malların göndərildiyi alıcı (mal alan) mal göndərənə qarşı hansı tələbləri irəli sürə bilər?

MM-in 587-ci maddəsində nəzərdə tutulan tələbləri:

- alış qiymətinin mütənasib azaldılması;
- əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırılması;
- əşyanın qüsurlarının aradan qaldırılması üçün özünün çəkdiyi xərclərin əvəzinin ödənilməsi;
- alqı-satqı müqaviləsinin icrasından imtina etməsi və əşya üçün ödədiyi pul məbləğinin qaytarılması;
- lazımi keyfiyyəti olmayan əşyanın müqaviləyə uyğun əşya ilə əvəz olunması (maddə 639).

2402. Göndərilmiş malların pərakəndə satışını həyata keçirən alıcı (mal alan) istehlakçının qaytardığı lazımi keyfiyyəti olmayan malın ağlabatan müddətdə dəyişdirilməsini hansı şərtlə tələb edə bilər?

Bu şərtlə ki, göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

2403.Göndərmə müqaviləsinin şərtləri, komplektlilik barəsində adətən irəli sürülən tələblər pozulmaqla malların göndərildiyi alıcı (mal alan) mal göndərənə qarşı hansı tələbləri irəli sürə bilər?

MM-in 592-ci maddəsində nəzərdə tutulan tələbləri:

– alış qiymətinin mütənasib surətdə azaldılması;

– əşyanın komplektinin ağlabatan müddətdə tamamlanması;

– komplektsiz əşyanın komplektli əşya ilə əvəz olunması;

– alqı-satqı müqaviləsinin icrasından imtina və ödədiyi pul məbləğinin qaytarılması (maddə 640).

2404.Malların pərakəndə satışını həyata keçirən alıcı (mal alan) istehlakçının qaytardığı komplektsiz malların ağlabatan müddətdə komplektli mallarla əvəz olunmasını hansı şərtlə tələb edə bilər?

Bu şərtlə ki, göndərmə müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

2405. Əgər mal göndərən göndərmə müqaviləsində nəzərdə tutulan miqdarda malları göndərməzsə və ya pis keyfiyyətli malların dəyişdirilməsinə və ya malların komplektinin tamamlanmasına dair alıcının tələblərini müəyyənləşdirilmiş müddətdə yerinə yetirməzsə, alıcının nə etməyə ixtiyarı var?

Alıcının ixtiyarı var ki, göndərilməmiş malları başqa şəxslərdən əldə edərək buna çəkdiyi bütün zəruri və ağlabatan xərcləri mal göndərənə aid etsin (maddə 641).

2406. Mal göndərən tərəfindən malların tam göndərilmədiyi və ya malların qüsurlarının aradan qaldırılmasına və ya malların komplektinin tamamlanmasına dair alıcının tələblərinin yerinə yetirilmədiyi hallarda alıcının malları başqa şəxslərdən əldə etməyə çəkdiyi xərclər hansı qaydada hesablanır?

MM-in 645.1-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun:

- Əgər satıcının öhdəliyi pozması nəticəsində müqavilə ləğv edildikdən sonra ağlabatan müddətdə alıcı müqavilədə nəzərdə tutulan malın əvəzinə başqa şəxsdən daha yüksək, lakin ağlabatan qiymətlə mal alarsa, müqavilədə müəyyənləşdirilmiş qiymətlə onun əvəzinə icra edilmiş əqd üzrə qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini satıcıya qarşı irəli sürə bilər.

- Əgər alıcının öhdəliyi pozması nəticəsində müqavilə ləğv edildikdən sonra ağlabatan müddətdə satıcı malı müqavilədə nəzərdə tutulandan daha aşağı, lakin ağlabatan qiymətlə başqa şəxsə satarsa, müqavilədə müəyyənləşdirilmiş qiymətlə onun əvəzinə icra edilmiş əqd üzrə qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini alıcıya qarşı irəli sürə bilər.

- Əgər yuxarıda nəzərdə tutulan əsaslar üzrə müqavilə ləğv edildikdən sonra onun əvəzinə başqa əqd bağlanmamışsa və həmin malın cari qiyməti varsa, tərəf müqavilədə müəyyənləşdirilmiş qiymətlə müqavilənin ləğv edildiyi məqamdakı cari qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini irəli sürə bilər.

- Malın verilməli olduğu yerdə oxşar mal üçün müqayisəyə gələn şəraitdə adətən alınmış qiymət cari qiymət sayılır. Əgər həmin yerdə cari qiymət yoxdursa, başqa yerdə tətbiq edilən, ağlabatan əvəz ola bilən cari qiymət, malın nəql edilməsi xərclərindəki fərq nəzərə alınmaqla, tətbiq edilə bilər.

- Qeyd olunan tələblərin yerinə yetirilməsi öhdəliyi icra etməmiş və ya lazımınca icra etməmiş tərəfi digər tərəfə vurulmuş başqa zərərin əvəzini ödəməkdən azad etmir.

2407. Malların qüsurları aradan qaldırılanadək və komplekti tamamlananadək və ya mallar dəyişdirilənədək alıcı (mal alan) lazımi keyfiyyəti olmayan və komplektsiz mallar barəsində hansı hüquqa malikdir?

Ödəməkdən imtina edə bilər, malları ödəmiş olduqda isə ödədiyi məbləğin qaytarılmasını tələb edə bilər.

2408. Malların tam göndərilməməsi və ya göndərilməsinin gecikdirilməsi üçün qanunla və ya göndərmə müqaviləsi ilə müəyyənləşdirilmiş dəbbə pulu mal göndərəndən onun tam göndərilməmiş malların miqdarını göndərmənin sonrakı dövrlərində tamamlamaq vəzifəsinin hüdudları daxilində öhdəliyini faktik icra edənədək tutulurmu?

Bu şərtlə ki, qanunla və ya müqavilə ilə dəbbə pulunun ödənilməsinin ayrı qaydası nəzərdə tutulmasın (maddə 642).

2409. Mal göndərən eyni vaxtda bir neçə göndərmə müqaviləsi üzrə alıcıya eyni adlı mallar göndərdikdə və göndərilmiş malların miqdarı mal göndərənin bütün müqavilələr üzrə öhdəliklərinin icrası üçün yetərli olmadıqda göndərilmiş mallar hansı müqavilənin icrası hesabına daxil edilməlidir?

Mal göndərənin göndərmə zamanı və ya göndərmədən sonra dərhal göstərdiyi müqavilənin icrası hesabına (maddə 643)

2410. Əgər alıcı bir neçə göndərmə müqaviləsi üzrə aldığı eyni adlı malları mal göndərənə ödəmişsə və ödəniş məbləği alıcının bütün müqavilələr üzrə öhdəliklərinin icrası üçün yetərli deyilsə, ödənilmiş məbləğ hansı müqavilənin icrası hesabına daxil edilməlidir?

Alıcının malları ödəyərkən göstərdiyi müqavilənin icrası hesabına

2411. Əgər mal göndərən və ya alıcı bir neçə göndərmə müqaviləsi üzrə eyni növlü öhdəliklərin icrasına uyğun onlara verilmiş hüquqlardan istifadə etməzlərsə, öhdəliyin icrası hansı müqavilə üzrə öhdəliklərin icrası hesabına daxil edilir?

İcra müddəti daha tez çatan müqavilə üzrə (MM-in 643.1 və 643.2-ci maddələri)

2412. Əgər bir neçə öhdəliyin icrası müddəti müqavilə üzrə eyni vaxtda çatarsa, həyata keçirilmiş icra hansı müqavilələr üzrə öhdəliklərin icrası hesabına mütənasib surətdə daxil edilir?

Bütün müqavilələr üzrə

2413. Əgər satıcının öhdəliyi pozması nəticəsində müqavilə ləğv edildikdən sonra ağlabatan müddətdə alıcı müqavilədə nəzərdə tutulan malın əvəzinə başqa şəxsdən daha yüksək, lakin ağlabatan qiymətlə mal alarsa, satıcıya qarşı hansı tələbi irəli sürə bilər?

Müqavilədə müəyyənləşdirilmiş qiymətlə onun əvəzinə icra edilmiş əqd üzrə qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini (maddə 645)

2414. Əgər alıcının öhdəliyi pozması nəticəsində müqavilə ləğv edildikdən sonra ağlabatan müddətdə satıcı malı müqavilədə nəzərdə tutulandan daha aşağı, lakin ağlabatan qiymətlə başqa şəxsə satarsa, hansı tələbi alıcıya qarşı irəli sürə bilər?

Müqavilədə müəyyənləşdirilmiş qiymətlə onun əvəzinə icra edilmiş əqd üzrə qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi

2415. Əgər müqavilə ləğv edilərkən zərərin hesablanması nəzərdə tutulan əsaslar üzrə müqavilə ləğv edildikdən sonra onun əvəzinə başqa əqd bağlanmamışsa və həmin malın cari qiyməti varsa, tərəf hansı tələbini irəli sürə bilər?

Müqavilədə müəyyənləşdirilmiş qiymətlə müqavilənin ləğv edildiyi məqamdakı cari qiymət arasındakı fərq şəklində zərərin əvəzinin ödənilməsi tələbini (MM-in 645.1 və 645.2-ci maddələri)

2416. Hansı qiymət cari qiymət sayılır?

Malın verilməli olduğu yerdə oxşar mal üçün müqayisəyə gələn şəraitdə adətən alınmış qiymət

2417. Əgər malın verilməli olduğu yerdə cari qiymət yoxdursa, başqa yerdə tətbiq edilən, ağlabatan əvəz oluna bilən cari qiymət hansı qaydada tətbiq edilə bilər?

Malın nəql edilməsi xərclərindəki fərq nəzərə alınmaqla

2418. MM-in 645.1-645.4-cü maddələrində (müqavilə ləğv edilərkən zərərin hesablanması) nəzərdə tutulan tələblərin yerinə yetirilməsi öhdəliyi icra etməmiş və ya lazımınca icra etməmiş tərəfi digər tərəfə vurulmuş başqa zərərin əvəzini ödəməkdən azad edirmi?

Xeyr.

§ 5. Daşınmaz əşyaların alqı-satqısı

2419. Daşınmaz əşyaların alqı-satqı müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Bu müqaviləyə görə satıcı torpaq sahəsini, evi, binanı, qurğunu, mənzili və ya digər daşınmaz əşyanı alıcının mülkiyyətinə verməyi öhdəsinə götürür (maddə 646).

2420. Əgər MM-in bu paraqrafının (paraqraf 5. Daşınmaz əşyaların alqı-satqısı) aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, daşınmaz əşyaların alqı-satqısına hansı müddəalar müvafiq surətdə tətbiq edilir?

Əşyaların alqı-satqısı haqqında ümumi müddəalar

2421. Alqı-satqı müqaviləsinin notariat qaydasında təsdiqlənməsi və daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması xərclərini kim çəkir?

Alıcı (maddə 647)

2422. Daşınmaz əşyaların alqı-satqısı halında tərəflərdən hər biri mülkiyyət hüququnun keçirilməsi faktının daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması üçün hansı hərəkətləri icra edir?

Öz tərəfindən zəruri olanları həyata keçirərək özünün vermə və ya qəbul etmə vəzifəsini icra edir (maddə 648).

2423. Satılmış əşya ilə bağlı risklər, xərclər və faydalar şübhə halında alıcıya hansı andan keçir?

Yalnız daşınmaz əmlakın dövlət reyestrinə daxil edildiyi andan

2424 Əgər tərəflərdən biri qeydiyyatın gecikdirilməsində təqsirlidirsə, o, hansı öhdəliyi daşıyır?

Bununla əlaqədar əmələ gəlmiş zərərin əvəzini digər tərəfə ödəməlidir.

2425. Alqı-satqı müqaviləsinin predmetini digər müddəalarla yanaşı, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar təşkil edirsə, alıcının üzərinə həmin payların alış qiymətini tikinti başa çatmazdan əvvəl tam şəkildə ödəmək öhdəliyi qoyula bilərmi?

Xeyr.

2426. Bu zaman ödəmələr hansı qaydada həyata keçirilməlidir?

MM-in 770-1-ci maddəsində (Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların özgəninkiləşdirilməsi zamanı yaranan podrat münasibətlərində alış qiymətinin (muzd) ödənilməsi) nəzərdə tutulmuş şərtlər nəzərə alınmaqla və tikintinin mərhələləri üzrə hissələrlə

2427. Satılmış daşınmaz əşyanın uyğunsuzluğu müqaviləyə uyğun olmamasından savayı hansı halda baş verir?

Həmin əşyaya aid artıq mövcud olmayan hüquqların daşınmaz əmlakın dövlət reyestrində göstərildiyi halda da (maddə 649)

2428. Rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyalara daşınmaz əşyaların alqı-satqısı haqqında göstərişlər tətbiq edilirmi?

Müvafiq surətdə tətbiq edilir (maddə 650).

§ 6. Tələblərin və digər hüquqların alqı-satqısı

2429. Tələblərin və digər hüquqların alqı-satqısına hansı göstərişlər müvafiq surətdə tətbiq edilir?

Əşyaların alqı-satqısı haqqında göstərişlər (maddə 651)

2430. Rəsmi reyestrlərdə qeydə alınmış daşınmaz əşyalara və obyektlərə hüquqların satıldığı hallarda hansı müddəalar müvafiq surətdə tətbiq edilir?

MM-in 646-650-ci maddələri (Daşınmaz əşyaların alqı-satqısı müqaviləsi, daşınmaz əşyaların alı-satqısı müqaviləsinin rəsmiləşdirilməsi xərcləri, daşınmaz əşyaların alqı-satqısı zamanı tərəflərin vəzifəsi, satılmış daşınmaz əşyanın uyğun olmaması, daşınmaz əşyaların alqı-satqısı haqqında müddəaların rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların alqı-satqısına tətbiqi).

2431. Hüququn keçirilməsinin (tələbin güzəşti) mahiyyəti nədən ibarətdir?

Hüququn satıldığı halda göndərmə və qəbul hüququn keçirilməsindən (tələbin güzəştindən) ibarət olur, satıcıda olan hüququn əsaslandırılması və alıcıya keçirilməsi xərclərini satıcı çəkir (maddə 652).

2432. Əşyaya sahiblik səlahiyyəti verən hüququn satıldığı halda satıcı alıcıya hansı əşyanı göndərməyə borcludur?

Qüsurlardan, habelə üçüncü şəxslərin hüquqlarından və iddialarından azad əşyanı (maddə 653)

2433. Hər hansı tələbin və hər hansı digər hüququn satıcısı nəyə cavabdehdir?

Həmin tələbin və ya hüququn həqiqətən mövcud olmasına cavabdehdir. Qiymətli kağızın satıcısı belə bir məsuliyyət də daşıyır ki, həmin qiymətli kağızın etibarsızlığına səbəb ola biləcək hansısa icraata başlanılmayacaqdır (maddə 654).

2434. Əgər hər hansı tələbin satıcısı borclunun ödəniş qabiliyyəti üçün məsuliyyəti öz öhdəsinə götürürsə, nə hesab edilir?

Hesab edilir ki, həmin məsuliyyət bu tələbin güzəşt edildiyi an üçün ödəniş qabiliyyətinə aiddir.

§ 7. Faktorinq

2435. Faktorinq nədir?

Faktorinq pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirmədir. Faktorinq müqaviləsinə görə bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti verir və ya verməyi öhdəsinə götürür, müştəri isə bu pul tələbini faktora güzəşt edir və ya güzəşt etməyi öhdəsinə götürür (maddə 655).

2436. Faktorinq müqaviləsi hansı formada bağlanır?

Yazılı

2437. Faktorinq müqavilələrini faktor kimi kimlər bağlaya bilərlər?

Banklar və digər kredit təşkilatları, habelə bu cür fəaliyyəti həyata keçirməyə icazəsi olan başqa kommersiya təşkilatları

2438. Əgər MM-in bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, faktorinq müqaviləsinə hansı müddəalar tətbiq edilir?

Tələblərin alqı-satqısı və verilməsi haqqında müddəalar (maddə 656)

2439. Əgər borclu müştəridən və ya müştərinin vəkaləti ilə faktordan güzəşt barəsində yazılı bildiriş almışdırsa, ödənişi faktor həyata keçirməlidir. Bildiriş hansı halda etibarlıdır?

Yalnız o halda etibarlıdır ki, güzəşt edilmiş tələbləri və borclunun ödənişi həyata keçirdiyi və ya hesabına həyata keçirdiyi faktoru kifayət qədər dəqiq göstərsin və bildirişin verildiyi an və ya daha əvvəl bağlanmış müqavilədən irəli gələn tələblərə aid olsun.

2440. Hansı halda ödənişi həyata keçirmək vəzifəsi aradan qalxır?

Əgər borclu başqa şəxsin ödənişi həyata keçirməkdə üstünlük hüququndan xəbərdardırsa (MM-in 657.4-cü maddəsi)

2441. Borclunu faktora ödəniş nəticəsində borcdan azad edən digər əsaslardan asılı olmayaraq, borcdan azad edilmə hansı halda ödənişin nəticəsi olur?

O halda ödənişin nəticəsi olur ki, həmin ödəniş MM-in 657.4-cü maddəsinə uyğun həyata keçirilir, yəni əgər borclu müştəridən və ya müştərinin vəkaləti ilə faktordan güzəşt barəsində yazılı bildiriş almışdırsa, ödənişi faktora həyata keçirməlidir. Bildiriş yalnız o halda etibarlıdır ki, güzəşt edilmiş tələbləri və borclunun ödənişi həyata keçirdiyi və ya hesabına həyata keçirdiyi faktoru kifayət qədər dəqiq göstərsin və bildirişin verildiyi an və ya daha əvvəl bağlanmış müqavilədən irəli gələn tələblərə aid olsun.

2442. Əgər faktor borcludan müqavilə əsasında əmələ gəlmiş tələb üzrə məbləğ ödəməyi tələb edirsə, borclu hansı hüquqa malikdir?

Həmin müqavilədən irəli gələn və müştərinin ondan ödəniş tələb etdiyi halda irə-

li sürə biləcəyi bütün etirazları faktora bildirə bilər. Borclu güzəşt haqqında yazılı bildirişin verildiyi məqamda müştəriyə qarşı olan tələblərinin ödənilməsinə dair hər hansı hüququ da qarşılıqlı əvəzləşdirmə çərçivəsində faktora qarşı etiraz kimi irəli sürə bilər.

2443. Mal göndərənin alqı-satqı müqaviləsi üzrə öhdəlikləri icra etməməsi, lazımınca icra etməməsi və ya icranı gecikdirməsi özlüyündə borcluya faktora ödədiyi məbləğin qaytarılmasını tələb etmək hüququ verirmi?

Xeyr.

2444. Əgər borclu hər hansı tələb üzrə faktora ödədiyi məbləğin qaytarılmasını tələb etmək hüququna malikdirsə, faktordan həmin məbləğin qaytarılmasını hansı halda tələb edə bilər?

Yalnız o halda tələb edə bilər ki, faktor bu tələb üzrə mal göndərənə ödəmə öhdəliyini icra etməsin və ya borclunun ödənişinin aid edildiyi mallar barəsində müqavilənin müştəri tərəfindən yerinə yetirilmədiyini, lazımınca yerinə yetirilmədiyini və ya yerinə yetirilməsinin gecikdirildiyini bildiyi məqamda icra etsin.

2445. Əgər müştəri faktorinq müqaviləsi əsasında hər hansı tələbi faktora güzəşt edirsə, bu, əvvələn, faktor tərəfindən tələbin hər hansı növbəti güzəştinə və ya hər hansı sonrakı tələb alana faktorinq müqaviləsinin iştirakçıları arasında münasibətlərin xüsusiyyətləri hansı formada tətbiq edilir?

Elə tərzdə tətbiq edilir ki, sonrakı tələb alan sanki faktordur, ikincisi isə, növbəti güzəşt haqqında borcluya ünvanlanmış bildiriş həm də faktora ünvanlanmış bildiriş olur.

2446. MM-in bu paraqrafının müddəaları nəyə tətbiq edilmir?

Faktorinq müqaviləsi ilə qadağan olunmuş sonrakı güzəştə

§ 8. Sınama üçün alqı-satqı

2447. Sınama və ya yoxlama üçün alqı-satqı müqaviləsi hansı mahiyyətə malikdir?

Alıcının həmin predmeti almağa razılıq verdiyi vaxtadək təxirəsalıcı şərtlə bağlanan alqı-satqı müqaviləsidir (maddə 658).

2448. Alıcı sınama və ya yoxlama üçün aldığı predmet barəsində razılığını hansı müddətdə bildirə bilər?

Yalnız müəyyənləşdirilmiş müddət ərzində, bu müddət müəyyənləşdirilmədikdə isə yalnız satıcının alıcı üçün müəyyənləşdirdiyi ağlabatan müddət bitənədək

30-cu FƏSİL
Satın almaqda üstünlük hüququ və digər üstünlük hüquqları ilə bağlı suallar və cavablar

2449. Satın almaqda üstünlük hüququ və hər hansı əşyaya və ya hər hansı hüquqa digər üstünlük hüquqları hansı əsaslarla əmələ gələ bilər?

Qanuna görə və ya müqavilə əsasında (maddə 659)

2450. Əgər belə hüquqlar müqaviləyə əsaslanırsa, kimləri mükəlləfiyyətli edir?

Yalnız müqavilə iştirakçılarını mükəlləfiyyətli edir və həmin əşyanı və ya həmin hüququ arxayın əldə etmiş üçüncü şəxslərə qarşı qoyula bilməz.

2451. Satın almaqda üstünlük hüququ və müqaviləyə əsaslanan digər üstünlük hüquqları hansı halda etibarlıdır?

Yalnız nəzərdə tutduqları əqdin etibarlığı üçün tələb edilən formada qeydə alınmış olduqda

2452. Satın almaqda üstünlük hüququnun və digər üstünlük hüquqlarının hansı hallarda qüvvəsi yoxdur?

- Onlar başqasına verilməsi normativ hüquqi aktlarda nəzərdə tutulmuş xüsusi prosedurlarla tənzimlənən obyektlərə və ya hüquqlara aid olduqda;
- icraat çərçivəsində, o cümlədən məcburi auksion satışı çərçivəsində satış halında.

2453. Satın almaqda üstünlük hüququ və müqaviləyə əsaslanan digər üstünlük hüquqları hansı əşya və hüquqlara aiddirsə, maraqlı şəxslər onların etibarlılığı barəsində mübahisə edə bilərlər?

Qıt olan ən zəruri əşyalara və hüquqlara

2454. Hər hansı obyekti üstün satın almağa ixtiyar verilmiş şəxs bu hüququnu nə zaman həyata keçirə bilər?

Satın almaqda üstünlük hüququ üzrə mükəlləfiyyətli olan şəxs həmin obyektin alqı-satqısı barədə hər hansı üçüncü şəxslə müqavilə bağladıqdan sonra (maddə 660)

2455. Mükəlləfiyyətli şəxs üçüncü şəxslə bağladığı müqavilənin məzmununu üstün satın almağa ixtiyar verilmiş şəxsə ləngimədən bildirməlidir. Mükəlləfiyyətli şəxsin məlumatı üçüncü şəxsin məlumatı ilə əvəz edilə bilər. Satın almaqda üstünlük hüququ hansı müddətdə həyata keçirilə bilər?

Məlumat alındıqdan sonra iki ay ərzində

2456. İxtiyarlı şəxs satın almaqda üstünlük hüququnu hansı qaydada həyata keçirir?

Həyata keçirmək üçün mükəlləfiyyətli şəxslə alqı-satqı müqaviləsi bağlayır. Müqavilənin şərtləri mükəlləfiyyətli şəxslə üçüncü şəxs arasında razılaşdırılır. Əgər alış qiyməti cari qiymətdən yüksəkdirsə, ixtiyarlı şəxs onun cari qiymət səviyyəsinədək azaldılmasını tələb edə bilər. İxtiyarlı şəxs həmin hüququ həyata keçirdikdə mükəlləfiyyətli şəxs alqı-satqı müqaviləsini ləğv edə bilər. Müqavilə iştirakçılarının hüquqi müdafiə vasitələri alqı-satqı müqaviləsi ilə müəyyənləşdirilir. Əgər ixtiyarlı şəxs satın

almaqda üstünlük hüququnu həyata keçirənədək əşyaya mülkiyyət hüququnu üçüncü şəxs arxayın əldə etmişdirsə, mükəlləfiyyətli şəxs barəsində ixtiyarlı şəxsin hüquqi müdafiə vasitələri onun icra etməmə nəticəsində zərərin əvəzinin ödənilməsi tələbi ilə məhdudlaşdırılır.

2457. Hansı halda mükəlləfiyyətli şəxsin üçüncü şəxslə razılaşmasının üstün satın almağa ixtiyar verilmiş şəxs üçün qüvvəsi yoxdur?

Mükəlləfiyyətli şəxsin üçüncü şəxslə razılaşması alqını satın almaqda üstünlük hüququnun həyata keçirilməməsindən asılı etdikdə və ya satın almaqda üstünlük hüququnun həyata keçirildiyi halda mükəlləfiyyətli şəxsin imtina hüququnu qüvvədə saxladıqda

2458. Əgər üçüncü şəxs üstün satın almağa ixtiyar verilmiş şəxsin icra etməyə qadir olmadığı hər hansı əlavə öhdəliyin icrasını müqaviləyə əsasən üzərinə götürürsə, ixtiyar verilmiş şəxs öhdəliyin icrası əvəzinə onun dəyərini ödəməlidir. Hansı halda satın almaqda üstünlük hüququnun həyata keçirilməsi istisna edilir?

Əgər öhdəliyi pulla qiymətləndirmək mümkün deyildirsə

2459. Hansı halda hər hansı əlavə öhdəlik haqqında şərt nəzərə alınmır?

Əgər üçüncü şəxslə müqavilə həmin öhdəliksiz də bağlana bilərsə

2460. Əgər üçüncü şəxs satın almaqda üstünlük hüququnun şamil edildiyi hər hansı obyekti digər obyektlərlə birlikdə ümumi qiymətə alırsa, üstün satın almağa ixtiyar verilmiş şəxs həmin ümumi qiymətin hansı hissəsini ödəməlidir?

Ağlabatan hissəsini. Mükəlləfiyyətli şəxs tələb edə bilər ki, satın almaqda üstünlük hüququ bütün bölünməz əşyalara şamil edilsin.

2461. Satın almaqda üstünlük hüququ ixtiyarlı şəxsin vərəsələrinə verilir və keçirmi?

Ayrı şərt qoyulmayıbsa, verilmir. Hüquq konkret müddətlə məhdudlaşdırıldıqda, o, şübhə halında vərəsəlik üzrə verilir.

31-ci FƏSİL
Dəyişdirmə müqaviləsi zamanı ortayan çıxan suallar və cavablar

2462. Dəyişdirmə müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Dəyişdirmə müqaviləsinə görə tərəflərdən hər biri başqa tərəfin mülkiyyətinə bir əşyanın müqabilində digər əşyanı verməyi öhdəsinə götürür (maddə 662).

2463. Dəyişdirmə müqaviləsinə hansı müddəalar müvafiq surətdə tətbiq edilir?

Alqı-satqı haqqında göstərişlər

2464. Dəyişdirmə müqaviləsinə uyğun olaraq dəyişdirilən malların verilməsi müddətləri üst-üstə düşmədikdə digər tərəf malı verdikdən sonra malı verməli olan tərəfin malı vermək öhdəliyinin icrasına hansı qaydalar tətbiq edilir?

Öhdəliklərin qarşılıqlı icrası haqqında qaydalar (maddə 664)

2465. Əgər dəyişdirmə müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, dəyişdirilən mallara mülkiyyət hüququ dəyişdirmə müqaviləsi üzrə alıcı kimi çıxış edən tərəflərə nə zaman keçir?

Hər iki tərəf müvafiq malları vermək öhdəliklərini icra etdikdən sonra eyni vaxtda (maddə 665)

32-ci FƏSİL
Bağışlama müqaviləsi kontekstində yaranan münasibətlərin tənzimlənməsinə dair suallar və cavablar

2466. Bağışlama müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Bağışlama müqaviləsi şəxs sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir (maddə 666).

2467. Bağışlama müqaviləsi nə zaman bağlanmış sayılır?

Hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə

2468. Bağışlama predmeti nələr ola bilər?

Əşyalar, hədiyyə verənə və ya üçüncü şəxsə qarşı əmlak hüquqları (tələblər), habelə hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi

2469. Mənəvi və ya əxlaqi borcun icrası bağışlama sayılırmı?

Xeyr.

2470. Fəaliyyət qabiliyyətli şəxs öz əmlakına dair bağışlama yolu ilə hansı halda sərəncam verə bilər?

O halda sərəncam verə bilər ki, həmin əmlak ər-arvadın ümumi mülkiyyəti və ya vərəsəlik hüququ ilə məhdudlaşmış olmasın (maddə 667).

2471. Fəaliyyət qabiliyyəti olmayan şəxsin əmlakından bağışlama hansı qaydada həyata keçirilə bilər?

Yalnız qanuni nümayəndələrin məsuliyyətinin saxlanması şərti ilə, habelə qəyyumluq və himayəçilik hüququnun göstərişlərinə uyğun olaraq

2472. Əgər fəaliyyət qabiliyyəti olmayan şəxs öz hərəkətlərinin xarakterini və nəticələrini qiymətləndirməyə qadirdirsə, o da hədiyyəni qəbul edə və hüquqa uyğun surətdə əldə edə bilər. Lakin hansı halda hədiyyə əldə edilmir və ya ləğv edilir?

Əgər qanuni nümayəndə hədiyyənin qəbul olunmasını qadağan etmişsə və ya qaytarılmasına dair sərəncam vermişsə

2473. Bağışlama hansı hallarda etibarlıdır?

- Daşınmaz əşyaların və ya həmin əşyalara hüquqların bağışlanması zamanı bağışlama müqaviləsi notariat qaydasında təsdiqləndikdə;
- rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların bağışlanması zamanı bağışlama müqaviləsi notariat qaydasında təsdiqləndikdə;
- daşınar əşyaların bağışlanması zamanı hədiyyə verən əşyanı hədiyyə alana verdikdə;
- tələblərin və digər hüquqların bağışlanması zamanı onlar MM-in tələblərinə uyğun yazılı surətdə keçirildikdə;
- gələcəkdə bağışlama vəd edildikdə bu vəd notariat qaydasında təsdiqləndikdə (maddə 668).

2474. Nəyi isə bağışlamaq niyyəti ilə başqa şəxsə verən şəxs onu hansı müddətdə geri götürə bilər?

Hədiyyə alan hədiyyəni qəbul edənədək istədiyi vaxt (maddə 669).

2475. Bağışlama şərtlərin və ya öhdəliklərin yerinə yetirilməsindən asılı edilə bilərmi?

Bəli (maddə 670).

2476. Hədiyyə verənin ölməsi halı üçün bağışlama hansı qaydada icra edilir?

Vərəsəlik hüququnun göstərişlərinə uyğun

2477. Əgər bağışlama müqaviləsi bağlandıqdan sonra hədiyyə alan hədiyyənin dəyərinin öhdəliyin icrası xərclərini ödəmədiyini və zərərin əvəzinin ona ödənilməyəcəyini aşkar edərsə, hansı hüquqa malikdir?

Öhdəliyin icrasından imtina edə bilər.

2478. Hədiyyə verən hədiyyə alana hədiyyə ilə əlaqədar dəyən zərər üçün onun qarşısında hansı halda məsuliyyət daşıyır?

Yalnız o halda məsuliyyət daşıyır ki, zərər qəsdən və ya kobud ehtiyatsızlıq üzündən vurulmuş olsun (maddə 672).

2479. Qalan hallarda hədiyyə verən nələr üçün məsuliyyət daşıyır?

Yalnız hədiyyə alana vəd etdikləri üçün.

2480. Hədiyyə verən hansı hallarda bağışlamaqdan imtina edə bilər?

- Hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə;
- hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda;
- o, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə (maddə 673).

2481. Hədiyyə verən bağışlamaq barəsində verdiyi vədi hansı hallarda ləğv edə və onun icrasından imtina edə bilər?

- MM-in 673.1-ci maddəsində nəzərdə tutulan hallarda, yəni hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə, hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq onun üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda, o, bağışlama ilə bağlı öhdəlikləri əsassız olaraq icra etmədikdə;
- vəd verildikdən sonra hədiyyə verənin əmlak münasibətləri bağışlamanı onun üçün son dərəcə ağır yükə çevirə biləcəyi dərəcədə dəyişdikdə;
- vəd verildikdən sonra hədiyyə verənin ailə hüquq münasibətləri üzrə əvvəllər olmamış, yaxud çox cüzi həcmdə olmuş öhdəlikləri yarandıqda.

2482. İmtina hansı halda qüvvədədir?

İmtina onun əsasının hədiyyə verənə məlum olduğu gündən bir il ərzində imtina haqqında bildirişin hədiyyə alana çatdığı halda qüvvədədir.

2483. Hədiyyə verənin həmin ilin sonunadək öldüyü halda imtina hüququ qalan müddət üçün onun vərəsələrinə keçir. Hansı halda hədiyyə verənin vərəsələri bağışlamaqdan imtina edə bilərlər?

Əgər hədiyyə alan hədiyyə verəni qəsdən öldürmüşsə və ya bağışlamanı ləğv etməkdə ona mane olmuşsa

2484. Hansı hallarda bağışlama imtina hüququnun həyata keçirilməsinə zərurət olmadan ləğv edilir?

- Bağışlanması vəd edilmiş əşya itirildikdə və ya məhv olduqda;
- hədiyyə verənin əmlakı üçün müsabiqə icraatı başlandıqda (maddə 674).

2485. Hədiyyə verən vaxtaşırı xidmətlər göstərməyi öhdəsinə götürdükdə, əgər ayrı şərt qoyulmayıbsa, bu öhdəliyə hansı halda xitam verilir?

Onun ölümü ilə.

33-cü FƏSİL
Əmlak kirayəsi münasibətləri çərçivəsində suallar və cavablar

2486. Əmlak kirayəsi müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Əmlak kirayəsi müqaviləsinə görə, kirayəyə verən əşyanı kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür (maddə 675).

2487. Bütün kirayə müddəti ərzində kirayəyə verən nələr üçün məsuliyyət daşıyır:

- Kirayəyə verilən əşya kirayəçinin istifadəsi üçün yararlı vəziyyətdə olmalıdır;
- kirayəyə verilmiş əşya əmlak kirayəsi müqaviləsi ilə qarantiya verilmiş xassələrə malik olmalıdır;
- üçüncü şəxslərin hər hansı hüquqları və ya iddiaları kirayəyə verilmiş əşyanın müqavilədə nəzərdə tutulan istifadəsinə mane olmamalı və ya bu istifadəni istisna etməməlidir;
-yaşayış otağı və ya adamların olması üçün nəzərdə tutulan digər otaq həmişə elə vəziyyətdə olmalıdır ki, ondan istifadə istifadəçilərin həyatına və sağlamlığına vicdanlı kirayəyə verən üçün aşkar təhlükələr törətməsi ilə bağlı olmasın (maddə 676).

2488. Əmlak kirayəsi müqaviləsinin predmeti olan əşyanın MM-in 676-cı maddəsinin (Kirayəyə verənin məsuliyyəti) tələblərinə uyğun gəlməməsi kirayəçiyə hansı hüquqi müdafiə vasitələrini tətbiq etmək hüququ verir?

- Əgər müqaviləyə uyğunsuzluğu nəticəsində əşya məhv olarsa və ya onun müqavilə üzrə müəyyənləşdirilmiş istifadəyə yararlılığı azalarsa, əşyanın yararlılığının itdiyi müddət üçün kirayəçi kirayə haqqını ödəməkdən azad edilir, onun yararlılığının azaldığı müddət üçün isə yalnız kirayə haqqının bir hissəsini ödəməyə borclu olur. Yararlılığın əhəmiyyətsiz dərəcədə azalması hesaba alınmır. Yaşayış otağının kirayəsi müqaviləsində kirayəçinin ziyanına olaraq bundan kənaraçıxmaların qüvvəsi yoxdur;
- əgər müqaviləyə hər hansı uyğunsuzluq onun bağlandığı məqamda məlum olarsa və ya belə uyğunsuzluq kirayəyə verənin cavabdeh olduğu hansısa hal nəticəsində sonradan əmələ gələrsə və ya kirayəyə verən həmin uyğunsuzluğun aradan qaldırılmasını gecikdirərsə, kirayəçi MM-in 677.1.1-ci maddəsinə əlavə olaraq öhdəliyin icra edilməməsi nəticəsində dəyən zərərin əvəzini ödəməyi tələb edə bilər;
- kirayəyə verənin gecikdirməsi halında kirayəçi qüsuru özü aradan qaldıra bilər və çəkdiyi zəruri xərclərin əvəzini ödəməyi tələb edə bilər;
- əgər kirayəçi kirayəyə götürdüyü əşyanı tamamilə və ya qismən müqavilə üzrə istifadəyə müəyyənləşdirilmiş müddətdə almırsa və ya əşya ondan götürülürsə və ya əhəmiyyətli dərəcədə pisləşirsə, kirayəyə verən isə gecikdirməyə yol verirsə, kirayəçi xəbərdarlıq müddətini gözləmədən müqaviləni ləğv edə bilər. İstifadəyə əhəmiyyətsiz manea və ya istifadədən məhrumetmə nəticəsində müqavilənin ləğvinə yalnız o halda yol verilir ki, kirayəçinin xüsusi mənafeləri buna haqq qazandırsın. Əgər kirayəyə verən əşyanı vaxtında istifadəyə verdiyinə və ya qüsuru müəyyənləşdirilmiş müddət bitənədək aradan qaldırdığına əsaslanaraq müqavilənin ləğvinə yol verilə bilməsi barədə mübahisə edirsə, o bunları sübut etməlidir. Yaşayış otağının kirayəsi üzrə hüquq münasibətlərində müqaviləni ləğv etmək hüququnu istisna edən və ya məhdudlaşdıran razılaşmanın qüvvəsi yoxdur (maddə 676).

2489. Hansı halda kirayəçi əmlak kirayəsi müqaviləsinin predmeti olan əşya tələblərə uyğun gəlmədikdə kirayəçinin hüquqi müdafiə vasitələrini tətbiq etmək hüququndan istifadə edə bilməz?

Əgər kirayəyə götürülən əşyanın müqaviləyə uyğunsuzluğu kirayəçiyə müqavilə bağlanarkən məlum olmuşsa (MM-in 677.1-ci maddəsi)

2490. Əgər kirayəçi qüsuru bilə-bilə müqavilənin şərtlərinə uyğun gəlməyən əşyanı qəbul edirsə, bu hüquqlardan hansı halda istifadə edə bilər?

Yalnız o halda istifadə edə bilər ki, əşyanı qəbul edərkən onları həyata keçirmək hüququnu özündə saxlamış olsun.

2491. Kirayəyə götürülən əşyanın müqaviləyə uyğunsuzluğu kirayəçiyə müqavilə bağlanarkən məlum olduqda hüquqlardan istifadənin yolverilməzliyi müddəaları nələrə tətbiq edilmir?

MM-in 677.1.4-cü maddəsinə uyğun olaraq, müqavilənin pozuntularına. Belə ki, əgər kirayəçi kirayəyə götürdüyü əşyanı tamamilə və ya qismən müqavilə üzrə istifadəyə müəyyənləşdirilmiş müddətdə almırsa və ya əşya ondan götürülürsə və ya əhəmiyyətli dərəcədə pisləşirsə, kirayəyə verən isə gecikdirməyə yol verirsə, kirayəçi xəbərdarlıq müddətini gözləmədən müqaviləni ləğv edə bilər. İstifadəyə əhəmiyyətsiz maneə və ya istifadədən məhrumetmə nəticəsində müqavilənin ləğvinə yalnız o halda yol verilir ki, kirayəçinin xüsusi mənafeləri buna haqq qazandırsın. Əgər kirayəyə verən əşyanı vaxtında istifadəyə verdiyinə və ya qüsuru müəyyənləşdirilmiş müddət bitənədək aradan qaldırdığına əsaslanaraq müqavilənin ləğvinə yol verilə bilməsi barədə mübahisə edirsə, o bunları sübut etməlidir. Yaşayış otağının kirayəsi üzrə hüquq münasibətlərində müqaviləni ləğv etmək hüququnu istisna edən və ya məhdudlaşdıran razılaşmanın qüvvəsi yoxdur (MM-in 677.2-ci maddəsi).

2492. Kirayəçi kirayə müddəti ərzində aşkar etdiyi müqaviləyə hər hansı uyğunsuzluqlar barəsində və ya əşyanı və ya onun istifadəçilərini gözlənilməz təhlükədən qorumaq üçün tədbirlər görülməsi zərurəti barəsində kirayəyə verənə hansı müddətdə bildiriş verməlidir?

Dərhal. Bu, əşya barəsində üçüncü şəxslərin hüquqlarının bəyan edildiyi hallarda da qüvvədədir.

2493. Əgər kirayəçi bildiriş vermirsə, hansı öhdəliyi daşıyır?

Bunun nəticəsində əmələ gələn zərərin əvəzini ödəməyə borcludur; kirayəyə verən kirayəçinin bildiriş verməməsi üzündən hər hansı qüsuru aradan qaldıra bilmədikdə, kirayəçinin MM-in 677.1-ci maddəsində müəyyənləşdirilmiş əmlak kirayəsi müqaviləsinin predmeti olan əşya tələblərə uyğun gəlmədikdə kirayəçinin hüquqi müdafiə vasitələrini tətbiq etmək hüququnu həyata keçirmək hüququ yoxdur.

2494. Kirayəyə verəni kirayəyə verilmiş əşyanın qüsurları üçün məsuliyyətdən azad edən və ya bu məsuliyyəti məhdudlaşdıran razılaşmanın qüvvəsi hansı şərtlə yoxdur?

Bu şərtlə ki, kirayəyə verən həmin qüsurlar barəsində qəsdən susmuş olsun.

2495. Obyektiv baxıldıqda kirayəyə götürülmüş əşyaya hər hansı əhəmiyyətli təsirlə bağlı olan tədbirlərə kirayəçi hansı şərtlə yol verməlidir ?

- Təsir, əvvələn, kirayəyə verilmiş otaqların və ya binanın salamatlığı üçün zəruri olan, ikincisi isə, kirayəyə verilmiş otaqların və ya binanın digər hissələrinin yaxşılaşdırılmasına, yaxud isitməyə sərf olunan enerjiyə qənaət edilməsinə yönəldilən, kirayəçi və ya onun ailəsi üçün yolverilməz rahatsızlıqlar yaratmayan tədbirlərin nəticəsi olsun (yolverilə bilənlik qiymətləndirilərkən görülən işlərin törətdiyi rahatsızlıqların xarakteri və müddəti, kirayəçinin əvvəlki məsrəfləri, kirayə haqqının gözlənilə bilən artımı, habelə kirayəyə verənin və digər kirayəçilərin əsaslı mənafeləri nəzərə alınır. Əgər kirayəyə verilmiş otaqlar və ya binanın digər hissələri yalnız hamılıqla qəbul olunmuş sayılan vəziyyətə gətirilərsə, kirayə haqqının gözlənilə bilən artımı nəzərə alınmır);

- kirayəyə verən tədbirlərin həyata keçirilməsinə üç ay qalmış kirayəçiyə bu tədbirlərin xarakteri, həcmi, başlanğıcı və ehtimal edilən müddəti barəsində, habelə kirayə haqqının mümkün artımı barəsində yazılı bildiriş versin;

- kirayəyə verən həmin tədbirlərin həyata keçirilməsi nəticəsində kirayəçinin çəkməli olacağı xərclərin əvəzini ödəsin; kirayəçinin xahişi ilə kirayəyə verən ona avans verməlidir (maddə 678).

2496. Kirayəçi hansı müddətdə müqaviləni növbəti ayın sonu üçün ləğv etmək hüququna malikdir?

Bildirişin daxil olduğu tarixdən iki ay ərzində. Əgər kirayəçi müqavilənin ləğv olunduğunu bəyan edərsə, tədbirlərin görülməsi kirayə müddətinin sonunadək təxirə salınır.

2497. Kirayəyə verilmiş əşya ilə bağlı yüklülükləri, dövlət vergilərini və yerli vergiləri kim ödəməlidir?

Ayrı razılaşma olmadıqda, kirayəyə verən ödəməlidir (maddə 679).

2498. Kirayəyə verən kirayəyə verilmiş əşyanın saxlanması və ya bərpası üçün kirayəçinin çəkdiyi zəruri xərclərin əvəzini ona ödəməyə borcludur. Əvəzi ödənilən xərclərə nələr aid deyildir?

- Binaların, qurğuların və ya nəqliyyat vasitələrinin kirayəsi halında - istismar, qulluq və təmizləmə xərcləri;

- heyvanın kirayəyə verildiyi halda - qulluq və bəsləmə xərcləri (maddə 680).

2499. Kirayəyə verənin digər xərclərinin, o cümlədən kirayəyə verilmiş əşyanın yaxşılaşdırılması xərclərinin əvəzini ödəmək vəzifəsi hansı qaydada müəyyənləşdirilir?

MM-in özgə işlərini tapşırıqsız aparmaq haqqında müddəaları

2500. Kirayəçinin əşyaya əlavə etdiyi qurğunu götürmək hüququ vardır. Yaşayış otağı kirayəçisinin qurğunu götürmək hüququnu istisna edən razılaşma əldə oluna bilərmi?

Qüvvəsi yoxdur (maddə 681).

2501. Kirayəçi kirayəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi nəticəsində dəyişməsi və ya pisləşməsi üçün hansı həddə məsuliyyət daşıyır?

Məsuliyyət daşımır (maddə 682).

2502. Kirayəyə verənin icazəsi olmadan kirayəçinin kirayəyə götürdüyü əşyanı kirayəyə verənin ailəsinin tərkibinə daxil olmayan üçüncü şəxsin istifadəsinə vermək, o cümlədən əşyanı ikinci əldən kirayəyə vermək hüququ yoxdur. Əgər kirayəyə verən icazə verməkdən imtina edirsə, kirayəçi qanunla müəyyənləşdirilmiş müddəti gözləməklə hüquq münasibətlərini hansı şərtlə ləğv edə bilər?

Bu şərtlə ki, obyektiv baxıldıqda üçüncü şəxs icazədən imtina üçün mühüm əsaslar verməsin (maddə 683).

2503. Əgər kirayə müqaviləsi bağlandıqdan sonra yaşayış otağı kirayəçisinin həmin otağın bir hissəsini istifadə üçün hər hansı üçüncü şəxsə verməyə əsaslı marağı vardırsa, bunun üçün hansı şərtlə kirayəyə verəndən icazə almaq hüququna malikdir?

Bu şərtlə ki, obyektiv baxıldıqda üçüncü şəxs icazədən imtina üçün mühüm əsaslar verməsin, yaşayış otağı həddindən artıq yüklənməsin və ya kirayəyə verənin bu cür ikinci əldən kirayəyə adətən yol verdiyi ehtimal edilsin.

2504. Əgər kirayəyə verən bu cür ikinci əldən kirayəyə yalnız kirayə haqqının ağlabatan dərəcədə artırılması şərti ilə yol verirsə, hansı hüquqa malikdir?

İcazə verməsini kirayəçinin belə artımla razılaşması ilə şərtləndirə bilər. Kirayəçinin ziyanına olaraq bundan kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

2505. Hər hansı üçüncü şəxsə istifadə verilərkən kirayəçi hansı həddə məsuliyyət daşıyır?

Hətta kirayəyə verən ikinci əldən kirayəyə razılıq versə belə, həmin üçüncü şəxsin istifadə zamanı əmələ gələn təqsiri üçün

2506. Əmlak kirayəsi haqqı hansı qaydada ödənilməlidir?

Əgər kirayə müddəti bir aydan qısadırsa, həmin müddətin sonunda ödənilməlidir. Əgər kirayə müddəti bir aydan çoxdursa, əmlak kirayəsi haqqı zərurət olduqda müvafiq surətdə hər ayın sonunda hissə-hissə ödənilməlidir. Əgər əmlak kirayəsi haqqı zaman hissələri üzrə hesablanmışdırsa, ayrı-ayrı zaman hissələrinin sonunda ödənilir (maddə 684).

2507. Kirayəçi ona mənsub istifadə hüququnu hər hansı fərdi səbəblərə görə həyata keçirə bilmədiyinə görə əmlak kirayəsi haqqını ödəməkdən azad edilirmi?

Azad edilmir. Lakin kirayəyə verən kirayəyə verilmiş əşyadan istifadə zamanı qənaət edilmiş məsrəflərin hesabı, habelə əşyadan başqa şəkildə istifadə etsəydi, əldə edə biləcəyi faydaların hesabı ilə razılaşmalıdır.

2508. Əgər kirayəçi və ya onun kirayəyə götürdüyü əşyanı istifadəyə verdiyi hər hansı digər şəxs kirayəyə verənin xəbərdarlığına baxmayaraq müqaviləyə uyğun olmayan və kirayəyə verənin hüquqlarını əhəmiyyətli dərəcədə pozan istifadəni davam etdirirsə, o cümlədən əşyanı üçüncü şəxsin qeyri-hüquqi istifadəsində saxlayırsa və ya təhlükəyə məruz qoyursa, bununla da özünün vicdanlı kirayəçi vəzifələrini pozursa, kirayəyə verən hansı hüquqa malikdir?

Kirayə müqaviləsini xəbərdarlıq müddətini gözləmədən ləğv edə bilər. Kirayəçi müqavilənin ləğvinə dair bildiriş vermək əvəzinə neqator iddiası da irəli sürə bilər (maddə 685).

2509. Kirayəyə verən xəbərdarlıq müddətini gözləmədən kirayə müqaviləsini hansı hallarda ləğv edə bilər?

- Kirayəçi iki ardıcıl müddət üçün kirayə haqqının və ya onun xeyli hissəsinin ödənilməsini gecikdirdikdə;

- ikidən çox müddət üçün iki aylıq əmlak kirayəsi haqqının məbləğinə çatan məbləğdə əmlak kirayəsi haqqının ödənilməsini gecikdirdikdə.

2510. Hansı hallarda kirayə müqaviləsinin ləğvi istisna edilir?

MM-in 685.2-ci maddəsinə uyğun olaraq, yəni:

– kirayəçi iki ardıcıl müddət üçün kirayə haqqının və ya onun xeyli hissəsinin ödənilməsini gecikdirdikdə;

– ikidən çox müddət üçün iki aylıq əmlak kirayəsi haqqının məbləğinə çatan məbləğdə əmlak kirayəsi haqqının ödənilməsini gecikdirdikdə

2511. Hansı halda, müqavilənin ləğvi etibarsız olur?

Əgər kirayəçi qarşılıqlı əvəzləşdirmə çərçivəsində öz borcundan azad edilərsə və müqavilənin ləğvi bəyan edildikdən dərhal sonra borcunun ləğvini elan edərsə

2512. Kirayəyə verilmiş yaşayış otağına xəbərdarlıq müddətini gözləmədən kirayə müqaviləsinin ləğvindən əlavə, hansı göstərişlər tətbiq edilir?

- MM-in 685.2.1-ci maddəsində nəzərdə tutulan halda, yəni kirayəçi iki ardıcıl müddət üçün kirayə haqqının və ya onun xeyli hissəsinin ödənilməsini gecikdirdikdə əmlak kirayəsi haqqının ödənilməmiş hissəsi yalnız bir aylıq əmlak kirayəsi haqqının məbləğindən yüksək olduqda əhəmiyyətli sayılır (lakin yaşayış otağı yalnız müvəqqəti istifadə üçün kirayəyə verilirsə, bu, tətbiq edilmir);

- əgər əmlak kirayəsi haqqının vaxtında ödənilməməsi nəticəsində otaqdan çıxarma hüququ haqqında və kirayəyə verənin MM-ə uyğun icra edilməli digər hüquqları haqqında iş icraata qəbul edildikdən sonra bir ay qurtaranadək kirayəyə verən təmin edilərsə və ya onu təmin etmək vəzifəsini hər hansı dövlət orqanı öz öhdəsinə götürərsə, müqavilənin ləğvinin qüvvəsi yoxdur;

- kirayəyə verənin ziyanına olaraq bundan kənaraçıxmalar barəsində razılaşmanın qüvvəsi yoxdur.

2513. Hansı halda hüquq münasibətləri xəbərdarlıq müddəti gözlənilmədən ləğv edilə bilər?

Əgər tərəflərdən biri öhdəliklərini öz təqsiri üzündən o dərəcədə pozursa ki, otaqların kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərinin davam etdirilməsi digər tərəf üçün yolverilməz olur, bu halda edilə bilər. Tərəflərin bu maddənin göstərişlərinə zidd olan razılaşmasının qüvvəsi yoxdur (maddə 686).

2514. Kirayədə marağı olan hər hansı şəxsin gələcəkdə kirayə müqaviləsi bağlanması məqsədilə ödədiyi haqq (bron və ya ehtiyatda saxlama haqqı) hansı hesaba daxil edilir və geri tələb edilə bilər?

- Əgər kirayəyə verənə, onun müavinlərinə və ya vasitəçilərinə ödənilmişdirsə, kirayə müqaviləsinin bağlandığı zaman əmlak kirayəsi haqqının hesabına daxil edilir. Əgər vasitəçi daşınmaz əmlakla əqdlər üzrə maklerdirsə, bron haqqı əvvəlcə maklerin dövlət tarifləri əsasında hesablanan muzdunun hesabına gedir və yalnız qalan hissə əmlak kirayəsi haqqının hesabına daxil edilir;

- əgər iki aylıq kirayə haqqının məbləğindən yüksəkdirsə, kirayədə marağı olan şəxs tərəfindən istənilən vaxt geri tələb edilə bilər;

- əgər kirayə müqaviləsi kirayədə marağı olan şəxsin təqsiri olmadan bağlanmazsa və ya kirayə müqaviləsinə zidd olaraq kirayəçinin əşyaya sahibliyə başlaması imkanı təmin edilməzsə, kirayədə marağı olan şəxs tərəfindən istənilən vaxt tamamilə geri tələb edilə bilər (maddə 688).

2515. Əgər kirayəçi kirayəyə verənin öz öhdəliklərini icra etməsi üçün ona təminat verməlidirsə, bu cür təminat hansı məbləğdən çox olmamalıdır?

Bir aylıq əmlak kirayəsi haqqının iki mislindən.

2516 Yaşayış otaqlarının kirayəsi halında kirayəçinin ziyanına olaraq əmlak kirayəsi zamanı bron haqqı, beh, dəbbə pulu tələblərindən kənaraçıxmalar barəsində razılaşma əldə oluna bilərmi?

Qüvvəsi yoxdur (MM-in 688.1 və 688.2-ci maddələri).

2517. Yaşayış otağını kirayəyə verənin kirayəçidən dəbbə pulu ödənilməsi barədə öhdəlik almasına əsas verən razılaşma əldə oluna bilərmi?

Qüvvəsi yoxdur.

2518. Kirayə müqaviləsi üzrə hüquq münasibətlərinə nə zaman xitam verilir?

Müqavilənin bağlandığı müddət bitdikdə (maddə 689)

2519. Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildiriş hansı formada verilməlidir?

Yazılı formada (maddə 690)

2520. Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildirişdə nələr göstərilməlidir?

Müqavilənin ləğvi üçün əsaslar

2521. Torpaq sahələrinin, otaqların və ya rəsmi reyestrdə qeydə alınmış gəmilərin kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərində müqavilənin ləğvinə hansı hallarda yol verilir?

- Əmlak kirayəsi haqqı günlər üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti günün sonu üçün qüvvəyə minməklə hər hansı gün verildikdə;

- əmlak kirayəsi haqqı həftələr üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti bazar gününün sonu üçün qüvvəyə minməklə həftənin birinci iş günü verildikdə;

- kirayə haqqı aylar və ya daha uzun zaman hissələri üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti aydan sonrakı ayın axırı üçün qüvvəyə minməklə təqvim ayının birinci iş günü verildikdə (maddə 691).

2522. Yaşayış otaqlarının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərində müqavilənin ləğvinə hansı halda yol verilir?

Yalnız o halda yol verilir ki, müqavilənin ləğvinə dair bildiriş növbəti aydan sonrakı ayın axırı üçün qüvvəyə minməklə təqvim ayının birinci iş günü verilsin.

2523. Müqavilənin ləğvinə dair xəbərdarlıq edilməsinin kirayəçi tərəfindən gözlənilməli olan müddətləri nə qədər müddət sonra kirayəçinin xeyrinə müvafiq surətdə üç ay uzadılır?

Kirayəlik əşya verildikdən üç, altı və doqquz il sonra (MM-in 691.1.3 və 691.3-cü maddələri)

2524. Müqavilənin ləğvinə dair xəbərdarlıq edilməsinin kirayəyə verən tərəfindən gözlənilməli olan müddətlərinin qısaldılmasına əsas verən razılaşmaların qüvvəsi varmı?

Yoxdur.

2525. Daşınar əşyaların kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərində müqavilənin ləğvinə hansı hallarda yol verilir?

- Əmlak kirayəsi haqqı günlər üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş növbəti günün sonu üçün qüvvəyə minməklə istənilən gün verildikdə;

- əmlak kirayəsi haqqı daha uzun zaman hissələri üzrə hesablanarkən müqavilənin ləğvinə dair bildiriş kirayə hüquq münasibətlərinə xitam verilməli günə ən geci yeddi gün qalmış verildikdə.

2526. Kirayəyə verən MM-in 692.4-cü maddəsinin müddəalarını gözləmək şərti ilə (Kirayəyə verən özünün yaşadığı və ən çoxu iki mənzildən ibarət olan yaşayış binasında mənzilin kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərini qanunvericilikdə nəzərdə tutulan şərtlər olmadıqda da ləğv edə bilər. Bu halda müqavilənin ləğvinə dair xəbərdarlıq müddəti üç ay uzadılır. Bu, kirayəyə verənin özünün yaşadığı mənzil çərçivəsində yaşayış otağının kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə müvafiq surətdə tətbiq edilir) yaşayış otağının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərini hansı halda ləğv edə bilər?

Yalnız o halda ləğv edə bilər ki, bu hüquq münasibətlərinə xitam verilməsində onun əsaslı marağı olsun (maddə 692).

2527. Kirayəyə verənin kirayə hüquq münasibətlərinə xitam vermək arzusu hansı hallarda əsaslı sayılır?

- Kirayəçi müqavilə öhdəliklərinin pozulmasında təqsirli olduqda;

- kirayəyə verənin otaqlara özü və ya ailə üzvləri üçün mənzil kimi ehtiyacı olduqda;

- kirayə hüquq münasibətlərinin davam etməsi nəticəsində kirayəyə verən torpaq sahəsindən iqtisadi cəhətdən sərfəli istifadə edə bilmədikdə və buna görə xeyli zərərə düşə bildikdə. Bu halda yaşayış otağının başqa şəxslərə kirayəyə verilməsi zamanı əmlak kirayəsi üçün daha yüksək haqq almaq imkanı hesaba alınmır. Kirayəyə verən həmçinin buna istinad edə bilməz ki, kirayəlik otaqlar kirayəçiyə verildikdən sonra nəzərdə tutulmuş və ya həyata keçirilmiş mənzil mülkiyyətinin təsis edilməsi ilə əlaqədar, o, həmin otaqları satmaq istəyir;

- kirayəyə verən binanın yardımçı qeyri-yaşayış otaqlarını kirayəyə vermək məqsədilə yeni avadanlıqla təchiz edərək yol verilən şəkildə yaşayış otaqlarına çevirmək niyyətində olduqda və müqavilənin ləğvini yalnız bu otaqlar üçün məhdudlaşdırdıqda. Bu halda kirayəçi kirayə haqqının ağlabatan dərəcədə azaldılmasını tələb edə bilər. Əgər həmin otaqların yeni avadanlıqla təchiz edilməsi işlərinin başlanması uzadılırsa, kirayəçi yardımçı otaqlar barəsində kirayə hüquq münasibətlərinin müvafiq müddətə uzadılmasını tələb edə bilər.

2528. Kirayəyə verənin əsaslı mənafeləri kimi yalnız müqavilənin ləğvinə dair bildirişdə göstərilmiş əsaslar hansı şərtlə qəbul edilir?

Bu şərtlə ki, onlar sonradan əmələ gəlməsin.

2529. Kirayəyə verən özünün yaşadığı və ən çoxu iki mənzildən ibarət olan yaşayış binasında mənzilin kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərini MM-in 692.1-ci maddədə nəzərdə tutulan şərtlər olmadıqda da ləğv edə bilər. Bu halda müqavilənin ləğvinə dair xəbərdarlıq müddəti nə qədər uzadılır?

Üç ay , kirayəyə verənin özünün yaşadığı mənzil çərçivəsində yaşayış otağının kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə müvafiq surətdə tətbiq edilir.

2530. Torpaq sahəsinin kirayəsi haqqında qeyri-müəyyən müddətə bağlanmış müqavilə nə zaman ləğv edilə bilər?

Altı aylıq ləğvetmə müddəti gözlənilməklə təqvim ilinin sonu üçün

2531. Əgər kirayə müqaviləsi 30 ildən çox müddətə bağlanmışsa, 30 ildən sonra kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin hər bir iştirakçısı qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə onun ləğvinə dair bildiriş verə bilər. Hansı halda ləğvetməyə yol verilmir?

Əgər müqavilə kirayəyə verənin və ya kirayəçinin bütün ömrü üçün bağlanmışdırsa

2532. MM-in 692-ci maddəsində (Yaşayış otağının kirayəsi müqaviləsinə xitam verilməsi şərtləri) nəzərdə tutulan qaydalardan kirayəçinin ziyanına olan kənaraçıxmalar barəsində razılaşma əldə oluna bilərmi?

Qüvvəsi yoxdur.

2533. MM-in 692-ci maddəsinin (Yaşayış otağının kirayəsi müqaviləsinə xitam verilməsi şərtləri) göstərişləri nələrin kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə tətbiq edilmir?

- Yalnız müvəqqəti istifadə üçün kirayəyə verilmiş yaşayış otağı;
- kirayəyə verənin özünün yaşadığı və müxəlləfatla tam və ya əsasən təchiz etməli olduğu mənzilin hissəsi olan yaşayış otağı, bu şərtlə ki, yaşayış otağı uzunmüddətli istifadə üçün hansısa ailəyə verilmiş olmasın;
- tələbə və ya gənclər yataqxanasının bir hissəsi olan yaşayış otağı;
- əgər müqavilə bağlanarkən kirayəyə verən yaşayış otağının təyinatını kirayəçiyə göstərmişsə, kurort yerlərində və istirahət zonalarında yerləşən kurort evlərində və istirahət evlərində olan yaşayış otağı;
- hüquqi şəxsin mənzilə kəskin ehtiyacı olan şəxslərə və ya təhsil alan şəxslərə vermək üçün yerinə yetirdiyi vəzifələr çərçivəsində kirayələdiyi yaşayış otağı.

2534. Yaşayış otağının kirayəsi haqqında qüvvədə olma müddəti müəyyənləşdirilmiş müqavilə üzrə hüquq münasibətlərində kirayəçi bu münasibətlərin davam etdirilməsini hansı hallarda tələb edə bilər?

- Əgər müqavilənin ləğv olunduğu halda münasibətlərin davam etdirilməsini MM-ə əsasən tələb etmək mümkündürsə. Əgər kirayə müqaviləsi bağlanarkən kirayəçi kirayəyə verənin yaşayış otağını müəyyənləşdirilmiş müddətdə geri qaytarmasına əsas verən halları bilirdisə, onda kirayəçinin xeyrinə yalnız müqavilə bağlandıqdan sonra baş vermiş hallar nəzərə alınır;

- əgər yaşayış otağının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərinin müddəti bir ildən çoxdursa və hüquq münasibətlərinə xitam verilməsinə ən geci iki ay qalmış kirayəçi yazılı bildiriş əsasında kirayəyə verəndən bu münasibətlərin qeyri-müəyyən müddətə davam etdirilməsini tələb edirsə və münasibətlərə xitam verilməsində kirayəyə verənin əsaslı marağı yoxdursa (maddə 693)

2535. Yaşayış otağının kirayəsi haqqında qüvvədə olma müddəti müəyyənləşdirilmiş müqavilə üzrə hüquq münasibətləri hansı hallarda qeyri-müəyyən müddətə uzadılır?

- Əgər kirayə müddəti bitdikdən sonra kirayəçi otaqdan istifadəni davam etdirirsə və iki həftə ərzində kirayəyə verən və ya kirayəçi əks niyyətdə olduğu barədə müvafiq olaraq digər tərəfə bildiriş vermirsə. Kirayəçi üçün müddət istifadənin davam etdiyi andan, kirayəyə verən üçün bu davametmənin ona məlum olduğu andan başlanır;
- əgər ləğvetmə MM-in 692-ci maddəsinin (Yaşayış otağının kirayəsi müqaviləsinə xitam verilməsi şərtləri) göstərişlərinə uyğun həyata keçirilmirsə.

2536. Yaşayış otağının kirayəsi haqqında təxirəsalıcı şərtlə bağlanmış müqavilə üzrə hüquq münasibətlərində hesab edilir ki, həmin şərt baş verdikdə hüquq münasibətləri qeyri-müəyyən müddətə uzadılır. Əgər həmin şərt baş verdikdə kirayəyə verən müqavilənin ləğvinə dair bildiriş verərsə və MM-in 693.1-ci maddəsinə (Yaşayış otağının kirayəsi haqqında qüvvədə olma müddəti müəyyənləşdirilmiş müqavilə üzrə hüquq münasibətlərində kirayəçinin bu münasibətlərin davam etdirilməsini tələb edə bilmə əsasları) uyğun olaraq kirayəçi hüquq münasibətlərinin davam etdirilməsini tələb edərsə, onun xeyrinə hansı hallar nəzərə alınmalıdır?

Yalnız kirayə müqaviləsi bağlandıqdan sonra baş vermiş hallar

2537. MM-in 693.3-cü maddəsində nəzərdə tutulan tələblərdən (Yaşayış otağının kirayəsi haqqında təxirəsalıcı şərtlə bağlanmış müqavilə üzrə hüquq münasibətlərində hesab edilir ki, həmin şərt baş verdikdə hüquq münasibətləri qeyri-müəyyən müddətə uzadılır. Əgər həmin şərt baş verdikdə kirayəyə verən müqavilənin ləğvinə dair bildiriş verərsə və qanuvericiliyə uyğun olaraq kirayəçi hüquq münasibətlərinin davam etdirilməsini tələb edərsə, onun xeyrinə yalnız kirayə müqaviləsi bağlandıqdan sonra baş vermiş hallar nəzərə alınmalıdır) kirayəçinin ziyanına olan kənaraçıxmalar barəsində razılaşmanın nə zaman qüvvəsi vardır?

Yalnız yaşayış otağı müvəqqəti istifadə üçün kirayəyə verildikdə

2538. Yaşayış otağı xidməti münasibətlərin mövcudluğu nəzərə alınmaqla kirayəyə verildikdə kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin istənilən iştirakçısı hansı müddətdə müqavilənin ləğvinə dair bildiriş verə bilər?

Xidməti münasibətlərə xitam verilənədək və ya xitam verildikdən bir ay sonra (maddə 694)

2539. Xidməti mənzillərin kirayəsi müqaviləsinin ləğvinə dair bildiriş verildiyi halda ləğvetmə nə zaman qüvvəyə minir?

Onun bildirildiyi aydan sonrakı ayın axırında

2540. Əgər ləğvetməyə dair bildiriş həmin müddətdə verilməzsə, hansı qaydalar tətbiq edilir?

Ümumi qaydalar

2541. Kirayəçinin öldüyü halda kirayə müqaviləsi üzrə hüquq münasibətləri hansı qaydada davam etdirilir?

Əgər başqa kirayəçilər varsa, onlarla davam etdirilir. Başqa kirayəçilər olmadıqda kirayə müqaviləsi üzrə hüquq münasibətləri vərəsələrlə davam etdirilir. Növbəti kirayəçinin və ya vərəsənin qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsi üzrə hüquq münasibətlərinin ləğvinə dair bildiriş vermək hüququ vardır (maddə 695).

2542. Kirayəçinin öz arvadı (əri) və ya ailə üzvləri ilə yaşadığı yaşayış otağının kirayəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə kirayəçinin öldüyü halda kimlər girirlər?

Onun arvadı (əri) və ya ailə üzvləri

2543. Əgər bu sonuncular kirayəçinin ölümü onlara məlum olduqdan sonra kirayəyə verənə kirayə hüquq münasibətlərini davam etdirmək niyyətində olmadıqlarını nə zaman bəyan etməlidirlər?

Bir ay ərzində

2544. Ailənin bir neçə üzvü bu cür hüquq münasibətlərinə girdikdə onlar kirayə hüquq münasibətlərindən irəli gələn hüquqları hansı qaydada həyata keçirə bilərlər?

Yalnız birlikdə. Bu hüquq münasibətlərindən irəli gələn öhdəliklər üzrə onlar birgə borclular kimi məsuliyyət daşıyırlar.

2545. Kirayəçinin arvadı (əri) və ya ailə üzvləri kirayə hüquq münasibətlərinə daxil olduqdan sonra kirayəçinin ölümündən əvvəl əmələ gəlmiş öhdəliklər üzrə hansı formada məsuliyyət daşıyırlar?

Vərəsə ilə yanaşı birgə borclular kimi. Arvad (ər) və ya ailə üzvləri ilə münasibətlərdə vərəsə məsuliyyəti tək daşıyır.

2546. Əgər kirayə hüquq münasibətlərinə girən vərəsə, arvad (ər) və ya ailə üzvü kirayə müqaviləsinin ləğvi üçün vacib əsaslar verirlərsə, kirayəyə verən hansı hüquqa malikdir?

Qanunla müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləməklə kirayə müqaviləsinin ləğvinə dair bildiriş verə bilər.

2547. Kirayəyə verənin əsaslı mənafeləri nəzərə alınarkən yalnız ləğvetməyə dair bildirişdə göstərilmiş əsaslar hansı şərtlə qəbul edilir?

Bu şərtlə ki, onlar sonradan yaranmış olmasın (maddə 696).

2548. MM-in 696.1-ci maddəsində nəzərdə tutulan halda (Əgər yaşayış otağının kirayəsi haqqında müqaviləyə uyğun olaraq hüquq münasibətlərinə xitam verilməsi kirayəçi və onun ailəsi üçün ağır nəticələrə gətirib çıxara bilərsə və buna hətta kirayəyə verənin əsaslı mənafelərini nəzərə almaqla haqq qazandırmaq mümkün olmazsa) kirayəçi tələb edə bilər ki, hüquq münasibətləri bütün şərtlər nəzərə alınmaqla ağlabatan sayıla biləcək qədər davam etdirilsin. Hansı halda kirayəçi yalnız onların ağlabatan şəkildə dəyişdirilmiş şərtlərlə davam etdirilməsini tələb edə bilər?

Əgər qüvvədə olan müqavilə şərtlərinə müvafiq surətdə hüquq münasibətlərinin davam etdirilməsi kirayəyə verən üçün mümkün deyilsə

2549. Əgər razılıq əldə edilmirsə, kirayə hüquq münasibətlərinin davam etdirilməsi və kirayə müddəti haqqında, habelə kirayənin davam etdirilməsi şərtləri haqqında qərar hansı qaydada qəbul edilir?

Məhkəmə qaydasında

2550. Əgər kirayə hüquq münasibətlərinə xitam verilməsinin kirayəçi və ya onun ailəsi üçün ağır nəticələrə gətirib çıxarmasına əsas verən şərtlərin nə vaxt aradan qalxacağını ehtimal etmək mümkün deyilsə, kirayə hüquq münasibətlərinin qeyri-müəyyən müddətə davam etdiriləcəyi müəyyənləşdirilə bilər. Əgər razılığa və ya məhkəmə qərarına əsasən kirayə hüquq münasibətlərinin müəyyən müddətə davam etdiriləcəyi müəyyənləşdirilmişsə, kirayəçi münasibətlərin həmin müddətdən əlavə davam etdirilməsini hansı halda tələb edə bilər?

Yalnız o halda tələb edə bilər ki, buna şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi əsas versin və ya həmin münasibətlərin davam etdirilməsi müddətinin müəyyənləşdirilməsi üçün əsas götürüləcək və baş verməsi gözlənilən hallar baş verməsin.

2551. Hansı hallarda kirayəçi kirayə hüquq münasibətlərinin davam etdirilməsini tələb edə bilməz?

- Əgər o, hüquq münasibətlərinin ləğvinə dair bildiriş vermişdirsə;
- əgər kirayəyə verənə müəyyənləşdirilmiş xəbərdarlıq müddətlərini gözləmədən hüquq münasibətlərini ləğv etmək hüququ verən hər hansı əsas varsa.

2552. Kirayəçinin ləğvetmədən şikayət vermək və kirayə hüquq münasibətlərini davam etdirmək niyyəti barəsində bildirişi hansı formada tərtib edilməlidir?

Yazılı formada. Kirayəyə verənin xahişi ilə kirayəçi etirazın əsaslarını ona dərhal bildirməlidir.

2553. Əgər kirayə hüquq münasibətlərinin başa çatmasına ən geci bir ay qalmış və ya şikayət vermək hüququ barəsində kirayəyə verənin izahını aldıqdan bir ay sonra kirayəçi ona öz etirazını bildirməzsə, kirayəyə verən hansı hüquqa malikdir?

Kirayə hüquq münasibətlərinin davam etdirilməsindən imtina edə bilər.

2554. Əgər kirayə hüquq münasibətlərinə xitam verildikdən sonra kirayəçi kirayəyə götürdüyü əşyanı qaytarmırsa, kirayəyə verən nəyi tələb edə bilər?

Kompensasiya olaraq əşyanın saxlandığı müddət üçün müəyyənləşdirilmiş kirayə haqqının verilməsini tələb edə bilər; otaqların kirayəsi üzrə hüquq münasibətlərində bunun əvəzinə kompensasiya kimi o, həmin ərazidə bu cür otaqların kirayəsi üçün adətən tutulan məbləğdə kirayə haqqı verilməsini tələb edə bilər (maddə 697).

2555. Digər zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ da istisna edilmir. Lakin yaşayış otaqlarını kirayəyə verən digər zərərin əvəzinin ödənilməsini hansı halda tələb edə bilər?

Yalnız o halda tələb edə bilər ki, əşya kirayəçinin cavabdeh olduğu halların nəticəsində qaytarılmasın; zərərin əvəzi yalnız həmin şəraitdə haqq-ədalətin tələb etdiyi dərəcədə ödənilir. Əgər kirayəçi ləğvetməyə dair bildiriş verərsə, bu müddəa tətbiq edilmir.

2556. Kirayəyə verənin kirayəyə verilmiş əşyanın dəyişməsi və ya pisləşməsi nəticəsində zərərin əvəzinin ödənilməsi barədə iddiaları, habelə kirayəçinin xərclərin əvəzinin ödənilməsi və ya hər hansı qurğunun götürülməsinə icazə verilməsi barədə iddiaları müddətin keçməsinə görə qüvvədən nə zaman düşür?

Altı aydan sonra

2557. Kirayəyə verənin zərərin əvəzinin ödənilməsi barədə iddialarının müddəti hansı andan başlanır?

Onun əşyanı geri aldığı andan

2558 Kirayəçinin iddialarının müddəti hansı andan başlanır?

Kirayə hüquq münasibətlərinə xitam verildiyi andan

2559. Kirayəyə verən əşyanın qaytarılması hüququnu müddətin keçməsinə görə itirdikdə onun zərərin əvəzinin ödənilməsi barədə iddiaları da qüvvədən düşürmü?

Bəli.

2560. Hər hansı torpaq sahəsini və ya hər hansı otaqları kirayəyə verən kirayə hüquq münasibətlərindən irəli gələn tələbləri üzrə kirayəçinin həmin torpaq sahəsində və ya həmin otaqlarda olan əşyalarının girov qoyulması hüququna malikdir. Girov hüququ hansı tələblər üzrə həyata keçirilə bilməz?

Cari və növbəti ildən də uzun müddət üçün zərərin əvəzinin ödənilməsi və kirayə haqqının verilməsi haqqında gələcək tələblər üzrə (maddə 698)

2561. Bu hüquq hansı əşyalara şamil edilmir?

Girov qoyula bilməyən əşyalara

2562. Torpaq sahəsindən və ya otaqlardan əşyaların aparılması kirayəyə verənin girov hüququnu ləğv edir, amma hansı hallar istisna təşkil edir?

Əşyaların kirayəyə verənə xəbər verilmədən və ya onun şikayəti üzrə aparıldığı hallar

2563. Hansı hallarda kirayəyə verən əşyaların aparılması barədə şikayət verə bilməz?

Əgər əşyalar kirayəçinin müəssisəsinin hüquqa uyğun işi çərçivəsində və ya adi yaşayış şəraiti çərçivəsində aparılmışdırsa və ya qalan əşyalar kirayəyə verənin təmin edilməsi üçün aşkar yetərlidirsə

2564. Əgər kirayəyə verən öz hüququnu daha əvvəl məhkəmə qaydasında həyata keçirməmişsə, girov hüququ əşyaların aparılması barədə kirayəyə verənə xəbər verildikdən nə qədər sonra ləğv edilir?

Bir ay sonra

2565. Əgər kirayəyə verənin girov hüququnun şamil edildiyi hər hansı əşya başqa kreditor üçün girov götürülürsə, kirayə haqqı ilə bağlı girov hüququ hansı müddət üçün həmin kreditora qarşı irəli sürülə bilməz?

Həbs qoyulmasından bir il əvvəldən çox müddət üçün

2566. Kirayəyə verilən əşya kirayəçiyə verildikdən sonra ona mülkiyyət hüququ kirayəyə verəndən hər hansı üçüncü şəxsə (əldə edənə) keçdikdə əldə edən mülkiyyəti əldə etdiyi andan kirayəyə verəni əvəz edərək kirayə hüquq münasibətlərindən irəli gələn bütün hüquq və vəzifələrə malik olur. Əldə edən öz öhdəliklərini yerinə yetirmədikdə kirayəyə verən əldə edən tərəfindən əvəzi ödənilməli zərər üçün zamin kimi məsuliyyət daşıyır. Bu cür məsuliyyət hansı müddətdə mövcud olur?

Mülkiyyət hüququnun keçməsinin kirayəyə verənə məlum olmasından altı ay keçənədək (maddə 699)

34-cü FƏSİL
İcarə müqaviləsinin tərəfləri arasında yaranan münasibətlər üzrə suallar və cavablar

§ 1. İcarə haqqında ümumi müddəalar

2567. İcarə müqaviləsi kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı daha hansı hüquqları verir?

İcarə müqaviləsinə əsasən kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı, bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir (maddə 700).

2568. Əgər icarəyə götürülən ləvazimatın dəyəri icarənin əvvəlində müqavilənin iştirakçıları və ya hər hansı üçüncü şəxs tərəfindən qiymətləndirilirsə və icarəçi icarəyə xitam verildikdən sonra bu ləvazimatı onun qiymətləndirmə dəyəri üzrə qaytarmaq öhdəliyini götürürsə, hansı qaydalar tətbiq ediləcəkdir?

- Ləvazimatın təsadüfən məhv olması və təsadüfən pisləşməsi riski icarəçinin üzərinə düşür;
- icarəçi ləvazimat obyektlərinə dair təsərrüfatın lazımınca aparılması çərçivəsində sərəncam verə bilər;
- icarəçi ləvazimatı təsərrüfatın lazımınca aparılmasına uyğun gələn vəziyyətdə saxlamalı və uyğun gələn həcmdə daim əvəz etməlidir. Onun əldə etdiyi obyektlər ləvazimata birləşdirildikdən sonra icarəyə verənin mülkiyyəti olur;
- icarəyə xitam verildikdən sonra icarəçi mövcud ləvazimatı icarəyə verənə qaytarmalıdır. İcarəyə verən icarəçinin əldə etdiyi və təsərrüfatın lazımınca aparılması qaydalarına görə icarəyə götürülmüş obyekt üçün lüzumsuz və ya həddindən artıq qiymətli olan ləvazimat obyektlərini qəbul etməkdən imtina edə bilər; imtina edilmiş obyektlərə mülkiyyət hüququ imtina anında icarəçiyə keçir;
- əgər qəbul edilmiş ləvazimatla qaytarılmalı ləvazimatın ümumi qiymətləndirmə dəyərləri arasında fərq vardırsa, o, pulla kompensasiya edilir. Qiymətləndirmə dəyərləri üçün icarəyə xitam verildiyi məqamda qüvvədə olan qiymətlər əsas götürülməlidir.

2569. İcarəyə verən icarəçinin girov hüququnun həyata keçirilməsinin qarşısını hansı formada ala bilər?

İcarəyə verən icarəçinin girov hüququnun həyata keçirilməsinin qarşısını təminat verməklə ala bilər. İcarəyə verən hər hansı ayrıca ləvazimat obyektini onun dəyəri miqdarında təminat verərək girov hüququndan azad edə bilər (maddə 702.2).

2570. Hər hansı torpaq sahəsinin və ya müəssisənin icarəçisinin öhdəsinə ləvazimat obyektlərinə dair sərəncam verməmək və ya icarəyə verənin razılığı ilə sərəncam vermək və ya onları icarəyə verənə satmaq vəzifəsi qoyan müqavilə müddəalarının hansı halda qüvvəsi var?

Hər hansı torpaq sahəsinin və ya müəssisənin icarəçisinin öhdəsinə ləvazimat obyektlərinə dair sərəncam verməmək və ya icarəyə verənin razılığı ilə sərəncam vermək və ya onları icarəyə verənə satmaq vəzifəsi qoyan müqavilə müddəalarının yalnız o halda qüvvəsi vardır ki, icarəyə verən icarəyə xitam verildikdən sonra həmin ləvazimatı qiymətləndirmə dəyəri üzrə əldə etməyi öhdəsinə götürsün (maddə 703).

2571. Əgər hər hansı torpaq sahəsinin, hüququn və ya müəssisənin icarə müqaviləsi bağlanarkən icarə müddəti müəyyənləşdirilməyibsə, müqavilənin ləğvinə hansı halda yol verilir?

Əgər hər hansı torpaq sahəsinin, hüququn və ya müəssisənin icarə müqaviləsi bağlanarkən icarə müddəti müəyyənləşdirilməyibsə, müqavilənin ləğvinə yalnız azı altı aylıq xəbərdarlıq müddətini gözləmək şərti ilə ilin sonunda yol verilir (maddə 704).

2572. Əgər icarə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü obyekti qaytarmırsa, icarəyə verənin hansı hüquqları var?

Əgər icarə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü obyekti qaytarmırsa, icarəyə verən obyektin saxlandığı müddət üçün kompensasiya kimi müəyyənləşdirilmiş illik icarə haqqından icarəçinin həmin il ərzində əldə etdiyi və ya əldə edə biləcəyi icarə faydaları hissəsinə uyğun olan hissənin verilməsini tələb edə bilər (maddə 705).

§ 2. Torpaq icarəsi müqaviləsi

2573. Torpaq icarəsi müqaviləsinə əsasən hansı torpaqlar icarəyə verilə bilər?

Torpaq icarəsi müqaviləsinə əsasən icarəyə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalara aid torpaqlar verilə bilər (maddə 706).

2574. Müqavilə iştirakçılarından biri təsvirin tərtibində iştirakdan imtina etdikdə və ya tərtib zamanı mühüm ixtilaflar yarandıqda nə baş verir?

Müqavilə iştirakçılarından biri təsvirin tərtibində iştirakdan imtina etdikdə və ya tərtib zamanı mühüm ixtilaflar yarandıqda müqavilənin istənilən iştirakçısı tələb edə bilər ki, təsvir ekspert tərəfindən tərtib edilsin, amma torpağın icarəyə verildiyi vaxtdan doqquz aydan çox və ya icarə hüquq münasibətlərinə xitam verildiyi vaxtdan üç aydan çox keçdiyi hallar istisna təşkil edir (maddə 707).

2575. İcarəyə verilən torpaqda olan əşyaların, o cümlədən yaşayış və təsərrüfat binalarının, yolların, arxların, drenaj sistemlərinin və hasarların adi təmiri kimin hesabına həyata keçirilir?

İcarəçi icarəyə götürdüyü torpaqdan onun təsərrüfat təyinatına uyğun lazımi qaydada istifadə etməyə borcludur. O, icarəyə götürdüyü torpaqda olan əşyaların, o cümlədən yaşayış və təsərrüfat binalarının, yolların, arxların, drenaj sistemlərinin və hasarların adi təmirini öz hesabına aparmalıdır (maddə 708).

2576. İcarə müqaviləsində ayrı şərtlər nəzərdə tutulmamışdırsa, icarəyə verilən torpağın yüklülükləri və ondan tutulan vergilər kimin tərəfindən ödənilir?

İcarə müqaviləsində ayrı şərtlər nəzərdə tutulmamışdırsa, icarəyə verilən torpağın yüklülüklərini və ondan tutulan vergiləri torpaq və vergi qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada torpaq mülkiyyətçisi ödəməlidir (maddə 709).

2577. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi necə müəyyən edilir?

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddi onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir (maddə 710).

2578. İcarəçi icarəyə götürdüyü torpağın yaxşılaşdırılması üçün tədbirlər görülməsinə hansı şərtlə yol verməlidir?

İcarəçi icarəyə götürdüyü torpağın yaxşılaşdırılması üçün tədbirlər görə bilər, bu şərtlə ki, həmin tədbirlər onun üçün hətta icarəyə verənin əsaslı mənafeləri ilə haqq qazandırıla bilməyən mənfi nəticələr törətməsin (maddə 711).

2579. İcarəyə verən bu tədbirlərin görülməsi üçün məsrəflərin və əldən çıxmış gəlirlərin əvəzini icarəçiyə hansı qaydada ödəməyə borcludur?

Həmin şəraitdə ağlabatan olan həcmdə

2580. İcarəçinin xahişi ilə icarəyə verən ona avans verməlidir. Əgər belə tədbirlər nəticəsində icarəçi daha yüksək gəlir əldə edirsə, icarəyə verən nə tələb edə bilər?

İcarəyə verən tələb edə bilər ki, icarəçi icarə haqqının ağlabatan artımına razılıq versin, amma müəssisənin vəziyyətinə görə icarəçinin bu cür artıma yol verə bilmədiyi hallar istisna təşkil edir.

2581. İcarəyə götürülmüş torpaqdan üçüncü şəxslərin istifadə etməsi zamanı məsuliyyəti kim daşıyır?

Əgər icarəçi icarəyə götürdüyü torpağı hər hansı üçüncü şəxsə ikinci əldən icarəyə verirsə, həmin üçüncü şəxsin istifadə zamanı baş vermiş təqsiri üçün, hətta icarəyə verənin ikinci əldən icarəyə razılıq verdiyi halda da məsuliyyət daşıyır (maddə 712).

2582. Əgər icarəçinin icarəyə götürdüyü torpaqdan istifadəsi müqavilə şərtlərinə uyğun gəlmirsə və icarəyə verənin xəbərdarlığına baxmayaraq, o, bu cür istifadəni davam etdirirsə, icarəyə verənin hansı hüquqları var?

Əgər icarəçinin icarəyə götürdüyü torpaqdan istifadəsi müqavilə şərtlərinə uyğun gəlmirsə və icarəyə verənin xəbərdarlığına baxmayaraq, o, bu cür istifadəni davam etdirirsə, icarəyə verən icarəçinin öz müqavilə vəzifələrini icra etməməsi barədə iddia verə bilər, bunun nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb edə bilər və (və ya) xəbərdarlıq müddətini gözləmədən müqaviləni ləğv edə bilər (maddə 713).

2583. İcarəçinin torpağa əlavə etdiyi qurğunu götürmə hüququnu istisna edən razılaşmanın hansı halda qüvvəsi var?

İcarəçinin torpağa əlavə etdiyi qurğunu götürmə hüququnu istisna edən razılaşmanın yalnız ağlabatan kompensasiya nəzərdə tutulduğu halda qüvvəsi var (maddə 714).

2584. İcarəyə verilmiş torpağın dəyişməsi və ya pisləşməsi nəticəsində kompensasiya barəsində iddia müddəti nə qədərdir?

İcarəyə verilmiş torpağın dəyişməsi və ya pisləşməsi nəticəsində kompensasiya barəsində icarəyə verənin iddiaları, habelə MM-in 714-cü maddəsinə (Torpaq icarəçisinin məsrəfləri və qurğuları) uyğun xərclərin əvəzinin ödənilməsi və ya qurğunun götürülməsi barədə icarəçinin iddiaları müddətin keçməsinə görə altı aydan sonra qüvvədən düşür (maddə 715).

2585. Torpaq icarəsi müqaviləsi üzrə icarəyə verən icarəçiyə münasibətdə nələr üzərində girov hüququna malik deyil?

Torpaq icarəsi müqaviləsi üzrə hüquq münasibətlərindən irəli gələn tələblər

üzrə icarəyə verən icarəçinin icarəyə götürülmüş torpaqda qurulmuş əşyalarına, habelə icarəyə götürülmüş əşyanın bəhərinə girov hüququna malikdir. Girov hüququ icarəçi və onun ailəsi üçün növbəti məhsula qədər dolanacaq vasitəsi kimi zəruri olan, habelə icarəyə götürülmüş əşyadan onun təsərrüfat təyinatına uyğun adi istifadə üçün zəruri olan əşyalara şamil edilmir (maddə 716).

2586. Torpaq icarəsi zamanı müqavilə şərtlərinin dəyişdirilməsi icarənin başlanmasından hansı müddətə məhdudlaşdırılır?

Müqavilə şərtlərinin dəyişdirilməsini icarənin başlanmasından və ya müqavilə öhdəliklərinin son dəyişikliyinin qüvvəyə minməsindən iki il keçənədək tələb etmək olmaz. Əgər adətən sığorta müdafiəsi olmayan viranedici təbii fəlakətlər müqavilə öhdəliklərinin nisbətini kökündən dəyişdirərsə, bu müddəa tətbiq edilmir (maddə 717).

2587. Torpaq icarəsi müqaviləsi azı üç il müddətinə bağlandıqda bu müqavilə üzrə hüquq münasibətləri hansı halda qeyri-müəyyən müddətə uzadılır?

Torpaq icarəsi müqaviləsi azı üç il müddətinə bağlandıqda bu müqavilə üzrə hüquq münasibətləri o halda qeyri-müəyyən müddətə uzadılır ki, iştirakçılardan biri bu barədə sorğu verdikdən sonra digər iştirakçı həmin münasibətlərin davam etdirilməsindən üç ay ərzində imtina etməsin (maddə 719).

2588. Sorğu və imtina hansı formada tərtib edilməlidir?

Yazılı formada

2589. Hansı halda sorğunun qüvvəsi yoxdur?

Əgər sorğuda ona riayət edilməməsinin nəticələri birbaşa göstərilməmişsə və sorğu icarənin üçüncü ili ərzində verilməmişdirsə

2590. İcarəyə verən müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsindən hansı halda imtina edə bilər?

İcarəyə verən müqavilə üzrə hüquq münasibətlərinin davam etdirilməsindən o halda imtina edə bilər ki, onlara xitam verilməsinə azı bir il qalmış icarəçi hüquq münasibətlərinin davam etdirilməsini tələb etməsin və ya Mülki Məcəlləyə uyğun olaraq icarəyə verənin sorğusuna cavab olaraq hüquq münasibətlərini davam etdirməkdən imtina etsin (maddə 720).

2591. Əgər torpaq icarəsi müqaviləsinin qüvvəsi yalnız icarəyə götürülmüş torpağın hər hansı hissəsi üçün uzadılırsa, məhkəmə hansı addımlar ata bilər?

Əgər torpaq icarəsi müqaviləsinin qüvvəsi yalnız icarəyə götürülmüş torpağın hər hansı hissəsi üçün uzadılırsa, məhkəmə həmin hissə üçün icarə haqqını müəyyənləşdirə bilər (maddə 721).

2592. Əgər müqavilə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü torpağı qaytarmırsa, icarəyə verən kompensasiya tələb edə bilərmi?

Əgər müqavilə üzrə hüquq münasibətlərinə xitam verildikdən sonra icarəçi icarəyə götürdüyü torpağı qaytarmırsa, icarəyə verən saxlama müddəti üçün icarə haqqı verilməsini kompensasiya kimi tələb edə bilər (maddə 722).

35-ci FƏSİL
Françayzinqlə bağlı suallar və cavablar

2593. Françayz verənin vəzifələri nələrdən ibarətdir?

Françayz verən françayz alana standart formalı qeyri-maddi əmlak hüquqlarını, əmtəə (ticarət) nişanlarını, mal nümunələrini, qablarını, məhsul istehsalı, əldə edilməsi, satışı və fəaliyyətin təşkili konsepsiyasını, habelə satışa kömək üçün zəruri olan başqa informasiyanı özünün tətbiq etdiyi şəkildə verməyə borcludur. Əlavə olaraq, Françayz verən birgə fəaliyyət sistemini üçüncü şəxslərin müdaxiləsindən qorumağa, onu aramsız təkmilləşdirməyə və françayz alanı işgüzar vərdişlərlə tanış etmək, informasiya vermək və ixtisasını artırmaq yolu ilə dəstəkləməyə borcludur (maddə 724).

2594. Françayz alanın vəzifələri nələrdən ibarətdir?

Françayz alan françayzinqin həyata keçirilməsi sisteminə qoyduğu zəhmət nəzərə alınmaqla hesablanan muzdu ödəməli və vicdanlı sahibkar kimi fəaliyyət göstərməli, müqavilənin məqsədi ilə bilavasitə bağlı olan hallarda françayz verənin və ya onun göstərdiyi şəxslərin vasitəsilə xidmətlər qəbul etməli və mallar əldə etməlidir (maddə 725).

2595. Əgər tərəflərdən heç biri müqaviləni ləğv etmək üçün bu hüquqdan istifadə etmirsə, bu halda nə baş verir?

Əgər tərəflərdən heç biri müqaviləni ləğv etmək üçün bu hüquqdan istifadə etmirsə, müqavilə iki il müddətinə uzadılır (maddə 728).

2596. Françayz alanın müəyyən ərazinin hüdudları daxilində rəqabət aparması üzərində hansı müddətə qadağa qoyula bilər?

Tərəflər müqavilə münasibətləri qurtardıqdan sonra da öz aralarında loyal rəqabət aparmağa borcludurlar. Bununla əlaqədar olaraq françayz alanın müəyyən ərazinin hüdudları daxilində rəqabət aparması üzərində ən çoxu bir il müddətinə qadağan qoyula bilər (maddə 729).

2597. Əgər françayz verənin müqavilə öhdəliklərini təqsirli surətdə pozması nəticəsində françayz alan əvəz ödənilməsini azaldarsa, azaltmanın miqdarı necə müəyyənləşdirilir?

Əgər françayz verən müqavilə öhdəliklərini təqsirli surətdə pozarsa, françayz alan əvəz ödənilməsini azalda bilər. Azaltmanın miqdarı müstəqil ekspertin rəyi əsasında qəti surətdə müəyyənləşdirilməlidir. Bununla bağlı xərclər tərəflərin öhdəsinə qoyulur (maddə 730).

36-cı FƏSİL
Əvəzsiz istifadə ilə bağlı suallar və cavablar

2598. Əvəzsiz istifadə müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Əvəzsiz istifadə müqaviləsinə görə, hər hansı əşyanı kirayəyə verən onu kirayəçinin istifadəsinə verməyi öhdəsinə götürür, kirayəçi isə həmin əşyanı kirayəyə verənə qaytarmağı öhdəsinə götürür, özü də bu öhdəlikləri iştirakçılar əvəzsiz icra etməlidirlər (maddə 732).

2599. Əvəzsiz istifadəyə verilən əşyanı kirayəyə verən hansı növ məsuliyyət daşıyır?

Əvəzsiz istifadəyə verilən əşyanı kirayəyə verən kirayəçi qarşısında yalnız qəsdən və ya kobud ehtiyatsızlıq üzündən törədilmiş əməllər və ya qüsurlar üçün məsuliyyət daşıyır (maddə 733).

2600. Əvəzsiz istifadəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi çərçivəsində dəyişməsi və ya pisləşməsinə görə kirayəçi məsuliyyət daşıyırmı?

Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi çərçivəsində dəyişməsi və ya pisləşməsi üçün məsuliyyət daşımır (maddə 734).

2601. Kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanı nə zaman qaytarmağa borcludur?

Müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra (maddə 736)

2602.Əgər əvəzsiz istifadə müddəti müəyyənləşdirilməyibsə, kirayəçi əşyanı nə zaman qaytarmalıdır?

Əvəzsiz istifadə məqsədlərinə uyğun istifadə etdikdən sonra

2603. Əgər kirayəçinin əşyadan istifadə edə bilməsi üçün yetərli olan müddət bitərsə, kirayəyə verən nəyi tələb edə bilər?

Əşyanın daha əvvəl qaytarılmasını

2604. Əgər kirayə müddəti müəyyənləşdirilməyibsə, yaxud əvəzsiz istifadə məqsədlərinə əsasən onu müəyyənləşdirmək mümkün deyilsə, kirayəyə verən əvəzsiz istifadəyə götürülmüş əşyanın qaytarılmasını nə zaman tələb edə bilər?

İstənilən vaxt

2605. Əgər kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanı üçüncü şəxslərin istifadəsinə verirsə, şübhə halında kirayəyə verən əşyanın qaytarılmasını üçüncü şəxslərdən nə zaman tələb edə bilər?

İstənilən vaxt

2606. Əvəzsiz istifadə müqaviləsi üzrə hüquq münasibətlərinə vaxtından əvvəl hansı hallarda xitam verilir?

Kirayəyə verən əvəzsiz istifadə müqaviləsini, əvvələn, əvəzsiz istifadəyə verdiyi əşyaya gözlənilməz hallar nəticəsində ehtiyac duyduqda, ikincisi, kirayəçi əşyadan müqavilənin şərtlərini pozmaqla istifadə etdikdə, o cümlədən əşyanı üçüncü şəxslərin

istifadəsinə verdikdə və ya kirayəçinin kifayət qədər vicdanlı olmaması üzündən əşya mühüm təhlükəyə məruz qaldıqda və üçüncüsü, kirayəçinin öldüyü halda vaxtından əvvəl ləğv edə bilər (maddə 737).

2607. Əvəzsiz istifadə müqaviləsi üzrə iddia müddəti nə qədərdir?

Kirayəyə verənin əvəzsiz istifadəyə verilmiş əşyanın dəyişməsi və ya pisləşməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi hüquqları, habelə kirayəçinin çəkdiyi zəruri xərclərin əvəzinin ödənilməsi hüquqları altı aydan sonra, müddətin keçməsinə görə qüvvədən düşür (maddə 738).

37-ci FƏSİL
Borc, kredit və istehlak krediti müqaviləsi kontekstində yaranan münasibətlərin tənzimlənməsinə dair suallar və cavablar

§ 1. Borc müqaviləsi

2608. Borc müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Borc müqaviləsinə görə bir tərəf (borcverən) pul vəsaitinə və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər tərəfə (borcalana) verməyi öhdəsinə götürür, borcalan isə aldıqlarını müvafiq olaraq eyni məbləğdə pul vəsaiti və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borcverənə qaytarmağı öhdəsinə götürür (maddə 739).

2609. Hansı hallarda borc müqaviləsi yazılı formada bağlanılmalıdır?

Borc müqaviləsi predmetinin məbləği üç min manatdan çoxdursa və ya məbləğindən asılı olmayaraq, müqavilənin iştirakçılarından biri hüquqi şəxsdirsə

2610. Borcalanın və ya onun göstərdiyi üçüncü şəxsin borc müqaviləsinin predmetinə sərəncam hüququnun yarandığı gün hansı gün hesab olunur?

Borcun verildiyi gün

2611. Borc müqaviləsinin predmeti pul vəsaiti olduqda və nağdsız qaydada verildikdə, borcun verildiyi gün hansı gün hesab olunur?

Borc məbləğinin borcalanın, yaxud onun göstərdiyi üçüncü şəxsin hesabına xidmət göstərən kredit təşkilatının və ya digər şəxsin hesabına mədaxil edildiyi gün

2612. Borcverənin və borcalanın (və ya onun göstərdiyi üçüncü şəxsin) hesabları eyni təşkilatda olduqda hansı gün borcun verildiyi gün hesab edilir?

Borc vəsaitinin borcalanın və ya onun göstərdiyi şəxsin hesabına mədaxil olduğu gün

2613. Borcverən hansı məqsədlə borc verə bilməz?

Öz nizamnamə kapitalındakı payın (səhmin) alınması məqsədilə. Borcverən qarşısındakı borc öhdəliyinin icrasının təminatı kimi onun nizamnamə kapitalında olan pay (səhm) çıxış edə bilməz.

2614. MM-də ayrı qayda nəzərdə tutulmayıbsa, borcun verilməsinə görə faizin və (və ya) digər haqqın məbləği və ya hesablanma qaydası hansı qaydada müəyyən edilir?

Tərəflərin razılaşması ilə (maddə 740)

2615. Borcdan istifadəyə görə faiz nəzərdə tutulubsa və müvafiq məbləğ müqavilədə müəyyənləşdirilməyibsə, həmin məbləğ hansı qaydada hesablanır?

MM-in 439.3-cü maddəsinə əsasən. Belə ki, Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər Mülki Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır.

2616. Faizlər, o cümlədən gecikdirilmiş vaxt üçün hesablanan faizlər və digər haqlar hansı məbləğə hesablanır?

Yalnız borcun qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə

2617. Müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, borc müqaviləsi üzrə faizlər və (və ya) haqlar nə zaman ödənilməlidir?

Müqavilənin qüvvədə olduğu hər bir ilin sonunda ödənilməli, borc bir il başa çatanadək qaytarılmalıdırsa, faizlər və (və ya) haqlar borcun qaytarılması ilə bir vaxtda

2618. Borc müqaviləsi üzrə faizlər necə hesablanır?

İllik faiz dərəcəsinin üç yüz altmış beşə və ya borc müqaviləsində nəzərdə tutulduğu halda üç yüz altmışa bölünərək, borcun verildiyi faktiki günlərin (borcun verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla

2619. Borc müqaviləsi üzrə borcverənin borcalandan qəbul etdiyi hər hansı ödənişin borc üzrə sonrakı günlərin birində qəbul edilmiş ödəniş kimi hesab edilməsi nəzərdə tutula bilərmi?

Yolverilməzdir.

§ 2. Kredit müqaviləsi

2620. Kredit müqaviləsi üzrə faizlər və (və ya) digər haqlar hansı müddətdə ödənilir?

Kredit müqaviləsi ilə müəyyən edilən müddətlərdə

2621. MM-in bu paraqrafının faiz və (və ya) haqların ödənilməsinə dair müddəaları nə zaman tətbiq edilir?

Qanunda və ya borc müqaviləsində faiz və (və ya) haqların ödənilməsi nəzərdə tutulduqda

2622. Gəlir əldə etmək məqsədilə müntəzəm olaraq, habelə qeyri-məhdud subyektlərə pul vəsaitlərinin borc verilməsi kim tərəfindən həyata keçirilə bilər?

Yalnız normativ hüquqi aktlara uyğun olaraq kreditlərin verilməsi fəaliyyətinin həyata keçirilməsi hüququna malik şəxs tərəfindən

2623. Hansı hallarda borcverən borc vermək öhdəliyini tam və ya qismən icra etməkdən birtərəfli qaydada imtina edə bilər?

MM-də ayrı qayda nəzərdə tutulmayıbsa, borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi və ya borcalanın borcverənə hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda, yaxud borcalan borcun verilməsi üçün borc müqaviləsində nəzərdə tutulmuş öhdəliyini icra etmədikdə, o cümlədən təminat təqdim etmədikdə (maddə 741)

2624. Borcalan hansı müddətdə borcun alınmasından tam və ya qismən birtərəfli qaydada imtina edə bilər?

Borc müqaviləsi predmeti ona verilənədək

2625. Borc nə zaman qaytarılmış hesab olunur?

Borc predmeti borcverənə və ya borcverənin göstərdiyi üçüncü şəxsə verildiyi gün, müqavilədə ayrı qayda nəzərdə tutulmamışdırsa, qaytarılmış hesab olunur. Borc müqaviləsinin predmeti pul vəsaiti olduqda və nağdsız qaydada qaytarıldıqda, borcun qaytarıldığı gün borc məbləğinin borcverənin, yaxud onun göstərdiyi üçüncü şəxsin hesabına xidmət göstərən kredit təşkilatının və ya digər şəxsin hesabına mədaxil edildiyi gün hesab olunur. Borcverənin və borcalanın və ya onun göstərdiyi üçüncü şəxsin hesabları eyni təşkilatda olduqda borc vəsaitinin borcverənin və ya onun göstərdiyi şəxsin hesabına mədaxil olduğu gün borcun qaytarıldığı gün hesab edilir (maddə 742).

2626. Əgər borc müqaviləsində borcun qaytarılması üçün müddət müəyyən edilməmişdirsə, borc nə zaman qaytarılmalıdır?

Borcverən borcun qaytarılmasını istənilən vaxt tələb edə bilər. Borcverənin icra tələbini almış borcalan bir ay müddətində borcu qaytarmalı, habelə faizləri və (və ya) haqları ödəməlidir, bu şərtlə ki, tərəflərin razılaşması ilə daha uzun müddət nəzərdə tutulmasın.

2627. MM-in 742.2-ci maddəsində göstərilən müddət (yüz on manatdan çox məbləğdə borclar üçün borc müqaviləsinin ləğv edilməsi haqqında xəbərdarlıq müddəti üç ay, daha az məbləğdə borclar üçün bir ay) hansı qaydada hesablanır?

Xəbərdarlığın alındığı vaxtdan.

2628. Qanunda və ya borc müqaviləsi ilə borcalanın xeyrinə ayrı qayda nəzərdə tutulmayıbsa, borcverən hansı hallarda müəyyən müddətə verilmiş borcun (o cümlədən borcun vaxtından əvvəl tələb edildiyi günədək borcla bağlı borcverənə ödənilməli olan faiz və (və ya) digər ödənişlərin) vaxtından əvvəl qaytarılmasını tələb edə bilər?

- Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə borcverənə sonradan məlum olduqda) və ya borcalanın borcverənə hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

- borcun hissə-hissə qaytarılmasını və (və ya) faizlərin və (və ya) haqların hissə-hissə ödənilməsini nəzərdə tutan borc müqaviləsi üzrə vaxtı çatmış borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

- borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, borcverənin cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

- borcun təyinatı borc müqaviləsində göstərildiyi halda borcalan borcverənə borcun təyinatı üzrə istifadə edilməsinə müqavilədə nəzərdə tutulmuş qaydada nəzarət etməyə imkan vermədikdə və ya borc təyinatı üzrə istifadə olunmadıqda.

2629. Kredit müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Kredit müqaviləsinə görə borcverən pul vəsaitinə mülkiyyət hüququnu müqavilədə göstərilən məbləğdə və şərtlərlə borcalana verməyi, borcalan isə aldığı pul vəsa-

itini müqavilədə müəyyən edilmiş müddətə faizlərin və (və ya) müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə borcverənə qaytarmağı öhdəsinə götürür. Kredit müqaviləsi üzrə borcverən yalnız normativ hüquqi aktlara uyğun olaraq kreditlərin verilməsi fəaliyyətinin həyata keçirilməsi hüququna malik şəxs ola bilər (maddə 743).

2630. MM-in bu paraqrafının (kredit müqaviləsi) müddəalarından ayrı qayda irəli gəlmirsə, kredit müqaviləsinə hansı müddəalar müvafiq surətdə tətbiq edilir?

MM-in borc müqaviləsi haqqında müddəaları

2631. Azərbaycan Respublikasının adından borc alınması, habelə ixtisaslaşmış dövlət qurumlarının və Azərbaycan Respublikası Mərkəzi Bankının vəsaitləri hesabına, eləcə də lombardlar tərəfindən kreditlərin verilməsi hansı aktlarla tənzimlənir?

Müvafiq hüquqi aktlara uyğun olaraq həyata keçirilir. Kreditlərin verilməsi ilə bağlı həmin hüquqi aktlarla tənzimlənməyən məsələlər MM-ə uyğun olaraq tənzimlənir.

2632. Kredit müqaviləsi hansı formada bağlanılır?

Kredit müqaviləsi tərəflər arasında yazılı formada bağlanılır və kredit müqaviləsinin bir nüsxəsi borcalana verilir (maddə 744).

2633. Kredit müqaviləsində nələr göstərilməlidir?

- Borcverənin adı və ünvanı;
- borcalanın adı və ünvanı;
- kreditin məbləği və valyutası;
- kreditin qaytarılma müddəti və ödəniş şərtləri;
- kreditin təyinatı;
- kredit üzrə tətbiq edilən faizlərin illik dərəcəsi və (və ya) digər ödənişlərin məbləği, həmçinin faktiki illik faiz dərəcəsi (müqavilə üzrə dəyişən faiz dərəcəsi şərtləşdirildikdə, ilkin faktiki illik faiz dərəcəsi);
- tətbiq edildikdə, kredit üzrə faizlərin tutulmadığı müddət barədə aydın və dəqiq məlumat.

2634. Hansı hallar istisna olmaqla kredit müqaviləsi üzrə faktiki illik faiz dərəcəsi Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi qaydaya uyğun olaraq hesablanır?

MM-in 743.3-cü maddəsində nəzərdə tutulmuş hallar. Belə ki, Azərbaycan Respublikasının adından borc alınması, habelə ixtisaslaşmış dövlət qurumlarının və Azərbaycan Respublikası Mərkəzi Bankının vəsaitləri hesabına, eləcə də lombardlar tərəfindən kreditlərin verilməsi müvafiq hüquqi aktlara uyğun olaraq həyata keçirilir. Kreditlərin verilməsi ilə bağlı həmin hüquqi aktlarla tənzimlənməyən məsələlər bu Məcəlləyə uyğun olaraq tənzimlənir.

2635. MM-in 742.5.3-cü maddəsi (borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, borcverənin cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə ,məhv olduqda, xitam verildikdə və yaxud dəyəri azaldıqda o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda) kredit öhdəliyinin icrası təminatının itirilməsi və yaxud dəyərinin azalması hallarına hansı şərtlə tətbiq edilir?

Yalnız bu şərtlə tətbiq edilir ki, borcalan kredit müqaviləsində müəyyən edilmiş müddətdə təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun (maddə 745).

2636. Kredit müqaviləsi üzrə borcalan tərəfindən öhdəlik vaxtından əvvəl ödənilərsə, borcverən MM-ə uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün kompensasiya ödənilməsini hansı halda tələb edə bilər?

Yalnız kredit müqaviləsində nəzərdə tutulduqda

2637. MM-in 740.7-ci maddəsi (Borc müqaviləsi üzrə borcverənin borcalandan qəbul etdiyi hər hansı ödənişin borc üzrə sonrakı günlərin birində qəbul edilmiş ödəniş kimi hesab edilməsinin yolverilməzliyi) kredit müqavilələrindən irəli gələn münasibətlərə hansı şərtlə tətbiq edilir?

Bu şərtlə tətbiq edilir ki, ödəniş əməliyyat gününün (borcverənin ödənişlərin qəbulu üçün müəyyən etdiyi vaxt) sonuna kimi həyata keçirilmiş olsun.

2638. Borcverən tərəfindən kredit müqaviləsində daha qısa müddət müəyyən edilməmişdirsə, nə zaman edilən ödəniş növbəti iş günündən gec olmayaraq həyata keçirilən ödəniş hesab edilir?

Əməliyyat günü bitdikdən sonra ödəniş terminalı vasitəsilə və ya digər üsulla həyata keçirilən ödəniş.

2639. Borcverənin kredit müqaviləsindən irəli gələn tələbləri üzrə iddia müddəti neçə ildir?

Bir ildir.

2640. Kredit müqaviləsində ayrı hal nəzərdə tutulmayıbsa (daha yuxarı məbləğin müəyyənləşdirilməsi istisna olmaqla), kredit üzrə ödənişlərin gecikdirilməsinə görə faizlər (gecikdirilmə faizləri) hansı qaydada hesablanır?

Kredit müqaviləsində nəzərdə tutulan illik faiz dərəcəsinə pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edilmə günü üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi əlavə edilməklə. Bu maddədə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz.

2641. Əgər kredit üzrə ödənişlərin gecikdirilməsinə görə borcverənə dəyən zərər MM-in 745.5-ci maddəsinə əsasən (Kredit müqaviləsində ayrı hal nəzərdə tutulmayıbsa daha yuxarı məbləğin müəyyənləşdirilməsi istisna olmaqla, kredit üzrə ödənişlərin gecikdirilməsinə görə faizlər (gecikdirilmə faizləri) kredit müqaviləsində nəzərdə tutulan illik faiz dərəcəsinə pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edilmə günü üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi əlavə edilməklə hesablanır. Bu maddədə müəyyən edilən həddə gecikdirilmə faizləri tətbiq edildikdə, əlavə dəbbə pulu (cərimə, penya) və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz) ona çatası faizlərin məbləğindən çoxdursa, borcverən borcalandan həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi hansı qaydada tələb edə bilər?

Məhkəmə qaydasında və ya zərərin baş verdiyi tarixdən sonra borcalanla ayrıca razılıq əldə etməklə tələb edə bilər.

2642. İstehlak krediti müqaviləsinin mahiyyəti nədən ibarətdir?

İstehlak krediti müqaviləsinə görə borcverən sahibkarlıq və ya peşə fəaliyyəti ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxs olan borcalana (bundan sonra – istehlakçı) pul vəsaitini borc verməyi, istehlakçı isə aldığı borcu faizləri və (və ya) müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə qaytarmağı öhdəsinə götürür (maddə 746).

2643. MM-in bu paraqrafının(Krediti müqaviləsinin) müddəaları hansı müqavilələrə şamil edilmir?

- Daşınmaz əmlaka dair hüquqların əldə edilməsi ilə bağlı və ya daşınmaz əmlakın ipotekası ilə təmin edilən kredit müqavilələrinə;
- kredit müqaviləsinin bağlandığı anda məbləği ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqı məbləğindən aşağı və ya həmin məbləğin 300 (üç yüz) mislindən çox olan müqavilələrə;
- 90 (doxsan) gün müddətinədək bank hesabının kreditləşdirilməsinə;
- kredit ittifaqlarının öz üzvlərinə verdiyi kreditlər üzrə müqavilələrə;
- MM-in 743.1-ci maddəsinə (kredit müqaviləsinin anlayışı) uyğun olaraq kreditlərin verilməsi fəaliyyətini həyata keçirən borcverənin öz işçilərinə verdiyi kreditlər üzrə müqavilələrə;
- investisiya xidmətlərini həyata keçirən təşkilatlar tərəfindən qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə onların həyata keçirdiyi əqdlərin bağlanması üçün verilən kreditlər üzrə müqavilələrə;
- məhkəmə və ya mediasiya vasitəsilə bağlanan barışıq sazişinə əsasən bağlanmış kredit müqavilələrinə;
- kredit borcunun və digər ödənişlərin yeni müddətə ödənilməsini nəzərdə tutan və faizsiz müəyyən edilən restrukturizasiya müqavilələrinə;
- öhdəliyin icrası borcverənin sahibliyinə verilən əşya ilə təmin edilən və istehlakçının öhdəliyinin yalnız həmin əşya ilə məhdudlaşmasını nəzərdə tutan kreditlər üzrə müqavilələrə.

2644. MM-in bu paraqrafının(Krediti müqaviləsinin) müddəalarından ayrı qayda irəli gəlmirsə istehlak krediti müqaviləsinə müvafiq surətdə hansı müddəalar tətbiq edilir?

MM-in borc müqaviləsi və kredit müqaviləsi haqqında müddəaları

§ 3. İstehlak krediti müqaviləsi

2645. İstehlak krediti müqaviləsinin bağlanılmasından əvvəl borcverən nələr barədə məlumatları kağız və ya digər davamlı daşıyıcıda (məlumatın məqsədlərinə uyğun müddət ərzində saxlanılmasına imkan verən və saxlanılan məlumatın dəyişiklik olmadan əks etdirilməsi mümkün olan istənilən vasitə) istehlakçıya təqdim etməlidir?

- Kreditin növünü;
- borcverənin adını və ünvanını;
- kreditin məbləğini və valyutasını;
- kreditin qaytarılma müddətini və ödəniş şərtlərini;
- kredit müəyyən malın alınması və ya xidmətin göstərilməsi ilə əlaqədar olaraq

əlaqəli kredit müqaviləsi vasitəsilə verildikdə, həmin mal və ya xidmət və onun nağd qiymətini (malın və ya xidmətin alınması zamanı birdəfəlik ödəniş edildikdə);

- kredit üzrə tətbiq edilən faizlərin illik dərəcəsini və (və ya) digər ödənişlərin məbləğini və onların tətbiq edilmə şərtlərini, həmçinin faktiki illik faiz dərəcəsini;

- tətbiq edildikdə, kredit üzrə faizlərin tutulmadığı müddət barədə aydın və dəqiq məlumatı;

- istehlakçı tərəfindən edilməli olan ödənişlərin məbləğini, sayı və dövriliyini, habelə yetərli miqdarda olmayan və ya artıq miqdarda edilən ödənişlərin öhdəliyin icrasından silinmə ardıcıllığını;

- tətbiq edildikdə (hesabın açılması zəruri olmayan hallar istisna olmaqla), ödəniş və nağdlaşdırma əməliyyatlarının qeydiyyatını aparan bir və ya bir neçə hesabın saxlanma xərcləri, o cümlədən ödəniş və nağdlaşdırma əməliyyatları üçün ödəniş vasitələrindən istifadə xərcləri, kredit müqaviləsindən irəli gələn digər xərclər və bu xərclərin dəyişdirilmə şərtləri;

- tətbiq edildikdə, kredit müqaviləsinin bağlanılması ilə bağlı istehlakçı tərəfindən ödənilməli olan notarial xərclərin mövcudluğunu;

- kreditin alınması üçün əlavə xidmət müqaviləsinin, o cümlədən sığorta müqaviləsinin bağlanılması məcburi olduğu hallarda istehlakçının istehlak krediti müqaviləsi ilə bağlı belə müqaviləni bağlamaq vəzifəsini;

- istehlakçının ödənişlərini vaxtında etməməsinin hüquqi nəticələri;

- tətbiq edildikdə, gecikmiş ödəmələrə tətbiq edilən zaman ödənilməli olan dəbbə pulunu;

- tətbiq edildikdə, kreditin verilməsi üçün tələb olunan təminatları;

- istehlakçının istehlak krediti müqaviləsindən imtina hüququnu, belə bir hüququn həyata keçirildiyi müddəti və şərtlərini;

- istehlakçının istehlak kreditini vaxtından əvvəl ödəmək hüququnu və tətbiq edildikdə, borcverənin kompensasiya hüququnu, kompensasiyanın məbləğini və müəyyən edilməsi qaydasını;

- tətbiq edildikdə, borcverənin bu Məcəllənin 742.5-ci maddəsində göstərilən borcun (müəyyən müddətə verilmiş borcun) vaxtından əvvəl qaytarılmasını tələb edə bildiyi hallarını;

- ödəmə qabiliyyətinin qiymətləndirilməsi məqsədilə kredit bürolarından alınmış məlumatlar əsasında istehlakçıya kredit verilməsindən imtina edildikdə, bu barədə istehlakçının ödənişsiz olaraq məlumat almaq hüququnu;

- istehlakçının müraciəti əsasında müqavilə layihəsinin surətini borcverəndən ödənişsiz almaq hüququnu;

- borcverənin verdiyi məlumatların qüvvədə olduğu müddəti (maddə 746-1).

2646. MM-in 746-1.1-ci maddəsində göstərilən məlumatlar (İstehlak krediti müqaviləsinin bağlanılmasından əvvəl borcverənin istehlakçıya təqdim etməli olduğu məlumatlar: kreditin növü, borcverənin adı və ünvanı, kreditin məbləği və valyutası və s.) standart məlumatlandırma formasında əks etdirilir. Standart məlumatlandırma forması hansı qaydada təsdiq edilir?

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfində

2647. Məsafəli istehlak krediti müqaviləsinin bağlanması üçün rabitə vasitəsi kimi səsli rabitə vasitəsi (telefon zəngi, videozəng və s.) istifadə edildikdə, borcverən zəngin əvvəlində hansı məlumatları istehlakçıya təqdim edir?

- Borcverənin adı və zəngin məqsədini;
- istehlakçı ilə əlaqə saxlayan şəxsin adını, soyadını və borcverənlə əlaqəsini;
- təklif olunan xidmətin istehlak krediti olmasını;
- təklif olunan istehlak kreditinin məbləğini, kredit üzrə ödənilən faizlərin illik dərəcəsini və faktiki illik faiz dərəcəsini;
- təklif olunan istehlak krediti ilə bağlı istehlakçının üzərinə düşəcək əlavə xərclərinin ola biləcəyi barədə qeydlərini;
- istehlakçının istehlak krediti müqaviləsindən imtina hüququnu, belə bir hüququn həyata keçirildiyi müddəti və şərtlərini;
- borcverənin verdiyi məlumatların qüvvədə olduğu müddəti.

2648. İstehlakçı MM-in 746-1.1.18-ci maddəsində (istehlakçı tərəfindən edilməli olan ödənişlərin məbləği, sayı və dövriliyi, habelə yetərli miqdarda olmayan və ya artıq miqdarda edilən ödənişlərin öhdəliyin icrasından silinmə ardıcıllığı) göstərilən hüququndan istifadə edərək borcverənə müraciət edərsə, borcverən müvafiq məlumatı istehlakçıya hansı müddətdə yazılı şəkildə təqdim etməlidir?
Növbəti iş günündən gec olmayaraq

2649. İstehlak krediti müqaviləsi hansı formada tərtib edilir?
Yazılı formada kağız və ya digər davamlı daşıyıcıda

2650. İstehlak krediti müqaviləsində nələr aydın və dəqiq şəkildə göstərilir:
- Kreditin növü;
- tərəflərin adı və ünvanı;
- kreditin məbləği və valyutası;
- kreditin qaytarılma müddəti və ödəniş şərtləri;
- kredit müəyyən malın alınması və ya xidmətin göstərilməsi ilə əlaqədar olaraq əlaqəli kredit müqaviləsi vasitəsilə verildikdə, həmin mal və ya xidmət və onun nağd qiyməti (malın və ya xidmətin alınması zamanı birdəfəlik ödəniş edildikdə);
- kredit üzrə tətbiq edilən faizlərin illik dərəcəsi və (və ya) digər ödənişlərin məbləği və onların tətbiq edilmə şərtləri, həmçinin faktiki illik faiz dərəcəsi və onun hesablanmasına daxil edilən bütün ödənişlər;
- tətbiq edildikdə, kredit üzrə faizlərin tutulmadığı müddət barədə aydın və dəqiq məlumat;
- istehlakçı tərəfindən edilməli olan ödənişlərin məbləği, sayı və dövriliyi, habelə yetərli miqdarda olmayan və ya artıq miqdarda edilən ödənişlərin öhdəliyin icrasından silinmə ardıcıllığı;
- tətbiq edildikdə (hesabın açılması zəruri olmayan hallar istisna olmaqla), ödəniş və nağdlaşdırma əməliyyatlarının qeydiyyatını aparan bir və ya bir neçə hesabın saxlanma xərcləri, o cümlədən ödəniş və nağdlaşdırma əməliyyatları üçün ödəniş vasitələrindən istifadə xərcləri, kredit müqaviləsindən irəli gələn digər xərclər və bu xərclərin dəyişdirilmə şərtləri;
- tətbiq edildikdə, kredit müqaviləsinin bağlanılması ilə bağlı istehlakçı tərəfindən ödənilməli olan notarial xərclər;
- istehlakçının ödənişlərini vaxtında etməməsinin hüquqi nəticələri;
- Tətbiq edildikdə, gecikmiş ödəmələrə tətbiq edilən zaman ödənilməli olan dəbbə pulu (gecikdirilmə faizləri);
- tətbiq edildikdə, kredit öhdəliyinin icrasının təminatına dair şərtlər və sığortatələbləri haqqında məlumatlar;

- istehlakçının istehlak krediti müqaviləsindən imtina hüququ, belə bir hüququn həyata keçirildiyi müddət və şərtlər;

- istehlakçının istehlak kreditini vaxtından əvvəl ödəmək hüququ və tətbiq edildikdə, borcverənin kompensasiya hüququ, kompensasiyanın məbləği və müəyyən edilməsi qaydası;

- tətbiq edildikdə, borcverənin MM-in 742.5-ci maddəsində göstərilən borcun (müəyyən müddətə verilmiş borcun) vaxtından əvvəl qaytarılmasını tələb edə bildiyi hallar;

- istehlakçının müqavilə müddətində sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə (müqavilədə daha əlverişli hal nəzərdə tutulmadıqda), digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə etmək hüququ (ödəniş qrafikində həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilir);

- mübahisələrə məhkəmədənkənar qaydada baxılması imkanlarının olub-olmaması, olduqda onun qaydası;

- tətbiq edildikdə, digər müqavilə şərtləri;

- Mərkəzi Bankın adı və ünvanı.

2651. İstehlak krediti müqaviləsi üzrə dəyişən faiz dərəcəsinin tətbiq edilməsi və faizlərin və digər ödənişlərin artırıla bilməsi imkanının şərtləndirilməsi hansı qaydada həyata keçirilir?

Yolverilməzdir.

2652. Bank hesabının kreditləşdirilməsi hallarında borcverən istehlakçını vaxtaşırı olaraq kağız və ya digər davamlı daşıyıcıda hesabdan çıxarış vasitəsilə nələr barədə məlumatlandırır?

- Hesabdan çıxarışın aid olduğu dövr;
- kreditləşdirilmənin tarixləri və məbləğləri;
- əvvəlki çıxarış üzrə balans və onun tarixi;
- cari çıxarış tarixinə yeni balans;
- istehlakçı tərəfindən edilmiş ödənişlərin məbləğləri və tarixləri;
- müqavilə üzrə faiz dərəcəsi;
- tətbiq edilən istənilən xərclər və digər haqlar;
- tətbiq edildikdə, ödənilməli olan minimum məbləğ.

2653. İstehlak krediti müqaviləsi məsafədən bağlana bilərmi?

Bağlanıldığı an da daxil olmaqla həmin ana qədər məsafədən bir və ya bir neçə rabitə vasitəsinin istifadə edilməsi yolu ilə borcverən və istehlakçının eyni zamanda birgə fiziki iştirakı olmadan MM-in 406.3-cü maddəsinə uyğun olaraq (yazılı formada olan müqavilənin bağlanma qaydası) bağlana bilər.

2654. İstehlak krediti müqaviləsinin məsafədən bağlanılmasına dair digər tələblər hansı qaydada müəyyən edilir?

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən

2655. İstehlakçı kredit müqaviləsindən hansı qaydada imtina edə bilər?

İstehlak krediti müqaviləsi üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində heç bir səbəb göstərmədən istehlak krediti müqaviləsindən imtina edə bilər.

Bu halda, istehlakçı müqavilə üzrə verilmiş pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Borcverən tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləği istisna olmaqla, istehlakçıdan kompensasiya və hər hansı digər ödənişlərin alınması yolverilməzdir (maddə 746-3).

2656. İstehlakçı MM-in 746-3.1-ci maddəsində nəzərdə tutulmuş hüququndan (səbəb göstərmədən kredit müqaviləsindən imtina etmək hüququ) istifadə etdikdə, istehlak krediti müqaviləsi ilə bağlı borcverənlə və ya borcverənlə bağladığı müqavilə əsasında xidmət göstərən üçüncü şəxslə bağlanmış əlavə xidmət müqavilələri ilə bağlı hansı hüquqi nəticə yaranır?

Xitam verilir və istehlakçı həmin müqavilələr üzrə hər hansı öhdəlik daşımır.

2657. İstehlakçı istehlak kreditini hansı müddətdə qaytara bilər?

İstənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən borcverənə qaytara bilər. Bu halda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır (maddə 746-4).

2658. Borcverən istehlak krediti müqaviləsinin vaxtından əvvəl icrası zamanı MM-ə uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün istehlakçıdan nəyi tələb edə bilər?

MM-in 746-4-cü maddəsinin (İstehlak krediti müqaviləsinin vaxtından əvvəl icrası) tələbləri nəzərə alınmaqla, müqavilə ilə müəyyənləşdirilmiş kompensasiya məbləğini tələb edə bilər.

2659. MM-in 746-4.2-ci maddəsində göstərilən kompensasiyanın (istehlak krediti müqaviləsinin vaxtından əvvəl icrası zamanı qanunvericiliyə uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün istehlakçıdan tələb edilən müqavilə ilə müəyyənləşdirilmiş kompensasiya) məbləği nə qədər olmalıdır?

Müqavilə müddətinin bitməsinə bir ildən çox müddət qaldıqda, istehlak krediti üzrə vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizindən, bir il və daha az müddət qaldıqda isə 0,5 faizindən çox olmamalıdır.

2660. Kompensasiya məbləği hansı hallarda tələb edilə bilməz?

- Vaxtından əvvəl ödəniş həmin müqavilə üzrə bağlanan sığorta müqaviləsinin əsasında həyata keçirildikdə;
- bank hesabının kreditləşdirilməsi halında.

2661. İstehlakçı tərəfindən son on iki ay ərzində istehlak krediti üzrə vaxtından əvvəl ödənilmiş məbləğ ölkə üzrə müəyyən edilmiş minimum əməkhaqqı məbləğinin qırx mislindən çox olarsa, borcverən hansı hüquqa malikdir?

Ona belə ödəmələr zamanı dəymiş zərəri məhkəmə qaydasında və ya zərərin baş verdiyi tarixdən sonra istehlakçıyla ayrıca razılıq əldə etməklə sübut etmək şərtilə MM-in 746-4.3-cü maddəsində göstərilmiş kompensasiya məbləğlərindən (müqavilə müddətinin bitməsinə bir ildən çox müddət qaldıqda, istehlak krediti üzrə vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizindən, bir il və daha az müddət qaldıqda isə 0,5 faizindən çox olmayan) daha yüksək (dəymiş zərərə mütənasib) kompensasiya tələb edə bilər. Bu halda, borcverənə dəymiş zərər qaytarılan kreditin kredit müqaviləsində

nəzərdə tutulan faiz dərəcəsi ilə vaxtından əvvəl ödənilmə anında borcverənin borc verdiyi eyni təyinatlı kreditin faiz dərəcəsi arasındakı fərqdən ibarətdir.

2662. Kompensasiya məbləği hər bir halda hansı məbləğdən çox ola bilməz?

İstehlak kreditinin istehlakçı tərəfindən vaxtından əvvəl ödənilməsi anı ilə müqavilənin müddətinin başa çatması anı arasındakı müddətdə ödənilməli olan illik faiz dərəcəsi üzrə hesablanmış faiz məbləğlərindən çox ola bilməz.

2663. İstehlak krediti müqaviləsi üzrə nələr üçün haqq alına bilməz?

İstehlakçının borcverənə hər hansı ödənişinə MM-in 746-3-cü (İstehlakçının istehlak krediti müqaviləsindən imtina hüququ) və 746-4-cü (İstehlak krediti müqaviləsinin vaxtından əvvəl icrası) maddələrində nəzərdə tutulan hallar istisna olmaqla), habelə borcverənin istehlakçıya məlumat verməsinə görə MM-in 746-2.2.17-ci maddəsinin tələbləri nəzərə alınmaqla haqq alına bilməz (maddə 746-5).

2664. İstehlak krediti müqaviləsində ödənişlərin gecikdirilməsinə görə faizlər (gecikdirilmə faizləri) nəzərdə tutulduqda, həmin faizlərin məbləği hansı məbləğdən çox ola bilməz?

İstehlak krediti müqaviləsində nəzərdə tutulan illik faiz dərəcəsinə beş faiz bəndi əlavə edilməklə hesablanan məbləğdən çox ola bilməz. Bu halda əlavə dəbbə pulu (cərimə, penya), komissiya və ya digər formada hər hansı ödəniş tələb edilə bilməz.

2665. Gecikdirilmə faizlərinin hesablanması neçə gündən çox davam edə bilməz?

180 gündən çox davam edə bilməz. Əgər borcverənə dəyən zərər gecikdirilmə faizlərinin məbləğindən çoxdursa, borcverən istehlakçıdan həmin məbləğdən çox olan hissədə zərərin əvəzini ödəməyi tələb edə bilər.

2666. MM-in 742.5.3-cü maddəsi (borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, borcverənin cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə, məhv olduqda, xitam verildikdə və s. və yaxud dəyəri azaldıqda o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda) istehlak krediti öhdəliyinin icrasının təminatının itirilməsi və yaxud dəyərinin azalması hallarına hansı şərtlə tətbiq edilir?

Yalnız bu şərtlə tətbiq edilir ki, istehlakçı borcverən tərəfindən tələb irəli sürüldükdən sonra iki ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun.

2667. İstehlak krediti müqaviləsinin bütün ziddiyyətləri və qeyri-müəyyənlikləri kimin xeyrinə şərh edilməlidir?

İstehlakçının xeyrinə şərh edilməlidir.

2668. Borcverənin istehlak krediti müqaviləsinin hər hansı şərtini birtərəfli qaydada dəyişdirə bilməsi barədə kredit müqaviləsinin müddəası hansı statusa malikdir?

Etibarsızdır. Bu tələb istehlakçının vəziyyətini yaxşılaşdıran, o cümlədən borc yükünü yüngülləşdirən hallara şamil edilmir.

2669. Müəyyən malların alqı-satqısı və ya xidmətlərin göstərilməsi üzrə müqavilənin maliyyələşdirilməsi üçün bağlanan və həmin müqavilə ilə iqtisadi əlaqəsi olan istehlak krediti müqaviləsi əlaqəli kredit müqaviləsi hesab olunur. İqtisadi əlaqə hansı hallardan birinin mövcudluğu ilə şərtləndirilir?

- Kredit müqaviləsinin hazırlanması və bağlanması ilə əlaqədar olaraq borcverən satıcının (xidmət göstərənin) xidmətlərindən istifadə edir;
- müəyyən malın alqı-satqısı (xidmətin göstərilməsi) kredit müqaviləsində aşkar göstərilir (maddə 746-6).

2670. Əlaqəli kredit müqaviləsi ilə əhatə olunan mallar istehlakçıya verilmədikdə (xidmətlər göstərilmədikdə), qismən verildikdə (xidmətlər qismən göstərildikdə), yaxud alqı-satqı (xidmət) müqaviləsinə uyğun olmadıqda, istehlakçının hansı hüququ vardır?

Əlaqəli kredit müqaviləsindən yaranan öhdəliklərinin icrasını dayandırmaq və ödənişlərin geri qaytarılmasını borcverəndən tələb etmək hüququ vardır.

2671. İstehlakçı MM-in 746-6.2-ci maddəsində göstərilən hüquqlarını (Əlaqəli kredit müqaviləsi ilə əhatə olunan mallar istehlakçıya verilmədikdə (xidmətlər göstərilmədikdə), qismən verildikdə (xidmətlər qismən göstərildikdə), yaxud alqı-satqı (xidmət) müqaviləsinə uyğun olmadıqda, istehlakçının əlaqəli kredit müqaviləsindən yaranan öhdəliklərinin icrasını dayandırmaq və ödənişlərin geri qaytarılmasını borcverəndən tələb etmək hüququ) yalnız hansı hallarda həyata keçirə bilər?

- İstehlakçı alqı-satqı (xidmət) müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə dair satıcıya (xidmət göstərənə) müraciət etmişdir və bu müraciət tarixindən sonra bir ay müddətində müvafiq alqı-satqı (xidmət) müqaviləsinin şərtləri yerinə yetirilməmişdir;
- alqı-satqı müqaviləsi malların lazımi keyfiyyətdə olmaması səbəbindən ləğv edildiyi halda, bu şərtlə ki, istehlakçı borcverənə malların lazımi keyfiyyətdə olmaması barədə müraciət etmişdir;
- alqı-satqı (xidmət) müqaviləsinə satıcı (xidmət göstərən) tərəfindən malların verilməməsi (xidmətlərin göstərilməməsi) səbəbindən xitam verilməsi halları istisna olmaqla, istehlakçı ləğv edilmiş alqı-satqı (xidmət) müqaviləsi əsasında aldıqlarını qaytarmışdır.

2672. İstehlakçı MM-in 746-6.3-cü maddəsində göstərilən halların (İstehlakçının hüquqlarını həyata keçirə bilməsi üçün əsaslar) baş verməsi ilə bağlı borcverənə müraciət etdikdə, borcverən hansı müddətdə istehlakçıya ödənişləri geri qaytarır və satıcıdan (xidmət göstərəndən) istehlakçıya geri qaytarılmış ödənişləri və digər xərcləri tələb etmək hüququnu əldə edir?

10 (on) iş günü ərzində

2673. MM-in 746-6-cı maddəsində (Əlaqəli kredit müqaviləsi) xidmətlərin göstərilməsi üzrə müddəalar həmçinin hansı münasibətlərə şamil edilir?

İşlərin görülməsi üzrə münasibətlərə

38-ci FƏSİL
Lizinq müqaviləsi çərçivəsində yaranan münasibətləri əhatə edən suallar və cavablar

2674. Lizinq müqaviləsinin subyektləri kimlərdir?

Lizinq müqaviləsinin subyektləri lizinq verən, lizinq alan və satıcıdır (mal verəndir) (maddə 747-1)

2675. Lizinqin obyektinə nələr aiddir?

Lizinqin obyekti Azərbaycan Respublikasının qanunlarına əsasən sərbəst mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla, qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınar və ya daşınmaz əşyalardır (maddə 747-2).

2676. Lizinqin əsas formalarına nələr daxildir?

Lizinqin MM ilə tənzimlənən əsas formalarına daxili və beynəlxalq lizinq aiddir (maddə 747-3).

2677. Əşya sublizinqə verildikdə satıcıya qarşı tələb hüququ kimə keçir?

Əşya sublizinqə verildikdə satıcıya qarşı tələb hüququ sublizinq müqaviləsi üzrə lizinq alana keçir (maddə 747-4).

2678. Lizinq əməliyyatları hüquqi formasına görə hansı növ müqaviləyə uyğundur?

Lizinq əməliyyatlarının hüquqi forması ya lizinq verənlə lizinq alan arasında bağlanmış lizinq müqaviləsi və lizinq verənlə satıcı arasında bağlanılmış alqı-satqı müqaviləsidir, ya da həmin şəxslər arasında lizinqlə bağlı Mülki Məcəllənin müddəalarına uyğun olaraq müvafiq surətdə bağlanılmış üçtərəfli müqavilədir (maddə 747-5).

2679. Lizinq obyektinə təminatlı xidmət kimin tərəfindən həyata keçirilir?

Əgər bu alqı-satqı müqaviləsində nəzərdə tutulubsa, satıcı tərəfindən həyata keçirilir (maddə 748-1.6).

2680. Lizinq obyekti olan əmlakın əsaslı təmiri kimin tərəfindən aparılır?

Əgər lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq verən tərəfindən (maddə 748-1.7).

2681. Maliyyə lizinqi zamanı lizinq obyektinə mülkiyyət hüququ nə zaman keçir?

Əgər maliyyə lizinqi müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bütün lizinq ödənişlərinin verilməsi şərti ilə müqavilə müddəti başa çatmazdan əvvəl lizinq alana keçir (maddə 748-2).

2682. Maliyyə lizinqi əsasında lizinq alana verilmiş lizinq obyekti kimin balansında uçota alınmalıdır?

Tərəflərin qarşılıqlı razılığı əsasında lizinq verənin və ya lizinq alanın balansında uçota alınmalıdır (maddə 748-3).

2683. Lizinq obyektinin lizinq müqaviləsinə əsasən istifadə məqsədlərinə uyğunsuzluğu ilə bağlı riskin məsuliyyətini kim daşıyır?

Lizinq müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, lizinq obyektini seçən tərəf daşıyır (maddə 748-7).

2684. Lizinq verən lizinq alan qarşısında hansı hallarda məsuliyyət daşıyır?

Kirayə müqaviləsinin qaydalarına uyğun olaraq lizinq verən əmlakı göndərməyi gecikdirməyə və ya göndərməməyə, habelə qüsurlu əmlak göndərməyə görə lizinq alan qarşısında məsuliyyət daşıyır (maddə 749).

2685. Lizinq alanın təqsiri üzündən müqaviləyə vaxtından əvvəl xitam verildikdə lizinq verən lizinq alana qarşı hansı tələblər irəli sürə bilər və həmin tələblər müəyyənləşdirilərkən nələr nəzərə alınmalıdır?

lizinq alanın təqsiri üzündən müqaviləyə vaxtından əvvəl xitam verildikdə lizinq verən icra ilə bağlı öz mənafelərinə aid olmayan tələbləri irəli sürə bilməz. Tələblər müəyyənləşdirilərkən lizinq əmlakının qalıq dəyəri, lizinq muzdu üzrə faizlərin qalığı və qənaət edilmiş digər xərclər nəzərə alınır (maddə 750).

2686. Hansı halda lizinq verən icra ilə bağlı öz mənafelərinə aid olmayan tələbləri irəli sürə bilməz? Tələblər müəyyənləşdirilərkən nələr nəzərə alınır?

Lizinq alanın təqsiri üzündən müqaviləyə vaxtından əvvəl xitam verildikdə və lizinq əmlakının qalıq dəyəri, lizinq muzdu üzrə faizlərin qalığı və qənaət edilmiş digər xərclər nəzərə alınır (maddə 750)

2687. Lizinqə tətbiq edilən digər qaydalar nə ilə tənzimlənir?

Əmlak kirayəsi müqaviləsinin lizinqə zidd olmayan qaydaları ilə (maddə 751)

39-cu FƏSİL
Podrat münasibətlərinin hüquqi tənzimlənməsinə dair suallar və cavablar

2688. Əgər podratda hər hansı məmulatın hazırlanması nəzərdə tutularsa və podratçı onu özünün əldə etdiyi materiallardan hazırlayarsa, hazırlanmış məmulata mülkiyyəti sifarişçiyə verir. Əgər əvəz edilən əşya hazırlanmışdırsa nə baş verir? Hansı halda podratla bağlı smetanın tərtibi ödənilmir?

Alqı-satqı qaydaları tətbiq edilir və əgər razılaşmada ayrı qayda müəyyənləşdirilməyibsə (maddə 752)

2689. Hansı halda dəyərin artması və ya azalması nəzərə alınmaqla yeni qiymət razılaşdırılmalıdır?

Əgər müqavilədə nəzərdə tutulan iş həcminin yerinə yetirilməsi üçün muzdun əsasları müqavilə bağlandıqdan sonra sifarişçinin sərəncamları əsasında dəyişmişdirsə (maddə 753)

2690. Əgər podratçı təqribi smetadan əhəmiyyətli dərəcədə kənara çıxarsa nə baş verir?

O yalnız razılaşdırılmış muzdun verilməsini tələb edə bilər, amma artıq xərci qabaqcadan nəzərdə tutmağın mümkün olmadığı hallar istisna təşkil edir (maddə 754)

2691. Podratçı işi şəxsən yerinə yetirməyə hansı hallarda borcludur?

Yalnız bunun müqavilədən, yaxud konkret hallardan və ya işin xarakterindən irəli gəldiyi hallarda (maddə 755)

2692. Əgər sifarişçi yerinə yetirilmiş işi qəbul etməzsə, podratçı yerinə yetirilməmiş işin haqqını və zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Bəs bu halda zərərin əvəzinin ödənilməsi miqdarı necə müəyyənləşdirilir?

Bir tərəfdən gecikdirmənin müddətindən və muzdun miqdarından asılı olaraq, digər tərəfdən isə, əgər sifarişçi müddəti pozmasaydı, podratçının öz iş qüvvəsindən başqa şəkildə istifadə etməsi nəticəsində ala biləcəyindən asılı olaraq (maddə 756)

2693. Əgər podratçının hazırladığı və ya təmir etdiyi sifarişçiyə məxsus daşınar əşya hazırlanma və ya təmir məqsədilə onun sahibliyindədirsə, podratçı hansı məqsədlə o əşyaya girov hüququndan istifadə edə bilər?

Öz tələblərinin təminatı üçün (maddə 757)

2694. Podratçı müqavilədən irəli gələn tələblərinə əsaslanaraq, binanın ucaldıldığı sifarişçiyə məxsus torpaq sahəsinə hansı halda ipoteka tələb edə bilər?

Əgər müqavilənin predmeti bina və ya onun ayrı-ayrı hissələridirsə (maddə 758)

2695. Əgər sifarişçi tərəfindən müqaviləyə bilavasitə podratçının hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verilərsə, podratçı nəyi tələb edə bilər?

Yalnız yerinə yetirilmiş işin haqqını tələb edə bilər, bu şərtlə ki, sifarişçinin həmin işlərə hansısa marağı olsun (maddə 759).

2696. Əgər podratçı tərəfindən müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri nəticəsində baş verməyən və ya həmin hərəkətlərlə bağlı olmayan səbəbə görə xitam verilirsə, podratçı işlər qurtaranadək müqaviləyə elə tərzdə xitam verməlidir ki, sifarişçi işləri başqa şəkildə və bərabər və ya daha əlverişli şərtlərlə ala bilsin. Bu zaman podratçı yerinə yetirilmiş işin haqqının ödənilməsini hansı şərt daxilində tələb edə bilər?

Bu şərtlə ki, sifarişçinin əvvəl görülmüş işlərə hansısa marağı olsun (maddə 760)

2697. Podratın nəticəsi hansı halda qüsurlardan azad sayılır?

Şərtləşdirilmiş keyfiyyətə uyğun gəlirsə (maddə 762)

2698. Podratçının sifariş edilmiş podrat nəticəsini deyil, başqa podrat nəticəsini təqdim etməsi və ya podratı kəmiyyətcə yerinə yetirməməsi, əgər bunu icra əvəzinə qəbul etmək açıq-aşkar mümkün deyildirsə, nəyə bərabər tutulur?

Qüsurlara bərabər tutulur.

2699. Əgər məmulatın qüsuru vardırsa, sifarişçi əlavə icra tələb edə bilər. Bəs bu halda podratçının hansı seçimi var?

O öz seçimi ilə ya qüsuru aradan qaldıra bilər, ya da yeni məmulat hazırlaya bilər (maddə 763).

2700. Əgər podratçı xərclərin tənasübsüzlüyünə baxmayaraq, əlavə icradan imtina etməzsə, lakin əlavə icra üçün müəyyənləşdirilmiş müddət nəticəsiz qurtararsa, sifarişçi nə tələb edə bilər?

Qüsuru özü aradan qaldırıb çəkdiyi xərclərin əvəzini ödəməyi tələb edə bilər (maddə 764).

2701. Məmulatın qüsuru nəticəsində, əgər müqavilənin əlavə icrası üçün müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra həmin qüsur tamamilə aradan qaldırılmazsa, sifarişçi müqavilədən imtina edə bilər. Bu halda podratçı nəyə borcludur?

Müqavilə ilə bağlı xərclərin əvəzini sifarişçiyə ödəməyə (maddə 765)

2702. Sifarişçi müqavilənin əlavə icrası üçün müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra əlavə icranı qəbul etmədikdə və müqavilədən imtina etdiyini bildirmədikdə muzdun miqdarını nə qədər azalda bilər?

Qüsur məmulatın dəyərini nə qədər azaldırsa, o qədər (maddə 766)

2703. Podratçı sifarişçinin materiallarından yanlış istifadə üçün məsuliyyət daşıyır. Podratçı materialların işlədilməsi haqqında sifarişçiyə hesabat verməyə və qalan materialı ona qaytarmağa borcludur. Bəs podratçı işi öz materialları ilə icra edirsə, nə üçün məsuliyyət daşıyır?

Keyfiyyətsiz materiallar üçün (maddə 767).

2704. Podratçı hansı hallarda sifarişçini vaxtında xəbərdar etməyə borcludur?

- Sifarişçidən alınmış material keyfiyyətsiz və yararsız olduqda;
- sifarişçinin göstərişinin icra ediləcəyi təqdirdə məmulatın davamsız və ya yararsız olacağı halda;

- podratçıdan asılı olmayan, məmulatın möhkəmliyi və yararlılığı üçün təhlükə törədən hər hansı başqa hallar olduqda (maddə 768).

2705. Əgər müqavilədə muzdun hissə-hissə ödənilməsi nəzərdə tutulmursa, sifarişçi podratçının muzdunu nə zaman ödəməlidir?

İş yerinə yetirildikdən sonra (maddə 769)

2706. Əgər müqaviləyə görə və ya işin xarakterinə əsasən iş qəbul edilməyirsə, sifarişçi yerinə yetirilmiş işi qəbul etməyə borcludur. İşi qəbul etdikdə sifarişçi muzd ödəməlidir. Əgər sifarişçi işi podratçının müəyyənləşdirdiyi müddətdə qəbul etmirsə, nə baş verir?

İş qəbul edilmiş sayılır (maddə 770).

2707. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payların özgəninkiləşdirilməsi zamanı yaranan podrat münasibətlərində alış qiymətinin (muzdun) ödənilməsi hansı şərtlər mövcud olduqda tələb edilə bilər?

- Müvafiq müqavilə notarial qaydada təsdiq edilmişdirsə;
- daşınmaz əmlakın dövlət reyestrində binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar barədə əldə edənin xeyrinə təminat qeydi aparılmışdırsa (maddə 770-1).

2708. Podratçı hansı halda həmin sifarişçinin əmlakının məhv olması və ya zədələnməsi üçün məsuliyyət daşıyır?

Diqqətsizlik üzündən olduqda (maddə 771)

2709. Görülmüş işin təsadüfən məhv olması və ya zədələnməsi riski nə vaxtadək podratçının üzərinə düşür?

İcranın sifarişçiyə verildiyi vaxtadək (maddə 772)

2710. Əgər sifarişçi məmulatın qüsurlu olduğunu bilə-bilə pretenziya irəli sürmədən onu qəbul edirsə, nə baş verir?

Bu qüsurlarla bağlı tələb hüququ əmələ gəlmir (maddə 773)

2711.Hansı halda qarantiyanın qüvvədə olduğu müddətdə aşkar edilən qüsur müvafiq hüquqlar doğurur?

Əgər podratçı məmulata qarantiya müddəti üzrə öhdəlik götürmüşdürsə (maddə 774)

2712. Hansı halda podratçı sifarişçinin məmulatın qüsuru ilə bağlı hüquqlarını istisna edən və ya məhdudlaşdıran razılaşmaya istinad edə bilməz?

Əgər qüsuru bilərəkdən gizlədərsə (maddə 775)

2713. Sifarişçi icranın qüsuru barəsində tələbi və binaya aid tələbi hansı müddətdə irəli sürə bilər?

Müvafiq olaraq icranın qüsuru barəsində tələbi işin qəbul edildiyi gündən bir il ərzində və binaya aid tələbi isə beş il ərzində (maddə 776)

40-cı FƏSİL
Tapşırıq müqaviləsi kontekstində yaranan suallar və cavablar

2714. Tapşırıq müqaviləsinə görə, tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri hansı şərtlə icra etməyi öhdəsinə götürür?

Konkret nəticə əldə olunmasına təminat vermədən (maddə 777)

2715. Əgər vəkalət verən tapşırılmış əqdin icrası üçün hansısa göstərişlər vermişdirsə, vəkalət alan bu göstərişlərdən yalnız o halda kənara çıxa bilər ki, işin hallarına görə buna müvafiq icazə ala bilməsin və bundan əlavə, vəkalət verənin işin vəziyyətini bilsəydi, tapşırıqdan bu cür kənaraçıxmaya icazə verə biləcəyini ehtimal etmək üçün əsaslar olsun. Əgər bu cür əsaslar olmadan vəkalət alan vəkalət verənin ziyanına onun göstərişlərindən kənara çıxmışdırsa, onun hansı öhdəliyi var?

O, vurulmuş zərərin əvəzini ödəməlidir (maddə 778).

2716. Əvəzsiz tapşırıq müqaviləsi üzrə vəkalət alan hansı halda vəkalət verənə dəyən zərər üçün məsuliyyət daşıyır?

Tapşırığı qəsdən və ya kobud ehtiyatsızlıq üzündən kifayət qədər vicdanla icra etməməsi nəticəsində zərər dəyərsə (maddə 779)

2717. Vəkalət alan tapşırığı hansı hallar istisna olmaqla şəxsən özü icra etməlidir?

- Vəkalət verən ona icranı üçüncü şəxslərə verməyə vəkil etdikdə;
- tapşırığın icrasının üçüncü şəxslərə verilməsi şəraitdən irəli gəldikdə;
- icranın bu cür verilməsi qəbul olunmuş işgüzar adətlərə uyğun gəldikdə (maddə 780).

2718. Kim istənilən vaxt vəkalət verənin tələbi ilə ona tapşırığın icrasının gedişi haqqında informasiya, habelə tapşırığın icrasından sonra hesabat verməlidir?

Vəkalət alan (maddə 781)

2719. Əgər vəkalət alan vəkalət verənin hesabına öz adından üçüncü şəxslərə qarşı tələb hüquqları əldə etmişdirsə, bu hüquqlar vəkalət verənə nə zaman keçir?

Öz növbəsində onun tapşırıq müqaviləsi üzrə hüquq münasibətlərindən irəli gələn bütün öhdəlikləri icra etməsindən sonra (maddə 782)

2720. Vəkalət verən vəkalət alana yalnız hansı halda muzd ödəməlidir?

Bu, şərtləşdirilmiş olsun və ya belə qəbul edilmiş olsun, xüsusən o hallarda ki, şəraitə görə vəkalət alan müstəqil peşə fəaliyyəti şəklində bu cür əqdlər bağlayır və ya xidmətlər göstərir (maddə 783).

2721. Vəkalət verən tapşırığın icrası gedişində vəkalət alana dəyən zərər üçün hansı halda vəkalət alan qarşısında məsuliyyət daşıyır?

Əgər zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə (maddə 784)

2722. Əgər tapşırığı icraya bir neçə şəxs birlikdə qəbul etmişsə, onlar birgə borclular kimi məsuliyyət daşıyır və vəkalət veräni hansı şərt daxilində yalnız birgə hərəkətlərlə mükəlləfiyyətli edə bilərlər?

Onlar tapşırığın icrasını üçüncü şəxslərə verməyə vəkil edilməyiblərsə (maddə 785)

2723. Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa və ya tapşırığın xarakterindən ayrı şərt irəli gəlmirsə, hansı hallarda tapşırıq müqaviləsinə xitam verilir?

Vəkalət verən və ya vəkalət alan öldükdə, fəaliyyət qabiliyyətini itirdikdə və ya ödəniş qabiliyyəti olmayan elan edildikdə (maddə 786)

41-ci FƏSİL
Brokerlik müqaviləsinin müddəalarına dair suallar və cavablar

2724. Əgər MM-in müvafiq fəslinin müddəalarından ayrı qayda irəli gəlmirsə, broker müqaviləsinə hansı müqavilələr haqqında qaydalar tətbiq edilir?

Tapşırıq müqaviləsi haqqında qaydalar (maddə 787)

2725. Brokerin muzd almaq və xərclərinin əvəzinin ödənilməsi hüququ hansı halda istisna edilir?

Əgər broker başqa iştirakçıya broker müqaviləsinə zidd üsulla xidmətlər göstərmişsə və ya vicdanlılıq prinsipinə zidd olaraq digər tərəfdən də muzd almağı şərtləşdirmişdirsə (maddə 788)

42-ci FƏSİL
Ticarət nümayəndəsi (agent) ilə bağlı suallar və cavablar

2726. Ticarət nümayəndəsi haqqında müqaviləyə görə, sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxsə (ticarət agentinə) alqı-satqı müqavilələrinin, habelə xidmətlər yaradılmasına dair müqavilələrin (ticarət əqdlərinin) bağlanmasında hər hansı istehsalçının, sənayeçinin və ya tacirin (tapşıranın) adından və hesabına hansı xidmətləri göstərmək və (və ya) bunları bağlamaq barəsində uzunmüddətli tapşırıq verilir?

Vasitəçilik xidmətləri göstərmək barədə (maddə 789)

2727. Ticarət agentinin hansı vəzifələri vardır?

- Vasitəçilik qaydasında tapşıran üçün əqdləri bağlamağa çalışmaq və ya əqdləri bağlamaq, habelə tapşıranın müştərilərinin sayının optimal surətdə artmasına çalışmaq;
- bütün sifarişlər və (və ya) bağlanmış müqavilələr barəsində tapşırana bildiriş vermək;
- özündə olan hər bir zəruri informasiyanı tapşırana bildirmək;
- tapşıranın əsaslı sərəncamlarını yerinə yetirmək;
- tapşıranın məhsullarına və xidmətlərinə oxşar məhsulları və xidmətləri öz hesabına və ya başqa tapşıranın hesabına təklif etmək üçün tapşıranın qabaqcadan razılığını almaq (maddə 790)

2728. Tapşıranın vəzifələrinə nələr aiddir?

- Ticarət agenti barəsində vicdanlılıq prinsipinə uyğun hərəkət etməlidir;
- öz məhsulları və xidmətləri, işlərin aparılması qaydaları və qiymətləri barəsində ticarət agentinə lazımi informasiya verməlidi;
- ticarət agentini ticarət nümayəndəsi haqqında müqavilənin yerinə yetirilməsi üçün zəruri informasiya ilə təmin etməli, o cümlədən bunu ehtimal etməyin mümkün olduğu hallarda ticarət agentini dərhal xəbərdar etməlidir ki, ticarət əqdlərinin həcmi ticarət nümayəndəsinin adi halda ümid bəsləyə biləcəyi həcmdən xeyli az olacaqdır;
- ticarət nümayəndəsinin vasitəçilik qaydasında təklif etdiyi ticarət əqdinin qəbul olunması, rədd edilməsi və ya icra olunmaması barədə ticarət agentinə ağlabatan müddət ərzində bildiriş verməlidir;
- ticarət agentinə muzd ödəməlidir (maddə 791).

2729. Ticarət agentinin sabit aylıq muzd və (və ya) əqdlərin dövriyyəsindən və ya miqdarından asılı muzd (komisyon muzdu) almaq hüququ vardır. Muzd müqaviləyə əsasən hesablanır. Əgər o, müqavilə ilə tənzimlənmirsə, ticarət agentinin öz təqdim etdiyi mallar və ya bunlara oxşar mallar üçün işgüzar adətlərə uyğun qəbul edilmiş muzda bərabər muzd almaq hüququ vardır. İşgüzar adətlər olmadıqda müqavilənin istənilən iştirakçısı bütün hallar nəzərə alınmaqla ağlabatan muzdun müəyyənləşdirilməsi üçün nə edə bilər?

Məhkəməyə müraciət (maddə 792)

2730. Ticarət agentinin nələr üçün komisyon muzdu almaq hüququ vardır?

- Ticarət nümayəndəsi haqqında müqavilənin qüvvədə olduğu müddət ərzində ya ticarət agentinin fəaliyyəti nəticəsində bağlanmış, ya da oxşar əqdlərin həyata keçiril-

məsi üçün ticarət agentinin əvvəllər müştəri kimi cəlb etdiyi şəxslər ilə bağlanmış bütün ticarət əqdləri üçün;

- əgər ticarət agentinin müəyyən coğrafi ərazidə və ya şəxslərin müəyyən qrupuna inhisar hüququ varsa, həmin ərazidə və ya həmin qrupdan müştərilər ilə bağlanan bütün əqdlər;

- ticarət nümayəndəsi haqqında müqavilənin qüvvədə olma müddəti bitəndən sonra bağlanmış ticarət əqdləri üçün - bu şərtlə ki, əqd ticarət agentinin müqavilənin qüvvədə olduğu dövrdə və ya bundan sonra ağlabatan dövrdə fəaliyyəti nəticəsində yaransın və ya müştərinin sifarişini agent və ya tapşıran ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə xitam verilənədək alsın (maddə 793).

2731. Ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə, əgər müqavilənin qüvvədə olması konkret müddətlə məhdudlaşdırılmayıbsa, müqavilədə müəyyənləşdirilmiş müddətdə xitam verilir. Lakin əgər tapşıranın dinməz və ya birbaşa razılığı ilə ticarət agenti öz fəaliyyətini davam etdirirsə və ya əgər ilkin müqavilədən sonra yeni müqavilə bağlanırsa, nə baş verir?

Müqavilə lap əvvəldən qeyri-müəyyən müddətə bağlanmış hesab edilir (maddə 794).

2732. Ticarət nümayəndəsi haqqında müqavilənin hər bir iştirakçısı hansı hallarda xəbərdarlıq müddətini gözləmədən istənilən vaxt müqaviləni ləğv edə bilər?

- Öz vəzifələrini əhəmiyyətli dərəcədə pozan digər iştirakçıya bu barədə yazılı xəbərdarlıq edildikdə, o, müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra da öz vəzifələrini pozmaqda davam etdikdə;

- müqavilə iştirakçılarından heç birinin cavabdeh olmadığı digər fövqəladə hallar baş verdikdə və bu hallar ləğvetməyə dair bildiriş vermiş iştirakçıdan müqaviləni qüvvədə saxlamağı tələb etməyi artıq ağlabatan etmədikdə (maddə 795).

2733. Müqavilənin qüvvəsinə xitam verildikdən sonra ticarət agenti özünün cəlb etdiyi müştərilər üçün kompensasiya almaq hüququna malikdir. Bəs bu kompensasiyanın maksimum miqdarı nə ilə məhdudlaşdırılır?

İllik muzdun miqdarı ilə (maddə 796)

2734. Müqavilə üzrə hüquq münasibətlərinə xitam verildikdə ticarət agenti hansı halda ona dəymiş zərərin əvəzinin ödənilməsini də tələb edə bilər?

Tapşıranın müqavilə üzrə hüquq münasibətlərini hüquqa zidd və ya yanlış dəyişdirməsi və ya bu münasibətlərə xitam verməsi nəticəsində zərər dəyibsə (maddə 797)

2735. Ticarət agenti öldüyü halda müştərilər üçün kompensasiya alınmasına dair tələbi kim irəli sürə bilər?

Onun vərəsələri (maddə 798)

2736. Ticarət agenti müqavilənin qüvvəsinə xitam verildikdən sonra tapşıranla rəqabət aparmayacağı barədə iltizam verə bilər. Rəqabətin bu cür istisna edilməsi hansı halda etibarlıdır?

- Ticarət nümayəndəsinin nümayəndəlik hüququna malik olduğu əraziyə, şəxslərə və məhsul növünə şamil edilirsə;

- ticarət nümayəndəsi haqqında müqavilə üzrə hüquq münasibətlərinə xitam verildiyi andan ən çoxu iki illik müddətlə məhdudlaşdırılırsa (maddə 799)

43-cü FƏSİL
Kommersiya konsessiyası çərçivəsində hüquqi münasibətlərə dair suallar və cavablar

2737. Konsessiya müqaviləsi istehsalçı və ya tacir (tapşıran) ilə sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxs (konsessioner) arasında ümumi razılaşmadır (birtipli müqavilədir). Bəs onun əsasında konsessioner nələri öhdəsinə götürür?

- Tapşırandan müəyyən malları (kontrakt mallarını) vaxtaşırı satın almağı;
- bu malları öz adından və öz hesabına başqasına satmağı;
- bu zaman kontrakt mallarını müəyyən ərazilərdə və (və ya) müəyyən müştərilərə (müqavilə ərazisi və müqavilə müştəriləri) satmağı (maddə 800).

2738. Tapşıran barəsində konsessionerin kontrakt mallarını müqavilə ərazisinin hüdudlarından kənarda və ya müqavilə müştərilərindən savayı, başqa müştərilərə satmaq hüququ varmı?

Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa, yoxdur.

2739. Başqasına satmaq üçün sadə satınalma konsessiya müqaviləsinə əsas verə bilərmi?

Xeyr.

2740. Müntəzəm ticarət münasibətləri konsessiya haqqında müqaviləyə əsas verə bilərmi?

Xeyr.

2741. Hansı hallarda ticarət nümayəndəsi haqqında qanunvericilik müddəaları konsessiya müqaviləsinə tətbiq edilir?

Ayrı razılaşma olmadıqda konsessioner ilə tapşıran arasında hüquq münasibətlərinə müvafiq olaraq MM-in ticarət nümayəndəsi ilə bağlı fəslində nəzərdə tutulmuş 789.3, 790.2.3-790.2.5 və 791.1.1-791.1.3-cü maddələri tətbiq edilir (maddə 801).

2742. Hansı şərtlər gözlənilməklə, MM-in 794-798-ci maddələri (Ticarət nümayəndəsi haqqında müqavilənin qüvvədə olma müddəti və ləğvi, ticarət nümayəndəsi haqqında müqavilənin qüvvəsinə fövqəladə hallar nəticəsində xitam verilməsi, müştərilər üçün kompensasiya, zərərin əvəzinin ödənilməsi və ticarət agentinin ölümünün nəticələri) konsessiya müqaviləsi üzrə hüquq münasibətlərinə də tətbiq edilir?

- MM-in 794.2-ci maddəsinə uyğun olaraq ləğvetmə haqqında xəbərdarlıq edilməsinin qarşılıqlı müddətləri, yəni birinci il ərzində azı 1 ay, ikinci il ərzində azı 2 ay və əgər müqavilənin qüvvəsi iki ildən çox davam edirsə, 3 ay müvafiq olaraq üç ay uzadılır;
- MM-in 796.1 (Müqavilənin qüvvəsinə xitam verildikdən sonra ticarət agentinin özünün cəlb etdiyi müştərilər üçün kompensasiya almaq hüququ) və 796.2-ci maddələrinə (kompensasiyanın maksimum miqdarı) uyğun kompensasiyanın hesablanması üçün konsessionerin ticarət nümayəndəsi vəzifələrini icra etdiyi təqdirdə ona çata bilməsi ehtimal edilən haqq əsas götürülür.

2743. Qalan hallarda kompensasiya yalnız hansı şərtlər gözlənilməklə ödənilir?

- Əgər müqavilənin qüvvəsinə xitam verildiyi məqamda tapşıran konsessionerin çoxaltdığı və ya genişləndirdiyi müştərilər dairəsi barəsində məlumat almışdırsa və həmin müştərilərə konsessionerin göndərdiyi həcmdə mal göndərə bilərsə;
- əgər artıq konsessioner müştərilərdən rəqabətli malların satışı üçün özü istifadə etmirsə.

2744. Tapşıran ilə konsessioner arasında münasibətlər ümumi (birtipli) müqavilənin predmetidir. Birtipli müqavilədə MM-in 800.1-ci maddəsindən (konsessiya müqaviləsinin anlayışı) irəli gələn müddəalardan əlavə, konsessioner nəyə malik olmalıdır?

- Müəyyən ticarət-servis təşkilatına malik olmalıdır;
- müvafiq işçi heyətinə malik olmalıdır;
- satılmış malların təmiri işlərini yerinə yetirməlidir;
- işçilərə təlim verilməsində və reklam tədbirlərində iştirak etməlidir;
- həmişə anbarda müəyyən miqdarda mal saxlamalıdır;
- hər il tapşırandan müəyyən həcmdə və ya müəyyən miqdarda mal (kvota) qəbul etməlidir (maddə 802).

2745. Konsessionerə malların satılması barədə ayrıca müqavilələr birtipli müqavilədən asılı deyildir. Lakin birtipli müqavilədə bütün alqı-satqı müqavilələri üçün qüvvədə olan ümumi şərtlər, o cümlədən nələr göstərilə bilər?

- Tapşıranın ümumi prays-vərəqindən konsessionerə verilən güzəşti;
- ödənişlərin müddətlərini;
- tapşıranın qarantiyası barədə şərtlərini (maddə 802)

2746. Tapşıran birtipli müqavilə üzrə hansı hüquqları birtərəfli qaydada əldə edə bilməz?

- Konsessioner üçün satış qiymətləri təyin etmək hüququnu;
- mümkün şərtləşdirilmiş kvotaları dəyişdirmək hüququnu.

2747. Konsessionerin ticarətin təşkilini, satış və ya servis xidməti metodlarını dəyişdirməsi tapşıranın mallarının optimal satışını təhlükəyə məruz qoyursa, bu hal nəyə əsas verə bilər?

MM-in 795-ci maddəsinə (Ticarət nümayəndəsi haqqında müqavilənin qüvvəsinə fövqəladə hallar nəticəsində xitam verilməsi) uyğun olaraq, lakin 803.1-ci maddəsi də (Konsessionerin öz ticarət fəaliyyətini sərbəst təşkil etmək, o cümlədən təkrar satış qiymətlərini sərbəst təyin etmək hüququ) nəzərə alınmaqla, müqavilənin tapşıran tərəfindən dərhal ləğv edilməsinə əsas verə bilər (maddə 803).

2748. Birtipli müqavilənin qüvvədə olduğu müddətdə tapşıranın birbaşa və ya üçüncü şəxslər vasitəsilə konsessionerin müştərilərinə hansı məqsədlə müraciət etməsi qadağandır?

Eyni və ya oxşar malları satmaq məqsədi ilə müraciət etməsi (maddə 804)

2749. Müqavilənin iştirakçıları razılığa gələ bilərlər ki, tapşıranın malları bilavasitə konsessionerin müştərilərinə satmasına istisna qaydasında icazə verilir. Bu halda tapşıran hansı öhdəliyi daşıyır?

Konsessionerə MM-in 793-cü maddəsinə (Ticarət agentinin komisyon muzdu) uyğun komisyon muzdu ödəmək öhdəliyi (maddə 804)

2750. Tapşıran birtipli müqaviləyə uyğun olaraq malları göndərməkdən hansı halda imtina edə bilər?

Yalnız vacib əsaslar üzrə (maddə 805)

2751. Hansı halda konsessioner sifarişə müvafiq surətdə malların göndərilməli olduğu ildə müəyyən kvotaya çatmaq vəzifəsindən azad edilir və bu zaman zərərin ödənilməsi barədə digər iddialar da qüvvədə qalır?

Əgər malların göndərilməsindən imtina edilmişdirsə və ya mallar başqa əsaslar üzrə göndərilmirsə

2752. Qarantiya pretenziyalarının irəli sürülməsi müddəti nə vaxt başlanır?

Konsessionerin malı təkrar satdığı gündən, lakin ən geci tapşıranın malı göndərdiyi gündən altı ay keçənədək (maddə 806)

2753. Bundan kənaraçıxmalar barəsində razılaşmaların hansı halda qüvvəsi yoxdur?

Əgər bu kənaraçıxmalar birbaşa şərtləşdirilməmişsə və yazılı formada ifadə edilməmişsə (maddə 806)

2754. Konsessionerin satış üçün nəzərdə tutulan mallarda və ya onların qablarında hər hansı dəyişikliklər etmək hüququ hansı halda yoxdur?

Tapşıranın qabaqcadan razılığını almamışdırsa, yoxdur.

2755. Əgər mallarda dəyişiklikləri tapşıran edirsə, bu barədə o, konsessionerə hansı müddətdə bildiriş verməlidir?

Ağlabatan müddətdə

2756. Konsessioner ilə tapşıran arasında birtipli müqavilənin qüvvəsinə xitam verildikdən sonra tərəflər hansı şərtləri yerinə yetirməlidir?

- Artıq konsessioner müştərilər qarşısında tapşıranın konsessioneri kimi çıxış edə bilməz. Bundan başqa, o, tapşıranın firma markalarından və nişanlarından istifadə edə bilməz. Konsessioner öz adına qeydə alınmış və müqavilə bağlananadək istifadə edilmiş bütün firma markalarını və nişanlarını tapşıranın adına keçirməyə borcludur. İlkin qeydiyyat və keçirmə xərclərini tapşıran çəkir.

- əgər konsessioner müştərilər və (və ya) tapşıran qarşısında öhdəliklərini yerinə yetirmək üçün anbar saxlamalı olmuşdursa, tapşıran onun anbarında qalan malları satın almağa borcludur. Əgər mal satış üçün yararlı olan yaxşı vəziyyətdədirsə, satınalma qiyməti son satınalma zamanı konsessionerin tapşırana ödədiyi qiymətdən aşağı olmamalıdır. Konsessioner satınalmadan imtina edə bilər. Bu isə ona anbardakı qalığı ağlabatan müddətdə müştərilərə satmaq hüququ verir (maddə 807).

44-cü FƏSİL
Komissiya müqaviləsinə dair yaranan suallar və cavablar

2757. Komissiya müqaviləsinə görə tərəflər hansı öhdəlikləri götürürlər?

Bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə muzd müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür (maddə 808).

2758. Komisyonçunun üçüncü şəxslə bağladığı əqd üzrə hüquqları kim əldə edir və mükəlləfiyyətçi olur?

Əqddə komitent adlandırılmış olduqda və ya əqdin icrası üzrə üçüncü şəxslə bilavasitə münasibətlərə girdikdə belə, komisyonçu əldə edir və komisyonçu mükəlləfiyyətli olur.

2759. Komissiya müqaviləsi hansı formalarda bağlana bilər?

Müəyyən müddətə və ya qüvvədə olma müddəti göstərilmədən, icra ərazisi göstərilməklə və ya göstərilmədən, komitentin onun mənafeləri üçün və onun hesabına bağlamağı komisyonçuya tapşırdığı əqdləri bağlamaq hüququnu üçüncü şəxslərə verməmək öhdəliyi nəzərdə tutulmaqla və ya nəzərdə tutulmadan, komissiya predmeti olan malların çeşidi barəsində şərtlər qoyulmaqla və ya qoyulmadan.

2760. Komisyonçu hansı vəzifələri daşıyır?

Komisyonçu tapşırılmış işi vicdanla aparmalı və komitentin mənafelərini qorumalıdır, əqdləri vicdanlı üçüncü şəxslərlə bağlamalı və komitentin razılığı olmadan üçüncü şəxslərə kredit verməməlidir, öz işlərinin gedişi, o cümlədən komisyon tapşırığının icrası gedişi barəsində komitentə məlumat verməlidir, komitentin icazəsi olmadan onun adını açıqlamamalıdır (maddə 809).

2761. Komitent öz zərərinə olan kənara çıxmalarla bağlanan əqddən imtina edə bilər, hansı hallar istisna təşkil edir?

Komisyonçunun zərər üçün kompensasiya təklif etdiyi hallar (maddə 810)

2762. Komisyonçunun daha sərfəli şərtlərlə bağladığı əqddən bütün fayda kimə çatır?

Komitentə

2763. Ayrı razılaşmanın olmadığı halda komisyonçu üçüncü şəxsin adını bildirməyə borclu deyildir, amma hansı hallar istisna təşkil edir?

Komisyonçunun ödəniş qabiliyyətli olmadığından ehtiyat edildiyi hallar (maddə 811)

2764. Üçüncü şəxsin adını bildirməkdən imtina hüququ hesabat üçün vacib olan hər hansı digər informasiyanı vermək vəzifəsinə nə kimi təsir göstərir?

Təsir göstərmir

2765. Komitentin xahişi ilə komisyonçu üçüncü şəxsin adı da daxil olmaqla, bütün informasiyanı notariusa verməlidir. Notarius bu informasiyanı komitentə hansı formada verir?

Üçüncü şəxsin anonimliyini saxlamaqla (maddə 811)

2766. Komitentin sərəncamı ilə komisyonçuya göndərilmiş komisyon malı zədələnmiş olduqda komisyonçu hansı hərəkətləri icra etməlidir?

Komitentin hüquqlarını müdafiə etməli, malın vəziyyəti barəsində sübutlar toplamalı, qayğısına qalmalı və bu barədə dərhal komitentə bildiriş verməlidir (maddə 812).

2767. Komitent üçün nəzərdə tutulan komisyon malı barəsində komisyonçunun üzərinə hansı kateqoriya hüquq və vəzifələr qoyulur?

Satıcı hüquqları və vəzifələri

2768. Komisyonçu saxlamağa götürdüyü malın itməsi və zədələnməsi üçün hansı halda məsuliyyət daşıyır?

Əgər qarşısıalınmaz qüvvə ilə bağlı hallar yoxdursa (maddə 813)

2769. Komisyonçu komitentin hesabına əqd bağladığı üçüncü şəxsin öhdəliklərinin icrası üçün hansı şərtlə məsuliyyət daşıyır?

Bu şərtlə ki, o belə məsuliyyət götürmüş olsun. Məsuliyyət üçüncü şəxslə bağlanmış əqddən onun üçün irəli gələn bütün öhdəliklərə şamil edilir (maddə 814).

2770. Müqavilədə ayrı şərt qoyulmadıqda əlavə muzdun miqdarı hansı qaydada müəyyənləşdirilir?

Bank zaminliyi üçün adi muzd üzrə

2771. Komisyonçu hansı hallarda komisyon muzdu tələb edə bilər?

Komitentin hesabına bağlanmış əqdin üçüncü şəxs tərəfindən icra edildiyi halda və ya komitentin cavabdeh olduğu səbəblərdən əqdin icra edilmədiyi halda (maddə 815)

2772. Komisyon muzdunun miqdarı hansı qaydada müəyyənləşdirilir?

Komissiya müqaviləsi ilə, belə qeyd-şərt olmadıqda isə, əgər komisyon əqdləri komisyonçunun müəssisəsinin fəaliyyət predmetinə aiddirsə, yerli işgüzar adətlər əsasında

2773. Komisyonçunun və ya onun işçi heyətinin hansı xərclərinin əvəzi ödənilmir?

Adi işlərin yerinə yetirilməsi xərclərinin və müqaviləyə uyğun və ya komisyon muzdunun hesabına ödənilən digər xərclərin

2774. Hansı halda komisyonçunun özü ilə əqdlər bağlamaq hüququ vardır?

Əgər malların rəsmi birja və ya bazar qiyməti vardırsa və komitent ayrı şərt qoymayıbsa (maddə 816)

2775. Komisyonçu özü ilə bağladığı əqdlər barəsində bildiriş verməli və nə zaman mövcud olmuş birja və ya bazar qiymətini sübut etməlidir?

Bildirişin göndərildiyi an

2776. Əgər komitent müqaviləyə və ya şəraitə uyğun komisyon malına sahibliyə başlamalı olsa da, bunu etmirsə, komisyonçu hansı hüququ əldə edir?

Komisyon malının satışını həyata keçirmək hüququnu (maddə 817)

2777. Əgər mal korlanmaya meyllidirsə və ya sonradan malda onun qiymətdən düşməsinə səbəb ola biləcək dəyişikliklər aşkar edilərsə və komitentlə əlaqə yaratmağa vaxt olmazsa,komisyonçu hansı hüquqa malikdir?

Komisyonçu komitentə qabaqcadan bildiriş verməklə, malın satılmasının qayğısına qalmaq hüququna

2778. Komitentin komisyonçuya verdiyi obyektlərə mülkiyyət hüququ nə vaxtadək komitentdə qalır?

Komisyon əqdi icra edilənədək (maddə 818)

2779. Komisyonçu hansı əqd üzrə kreditor və borcludur?

Öz adından və sifarişçinin hesabına hərəkətlərin yerinə yetirilməsi haqqında üçüncü şəxslər ilə əqd üzrə (maddə 819)

2780. Komisyonçu komissiya müqaviləsinin icrasından əldə etdiklərinin nə qədərini komitentə verməyə borcludur?

Hamısını

2781. Komitent komisyonçunun bağladığı əqddən irəli gələn tələbləri nə zaman irəli sürə bilər?

Yalnız komisyonçu tələbi güzəşt etdikdən sonra

2782. Komisyonçunun öz adından və sifarişçinin hesabına hərəkətlərin yerinə yetirilməsi haqqında əqddən irəli gələn tələbləri kreditora güzəşt edə bilərmi?

Qüvvəsi yoxdur

2783. Əmlakın girov qoyulduğu halda komitent onun ləğvini tələb edə bilər. Əgər girov qoyulmuş tələb artıq kreditora göndərilmişdirsə, komisyonçu nəyi tələb edə bilər?

Kreditorun həmin tələb əsasında aldıqlarının verilməsini

2784. Komisyonçunun hər hansı komisyon əqdindən və ya əvvəlki komisyon əqdlərindən komitentə qarşı əmələ gəlmiş tələbləri əsasında komisyonçu sənədlərə əsasən sahiblik etdiyi və ya sərəncam verə bildiyi komisyon malına hansı hüququ əldə edir?

Qanuni girov hüququ (maddə 820)

2785. Komisyon malının komitentin mülkiyyətində olmadığı, lakin komisyonçunun həmin malı onun komitentə mənsub olduğunu vicdanlı qəbul etdiyi halda da komisyonçu bu mala girov hüququnu əldə edirmi?

Bəli.

2786. Komisyonçunun ölməsi nə ilə nəticələnir?
Komissiya müqaviləsinə xitam verilməsi ilə (maddə 821)

2787. Komissiya müqaviləsinin iştirakçıları müqaviləni nə zaman ləğv edə bilərlər?
İstənilən vaxt.

2788. Əgər müqavilənin ləğvinə dair komitent bildiriş verirsə, komisyonçunun çəkdiyi xərclərin əvəzini ona ödəməlidirmi?
Bəli (maddə 821)

45-ci FƏSİL
Saxlama müqaviləsindən irəli gələn hüquq və vəzifələrə dair suallar və cavablar

§1. Saxlama haqqında ümumi müddəalar

2789. Saxlama müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Saxlama müqaviləsinə görə bir şəxs (yük götürən, saxlayıcı) başqa şəxsin (yük verənin, tapşıranın) ona verdiyi daşınar əşyanı saxlamağı və müqavilənin qüvvəsi sona çatdıqda qaytarmağı öhdəsinə götürməlidir (maddə 822).

2790. Saxlama müqaviləsinin icrası ilə bağlı saxlayıcının çəkdiyi zəruri xərclərin əvəzini kim ödəməlidir?

Tapşıran (maddə 823)

2791. Tapşıran saxlama üçün muzdu hansı halda ödəməlidir?

Yalnız o halda ödəməlidir ki, bu, şərtləşdirilmiş olsun və ya şərait nəzərə alınmaqla saxlama üçün muzd ödənilməsi qəbul edilmiş olsun.

2792. Zərurət olduqda muzd saxlamanın sonunda ödənilir. Müəyyən zaman müddəti üçün muzd ödənilməsi barədə razılaşma olduqda həmin muzd hansı formada ödənilir?

Müvafiq olaraq ayrı-ayrı zaman müddətinin sonunda hissələr şəklində

2793. Tapşıran saxlamaya götürülmüş əşyanın xarakteri ilə əlaqədar saxlayıcının düşdüyü zərərin əvəzini ödəməlidir, lakin hansı hallar istisna təşkil edir?

Əşyanı saxlamaya verərkən onun təhlükəli xassələrini bilmədiyi və ya bilməli olmadığı və ya bu barədə saxlayıcıya bildiriş verdiyi və ya saxlayıcının bildirişsiz də bunu bildiyi hallar istisna təşkil edir.

2794. Əgər saxlama əvəzsiz həyata keçirilirsə, saxlama dövründə saxlayıcı hansı halda məsuliyyət daşıyır?

Yalnız qəsd və ya kobud ehtiyatsızlığa görə (maddə 824)

2795. Əgər saxlama haqq müqabilində həyata keçirilirsə, saxlayıcı nə üçün məsuliyyət daşıyır?

Şərtləşdirilmiş vicdanlılığa riayət edilməsi üçün, qalan hallarda isə bu cür əşyaların saxlanması zamanı adi hal olan vicdanlılıq üçün məsuliyyət daşıyır.

2796. Saxlayıcının saxlamaya götürdüyü əşyadan tapşıranın qabaqcadan razılığı olmadan istifadə etmək hüququ yoxdur. Əks halda o, əşyanın təsadüfən itməsi üçün hansı halda tapşıran qarşısında məsuliyyət daşıyır?

Əgər itmənin əşyadan istifadə edilmədən də mümkün olduğunu sübuta yetirməsə

2797. Əşya hansı qaydada qaytarılmalıdır?

Onun saxlandığı yerdə qaytarılmalıdır. Əşyanın saxlayıcısı onu tapşırana çatdırmağa borclu deyildir. Əşya tapşıranın hesabına və tapşıranın riski ilə qaytarılır.

2798. Saxlayıcı şərtləşdirilmiş saxlama növünü dəyişdirmək hüququna hansı halda malikdir?

O halda malikdir ki, tapşıranın vəziyyəti bildikdən sonra buna razı olacağını, şəraiti nəzərə almaqla ehtimal edə bilsin (maddə 825).

2799. Buna qədər saxlayıcı hansı öhdəliyi daşıyır?

Dəyişiklik barəsində tapşırana bildiriş verməli və əgər ləngimə risklə bağlı deyildirsə, onun qərarını gözləməlidir.

2800. Əgər saxlama üçün müddət təyin edilməyibsə, saxlayıcı istənilən vaxt tapşırandan əşyanı geri götürməyi hansı şərtlə tələb edə bilər?

Bu şərtlə ki, həmin tələb tapşıran üçün açıq-aşkar qeyri-münasib vaxtda irəli sürülməsin və əlverişsiz müddətdə icra edilməli olmasın.

2801. Saxlama müddəti müəyyənləşdirildikdə saxlayıcı əşyanın geri götürülməsini hansı əsaslar üzrə tələb edə bilər?

Yalnız vacib əsaslar üzrə

2802. Əgər saxlamaya pul qəbul edilirsə və bu zaman saxlayıcının eyni pulu deyil, eyni məbləği qaytarmalı olduğu birbaşa və ya dinməz razılıqla şərtləşdirilirsə, pula mülkiyyət hüququ, ondan istifadə hüququ və onun itməsi riski saxlayıcıya keçir. Bu mənada dinməz razılıq hansı halda ehtimal edilir?

Pul məbləğinin möhürlənməmiş və bağlanmamış şəkildə verildiyi halda (maddə 826)

2803. Əgər saxlamaya digər əvəz edilən əşyalar və ya sənədli qiymətli kağızlar qəbul edilirsə, saxlayıcı onlara dair hansı halda sərəncam verə bilər?

Yalnız o halda sərəncam verə bilər ki, tapşıran buna birbaşa icazə vermiş olsun.

§2. Anbarlarda saxlama

2804. Anbar sahibi hansı statusa malikdir?

Anbar sahibi sənətkarlıq şəklində saxlama ilə məşğul olan və saxlama üzrə öz xidmətlərini açıq təklif edən saxlayıcıdır (maddə 827)

2805. Anbar sahibinin xidmətlərinə hansı göstərişlər tətbiq edilir?

Əgər MM-in "Anbarlarda saxlama" adlı paraqrafında göstərilən müddəalarında ayrı şərt qoyulmayıbsa, saxlama haqqında göstərişlər.

2806. Anbar sahibi saxlamaya qəbul edilmiş mallar üçün əmtəə kağızları yazıb verə bilər. Hansı sənəd əmtəə kağızı hesab olunur?

Əmtəə kağızı sahibinin həmin kağızda göstərilən əmtəəyə dair sərəncam vermək və bu əmtəəni almaq hüququnu təsbit edən (anbar şəhadətnaməsi, konosament və s.) sənəddir (maddə 828).

2807. Əgər hər hansı mala əmtəə kağızı yazılmışdırsa, anbar sahibi həmin malı kimə verməlidir?

Yalnız bu sənəddə göstərilmiş ixtiyarlı şəxsə verə bilər və verməlidir.

2808. Əmtəə kağızlarında hansı məlumatlar göstərilməlidir?

- Sənədin tərtib edildiyi yer və tarix, sənədi vermiş şəxsin imzası;
- sənədi vermiş şəxsin adı və yaşayış yeri və ya olduğu yer;
- malları anbarda saxlayan şəxsin və ya göndərənin adı və yaşayış yeri və ya olduğu yer;
- saxlanılan və ya saxlanmağa verilən malların keyfiyyəti, miqdarı və əlamətləri göstərilməklə adı;
- tutulmalı olan və ya qabaqcadan ödənilmiş ödənişlər;
- maraqlı şəxslərin mallarla rəftar barəsində qəbul etdikləri xüsusi sazişlər;
- əmtəə kağızlarının nüsxələrinin sayı;
- həmin sənəd üzrə ixtiyarlı şəxsin adının göstərilməsi və ya əmr barədə qeyd-şərt və ya təqdim edənin göstərilməsi.

2809. Bir neçə əmtəə kağızından biri girovun müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşsa, bu cür sənəd necə adlandırılır?

Girov şəhadətnaməsi adlandırılmalı və qalan məlumatlarına görə əmtəə kağızı (varrant) şəklində olmalıdır.

2810. Saxlanılan və ya yola salınmış mallar üçün şəhadətnamələr hansı formada verildikdə bunlar əmtəə kağızları deyil, alınma haqqında qəbzlər və ya digər təsdiqləyici sənədlər sayılır?

Əmtəə kağızlarının forması haqqında qanuni göstərişlər pozulduqda

2811. Anbar sahiblərinin səlahiyyətli orqanlardan qanunla verilməli icazəni almadan verdikləri şəhadətnamələr, hansı tələbə uyğun olduqda əmtəə kağızları sayılır?

Forma barədə qanuni göstərişlərə uyğun gəlirsə

2812. Konosament hansı mahiyyətə malikdir?

Mala dair sərəncam sənədindən ibarət əmtəə kağızı olub, onun sahibinin konosamentdə göstərilən yükə dair sərəncam vermək və daşıma başa çatdıqdan sonra yükü almaq hüququnu təsdiqləyir. Konosament adsız və ya adlı ola bilər.

2813. Qoşa anbar şəhadətnaməsi hansı mahiyyətə malikdir?

Anbar sahibi tərəfindən malın saxlanmağa qəbul olunmasını təsdiqləyən əmtəə kağızıdır. Qoşa anbar şəhadətnaməsi iki hissədən - anbar şəhadətnaməsindən və girov şəhadətnaməsindən (varrantdan) ibarətdir və bunlar ayrı-ayrılıqda əmtəə kağızlarıdır.

2814. Adi anbar şəhadətnaməsi hansı mahiyyətə malikdir?

Anbar sahibi tərəfindən malın saxlanmağa qəbul olunduğunu təsdiqləyən əmtəə kağızıdır.

2815. Anbar sahibi malların saxlanması üçün necə məsuliyyət daşıyır?

Komisyonçu kimi (maddə 829)

2816. Anbar sahibi malın məruz qaldığı və saxlama xidmətlərindən əlavə tədbirlər görülməsinə yol verən dəyişikliklər barəsində tapşırana hansı müddətdə bildiriş göndərməlidir?

Dərhal

2817. Anbar sahibi hansı öhdəlikləri daşıyır?

Anbarın adi iş vaxtında tapşıranın malı gözdən keçirməsinə və nümunələr götürməsinə yol verməlidir. Bundan başqa, anbar sahibi tapşıranın malın salamatlığı üçün tədbirlər görməsinə bunun zəruri olduğu hər bir vaxt yol verməlidir.

2818. Anbar sahibinin əvəz edilən əşyaları eyni növlü və keyfiyyətli başqa əşyalarla qarışdırmasına hansı hallarda yol verilir?

Yalnız tapşıranın ona qabaqcadan birbaşa icazə verdiyi hallarda

2819. Qarışıq saxlama halında anbar sahibi hər hansı tapşıranın xahişi ilə hansı miqdarda mal verməlidir?

Həmin tapşıranın saxlamaya verdiyi miqdara uyğun miqdarda

2820. Anbar sahibi malı hansı qaydada qaytarmalıdır?

Saxlayıcı kimi qaytarmalıdır. Gözlənilməz hallar nəticəsində adi saxlayıcının şərtləşdirilmiş müddət bitənədək əşyanı qaytarmaq hüququna malik ola bildiyi halda da anbar sahibi şərtləşdirilmiş saxlama müddəti ilə bağlı qalır (maddə 829.5).

2821. Hansı halda, anbar sahibinin anbarda saxlama üçün adi haqq almaq hüququ vardır?

Əgər müəyyən muzd (saxlama haqqı) şərtləşdirilməyibsə (maddə 830)

2822. Əgər saxlama müddəti üç aydan çoxdursa, anbarda saxlama haqqı hansı qaydada ödənilir?

Müvafiq olaraq hər üç ayın sonunda

2823. Anbar sahibi saxlama haqqından başqa, hansı xərclərinin ödənilməsi hüququna malikdir?

Saxlamanın özü ilə bağlı olmayan bütün xərclərin əvəzinin, məsələn, fraxtın, gömrük rüsumlarının, təmir xərclərinin

§3. Mehmanxanalarda və restoranlarda əşyaların saxlanması

2824. Mehmanxana və ya restoran sahibi hansı statuslu şəxsdir?

Başqa şəxslərə (qonaqlara) daldalanacaq verən şəxsdir (maddə 831).

2825. Mehmanxana və ya restoran sahibi hansı hallar üçün məsuliyyət daşıyır?

Qonaqların mehmanxana və ya restoran sahibinin otaqlarında və ya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin müəssisədən kənarda müəyyənləşdirdiyi başqa yerdə saxladıqları və ya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin saxlamaya başqa şəkildə qəbul etdiyi əşyaların hər hansı zədələnməsi, korlanması və ya oğurlanması üçün

2826. Əvəz ödəmək vəzifəsi nələrə şamil edilmir?

Avtomobillərə, avtomobillərdəki əşyalara və diri heyvanlara

2827. Mehmanxana və ya restoran sahibi hansı halları sübut edərsə, onu zərərlə bağlı məsuliyyətdən azad edər?

Zərəri qonağın, onu müşayiət edən şəxsin və ya qonağın qəbul etdiyi şəxsin vur-

duğunu və ya əşyanın xarakterindən və ya qarşısıalınmaz qüvvənin təsirindən irəli gəldiyini sübuta yetirərsə

2828. Mehmanxana və ya restoran sahibi pulları, sənədli qiymətli kağızları, sərvətləri və digər qiymətli əşyaları saxlamaya qəbul etməyə borcludur, hansı hallar istisna təşkil edir?

Miqdarı və ya dərəcəsi ilə əlaqədar onların əhəmiyyətinə və ya həcminə görə mehmanxana və ya restoran üçün ifrat və ya təhlükəli olduğu hallar (maddə 832)

2829. Mehmanxana və ya restoran sahibi MM-in 831.1-ci maddəsində nəzərdə tutulan məsuliyyəti hansı miqdarda daşıyır?

Min yüz manatdan çox olmayan miqdarda (maddə 833)

2830. Hansı hallarda mehmanxana və ya restoran sahibinin məsuliyyəti məhdudlaşdırılmır?

Əgər əşya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin təqsiri üzündən itmişsə, korlanmışsa və ya zədələnmişsə, habelə əgər söhbət onun saxlamaya qəbul etdiyi və ya MM-in 832-ci maddəsinə (Mehmanxanalarda və restoranlarda pulların, sənədli qiymətli kağızların və digər qiymətli əşyaların saxlanması) zidd olaraq saxlamaya qəbul etmədiyi əşyalardan gedirsə

2831. Hansı hallarda müqavilə üzrə məsuliyyətin istisna edilməsinin qüvvəsi yoxdur?

MM-in 832-ci maddəsində (Mehmanxanalarda və restoranlarda pulların, sənədli qiymətli kağızların və digər qiymətli əşyaların saxlanması) nəzərdə tutulan hallarda (maddə 834)

2832. Qalan hallarda mehmanxana və ya restoran sahibinin məsuliyyəti yalnız zərərin hansı hissəsi üçün qabaqcadan istisna edilir?

MM-in 833.1-ci maddəsində müəyyənləşdirilmiş maksimum məbləğdən (yüz min manatdan) çox olan hissəsi üçün

2833. Məsuliyyətdən azad edilmə hansı halda baş verir?

Yalnız o halda baş verir ki, qonaq bu barədə yazılı bildiriş verir və bu bildirişdə ayrı müddəalar olmur.

2834. Hansı halda qonağa mənsub olan zərərin əvəzinin ödənilməsi hüququ ləğv edilir?

Əgər qonaq əşyanın zədələnməsi, korlanması və ya itməsi ona məlum olan kimi bu barədə mehmanxana və ya restoran sahibinə bildiriş verməzsə (maddə 835)

2835. Qonağın mehmanxanada yaşayışı, ona qulluq üçün göstərilmiş xidmətlərdən və tələbatının ödənilməsi üçün digər xidmətlərdən irəli gələn tələbləri, o cümlədən çəkilmiş xərclər üzrə mehmanxana və ya restoran sahibi qonağın hansı əşyalarına girov hüququna malikdir?

MM-in 831.1-ci maddəsində (Mehmanxana və ya restoran sahibi başqa şəxslərə (qonaqlara) daldalanacaq verən şəxsdir. Mehmanxana və ya restoran sahibi qonaqların mehmanxana və ya restoran sahibinin otaqlarında və ya mehmanxana və ya

restoran sahibinin və ya onun işçi heyətinin müəssisədən kənarda müəyyənləşdirdiyi başqa yerdə saxladıqları və ya mehmanxana və ya restoran sahibinin və ya onun işçi heyətinin saxlamaya başqa şəkildə qəbul etdiyi əşyaların hər hansı zədələnməsi, korlanması və ya oğurlanması üçün məsuliyyət daşıyır) müəyyənləşdirilmiş əşyalarına (maddə 836)

2836. Mehmanxana və ya restoran sahibinin girov hüququna hansı göstərişlər tətbiq edilir?

Yaşayış otağını kirayəyə verənin girov hüququ üçün qüvvədə olan göstərişlər

§4. Konsiqnasiya anbarında saxlama

2837. Konsiqnasiya anbarı haqqında müqavilə hər hansı sahibkara (tapşırana) malları (konsiqnasiya mallarını) müştərilərə tez çatdırmaq məqsədilə hansı hüququ verir?

Sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan başqa şəxsin (tacirin) anbarında saxlamaq hüququ (maddə 837)

2838. Əgər MM-in bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, konsiqnasiya mallarının saxlanmasına və konsiqnatorun konsiqnasiya anbarından mal götürməsinə hansı müddəalar tətbiq edilir?

Konsiqnasiya mallarının saxlanmasına anbarda saxlama haqqında müddəalar, konsiqnatorun konsiqnasiya anbarından mal götürməsinə isə alqı-satqı haqqında müddəalar tətbiq edilir.

2839. Konsiqnasiya malı anbara göndərilərkən tacir hansı öhdəlikləri daşıyır?

Onun tamlığını və qüsursuzluğunu yoxlamalı və görünən qüsurlar barəsində tapşırana dərhal məlumat verməlidir. Görünməyən qüsurlar aşkar edilən kimi onlar barəsində dərhal bildiriş verilməlidir (maddə 838).

2840. Tacir malın saxlanması üçün hansı formada məsuliyyət daşıyır?

Komisyonçu kimi (maddə 839)

2841. Tacir konsiqnasiya malını hansı halda tapşıranın tələbi ilə və bunu onun hesabına sığorta etdirmək hüququna malikdir?

Oğurlanmadan, yanmadan və üçüncü şəxs tərəfindən zədələnmədən

2842. Konsiqnasiya anbarı haqqında müqavilənin qüvvədə olduğu müddətdə tacirin öz adi ticarət fəaliyyəti çərçivəsində müştərilərinə mal göndərmək üçün hansı hüququ vardır?

Konsiqnasiya anbarından mal götürmək hüququ (maddə 840)

2843. Konsiqnasiya anbarından mal götürüldükdə tapşıran ilə tacir arasında münasibətlər hansı qaydada tənzimlənir?

Həmin malın alqı-satqısı haqqında müqavilə ilə tənzimlənir. Alış qiyməti və alqı-satqının digər şərtləri iştirakçılar arasında razılaşmalara əsasən, qalan məsələlər isə MM ilə müəyyənləşdirilir.

2844. Tapşıran istənilən vaxt tacirin mal götürmək səlahiyyətini qabaqcadan hansı şərtlə ləğv edə bilər?

Bir şərtlə ki, bununla birlikdə o, konsiqnasiya anbarını dərhal geri qəbul etmək təklifini versin.

2845. Konsiqnasiya anbarında saxlama üçün tacirə muzd verilməlidirmi?

Ayrı razılaşma olmadıqda, verilməməlidir (maddə 841).

46-cı FƏSİL
Daşıma müqaviləsinin tərəfləri arasında yaranan münasibətlərin hüquqi tənzimlənməsinə dair suallar və cavablar

§1. Sərnişin daşınması

2846. Sərnişin daşınması müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Sərnişin daşınması müqaviləsinə görə daşıyıcı müəyyən nəqliyyat növü ilə sərnişini, habelə onun əl yükünü yola düşmə yerindən təyinat yerinə çatdırmağı, sərnişin isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür (maddə 842).

2847. Sərnişin daşınması müqaviləsi hansı andan bağlanmış sayılır?

Sərnişinin daşıyıcıdan sərnişin daşınması üçün nəqliyyat sənədi (gediş bileti) aldığı, yaxud gediş haqqı ödəniş alətindən istifadə etməklə ödənildiyi andan və ya daşıyıcının razılığı ilə sərnişinin nəqliyyat vasitəsində yer tutması nəticəsində bağlanmış sayılır (maddə 842).

2848. Sərnişin daşınması haqqında müqaviləyə hansı göstərişlər tətbiq edilir?

Əgər MM-dən ayrı qayda irəli gəlmirsə, tapşırıq müqaviləsi haqqında göstərişlər

2849. Əgər daşıma üçün müəyyən qiymət təyin edilməyibsə, şərtləşdirilmiş haqq nə sayılır?

Daşımanın tarif qiyməti, tarif olmadıqda isə həmin nəqliyyat vasitəsində gediş üçün daşımanın müvafiq hissəsindən tutulan adi haqq (maddə 843)

2850. Daşımanın dəyəri hansı müddətdə ödənilməlidir?

Daşıyıcının tələbi ilə, lakin ən geci sərnişin nəqliyyat vasitəsindən düşənədək

2851. Daşıma başlayanadək sərnişin gedişdə onun əvəzinə başqa şəxsin (üçüncü şəxsin) iştirak etməsini xahiş edə bilər. Hansı halda daşıyıcı onun iştirakına etiraz edə bilər? Bu halda daşıyıcı sərnişindən nəyi tələb edə bilər?

- Əgər üçüncü şəxs daşımanın xüsusi tələblərinə uyğun gəlmirsə və ya onun iştirakına qanuni göstərişlər mane olursa;

-daşıyıcı sərnişindən üçüncü şəxsin gedişi ilə əlaqədar yaranmış əlavə xərclərin əvəzini ödəməyi tələb edə bilər (madə 844).

2852. Sərnişin hansı müddətdə müqavilənin ləğv olunduğunu bəyan edə bilər?

Daşıma başlayanadək istənilən vaxt (maddə 845).

2853. Müqavilənin ləğvi ilə daşıyıcı hansı hüququnu itirir?

Şərtləşdirilmiş haqqı almaq hüququnu itirir.

2854. Daşıyıcı daşımanı hansı qaydalara uyğun həyata keçirməlidir?

- Müqaviləyə, sərnişinlərin müdafiəsi üçün qüvvədə olan göstərişlərə və sərnişin nəqliyyat vasitələrinin istismarı qaydalarına uyğun (maddə 846):

- əgər daşıma müqaviləsində xüsusi müddəalar yoxdursa, adi nəqliyyat növləri üçün yolun həmin hissəsində qüvvədə olan adi şərtlər razılaşdırılmış şərtlər sayılır. Daşıma bu tələbləri təmin etmirsə, qüsurla həyata keçirilmiş sayılır.

2855. Daşıma hər hansı qüsurla həyata keçirildikdə, sərnişin həmin o qüsur barəsində dərhal daşıyıcıya bildiriş vermişsə və daşıyıcı qüsuru dərhal aradan qaldırmamışsa, sərnişinin hansı hüquqları vardır?

- Daşımanın dəyərinin ağlabatan dərəcədə aşağı salınmasını tələb etmək;
- əgər daşıma qüsur nəticəsində xeyli pisləşmişsə və ya bu qüsura görə daşıyıcı üçün aşkar olan vacib əsaslar üzrə sərnişinə məqbul deyildirsə, gələcək üçün daşıma müqaviləsinin ləğv olunduğunu bəyan etmək.

2856. Əgər müqavilə MM-in 846.2.2-ci maddəsinə (əgər daşıma qüsur nəticəsində xeyli pisləşmişsə və ya bu qüsura görə daşıyıcı üçün aşkar olan vacib əsaslar üzrə sərnişinə məqbul deyildirsə, gələcək üçün daşıma müqaviləsinin ləğv olunduğunu bəyan etmək) uyğun ləğv edilərsə, bu sərnişinə hansı hüququ verir və daşıyıcı hansı hüququnu itirir?

Sərnişin özünü təhlükəyə məruz qoymayacağı ən yaxın yerdə nəqliyyat vasitəsini tərk edə bilər. Bu halda daşıyıcı daşımanın şərtləşdirilmiş dəyərinin daşımanın icra edilməmiş hissəsinə uyğun qismini almaq hüququnu itirir. Əgər göstərilmiş nəqliyyat xidmətləri müqavilənin ləğvi nəticəsində sərnişin üçün maraq doğurmursa, daşıyıcı daşımanın qalıq dəyərini almaq hüququnu da itirir.

2857. Hansı halda sərnişin daşıma müqaviləsinin icra edilməməsi nəticəsində dəyən zərər üçün əlavə kompensasiya tələb edə bilər?

Əgər daşıyıcıya bildirilmiş daşıma qüsuru daşıyıcının cavabdeh olduğu hallardan irəli gəlmişdirsə.

2858. Hansı hallarda müqavilə həm daşıyıcı, həm də sərnişin tərəfindən ləğv edilə bilər?

Əgər daşıma müqaviləsinin bağlandığı məqamda qabaqcadan nəzərdə tutulması mümkün olmayan, nəqliyyat vasitəsinə texniki xidmət və onun istismarı ilə qarşılıqlı surətdə bağlı olmayan və ağlabatan ehtiyatlılıq şəraitində rəf edilməsi mümkün olmayan qarşısıalınmaz qüvvə ilə bağlı hadisənin kənarda baş verməsi nəticəsində daşıma xeyli çətinləşərsə, təhlükəyə məruz qalarsa və ya pisləşərsə (maddə 847).

2859. Daşıyıcı və sərnişn arasında müqavilə ləğv edildiyi halda sərnişin özünü təhlükəyə məruz qoymayacağı ən yaxın yerdə nəqliyyat vasitəsini tərk edə bilər,bu zaman daşıyıcı hansı hüququnu itirir?

Daşımanın şərtıəşdirilmiş dəyərinin daşımanın icra edilməmiş hissəsinə uyğun qismini almaq hüququnu itirir. Müqavilənin iştirakçıları geriyə daşıma üçün əlavə xərcləri yarıbayarı çəkirlər. Qalan əlavə xərcləri sərnişin çəkir.

2860. Sərnişin MM-in 846-cı maddəsinə (Sərnişin daşınmasının həyata keçirilməsi və daşıyıcının məsuliyyəti) əsasən pretenziyaları hansı müddətdə daşıyıcıya verməlidir?

Müqavilədə nəzərdə tutulan daşımanın qurtarmasından ən geci bir ay keçənədək (maddə 848)

2861. Müddət keçdikdən sonra sərnişin pretenziyaları hansı halda verə bilər?

Yalnız həmin müddəti öz təqsiri olmadan gözləyə bilmədiyi halda.

2862. Daşıyıcı sərnişinin pretenziyalarını qəbul etmədikdə onlar daşımanın qurtarmasından altı ay keçənədək hansı şərtlə ödənilir?

Bir şərtlə ki, məhkəmə qaydasında bundan da tez ödənilmiş olmasın.

2863. Əgər daşıyıcının ayrı-ayrı və ya bütün nəqliyyat xidmətlərinə qanuni və ya rəsmi göstərişlər və ya beynəlxalq konvensiyalar tətbiq edilirsə və bu göstərişlərə və konvensiyalara görə zərərin əvəzinin ödənilməsi hüququ yalnız müəyyən şərtlər və ya məhdudiyyətlər olduqda əmələ gəlirsə və ya həyata keçirilə bilirsə, yaxud müəyyən şərtlər olduqda istisna edilirsə, daşıyıcı sərnişin qarşısında həmin göstərişlərə hansı halda istinad edə bilər?

Yalnız onları yerinə yetirdiyi halda (maddə 849).

2864. Bütün digər hallarda daşıyıcı sərnişinlə razılaşmaya əsasən öz məsuliyyətini daşımanın dəyərinin üç misli ilə hansı şərtlə məhdudlaşdıra bilər?

Bu şərtlə ki, sərnişinə zərər qəsdən və ya kobud ehtiyatsızlıq üzündən vurulmasın və ya sərnişin üçün yaranmış zərərə görə daşıyıcı yalnız onun xidmətində olmayan başqa şəxsin təqsiri nəticəsində məsuliyyət daşısın.

§2. Yük daşınması

2865. Yük daşınması müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Yük daşınması müqaviləsinə görə daşıyıcı yükü haqq (yüklərin daşınması üçün haqq) müqabilində olduğu yerdən təyinat yerinə daşımağı, yük göndərən, yükü alan və ya onların səlahiyyətləndirdiyi digər şəxs isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürü (maddə 850).

2866. Yük daşınması müqaviləsinə hansı göstərişlər tətbiq edilir?

Əgər MM-dəki müddəalarıdan ayrı qayda irəli gəlmirsə, tapşırıq haqqında göstərişlər tətbiq edilir.

2867. Yük göndərən yük alan və daşıyıcı kimlərdir?

- Yük göndərən daşımanın təşəbbüsçüsü olan və adından yük göndərilməsi rəsmiləşdirilən fiziki və ya hüquqi şəxsdir. Yük göndərən həm yükün daşımadan əvvəl olduğu şəxs, həm də yükün göndərildiyi şəxs (yük alan) ola bilər;

-yük alan əqd əsasında yüklərin alınmasına səlahiyyətli fiziki və ya hüquqi şəxsdir.

-daşıyıcı müqavilə əsasında və haqq müqabilində yükün olduğu yerdən təyinat yerinə daşınmasını həyata keçirən və mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan fiziki və ya hüquqi şəxsdir (maddə 851).

2868. Ekspeditor kimdir?

Ekspeditor üçüncü şəxslər (daşıyıcılar) vasitəsilə yüklərin ilkin yerindən təyinatı yerinə daşınmasını öz adından, lakin yük göndərənin hesabına təşkil edən şəxsdir. Daşıyıcılar ilə münasibətlərdə ekspeditor yük göndərənin hüquq və vəzifələrinə malikdir (maddə 852).

2869. Ekspeditor hansı öhdəlikləri daşıyır?

Ekspeditor yük göndərənin göstərişlərinə əməl etməlidir. O, daşıyıcıları öz məsu-

liyyəti ilə seçir. Əgər ekspeditor daşımanı tamamilə və ya qismən özü həyata keçirirsə, daşıyıcının hüquq və vəzifələrinə malik olur. Əgər bir neçə yük göndərənin əşyalarının aralıq və son təyinat yerləri eynidirsə, ekspeditor bu əşyaları qruplaşdıraraq yığma nəqliyyat təşkil edə bilər. Bütün hallarda o, yük göndərənin mənafelərini qorumalı və göstərişlərinə əməl etməlidir. O, qarşıya çıxan bütün çətinliklər barəsində yük göndərənə məlumat verməlidir.

2870. Ekspeditorun öz xidmətləri üçün muzd almaq və yük göndərən üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsi hüququ vardır. Ekspeditorun muzdu xüsusən nələrdən ibarət ola bilər?

- Daşıyıcıların muzdlarının məbləğindən faiz dərəcəsindən (komisyon muzdu);
- daşımanın dəyəri və ekspeditorun muzdu da daxil olmaqla, əvvəldən axıradək bütün daşıma xərcləri üçün muzddan.

2871. Ekspeditor yük göndərənin göstərişlərindən bütün kənaraçıxmalar üçün onun qarşısında məsuliyyət daşıyır. Ekspeditor daşıyıcıların təqsiri üçün də məsuliyyət daşıyır və hansı hallar istisnadır?

Daşıyıcıları seçərkən lazımi vicdanlılıq göstərdiyini sübuta yetirdiyi hallar istisna təşkil edir.

2872. Yük göndərən daşıyıcıya nələri dəqiq göstərməlidir?

- Yük alanın ünvanını;
- çatdırılma yerini;
- yük yerlərinin miqdarını, qabını, tərkibini və brutto çəkisini;
- göndərmə müddəti və nəqliyyat növünü;
- qiymətli obyektlər olduqda - onların dəyərini;
- xüsusi təhlükəli və potensial təhlükəli yüklər olduqda - təhlükənin konkret növünü və belə hallarda qəbul edilməli ehtiyat tədbirləri (maddə 853).

2873. Yük daşınması müqaviləsi və onun həyata keçirilməsi formulyar şəklində tərtib edilən sənədlə (qaimə ilə) təsdiq edilə bilər. Əksi sübuta yetirilənədək qaimə nələri təsdiq edir?

- Yük göndərən ilə daşıyıcı arasında müqaviləni;
- bir və ya bir neçə daşıyıcı tərəfindən yükün daşımaya qəbul olunmasını;
- yük alan tərəfindən yükün qəbul edilməsini;
- müqavilə iştirakçılarından birinin bəyan etdiyi reklamasiyaları və ya qeyd-şərtləri;
- yük göndərənin və ya yük alanın yükə dair sərəncam vermək hüququnu;
- daşıyıcının yükə girov hüququnu (maddə 854).

2874. Qaimənin üç orijinalında yük göndərənin və daşıyıcının imzaları və ya ştempelləri olmalıdır. Qaimənin nüsxələri kimlərə verilir?

Birinci nüsxəsi yük göndərənə verilir, ikinci nüsxəsi yükü müşayiət edir, üçüncü nüsxəsi isə daşıyıcıya verilir.

2875. Qaimədə hansı məlumatlar göstərilməlidir?

- MM-in 853-cü maddəsində (Yük göndərənin zəruri məlumatları və sənədləri) göstərilən məlumatlar;
- qaimənin tərtib edildiyi yer və tarix;

- yük göndərənin adı və ünvanı;
- daşıyıcının adı və ünvanı;
- yükləmənin yeri və tarixi;
- yük yerlərinin adı və nömrələri;
- daşımanın qiyməti (yük daşınması üçün haqq, əlavə xərclər);
- zərurət olduqda daşımanın şərtləri barəsində yük göndərənin xüsusi göstərişləri.

2876. Zərurət olduqda qaimədə hansı əlavə məlumatlar göstərilə bilər?

- Yükün boşaldılıb başqa nəqliyyat vasitələrinə yüklənməsinin qadağan edilməsi;
- yük göndərənin öz hesabına qəbul etdiyi və ya yükü alana avansını verdiyi xərclər;
- yük alanın daşıyıcıya ödədiyi dəyər (yükə əlavə edilmiş, yük təhvil verilərkən icra olunmalı ödənişin məbləği);
- yükün dəyəri;
- yük göndərənin sığorta barəsində təlimatı;
- yükün daşınması üçün şərtləşdirilmiş müddətlər;
- daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı.

2877. Əgər yük göndərən hansısa məlumatları yanlış və ya natamam vermişdirsə, bununla əlaqədar bütün zərər üçün daşıyıcı qarşısında məsuliyyət daşıyırmı?

MM-in aşağıda göstərilən 854.3.2, 854.3.4-854.3.8 və ya 854.4-cü maddələrində nəzərdə tutulan məlumatları yanlış və ya natamam vermişsə, məsuliyyət daşıyır:

854.3. qaimədə aşağıdakı məlumatlar göstərilməlidir:

854.3.1. bu Məcəllənin 853-cü maddəsində göstərilən məlumatlar;

854.3.2. qaimənin tərtib edildiyi yer və tarix;

854.3.3. yük göndərənin adı və ünvanı;

854.3.4. daşıyıcının adı və ünvanı;

854.3.5. yükləmənin yeri və tarixi;

854.3.6. yük yerlərinin adı və nömrələri;

854.3.7. daşımanın qiyməti (yük daşınması üçün haqq, əlavə xərclər);

854.3.8. zərurət olduqda daşımanın şərtləri barəsində yük göndərənin xüsusi göstərişləri.

854.4. zərurət olduqda qaimədə aşağıdakı əlavə məlumatlar da göstərilə bilər:

854.4.1. yükün boşaldılıb başqa nəqliyyat vasitələrinə yüklənməsinin qadağan edilməsi;

854.4.2. yük göndərənin öz hesabına qəbul etdiyi və ya yükü alana avansını verdiyi xərclər;

854.4.3. yük alanın daşıyıcıya ödədiyi dəyər (yükə əlavə edilmiş, yük təhvil verilərkən icra olunmalı ödənişin məbləği);

854.4.4. yükün dəyəri;

854.4.5. yük göndərənin sığorta barəsində təlimatı;

854.4.6. yükün daşınması üçün şərtləşdirilmiş müddətlər;

854.4.7. daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı.

2878. Qaimənin tərtib edilmədiyi, yaxud yanlış və ya natamam tərtib edildiyi, yaxud itirildiyi halda da yük daşınması müqaviləsi qüvvədə olurmu?

Bəli.

2879. Yük göndərən yükün lazımınca qablaşdırılmasını təmin etməlidir. Bununla bağlı o hansı hallar üçün məsuliyyət daşıyır?

O, qablaşdırmanın zahirən görünməyən qüsurları üçün məsuliyyət daşıyır (maddə 855).

2880. Daşıyıcı hansı məsuliyyəti daşıyır?

Yükü daşımaya qeyd-şərtsiz qəbul edərkən mövcud olmuş zahirən görünən qüsurların nəticələri üçün

2881. Nə qədər ki yük hələ daşıyıcıdadır, yük göndərənin daşıyıcıya onun xərcləri və zərərləri üçün kompensasiya ödəyərək, yükü geri qəbul etmək və ya çatdırma yerini və yük alanı dəyişdirmək hüququ vardır. Bu müddəalar hansı hallarda tətbiq edilmir?

- Yük daşınması müqaviləsində və ya qaimədə yükə dair sərəncam verməyə yalnız yük alanın ixtiyarının çatdığı müəyyənləşdirildikdə;
- qaimənin birinci nüsxəsi yük alana verildikdə;
- yük təyinat yerinə gəldikdən sonra yük alan yükün çatdırılmasını tələb etdikdə və ya daşıyıcı qaimənin ikinci nüsxəsini yük alana verdikdə;
- yük göndərən yükün alınması barədə daşıyıcıdan qəbz aldıqda və onu qaytara bilmədikdə (maddə 856).

2882. Nə qədər ki yük hələ daşıyıcıdadır, yük göndərənin daşıyıcıya onun xərcləri və zərərləri üçün kompensasiya ödəyərək, yükü geri qəbul etmək və ya çatdırma yerini və yük alanı dəyişdirmək hüququnun tətbiq edilmədiyi hallarda daşıyıcı yük alanın göstərişlərinə hansı şərtlə əməl etməlidir?

Şərtsiz əməl etməlidir.

2883. MM-in 856.1.4-cü maddəsində (yük göndərən yükün alınması barədə daşıyıcıdan qəbz aldıqda və onu qaytara bilmədikdə) nəzərdə tutulan halda, yük təyinat yerinə gələnədək daşıyıcı bunu etməyə hansı halda borcludur?

Yalnız yükün alınması barədə yük alana qəbz çatdırıldıqda.

2884. Daşıyıcı yükün çatdırılma yerinə gəlməsi barədə yük alana hansı müddətdə bildiriş verilməlidir?

Dərhal (maddə 857).

2885. Əgər yük qəbul edilmirsə və ya yük üzrə ödənişlər həyata keçirilmirsə və ya yük alanı müəyyənləşdirmək mümkün deyilsə, daşıyıcı nə etməlidir?

Yük göndərənə bu barədə məlumat verməli və yük göndərənin riski və hesabı ilə yükü müvəqqəti saxlamaya götürməli və ya saxlama üçün üçüncü şəxsə verməlidir (maddə 858).

2886. Hansı halda ekspertin köməyi ilə daşıyıcı eynilə komisyonçu kimi yükü ixtiyarlı şəxsin xeyrinə sata bilər?

Əgər yük göndərən və yük alan şərait nəzərə alınmaqla ağlabatan müddət ərzində yükə dair zəruri sərəncamlar verməzlərsə.

2887. Əgər yük tez korlananıdsa və ya onun ehtimal edilən dəyəri xərcləri ödəmirsə, daşıyıcı nə etməlidir?

Daşıyıcı ləngimədən bu faktı rəsmən təyin edilmiş ekspertin köməyi ilə müəyyənləşdirməli və yükü çatdırılma zamanı maneələrin olduğu haldakı kimi eyni qaydada satmalıdır. Yükün satılmasına dair sərəncam verilməsi barədə iştirakçılara imkan daxilində bildiriş verməlidir.

2888. Daşıyıcı yüklə rəftar üçün ona verilmiş səlahiyyətlərin icrası zamanı mülkiyyətçinin mənafelərini maksimum müdafiə etməyə borcludur. Bu vəzifələri öz təqsiri üzündən pozduqda o, hansı qaydada məsuliyyət daşıyır?

Zərərin əvəzinin ödənilməsi üçün məsuliyyət daşıyır.

2889. Yükün itirildiyi və ya məhv olduğu halda daşıyıcı onun tam dəyərini ödəyir. Əgər yük daşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra hansı müddətdə çatdırılmazsa, əksi sübut edilənədək itirilmiş sayılır?

Üç ay ərzində (maddə 859).

2890. Bundan başqa, daşıyıcı çatdırmanın gecikdirilməsi və ya yükün zədələnməsi və ya qismən məhv olması ilə bağlı zərərin hansı hissəsi üçün məsuliyyət daşıyır?

Bütün zərər üçün.

2891. Əgər daşıyıcı yükün itirilməsinin və ya məhvinin hansı hallar nəticəsində baş verdiyini sübuta yetirərsə, MM-in 859.1-859.2-ci maddələrində nəzərdə tutulan məsuliyyət (yükün itirilməsi, zədələnməsi, qismən məhv olması və məhv olmasına görə məsuliyyət) tətbiq edilirmi?

- Risk məlum olsa da, yükün xarakteri və ya nəqliyyat vasitəsinin birbaşa təyinatı;
- yük göndərənin və ya yük alanın təqsiri və ya göstərişi;
- daşıyıcının lazımi vicdanlılığı şəraitində qarşısı alınması mümkün olmayan hallar.

2892. Daşıyıcı daşımanı tamamilə və ya qismən başqa daşıyıcının vasitəsilə həyata keçirdiyi halda da məsuliyyət daşıyırmı?

Bəli, onun daşıma üçün yükü verdiyi daşıyıcıya qarşı reqres hüququ saxlanılır.

2893. Daşıyıcıya qarşı bütün iddialar yük qeyd-şərtsiz qəbul edildikdən və ödənildikdən sonra ödənilir. Bu müddəa hansı hallarda tətbiq edilmir?

- Daşıyıcı qəsdən və ya kobud ehtiyatsızlıq üçün məsuliyyət daşıyırsa;
- əgər iddialar yükün zahirən görünən zədələrinə əsaslanırsa, yük alan bunları şərait nəzərə alınmaqla onun üçün mümkün və yolverilən müddət ərzində aşkar etdikdə və bu barədə daşıyıcıya zədələr aşkar edildikdən sonra dərhal, lakin çatdırılmadan ən geci səkkiz gün keçənədək bildiriş verdikdə.

2894. Yük göndərənin yükün mülkiyyətçisi olmadığı, lakin həmin yük barəsində yük göndərənin yükün mülkiyyətçisindən sərəncam vermək səlahiyyəti olması ilə əlaqədar daşıyıcının vicdanlı olduğu hallarda da yükə girov hüququ əldə edilirmi?

Bəli (maddə 860).

2895. Əgər daşıyıcı öz girov hüququnu həyata keçirirsə, yükün çatdırılması hansı halda tələb edilə bilər?

Yalnız mübahisəli məbləğin məhkəmədə depozitə qoyulduğu halda. Bu məbləğ fraxt verənin girov hüququ barəsində yükünü əvəz edir.

2896. Daşıyıcıya qarşı iddialar müddətin keçməsinə görə nə vaxtdan etibarən qüvvəsini itirir?

Bir ildən sonra, yəni yükün məhv olduğu, itirildiyi və ya gecikdirildiyi təqdirdə çatdırmanın həyata keçirilməli olduğu gündən, yük zədələndikdə isə onun yük alana verildiyi gündən (maddə 861).

2897. Etiraz qaydasında yük alan və ya yük göndərən hansı şərtlə istənilən vaxt öz pretenziyalarını irəli sürə bilərlər?

Bu şərtlə ki, onlar bir illik müddət ərzində reklamasiya haqqında öz tələblərini bildirmiş olsunlar və iddia yükün qəbul edilməsi nəticəsində qüvvəsini itirməsin.

2898. Hansı hallar istisna təşkil edir?

Daşıyıcının qəsdi və kobud ehtiyatsızlığı halları.

2899. Ekspeditora qarşı yaranan tələblər üzrə iddia müddəti nə qədər çəkir?

İddia qaldırmaq hüququ yarandığı andan bir il.

2900. Ekspeditora qarşı iddia qaldırılmazdan əvvəl ona yazılı formada pretenziya verilməsi məcburidir. Pretenziya hansı müddətdə verilə bilər?

İddia müddəti ərzində.

2901. Hansı hallarda ekspeditora qarşı məhkəmədə iddia qaldırıla bilər?

Ekspeditor pretenziyanı rədd etdikdə və ya qismən qəbul etdikdə, yaxud 30 gün müddətində pretenziyaya cavab vermədikdə.

47-ci FƏSİL
Turist xidmətlərinin göstərilməsinə dair münasibətlərin tənzimlənməsi üzrə suallar və cavablar

2902. Turist xidmətlərinin göstərilməsinə dair müqaviləyə görə tərəflər hansı öhdəliyi götürürlər?

Turist xidmətlərinin göstərilməsinə dair müqaviləyə görə bu xidmətlərin təşkilatçısı istifadəçiyə məcmu halda turist xidmətləri göstərməyi (turist səfəri) öhdəsinə götürür, turist isə turist xidmətlərinin təşkilatçısına şərtləşdirilmiş xidmətlərə görə şərtləşdirilmiş muzd ödəməyə borcludur (maddə 862).

2903. Turist xidmətlərinin məzmununa turist səfərinin əhatə etdiyi bir və ya bir neçə yerə aparma, habelə geriyə, səfərin başlandığı yerə gətirmə daxil ola bilər. Lakin turist xidmətləri (turist səfəri) göstərilməsi yalnız o halda baş verir ki, onun təşkilatçısı daşımadan əlavə, hansı xidmətlərdən, heç olmasa, birini göstərir?

- Qidalanma;
- mehmanxanalarda yerləşdirmə;
- təyinat məntəqəsində seyretmələr və ya mədəni tədbirlərdə iştirak.

2904. Turist səfərinin təşkilatçısı kimdir?

Turist xidmətlərinin göstərilməsinə dair müqavilə bağlayan hər hansı şəxsdir. Turist səfərinin təşkilatçısı özü daşıyıcı ola bilər və ya başqa turist xidmətləri göstərə bilər.

2905. Turist xidmətlərinin göstərilməsinə dair müqaviləyə hansı maddələr müvafiq surətdə tətbiq olunur?

MM-in 844, 845 və 847-849-cu maddələri (Sərnişinin başqa şəxslə əvəz edilməsi, sərnişin daşınması müqaviləsinin daşıma başlayanadək ləğvi, sərnişin daşınmaları zamanı qarşısıalınmaz qüvvə, sərnişinin pretenziyalarının ödənilməsi, daşıyıcının məsuliyyətinin məhdudlaşdırılması).

2906. Turist səfərinin təşkilatçısı səfəri hansı qaydada həyata keçirməlidir?

Elə həyata keçirməlidir ki, sərin qarantiya verilmiş xassələri olsun və turist səfərinin dəyərini, yaxud adi istifadəyə və ya müqavilənin məqsədlərinə uyğun istifadəyə yararlılığını istisna edən və ya azaldan qüsurları olmasın (maddə 863).

2907. MM-in 863.1-ci maddəsində göstərilmiş qüsurlar (istifadəyə yararlılığını istisna edən və ya azaldan qüsurlar) olduqda, MM-in 846.2-846.4-cü maddələri tətbiq edilir. Lakin turist xidmətlərinin göstərilməsinə dair müqavilənin ləğvinə hansı halda yol verilir?

Yalnız o halda yol verilir ki, turist səfərinin təşkilatçısı vəziyyəti düzəltmək üçün səfər iştirakçısının ona təyin etdiyi ağlabatan müddəti ötürmüş olsun.

2908. Hansı hallarda turist səfərində müddət təyin etmək tələb olunmur?

Əgər vəziyyəti düzəltmək mümkün deyildirsə və ya təşkilatçı bundan imtina edirsə və ya müqavilənin dərhal ləğv edilməsi səfər iştirakçısının xüsusi mənafelərinə uyğundur

48-ci FƏSİL
Renta müqaviləsi kontekstində suallar və cavablar

§1. Renta haqqında ümumi müddəalar

2909. Renta müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Renta müqaviləsinə görə bir tərəf (renta alan) əmlakı digər tərəfin (renta ödəyicisinin) mülkiyyətinə verir, renta ödəyicisi isə alınmış əmlakın müqabilində renta alana vaxtaşırı müəyyən pul məbləği şəklində renta ödəməyi öhdəsinə götürür (maddə 864).

2910. Renta müqaviləsinə görə rentanı müddətsiz ödəmək (daimi renta) və ya renta alanın ömrü boyu ödəmək (ömürlük renta) vəzifəsinin müəyyənləşdirilməsinə yol verilirmi?

Bəli.

2911. Renta müqaviləsi hansı formada bağlanır?

Tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə yazılı formada (maddə 865)

2912. Renta ödənilməsi üçün daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsi hansı qaydada təsdiqlənməlidir?

Notariat qaydasında

2913. Renta ödənilməsi üçün özgəninkiləşdirilən əmlakı renta alan renta ödəyicisinin mülkiyyətinə hans; formada verə bilər?

Haqq müqabilində və ya pulsuz (maddə 867)

2914. Renta müqaviləsində əmlakın haqq müqabilində verilməsinin nəzərdə tutulduğu halda əmlakın verilməsi və ödənilməsi üzrə tərəflərin münasibətlərinə alqı-satqı haqqında qaydalar, belə əmlakın pulsuz verildiyi halda isə bağışlama müqaviləsi haqqında qaydalar hansı şərtlə tətbiq edilir?

Bir şərtlə ki, MM-in bu fəslinin qaydaları ilə ayrı hal müəyyənləşdirilməsin və bu, renta müqaviləsinin mahiyyətinə zidd olmasın.

2915. Renta ilə yüklü olan daşınmaz əşyanı başqa şəxsin mülkiyyətinə vermiş şəxs renta alanın renta müqaviləsinin pozulması ilə əlaqədar əmələ gəlmiş tələbləri üzrə həmin şəxslə hansı şərtlə subsidiar məsuliyyət daşıyır?

Bir şərtlə ki, MM-də və ya müqavilədə bu öhdəlik üzrə birgə məsuliyyət nəzərdə tutulmasın (maddə 868).

2916. Torpaq sahəsi və ya digər daşınmaz əşya renta ödənilməsi üçün verildikdə renta alan renta ödəyicisinin öhdəliyinin təminatından ötrü həmin əşyaya hansı hüququ əldə edir?

Girov hüququnu (maddə 869)

2917. Pul məbləğinin və ya başqa daşınar əşyanın renta ödənilməsi üçün verilməsini nəzərdə tutan müqavilənin mühüm şərti nəyi müəyyənləşdirən şərtdir?

Renta ödəyicisinin öz öhdəliklərinin icrasına təminat vermək və ya bu öhdəlik-

lərin icra olunmaması, ya da lazımınca icra olunmaması üçün məsuliyyət riskini renta alanın xeyrinə sığorta etdirmək vəzifəsini müəyyənləşdirən

2918. Renta ödəyicisi MM-in 869.2-ci maddəsində nəzərdə tutulmuş vəzifələri (Pul məbləğinin və ya başqa daşınar əşyanın renta ödənilməsi üçün verilməsini nəzərdə tutan müqavilənin mühüm şərti renta ödəyicisinin öz öhdəliklərinin icrasına təminat verməkvə ya bu öhdəliklərin icra olunmaması, ya da lazımınca icra olunmaması üçün məsuliyyət riskini renta alanın xeyrinə sığorta etdirmək vəzifəsi) yerinə yetirmədikdə, habelə renta şərtlərinin təminatı renta alanın cavabdeh olmadığı hallara görə itirildikdə və ya pisləşdikdə renta alanın hansı hüququ vardır?

Renta müqaviləsini ləğv etmək və müqavilənin ləğvi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsini tələb etmək ixtiyarı vardır.

§2. Daimi renta

2919. Renta alan fiziki şəxslər, habelə qeyri-kommersiya təşkilatları hansı şərtlə daimi renta alanlar ola bilərlər?

Bir şərtlə ki, bu, qanuna zidd olmasın və onların fəaliyyətinin məqsədlərinə uyğun gəlsin (maddə 871).

2920. Daimi renta müqaviləsi üzrə renta alanın hüquqları MM-in 871.1-ci maddəsində göstərilmiş şəxslərə (fiziki şəxslər, habelə qeyri-kommersiya təşkilatları), tələbin güzəşti yolu ilə verilə bilər və vərəsəlik üzrə və ya hüquqi şəxslər yenidən təşkil olunduqda hüquq varisliyi qaydasında hansı şərtlə keçə bilər?

Bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

2921. Əgər daimi renta müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, daimi renta nə zaman ödənilir?

Hər təqvim rübünün sonunda (maddə 872)

2922. Əgər müqavilədə satınalmanın başqa qaydası nəzərdə tutulmayıbsa, renta ödənilməsi öhdəliyinə nə vaxtadək xitam verilmir?

Renta alan bütün satınalma məbləğini alanadək (maddə 873)

2923. Daimi renta ödəyicisinin rentanı satın almaq hüququndan imtina etməsi haqqında daimi renta müqaviləsinin şərti hansı statusa malikdir?

Əhəmiyyətsizdir.

2924. Daimi renta alan hansı hallarda ödəyicinin rentanı satın almasını tələb edə bilər?

- Daimi renta müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, renta ödəyicisi onun ödənilməsini bir ildən çox gecikdirdikdə;
- renta ödəyicisi renta ödənişini təmin etmək öhdəliklərini pozduqda;
- onun rentanı müqavilə ilə müəyyənləşdirilmiş miqdarda və müddətlərdə ödəməyəcəyinə aşkar dəlalət edən hallar yarandıqda;

- renta ödənilməsi üçün verilmiş daşınmaz əmlak ümumi mülkiyyətə daxil olduqda və ya bir neçə şəxs arasında bölüşdürüldükdə;
- müqavilədə nəzərdə tutulmuş digər hallarda (maddə 874).

2925. Hansı hallarda daimi renta ona dair müqavilə ilə müəyyənləşdirilmiş qiymətlə satın alınır?

MM-in 873-cü (Ödəyicinin daimi rentanı satın almaq hüququ) və 874-cü (Renta alanın tələbi ilə daimi rentanın satın alınması) maddələrində nəzərdə tutulmuş hallarda (maddə 875)

2926. Daimi renta ödənilməsindən ötrü əmlakın haqq müqabilində verilməsi üçün əsas götürülən daimi renta müqaviləsində satınalma qiyməti haqqında şərt olmadıqda satınalma hansı qiymətlə həyata keçirilir?

Ödəniləsi rentanın illik məbləğinə uyğun qiymətlə

2927. Daimi renta ödənilməsindən ötrü əşyanın pulsuz verilməsi üçün əsas götürülən daimi renta müqaviləsində satınalma qiyməti haqqında şərt olmadıqda, satınalma qiymətinə nələr daxil edilir?

Renta ödənişlərinin illik məbləği ilə yanaşı, verilmiş əşyanın qiyməti də

2928. Daimi renta ödənilməsi üçün pulsuz verilmiş əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski kimin üzərinə düşür?

Renta ödəyicisinin (maddə 876)

2929. Daimi renta ödənilməsi üçün haqq müqabilində verilmiş əşya təsadüfən məhv olduqda və ya təsadüfən zədələndikdə ödəyici nəyi tələb edə bilər?

Müvafiq olaraq, rentanın ödənilməsi öhdəliyinə xitam verilməsini və ya onun ödənilməsi şərtlərinin dəyişdirilməsini tələb edə bilər.

§3. Ömürlük renta

2930. Ömürlük rentanın bir neçə fiziki şəxsin xeyrinə müəyyənləşdirilməsinə yol verilir və onların payları hnsı bölgüdə sayılır?

Əgər ömürlük renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, renta almaq hüququnda onların payları bərabər sayılır (maddə 877).

2931. Əgər ömürlük renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, renta alanlardan biri öldükdə renta almaq hüququnda onun payı kimə keçir?

- Onun payı ondan çox yaşayan renta alanlara;
- sonuncu renta alan öldükdə isə rentanı ödəmək öhdəliyinə xitam verilir.

2932. Müqavilənin bağlandığı məqamda sağ olmayan fiziki şəxsin xeyrinə ömürlük renta müəyyənləşdirən müqavilə hansı statusa malikdir?

Əhəmiyyətsizdir.

2933. Əgər ömürlük renta müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, ömürlük renta nə zaman ödənilir?

Hər təqvim ayının sonunda (maddə 878)

2934. Renta ödəyicisi ömürlük renta müqaviləsini əhəmiyyətli dərəcədə pozduqda renta alan renta ödəyicisindən nəyi tələb edə bilər?

Rentanı satın almağı və ya müqaviləni ləğv etməyi və zərərin əvəzini ödəməyi (maddə 879)

2935. Əgər ömürlük renta ödənilməsi üçün mənzil, yaşayış evi və ya başqa əmlak pulsuz özgəninkiləşdirilmişdirsə, renta ödəyicisi müqaviləni əhəmiyyətli dərəcədə pozduqda renta alan nəyi tələb edə bilər?

Həmin əmlakın qaytarılmasını və onun dəyərinin rentanın satınalma qiyməti ilə əvəzləşdirilməsini

2936. Ömürlük renta ödənilməsi üçün verilmiş əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi renta ödəyicisini ömürlük renta müqaviləsində nəzərdə tutulmuş şərtlər əsasında rentanı ödəmək öhdəliyindən azad edirmi?

Xeyr (maddə 880).

49-cu FƏSİL
Barışıq razılaşması və mövcud borcun etirafı haqqında mücərrəd müqaviləyə dair suallar və cavablar

2937. Barışıq razılaşması haqqında müqaviləyə görə tərəflər öz aralarında hüquqlar və ya iddialar barəsində mübahisəni və ya qeyri-müəyyənliyi hansı qaydada həll edirlər?

Qarşılıqlı güzəştlər yolu ilə (maddə 881)

2938. Barışıq razılaşmasının qüvvəsi ondan ibarətdir ki, əvvəllər mübahisəli və ya qeyri-müəyyən olmuş hüquqlara və iddialara istinad edilməsi həmin razılaşmaya əsasən istisna edilir və hüquqi statusundan asılı olmayaraq iştirakçılar üçün yalnız barışıq razılaşmasında təsbit edilənlər etibarlı olur. Ayrı şərt haqqında razılaşma olmadıqda hansı hüquqlar qüvvədə olur?

- Hər hansı iddiaya aid təminat və üstünlük hüquqları, məsələn, girov hüquqları, mülkiyyət və zaminlik hüquqlarının saxlanması haqqında qeyd-şərt qüvvədə qalır, bu şərtlə ki, belə iddia barışıq razılaşması ilə təsdiqlənsin;
- barışıq razılaşmasının qüvvəsi barışıq razılaşması məqamında müqavilənin iştirakçısına məlum olmayan iddialara şamil edilmir.

2939. Barışıq razılaşmasının bağlanması üçün forma tələb olunmur. Lakin əgər barışıq razılaşmasında hər hansı formanın gözlənilməsini tələb edən əqdlər vardırsa, razılaşma bu əqdlər üçün tələb edilən forma üzrə tərtib olunmalıdır, amma hansı hallar istisnadır?

Barışıq razılaşmasının məhkəmə qaydasında protokol şəklində tərtib olunduğu hallar

2940. Hansı hallarda barışıq razılaşmasının qüvvəsi yoxdur?

Əgər müqavilə iştirakçıları hüquq münasibətlərini və ya iddiaları həyata keçirə bilmirlərsə, xüsusən məcburi qüvvəyə malik qanuni göstərişlərlə əlaqədar həyata keçirə bilmirlərsə

2941. Borcun etiraf edilməsini, həm də öhdəliyə əsas verən şəkildə etiraf edilməsini nəzərdə tutan hər hansı müqavilənin (mövcud borcun etirafı haqqında mücərrəd müqavilənin) hansı halda qüvvəsi vardır?

Yalnız o halda qüvvəsi vardır ki, borc öhdəliyi yazılı şəkildə və mövcudluğu etiraf edilən borcun əsaslandırılması üçün müəyyənləşdirilmiş forma üzrə verilsin (maddə 882).

2942. Hansı halda mövcud borcun etirafı haqqında mücərrəd müqaviləyə əsaslanan iddiaya qarşı başlıca əqddən irəli gələn heç bir etiraz irəli sürülə bilməz?

MM-də nəzərdə tutulan başqa göstərişlər olmadıqda

2943. Bu zaman MM-in hansı maddəsi tətbiq olunur?

- 881.5-ci maddəsi:
- əgər müqavilə iştirakçıları hüquq münasibətlərini və ya iddiaları həyata keçirə bilmirlərsə, xüsusən məcburi qüvvəyə malik qanuni göstərişlərlə əlaqədar həyata keçirə bilmirlərsə, barışıq razılaşmasının qüvvəsi yoxdur.

2944. MM-in 882.1-882.3-cü maddələri (Mövcud borcun etirafı haqqında mücərrəd müqavilə) hansı müqaviləyə müvafiq surətdə tətbiq edilir?

Öhdəliyin icrasının qəbul edilməsini, həm də bu barədə vədin öhdəliyə əsas verən şəkildə qəbul edilməsini nəzərdə tutan hər bir müqaviləyə (öhdəliyi öz üzərinə götürmək haqqında müqaviləyə)

2945. Hansı halda formaya riayət edilməsi məcburi deyildir?

Əgər borc hesablaşmaya (ödənişə) əsasən və ya razılaşma yolu ilə etiraf olunmuşsa

50-ci FƏSİL
Sığorta müqaviləsi çərçivəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsinə dair suallar və cavablar

§ 1. Sığorta haqqında ümumi müddəalar

2946. Sığorta müqaviləsi hansı mahiyyətə malikdir?

Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır (maddə 883).

2947. Təkrarsığorta müqaviləsi hansı mahiyyətə malikdir?

Təkrarsığorta müqaviləsi təkrarsığortalının müvafiq təkrar sığorta haqqı ödəməsi müqabilində sığortaladığı risklərin bütövlükdə və ya bir hissəsinin təkrar sığortaçıya ötürülməsi və ya onunla bölüşdürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

2948. Sığorta münasibətləri nəyə əsaslanır?

Sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, qanunla qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə bağlı olan əmlak mənafelərinin müdafiəsi sahəsində risklərin ötürülməsinə və ya bölüşdürülməsinə (maddə 884)

2949. Kimlər sığorta münasibətlərinin subyektləridir?

Sığorta və ya təkrar sığorta müqaviləsinin tərəfi olan, yaxud belə müqavilənin həyata keçirilməsi üzrə hüquqlara və (və ya) vəzifələrə malik olan şəxslər

2950. Sığortaçı kimdir?

İcbari sığorta üzrə icbari sığorta növlərinin həyata keçirilməsini tənzimləyən qanunlarda (bundan sonra - icbari sığorta qanunları), könüllü sığorta üzrə sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfidir.

2951. Sığortalı kimdir?

Sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir.

2952. Sığorta olunan kimdir?

Əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir. Şəxsi sığorta üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmayıbsa, sığortalı eyni zamanda sığorta olunan sayılır. Əmlak sığortası üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmasından asılı olmayaraq, sığortalının sığorta olunan kimi tanınması heç bir halda, o cümlədən müqavilə şərtləri ilə məhdudlaşdırıla bilməz.

2953. Faydalanan şəxs kimdir?

Faydalanan şəxs icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır.

2954. Əmlak sığortası üzrə kim zərərçəkən sayılır?

Əmlak sığortası üzrə sığorta hadisəsi nəticəsində zərər dəymiş əmlakla bağlı sığorta marağı olan istənilən şəxs həmin əmlakın mülkiyyətçisi olub-olmamasından asılı olmayaraq zərərçəkən sayılır.

2955. Şəxsi sığorta üzrə kim zərərçəkən sayılır?

Şəxsi sığorta üzrə sığorta hadisəsi nəticəsində sağlamlığına zərər dəymiş şəxs, onun öldüyü halda isə ailə üzvləri zərərçəkən sayılır.

2956. Təkrarsığortaçı kimdir?

İlkin sığortaçı və ya ilkin təkrarsığortaçı tərəfindən bağlanmış sığorta və ya təkrarsığorta müqavilələri əsasında sığortalanmış (təkrarsığortalanmış) riskləri təkrarsığortalayan (təkrarsığortaya qəbul edən) təkrarsığorta müqaviləsinin tərəfidir.

2957. Təkrarsığortalı kimdir?

Sığortaladığı və ya təkrarsığortaladığı riskləri təkrarsığorta müqaviləsi əsasında təkrarsığorta etdirən (təkrarsığortaya ötürən) sığortaçı və ya təkrarsığortaçıdır (maddə 884).

2958. Sığorta hansı sahələrə bölünür?

-Sığortaçıların fəaliyyət istiqamətləri baxımından həyat sığortası və qeyri-həyat sığortası (ümumi sığorta) sahələrinə;

-sığorta obyekti baxımından şəxsi sığorta və əmlak sığortası sahələrinə (maddə 885)

2959. Həyat və qeyri-həyat sığortası sahələrinin hər biri hansı sığorta siniflərindən ibarətdir?

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsində nəzərdə tutulmuş sığorta siniflərindən (Həyat və qeyri-həyat sığortası, onlara aid olan sığorta sinifləri)

2960. Həyat sığortası sahəsinə aid olan sığorta sinifləri sığorta obyektinə görə hansı sğortaya aiddir?

Yalnız şəxsi sığortaya

2961. Qeyri-həyat sığortası sahəsinə aid olan sığorta sinifləri hansı sığortaya aid ola bilər?

Həm şəxsi, həm də əmlak sığortasına

2962. Aqrar sığorta sistemi ilə əhatə olunan münasibətlər hansı qaydada tənzimlənir?

MM, "Sığorta fəaliyyəti haqqında" və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə (maddə 885-1)

2963. Sığorta obyekti nədir?

Sığortalının, yaxud sığorta olunanın qanunazid olmayan hər hansı əmlak mənafeyidir (maddə 886).

2964. Nələr sığorta obyekti ola bilməz?

Qanunazid mənafelər, həmçinin qanuni, lakin sığortalanması qadağan olunan mənafelər, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və digər qanunlarda nəzərdə tutulmuş cərimələr, habelə oyunlarda, mərclərdə, lotereyalarda iştirakla bağlı mənafelər

2965. Sığorta predmeti nədir?

Sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır.

2966. Şəxsi sığortanın obyektləri nələrdir?

Sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə bağlı əmlak mənafeləridir (maddə 887).

2967. Şəxsi sığorta zamanı kimlər sığortalana bilər?

Həm sığortalı özü, həm də müqavilədə göstərilən başqa şəxs (sığorta olunan)

2968. Əmlak sığortasının obyektləri nələrdir?

Sığortalının əmlaka sahibliyi, ondan istifadəsi və (və ya) ona sərəncam verməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, digər fiziki şəxslərin sağlamlığına xəsarət yetirməsi və ya fiziki şəxslərin əmlakına, həmçinin hüquqi şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi, istehsalat fəaliyyəti ilə bağlı əmlak mənafeləridir (maddə 888).

2969. Əmlakın sığortası zamanı hansı risklər sığortalanır?

Əmlakın zədələnməsi, itirilməsi (məhv olması) və çatışmazlığı, eyni zamanda əmlak hüquqlarının itirilməsi ilə bağlı risklər

2970. Mülki məsuliyyətin sığortası zamanı hansı risklər sığortalanır?

Üçüncü şəxslərin həyatına, sağlamlığına, yaxud əmlakına zərər vurulması nəticəsində yaranan öhdəliklərə görə (zərər vurmağa görə mülki məsuliyyətin sığortası), habelə mülki-hüquqi müqavilələrlə bağlı yaranan məsuliyyətə görə (müqavilə şərtlərini pozmağa görə mülki məsuliyyətin sığortası) risklər

2971. Qarışıq maliyyə risklərinin, kredit risklərinin, ticarət və investisiya risklərinin, tapşırıq və qarantiya risklərinin, məhkəmə xərclərinin, habelə MM-in 888.1-ci maddəsində nəzərdə tutulmuş əmlak mənafeləri ilə bağlı digər risklərin sığortası da obyektinə görə əmlak sığortasına aid edilirmi?

Bəli.

2972. Sığorta marağı nədir?

Sığorta hadisəsinin baş verəcəyi təqdirdə şəxsin maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir (maddə 889).

2973. Sığorta marağının mövcudluğu hansı qaydada tanınır?

Qanunla və ya mülki-hüquqi müqavilə ilə tanınır. Şəxslə sığorta predmeti arasında bu cür tanınan əlaqə yoxdursa, sığorta marağının mövcud olmadığı hesab edilir.

2974. Sığorta marağı mövcud olmadan bağlanan sığorta müqaviləsi hansı andan etibarsızdır?

Bağlandığı andan

2975. Sığorta marağının gələcəkdə əldə edilməsi ehtimalı müvafiq sığorta müqaviləsinin bağlanması üçün əsasdırmı?

Xeyr.

2976. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta marağı itərsə, bu hansı nəticəni yaradır?

Sığorta müqaviləsinə xitam verilməlidir.

2977. Əmlak sığortası üzrə sığorta hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda bu nə ilə nəticələnir?

Həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir.

2978. Təkrarsığortanın mahiyyəti nədir?

Sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı və ya təkrar sığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin təkrarsığortaçı ilə bölüşdürülməsi və ya təkrarsığortaçıya ötürülməsidir (maddə 890).

2979. Təkrarsığortanın şərtləri hansı qaydada müəyyən edilir?

Təkrarsığortaçı və təkrarsığortalı arasında yazılı formada bağlanan təkrarsığorta müqaviləsi ilə

2980. Sığortaçı və ya təkrarsığortaçı sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığortaladığı (təkrar sığortaladığı) riskləri təkrarsığorta etdirərkən müvafiq sığortalıların və ya təkrarsığortalıların razılığı tələb olunurmu?

Xeyr.

2981. Təkrarsığorta hansı forma və növlər üzrə aparıla bilər?

Fakültətiv və ya obliqator formada, mütənasib və ya qeyri-mütənasib növlər üzrə

2982. Mütənasib təkrarsığorta nədir?

Müvafiq sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyi təqdirdə, təkrarsığortaçının təkrarsığorta müqaviləsi üzrə qəbul etdiyi sığorta riskinə mütənasib məbləğdə sığorta ödənişi vermək öhdəliyinin müəyyən edildiyi təkrarsığorta növüdür.

2983. Qeyri-mütənasib təkrarsığorta nədir?

Müvafiq sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyi təqdirdə, təkrarsığortaçının təkrarsığortalının şəxsi tutumundan artıq olan məbləğdə sığorta ödənişi vermək öhdəliyinin müəyyən edildiyi təkrarsığorta növüdür.

2984. Fakültətiv təkrarsığorta nədir?

Hər bir riskin ayrılıqda qiymətləndirilməsinə əsasən onun təkrarsığortalanmasını nəzərdə tutan təkrarsığortanın formasıdır.

2985. Obliqator təkrarsığorta nədir?

Təkrarsığorta müqaviləsi ilə müəyyən olunan şərtlərə cavab verən bütün risklərin təkrarsığortalanmasını nəzərdə tutan təkrarsığortanın formasıdır.

2986. MM-in 891.2-ci maddəsi (Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azaddır.) nəzərə alınmaqla, sığorta müqaviləsi üzrə sığortaladığı riskləri təkrarsığorta etdirən sığortaçı (təkrarsığorta müqaviləsinə əsasən təkrarsığortalı) həmin sığorta müqaviləsinə görə sığortalı qarşısında hansı qaydada öhdəlik daşıyır?

Tam və birbaşa (maddə 891)

2987. Sığortaçı hansı həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azaddır?

Sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə

2988. MM-in 891.4-cü maddəsi (Təkrarsığortaçı müvafiq riskləri təkrarsığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçıda yenidən təkrarsığorta etdirərsə, müvafiq təkrarsığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən ikinci təkrarsığortaçının öhdəliklərini icra edə bilmədiyi həddə azaddır) nəzərə alınmaqla, təkrarsığorta müqaviləsi üzrə təkrar sığortaladığı riskləri yenidən təkrarsığorta etdirən təkrarsığortaçı təkrarsığortalı qarşısında hansı həddə öhdəlik daşıyır?

Tam və birbaşa

2989. Təkrarsığortaçı müvafiq riskləri təkrarsığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçıda yenidən təkrarsığorta etdirərsə, müvafiq təkrarsığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən hansı həddə azaddır?

İkinci təkrarsığortaçının öhdəliklərini icra edə bilmədiyi həddə

2990. Təkrarsığortaçı təkrarsığortalıdan hansı sənədləri tələb etmək hüququna malikdir?

Müvafiq sığorta qaydalarını və müqavilələrini, həmçinin sığorta hadisəsi baş verdikdə müvafiq təsdiqedici sənədləri və ya onların surətlərini tələb etmək (maddə 892)

2991. Şərikli sığorta nədir?

Bir neçə sığortaçının aralarında bağladıqları müqaviləyə müvafiq olaraq, sığorta ödənişi üzrə öhdəlikləri bölüşdürməklə sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta risklərini eyni zamanda sığortalamaları ilə bağlı fəaliyyət və bununla əlaqədar yaranan münasibətlərdir (maddə 893).

2992. Hansı sığortaçı şərikli sığortada iştirak edə bilməz?

Müvafiq sığorta növü üzrə fəaliyyət göstərməyə icazəsi olmayan sığortaçı

2993. Qrup halında sığorta zamanı nələr sığortalanır?

Bir sığorta müqaviləsi ilə bir neçə sığorta predmeti (maddə 894)

2994. Şəxsi sığortaya aid olan qrup halında sığorta zamanı sığortalı hansı hərəkətləri icra etməlidir?

Sığorta olunanın kimliyi göstərilən sığorta müqaviləsində sığorta olunan şəxslərin hər birini sığorta müqaviləsinin onlara aid olan bütün şərtləri ilə tanış etməlidir. Bu halda sığorta olunanların sığorta müqaviləsi ilə müvafiq şəkildə tanış edilməsini təsdiq edən sənəd (siyahı və s.) sığorta şəhadətnaməsinin ayrılmaz tərkib hissəsidir.

2995. Qrup halında sığorta zamanı sığorta olunanın kimliyi göstərilməyən şəxsi sığorta müqaviləsində və ya sığortalanan əmlak fərdi şəkildə qeyd olunmayan əmlak sığortası müqaviləsində sığorta olunan şəxslərin və ya əmlak sığortası müqaviləsində sığortalanan əmlakın dairəsi hansı dərəcədə konkretləşdirilməlidir?

O dərəcədə konkretləşdirilməlidir ki, sığorta hadisəsini, onun nəticələrini və sığorta predmeti üzrə verilməli olan sığorta ödənişinin miqdarını müvafiq olaraq hər bir sığorta olunana və ya sığortalanan əmlaka münasibətdə fərdiləşdirmək mümkün olsun.

2996. Sığorta müqaviləsi bağlanan andakı həqiqi, yəni sığorta dəyərindən artıq məbləğdə əmlakın eyni risklərdən iki və ya daha çox sığortaçıda sığortalanması halında (ikili və ya çoxqat sığorta halında), sığorta hadisəsinin baş verdiyi zaman dəyən zərər üzrə sığortaçılardan hər biri hansı şərtlə öhdəlik daşıyır?

Onunla bağlanmış sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta məbləğinə mütənasib qaydada, ümumilikdə sığorta dəyərindən artıq olmamaq şərti ilə (maddə 895)

2997. Əmlak sığortalı tərəfindən qanunsuz gəlir əldə etmək məqsədilə bir və ya bir neçə sığorta müqaviləsi əsasında onun həqiqi dəyərindən artıq məbləğə sığorta etdirildikdə, bu məqsədlə bağlanmış hər bir sığorta müqaviləsi hansı andan etibarsız sayılır?

Bağlandığı andan. Bu halda sığortalının qanunsuz gəlir əldə etmək məqsədi məhkəmə qaydasında sübut edilməlidir.

2998. Əmlakın sığortası üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında), sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində hansı şərtlə ödəyir?

Bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun (maddə 896).

2999. Sığorta hadisəsi nəticəsində qismən sığortalanmış əmlakın tam məhv olması halında sığorta məbləği bütünlüklə ödənildikdə, sığorta predmetinin qalıqlarına olan hüquq sığortaçıya hansı həcmdə keçir?

Sığorta ödənişi məbləğinin sığorta dəyərinə olan nisbətində

3000. Sığorta hadisəsinin baş verdiyi zaman hansı halda sığorta təminatı qismən sığorta kimi qiymətləndirilə bilməz?

- MM-in 930.1-ci maddəsində nəzərdə tutulmuş halda:

- icbari sığorta qanunlarında və ya sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə

üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, lakin sığorta müqaviləsi üzrə təminat qismən sığorta təminatı sayılmır. İcbari sığorta qanunlarında başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil.

3001. Xeyrinə icbari sığorta müqaviləsi bağlanmalı olan şəxs sığortalanmadığını bildikdə hansı hüquqa malikdir?

Onu sığorta etdirmək vəzifəsi olan şəxsdən sığorta etdirilməsini məhkəmə qaydasında tələb etmək hüququna (maddə 897)

3002. İcbari sığorta qanunları ilə icbari sığorta etdirmək vəzifəsi müəyyən olunmuş şəxs bu vəzifəni yerinə yetirmədikdə və ya müvafiq sığorta müqaviləsini həmin qanunlarda nəzərdə tutulmuş şərtlərlə müqayisədə sığorta olunanın vəziyyətini pisləşdirən şərtlərlə bağladıqda həmin şəxs müvafiq icbari sığorta üzrə sığorta hadisəsi kimi tanına bilən hadisənin baş verdiyi, yaxud halın yarandığı zaman sığorta olunan qarşısında hansı həddə öhdəlik daşıyır?

Ən azı həmin icbari sığorta üzrə qanunvericiliklə müəyyən edilmiş sığorta təminatı həddində

3003. İcbari sığorta qanunlarında fərqli müddəaların nəzərdə tutulduğu hallar istisna olmaqla, icbari sığorta növlərinin həyata keçirilməsindən irəli gələn münasibətlər hansı qanunlarla tənzimlənir?

MM və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

3004. Azadolma məbləği nədir?

Sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən zərər məbləğindən, qismən sığorta halında isə sığortaçının zərər məbləğindəki payından çıxılır (maddə 898).

3005. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, hansı hallarda azadolma məbləği tətbiq edilmir?

Sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə

3006. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda həmin məbləğ hansı halda tətbiq edilir?

Hər bir halda.

3007. Sığorta müqaviləsində gözləmə müddəti nəzərdə tutulduqda sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin əvəzinin ödənilməsi kimin üzərində qalır?

Sığortalının.

3008. Hansı halda sığorta hadisəsinin nəticələrinin həmin müddətə bərabər və ya ondan artıq müddətdə davam etməsi şərti ilə sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə də şamil edilir?

Şərtli gözləmə müddəti müəyyən edildikdə

3009. Hansı halda sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmir?

Sığorta müqaviləsində şərtsiz gözləmə müddəti müəyyən edildikdə

§2. Sığorta müqaviləsinə dair başlıca tələblər

3010. Sığorta müqaviləsi yazılı olaraq hansı formada bağlanır?

- Tərəflərin müvafiq sığorta qaydaları əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;
- müvafiq sığorta qaydaları ilə sığortalının razı olmasını təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;
- icbari sığorta qanunlarında nəzərdə tutulmuş digər qaydada (maddə 899).

3011. MM-in 899.1-ci və 899.2-ci maddələrinə (Sığorta müqaviləsinin formasına) əməl edilməməsinə görə kim məsuliyyət daşıyır?

Sığortaçı.

3012. MM-in 899.1.1-ci maddəsində nəzərdə tutulmuş halda (tərəflərin müvafiq sığorta qaydaları əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə) sığorta müqaviləsində nələr göstərilməlidir?

- Sığortaçının adı və ünvanı;
- sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i) və ünvanı;
- sığorta predmeti və yerləşdiyi ünvan, həmçinin sığorta olunan(lar)ın adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı, doğum tarixi, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i) və ünvanı;
- faydalanan şəxsin adı (fiziki şəxs olduqda həmçinin soyadı, atasının adı, doğum tarixi, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i) və ünvanı;
- sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;
- sığorta haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası;
- sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;
- sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi, həmçinin ona xitam verilməsi qaydası;
- sığorta müqaviləsi üzrə təminat verilən sığorta riskləri, eyni zamanda əgər bu barədə razılaşdırılıbsa, müvafiq sığorta qaydalarında nəzərdə tutulmuş əlavə sığorta təminatları;
- sığorta ödənişinin verilməsi qaydası və əsasları;
- sığorta ödənişinin verilməsindən imtinanın əsasları;
- sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;
- mübahisələrin həlli qaydası;
- sığorta müqaviləsinin tərəflərinin qarşılıqlı razılaşması əsasında müəyyən edilən digər şərtlər;
- sığorta müqaviləsinin tərəflərinin imzaları, hüquqi şəxs olduqda həmçinin möhürləri (maddə 900).

3013. İcbari sığorta müqaviləsinin bağlanması qaydası hansı qanunlar ilə müəyyən edilir?

İcbari sığorta qanunları ilə

3014. Hansı hallar istisna olmaqla, sığortaçı sığortalıya sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən sənəd - sığorta şəhadətnaməsi verməlidir?

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda başqa cür nəzərdə tutulan hallarda.

3015. Bu tələb həmçinin hansı hala da şamil edilir?

Sığorta müqaviləsinin MM-in 899.1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada (tərəflərin müvafiq sığorta qaydaları əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə) bağlandığı hala da (maddə 901)

3016. Hansı halda sığorta şəhadətnaməsi sığortalının yazılı tələbi ilə sığorta olunana da verilə bilər?

Müqavilə üzrə sığorta olunan eyni zamanda sığortalı olmadıqda

3017. Əgər "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda və sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta şəhadətnaməsi hansı müddətdə verilməlidir?

Sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün, qrup halında sığorta zamanı isə sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən 3 iş günü müddətində

3018. Hansı müddətdə sığortaçı sığortalını və ya sığorta olunanı müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta şəhadətnaməsinin dublikatı ilə təmin etməlidir?

MM-in 901.4-cü maddəsində nəzərdə tutulmuş tələbin (sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda sığortalı və ya sığorta olunanın onun dublikatını tələb etməsi) yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində

3019. Sığorta şəhadətnaməsində nələr göstərilməlidir?

- Sığortaçının adı və ünvanı;
- sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i) və ünvanı;
- sığorta predmeti və onun olduğu yer, yaxud sığorta olunanın adı (fiziki şəxs olduqda həmçinin soyadı, atasının adı, doğum tarixi, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i) və ünvanı;
- sığorta riskləri;
- sığorta məbləği;
- sığorta haqqının məbləği, onun verilməsi qaydası və müddəti;
- sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;
- sığorta müqaviləsinin aid olduğu digər şəxslər (faydalanan şəxs, sığorta agenti və sığorta brokeri) varsa, onların adı (fiziki şəxs olduqda həmçinin soyadı, və atasının adı, fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i) və ünvanı;
- sığortaçının sığorta şəhadətnaməsini, sığortalının isə müvafiq sığorta qaydaları ilə tanış olmasını təsdiq edən imzaları və (və ya) möhürləri (maddə 902).

3020. Sığorta haqqının mahiyyəti nədən ibarətdir?

Sığorta haqqı risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir (maddə 903).

3021. Sığorta haqqının miqdarı və ya onun hesablanması və ödənilməsi qaydası hansı qaydada müəyyən edilir?

Könüllü sığortada sığorta müqaviləsi ilə, icbari sığortada isə icbari sığorta qanunları ilə

3022. Sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsi razılaşdırıla bilərmi?

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmamışdırsa, edilə bilər.

3023. Sığorta müqaviləsi nə zaman qüvvəyə minir?

Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra

3024. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün MM-in 903.6-cı maddəsinin tələbini (hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir) nəzərə alaraq yazılı surətdə nə qədər müddət müəyyən edə bilər?

15 günədək

3025. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi hansı müddətdə ödənilməlidir?

Sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq

3026. Elektron sənəd formasında olan sığorta müqaviləsi üzrə sığorta haqqının ödənilməsi hansı faktları təsdiqləyir?

Sığortalının müvafiq sığorta qaydaları və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin qaydalar və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını

3027. Sığorta məbləğinin mahiyyəti nədən ibarətdir?

Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir (maddə 904).

3028. Sığorta məbləği hansı qaydada müəyyənləşdirilir?

İcbari sığorta üzrə icbari sığorta qanunları ilə, könüllü sığorta üzrə sığorta müqaviləsi ilə

3029. Hansı hallar istisna olmaqla, tərəflər əmlakın sığorta müqaviləsində müəyyən edilmiş dəyərini mübahisələndirə bilməzlər?

Sığortalanan əmlak barəsində sığortaçıya sığortalı tərəfindən qəsdən yanlış məlumat verilməsinin sübut edildiyi hallar istisna olmaqla (maddə 905)

3030. İcbari sığorta qanunlarında və ya könüllü sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti nə zaman başlayır və nə zaman başa çatır?

Sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və icbari sığorta qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır (maddə 906).

3031. Sığorta müqaviləsi üzrə sığorta təminatı nə zaman başa çatmış hesab edilir?

MM-in 919.1.1–919.1.8-ci maddələrində nəzərdə tutulmuş hər hansı hal baş verdikdə, yəni:

- sığorta predmeti artıq mövcud olmadıqda;
- sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda;
- sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;
- icbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilir;
- sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
- sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;
- sığortalı sığorta haqqını icbari sığorta qanunlarında və ya sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
- sığorta marağı artıq mövcud olmadıqda həmin halın baş verdiyi andan,

MM-in 919.1.9-cu maddəsində nəzərdə tutulmuş halda, yəni sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə isə MM-in 920.2-ci maddəsi ilə müəyyən edilmiş müvafiq müddətin sonuncu gününün (30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl)) bitməsi anından.

3032. İcbari sığorta qanunları ilə üzərinə icbari qaydada sığorta etdirmək vəzifəsi qoyulan şəxs hansı öhdəliyi daşıyır?

Müvafiq icbari sığorta növünü aparmağa icazəsi olan sığortaçını sərbəst seçmək hüququndan istifadə etməklə müvafiq icbari sığorta müqaviləsini bağlamağa borcludur (maddə 907).

3033. İcbari sığorta növünü aparmağa icazəsi olan sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari sığorta müqaviləsi bağlamaqdan hansı halda imtina edə bilər?

İmtina edə bilməz.

3034. Sığortalı qismində sığorta etdirməli olan şəxsin, eləcə də sığortaçı qismində sığortalamağa borclu olan sığortaçının müvafiq icbari sığorta müqaviləsini bağlamaması hansı məsuliyyətə səbəb olur?

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş

3035. Əqdlərin etibarsızlığının MM ilə nəzərdə tutulmuş ümumi əsasları ilə yanaşı, sığorta müqaviləsi hansı hallarda bağlandığı andan etibarsız sayılır?

- Sığorta obyekti məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə (qərarına) əsasən müsadirə edilməli əmlakla bağlı olduqda;
- sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;
- sığorta müqaviləsi bağlandığı anda sığorta predmeti mövcud olmadıqda;
- sığorta obyekti sığortalının qeyri-qanuni mənafeləri ilə, həmçinin sığortalanmasına qadağan olunmuş mənafeləri ilə bağlı olduqda;
- əmlak bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində;
- sığorta qaydalarında nəzərdə tutulmayan və sığortalının vəziyyətini pisləşdirən əlavə şərtlər sığorta müqaviləsinə daxil edildikdə həmin şərtlərə münasibətdə;
- sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);
- sığorta marağı mövcud olmadıqda (maddə 908)

3036. Sığortaçı sığorta müqaviləsinin bağlanmasının MM-in 899.1-ci maddəsində nəzərdə tutulmuş qaydalarına əməl olunmamasına görə öz vəzifələrinin yerinə yetirilməsindən imtina etmək üçün sığorta müqaviləsinin etibarsız olmasını iddia edə bilərmi?

Xeyr.

3037. Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi (şəxsləri) faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək onu dəyişdirmək hüququna malikdir. Girov və lizinq münasibətlərinin şərti kimi tətbiq edilən sığorta müqavilələri üzrə faydalanan şəxs (şəxslər) hansı qaydada təyin edilə və ya dəyişdirilə bilər?

Müvafiq olaraq girov saxlayanın və ya lizinq verənin razılığı ilə (maddə 909)

3038. Girov qoyulan əmlakın sığortası müqaviləsində girov saxlayan yalnız hansı həddə ödəniş almaq hüququna malik olan faydalanan şəxs kimi tanına bilər?

Sığorta ödənişinin verilməsi anında borclunun (girov qoyanın) ona olan borc məbləği həddində

3039. Öz həyatını sığorta etdirən fiziki şəxs müvafiq sığorta müqaviləsində faydalanan şəxs qismində kimləri təyin edə bilər?

İstənilən şəxsi (şəxsləri)

3040. Şəxsi sığortada sığortalı həm də sığorta olunan olmadıqda sığorta müqaviləsinin bağlanmasına hansı şərtlə yol verilir?

Sığorta olunanın (və ya onun qanuni nümayəndəsinin) müqavilənin onun xeyrinə bağlanması təklifi ilə yazılı qaydada tanış edilməsi şərti ilə (maddə 910)

3041. Sığorta müqaviləsi bağlanarkən sığortalı hansı sənədlər ilə tanış olmaq hüququna malikdir?

Sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə (maddə 911)

3042. Sığorta müqaviləsi bağlanarkən sığortalı hansı hallar barədə sığortaçıya məlumat verməlidir?

Özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə

3043. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan sığortalı bu barədə kimə məlumat verməlidir?

Sığortaçılardan hər birinə

3044. Həmin məlumatda nələr göstərilməlidir?

Digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

3045. Sığortalı MM-in 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan hansı hallar (Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar) barədə sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat verməlidir?

Bütün dəyişikliklər barədə (maddə 912)

3046. Girov və lizinq münasibətlərinin şərti kimi tətbiq edilən sığorta müqavilələri üzrə MM-in 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla (Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar) bağlı sonradan meydana çıxan dəyişikliklər barədə sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat vermək kimin vəzifəsidir?

Həmin dəyişikliklərdən xəbərdar olan girovsaxlayan və ya lizinqverənin

3047. MM-in 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla (Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar) bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan hər hansı dəyişiklik barədə kimin məlumatlandırılması sığortaçının məlumatlandırılması hesab edilir?

Sığortaçının adından çıxış edən sığorta vasitəçisinin

3048. Sığorta müqaviləsi bağlanarkən sığortaçı, sığorta brokeri və ya sığorta agenti sığortalını icbari sığortanın şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış etməlidir. Bu zaman sığortalıya nələri özündə əks etdirən, hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş yaddaş vərəqi verməlidir?

Sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi zaman necə hərəkət etməyi, sığortaçının sığorta ödənişindən imtina etməsinin qanuni əsaslarını əks etdirən yaddaş vərəqi (maddə 913)

3049. Əmlak sığortası müqaviləsi bağlayarkən sığortaçı sığortalanan predmetə baxış keçirməkdən əlavə hansı hüquqlara malikdir?

Fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirmək, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədilə "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələblərini nəzərə almaqla (Azərbaycan Respublikasının sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxslərinin və müstəqil ekspertlərinin yalnız qanunla nəzərdə tutulmuş reyestrə daxil edilmiş olduqları halda sığorta əməliyyatları üzrə xidmət göstərmək üçün cəlb olunmasına yol verilməsi) müstəqil ekspert təyin etmək (maddə 914)

3050. Sığortaçı sığortalanan əmlakı, həmçinin sığorta risklərini hansı qaydada qiymətləndirir?

Bilavasitə özü və ya "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələblərini nəzərə almaqla (Azərbaycan Respublikasının sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxslərinin və müstəqil ekspertlərinin yalnız qanunla nəzərdə tutulmuş reyestrə daxil edilmiş olduqları halda sığorta əməliyyatları üzrə xidmət göstərmək üçün cəlb olunmasına yol verilməsi) təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə

3051. Şəxsi sığorta müqaviləsi bağlandıqda sığortaçı sığorta olunan şəxsin səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədilə nəyi tələb edə bilər?

Onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq öz hesabına və ya sığortalının hesabına müayinə olunmasını

3052. Sığortaçının təklif etdiyi könüllü sığorta növünün aparılmasının əsaslandığı, həmin sığorta növü üzrə qayda və şərtlərin məcmusu olan sığorta qaydaları hansı qaydada müəyyən edilir?

MM-in və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, sığortaçının özü tərəfindən və ya "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16.5-ci və 16.6-cı maddələrində nəzərdə tutulmuş digər qaydada (maddə 915)

3053. Sığorta qaydalarında nələr müəyyən edilməlidir?

- Müvafiq sığorta növünün aid olduğu və ya bu növdə birləşdirilmiş sığorta sinifləri;
- sığorta predmetlərinin – sığorta olunanların, sığortalanan əşyaların və ya halların konkret kateqoriyası;
- sığorta məbləğlərinin müəyyən edilməsi qaydası;
- sığorta riskləri;
- sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatında məhdudiyyətlər;
- sığorta müqaviləsinin bağlanması, həmçinin ona əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası;
- tərəflərin hüquqları və vəzifələri;
- sığorta hadisəsi baş verdikdə sığortalının vəzifələri;
- sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri, sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin konkret siyahısı;
- sığorta ödənişinin verilməsindən imtinanın əsasları;

- sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti;

- sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;

- mübahisələrin həlli qaydası;

- sığorta tarifləri və onların iqtisadi əsaslandırılması (maddə 916).

3054. MM-in 916.1-ci maddəsində nəzərdə tutulmuş məsələlərdən (müvafiq sığorta növünün aid olduğu və ya bu növdə birləşdirilmiş sığorta sinifləri, sığorta predmetlərinin – sığorta olunanların, sığortalanan əşyaların və ya halların konkret kateqoriyası, sığorta məbləğlərinin müəyyən edilməsi qaydası, sığorta riskləri, sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatında məhdudiyyətlər və s.) əlavə olaraq aqrar sığortaya aid sığorta qaydalarında daha hansı məsələlər müəyyən edilir?

"Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər məsələlər də

3055. MM-in 916.1.5-ci maddəsində nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər (sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatında məhdudiyyətlər) sığorta təminatına daxil edilə bilərmi?

Sığorta müqaviləsində razılaşdırılmaqla, edilə bilər.

3056. Sığorta olunanın sığortaçının mənfəətində iştirak etməsi şərti ilə bağlanan həyat sığortası müqaviləsində hansı qayda göstərilməlidir?

Mənfəətin bölüşdürülməsi qaydası (maddə 917)

3057. Sığortalının həyat sığortası müqaviləsinin bağlanması zamanı özünün məlumat vermək vəzifəsini icra etməməsi hansı müddətdən sonra sığortaçının müqavilə üzrə vəzifələrinin icrasından imtina etməsi üçün əsas ola bilməz?

Müqavilənin bağlandığı vaxtdan 5 il müddət keçdikdən sonra

3058. Həyat sığortası müqaviləsinin bağlandığı vaxtdan 5 il müddət keçdikdən sonra müqavilədən imtinaya yol verilirmi?

Sığortalı məlumat vermək vəzifəsini qəsdən icra etməmişdirsə, yol verilir.

3059. Sığortalı MM-in 918.1-ci maddəsində göstərilən əmlakın (eynicinsli əmlakın müxtəlif hissələrinin) hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları hansı müddətdə sığortaçıya çatdırmalıdır?

Vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra (maddə 918)

3060. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olduqda, sığortalı bu maddədə nəzərdə tutulmuş vəzifənin (sığortalının əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmaq vəzifəsi) yerinə yetirilməsindən azad edilirmi?

Xeyr.

3061. Sığorta müqaviləsinə hansı hallarda vaxtından əvvəl xitam verilir?

- Sığorta predmeti artıq mövcud olmadıqda;

- aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

- əmlak sığortası müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri MM ilə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

- icbari sığorta qanunlarında və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

- başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

- sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

- sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

- "icbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilir;

- sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

- sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

- sığortalı sığorta haqqını icbari sığorta qanunlarında və ya sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

- sığorta marağı artıq mövcud olmadıqda;

- sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə (maddə 919).

3062. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, bu hal hansı nəticəni yaradır?

Mülki məsuliyyət sığortası üzrə müqavilə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

3063. MM-in 919-cu maddəsində göstərilən hallarda (sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi əsasları) sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda MM-in 920.2-ci maddəsi nəzərə alınmaqla (sığorta müqaviləsinə qanunvericiliyə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtın-

dan əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməsi) müqaviləyə xitam verilməsində maraqlı olan tərəf hansı öhdəliyi daşıyır?

Dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir (maddə 920).

3064. Sığorta müqaviləsinə MM-in 919.1.9-cu maddəsinə uyğun olaraq, yəni sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə tələbini əsaslandırdığı yazılı bildirişini hansı müddətdə göndərməlidir?

Ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl)

3065. Mülki Məcəllənin 919-cu maddəsində göstərilən hallarda (Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi) sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda MM-in 920.2-ci maddəsi nəzərə alınmaqla sığorta müqaviləsinə qanunvericiliyə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməsi) müqaviləyə xitam verilməsində maraqlı olan tərəf digər tərəfi bu barədə nə zaman xəbərdar etməlidir?

Dərhal (maddə 920).

3066. Sığorta müqaviləsinə MM-in 919.1.9-cu maddəsinə uyğun olaraq, yəni sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə tələbini əsaslandırdığı yazılı bildirişi nə vaxt göndərməlidir?

Ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl)

3067. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verilməsinin hüquqi nəticəsi necə olacaq?

Sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır (maddə 921).

3068. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilməsinin hüquqi nəticəsi necə olur?

Sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

3069. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, nə zaman sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır?

Əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə

3070. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması hansı qaydada həyata keçirilir?

Müvafiq olaraq MM-in 921.1-ci və 921.2-ci maddələrində nəzərdə tutulmuş qaydada, belə ki:

- sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır;

- sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

3071. Sığortaçı nə zaman sığorta müqaviləsi üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, MM-in 921.3-cü və 921.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır?

MM-in 919.2-ci maddəsində müəyyən edilmiş məhkəmə qərarı (fəaliyyət qabiliyyəti olmaması və ya onun məhdudlaşdırılması ilə bağlı) əsasında xitam verilmiş hesab edildikdə

3072. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığortaçıya hansı halda və hansı müddət ərzində sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi nəticəsində sığortalıya qaytarılmalı olan sığorta haqqının qaytarılması dayandırılır?

Moratorium tətbiq edildikdə və moratorium qüvvədə olduğu müddət ərzində

§3. Sığorta hadisəsi və sığorta ödənişi

3073. Sığorta hadisəsi nədir?

Sığorta hadisəsi icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır (maddə 922).

3074. Sığorta hadisəsi hesab edilən hadisələr və hallar hansı qaydada müəyyən edilir?

İcbari sığorta üzrə icbari sığorta qanunlarında, könüllü sığorta üzrə isə tərəflərin razılaşması əsasında sığorta müqaviləsində

3075. Sığorta hadisəsi hansı əlamətlərə malik olmalıdır?

Baş vermə ehtimalı və (və ya) təsadüfilik

3076. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan sonra sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə nə zaman xəbər verməlidir?

Dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində (maddə 923)

3077. Sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək sığortaçının və ya onun nümayəndəsinin hüququdur yoxsa vəzifəsidir?

Vəzifəsidir (maddə 924).

3078. Səlahiyyətli dövlət orqanları sığortaçının və ya onun nümayəndəsinin yazılı sorğusuna əsasən, sığorta hadisəsi ilə əlaqədar tələb olunan, yayılması "İn-

formasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan olunmayan istənilən məlumatı sorğunun daxil olduğu tarixdən etibarən hansı müddətə təqdim etməlidirlər?

10 gün müddətində

3079. Sığortaçı sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını mümkün olan ən qısa müddət ərzində nəyin əsasında müəyyən edir?

Sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında (maddə 925)

3080. Sığortaçı dəymiş zərəri hansı üsullarla qiymətləndirir?

Müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişləri aparmaqla, bilavasitə özü və ya "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələbini nəzərə almaqla nümayəndəsi kimi təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə

3081. Əmlak sığortası müqaviləsi üzrə sığortalı, sığorta olunan və ya üçüncü şəxs hansı hallarda, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etmir?

- Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
- sığortaçı sığorta hadisəsi barədə MM-də nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
- digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

3082. Əmlakın tam məhv olması dedikdə nə başa düşülür?

Həmin əmlakın sığorta hadisəsindən əvvəlki vəziyyətə çatdırılması üçün təmiri və ya bərpasına tələb olunan xərclərin sığorta müqaviləsində müəyyən edilmiş həddən çox olması başa düşülür.

3083. Sığorta ödənişi nədir?

Sığorta hadisəsi baş verdikdə icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır (maddə 926)

3084. Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi hansı məbləğdən çox ola bilməz?

Sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya sığorta olunana, habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından (maddə 927)

3085. Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra əmlak sığortası üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında MM-in 927.4-cü maddəsi nəzərə alınmaqla, hansı formalarda həyata keçirilir (ödənilir)?

Zərər məbləğinin pul şəklində faydalanan şəxsə ödənilməsi; sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi; sığorta predmeti olan, yaxud zərərçəkmiş üçüncü şəxsə məxsus əmlakın təmiri və ya bərpası; sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

3086. Mülki Məcəllənin 927.5-ci maddəsində nəzərdə tutulmuş hal (Girov qoyulan əmlakın tam məhv olması ilə nəticələnən sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsində nəzərdə tutulduğu halda faydalanan şəxs olan girov saxlayanın borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə müəyyən edilmiş borcun ödənilməmiş hissəsində sığorta ödənişi almaq hüququ) istisna olmaqla, girov qoyulan əmlakın sığortası üzrə sığorta hadisəsi baş verdiyi tarixdə faydalanan şəxs olan girov saxlayana hansı məbləğdən artıq sığorta ödənişi verilə bilməz?

Borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə sığorta ödənişinin verildiyi tarixə ona ödəməli olduğu məbləğdən

3087. Hansı halda faydalanan şəxs olan girov saxlayan borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə müəyyən edilmiş borcun ödənilməmiş hissəsində sığorta ödənişi almaq hüququ var?

- Girov qoyulan əmlakın tam məhv olması ilə nəticələnən sığorta hadisəsi baş verdikdə;

-sığorta müqaviləsində nəzərdə tutulduğu halda.

3088. Şəxsi sığorta üzrə sığorta ödənişi hansı qaydada ödənilməlidir?

Onu almaq hüququ olan şəxsə sosial sığorta, həmçinin icbari və ya könüllü sığortalar üzrə nəzərdə tutulan ödənişlərdən asılı olmayaraq icbari sığorta qanunlarında və ya sığorta müqaviləsində müəyyən olunmuş qaydada (maddə 928)

3089. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı hansı məbləği tutmaq hüququna malikdir?

Sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqını (maddə 929)

3090. İcbari sığorta qanunlarında və ya sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği hansı həcmdə azalmış hesab olunur?

Həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində. Lakin sığorta müqaviləsi üzrə təminat qismən sığorta təminatı sayılmır (maddə 930).

3091. MM-in 930.1-ci maddəsində nəzərdə tutulmuş halda (İcbari sığorta qanunlarında və ya sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, lakin sığorta müqaviləsi üzrə təminat qismən sığorta təminatı sayılmır. İcbari sığorta qanunlarında başqa hal nəzərdə tu-

tulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil) sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, hansı üsulla sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər?

Əlavə sığorta haqqı ödənilməklə

3092. Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda əvvəlcə hansı sığorta ödənişləri verilməlidir?

İcbari sığorta müqavilələri üzrə sığorta ödənişləri (maddə 931)

3093. Sığorta ödənişi hansı halların hər biri mövcud olduğu halda həyata keçirilir?

- Sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya ünvanladığı sığorta tələbi;

-sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

-icbari sığorta qanunlarında və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər (maddə 933)

3094. MM-in 933.1-ci maddəsində nəzərdə tutulan və sığorta ödənişinin verilməsi üçün əsas olan sənədlərdən sonuncusunun (MM-in 933.3-cü maddəsi nəzərə alınmaqla) sığortaçıya daxil olduğu tarixdən sığortaçı sığorta ödənişini nə zamandan etibarən verməli, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir?

7 iş günündən gec olmayaraq (maddə 934)

3095. Sığortaçı sığorta ödənişini icbari sığorta qanunları və ya sığorta müqaviləsi ilə müəyyən olunmuş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin neçə faizi məbləğində dəbbə pulu ödəyir?

0,1 faizi həcmində

3096. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda başqa cür nəzərdə tutulmamışdırsa, sığortaçı sığorta ödənişinin verilməsindən hansı hallarda imtina edir?

- MM-in 923.1-ci maddəsinin tələblərinə əməl edilməməsi (Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir) nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

- MM-də, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin müvafiq hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

- müqavilə və ya icbari sığorta qanunları ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

- sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi;

- bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

- zərər dəymiş əmlakın sığortaçıya təqdim edilməsi ilə bağlı MM-in 925.5-ci maddəsinə riayət edilməməsinin sığortaçını zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi halında;

- qanunvericilikdə nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, habelə tələb olunan məlumata sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda sığortaçının sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməməsi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması halında;

əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması halında;

- zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir; baş vermiş hadisənin icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi halında;

- sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

- icbari sığorta qanunlarında nəzərdə tutulmuş digər hallarda (maddə 935).

3097. Sığorta hadisəsi hansı hal baş verdikdə, həmin faydalanan şəxs sığorta ödənişini almaq hüququndan məhrum olur?

MM-də, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığorta hadisəsinin baş verməsinə yönələn, sığorta müqaviləsi üzrə sığortalı və (və ya) sığorta olunan hesab edilməyən faydalanan şəxsin qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi nəticəsində

3098. Subroqasiya hüququ nədir?

Həyat sığortası siniflərinə və fərdi qəza sığortasına aid olan hallarda subroqasiya hüququnun tətbiq edilməməsi nəzərə alınmaqla, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur (maddə 936).

3099. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə sığortaçı sığorta ödənişi verməkdən hansı həcmdə azad edilir?

Zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində

3100. Hansı hallarda subroqasiya hüququ tətbiq edilmir?

Həyat sığortası siniflərinə və fərdi qəza sığortasına aid olan hallarda

§4. Sığorta vasitəçiliyi

3101. Sığorta (təkrarsığorta) müqaviləsi kimlər arasında bağlana bilər?

Tərəflər arasında həm birbaşa, sığorta vasitəçilərinin - sığorta agentlərinin və ya sığorta brokerlərinin xidmətindən istifadə etməklə (maddə 937)

3102. Sığortaçı hansı hallarda sığorta əməliyyatlarında onun adından çıxış edən sığorta agentinin vasitəçilik xidmətlərindən tapşırıq müqaviləsi bağlamaqla istifadə edə bilər?

Sığorta müqavilələrinin bağlanması və bununla əlaqədar sövdələşmələrin aparılması, sığorta müqaviləsinin davam etdirilməsi və ya yenilənməsi ilə bağlı sövdələşmələrin aparılması hallarında

3103. Sığortaçı ilə sığorta agenti arasında bağlanan vasitəçilik xidmətinin göstərilməsi üzrə tapşırıq müqaviləsində nələr əks olunmalıdır?

- Tapşırıq müqaviləsinin nömrəsi və tarixi;
- sığortaçının adı və ünvanı;
- sığorta agenti fiziki şəxs olduqda onun adı, atasının adı, soyadı, yaşayış yeri, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, lisenziyasının seriya və nömrəsi və VÖEN-i;
- sığorta agenti hüquqi şəxs olduqda onun adı, olduğu yer, lisenziyasının seriya və nömrəsi, VÖEN-i, müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğuldursa, icra orqanının rəhbərinin, əsas fəaliyyəti digər fəaliyyət növüdürsə, icra orqanının rəhbəri ilə yanaşı, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş attestasiyadan keçmiş işçilərinin adı, soyadı və atasının adı;
- tapşırıq müqaviləsinin predmeti;
- sığorta agentinin müştərilərə təklif edəcəyi sığorta növlərinin siyahısı;
- tapşırıq müqaviləsi üzrə sığorta agentinə ödənilməli olan komisyon muzdun məbləği;
- tərəflərin hüquq və vəzifələri;
- müqavilə şərtlərini pozmağa görə tərəflərin məsuliyyəti;
- tapşırıq müqaviləsinin qüvvədə olduğu ərazi;
- tapşırıq müqaviləsinin qüvvədə olduğu müddət;
- tərəflərin rekvizitləri (maddə 937.2–1).

3104. Sığorta brokeri sığortalını (təkrarsığortalını) sığortaçı (təkrarsığortaçı) ilə münasibətlərdə təmsil etməklə hansı sığorta əməliyyatlarında tapşırıq müqaviləsi əsasında vasitəçilik edə bilər?

- Sığorta (təkrarsığorta) müqavilələrinin bağlanması və bununla əlaqədar sövdələşmələrin aparılmasında;
- sığorta (təkrarsığorta) müqavilələrinin davam etdirilməsi və ya yenilənməsi ilə bağlı sövdələşmələrin aparılmasında;

- sığorta (təkrarsığorta) müqavilələrinin həyata keçirilməsi, o cümlədən sığorta (təkrarsığorta) tələbləri və sığorta ödənişləri üzrə sövdələşmələrin aparılması və (və ya) məsləhətlərin verilməsində.

3105. Sığorta müqaviləsi sığorta agenti vasitəsilə bağlandıqda sığorta agenti müqaviləni hansı qaydada imzalaya bilər?

Həmin sığortaçının adından yalnız onun yazılı qaydada verdiyi səlahiyyət əsasında (maddə 938)

3106. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta brokeri vasitəsilə bağlandıqda müqavilə kimlər tərəfindən imzalana bilər?

Sığortaçı və sığortalı tərəfindən, sığortalının (təkrarsığortalının) yazılı qaydada verdiyi səlahiyyət əsasında sığorta brokeri tərəfindən

3107. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta vasitəçiliyi ilə bağlandıqda həmin müqavilədə müvafiq olaraq hansı məlumatlar göstərilməlidir?

Sığorta agentinin və ya sığorta brokerinin adı, (fiziki şəxsdirsə, həmçinin soyadı) və ünvanı.

3108. MM-in 911.2-ci maddəsinə uyğun olaraq (Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir) bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan hər hansı dəyişiklik barədə məlumatlandırılmış sığorta vasitəçisi həmin məlumatı aldığı tarixdən hansı müddətə sığortaçıya çatdırmalıdır?

1 günə.

3109. Sığorta vasitəçiliyi ilə bağlanan hər bir sığorta müqaviləsinin bağlanmasından, yenilənməsindən və ya ona dəyişikliklər edilməsindən əvvəl sığorta vasitəçisi sığorta etdirən şəxsi ən azı hansı məlumatlarla təmin etməlidir?

- Özünün adı və yaşayış yeri (hüquqi şəxslər üçün – olduğu yer);

-daxil edildiyi reyestr və həmin reyestrdən onun barəsində informasiya əldə etməyin üsulları;

- sığorta müqaviləsinin tərəfi kimi təklif edilən sığortaçı ilə səhmdar, aidiyyəti şəxs və ya asılı cəmiyyət münasibətlərində olub-olmaması;

-sığorta vasitəçilərindən şikayət vermək hüququ və proseduru, həmçinin şikayətin üsulları və təqdim etmə vasitələri;

-sığorta vasitəçiliyini bir və ya bir neçə sığortaçı ilə bağladığı tapşırıq müqaviləsi üzrə öhdəlikləri əsasında (həmin sığortaçıların adı, ünvanı, sığorta bazarındakı mövqeyi barəsində obyektiv məlumat verməklə) və ya belə bir müqavilə olmadan həyata keçirməsi;

- sığorta etdirənin tələbinə və ehtiyacına uyğun olan sığorta növləri əsasında verilən təminatlar.

3110. Sığorta brokeri onun vasitəsilə bağlanan sığorta müqaviləsini tərəflərdən sonuncusunun imzaladığı tarixdən etibarən hansı müddətə sığortalını həmin müqavilənin nüsxəsi və (və ya) müvafiq sığorta şəhadətnaməsi ilə, bu mümkün olmadıqda isə müvafiq sığorta müqaviləsinin nüsxəsinin, yaxud sığorta şəhadətnaməsinin

sığortalıya verilməsinədək qüvvədə olan, MM-in 940-cı maddəsində (Təminat şəhadətnaməsi) nəzərdə tutulmuş təminat şəhadətnaməsi ilə təmin etməlidir?

3 gün müddətində (maddə 939).

3111. Sığorta brokeri onun vasitəsilə bağlanan təkrarsığorta müqaviləsini tərəflərdən sonuncusunun imzaladığı tarixdən etibarən hansı müddətə təkrarsığortalını müvafiq təkrarsığorta müqaviləsinin nüsxəsi və ya MM-in 940-cı maddəsində (Təminat şəhadətnaməsi) nəzərdə tutulmuş təminat şəhadətnaməsi ilə təmin etməlidir?

10 gün müddətində

3112. Təminat şəhadətnaməsi nədir? Və o sənəddə hansı məlumatlar əks olunmalıdır?

- Sığorta brokerinin sığortalıya (təkrarsığortalıya) verdiyi və sığorta risklərinin yerləşdirilməsini təsdiq edən sənəddir;

-sığorta (təkrarsığorta) müqaviləsi üzrə riskləri qəbul edən və ya bölüşən sığortaçının (təkrarsığortaçının) tam adı və ünvanı;

- sığortalının (təkrarsığortalının) tam adı və ünvanı;

-sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

- sığorta (təkrarsığorta) müqaviləsi üzrə təminat verilən sığorta riskləri;

-sığortaçının (təkrarsığortaçının) qəbul etdiyi və ya bölüşdüyü sığorta və ya təkrarsığorta riskinə uyğun olan sığorta (təkrarsığorta) məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;

-sığorta (təkrarsığorta) haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası (maddə 940).

3113. Sığorta (təkrarsığorta) haqqı hansı andan müvafiq sığorta (təkarsığorta) müqaviləsi üzrə ödənilmiş hesab edilir?

Sığorta brokerinə daxil olduğu andan (maddə 941)

3114. Sığorta haqqını qəbul etmiş sığorta vasitəçisi onu qəbul etdiyi tarixdən hansı müddətə tam həcmdə müvafiq sığortaçının müvafiq bank hesabına köçürməlidir?

5 iş günü müddətində

3115. Sığorta brokeri MM-in 941.7-ci maddəsində nəzərdə tutulmuş vəsaitləri (sığorta ödənişləri ilə bağlı ödənilən pul vəsaitlərini) sığorta ödənişi hesabına daxil olduğu tarixdən etibarən hansı müddət ərzində müvafiq sığortalıya (təkrarsığortalıya) və ya faydalanan şəxsə ötürməlidir?

3 gündən gec olmayaraq

3116. Sığorta vasitəçisi onun vasitəçiliyi ilə müvafiq hallarda sığorta və ya təkrarsığorta fəaliyyətinə lisenziyası olmayan şəxslə bağlanmış sığorta və ya təkrarsığorta müqaviləsinə, yaxud müvafiq sığorta növünün aparılmasına icazəsi olmayan sığortaçı ilə bağlanmış sığorta müqaviləsinə görə, həmçinin MM-in 941.5-ci və 941.8-ci maddələrinə əməl etməməsi üzündən sığortalının (təkrarsığortalının) mənafelərinin pozulmasına görə onun qarşısında həmin sığorta (təkrarsığorta) müqaviləsində sığortaçıya (təkrarsığortaçıya) aid nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üzrə necə bir öhdəlik daşıyır?

Sığortaçı (təkrarsığortaçı) kimi subsidiar öhdəlik (maddə 942)

51-ci FƏSİL
Bank əmanətinə dair hüquq münasibətlərinə aid suallar və cavablar

3117. Bank əmanəti (depozit) müqaviləsi nədir?

Bir tərəf (bank) başqa tərəfdən (əmanətçidən) və ya başqa tərəf (əmanətçi) üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür (maddə 944).

3118. Hansı hallarda Əmanətin qoyulduğu hesab üzrə bank ilə əmanətçinin münasibətlərinə bank hesabı müqaviləsi haqqında qaydalar tətbiq olunmur?

Mülki Məcəllənin Bank əmanəti fəslinin müddəalarında ayrı hal nəzərdə tutulduğu və ya bank əmanəti müqaviləsinin mahiyyətindən ayrı hal irəli gəldiyi təqdirdə

3119. Kimlər pul vəsaitini əmanətlərə cəlb etmək hüququna malikdirlər?

Qanunla müəyyənləşdirilmiş qaydada verilən xüsusi icazəyə (lisenziyaya) uyğun olaraq buna hüququ çatan banklar və poçt rabitəsinin milli operatoru (maddə 945)

3120. Hüququ çatmayan şəxs tərəfindən və ya qanunla müəyyənləşdirilmiş qayda, yaxud qanuna uyğun qəbul edilmiş bank qaydaları pozulmaqla fiziki şəxsdən əmanət qəbul olunduqda əmanətçi nə tələb edə bilər?

Əmanət məbləğinin dərhal qaytarılmasını, habelə onun üçün faizlər ödənilməsini və bundan əlavə, əmanətçiyə vurulmuş bütün zərərin əvəzinin verilməsini

3121. Bank əmanəti müqaviləsi hansı formada bağlanılır və hansı qaydada olduqda həmin formaya riayət olunmuş hesab olunur?

Yazılı formada bağlanır. Bank əmanəti müqaviləsinin yazılı formasına o halda riayət olunmuş sayılır ki, əmanətin qoyulması bank kitabçası ilə və ya bank tərəfindən əmanətçiyə verilmiş digər sənədlə, özü də qanunda bu cür sənədlər üçün nəzərdə tutulmuş tələblərə, qanuna uyğun müəyyənləşdirilmiş bank qaydalarına və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətlərinə uyğun gələn sənədlə təsdiq edilsin (maddə 946).

3122. Bank əmanəti müqaviləsinin hansı növləri mövcuddur?

Əmanətin ilk tələb üzrə verilməsi şərti ilə (tələbli əmanət) və ya əmanətin müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra şərti ilə (müddətli əmanət) bağlanır. Müqavilədə əmanətlərin qanuna zidd olmayan başqa qaytarma şərtləri ilə də qoyulması nəzərdə tutula bilər (maddə 947).

3123. İstənilən növ bank əmanəti müqaviləsinə görə bank əmanətçinin ilk tələbi ilə əmanətin məbləğinin ən azı hansı hissəsini dərhal verməlidir?

Ən azı dörddə bir hissəsini

3124. Bank əmanətçiyə əmanətin məbləği üçün hansı miqdarda faizlər ödəməlidir?

Bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilmiş miqdarda faizlər ödəyir. Müqavilədə ödənilən faizlərin miqdarı haqqında şərtlər olmadıqda bank faizləri MM-in 449.1-

ci maddəsinə uyğun müəyyənləşdirilən (öhdəliyin icra edildiyi və ya məhkəmə qərarının çıxarıldığı gün bank uçot dərəcəsi əsas götürülməklə) miqdarda ödəməlidir (maddə 948).

3125. Fiziki şəxs əmanəti müəyyən müddət qurtardıqdan sonra və ya müqavilədə nəzərdə tutulan hallar baş verdikdə qaytarılmaq şərtləri ilə qoyduqda əmanət üçün faizlərin bank əmanəti müqaviləsində müəyyənləşdirilmiş miqdarı bank tərəfindən birtərəfli qaydada azaldıla bilərmi?

Birtərəfli qaydada azaldıla bilməz.

3126. Əmanətin məbləğinə faizlərin hesablanması qaydası necədir?

Bank əmanətinin məbləğinə faizlər bu məbləğin banka daxil olduğu günün ertəsi günündən məbləğin əmanətçiyə qaytarılmasından və ya başqa əsaslarla əmanətçinin hesabından silinməsindən əvvəlki günədək hesablanır. Bu qayda bir günlük depozitlərə tətbiq edilmir (maddə 949).

3127. Əmanətin məbləğinə faizlərin ödənilməsi qaydası necədir?

Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank əmanəti məbləğinə hesablanan faizlər əmanətçiyə hər rüb başa çatdıqdan sonra onun tələbi ilə əmanətin məbləğindən ayrılıqda ödənilir, həmin müddətdə tələb olunmamış faizlər isə üstünə faizlər hesablanan əmanətin məbləğini artırır. Əmanət qaytarıldıqda həmin anadək hesablanmış bütün faizlər ödənilir.

3128. Banklar fiziki şəxslərin əmanətlərinin qaytarılmasını hansı üsullarla təmin etməlidirlər?

İcbari sığorta yolu ilə, qanunda nəzərdə tutulan hallarda isə başqa üsullarla (maddə 950)

3129. Bank tərəfindən hüquqi şəxslərin əmanətlərinin qaytarılması üsulları necə müəyyənləşdirilir?

Bank əmanəti müqaviləsi ilə.

3130. Əmanətçi hansı hallarda bankdan əmanət məbləğini dərhal qaytarmağı, MM-in 948.1-ci maddəsinə uyğun müəyyənləşdirilmiş miqdarda faizlər ödəməyi və vurulmuş zərərin əvəzini verməyi tələb edə bilər?

Bank əmanətin qaytarılmasının təmin edilməsi üçün bank əmanəti müqaviləsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmədikdə, habelə əmanətin qaytarılması üçün təminat itirildikdə və ya onun şərtləri pisləşdikdə

3131. Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əmanətçinin əmanət üzrə hesabına dair lazımi məlumat göstərilməklə banka onun adına üçüncü şəxslərdən daxil olmuş pul vəsaiti hansı hesaba daxil edilir?

Əmanət üzrə hesaba daxil edilir. Həm də nəzərdə tutulur ki, əmanətçi həmin şəxslərdən pul vəsaiti almağa razılığını ifadə edərək, onlara əmanət üzrə hesaba dair lazımi məlumat vermişdir (maddə 951).

3132. Əmanət banka müəyyən üçüncü şəxsin adına qoyula bilər. Şəxs hansı andan əmanətçi hüququ qazanır?

Əgər bank əmanəti müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, bu hüquq-

lara əsaslanan ilk tələbini banka verdiyi və ya belə hüquqlardan istifadə etmək niyyətini başqa üsulla banka bildirdiyi andan (maddə 952)

3133. Hansı məlumatın göstərilməsi müvafiq bank əmanəti müqaviləsinin mühüm şərtidir?

Xeyrinə əmanət qoyulan fiziki şəxsin və ya hüquqi şəxsin adının göstərilməsi

3134. Müqavilənin bağlandığı vaxt sağ olmayan fiziki şəxsin və ya bu vaxt mövcud olmayan hüquqi şəxsin xeyrinə bank əmanəti müqaviləsi hansı statusa malikdir?

Əhəmiyyətsizdir.

3135. Bank əmanəti müqaviləsi bağlamış şəxs onun əmanət üzrə hesabına qoyulmuş pul vəsaiti barəsində əmanətçi hüquqlarından nə vaxtadək istifadə edə bilər?

Üçüncü şəxs əmanətçi hüquqlarından istifadə etmək niyyətini bildirənədək

3136. Üçüncü şəxsin xeyrinə müqavilə haqqında qaydalar üçüncü şəxsin xeyrinə bank əmanəti müqaviləsinə hansı şərtlə tətbiq edilir?

Bu şərtlə tətbiq edilir ki, belə tətbiq bu maddənin qaydalarına və bank əmanətinin mahiyyətinə zidd olmasın.

3137. Əgər tərəflərin razılaşması ilə ayrı qayda nəzərdə tutulmayıbsa, fiziki şəxslə bank əmanəti müqaviləsinin bağlanması və onun əmanət üzrə hesabına pul vəsaitinin qoyulması hansı qaydada təsdiq olunur?

Bank kitabçası ilə təsdiq olunur. Bank əmanəti müqaviləsində adlı bank kitabçasının və ya adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər (maddə 953).

3138. Bank kitabçasında hansı məlumatlar göstərilməlidir?

Bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin bütün məbləğləri və bank kitabçasının banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir.

3139. Əgər ayrı hal sübuta yetirilməyibsə, bank kitabçasında göstərilmiş əmanət haqqında məlumatlar nə üçün əsasdır?

Bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün

3140. Bank əmanətin verilməsini, əmanət üzrə faizlərin ödənilməsini və əmanət üzrə hesabdan pul vəsaitinin digər şəxslərə köçürülməsinə dair əmanətçinin sərəncamlarının icrasını nə zaman həyata keçirir?

Bank kitabçası təqdim olunduqda

3141. Hansı hallarda əmanətçinin ərizəsi üzrə bank ona yeni bank kitabçası verir?

Adlı bank kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düş-

dükdə. İtirilmiş adsız sənədli bank kitabçası üzrə hüquqların bərpası adsız qiymətli kağızlar üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

3142. Bank, bank kitabçasını qeyri-qanuni yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma apararsa, hansı şərtlə məsuliyyətdən azad olunur?

Bu şərtlə ki, həmin hallar barədə məlumata malik olmasın.

3143. Bank, bank kitabçasını qeyri-qanuni yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma apararsa hansı halda məsuliyyətdən azad edilmir?

Əgər bank kobud ehtiyatsızlıq üzündən belə məlumata malik olmazsa

52-ci FƏSİL
Bank hesabı müqaviləsinə dair suallar və cavablar

3144. Bank hesabı müqaviləsinin mahiyyəti nədən ibarətdir?

Bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür (maddə 954).

3145. Bank hesabda olan vəsaitdən hansı qaydada istifadə edə bilər?

Hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə

3146. Bank müştərinin pul vəsaiti ilə bağlı hansı hərəkətləri həyata keçirə bilməz?

Pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz; Müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.

3147. Bu fəslin (MM-in 52-ci fəsli) banklara aid qaydaları hansı münasibətlərə də tətbiq olunur?

Verilmiş xüsusi icazəyə (lisenziyaya) müvafiq surətdə bank hesabı müqaviləsi bağlayan və icra edən başqa kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna

3148. Bank hesabı müqaviləsi hansı formada bağlanır?

Yazılı formada (maddə 955)

3149. Bank hesabı müqaviləsinin yazılı formasına riayət edilməməsi hansı hüquqi nəticəni yaradır?

Bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

3150. Hesab üzrə müvafiq əməliyyatların aparılması qanunla bankın nizamnaməsi və ona verilmiş xüsusi icazə (lisenziya) ilə nəzərdə tutulduqda, bankın həmin hesabın açılmasından imtina etməyə ixtiyarı yoxdur, amma hansı hallar istisna təşkil edir?

Belə imtinanın bank xidmətinə qəbul etməyə bankın imkanının olmaması ilə bağlı olduğu və ya buna qanunla, yaxud başqa hüquqi aktlarla yol verildiyi hallar (maddə 956)

3151. Bank hesabı müqaviləsinin bağlanmasından bank əsassız boyun qaçırdıqda müştərinin hansı hüququ vardır?

Onu müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət etməyə ixtiyarı vardır. Bank hesabı müqaviləsi bağlamaqdan əsassız boyun qaçıran bank müştəriyə bununla vurulmuş zərərin əvəzini ödəməlidir.

3152. Hesabdan vəsaitin köçürülməsi və verilməsi haqqında müştərinin adından sərəncamlar verən şəxslərin hüquqları hansı qaydada təsdiq edilir?

Qanunda nəzərdə tutulmuş, qanuna əsasən bank qaydaları və bank hesabı müqaviləsi ilə müəyyənləşdirilmiş sənədlərin müştəri tərəfindən banka təqdim olunması yolu ilə (maddə 957)

3153. Üçüncü şəxslərin tələbi ilə, o cümlədən müştərinin bu şəxslər qarşısında öhdəliklərini yerinə yetirməsi ilə bağlı tələbi üzrə müştərinin pul vəsaitinin hesabdan silinməsi haqqında banka verdiyi sərəncamı hansı şərtlə qəbul edir?

Bu şərtlə qəbul edir ki, müvafiq tələb irəli sürülərkən onu irəli sürməyə hüququ çatan şəxsi eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamlarda yazılı formada göstərilmiş olsun.

3154. Əgər bank hesab sahibinin həqiqi iradəsini ifadə etməyən sərəncam əsasında pul vəsaitini həmin hesabdan silərsə, bunun üçün hansı şərtlə məsuliyyət daşıyır?

Bir şərtlə ki, belə sərəncamın hesab sahibinin öz təqsiri üzündən verildiyini sübut edə bilməsin.

3155. Bank müştəri üçün həmin növ hesablardan ötrü hansı şərtlə qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulan əməliyyatlar aparmalıdır?

Bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın (maddə 958).

3156. Bank müştərinin hesabına daxil olmuş pul vəsaitini hansı şərtlə müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq hesaba salmalıdır?

Bu şərtlə ki, qanunda və ya bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın (maddə 959).

3157. Müştərinin sərəncamı ilə bank müştərinin pul vəsaitini hansı şərtlə müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq verməli və ya hesabdan köçürməlidir?

Bu şərtlə ki, qanunla, qanuna uyğun qəbul edilmiş bank qaydaları ilə və ya bank hesabı müqaviləsi ilə ayrı müddətlər nəzərdə tutulmasın.

3158. Bank hesabı müqaviləsinə müvafiq surətdə, pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda (hesabın kreditləşdirilməsi) bank nə vaxtdan etibarən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır?

Bu cür ödənişi həyata keçirdiyi gündən (maddə 960)

3159. Tərəflərin hesabın kreditləşdirilməsi ilə bağlı hüquq və vəzifələri hansı şərtlə borc və kredit haqqında qaydalarla müəyyənləşdirilir?

Bu şərtlə ki, MM-də və ya bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

3160. MM-in 961.1-ci maddəsində nəzərdə tutulmuş bank xidmətlərinin haqqını (hesabdakı pul vəsaiti ilə əməliyyatların aparılması üzrə bank xidmətləri) bank hansı şərtlə hər bir əqd başa çatdıqdan sonra müştərinin hesabdakı pul vəsaitindən tuta bilər?

Bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın (maddə 961).

3161. MM-in 962.1-ci maddəsində göstərilən faizlər (bankın müştərinin hesabında olan pul vəsaitindən istifadə etməsi üçün) bank tərəfindən hansı miqdarda ödənilir?

Bank hesabı müqaviləsində müəyyənləşdirilmiş miqdarda, müqavilədə müvafiq şərt olmadıqda isə bu bankın tələbli əmanət üzrə müəyyənləşdirdiyi miqdarda (maddə 962)

3162. Faizlərin məbləği hansı müddətdə hesaba salınır?

Müqavilədə nəzərdə tutulmuş müddətlərdə, müqavilədə bu cür müddətlər nəzərdə tutulmadıqda isə hər rübün axırında

3163. Hesabın kreditləşdirilməsi və bank xidmətlərinin haqqının ödənilməsi ilə bağlı hansı şərtlə bankın müştəriyə qarşı pul tələblərinə, habelə pul vəsaitindən istifadə üçün faizlərin ödənilməsi haqqında müştərinin banka qarşı tələblərinə əvəzləşdirmə yolu ilə xitam verilir?

Bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın. Göstərilən tələblər bank tərəfindən əvəzləşdirilir (maddə 963).

3164. Bank aparılmış əvəzləşdirmə haqqında müştəriyə hansı müddətdə məlumat verməlidir?

Müqavilədə nəzərdə tutulmuş qaydada və müddətlərdə, əgər tərəflər müvafiq şərtləri razılaşdırmayıblarsa, müvafiq hesabdakı pul vəsaitinin vəziyyəti haqqında müştərilərə məlumat verilməsinin bank praktikası üçün adi olan qaydada və müddətlərdə

3165. Hesabdan pul vəsaitinin silinməsini bank hansı əsasla həyata keçirir?

Müştərinin sərəncamına əsasən (maddə 964)

3166. Müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə hansı hallarda yol verilir?

Məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla müştəri arasında müqavilədə nəzərdə tutulmuş hallarda

3167. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə qanunda ayrı qayda nəzərdə tutulmayıbsa hesabdan bu vəsaitin silinməsi hansı ardıcıllıqla həyata keçirilir ?

Müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı) həyata keçirilir, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın (maddə 965).

3168. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, hesabdakı pul vəsaiti müştərinin sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə hesabdan pul vəsaiti hansı ardıcıllıqla silinir?

- Birinci növbədə həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblərin, habelə alimentlərin tutulması haqqında tələblərin yerinə yetirilməsi üçün hesabdan pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan sənədlər və yaxud bu sənədlər əsasında verilən icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

- ikinci növbədə əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əmək haqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi üzrə hesablaşmalar üçün pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan sənədlər və yaxud bu sənədlər əsasında verilən icra sənədi üzrə hesabdan silmə, habelə bu məqsədlər üçün verilmiş bank kreditlərinin hesabdan silinməsi həyata keçirilir;

- üçüncü növbədə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna, icbari tibbi sığorta haqları üzrə icbari tibbi sığorta fonduna və bələdiyyələrin büdcələrinə ödənişləri nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

- dördüncü növbədə verilmiş kreditlər üzrə bankın tələblərinin yerinə yetirilməsini nəzərdə tutan ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir;

- beşinci növbədə başqa pul tələblərinin yerinə yetirilməsini nəzərdə tutan icra sənədi üzrə hesabdan silmə həyata keçirilir;

- altıncı növbədə təqvim ardıcıllığı qaydasında digər ödəniş sənədləri üzrə hesabdan silmə həyata keçirilir.

3169. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, bir növbəyə aid tələblər üzrə vəsait hansı qaydada hesabdan silinir?

Sənədlərin daxil olmasının təqvim ardıcıllığı qaydasında

3170. Hansı hallarda bank həmin məbləğ üçün MM-in 449-cu maddəsində (Pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət) nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir?

Müştəriyə gələn pul vəsaitinin vaxtında hesaba salınmadığı və ya bank tərəfindən əsassız olaraq hesabdan silindiyi, habelə pul vəsaitinin hesabdan köçürülməsi və ya hesabdan verilməsi haqqında müştərinin göstərişlərinin lazımınca yerinə yetirilmədiyi hallarda (maddə 966)

3171. Hansı məlumatların sirrinə bank qarantiya verir?

Bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə (maddə 967)

3172. Bank sirrini təşkil edən məlumatlar kimlərə verilir?

Yalnız müştərilərin özlərinə və onların nümayəndələrinə, həmçinin kənar auditorlara, maliyyə monitorinqi orqanına və maliyyə bazarlarına nəzarət orqanına verilir. Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə, habelə kredit bürolarına bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

3173. Hansı hallarda müştərinin hesabdakı pul vəsaitinə dair sərəncam vermək hüquqlarının məhdudlaşdırılmasına yol verilir?

Qanunda nəzərdə tutulan hallarda məhkəmənin qərarı ilə hesabdakı pul vəsaiti üzərinə həbs qoyulduğu və ya hesab əməliyyatlarının dayandırıldığı, habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda (maddə 968)

3174. Bank hesabı müqaviləsi nə zaman ləğv edilir?

Müştərinin ərizəsi üzrə istənilən vaxt (maddə 969)

3175. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbi ilə bank hesabı müqaviləsi məhkəmə tərəfindən hansı hallarda ləğv edilə bilər?

- Müştərinin hesabında saxlanan pul vəsaitinin məbləği bank qaydaları və ya müqavilə ilə nəzərdə tutulmuş minimum miqdardan az olduqda, bir şərtlə ki, belə məbləğ bankın bu barədə xəbərdarlıq etdiyi gündən bir ay ərzində bərpa edilməmiş olsun;
- bir il ərzində həmin hesab üzrə əməliyyatlar aparılmadıqda, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın;
- ciddi əsaslar olduqda, xüsusilə də bank hesabı sahibinin bank hesabından qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edilsin.

3176. Hesabdakı pul vəsaitinin qalığı müştəriyə verilir və hansı müddətdə başqa hesaba köçürülür?

Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci yeddi gün keçənədək

3177. Bank hesabı müqaviləsinin ləğv edilməsi nə üçün əsasdır?

Müştərinin hesabının bağlanması üçün

3178. Əgər qanunla, başqa hüquqi aktlarla və ya onlara uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmayıbsa, MM-in bu fəslinin qaydaları nələrə şamil edilir?

Müxbir hesablarına, müxbir subhesablarına və bankların digər hesablarına da (maddə 970)

53-cü FƏSİL
Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar haqqında suallar və cavablar

§ 1. Hesablaşmalar haqqında ümumi müddəalar

3179. Fiziki şəxslərin iştirakı ilə hesablaşmalar hansı halda məbləğ məhdudlaşdırılmadan nağd pullarla və ya nağdsız qaydada aparıla bilər?

Onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə bağlı deyilsə (maddə 971)

3180. Nağdsız hesablaşmalar hansı şərtlə banklar, müvafiq hesabların açıldığı başqa kredit təşkilatları (bundan sonra -banklar) və poçt rabitəsinin milli operatoru vasitəsilə aparılır?

Bu şərtlə ki, hesablaşmaların istifadə edilən forması ilə ayrı qayda şərtləşdirilməsin.

§ 2. Ödəniş tapşırıqları ilə hesablaşmalar

3181. Ödəniş tapşırığı ilə hesablaşma zamanı bank ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda ödəyicinin göstərdiyi şəxsin hesabına qanunla nəzərdə tutulmuş və ya qanuna uyğun təyin edilmiş müddətdə köçürməyi hansı şərtlə öhdəsinə götürür?

Bu şərtlə ki, bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın və ya bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə daha qısa müddət müəyyənləşdirilməsin (maddə 973).

3182. MM-in 53–cü fəslinin Hesablaşmalar haqqında ümumi müddəalar adlı I paraqrafının qaydaları bankda hesabı olmayan şəxsin öz pul vəsaitini həmin bank vasitəsilə köçürməsi ilə bağlı münasibətlərə hansı şərtlə tətbiq edilir?

Bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmasın və ya bu münasibətlərin mahiyyətindən ayrı hal irəli gəlməsin.

3183. Ödəniş tapşırıqları ilə hesablaşmaların həyata keçirilməsi qaydası hansı qaydada tənzimlənir?

Qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə

3184. Ödəniş tapşırığının və onunla birlikdə təqdim edilən hesablaşma sənədlərinin məzmunu və forması hansı tələblərə uyğun gəlməlidir?

Qanunla və ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş tələblərə (maddə 974)

3185. Ödəniş tapşırığı MM-in 974.1-ci maddəsində göstərilmiş tələblərə (Ödəniş tapşırığının və onunla birlikdə təqdim edilən hesablaşma sənədlərinin məzmunu və forması qanunla və ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir) uyğun gəlmədikdə bank tapşırığın məzmununu dəqiqləşdirmək məqsədilə ödəyiciyə bu cür sorğunu hansı müddətdə verilməlidir?

Tapşırıq alındıqdan dərhal sonra

3186. Qanunla və ya ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş müddətdə, bunlar olmadıqda isə ağlabatan müddətdə cavab almadıqda bank tapşırığı icra etmədən ödəyiciyə hansı şərtlə qaytara bilər?

Bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və ya bankla ödəyici arasında müqavilə ilə ayrı hal nəzərdə tutulmasın.

3187. Ödəyicinin ödəniş tapşırığını qəbul etmiş bank müvafiq pul məbləğini tapşırıqda göstərilmiş şəxsin hesabına salınmaq üçün vəsait alanın bankına hansı müddətdə köçürməlidir?

MM-in 973.1-ci maddəsi ilə müəyyənləşdirilmiş müddətdə. Belə ki, ödəniş tapşırığı ilə hesablaşma zamanı bank ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda ödəyicinin göstərdiyi şəxsin hesabına qanunla nəzərdə tutulmuş və ya qanuna uyğun təyin edilmiş müddətdə köçürməyi öhdəsinə götürür, bu şərtlə ki, bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın və ya bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə daha qısa müddət müəyyənləşdirilməsin (maddə 975).

3188. Bank tapşırığın icrası haqqında bildirişi ödəyicinin tələbi ilə ona hansı müddətdə verməlidir?

Dərhal.

3189. Tapşırığın icrası haqqında bildirişin tərtibi qaydası və onun məzmununa aid tələblər hansı qaydada nəzərdə tutulur?

Qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və ya tərəflərin razılaşması ilə

3190. Müştərinin tapşırığı icra edilmədikdə və ya lazımınca icra edilmədikdə bank hansı əsaslarla və miqdarda məsuliyyət daşıyır?

MM-in 23-cü fəslində (öhdəliklərin icra edilməməsi üçün məsuliyyət) nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda (maddə 976)

3191. Hansı halda tapşırığın icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün MM-in 976.1-ci maddəsində nəzərdə tutulmuş məsuliyyəti məhkəmə həmin bankın üzərinə qoya bilər?

Ödəyicinin tapşırığının icrası üçün cəlb olunmuş bank tərəfindən hesablaşma əməliyyatlarının aparılması qaydalarının pozulması ilə əlaqədar baş verdikdə

3192. Əgər bank tərəfindən hesablaşma əməliyyatlarının aparılması qaydalarının pozulması pul vəsaitinin qanunsuz tutulmasına səbəb olmuşdursa, bank hansı öhdəliyi daşıyır?

MM-in 449-cu maddəsində (Pul öhdəliyinin icra edilməməsi üçün məsuliyyət) nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

§ 3. Akkreditiv üzrə hesablaşmalar

3193. Akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) nələri öhdəsinə götürür?

Vəsait alana vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi (maddə 977)

3194. Vəsait alan və aksept edən və ya uçota alan emitent banka hansı qaydalar tətbiq olunur?

Vəsaiti ödəyən və ya köçürmə vekselini ödəyən və icraçı bank haqqında qaydalar

3195. Akkreditiv üzrə hesablaşmaların həyata keçirilməsi qaydası hansı qaydada tənzimlənir?

Qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq edilən işgüzar dövriyyə adətləri ilə

3196. Hansı akkreditiv geriçağırma akkreditivi sayılır? Akkreditivin geri çağırılması emitent bankın vəsait alan qarşısında hansı öhdəliklərini yaradır?

Vəsait alana qabaqcadan bildirmədən emitent bankın dəyişdirə və ya ləğv edə bildiyi akkreditiv. Hər hansı öhdəlik yaratmır (maddə 978).

3197. İcraçı bank geriçağırma akkreditivi üzrə ödənişi və ya digər əməliyyatları hansı şərtlə icra etməlidir?

Bu şərtlə ki, icra anınadək o, akkreditivin şərtlərinin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında bildiriş almasın.

3198. Akkreditiv nə zaman geriçağırma akkreditivi olur?

O vaxt geriçağırma akkreditivi olur ki, onun mətnində bu hal birbaşa müəyyənləşdirilir.

3199. Hansı akkreditiv geri çağırılmayan sayılır?

O akkreditiv geri çağırılmayan akkreditiv sayılır ki, o, vəsait alanın razılığı olmadan ləğv edilə və ya dəyişdirilə bilmir (maddə 979).

3200. Akkreditiv əməliyyatının aparılmasında iştirak edən icraçı bank emitent bankın xahişi ilə geri çağırılmayan akkreditivi təsdiqləyə bilər (təsdiqlənmiş akkreditiv). Bu cür təsdiqləmə icraçı bankın emitent bankın öhdəliyindən əlavə, hansı öhdəliyi qəbul etdiyini bildirir?

Akkreditivin şərtlərinə uyğun ödənişi icra etmək öhdəliyini

3201. İcraçı bankın təsdiqlədiyi geri çağırılmayan akkreditiv icraçı bankın razılığı olmadan dəyişdirilə və ya ləğv edilə bilərmi?

Xeyr.

3202. Akkreditivin icrası üçün vəsait alan icraçı banka akkreditivin bütün şərtlərinin yerinə yetirildiyini təsdiqləyən sənədləri təqdim edir. Bu şərtlərdən, heç olmasa biri pozulduqda nə baş verir?

Akkreditiv icra edilmir.

3203. İcraçı bank akkreditivin bütün şərtlərinin yerinə yetirildiyini təsdiqləyən sənədləri hansı qaydada yoxlamalıdır?

Yalnız formal baxımdan qaydada olmasını (maddə 980)

3204. Əgər icraçı bank zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən sənədləri qəbul etməkdən imtina edirsə, bu barədə o, hansı hərəkəti etmək öhdəliyi daşıyır?

İmtinanın səbəblərini göstərməklə, vəsait alana və emitent banka dərhal məlumat verməlidir (maddə 981).

3205. Əgər icraçı bankın qəbul etdiyi sənədləri aldıqdan sonra emitent bank onları zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən hesab edərsə, hansı hüquqa malikdir?

Onların qəbulundan imtina edə bilər və akkreditivin şərtləri pozulmaqla vəsait alana ödənilmiş məbləği icraçı bankdan tələb edə bilər, ödənilməmiş akkreditiv üzrə isə ödənilmiş məbləğlərin əvəzini ödəməkdən imtina edə bilər.

3206. Hansı hallar istisna olmaqla akkreditivin şərtlərinin pozulmasına görə ödəyici qarşısında emitent bank, emitent bank qarşısında isə icraçı bank məsuliyyət daşıyır?

MM-in 982-ci maddəsində (Akkreditivin şərtlərinin pozulmasına görə bankın məsuliyyəti) nəzərdə tutulan (maddə 982)

3207. İcraçı bank ödənilmiş və ya təsdiqlənmiş akkreditiv üzrə pul vəsaitini ödəməkdən əsassız imtina etdikdə vəsait alan qarşısında məsuliyyət kimin üzərinə qoyula bilər?

İcraçı bankın.

3208. İcraçı bankda akkreditiv hansı hallarda bağlanır?

- Akkreditivin müddəti qurtardıqda;
- akkreditivin qüvvədə olma müddəti qurtaranadək onun istifadəsindən imtina etmək haqqında vəsait alanın ərizəsi üzrə, bir şərtlə ki, bu cür imtinanın mümkünlüyü akkreditivin şərtləri ilə nəzərdə tutulsun;
- akkreditivin tam və ya qismən geri çağırılması haqqında ödəyicinin tələbi ilə, bir şərtlə ki, akkreditivin şərtlərinə görə belə geriçağırma mümkün olsun (maddə 983).

3209. Ödənilmiş akkreditivin istifadə olunmamış məbləği hansı müddətdə emitent banka qaytarılmalıdır?

Akkreditivin bağlanması ilə eyni vaxtda dərhal. Emitent bank qaytarılmış məbləğləri ödəyicinin vəsaitin deponentləşdirildiyi hesabına daxil etməlidir.

§ 4. İnkasso üzrə hesablaşmalar

3210. İnkasso üzrə hesablaşmalar hansı mahiyyətə malikdir?

Bu hesablaşmalar zamanı bank (emitent bank) müştərinin tapşırığı ilə ödəyicidən ödənişin və (və ya) ödəniş akseptinin alınması əməliyyatlarını müştərinin hesabına həyata keçirməyi öhdəsinə götürür (maddə 984).

3211. İnkasso üzrə hesablaşmaların həyata keçirilməsi qaydası necə tənzimlənir?

Qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə

3212. Müştərinin tapşırığının icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda emitent bank onun qarşısında hansı əsaslarla və miqdarda məsuliyyət daşıyır?

MM-in 23-cü fəslində (öhdəliklərin icra edilməməsi üçün məsuliyyət) nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda

3213. Əgər müştərinin tapşırığının icra edilməməsi və ya lazımınca icra edilməməsi barəsində müştəri qarşısında məsuliyyət hansı halda bankın üzərinə qoyula bilər?

Hesablaşma əməliyyatlarının həyata keçirilməsi qaydalarının icraçı bank tərəfindən pozulması ilə əlaqədar baş vermişdirsə

3214. İnkasso üzrə hesablaşmalarla əlaqədar olan, MM ilə tənzimlənməyən münasibətlər hansı qanunvericiliklə tənzimlənir?

Bank qanunvericiliyi ilə

3215. Hər hansı sənəd olmadıqda və ya sənədlər zahiri əlamətlərinə görə inkasso tapşırığına uyğun gəlmədikdə icraçı bank inkasso tapşırığını aldığı şəxsə bu barədə hansı müddətdə məlumat verməlidir?

Dərhal. Göstərilən qüsurlar aradan qaldırılmadıqda bank sənədləri icra etmədən qaytara bilər (maddə 985).

3216. Sənədlər alındıqları formada ödəyiciyə təqdim edilir, bu zaman nələr istisna edilir?

İnkasso əməliyyatının rəsmiləşdirilməsi üçün zəruri olan bank qeydləri və yazıları

3217. Əgər sənədlər təqdim olunduqda ödənilməlidirsə, icraçı hansı öhdəliyi daşıyır?

Bank inkasso tapşırığını aldıqdan dərhal sonra sənədləri ödənişə təqdim etməlidir. Əgər sənədlər başqa müddətdə ödənilməlidirsə, icraçı bank ödəyicinin akseptini almaq üçün sənədləri inkasso tapşırığını aldıqdan sonra dərhal akseptə təqdim etməlidir, ödəniş isə sənəddə göstərilmiş ödəniş müddətinin çatdığı gündən gec olmayaraq tələb olunmalıdır.

3218. Qismən ödənişlər hansı hallarda qəbul edilə bilər?

Bunun bank qaydaları ilə müəyyənləşdirildiyi və ya inkasso tapşırığında xüsusi icazənin olduğu hallarda

3219. Alınmış (inkasso edilmiş) məbləğlər icraçı bank tərəfindən hansı müddətdə emitent bankın sərəncamına verilməli, həmin bank isə bu məbləğləri müştərinin hesabına salmalıdır?

Dərhal. İcraçı bank inkasso edilmiş məbləğlərdən ona çatan muzdu və xərclərin əvəzini tuta bilər.

3220. Əgər ödəniş və (və ya) aksept alınmamışdırsa, icraçı bank ödənişin icra olunmamasının və ya akseptdən imtina edilməsinin səbəblərini dərhal emitent banka bildirməlidir. Emitent bank öz növbəsində nə etməlidir?

Bu barədə müştəriyə dərhal məlumat verərək, ondan gələcək hərəkətlər barəsində göstərişlər istəməlidir (maddə 986).

3221 . Gələcək hərəkətlər haqqında göstərişlər hansı müddətdə alınmadıqda, icraçı bankın sənədləri emitent banka qaytarmağa ixtiyarı vardır?

Bank qaydaları ilə müəyyənləşdirilmiş müddətdə, bu müddət olmadıqda isə ağlabatan müddətdə

3222. Çekin mahiyyəti nədən ibarətdir?

Çek ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləndirilməyən yazılı sərəncamından ibarətdir (maddə 986-1).

3223. Çekdə hansı rekvizitlər göstərilməlidir?

- Sənədin mətninə daxil edilmiş "çek" adı;
- müəyyən pul məbləğini ödəmək barədə sadə və heç nə ilə şərtləndirilməyən tapşırıq;
- ödənişi icra etməli olan bankın adı;
- ödəniş yeri;
- çekin tərtib olunduğu tarix və yer;
- çek verənin imzası.

3224. Bankların icazə verdiyi çek blanklarında mətbəə üsulu ilə çap edilmiş hansı məlumatlar olur?

Ödəyici bankın adı, ünvanı və telefon nömrəsi, çek verənin (hesab sahibinin) adı və ünvanı, habelə ödəyici bankın hesab nömrəsi.

3225. Çeklərə nələr aiddir?

Hesablaşma çeki, bank çeki, pul çeki və yol çeki

3226. Hesablaşma çekinin mahiyyəti nədən ibarətdir?

Hesablaşma çeki hesablardan nağdsız qaydada hesablaşmaların aparılmasını nəzərdə tutan çekdir.

3227. Bank çekinin mahiyyəti nədən ibarətdir?

Bank çeki bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir.

3228. Pul çekinin mahiyyəti nədən ibarətdir?

Pul çeki müştərinin bankda olan hesabından nağd pul vəsaitini almaq üçün yazılı sərəncamdan ibarət olan çekdir.

3229. Yol çekinin mahiyyəti nədən ibarətdir?

Yol çeki bir məntəqədə verilmiş çekdə imza nümunəsi göstərilən çek sahibinə çekdə yazılmış məbləği ödəməyi üzərinə götürən təşkilatın öhdəliyi olub, digər məntəqədə nağdlaşdırılan çekdir. Yol çeklərinin ödənilməsi sahibinin imzası əsasında çekin emitenti, onun filialı və yaxud emitentin göstərdiyi digər təşkilat tərəfindən həyata keçirilir.

3230. Hansı müddəalar istisna olmaqla, MM-in 1005.2.4-cü, 1006-cı (Köçürmə veksellərinin növləri), 1009-1012-ci maddələrinin (Veksel məbləği, Köçürmə vekselində etibarsız imzalar, Nümayəndəlik səlahiyyəti olmayan şəxsin köçürmə vekselini imzalaması, Veksel verənin məsuliyyəti) müddəaları çeklərdən irəli gələn münasibətlərin tənzimlənməsinə də tətbiq edilir?

Vekselin aksept edilməsinə dair müddəalar (maddə 986-2)

3231. Çek hansı hallarda verilə bilər?

Yalnız o hallarda verilə bilər ki, çek verənin bankdakı hesablarında vəsaiti və həmin vəsaitə dair çeklər vasitəsilə sərəncam vermək hüququ olsun (maddə 986-3).

3232. Çekin ödənilməsi üçün çek verənin vəsaiti və ya ona verilmiş kredit kifayət etmədikdə bankın çeki ödəməkdən imtina etmək hüququ vardır. Bank təmin olunmamış məbləği ödədikdə, çek sahibinin hüquqları ona keçir. Bank çeki tamamilə və ya qismən ödəməkdən imtina etdikdə, hansı nəticələr baş verməlidir?

- Çek verən, yaxud tamamilə və ya qismən ödənilməmiş çeki çek verənin əvəzinə imzalamış şəxs birgə borclular kimi, çek məbləğinin ödənilməmiş hissəsinin 6 faizi miqdarında zərərin əvəzini çek sahibinə ödəməlidirlər. Çek sahibinin başqa zərərin əvəzinin ödənilməsi tələbini həyata keçirmək hüququ saxlanılır;

- bank təminat olmadığından çekin tamamilə və ya qismən ödənilmədiyini çekin özündə qeyd etməli və ləngimədən onu çek sahibinə göndərməli, bu barədə belə çekləri imzalamış çek verənlərin reyestrini tərtib edən maliyyə bazarlarına nəzarət orqanına dərhal bildiriş göndərməlidir;

- təmin olunmamış çeki verənin bir il ərzində çeklər verməsinə icazə verilmir və o özündə olan bütün çek blanklarını dərhal ödəyici banka və müştərisi olduğu bütün başqa banklara qaytarmalıdır. Ödəyici bank bunu yazılı şəkildə dərhal çek verəndən və hesablardakı vəsaitə dair sərəncam verməyə ixtiyarı olan bütün şəxslərdən tələb etməli və bundan sonra çek verməyi onlara qadağan etməlidir;

- bu tələbdən sonra bir ay müddətində çek verən çek sahibi barədə çek məbləğinin ödənilməmiş hissəsini ödədiyini, habelə MM-in 986-3.2.1-ci maddəsinə uyğun olaraq zərərin əvəzini ödədiyini, yaxud həmin məbləğlərin tam ödənilməsi üçün ödəyici bankın kifayət qədər vəsaitə malik olması qayğısına qaldığını ödəyici banka sübut edərsə, MM-in 986-3.2.3-cü maddəsinə uyğun olaraq çeklərin verilməsinin qadağan edilməsinin gələcək üçün qüvvəsi olmur.

3233. Çekdə aksept barədə qeyd yazıla bilərmi?

Etibarsız sayılır. Ödəyici çeki aksept etməməlidir (maddə 986-4).

3234. Çek kimə yazıla bilər?
- Müəyyən şəxsin adına;
- təqdim edənə (adsız) (maddə 986-5).

3235. Çek hansı halda adsız çek sayılır?
Çek "və ya təqdim edənə" qeyd-şərti ilə, yaxud bu cür məna ifadə edən qeyd-şərtlə müəyyən şəxsə verilərsə

3236. Hansı çek adsız çek sayılır?
Sahibinin adı göstərilməyən çek

3237. Çekdə faizlər barədə qeyd-şərt yazıla bilərmi?
Etibarsız sayılır (maddə 986-6).

3238. Müəyyən şəxsə verilmiş və ödənişə təqdim olunmuş çek hansı qaydada başqa şəxsə verilə bilər?
İndossament vasitəsilə (maddə 986-7)

3239. Çek indossament vasitəsilə həmçinin çek verənə və çek üzrə mükəlləfiyyətli hər hansı şəxsə verilə bilərmi?
Bəli, öz növbəsində bu şəxslər də çeki indossament edə bilərlər.

3240. Ödəyici bankın indossamenti etibarsızdır. Adsız indossament blanklı indossament sayılır. Hansı hallar istisna olmaqla, bank üçün indossamentin yalnız ödəniş qəbzi qüvvəsi vardır?
Bankın bir neçə şöbəsinin (filialının) olduğu və indossamentin çekin verildiyi şöbənin deyil, başqa şöbənin xeyrinə edildiyi hallar

3241. Hansı müddəalar istisna olmaqla, MM-in 993.3-cü, 993.4-cü, 1018-ci və 1020-ci maddələrinin müddəaları çeklərə də tətbiq edilir?
Vekselin aksept edilməsinə dair müddəaları

3242. Çek sahibinin xeyrinə ehtimala hansı müddəa tətbiq edilir?
MM-in 1019.1-ci maddəsi, yəni veksel saxlayanın xeyrinə ehtimala dair müddəalar tətbiq edilir (maddə 986-8).

3243. Çek sahibi çeki itirdikdə, əlində çek olan şəxs, onun adsız çek və ya indossament vasitəsilə verilən çek olmasına baxmayaraq, çeki hansı halda qaytarmağa borcludur?
Yalnız o halda qaytarmağa borcludur ki, onu vicdansız yolla əldə etmiş olsun və ya əldə edərkən kobud ehtiyatsızlıq etmiş olsun.

3244. Çek nə zaman ödənilməlidir?
Təqdim olunduqda. Hər cür başqa göstəriş etibarsız sayılır (maddə 986-10).

3245. Tərtib edildiyi ölkədə ödənilməli olan çek ödənişə hansı müddətdə təqdim olunmalıdır?
Bir ay müddətində.

3246. Verildiyi ölkədə deyil, başqa ölkədə ödənilməli olan çek hansı müddətdə ödənişə təqdim edilməlidir?

Verilmə yeri ilə ödəniş yeri eyni qitədədirsə, iki ay müddətində, müxtəlif qitələrdədirsə, üç ay müddətində ödənişə təqdim edilməlidir.

3247. Müstəqil Dövlətlər Birliyinin üzvü olan bir dövlətin ərazisində verilən və Müstəqil Dövlətlər Birliyinin üzvü olan digər dövlətin ərazisində ödənilməli olan çeklər eyni qitədə verilən və ödənilməli olan çeklər sayıldığından yuxarıda göstərilən müddətlərin axımı hansı gündən başlanır?

Çekdə onun verilmə günü kimi göstərilən gündən

3248. Çekin geri götürülməsi nə zaman etibarlıdır?

Yalnız onun təqdim edilmə müddəti qurtardıqdan sonra (maddə 986-11)

3249. Çek geri götürülmədikdə, bank çekin təqdim edilmə müddəti qurtardıqdan sonra da ödənişi icra edə bilərmi?

Bəli.

3250. Çek verildikdən sonra çek verənin ölməsi və ya fəaliyyət qabiliyyətini itirməsi və ya ödəmə qabiliyyətli olmamasının elan edilməsi çekin etibarlılığına hansı təsiri göstərir?

Təsir göstərmir (maddə 986-12).

3251. Çek üzrə ödənişlərə, ödənişə dair qəbz verilməsinə və xarici valyutada çeklərə MM-in hansı müddəaları müvafiq surətdə tətbiq olunur?

MM-in 1028-ci (Ödənişin alınması barədə qəbz təqdim edilməsi. Qismən ödəniş), 1029.4-cü (Ödəyicinin indossamentlərin ardıcıl sırasının düzgünlüyünü yoxlamağa borclu olmaması, lakin indossantların imzalarını yoxlamağa borclu olmaması) və 1030-cu maddələri (Xarici valyuta ilə verilən veksellər) (maddə 986-13)

3252. Çek verənin, habelə hər hansı çek sahibinin MM-in 986-14.2-986-14.6-cı maddələrində nəzərdə tutulan nəticələr ilə çeki cızıqlaması hansı formada aparılır?

Çekin üz tərəfinə iki paralel xətt çəkməklə. Cızıqlama ümumi və ya xüsusi ola bilər. Xətlər arasında heç bir göstəriş və ya "bank" qeydi və ya eyni mənalı başqa qeyd yoxdursa, cızıqlama ümumi sayılır. Xətlər arasında bankın adı yazılmışsa, cızıqlama xüsusi sayılır. Ümumi cızıqlama xüsusiyə çevrilə bilər, lakin xüsusi cızıqlama ümumiyə çevrilə bilməz. Cızıqlamanın və ya göstərilmiş bankın adının qaralanması etibarsız sayılır (maddə 986-14).

3253. Cızıqlama hansı növlərdə ola bilər?

Ümumi və ya xüsusi. Xətlər arasında heç bir göstəriş və ya "bank" qeydi və ya eyni mənalı başqa qeyd yoxdursa, cızıqlama ümumi sayılır. Xətlər arasında bankın adı yazılmışsa, cızıqlama xüsusi sayılır. Ümumi cızıqlama xüsusiyə çevrilə bilər, lakin xüsusi cızıqlama ümumiyə çevrilə bilməz. Cızıqlamanın və ya göstərilmiş bankın adının qaralanması etibarsız sayılır.

3254. Ödəyici ümumi cızıqlaması olan çeki kimlərə ödəyə bilər?

Yalnız banka və ya öz müştərisinə

3255. Xüsusi cızıqlaması olan çeki ödəyici kimə ödəyə bilər?

Yalnız göstərilmiş banka və ya əgər bu bankın özü ödəyicidirsə, həmin bankın müştərisinə

3256. Bir neçə xüsusi cızıqlaması olan çeki ödəyici hansı halda ödəyə bilər?

Yalnız o halda ödəyə bilər ki, çekin üzərində ikidən çox cızıqlama aparılmasın.

3257. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici və ya bank vurulan zərərin əvəzini hansı miqdarda ödəməyə borcludur?

Çekin məbləğindən artıq olmayan miqdarda

3258. Çek verən, habelə hər hansı çek sahibi çekin üz tərəfində "hesablaşma" qeydi və ya eyni mənalı başqa qeyd yazmaqla, çekin nağd pulla ödənilməsini qadağan etdiyi halda ödəyici çekin ödənişini hansı qaydada icra edə bilər?

Yalnız hesabdan hesaba keçirmə yolu ilə (hesablaşma, köçürmə, nağdsız hesablaşmalar) (maddə 986-15)

3259. Hesabda yazı ödəniş sayıldığından "hesablaşma" qeydinin pozulması hansı nəticəni yaradır?

Etibarsız sayılır.

3260. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici vurulan zərərin əvəzini hansı miqdarda ödəməyə borcludur?

Çekin məbləğindən artıq olmayan miqdarda

3261. Əgər ödəyici ödəmə qabiliyyəti olmayan elan edilmişsə və ya o, ödənişlərin icrasını dayandırmışsa və ya tutmanın onun əmlakına yönəldilməsi nəticəsiz qalmışsa, hesablaşma çekinin sahibi hansı tələbi irəli sürə bilər?

Ödəyicidən çeki nağd pulla ödəməyi tələb edə bilər, çek ödənilmədikdə isə özünün reqres hüququnu həyata keçirə bilər.

3262. Banklar haqqında qanuna əsasən görülən tədbirlər nəticəsində çek sahibi özünün ödəyicidəki hesablarına dair sərəncam verə bilmədikdə də bu qayda tətbiq olunurmu?

Bəli.

3263. Hesablaşma çeki sahibinin, bundan əlavə, iddia vermək hüququ vardır, amma o nəyi sübut etməlidir?

Sübut etməlidir ki, ödəyici hesabda sadə və heç nə ilə şərtləşdirilməyən qeyd yazmaqdan imtina edir və ya ödəniş yeri üzrə müvafiq hesablaşma orqanı öhdəliklərin ödənilməsi məqsədilə nağdsız hesablaşmalar aparılması üçün çeki yararsız elan etmişdir.

3264. Ödənişə vaxtında təqdim olunan çek ödənilmədikdə çek sahibi indossantlara, çek verənə və çek üzrə digər mükəlləfiyyətli şəxslərə iddia verə bildiyindən çek sahibi iddia verdiyi şəxsdən nələri tələb edə bilər?

- Çek ödənilməyibsə, çek məbləğinin ödənilməsini;
- faizlərin ödənilməsini;

- xərclərin ödənilməsini;
- faizin üçdəbirindən çox olmayan miqdarda penya (maddə 986-16).

3265. Əgər çekin vaxtında təqdim edilməsinə qarşısıalınmaz maneə əngəl törədirsə, çeklərin ödənişə təqdim edilməsi müddətlərinin uzadılmasına hansı müddəa tətbiq olunur?

MM-in 1042-ci maddəsi (Müddətlər keçdikdə veksel saxlayanın hüquqlarını itirməsi)

3266. Qəlp və ya saxta çekin ödənişi ilə əlaqədar zərəri hansı şərtlə ödəyici çəkir?

Bu şərtlə ki, çekdə göstərilən çek verən təqsirli olmasın, məsələn, ona tapşırılmış çek blanklarını etinasız saxlamış olmasın (maddə 886-17).

3267. Çekin mətninin dəyişdirilməsinə MM-in hansı maddəsi tətbiq edilir?

1045-ci maddəsi (Vekselin mətninin dəyişdirilməsi) (maddə 986-18)

3268. Çek sahibinin indossantlara, çek verənə və çek üzrə digər mükəlləfiyyətli şəxslərə qarşı çekdən irəli gələn iddia tələbləri nə zaman ödənilir?

Təqdimetmə müddəti qurtardıqdan bir il sonra (maddə 986-19)

3269. Çek üzrə mükəlləfiyyətli olan bir şəxsin çek üzrə mükəlləfiyyətli olan digər şəxsə iddia tələbləri nə zaman ödənilir?

Çekin mükəlləfiyyətli şəxs tərəfindən ödənildiyi və ya məhkəmə qaydasında ondan çek üzrə ödənişin tutulduğu gündən bir il sonra

3270. Çekin etibarsız elan edilməsinə MM-in hansı maddəsi tətbiq olunur?

1047-ci maddəsi (Vekselin etibarsız elan edilməsi) (maddə 986-20)

3271. Çek ödənişə nə zaman təqdim olunmalıdır?

Yalnız iş günləri. Təqdimetmə müddətinin son günü bazar gününə və ya başqa qeyri-iş gününə düşdükdə, müddət növbəti iş gününədək uzadılır. Müddət ərzində olan qeyri-iş günləri müddət hesablanarkən nəzərə alınır (maddə 986-21).

54-cü FƏSİL
Qiymətli kağızlar ilə bağlı yaranan hüquq münasibətlərinə dair suallar və cavablar

§ 1. Qiymətli kağızlar haqqında ümumi müddəalar

3272. Qiymətli kağızın mahiyyəti nədən ibarətdir?

Qiymətli kağız onun mülkiyyətçisi və emitenti arasında müqavilə münasibətlərinin mövcudluğunu və mülkiyyətçinin həmin müqavilədən irəli gələn hüquqlarını təsdiqləyən sənəddir (maddə 987).

3273. Kim emitent adlanır?

Qiymətli kağızı emissiya etmiş, buraxmış və ya vermiş şəxs MM-in qiymətli kağızlarla bağlı münasibətləri tənzim edən 54-cü fəslinin (Qiymətli kağızlar) məqsədləri üçün emitent adlanır.

3274. Qiymətli kağızların növləri, məcburi rekvizitləri, onlara aid tələblər, qiymətli kağızlar və qiymətli kağız bazarı ilə bağlı münasibətlər hansı qanunvericiliklə müəyyən edilir?

MM və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

3275. Qiymətli kağızın məcburi rekvizitlərinin olmaması və ya qiymətli kağızın onun üçün müəyyənləşdirilmiş formaya uyğun gəlməməsi hansı hüquqi nəticəni yaradır?

Onun əhəmiyyətsizliyinə səbəb olur.

3276. Qiymətli kağızda emitentə qarşı təsbit edilmiş hər hansı tələb həmin qiymətli kağızla təsdiqlənir. Belə tələbin etibarlılığı onu əmələ gətirən əqdin mövcudluğundan və ya etibarlılığından asılı deyildir. Qiymətli kağızla təsdiqlənmiş öhdəliyin icrasından onun əsasının olmamasına və ya onun etibarsızlığına istinadla imtina edilməsinə hansı halda yol verilir?

Yol verilmir (maddə 988).

3277. Qiymətli kağızı vermiş emitent və onu indossament etmiş bütün şəxslər onun mülkiyyətçisi qarşısında hansı qaydada məsuliyyət daşıyırlar?

Birgə məsuliyyət

3278. Qiymətli kağızın mülkiyyətçisinin tələbi qiymətli kağız üzrə öhdəlik götürmüş bir və ya bir neçə şəxs tərəfindən yerinə yetirildikdə, o (onlar), qiymətli kağız üzrə öhdəlik götürmüş qalan şəxslər qarşısında hansı hüququ əldə edir?

Geriyə tələb (reqres) hüququ

3279. Qiymətli kağızın mülkiyyətçisi qiymətli kağızda aldatma və ya saxtalaşdırma aşkar etdikdə kağızı ona vermiş borcluya qarşı hansı tələbi irəli sürə bilər?

Qiymətli kağızla təsdiqlənmiş öhdəliyin lazımınca yerinə yetirilməsi və zərərin əvəzinin ödənilməsi tələbini

3280. Hansı qiymətli kağız adlıdır?

Mülkiyyətçisinin adı üzərində təsbit edilən və ya mülkiyyət hüququ mərkəzi depozitarda qeydiyyata alınmış qiymətli kağız adlı qiymətli kağızdır (maddə 989).

3281. Adlı qiymətli kağız üzrə borclu icranı kim həyata keçirməlidir?

Yalnız özünün adına qiymətli kağız verilmiş və ya digər qaydada qiymətli kağıza mülkiyyət hüququnu əldə etmiş şəxs kimi, yaxud həmin şəxsin hüquq varisi kimi təsdiq edən şəxs

3282. Əgər borclu icranı bu cür təsdiq olmadan həyata keçirsə, o, qiymətli kağıza dair öz hüququnu sübut edəcək üçüncü şəxs qarşısında öhdəliyindən hansı halda azad edilə bilər?

Azad edilmir.

3283. Qiymətli kağız hansı halda adsızdır?

O halda adsız sayılır ki, ona əsasən emitent öhdəliyi bu qiymətli kağızı təqdim edən istənilən şəxsə icra etməyi öz üzərinə götürür (maddə 990).

3284. Sənədli qiymətli kağızın mahiyyəti nədən ibarətdir?

Sənədli qiymətli kağızı saxtalaşdırma imkanlarını aradan qaldırmaq məqsədilə xüsusi qaydada hazırlanmış kağız blanklarda (sertifikatda) çap edilmiş qiymətli kağız formasıdır (maddə 991).

3285. Sənədli qiymətli kağız blanklarına və onları hazırlayan şəxslərə aid tələblər kim tərəfindən müəyyən edilir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən

3286. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızlara mülkiyyət hüququ hansı andan əmələ gəlir?

Buraxılış zamanı həmin qiymətli kağızın ilk mülkiyyətçiyə özgəninkiləşdirilməsindən sonra mərkəzi depozitarda qeydə alındığı andan (maddə 993)

3287. Sənədli qiymətli kağızlara mülkiyyət hüququ hansı andan əmələ gəlir?

Həmin qiymətli kağızların ilk mülkiyyətçiyə özgəninkiləşdirildiyi andan

3288. Hansı ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızları əldə edən şəxsin mülkiyyət hüquqları həmin qiymətli kağızların ötürülməsinin mərkəzi depozitarda qeydiyyatı ilə, sənədli qiymətli kağızları əldə edən şəxsin mülkiyyət hüquqları isə müvafiq əqdin bağlanması ilə yaranır?

MM-in 993.2-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada (Mülkiyyətçi qiymətli kağıza mülkiyyəti qanunda göstərilən qaydada əqdlərin bağlanması yolu ilə başqa şəxsə ötürə bilər) daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən

3289. Qiymətli kağıza mülkiyyət hüququ başqasına verildikdə və MM-in 1078-21-ci maddəsində (Qiymətli kağızla təsdiqlənmiş hüquqların ötürülməsi) nəzərdə tutulmuş digər şərtlər yerinə yetirildikdə qiymətli kağızla təsdiqlənmiş bütün hüquqlar hansı şərtlə əldə edənə keçir?

Bu şərtlə ki, həmin qiymətli kağızı başqasına vermək hüququ mövcud olsun.

3290. Hansı halda digər şəxslərin, xüsusən də emitentin iştirakı qiymətli kağıza mülkiyyət hüququnun verilməsi üçün zəruridir?

Əgər müqavilədə və ya qiymətli kağızın özündə nəzərdə tutulubsa

3291. Sənədli qiymətli kağız zədələnmək və ya korlanmaq nəticəsində dövriyyə üçün yararsız olduqda onun mülkiyyətçisi emitentdən zədələnmiş və ya korlanmış kağızın qaytarılması müqabilində yeni qiymətli kağız verməyi hansı şərtlə tələb edə bilər?

Bu şərtlə ki, həmin kağızda onun əsas məzmununu və fərqləndirici əlamətlərini inamla müəyyənləşdirmək hələ mümkün olsun (maddə 994).

3292. Zədələnmiş və ya korlanmış sənədli qiymətli kağızın əvəz olunması xərclərini kim çəkir?

Onun mülkiyyətçisi

3293. Sənədli qiymətli kağızın etibarsız elan edilməsi haqqında vəsatəti kim verə bilər?

İtki və ya itkinin aşkar edilməsi məqamında onun mülkiyyətçisi olmuş şəxs. Ərizəçi qiymətli kağıza mülkiyyət hüququnu və onun itirildiyini sübuta yetirməlidir (maddə 995).

3294. Hansı ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağız mülkiyyətçisinin adı və digər rekvizitləri mərkəzi depozitardakı yazıda əks olunmuş elektron sənəd formasında olan qiymətli kağızdır?

Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən (maddə 996)

3295. Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu sənədsiz qiymətli kağızlara tətbiq edilmir. Nə istisna təşkil edir?

Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı

3296. İpoteka kağızına mülkiyyət hüququnun yaranması, ipoteka kağızının dövlət qeydiyyatı, ipoteka kağızı üzrə hüquqların ötürülməsi (tədavülü) və ipoteka kağızına xitam verilməsi hansı qaydada müəyyən edilir?

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

3297. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı hansı formada tərtib olunur?

Yalnız elektron sənəd formasında

3298. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqlar hansı qaydada ötürülür?

MM-in 1078-20.11-ci maddəsi ilə müəyyən edilmiş tələblərin (onda indossat haqqında məlumatlar və indossantın imzası olmalıdır, sadə olmalı və heç nə ilə şərtlənməməlidir (indossamenti məhdudlaşdıran hər cür şərt etibarsız sayılır; qismən indossament də etibarsızdır.), qiymətli kağızda və ya ona əlavə edilmiş vərəqdə (əlavə vərəq) yazılmalıdır) elektron qaydada təmin edilməsi yolu ilə

3299. Qiymətli kağızlara nələr aiddir?

İstiqraz, səhm, veksel, depozitar qəbzi, investisiya fond payı, girov kağızı, ipoteka kağızı və daşınmaz əmlak sertifikatı (maddə 997)

3300. İstiqrazlar və səhmlər hansı növ qiymətli kağızlardır?

İnvestisiya qiymətli kağızlarıdır. İnvestisiya qiymətli kağızları buraxılışlarla yerləşdirilir və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq bir buraxılış daxilində hüquqların həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlardır.

3301. Qiymətli kağızların buraxılışının mahiyyəti nədir?

Emitentin qiymətli kağızların bir növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızlarının toplusudur.

3302. İnvestisiya qiymətli kağızları hansı formada buraxılır?

Sənədsiz və ya sənədli olmaqla adlı formada

3303. İnvestisiya qiymətli kağızlarının emissiyası qaydası necə müəyyən olunur?

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

3304. Depozitar qəbzinin mahiyyəti nədən ibarətdir?

Baza aktivi (xarici emitentin qiymətli kağızı) üzrə hüquqları təsdiqləyən və mülkiyyətçisinə onu buraxmış emitentdən, həmin qəbzin baza aktivi olan xarici emitentin qiymətli kağızları və onlarla təsdiqlənmiş hüquqları tələb etmək hüququ verən qiymətli kağızdır. Depozitar qəbzlərinin buraxılışı, onların dövlət qeydiyyatına alınması və tədavülü qaydası maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

3305. İnvestisiya fond payı hansı mahiyyətə malikdir?

Öz mülkiyyətçisinin paylı investisiya fondunda payına mülkiyyət hüquqlarını təsdiq edən, paylı investisiya fondu ləğv edildikdən sonra fondun aktivlərinin satışından payına müvafiq pul vəsaitlərini almaq hüququnu, habelə "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər hüquqları verən sənədsiz adlı qiymətli kağızdır.

3306. MM-in və qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarının pozulmasına görə təqsirli şəxslər hansı hallarda və qaydada məsuliyyət daşıyırlar?

Azərbaycan Respublikasının mülki, inzibati və ya cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada

3307. Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin pozulması nəticəsində vurulmuş ziyan hansı qaydada ödənilməlidir?

MM və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada

3308. Dövlət qiymətli kağızları hansı mahiyyətə malikdir?

Müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş qurum tərəfindən buraxılan qiymətli kağızlardır (maddə 997-1).

3309. Bələdiyyə qiymətli kağızları hansı mahiyyətə malikdir?

Bələdiyyə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada buraxılan qiymətli kağızlardır.

§ 2. Veksel

3310. Vekselin hansı növləri fərqləndirilir?

Veksellər adlı qiymətli kağızlardır, veksel verən onların vasitəsilə müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir (köçürmə vekseli) və ya hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamına müəyyən məbləğ ödəməyi öhdəsinə götürür (sadə veksel) (maddə 1004)

3311. MM-in 1005.1-ci maddəsində göstərilmiş rekvizitlərdən (Sənədin mətninə daxil edilmiş "veksel" adı, veksel verənin müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş göstərişi, kim ödəməlidirsə, onun (ödəyicinin) adı və s.) hər hansı birinin olmadığı sənədin, hansı hallar istisna olmaqla, köçürmə vekseli qüvvəsi yoxdur?

- Ödəniş müddəti göstərilməmiş köçürmə vekseli təqdim edildikdə ödənilməli olan veksel (müddəti təqdim edilməsi ilə müəyyənləşdirilən veksel) sayılır;
- ödəniş yeri xüsusi göstərilmədikdə ödəyicinin adı ilə yanaşı göstərilmiş yer ödəniş yeri və bununla birlikdə, ödəyicinin yaşayış yeri və ya olduğu yer sayılır;
- tərtib edildiyi yer göstərilməmiş köçürmə vekseli veksel verənin adı ilə yanaşı göstərilmiş yerdə imzalanmış sayılır (maddə 1005).

3312. Köçürmə veksellərinin növləri hansılardır?

- Köçürmə vekseli veksel verənin özünün sərəncamı ilə verilə bilər;
- köçürmə vekseli veksel verənin özünə verilə bilər;
- köçürmə vekseli üçüncü şəxsin hesabına verilə bilər (maddə 1006).

3313. Köçürmə vekseli harda ödənilə bilər?

Köçürmə vekseli üçüncü şəxsdə, ödəyicinin yaşayış yerində və ya olduğu yerdə və ya hər hansı başqa yerdə ödənilə bilər (maddə 1007).

3314. Faiz dərəcəsi vekseldə göstərilmədikdə necə hesablanır?

Faiz dərəcəsi vekseldə göstərilməlidir; belə göstəriş olmadıqda şərt yazılmamış sayılır (maddə 1008).

3315. Vekseldə yazı və rəqəmlə fərqli məbləğlər göstərilmişdirsə hansı əsas götürülür?

Əgər veksel məbləği həm sözlə, həm də rəqəmlə göstərilmişdirsə, onların arasında fərq olduqda vekselin yazı ilə göstərilmiş məbləğdə qüvvəsi olur (maddə 1009).

3316. Vekseldə imzalardan birinin etibarsızlığı digər imzaların da qüvvəsini itirməsinə səbəb olurmu?

Köçürmə vekselində veksel üzrə öhdəlik götürə bilməyən şəxslərin imzaları, saxta imzalar və ya uydurma şəxslərin imzaları olduqda və ya imzaları atmış və ya adından imzalar atılmış şəxsləri hər hansı başqa əsasla mükəlləfiyyətli edə bilməyən imzalar olduqda, digər şəxslərin imzaları qüvvəsini itirmir (maddə 1010).

3317. Səlahiyyəti olmayan nümayəndənin imzaladığı vekselə görə kim məsuliyyət daşıyır?

Şəxsin adından fəaliyyət göstərmək üçün səlahiyyət almadan onun nümayəndəsi kimi köçürmə vekselini imzalamış hər bir şəxs veksel üzrə öhdəlikləri özü daşıyır və əgər veksel üzrə ödənişi həyata keçirmişdirsə, təmsil etdiyi şəxsin malik ola biləcəyi hüquqlara malik olur. Öz səlahiyyətlərini aşan nümayəndə də eynilə bu vəziyyətdə olur (maddə 1011).

3318. Veksel verən ödəniş üçün məsuliyyəti öhdəsindən götürə bilərmi?

Veksel verən aksept üçün məsuliyyəti öhdəsindən götürə bilər, lakin ödəniş üçün məsuliyyəti öhdəsindən götürə bilməz (maddə 1012).

3319. Vekseldə akseptin ifadəsi üçün hər hansı forma tələbi varmı?

Aksept vekseldə yazılı bəyanat vasitəsilə ifadə edilir (maddə 1013).

3320. Veksel verənin hansı hüquqları var?

- Köçürmə vekselində şərt qoya bilər ki, veksel aksept üçün müddət təyin edilməklə və ya təyin edilmədən təqdim oluna bilər;
- üçüncü şəxsdə ödənilməli olan köçürmə vekseli və ya ödəyicinin yaşayış yerində və ya olduğu yerdə deyil, başqa yerdə ödənilməli olan veksel və ya təqdim edildikdən müəyyən müddət sonra ödənilməli olan veksel istisna edilməklə, vekseldə onun aksept üçün təqdim olunmasını qadağan edə bilər;
- şərt qoya bilər ki, veksel aksept üçün müəyyən müddətdən tez təqdim edilə bilməz (maddə 1014).

3321. Hansı halda ödəyici aksepti geri götürə bilməz?

Ödəyici öz aksepti barəsində veksel saxlayana və ya vekseldə imza edənlərin hər hansı birinə yazılı məlumat vermişdirsə, onların qarşısında öz akseptinin şərtlərinə uyğun məsuliyyət daşıyır (maddə 1015).

3322. Avalın kimin hesabına verildiyi göstərilmədikdə nə baş verir?

Avalda onun kimin hesabına verildiyi göstərilməlidir. Bu, göstərilmədikdə hesab edilir ki, aval veksel verənin hesabına verilmişdir (maddə 1016).

3323. Köçürmə vekseli başqasına verilə bilərmi?

İstənilən köçürmə vekseli indossament vasitəsilə başqasına verilə bilər (maddə 1017).

3324. İndossant hansı halda xeyrinə indossament edilən şəxslərin qarşısında məsuliyyət daşımır?

Əgər razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, indossant aksept və ödəniş üçün məsuliyyət daşıyır. İndossant öz indossamentində sonrakı indossamenti qadağan edirsə, veksel xeyrinə indossament edilmiş şəxslərin qarşısında məsuliyyət daşımır (maddə 1018)

3325. Əvvəlki veksel saxlayan köçürmə vekselini itirmişdirsə onu yeni veksel saxlayandan ala bilərmi?

Əgər əvvəlki veksel saxlayan köçürmə vekselini hər hansı səbəblərə görə itirmişdirsə, MM-in 1019.1-ci maddəsinə (Köçürmə vekseli olan şəxs indossamentlərin ardıcıl sırasına öz hüququnu əsaslandırırsa, hətta sonuncu indossament blank indossamenti olsa

da, qanuni veksel saxlayandır. Bu zaman üstündən xətt çəkilmiş indossamentlər yazılmamış sayılırlar. Blank indossamentinin ardınca başqa indossament gəldikdə bu sonuncunu imzalamış şəxs blank indossamenti üzrə veksel əldə edən sayılır.) əsasən öz hüququnu sübuta yetirən yeni veksel saxlayan vekseli yalnız onu haqsız əldə etdiyi və ya əldə edərkən kobud ehtiyatsızlıq göstərmiş olduğu halda geri verməyə borcludur (maddə 1019).

3326. Yenidən tapşranın ölümü yenidən tapşırma indossamentinin xitamına səbəb olurmu?

Yenidən tapşırma indossamentində olan tapşırığa yenidən tapşıranın ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi nəticəsində xitam verilmir (maddə 1020).

3327. İndossamentdə girov qeyd-şərti mövcuddursa, veksel saxlayan hansı hüquqlara malik olur?

Əgər indossamentdə girovu nəzərdə tutan qeyd-şərt qoyulmuşdursa, veksel saxlayan köçürmə vekselindən irəli gələn bütün hüquqları həyata keçirə bilər, lakin onun qoyduğu indossamentin yalnız yenidən tapşırma indossamenti kimi qüvvəsi vardır (maddə 1021).

3328. Ödəniş müddətindən sonra icra edilmiş indossament hansı nəticələrə səbəb olur?

Ödəniş müddətindən sonra icra edilmiş indossament həmin müddətdən əvvəl icra edilmiş indossamentlə eyni nəticələrə səbəb olur (maddə 1022).

3329. Köçürmə vekselində MM ilə nəzərdə tutulmuş müddətlərdən fərqli ödəniş müddəti müəyyən edilə bilərmi?

Başqa ödəniş müddətləri və ya bir neçə ardıcıl ödəniş müddəti olan köçürmə vekselləri etibarsızdır (maddə 1023).

3330. Ödəniş müddəti təqdim edildiyi an çatan köçürmə vekseli tərtib edildikdən sonra hansı müddət ərzində təqdim edilməlidir?

Ödəniş müddəti təqdim edildiyi an çatan köçürmə vekseli təqdim edildikdə dərhal ödənilməlidir. Ödəniş üçün həmin veksel tərtib edildiyi gündən bir il ərzində təqdim edilməlidir. Veksel verən bu müddəti qısalda və ya daha uzun müddət təyin edə bilər. Bu müddətləri indossantlar qısalda bilərlər (maddə 1024).

3331. Təqdim edildikdən sonra müəyyən müddətdə ödənilən köçürmə vekselinə verilmiş akseptdə tarix göstərilməyibsə müddət necə müəyyən olunur?

Əgər akseptdə tarix göstərilməyibsə, akseptant barəsində veksel aksept üçün təqdim edilmək üçün nəzərdə tutulan müddətin sonuncu günündə aksept edilmiş sayılır (maddə 1025).

3332. Köçürmə vekseli onun verildiyi yerdəki təqvimdən fərqlənən başqa təqvimin qəbul olunduğu hər hansı yerdə müəyyən gün ödənilməlidirsə, hansı təqvim əsas götürülür?

Əgər köçürmə vekseli onun verildiyi yerdəki təqvimdən fərqlənən başqa təqvimin qəbul olunduğu hər hansı yerdə müəyyən gün ödənilməlidirsə, ödəniş müddəti ödəniş yerinin təqvimi üzrə təyin edilmiş sayılır (maddə 1026).

3333. Müəyyən ödəniş müddəti ilə verilmiş köçürmə vekseli ən geci nə zaman ödəniş üçün təqdim edilməlidir?

Tərtib edildikdən və ya təqdim olunduqdan sonra müəyyən ödəniş müddəti ilə verilmiş köçürmə vekselini saxlayan ödəniş üçün köçürmə vekselini ya onun ödənilməli olduğu gün, ya da həmin gündən sonrakı iki iş günündən birində təqdim etməlidir (maddə 1027).

3334. Veksel saxlayan qismən ödənişin qəbulundan imtina edə bilərmi?

Veksel saxlayan qismən ödənişin qəbulundan imtina edə bilməz (maddə 1028).

3335. Ödəyici indossantların imzalarını yoxlamalıdırmı?

Ödəyici indossamentlərin ardıcıl sırasının düzgünlüyünü yoxlamağa borcludur, lakin indossantların imzalarını yoxlamağa borclu deyildir (maddə 1029).

3336. Borclu ödənişi gecikdirdikdə hansı günün məzənnəsi ilə ödəniş həyata keçirilməlidir?

Əgər köçürmə vekseli xarici valyuta ilə yazılıb verilmişdirsə, onun məbləği ödəniş müddətinin çatdığı günün məzənnəsi üzrə manatla ödənilə bilər. Əgər borclu ödənişi gecikdirmişdirsə, veksel saxlayan öz mülahizəsinə əsasən tələb edə bilər ki, köçürmə vekselinin məbləği ya ödəniş müddətinin çatdığı günün, ya da ödəniş gününün məzənnəsi üzrə manatla ödənilsin (maddə 1030).

3337. Əgər köçürmə vekseli xarici valyuta ilə yazılıb verilmişdirsə, onun məbləği hansı günün məzənnəsi üzrə manatla ödənilə bilər?

Ödəniş müddətinin çatdığı günün (maddə 1030).

3338. Əgər köçürmə vekselini ödəməkdən imtina edilmişdirsə, ödəniş müddəti çatdıqda veksel saxlayan özünün reqres hüquqlarını hansı mükəlləfiyyətlərə qarşı həyata keçirə bilər?

İndossantlara, veksel verənə və veksel üzrə digər mükəlləfiyyətlilərə qarşı həyata keçirə bilər.

3339. Akseptdən imtinaya protest hansı müddətlərdə verilməlidir?

Vekselin akseptə təqdim edilməsi üçün müəyyənləşdirilmiş müddətlərdə

3340. Veksel verən ödənişin vekseldə göstərilmiş müəyyən valyuta ilə həyata keçirilməli olduğu barədə məcburi şərt qoyduqda, MM-in hansı müddəaları tətbiq edilmir?

MM-in 1030.1 və 1030.2-ci maddələri, yəni:

- əgər köçürmə vekseli xarici valyuta ilə yazılıb verilmişdirsə, onun məbləği ödəniş müddətinin çatdığı günün məzənnəsi üzrə manatla ödənilə bilər. Əgər borclu ödənişi gecikdirmişsə, veksel saxlayan öz mülahizəsinə əsasən tələb edə bilər ki, köçürmə vekselinin məbləği ya ödəniş müddətinin çatdığı günün, ya da ödəniş gününün məzənnəsi üzrə manatla ödənilsin.
- xarici valyutanın məzənnəsini Azərbaycan Respublikasının Mərkəzi Bankı müəyyənləşdirir. Lakin veksel verən şərt qoya bilər ki, ödənilməli məbləğ vekseldə göstərilmiş məzənnə üzrə hesablanacaqdır (maddə 1030).

3341. Ödəyici köçürmə vekselinin akseptindən tamamilə və ya qismən imtina etdikdə, veksel saxlayana da eyni hüquq nə vaxta qədər mənsub olur?

Ödəniş müddəti çatanadək (maddə 1031)

3342. Tərtib edildikdən və ya təqdim olunduqdan sonra müəyyən ödəniş günü və ya müəyyən ödəniş müddəti olan köçürmə vekselini ödəməkdən imtina edilməsinə protest köçürmə vekselinin ödənilməli olduğu gündən sonrakı hansı iş günündən birində verilməlidir?

İki iş günü (maddə 1032)

3343. Veksel üzrə akseptdən və ya ödənişdən imtinaya protest kimlər tərəfindən tərtib edilməlidir?

İcra məmuru, notarius və ya maliyyə bazarlarına nəzarət orqanının rəsmi sənədlərin tərtibinə vəkil etdiyi digər şəxs tərəfindən (maddə 1033)

3344. Veksel saxlayan akseptdən və ya ödənişdən imtina barəsində öz indossantına və veksel verənə hansı müddət ərzində bildiriş verməlidir?

Protest günündən sonrakı dörd iş günü ərzində (maddə 1034)

3345. Kimlər vekselə daxil edilmiş və imzalanmış qeyd-şərt vasitəsilə veksel saxlayanı akseptdən və ya ödənişdən imtinaya protest vermək öhdəliyindən azad edə bilər?

Veksel verən, indossant və ya avalçı (maddə 1035)

3346. Kimlər veksel saxlayan qarşısında birgə borclular kimi məsuliyyət daşıyırlar?

Köçürmə vekselini vermiş, aksept etmiş, indossament etmiş və ya ona aval qoymuş bütün şəxslər (maddə 1036).

3347. Veksel saxlayan iddia irəli sürdüyü şəxsdən nələri tələb edə bilər?

-Aksept edilməmiş və ya ödənilməmiş köçürmə vekselinin məbləğini və əgər şərtləşdirilmişdirsə, faizləri;

-ödəniş müddətinin çatdığı gündən faizləri;

-protest üzrə və bildiriş göndərmək üzrə xərcləri, habelə digər xərcləri (maddə 1037).

3348. Ödəyici onun qarşısında mükəlləfiyyətli olan şəxslərdən nəyi tələb edə bilər?

Bütün ödənilmiş məbləği, həmin məbləğə ödəniş günündən hesablanan faizləri və çəkdiyi xərcləri tələb edə bilər (maddə 1038).

3349. Kimlər veksel məbləğinin ödənilməsi müqabilində ona protestlə və ödəniş qəbzi ilə birlikdə köçürmə vekseli verilməsini tələb edə bilər?

İddia irəli sürülmüş və ya irəli sürülə biləcək hər bir mükəlləfiyyətli şəxs (maddə 1039)

3350. Kimlər öz indossamentinin və özündən sonrakı indossantların indossamentlərinin üstündən xətt çəkə bilər?

Köçürmə vekselini ödəmiş hər bir indossant

3351. Qismən akseptdən sonra reqres tələbinin irəli sürüldüyü halda nəyin vekseldə qeyd olunmasını və bu barədə ona qəbz verilməsini tələb edə bilər?

Vekselin aksept edilmədiyi məbləği ödəyən həmin ödənişin (maddə 1040)

3352. Geriyə tratta nədir?

İddia irəli sürmək hüququ olan şəxs, əgər əks razılaşma yoxdursa, onun qarşısında mükəlləfiyyətli şəxslərdən birinə ödəniş müddəti təqdim edildiyi an çatan həmin şəxsin yaşayış yeri üzrə ödənilməli olan yeni veksel vermək vasitəsilə ödənişi ala bilər (maddə 1041).

3353. Veksel saxlayan indossantlara qarşı, veksel verənə qarşı və akseptant istisna olmaqla, veksel üzrə mükəlləfiyyətli olan digər şəxslərə qarşı öz hüquqlarını hansı müddətlər keçdikdə itirir?

Təqdim edildiyi an və ya təqdim edildikdən sonra müəyyən müddətdə ödənilən köçürmə vekselinin təqdim edilməsi üçün, akseptdən və ya ödənişdən imtina nəticəsində protestin verilməsi üçün, müvafiq qeyd-şərtin olduğu halda ödənişə təqdim etmək üçün müəyyənləşmiş vaxtda (maddə 1042)

3354. Əgər müəyyənləşdirilmiş müddətdə köçürmə vekselinin təqdim edilməsinə və ya protestin verilməsinə qarşısıalınmaz maneə varsa, bu cür hərəkətlər üçün müəyyənləşdirilmiş müddətlər qarşısıalınmaz qüvvənin təsir etdiyi müddətə uzadılır və bu müddətə neçə gün əlavə edilir?

14 gün (maddə 1042.4)

3355. Nüsxələrdən birini aksept üçün göndərən həmin nüsxənin kimdə olduğunu başqa nüsxələrdə göstərməlidir. Həmin nüsxənin olduğu şəxs onu digər nüsxəni qanuni saxlayana verməyə borcludur. Əgər o bunu etməkdən imtina edərsə, veksel saxlayan özünün iddia hüququnu nə vaxt həyata keçirə bilər?

- Yalnız aşağıdakılar protestlə təsdiqləndikdən sonra:
- aksept üçün göndərilmiş nüsxə onun tələbinə baxmayaraq ona verilməmişdir;
- aksept və ya ödəniş başqa nüsxə üzrə alına bilməzdi (maddə 1043).

3356. Kimlər onun(köçürmə vekselinin) surətini çıxara bilər?

Köçürmə vekselini saxlayan hər kəs (maddə 1044)

3357. Köçürmə vekselinin mətninin dəyişdirildiyi halda bu dəyişiklikdən sonra kimlər dəyişdirilmiş mətnin məzmununa uyğun məsuliyyət daşıyırlar?

İmza etmiş şəxslər (maddə 1045)

3358. Köçürmə vekselindən akseptanta qarşı irəli sürülən iddia tələbləri ödəniş müddətinin çatdığı gündən neçə il sonra ödənilir?

Üç il (maddə 1046)

3359. İndossantların bir-birinə və veksel verənə qarşı iddia tələbləri hansı müddət ərzində ödənilir?

İndossantın vekseli ödədiyi gündən və ona qarşı iddia irəli sürüldüyü gündən altı ay sonra

3360 Veksel saxlayanın indossantlara və veksel verənə qarşı iddia tələbləri hansı müddətdə ödənilir?

Müəyyənləşdirilmiş müddətdə protestin verildiyi gündən bir il sonra

3361. Qanuni və ya vekseldə göstərilmiş müddətlər hesablanarkən hansı müddət hesaba alınmır?

Həmin müddətlərin axımının başlandığı gün

3362. İtmiş və ya məhv olmuş veksel hansı qaydada etibarsız elan edilə bilər?

Ödəniş yeri üzrə məhkəmə tərəfindən (maddə 1047)

3363. Sadə vekseldə nələr göstərilməlidir?

- Mətnin özünə daxil edilmiş "veksel" adı;
- müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş vəd;
-MM-in 1005.1.4-1005.1.9-cu maddələrində göstərilmiş rekvizitlər (ödəniş kimə və ya kimin sərəncamı ilə icra edilməlidirsə, onun adı; vekselin tərtib edildiyi tarix; veksel verənin imzası; vekselin tərtib edildiyi yer; vekselin ödənilməsi vaxtı (veksel üzrə ödəniş müddəti); ödənişin icra edilməli olduğu yer) (maddə 1048)

3364. Xəzinə vekseli nədir?

Xəzinə vekseli dövlət büdcəsindən ödənilməli olan vəsaitlərin məbləğini təsbit edən və ya qısa müddətə şəxslərdən sərbəst pul vəsaitlərinin cəlb edilməsi məqsədilə buraxılmış sadə vekseldir (maddə 1048-1).

3365. Xəzinə vekseli hansı müddət ərzində ödənilməlidir?

Onun buraxıldığı büdcə ili ərzində

3366. Veksellərin uçotu nədir?

Ödəniş vaxtı çatana qədər vekselsaxlayan tərəfindən vekselin uçot təşkilatına verilməsi və onun müqabilində, veksel məbləğindən diskont məbləği çıxılmaqla, qalan məbləğin alınmasıdır (maddə 1048-2).

§3. İstiqraz

3367. İstiqraz nədir?

İstiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır (maddə 1070).

3368. Təmin edilmiş istiqrazlar nədir?

Təmin edilmiş istiqrazlar onlardan irəli gələn öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin olunan istiqrazlardır (maddə 1076-1).

3369. Təmin edilmiş istiqrazlar üzrə hüquqların keçməsi ilə təminat üzrə hüquqlar da keçirmi?

Təmin edilmiş istiqrazlar üzrə hüquqların keçməsi ilə təminat üzrə hüquqlar da keçmiş hesab olunur. İstiqrazlar üzrə hüquqların keçməsi ilə müşayiət olunmayan təminat üzrə hüquqların keçməsi etibarsızdır.

3370. Təmin edilmiş istiqrazlar üzrə təminat haqqında məlumat harada əks olunmalıdır?

Təmin edilmiş istiqrazlar üzrə təminat haqqında məlumat istiqrazların emissiyası haqqında qərarda və emissiya prospektində əks etdirilməlidir.

3371. Təmin edilmiş istiqrazlar üzrə təminat üçüncü şəxs tərəfindən təqdim edilərsə, tənzimlənmə necə olur?

Təmin edilmiş istiqrazlar üzrə təminat üçüncü şəxs tərəfindən təqdim edildikdə həmin şəxs istiqrazların emissiyası haqqında qərarı imzalamalıdır. Təminatı təqdim etmiş şəxs hüquqi şəxs olduqda istiqrazların emissiyası haqqında qərar həmin hüquqi şəxsin təkbaşına icra orqanı və ya kollegial icra orqanının bütün üzvləri tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

3372. Təmin edilmiş istiqrazlar üzrə təminatın dəyəri ilə bağlı şərt nədən ibarətdir?

Təmin edilmiş istiqrazlar üzrə təminatın dəyəri istiqrazların ümumi nominal dəyərindən və ödəniləcək olan faizlərdən (olduqda) aşağı olmamalıdır.

3373. Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı kimdir?

Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı həmin təminatın qanunvericiliyin və emissiya prospektinin tələblərinə cavab verməsinə nəzarət məqsəd ilə istiqrazların mülkiyyətçilərinin xeyrinə öz adından təminatı girov saxlayan qismində çıxış edən investisiya şirkəti, mərkəzi depozitar və ya bankdır. Emitentlə sərəncamçı arasında qarşılıqlı asılılıq olmamalıdır (maddə 1076-2).

3374. Sərəncamçı necə müəyyənləşdirilir və nə əsasında fəaliyyət göstərir?

Sərəncamçı emitentin istiqrazların emissiyası haqqında qəbul olunmuş qərarında müəyyənləşdirilir və emitentlə bağlanılmış müqavilə əsasında fəaliyyət göstərir.

3375. Sərəncamçı nə zaman digər şəxslə əvəz olunur?

Sərəncamçı qanunvericiliyin və emissiya prospektinin tələblərinə uyğun olmayan hərəkət və ya hərəkətsizliyə yol verdikdə və ya MM-də sərəncamçıya dair müəyyən edilmiş tələblərə cavab vermədikdə, emitent maliyyə bazarlarına nəzarət orqanının tələbi ilə sərəncamçını digər şəxslə əvəz etməlidir.

3376. Sərəncamçının məsuliyyəti necə tənzimlənir?

Sərəncamçı öz hüquq və vəzifələrini həyata keçirərkən hər hansı hərəkəti və ya hərəkətsizliyi nəticəsində yaranmış zərər üçün məsuliyyət daşımır, bu şərtlə ki, həmin hərəkətin və ya hərəkətsizliyin qanunsuz və ya vicdansız hərəkətlərin nəticəsi olduğu sübut edilməsin.

3377. Girovla təmin edilmiş istiqrazlar üzrə girov predmetləri nələrdir?

Girovla təmin edilmiş istiqrazlar üzrə girov predmeti investisiya qiymətli kağızları, daşınmaz əmlak sertifikatları, daşınmaz və rəsmi reyestrdə üzərində mülkiyyət hüququ qeydə alınan daşınar əşyalar, habelə MM-in 1076-6-cı maddəsi (İpoteka istiqrazları) ilə müəyyən edilmiş ipoteka örtüyü ola bilər (maddə 1076-3).

3378. Girovla təmin edilmiş istiqrazların bir buraxılışının daxilində hər bir istiqraz mülkiyyətçisi girov qoyulmuş əmlaka münasibətdə həmin buraxılışda olan digər istiqrazların bütün başqa mülkiyyətçiləri ilə bərabər hüquqlara malikdirmi?

Girovla təmin edilmiş istiqrazların bir buraxılışının daxilində hər bir istiqraz mülkiyyətçisi girov qoyulmuş əmlaka münasibətdə həmin buraxılışda olan digər istiqrazların bütün başqa mülkiyyətçiləri ilə bərabər hüquqlara malikdir.

3379. Girovla təmin edilmiş istiqrazlar üzrə əmlakın girov qoyulması necə tənzimlənir?

Girovla təmin edilmiş istiqrazlar üzrə əmlakın girov qoyulması qanunvericilikdə girov üçün nəzərdə tutulmuş prosedurlara müvafiq surətdə həyata keçirilir.

3380. Təmin edilmiş istiqrazlar dövlət qeydiyyatına alınmazdan əvvəl harada qeydiyyata alınmalıdır?

Girovla təmin edilmiş istiqrazlar dövlət qeydiyyatına alınmazdan əvvəl girovun predmeti olan qiymətli kağızlar (adsız qiymətli kağızlar daxil olmaqla) "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə depozitar sistemində deponentləşdirilərək onların girovu qeydiyyata alınır.

3381. Girov predmetini təşkil edən qiymətli kağızlar üzrə hüquqlar məhdudlaşdırıldıqda kimə məlumat verilir?

Girov predmetini təşkil edən qiymətli kağızlar üzrə hüquqlar məhdudlaşdırıldıqdan sonra, girov qoyan sərəncamçıya bu barədə rəsmi məlumat verir.

3382. Girovla təmin edilmiş istiqrazlar üzrə öhdəliklər emitent tərəfindən icra edilməzsə nə baş verir?

Girovla təmin edilmiş istiqrazlar üzrə öhdəliklərin emitent tərəfindən icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda, girov predmeti olan əmlaka bu istiqrazların hər hansı mülkiyyətçisinin sərəncamçıya ünvanlanmış yazılı tələbi ilə, sərəncamçı tərəfindən qanunvericiliyə müvafiq surətdə tutma yönəldilə bilər. Sərəncamçı istiqraz mülkiyyətçisinin yazılı tələbində qeyd olunmuş istiqrazlar üzrə öhdəliklərin emitent tərəfindən icra edilməməsi və ya lazımınca icra edilməməsi faktlarını araşdırır və yalnız bu faktlar təsdiq olunduqda girov predmetinə tutma yönəldir.

3383. Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsait kimə verilir?

Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsait girovla təmin edilmiş istiqrazların mülkiyyətçiləri olan şəxslərə verilir. Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsaitin məbləği istiqrazlar üzrə icra edilməmiş öhdəliklərin məbləğindən çox olduqda, bu fərq öhdəliklər tam şəkildə ödənildikdən sonra emitentə qaytarılır.

3384. Girovla təmin edilmiş istiqrazlar üzrə öhdəliklərin emitent tərəfindən icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda, girovla təmin edilmiş istiqrazların mülkiyyətçiləri tələbləri hansı müddət ərzində verə bilərlər?

Öhdəliyin icra müddətinin bitdiyi gündən sonra qanunvericilikdə müəyyən edilmiş müddət ərzində vermək hüququna malikdirlər.

3385. İstiqrazlar üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün təqdim edilən qarantiya necə rəsmiləşdirilir?

Qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməlidir (maddə 1076-4).

3386. İstiqrazlar üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün təqdim edilən qarantiya geri çağrıla bilərmi?

Bu istiqrazlar üzrə öhdəliklər tam icra edilənədək geri çağırıla bilməz.

3387. Qarantiya emitent tərəfindən istiqrazlar üzrə öhdəliklər tam şəkildə icra olunanadək kimdə saxlanılır?

Qarantiya emitent tərəfindən istiqrazlar üzrə öhdəliklər tam şəkildə icra olunanadək sərəncamçıda saxlanılır.

3388. Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazların buraxılması qaydası necə tənzimlənir?

Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazların buraxılması qaydası müvafiq qanunvericiliklə tənzimlənir (maddə 1076-5).

3389. İpoteka istiqrazları nədir?

İpoteka örtüyü ilə təmin olunmuş istiqrazlardır (maddə 1076-6).

3390. İpoteka örtüyünə nə daxildir?

İpoteka örtüyünə əsas və əlavə aktivlər daxil edilir.

3391. Əsas aktivlərə nələr daxildir?

Əsas aktivlər qismində yaşayış sahəsinin alınması üçün verilmiş və həmin, yaxud digər yaşayış sahəsinin ipotekası ilə təmin olunmuş kreditlərlə (ipoteka kreditləri) bağlı emitentin tələb hüquqları çıxış edir.

3392. Əlavə aktivlərə nələr daxildir?

Əsas aktivlər qismində yaşayış sahəsinin alınması üçün verilmiş və həmin, yaxud digər yaşayış sahəsinin ipotekası ilə təmin olunmuş kreditlərlə (ipoteka kreditləri) bağlı emitentin tələb hüquqları çıxış edir.

3393. Əlavə aktivlərin tərkibinə nə daxildir?

-Əlavə aktivlər ipoteka örtüyünün nominal dəyərinin 20 faizindən çox olmamaqla aşağıdakı tərkibdə ola bilər:

- Azərbaycan Respublikasının dövlət qiymətli kağızları;

-Azərbaycan Respublikası Mərkəzi Bankının qiymətli kağızları və ya emitentin Azərbaycan Respublikasının Mərkəzi Bankında saxlanılan depozitləri;

-müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dövlətlərin və həmin dövlətlərin mərkəzi banklarının buraxdığı qiymətli kağızlar.

3394. İpoteka istiqrazları valyutasının tənzimlənməsi necə olur?

Maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktı ilə ayrı hal nəzərdə tutulmayıbsa, ipoteka istiqrazları yalnız ipoteka örtüyünə daxil olan əsas aktivlərin (ipoteka kreditlərinin) valyutasında ola bilər.

3395. İpoteka istiqrazlarının orta çəki metodu ilə hesablanmış ödəniş müddəti nədir?

İpoteka istiqrazlarının orta çəki metodu ilə hesablanmış ödəniş müddəti ipoteka örtüyünə daxil olan ipoteka kreditlərinin orta çəki metodu ilə hesablanmış ödəniş müddətindən çox ola bilməz. Orta çəki metodu ilə ödəniş müddətlərinin hesablanması qaydası maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

3396. İpoteka istiqrazlarını kim buraxa bilər?

İpoteka istiqrazlarını yalnız kredit təşkilatları və müvafiq icra hakimiyyəti orqanı tərəfindən ipoteka kreditlərinin verilməsi məqsədi ilə yaradılmış qurumlar buraxa bilər.

3397. İpoteka istiqrazları üzrə emitentin öhdəlikləri hansı halda üçüncü şəxslərə verilə bilər?

İpoteka istiqrazları üzrə emitentin öhdəlikləri tam və ya qismən həmin istiqrazların ipoteka örtüyünə daxil edilmiş aktivlərlə birgə MM-in 1076-6.7-ci maddəsi ilə müəyyən edilmiş ipoteka istiqrazları buraxmaq hüququ olan üçüncü şəxslərə verilə bilər, bu şərtlə ki, belə hal emissiya prospektində nəzərdə tutulsun. Emitentin MM-in 1076-13-cü maddəsi ilə müəyyən edilmiş müflisləşməsi və ya öhdəliklərini yerinə yetirməməsi halında emitentin öhdəlikləri üçüncü şəxslərə yalnız həmin maddə ilə nəzərdə tutulmuş qaydada keçməlidir.

3398. İpoteka istiqrazları üzrə faizlər necə tənzimlənir?

-İpoteka istiqrazları öz mülkiyyətçilərinin ipoteka istiqrazlarının emissiya prospektində müəyyənləşdirilmiş məbləğdə və qaydada faiz almaq hüququnu təsbit etməlidir. Bu zaman faiz ödənişləri ipoteka istiqrazlarının buraxılış şərtlərinə uyğun olaraq, lakin ən azı ildə bir dəfə həyata keçirilməlidir;

-ipoteka örtüyünə daxil olan aktivlər üzrə faiz ödənişləri ipoteka istiqrazları üzrə faizlərin ödənilməsini təmin etməlidir;

- maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktı ilə ayrı hal nəzərdə tutulmayıbsa, ipoteka örtüyünə daxil olan ipoteka kreditləri sabit faizlərlə verilmiş olduqda ipoteka istiqrazları üzrə faizlər sabit, ipoteka örtüyünə daxil olan ipoteka kreditləri dəyişən faizlərlə verilmiş olduqda isə ipoteka istiqrazları üzrə faizlər dəyişkən olmalıdır. Dəyişən faizlər müəyyən edildikdə, ipoteka örtüyünə daxil olan ipoteka kreditləri üzrə faizlərlə ipoteka istiqrazları üzrə faizlər eyni faiz dərəcəsi bazasına bağlı olmalıdır (maddə 1076-7).

3399. İpoteka istiqrazlarının emissiya prospektində hansı məlumatlar olmalıdır?

-İpoteka istiqrazlarının emissiya prospektində "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulmuş məlumatlardan başqa aşağıdakı məlumatlar olmalıdır:

- ipoteka örtüyünə daxil olan aktivlər barədə məlumat (dəyəri, tərkibi, borcların ödənilməsi şərtləri və qaydası);

- ipoteka istiqrazlarının vaxtından əvvəl ödənişi nəzərdə tutulduqda, bu halda ödənişin şərtləri, yaxud vaxtından əvvəl ödənişə yol verilmədikdə, bu barədə məlumat;

- ipoteka istiqrazlarının ödənişi ilə bağlı məlumatın dərc ediləcəyi kütləvi informasiya vasitələri barədə məlumat;

- sərəncamçı ilə bağlı məlumatlar (maddə 1076-8).

3400. İpoteka istiqrazlarının vaxtından əvvəl ödənilməsi halı necə tənzimlənir?

İpoteka istiqrazlarının vaxtından əvvəl ödənilməsi zamanı vaxtından əvvəl ödəniş bir buraxılışın bütün istiqrazlarına eyni şərtlərlə şamil olunur.

3401. Emitentin emissiya etdiyi ipoteka istiqrazlarının bir buraxılışı neçə ipoteka örtüyü ilə təmin edilir?

Emitentin emissiya etdiyi ipoteka istiqrazlarının bir buraxılışı bir ipoteka örtüyü ilə təmin edilir. Bir ipoteka örtüyü ilə ipoteka istiqrazlarının bir neçə buraxılışının təmin edilməsinə yalnız əvvəlcədən təsdiq edilən emissiya prospektində nəzərdə tutulduğu halda yol verilir.

3402. İpoteka örtüyünə daxil olan aktivlər başqa öhdəliklərlə yüklü edilə bilərmi?

İpoteka örtüyünə daxil olan aktivlər başqa öhdəliklərlə yüklü edilə bilməz və sərəncamçının icazəsi olmadan ipoteka örtüyünə daxil olan aktivlərə dair sərəncam verilə bilməz. MM-in 1076-13-cü maddəsində (İpoteka istiqrazlarının emitentinin müflisləşməsi, məcburi ləğvi və öhdəliklərini yerinə yetirməməsi) nəzərdə tutulmuş halların baş verməsinədək ipoteka örtüyünə daxil edilmiş aktivlərdən daxil olan pul vəsaitləri emitentin hesabında saxlanılır və onun öz mülahizəsi ilə istifadə olunur (maddə 1076-9).

3403. İpoteka kreditinin verildiyi zaman daşınmaz əmlakla bağlı hüquqlar ipoteka örtüyünə daxil edilirmi?

İpoteka kreditinin verildiyi zaman yalnız müstəqil qiymətləndirici tərəfindən bazar dəyəri ilə qiymətləndirilmiş daşınmaz əmlakla bağlı hüquqlar ipoteka örtüyünə daxil edilir.

3404. Hansı hüquqlar ipoteka örtüyünə daxil edilə bilməz?

Yaşayış üçün nəzərdə tutulmayan daşınmaz əmlakın, boş torpaq sahəsinin və tamamlanmamış tikintinin ipotekası ilə təmin edilmiş kreditlər ilə bağlı hüquqlar ipoteka örtüyünə daxil edilə bilməz.

3405. Hansı məbləğdə verilmiş ipoteka krediti üzrə hüquqlar ipoteka örtüyünə daxil edilmir?

İpoteka istiqrazlarının likvidliyini artırmaq məqsədilə faiz nisbətinin daha aşağı həddi maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktı ilə nəzərdə tutulmayıbsa, ipoteka predmetinin hesablanmış bazar dəyərinin 85 faizindən çox məbləğdə verilmiş ipoteka krediti üzrə hüquqlar ipoteka örtüyünə daxil edilmir.

3406. İpoteka örtüyünə daxil olan aktivlərin əsas borc məbləğləri üzrə dəyəri emitentin ipoteka istiqrazları üzrə ödəməli olduğu ümumi nominal dəyərin neçə faizini təşkil edir?

İpoteka örtüyünə daxil olan aktivlərin əsas borc məbləğləri üzrə dəyəri emitentin ipoteka istiqrazları üzrə ödəməli olduğu ümumi nominal dəyərin ən azı 110 faizini təşkil etməlidir. Bu zaman hesablamaya hər bir kredit üzrə əsas borcun həmin krediti təmin edən ipoteka predmetinin bazar dəyərinin yalnız 80 faizindən çox olmayan hissəsi daxil edilir.

3407. İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka kreditləri üzrə şərtlər kredit müddəti ərzində əsas borcun və faizlərin ən azı rübdə bir dəfə olmaqla hansı formada ödənilməsini nəzərdə tutur?

Yalnız pul formasında hissə-hissə ödənilməsini nəzərdə tutmalıdır.

3408. Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən qeyri-standart kredit kimi təsnifləşdirilmiş kreditlər üzrə hüquqlar ipoteka örtüyünün tərkibinə daxil edilə bilərmi?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən qeyri-standart kredit kimi təsnifləşdirilmiş kreditlər üzrə hüquqlar ipoteka örtüyünün tərkibinə daxil edilə bilməz.

3409. İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan daşınmaz əmlaklar sığortalanırmı?

İpoteka krediti üzrə öhdəliyin qüvvədə olduğu bütün müddət ərzində bazar qiyməti əsas götürülməklə və təmin etdiyi kreditin qalıq dəyərinin həcmindən az olmamaqla məhv olma və ya zədələnmə riskindən sığortalanmalıdır.

3410. İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka müqavilələrinə hansı şərtlər daxil edilməlidir?

İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka müqavilələrinə ipoteka saxlayanın razılığı olmadan ipoteka qoyan tərəfindən ipoteka predmetinin özgəninkiləşdirilməsini, digər öhdəliklərlə yüklənməsini, habelə ona dair başqa sərəncam verilməsini (vəsiyyət etmə halları istisna olmaqla), eləcə də ipoteka predmetinin salamatlığına ziyan vuran və ya pisləşməsinə səbəb olan hərəkətləri qadağan edən şərtlərdaxil edilməlidir.

3411. İpoteka istiqrazlarının hər bir emitenti istiqrazların buraxılışı haqqında qərar qəbul etdikdən sonra nə baş verir?

İpoteka istiqrazlarının hər bir emitenti istiqrazların buraxılışı haqqında qərar qəbul etdikdə, istiqrazları təmin edən ipoteka örtüyünün reyestrini sərəncamçının nəzarəti altında yaratmalı və aparmalıdır (maddə 1076-10).

3412. Hansı andan etibarən aktivlər ipoteka örtüyünün tərkibinə daxil edilmiş hesab olunur?

İpoteka örtüyünün reyestrində müvafiq qeydin edildiyi andan aktivlər ipoteka örtüyünün tərkibinə daxil edilmiş hesab olunur.

3413. İpoteka örtüyünün reyestrinə hansı məlumatlar daxil edilməlidir?

- İpoteka örtüyünə daxil olan aktivlər üzrə emitentin hüquqlarını təsdiq edən sənədlərin rekvizitləri;
- ipoteka örtüyünə daxil olan aktivlərin məbləği (əsas borc və faiz dərəcəsi), ödəniş müddətləri, yaxud bu məbləğləri müəyyənləşdirməyə imkan verən şərtlər;

- ipoteka örtüyünə daxil olan aktivlər üzrə öhdəliklərin icra vəziyyəti;
- ipoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka predmetinin adı, eyniləşdirilməsi üçün yetərli olan təsviri və olduğu yer.

3414. İpoteka örtüyünün reyestri hansı formada aparılmalıdır?

İpoteka örtüyünün reyestri maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada kağız və elektron formada aparılmalıdır. İpoteka örtüyünün reyestri və ona edilmiş dəyişikliklər maliyyə bazarlarına nəzarət orqanına təqdim edilməlidir.

3415. İpoteka örtüyünə daxil olan aktivlər ipoteka örtüyünün reyestrindən çıxarıla bilərmi?

İpoteka örtüyünə daxil olan aktivlər yalnız sərəncamçının icazəsi ilə ipoteka örtüyünün reyestrindən çıxarıla və ya başqa aktivlə əvəz edilə bilər. Sərəncamçı emitentin bu barədə müraciətinə beş iş günü müddətində baxmalı və nəticəsini emitentə yazılı formada bildirməlidir.

3416. Sərəncamçı emitentin ipoteka örtüyünə daxil olan aktivlər barədə sərəncam verməsinə hansı hallarda icazə verə bilər?

Yalnız belə sərəncam MM və emissiya prospektinə zidd olmadıqda icazə verə bilər.

3417. Sərəncamçı hansı müddət ərzində ipoteka örtüyünün MM-in 1076-6-cı (İpoteka istiqrazları) və 1076-9-cu maddələrinin (İpoteka örtüyünə dair tələblər) tələblərinə uyğunluğunu yoxlayır?

Sərəncamçı ipoteka istiqrazlarının buraxılışı zamanı və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktı ilə daha qısa müddət müəyyən edilmədikdə, ən azı yarım ildə bir dəfədən az olmayaraq ipoteka örtüyünün MM-in 1076-6-cı (İpoteka istiqrazları) və 1076-9-cu maddələrinin (İpoteka örtüyünə dair tələblər) tələblərinə uyğunluğunu yoxlayır (maddə 1076-11).

3418. İpoteka örtüyü MM-in 1076-6-cı (İpoteka istiqrazları) və 1076-9-cu maddələrinin (İpoteka örtüyünə dair tələblər) tələblərinə cavab vermədikdə nə edilməlidir?

İpoteka örtüyü MM-in 1076-6-cı (İpoteka istiqrazları) və 1076-9-cu maddələrinin (İpoteka örtüyünə dair tələblər) tələblərinə cavab vermədikdə, sərəncamçı bu barədə emitentə yazılı məlumat verməli və aşkar olunmuş pozuntuların aradan qaldırılmasını tələb etməlidir. Emitent tələbi aldığı tarixdən on iş günündən gec olmayaraq müəyyən edilmiş bütün çatışmazlıqları aradan qaldırmalı və bu barədə sərəncamçıya müvafiq məlumatı və sənədləri təqdim etməlidir.

3419. Sərəncamçı ipoteka örtüyünün yoxlanılmasının nəticəsi barədə kimə məlumat verir?

Bu barədə hesabatı maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi forma və qaydada həmin orqana təqdim edir.

3420. Sərəncamçı ipoteka örtüyündə aşkar etdiyi, lakin emitent tərəfindən MM-in 1076-11.2-ci maddəsinə müvafiq qaydada (İpoteka örtüyü MM-in 1076-6-cı (İpoteka istiqrazları) və 1076-9-cu maddələrinin (İpoteka örtüyünə dair tələblər) tələblərinə cavab vermədikdə, sərəncamçı bu barədə emitentə yazılı məlumat

verir və aşkar olunmuş pozuntuların aradan qaldırılmasını tələb edir. Emitent tələbi aldığı tarixdən on iş günündən gec olmayaraq müəyyən edilmiş bütün çatışmazlıqları aradan qaldırmalı və bu barədə sərəncamçıya müvafiq məlumatı və sənədləri təqdim etməlidir.) aradan qaldırılmamış və istiqrazlar üzrə ödənişlər üçün əhəmiyyətli təhlükə yarada bilən pozuntular barədə kimə və hansı müddətdə məlumat verməlidir?

Azərbaycan dilində və emissiya prospektinin dərc olunduğu digər dillərdə tərtib olunmuş bildirişi pozuntuların aradan qaldırılması üçün müəyyən edilmiş müddətin bitməsindən beş iş günündən gec olmayaraq emissiya prospektinin dərc olunduğu kütləvi informasiya vasitəsində (həmin kütləvi informasiya vasitəsi fəaliyyət göstərmədikdə başqa kütləvi informasiya vasitəsində) açıqlamalı və maliyyə bazarlarına nəzarət orqanına təqdim etməlidir. Maliyyə bazarlarına nəzarət orqanı bildirişi aldığı gündən üç iş günü müddətində onu Azərbaycan dilində və emissiya prospektinin dərc olunduğu digər dillərdə öz internet səhifəsində yerləşdirməlidir.

3421. Sərəncamçı nə vaxt ipoteka istiqrazları üzrə ödənişlər barədə emitentdən məlumat tələb etmək və emitentin müvafiq sənədlərini nəzərdən keçirmək hüququna malikdir?

Sərəncamçı istənilən vaxt ipoteka istiqrazları üzrə ödənişlər barədə emitentdən məlumat tələb etmək və emitentin müvafiq sənədlərini nəzərdən keçirmək hüququna malikdir. Emitent sərəncamçının tələb etdiyi məlumat və sənədləri müraciəti aldığı tarixdən üç iş günündən gec olmayaraq təqdim etməlidir. Emitent müraciətə cavab vermədikdə və ya tam cavab vermədikdə sərəncamçı bu barədə maliyyə bazarlarına nəzarət orqanına dərhal yazılı məlumat verməlidir.

3422. Sərəncamçı istiqraz mülkiyyətçilərinin müdafiəsi məqsədilə hansı hüquq və vəzifələri həyata keçirir ?

İpoteka örtüyü üzrə MM və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hüquq və vəzifələri həyata keçirir.

3423. Aktivlər ipoteka örtüyünə daxil edildiyi andan onların uçotu necə aparılır?

Aktivlər ipoteka örtüyünə daxil edildiyi andan onların uçotu emitentin digər aktivlərindən ayrı aparılır. İpoteka örtüyünə daxil olan aktivlər üzərinə istiqraz mülkiyyətçilərindən başqa digər kreditorların tələblərinin ödənilməsi üçün həbs qoyula bilməz və həmin aktivlər üzrə tələb yönəldilə bilməz (maddə 1076-12).

3424. MM-ə uyğun olaraq ipoteka örtüyünə daxil olan aktivlər hansı andan qanun üzrə istiqraz mülkiyyətçilərinin xeyrinə girov qoyulmuş hesab edilir?

İpoteka istiqrazlarının emissiya prospektinin təsdiq edildiyi andan qanun üzrə istiqraz mülkiyyətçilərinin xeyrinə girov qoyulmuş hesab edilir. Qanun üzrə girov sonrakı dəyişikliklərə görə ipoteka örtüyünə daxil olan aktivlərə sərəncamçının MM-in 1076-10.5-ci və 1076-10.6-cı maddələrinə uyğun olaraq belə dəyişikliklərə yazılı icazə verdiyi andan şamil olunur. Belə ki, İpoteka örtüyünə daxil olan aktivlər yalnız sərəncamçının icazəsi ilə ipoteka örtüyünün reyestrindən çıxarıla və ya başqa aktivlə əvəz edilə bilər. Sərəncamçı emitentin bu barədə müraciətinə beş iş günü müddətində baxmalı və nəticəsini emitentə yazılı formada bildirməlidir. Sərəncamçı emitentin ipoteka örtüyünə daxil

olan aktivlər barədə sərəncam verməsinə yalnız belə sərəncam bu Məcəllə və emissiya prospektinə (informasiya memorandumuna) zidd olmadıqda icazə verə bilər.

3425. İstiqrazların mülkiyyətçiləri eyni ipoteka örtüyünə daxil olan aktivlərin hesabına ipoteka istiqrazları üzrə ödənilən nominal dəyər və faizlərə münasibətdə emitentin digər kreditorlarına nisbətən üstünlük hüququna malikdirlərmi?

Bərabər qaydada üstünlük hüququna malikdirlər. İstiqraz mülkiyyətçilərinin üstünlük hüququ ipoteka örtüyünə daxil olan bütün aktivlərə (əsas və əlavə), o cümlədən həmin aktivlərdən əldə edilən gəlirə eyni dərəcədə aiddir.

3426. İstiqraz mülkiyyətçiləri nə zaman reyestrə daxil edilmiş aktivlərin qalıq hissəsi üzərində emitentin digər kreditorlarına nisbətən bərabər qaydada üstünlük hüququna malikdirlər?

İstiqraz mülkiyyətçiləri emitentin digər ipoteka örtüyünün reyestri ilə təmin edilmiş istiqraz mülkiyyətçilərinin tələbləri tam ödənildikdən sonra bu reyestrə daxil edilmiş aktivlərin qalıq hissəsi üzərində emitentin digər kreditorlarına nisbətən bərabər qaydada üstünlük hüququna malikdirlər.

3427. İpoteka örtüyü hesabına tələbləri tam ödənilməmiş istiqraz mülkiyyətçiləri emitentin ipoteka örtüyünə daxil edilməyən aktivlərinə münasibətdə hansı hüquqlara malikdir?

Emitentin digər təmin edilməmiş öhdəlikləri üzrə kreditorları ilə bərabər hüquqlara malikdirlər.

3428. İpoteka örtüyünə daxil olan aktivlər hansı halda emitentin digər kreditorları arasında bölüşdürülə bilər?

Emitent müflis elan edildikdə və ya məcburi qaydada ləğv edildikdə ipoteka örtüyünə daxil olan aktivlərin heç biri ipoteka istiqrazları mülkiyyətçilərinin tələbləri tam ödənilənədək emitentin digər kreditorları arasında bölüşdürülə bilməz (maddə 1076-13).

3429. Emitent müflis elan edildikdə, məcburi ləğv edildikdə, öhdəliklərin icra edilməsi ilə bağlı emissiya prospektinin hər hansı bir şərtini yerinə yetirmədikdə və ya MM ilə müəyyən edilmiş öhdəliklərini davamlı olaraq pozduqda (bundan sonra bu maddənin məqsədləri üçün - öhdəliklərini yerinə yetirməməsi) istiqraz mülkiyyətçiləri nəyi tələb edə bilməzlər?

Öz istiqrazları üzrə ödənişlərin vaxtından əvvəl həyata keçirilməsini tələb edə bilməzlər. Bu halda istiqraz mülkiyyətçiləri ipoteka örtüyünə daxil olan aktivlərin satılması və onunla bağlı həyata keçirilən digər tədbirlərlə əlaqədar bu maddənin tələblərinə əməl etməlidirlər.

3430. Emitent müflis elan edildikdə, məcburi ləğv edildikdə və ya öhdəliklərini yerinə yetirmədikdə sərəncamçı maliyyə bazarlarına nəzarət orqanına hansı qaydada yazılı məlumat verməlidir?

Müflis elan edilmə, məcburi ləğv edilmə və ya öhdəlikləri yerinə yetirməmə faktlarını təsdiqləyən məlumatı və mövcud sənədləri əlavə etməklə maliyyə bazarlarına nəzarət orqanına məlumat verməlidir. Belə məlumat maliyyə bazarlarına nəzarət orqanına istənilən istiqraz mülkiyyətçisi tərəfindən də verilə bilər.

3431. Maliyyə bazarlarına nəzarət orqanı hansı müddət ərzində həmin məlumata baxmalı və emitentin müflis olması, məcburi ləğv edilməsi və ya öhdəliklərini yerinə yetirməməsi faktı təsdiq olunduğu halda ipoteka örtüyünə daxil olan aktivlərin sərəncamçının nəzarətinə verilməsi haqqında qərar qəbul etməli və bu qərarı bir iş günü ərzində sərəncamçıya və emitentə çatdırmalıdır?

MM-in 1076-13.3-cü maddəsində göstərilən (müflis elan edilmə, məcburi ləğv edilmə və ya öhdəlikləri yerinə yetirməmə faktlarını təsdiqləyən) məlumatı aldığı gündən beş iş günü ərzində

3432. MM-in 1076-13.4-cü maddəsində göstərilən (ipoteka örtüyünə daxil olan aktivlərin sərəncamçının nəzarətinə verilməsi haqqında qərar) qərar sərəncamçıya və emitentə çatdırıldığı gündən etibarən hansı hərəkətlər icra edilir?

İpoteka örtüyünə daxil edilmiş aktivlərdən daxil olan gəlir ipoteka örtüyünə daxil olan aktivlərin tərkibinə əlavə edilir və bu andan qanun üzrə ipoteka istiqrazları mülkiyyətçilərinin xeyrinə girov qoyulmuş hesab olunur. Bu zaman sərəncamçı ipoteka örtüyündən əldə edilən gəlirin sahibliyə götürülməsi, saxlanması və toplanması üçün müvafiq tədbirləri görməlidir.

3433. Sərəncamçı hansı müddət ərzində istiqraz mülkiyyətçilərinin hüquqlarının qorunması məqsədilə ipoteka örtüyünə daxil olan aktivlərin satılması və ya idarə edilməsi şərtlərini hazırlayaraq təsdiq olunması üçün maliyyə bazarlarına nəzarət orqanına təqdim edir?

MM-in 1076-13.4-cü maddəsində göstərilən qərarı (ipoteka örtüyünə daxil olan aktivlərin sərəncamçının nəzarətinə verilməsi haqqında qərar) aldığı gündən beş iş günü ərzində

3434. Bu barədə daxil olmuş ərizəyə maliyyə bazarlarına nəzarət orqanı hansı müddətdə baxır və müvafiq qərar qəbul edir?

Beş iş günü ərzində. Bu qərardan sonra ipoteka örtüyünə daxil olan aktivlər həmin şərtlərlə satıla bilər.

3435. Sərəncamçı maliyyə bazarlarına nəzarət orqanının nəzarəti altında fəaliyyət göstərir və göstəriş almaq üçün istənilən vaxt ona müraciət edə bilər. Sərəncamçı zəruri hallarda ipoteka örtüyünə daxil olan aktivlərin satılması və ya idarə edilməsi ilə bağlı müstəqil hüquqşünasları, mühasibləri və başqa mütəxəssisləri hansı əsasla muzdla işə cəlb etmək hüququna malikdir?

Maliyyə bazarlarına nəzarət orqanının təsdiq etdiyi şərtlər əsasında

3436. İpoteka örtüyünün satılmasından əldə olunan vəsait hansı formada bölüşdürülür?

- İpoteka örtüyünün satılmasından əldə olunan vəsait aşağıdakı qaydada bölüşdürülür və vəsaitin qalan hissəsi sərəncamçı tərəfindən emitentin ümumi əmlakının tərkibinə daxil edilir:

- ipoteka örtüyünün idarə edilməsi və satılması ilə bağlı sərəncamçının emitentlə əvvəlcədən bağlanmış müqavilədə göstərilən xidmət haqqının ödənilməsinə;

- ipoteka örtüyünün satılması ilə bağlı cari öhdəliklərin ödənilməsinə;

- istiqrazlar üzrə öhdəliklərin icra edilməsinə.

3437. Emitentin müflis olduğu və ya məcburi ləğv edildiyi halda əmlak inzibatçısının ipoteka örtüyünə daxil olan aktivlərin idarə edilməsi, satılması, əldə olunan vəsaitin bölüşdürülməsi və hər hansı başqa məsələ ilə bağlı sərəncamçının fəaliyyətinə müdaxilə etməsinə yol verilirmi?

Emitentin müflis olduğu və ya məcburi ləğv edildiyi halda MM-in 1076-13-cü maddəsi (İpoteka istiqrazlarının emitentinin müflisləşməsi, məcburi ləğvi və öhdəliklərini yerinə yetirməməsi) ilə müəyyən edilmiş öhdəliklərin tam icra edilməsinə qədər əmlak inzibatçısının ipoteka örtüyünə daxil olan aktivlərin idarə edilməsi, satılması, əldə olunan vəsaitin bölüşdürülməsi və hər hansı başqa məsələ ilə bağlı sərəncamçının fəaliyyətinə müdaxilə etməsinə yol verilmir.

3438. İpoteka örtüyünə daxil olan aktivlərin tam satılmasından sonra sərəncamçı ipoteka örtüyü ilə bağlı sənədləri və qalıq aktivləri kimə təhvil verir?

İpoteka örtüyünə daxil olan aktivlərin tam satılmasından sonra sərəncamçı ipoteka örtüyü ilə bağlı sənədləri və qalıq aktivləri emitentə, müflis olma və ya məcburi ləğv edilmə halında isə əmlak inzibatçısına təhvil verir və öz vəzifəsini yerinə yetirdiyi barədə maliyyə bazarlarına nəzarət orqanına yazılı məlumat verir.

3439. Emitent inzibati qaydada və məhkəməyə müraciət edə bilərmi?

Emitent MM-in 1076-13.4-cü maddəsində göstərilən (ipoteka örtüyünə daxil olan aktivlərin sərəncamçının nəzarətinə verilməsi haqqında qərar) qərarla razı olmadıqda həmin qərarın ləğv edilməsi barədə inzibati qaydada və məhkəməyə müraciət edə bilər. Emitent və ya istənilən istiqraz mülkiyyətçisi ipoteka örtüyünə daxil olan aktivlərin satılması və ya idarə edilməsi ilə bağlı MM-in 1076-13-cü maddəsində (İpoteka istiqrazlarının emitentinin müflisləşməsi, məcburi ləğvi və öhdəliklərini yerinə yetirməməsi) nəzərdə tutulan prosedurların məhkəmə nəzarəti altında həyata keçirilməsi, yaxud sərəncamçının digər şəxslə əvəz edilməsi barədə iddia ilə məhkəməyə müraciət edə bilər. Sərəncamçının dəyişdirilməsi məsələsinə baxılarkən yeni namizəd məhkəməyə maliyyə bazarlarına nəzarət orqanı tərəfindən təqdim edilir.

3440. Səhm nədir?

Səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır. Səhmin emitenti yalnız səhmdar cəmiyyəti ola bilər (maddə 1077).

3441. Səhmin növləri hansılardır?

Səhm adi və ya imtiyazlı növündə buraxıla bilər. Səhmin nominal dəyəri səhmin dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş pul ifadəsidir. Səhmlərin nominal dəyəri Azərbaycan Respublikasının milli valyutası ilə ifadə olunur. Səhmlərin nominal dəyərindən aşağı qiymətlə ilkin yerləşdirilməsinə yol verilmir.

3442. Adi səhmlərin xüsusiyyəti nədir?

Adi səhmlərin hər biri eyni nominal dəyərli olmaqla onun mülkiyyətçisinə eyni həcmdə hüquqlar verir. Adi səhm mülkiyyətçisinə emitentin mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, emitentin fəaliyyətinin idarə olunmasında iştirak etmək və emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini əldə etmək hüququnu verən səhm növüdür.

3443. İmtiyazlı səhmin xüsusiyyətləri nədir?

İmtiyazlı səhmlərin bir buraxılışı daxilində hər biri eyni nominal dəyərli olmaqla onun mülkiyyətçisinə eyni həcmdə hüquqlar verir. İmtiyazlı səhm emitentin fəaliyyətinin nəticəsindən asılı olmayaraq, mülkiyyətçisinə , səhmin nominal dəyərinin sabit faizi şəklində dividend almasına təminat verən, emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququnu, habelə səhmlərin buraxılış şərtlərində və emitentin nizamnaməsində nəzərdə tutulan digər hüquqlar verən səhm növüdür.

3444. Səhmdar cəmiyyəti bir neçə eyni növlü səhmi bir səhmdə birləşdirə bilərmi?

Səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarına əsasən cəmiyyət bir neçə eyni növlü səhmi bir səhmdə birləşdirə bilər və bir səhmi bir neçə həmin növ səhmə dəyişdirilmə yolu ilə xırdalaya bilər. Ümumi yığıncaqda səhmlərin birləşdirilməsi və ya xırdalanması haqqında qərar qəbul edildikdə, səhmdar cəmiyyətinin nizamnaməsində də müvafiq dəyişikliklər edilməlidir. Səhmdar cəmiyyətinin səhmlərinin birləşdirilməsi və xırdalanması qaydaları maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

§ 4. Daşınmaz əmlak sertifikatı

3445. Daşınmaz əmlak sertifikatı nədir?

Daşınmaz əmlak sertifikatı fiziki və hüquqi şəxslər arasında yerləşdirilən, mülkiyyətçilərinə buraxılış şərtlərində müəyyən olunan şərtlərə əməl etdikləri təqdirdə, emitentdən tikintisi (yenidən qurulması) bu qiymətli kağızların yerləşdirilməsindən alınan vəsait hesabına maliyyələşdirilən binaların (mənzillərin, qeyri-yaşayış sahələrinin) onların mülkiyyətinə verilməsi yolu ilə ödənilməsini tələb etmək hüququ verən qiymətli kağızdır. Daşınmaz əmlak sertifikatı adlı qiymətli kağızdır. Daşınmaz əmlak sertifikatlarının buraxılışı, dövlət qeydiyyatına alınması və tədavülü qaydası maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir (maddə 1078-1).

3446. Öhdəliklərin təminatını təsbit edən qiymətli kağızlara nə daxildir?

Öhdəliklərin təminatını təsbit edən qiymətli kağızlara girov kağızı və ipoteka kağızı daxildir (maddə 1078-2).

3447. İpoteka kağızı nədir?

İpoteka kağızı mülkiyyətçisinə ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən girov hüququnu təsdiq edən adlı qiymətli kağızdır. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı mülkiyyətçisinə ipoteka müqaviləsində göstərilən, daşınmaz əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və daşınmaz əmlakın ipotekası haqqında müqavilədə göstərilən ipoteka hüququnu təsdiq edən sənədsiz adlı qiymətli kağızdır.

3448. Girov kağızı nədir?

Girov kağızı girov qoyanla, o borclu deyilsə, həm də borclu ilə girov saxlayan arasında əmlakın və hüquqların girova qoyulmasını və bundan irəli gələn hüquq və öhdəlikləri təsbit edən adlı qiymətli kağızdır.

3449. Girovsaxlayanın və ya ipotekasaxlayanın hüquqları girov kağızının və ya ipoteka kağızının tərtibi ilə rəsmiləşdirilə və təsdiq edilə bilərmi?

MM-in 996.2-1-ci maddəsinin (Sənədsiz qiymətli kağızlar) tələbləri nəzərə alınmaqla, əmlakın və hüquqların girovu və ya ipotekası ilə təmin edilmiş öhdəliklər üzrə girovsaxlayanın və ya ipotekasaxlayanın hüquqları girov kağızının və ya ipoteka kağızının tərtibi ilə rəsmiləşdirilə və təsdiq edilə bilər.

3450. Girov kagızı və ya ipoteka kağızı üzrə cavabdeh şəxs kimdir?

Girov və ya ipoteka ilə təmin olunmuş öhdəliklər üzrə borclu, girov kagızı və ya ipoteka kağızı üzrə cavabdeh şəxsdir. Borclu, qirovqoyan və ipotekaqoyan eyni və ayrı-ayrı şəxslər ola bilər.

3451. Əmlaka girov və ya ipoteka hüququnu təsbit edən girov kağızının və ya ipoteka kağızının mülkiyyətçisi (girov saxlayan və ya ipoteka saxlayan (kreditor) borc üzrə tələbini digər şəxsə ötürə bilərmi?

Borclunun və girov qoyanın razılığı olmadan borc üzrə tələbini digər şəxsə, girov kağızı və ya ipoteka kağızı üzrə ötürücü yazı vasitəsilə o şərtlə ötürə bilər ki, həmin ötürücü yazı (indossament) öhdəliyin mahiyyətinə, onun borclu və girov qoyanla və ya ipoteka qoyanla razılaşmasına və mövcud qanunvericiliyə zidd olmasın.

3452. Girov kağızı və ya ipoteka kağızı müvafiq olaraq girov və ya ipotekaya qoyula bilərmi?

Girov kağızının və ya ipoteka kağızının mülkiyyətçisi ilə (girov saxlayan və ya ipoteka saxlayan) digər şəxs arasında bağlanmış müqavilə üzrə öhdəliyin təminatı məqsədilə girov kağızı və ya ipoteka kağızı müvafiq olaraq girov və ya ipotekaya qoyula bilər. Bu halda girov və ya ipoteka hüququ ümumi qaydada dövlət qeydiyyatından keçməlidir, lakin bu hüquq girov kağızı və ya ipoteka kağızı ilə təsbit edilə bilməz.

§ 5. Özəlləşdirmə qiymətli kağızları

3453. Özəlləşdirmə qiymətli kağızları nədir?

Dövlət əmlakının özəlləşdirilməsi zamanı dövlət əmlakının müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada özgəninkiləşdirilməsi məqsədilə buraxılan qiymətli kağızlardır. Dövlət əmlakının özəlləşdirilməsi zamanı buraxılan qiymətli kağızların növləri, emissiyası, tədavülü qaydaları və sair məsələlər MM və digər normativ hüquqi, o cümlədən normativ xarakterli aktlarla müəyyən edilir (maddə 1078-4).

§ 6. Qiymətli kağızların tədavülü

3454. Qiymətli kağızların tədavülü nədir?

Qiymətli kağızların tədavülü yerləşdirmədən sonra qiymətli kağızlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesidir (maddə 1078-20).

3455. Qiymətli kağızlar üzrə əqdlər hansı qaydada bağlanılır və həyata keçirilir?

MM-ə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq

3456. Qiymətli kağızların tədavülü zamanı qiymətli kağızlarla əqdlərin bağlanması və icrasına dair MM-də və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan tələblərin pozulması aşkar edildikdə nə baş verir?

Maliyyə bazarlarına nəzarət orqanı qanun pozuntusu ilə müşayiət olunan əqdlərin bağlanılmasını dayandırır və ya klirinq baş verdikdə tərəflərinin hesablarını dondurur.

3457. Qiymətli kağızların növləri üzrə alqı-satqı əqdlərinin bağlanması qaydaları necə tənzimlənir?

MM və ona müvafiq olaraq maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

3458. Hüquqi və fiziki şəxslərin borclarının qiymətli kağızlarla rəsmiləşdirilməsi və ödənilməsi hansı qaydalarla tənzimlənir?

Maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydalara uyğun həyata keçirilir.

3459. İnvestisiya qiymətli kağızlarla əqdlər investisiya şirkəti vasitəsilə bağlanmadıqda və ya belə əqdlərdə tərəf müqabili investisiya şirkəti olmadıqda həmin əqdlərin forması necə olmalıdır?

Həmin əqdlər notarial qaydada təsdiq olunmalıdır.

3460. Ünvanlı satış istisna olmaqla, səhmdarların sayı əllidən artıq olan səhmdar cəmiyyətlərinin yerləşdirilmiş səhmlərlə alqı-satqı əqdləri necə bağlanır?

Fond birjası vasitəsilə bağlanmalıdır. Tərəfləri bir-birinə məlum olan və qabaqcadan razılaşdırılmış qiymətlə və şərtlərlə bağlanan qiymətli kağızların alqı-satqı müqaviləsi ünvanlı satış əqdidir.

3461. Veksellər, ipoteka (daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) və girov kağızları ötürülərkən nə qeyd olunmalıdır?

Veksellər, ipoteka (daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) və girov kağızları ötürülərkən qiymətli kağızın arxa tərəfində tələbin güzəşti haqqında qeyd (indossament) etmək zəruridir.

3462. Qiymətli kağızda icra edilmiş indossament qiymətli kağızla təsdiqlənmiş bütün hüquqları hansı şəxsə keçirir?

MM-in 996.2-1-ci maddəsinə (Sənədsiz qiymətli kağızlar) uyğun olaraq həyata keçirilir.

3463. İndossament hansı formada ola bilər?

İndossament blanklı (icranın həyata keçirilməli olduğu şəxs göstərilmədən) və ya orderli (icranın həyata keçirilməli olduğu və ya əmri ilə həyata keçirilməli olduğu şəxs göstərilməklə) ola bilər. İndossament yalnız qiymətli kağızla təsdiqlənmiş hüquqları həyata keçirmək tapşırığı ilə, bu hüquqlar indossata verilmədən (təkrar tapşırılan indossament) məhdudlaşdırıla bilər. Bu halda indossat nümayəndə kimi çıxış edir. İpoteka və girov kağızlarında blanklı indossamentə yol verilmir.

3464. İndossament hansı tələblərə uyğun gəlməlidir?

-MM-in 996.2-1-ci maddəsinin (Sənədsiz qiymətli kağızların) tələbləri nəzərə alınmaqla, indossament aşağıdakı tələblərə uyğun gəlməlidir:

-onda indossat haqqında məlumatlar və indossantın imzası olmalıdır;

-sadə olmalı və heç nə ilə şərtlənməməlidir (indossamenti məhdudlaşdıran hər cür şərt etibarsız sayılır; qismən indossament də etibarsızdır.);

-qiymətli kağızda və ya ona əlavə edilmiş vərəqdə (əlavə vərəq) yazılmalıdır.

3465. İnsayder ticarəti və ya manipulyasiya həyata keçirilməsi nəticəsində zərər vuran şəxsin məsuliyyəti nədir?

İnsayder ticarəti və ya manipulyasiya həyata keçirilməsi nəticəsində zərər vuran şəxs zərər vurulmuş şəxs qarşısında vurduğu zərərin üç misli miqdarında məsuliyyət daşıyır.

3466. Qiymətli kağızla təsdiqlənmiş hüquqlar hansı qaydada ötürülür?

Qiymətli kağızla təsdiqlənmiş hüquqlar MM-in 993-cü maddəsinə (Qiymətli kağıza mülkiyyət hüququnun əmələ gəlməsi və ötürülməsi) və bu maddədə müəyyən edilmiş xüsusiyyətlərə uyğun olaraq ötürülür.

3467. Adsız sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar necə ötürülür?

Adsız sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar onun sertifikatının yeni sahibinə verilməsi ilə ötürülür.

3468. Mərkəzi depozitarda saxlanılan adsız sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar necə ötürülür?

Mərkəzi depozitarda saxlanılan adsız sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar qiymətli kağızların yeni mülkiyyətçisinin "depo" hesabına köçürülməsi yolu ilə ötürülür.

3469. MM-in 996.2-1-ci maddəsinin (Sənədsiz qiymətli kağızlar) tələbləri nəzərə alınmaqla, digər sənədsiz qiymətli kağızla təsdiqlənmiş hüquqlar necə ötürülür?

MM-in 996.2-1-ci maddəsinin (Sənədsiz qiymətli kağızlar) tələbləri nəzərə alınmaqla, digər sənədsiz qiymətli kağızla təsdiqlənmiş hüquqlar qiymətli kağızlar üzrə depozitar sistemində qiymətli kağızlar mülkiyyətçisinin depo hesabından yeni mülkiyyətçinin depo hesabına köçürülməsi yolu ilə ötürülür.

3470. Adlı sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar yeni mülkiyyətçiyə necə ötürülür?

Adlı sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar yeni mülkiyyətçiyə qiymətli kağızları (sertifikatları) verməklə qiymətli kağız mülkiyyətçilərinin reyestrində müvafiq qeydin aparılması yolu ilə və ya indossament əsasında ötürülür. Mərkəzi depozitarda saxlanılan adlı sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqlar mülkiyyətçinin "depo" hesabından yeni mülkiyyətçinin "depo" hesabına qiymətli kağızların köçürülməsi yolu ilə ötürülür.

3471. Qiymətli kağızlarla təsdiqlənmiş hüquqlar əldə edən şəxsə hansı andan keçir?

Həmin kağızlara mülkiyyət hüququ keçən andan

3472. Veksel, ipoteka (daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) və girov kağızları ilə təsdiqlənmiş hüquqlar necə ötürülür?

Mülkiyyətçinin kağız üzərində etdiyi sərəncam vasitəsi ilə yeni mülkiyyətçiyə ötürülür. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqların ötürülməsi MM-in 996.2-1-ci maddəsinə (Sənədsiz qiymətli kağızlar) uyğun olaraq həyata keçirilir.

3473. Adlı sənədli qiymətli kağızla təsdiqlənmiş hüquqların ötürülməsi zamanı qiymətli kağızın sertifikatının yeni mülkiyyətçinin adına rəsmiləşdirilməsi qaydası kim tərəfindən müəyyən edilir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

3474. Yeni mülkiyyətçi hüquqların keçməsi üzrə nə zaman sonra qiymətli kağızla təsdiqlənmiş hüquqları əldə edir?

Yeni mülkiyyətçi hüquqların keçməsi üzrə qanunvericiliklə müəyyən edilmiş hərəkətlərin icrası və hüquqların qeydiyyatından sonra qiymətli kağızla təsdiqlənmiş hüquqları əldə edir.

3475. Veksel, ipoteka və girov kağızları ilə təsdiqlənmiş hüququ ötürən şəxs (indossant) nəyə görə məsuliyyət daşıyır?

Təkcə hüququn mövcudluğuna görə deyil, həm də onun həyata keçirilməsinə görə məsuliyyət daşıyır. Digər növ qiymətli kağızla təsdiqlənmiş hüququ ötürən şəxs müvafiq tələbin etibarsızlığına görə məsuliyyət daşıyır, lakin onun icra edilməməsi üçün məsuliyyət daşımır.

3476. Sənədli qiymətli kağızlarla təsdiqlənmiş hüquqlar necə həyata keçirilir?

Qiymətli kağızların mülkiyyətçisi tərəfindən həmin qiymətli kağızların sertifikatının təqdim edilməsi ilə həyata keçirilir (maddə 1078-22).

3477. Digər sənədsiz qiymətli kağızlarla təsdiqlənmiş hüquqlar necə həyata keçirilir?

MM-in 996.2-1-ci maddəsinin (Sənədsiz qiymətli kağızlar) tələbləri nəzərə alınmaqla, digər sənədsiz qiymətli kağızlarla təsdiqlənmiş hüquqlar həmin qiymətli kağızlar barədə reyestr və ya «depo» hesablarında mülkiyyətçi, yaxud nominal saxlayıcı barədə olan məlumatlarla reyestrdə qeydə alınmış şəxs barədə məlumatların eyniləşdirilməsi ilə.

3478. Sənədli qiymətli kağızların sertifikatları mərkəzi depozitarda saxlandıqda həmin qiymətli kağızlarla təsdiqlənmiş hüquqlar necə həyata keçirilir?

Mülkiyyətçinin tapşırığı ilə mərkəzi depozitarda saxlanılan qiymətli kağızın sertifikatının (mülkiyyətçilərin siyahısı əlavə olunmaqla) depozitar tərəfindən təqdim edilməsi ilə həyata keçirilir.

3479. Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması qaydalarını kim müəyyən edir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir (maddə 1078-24).

3480. Azərbaycan Respublikasının emitentlərinin qiymətli kağızlarının xarici investorlar tərəfindən əldə edilməsi məhdudlaşdırılırmı?

Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, məhdudlaşdırılmır (maddə 1078-25).

3481. Qiymətli kağızların birləşdirilməsi nədir?

Qiymətli kağızların birləşdirilməsi bir növdən olan bütün qiymətli kağızların bir buraxılış daxilində bütün mülkiyyətçilərdə olan qiymətli kağızların sayının mütənasib azaldılması yolu ilə dəyişdirilməsidir. Qiymətli kağızların nominal dəyəri olduqda, onların birləşdirilməsi nominal dəyərin mütənasib artırılması ilə müşayiət olunur (maddə 1078-26).

3482. Qiymətli kağızların xırdalanması (bölünməsi) nədir?

Bir qiymətli kağızın nominal dəyərinin mütənasib bölünməsi yolu ilə eyni növlü bir neçə qiymətli kağıza çevrilməsidir.

3483. Qiymətli kağızların konvertasiyası nədir?

Bir emitentin bir növ investisiya qiymətli kağızların digər növlü investisiya qiymətli kağızlara və ya digər emitentin qiymətli kağızlarına (həmin emitent yenidən təşkil edildikdə) əvəzsiz dəyişdirilməsidir (səhmin istiqraza dəyişdirilməsi istisna olmaqla). Bu zaman dəyişdirilmiş qiymətli kağızlar ləğv olunur.

3484. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası həmin qiymətli kağızların yerləşdirilməsi zamanı emitent tərəfindən cəlb edilmiş vəsaitlərin miqdarının dəyişdirilməsinə səbəb olurmu?

Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası həmin qiymətli kağızların yerləşdirilməsi zamanı emitent tərəfindən cəlb edilmiş vəsaitlərin miqdarının dəyişdirilməsinə gətirmir, qiymətli kağızlar mülkiyyətçilərindən geri alınan qiymətli kağızların dəyərinin qaytarılması üçün əsas deyil və qiymətli kağızlar mülkiyyətçiləri tərəfindən əlavə xərclər çəkilmədən həyata keçirilir.

3485. Emitentin yerləşdirilmiş qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası haqqında qərarı qeydiyyata alınırmı?

Maliyyə bazarlarına nəzarət orqanında qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdır.

3486. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası qaydaları kim tərəfindən müəyyən edilir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

3487. Sənədli qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası və ödənilməsi nə ilə müşayiət olunur?

Bu qiymətli kağızların əvvəlki sertifikatlarının ləğv olunması ilə müşayiət olunur.

3488. Qiymətli kağızların dövriyyədən çıxarılması hansı hallarda həyata keçirilir?

- Səhmlər barəsində səhmdarların ümumi yığıncağının qərarı ilə;
- qiymətli kağızların emissiyasının baş tutmamış hesab edildiyi halda maliyyə bazarlarına nəzarət orqanının qərarı ilə;
- qiymətli kağızların buraxılışı məhkəmə tərəfindən etibarsız hesab edildikdə;

- emitentin fəaliyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada xitam verildikdə;
- tədavül müddəti bitdikdən sonra qiymətli kağızlar ödənildikdə (maddə 1078-27).

3489. Dövlət qeydiyyatına alınmış qiymətli kağızlar dövriyyədən çıxarıldıqda maliyyə bazarlarına nəzarət orqanı nə edir?

Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər dövlət qeydiyyatına alınmış qiymətli kağızlar dövriyyədən çıxarıldıqda maliyyə bazarlarına nəzarət orqanı qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər etməlidir.

3490. Qiymətli kağızların dövriyyədən çıxarılması haqqında məlumat (ödəniş nəticəsində tədavüldən çıxarılması istisna olmaqla) maliyyə bazarlarına nəzarət orqanı tərəfindən rəsmi kütləvi informasiya vasitələrində nə zaman dərc olunmalıdır?

Qiymətli kağızların dövriyyədən çıxarılması haqqında məlumat (ödəniş nəticəsində tədavüldən çıxarılması istisna olmaqla) maliyyə bazarlarına nəzarət orqanı tərəfindən qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər edildiyi gündən yeddi iş günü müddətində rəsmi kütləvi informasiya vasitələrində dərc olunmalıdır.

3491. Qiymətli kağızların dövriyyəsinə nə zaman yol verilmir?

Qiymətli kağızların dövriyyədən çıxarılması barədə məlumatın dərc edildiyi gündən onların dövriyyəsinə yol verilmir.

3492. Qiymətli kağızların dövriyyədən çıxarılması nə zaman həyata keçirilir?

Bu barədə müvafiq məlumat dərc edildikdən sonra həyata keçirilir.

3493. Qiymətli kağızların dövriyyədən çıxarılması qaydaları kim tərəfindən həyata keçirilir?

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən həyata keçirilir.

55-ci FƏSİL
Xüsusi mükafatlandırmanın açıq elan edilməsi. Müsabiqə barədə suallar və cavablar

3494. Xüsusi mükafatlandırmanın açıq elan edilməsi nədir?

Hər hansı hərəkəti yerinə yetirməyə, məsələn, hər hansı müəyyən nəticəyə nail olmağa görə açıq elan çərçivəsində mükafat təyin edən şəxs həmin hərəkəti yerinə yetirmiş şəxsə mükafat ödəməlidir. Bu qayda şəxsin həmin hərəkəti yerinə yetirərkən mükafat gözləmədiyi halda da qüvvədədir.

3495. Mükafatlandırma vədi hansı halda ləğv oluna bilər?

Mükafatlandırma vədi açıq elanda nəzərdə tutulan hərəkətin yerinə yetirilməsinə qədər ləğv edilə bilər (maddə 1080).

3496. Açıq elanda nəzərdə tutulan mükafatlandırmanın ləğv edilməsi hansı halda etibarlıdır?

Yalnız o halda etibarlıdır ki, mükafatlandırmanın təyin edilməsi hansı qaydada elan olunmuşdusa, ləğv edilməsi də o cür elan olunsun, ya da xüsusi məlumatda elan olunsun.

3497. Mükafatlandırmanın açıq elanla ləğv edilməsinin mümkünlüyü istisna oluna bilərmi?

Bu istisna oluna bilər. Şübhə yarandıqda bu cür istisnaya o halda yol verilir ki, açıq elanda nəzərdə tutulan hərəkəti yerinə yetirmək üçün müddət müəyyənləşdirilmiş olsun.

3498. Mükafat təyin edilmiş hərəkəti bir neçə şəxs yerinə yetirdikdə nə baş verir?

Mükafatı həmin hərəkəti birinci yerinə yetirmiş şəxs alır (maddə 1081).

3499. Hərəkəti bir neçə şəxs eyni zamanda yerinə yetirdikdə, mükafatı kim alır?

Mükafat onların arasında bərabər bölünür.

3500. Mükafat təyin edilmiş nəticəyə nail olmaqda bir neçə şəxs iştirak etdikdə mükafat necə bölünür?

Mükafatı təyin etmiş şəxs ayrılıqda onlardan hər birinin nəticəyə nail olmaqda iştirak payını nəzərə alaraq, mükafatı onların arasında ədalətli mülahizə əsasında bölür. Açıq-aşkar ədalətsiz bölgünün məcburi qüvvəsi yoxdur və iştirakçılardan birinin ərizəsinə əsasən məhkəmənin qərarı ilə dəyişdirilə bilər. İştirakçılardan biri bölgünün məcburi qüvvəsini qəbul etmədikdə, mükafatı təyin etmiş şəxsin, bütün iştirakçılar kimin nəyə ixtiyarı çatdığı barədə aralarındakı mübahisəni həll edib qurtarmayınca, mükafatı verməkdən imtina etmək hüququ vardır. İştirakçıların hər biri mükafatın hamı üçün depozitə qoyulmasını tələb edə bilər.

3501. MM-in 1081.2 (Hərəkəti bir neçə şəxs eyni zamanda yerinə yetirdikdə, mükafat onların arasında bərabər bölünür) və 1081.3-cü maddələrində (Mükafat təyin edilmiş nəticəyə nail olmaqda bir neçə şəxs iştirak etdikdə mükafatı təyin etmiş şəxs ayrılıqda onlardan hər birinin nəticəyə nail olmaqda iştirak payını nəzərə

alaraq, mükafatı onların arasında ədalətli mülahizə əsasında bölür. Açıq-aşkar ədalətsiz bölgünün məcburi qüvvəsi yoxdur və iştirakçılardan birinin ərizəsinə əsasən məhkəmənin qərarı ilə dəyişdirilə bilər. İştirakçılardan biri bölgünün məcburi qüvvəsini qəbul etmədikdə, mükafatı təyin etmiş şəxsin, bütün iştirakçılar kimin nəyə ixtiyarı çatdığı barədə aralarındakı mübahisəni həll edib qurtarmayınca, mükafatı verməkdən imtina etmək hüququ vardır. İştirakçıların hər biri mükafatın hamı üçün depozitə qoyulmasını tələb edə bilər) nəzərdə tutulan hallarda mükafat öz xarakterinə görə bölünmədikdə və ya elana əsasən bir şəxs üçün nəzərdə tutulduqda mükafat kimə verilir?

Püşkatma yolu ilə verilir.

3502. Müsabiqə nədir?

Müsabiqə müəyyən hərəkəti yerinə yetirməyə görə mükafatlandırma barədə açıq elandır; bu zaman hərəkəti yerinə yetirən şəxslər (iştirakçılar) bir və ya bir neçə nəfərdən ibarət münsiflər heyətinin və ya mükafatı təyin etmiş şəxsin verdiyi prizi almaq üçün müsabiqədə iştirak etməkdən ötrü işlərin təqdim edilməsi barədə ərizə verirlər. Priz qalibə sifariş veriləcəyi vədindən də ibarət ola bilər (maddə 1082).

3503. Mükafatlandırmaya dair açıq elanın predmeti priz verilməklə müsabiqədə iştirak etmək üçün işlərin təqdim edilməsi barədə ərizə olduqda hansı şərt daxilində müsabiqə etibarlıdır?

Bu elan yalnız işlərin təqdim edilməsi müddəti göstərildikdə qüvvəyə malikdir.

3504. Vaxtında təqdim edilmiş işin müsabiqənin şərtlərinə uyğun gəlib-gəlmədiyi və iştirakçılardan kimin üstünlük verilməyə layiq olduğu barədə qərar kim tərəfindən qəbul olunur?

Müsabiqənin şərtlərində göstərilən şəxs tərəfindən, şərtlərdə bu göstərilmədikdə isə müsabiqəni elan etmiş şəxs tərəfindən qəbul olunur. Qərar bütün iştirakçılar üçün məcburi qüvvəyə malikdir və ondan məhkəməyə şikayət verilə bilməz. Əgər prizin verilməsi proseduru və şərtləri başqa şəkildə tənzimlənmişsə, bu qayda tətbiq olunmur.

3505. Müsabiqə elan etmiş şəxs priz almaqdan ötrü iştirakçılardan birinin təqdim etdiyi əsərə mülkiyyət hüququnun verilməsini hansı halda tələb edə bilər?

Yalnız o halda tələb edə bilər ki, müsabiqənin şərtlərində hüququn bu cür keçməsini təsbit etmiş olsun.

3506. Əgər layihə işlənməsi üçün müsabiqənin şərtlərində müsabiqə elan etmiş şəxsin layihənin sonrakı işlənməsini priz alana tapşırmaq niyyəti göstərilmişsə bu necə tənzimlənir?

Müsabiqə elan etmiş şəxs layihə həyata keçirildikdən sonra onun sonrakı işlənməsini priz alanlardan birinə tapşırmağa borcludur.

3507. Müsabiqədə iştirak müsabiqəni elan etmiş şəxsdən mallar və ya digər xidmətlər alınması ilə əlaqələndirilə bilərmi?

Müsabiqədə iştirak müsabiqəni elan etmiş şəxsdən mallar və ya digər xidmətlər alınması ilə əlaqələndirildikdə onun keçirilməsi qadağandır. Müsabiqədə iştirak etməklə əlaqədar bağlanmış, mallar və ya digər xidmətlərin alınması barədə müqavilələrin qüvvəsi yoxdur.

56-cı FƏSİL
Oyunlar və mərclərin keçirilməsi sahəsində hüquqi tənzimləmələrə dair suallar və cavablar

3508. Oyunlar və mərclər nədir?

Oyunlar və mərclər hər hansı təsərrüfat məqsədi daşımayan müqavilələrdir, onlara əsasən iştirakçılar qismən də olsa, qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan mənfəət götürür və ya zərər çəkirlər (maddə 1083).

3509. Nələr oyun və mərc kimi qiymətləndirilir?

- Oyun və ya mərc üçün şüurlu surətdə borc və avans verilməsi;
- oyun və ya mərc xarakteri daşıyan əmtəə əqdləri və ya qiymətli kağızlarla əməliyyatlar.

3510. Lotereyalar idman və mərc oyunları üzrə hər hansı bir tələb əmələ gətirirmi?

Heç bir tələb əmələ gəlmir (maddə 1084).

3511. Oyun və mərc prosesində verilmiş ödənişlər geri tələb edilə bilərmi?

Geri tələb edilə bilməz (maddə 1085).

3512. Oyunda və ya mərcdə uduzulan məbləği ödəmək məqsədilə oyunçunun və ya mərc gələnin imzaladığı, mövcud borcun etirafına dair müqavilə və ya qiymətli kağız reallaşdırıla bilərmi?

Oyunda və ya mərcdə uduzulan məbləği ödəmək məqsədilə oyunçunun və ya mərc gələnin imzaladığı, mövcud borcun etirafına dair müqavilə və ya qiymətli kağız, onun verilməsinə baxmayaraq, reallaşdırıla bilməz.

3513. Lotereyanın qanunvericiliklə nəzərdə tutulmuş hallarda dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi halı necə tənzimlənir?

Lotereya biletinin sahibinin lotereya təşkilatçısına qarşı uduşların verilməsi (ödənilməsi) tələbini istisna etmir (maddə 1086).

57-ci FƏSİL
Özgə işlərini tapşırıqsız aparmaya dair yaranan suallar və cavablar

3514. Özgəsinin (sahibkarın) işlərini tapşırıq və ya digər əsas olmadan aparan şəxs kimdir?

Özgəsinin (sahibkarın) işlərini tapşırıq və ya digər əsas olmadan aparan şəxs (icraçı) onu vicdanla aparmağa borclu olan şəxsdir (maddə 1087).

3515. İşlərin tapşırıqsız aparılmasını sonradan sahibkar bəyəndikdə bu necə tənzimlənir?

Bu bölmənin müddəaları əvəzinə tapşırıq haqqında müddəalar tətbiq olunur.

3516. İcraçı işləri idarəetməyə qəbul etməsi barədə sahibkarı hansı müddətdə xəbərdar etməlidir?

Mümkün qədər qısa müddətdə xəbərdar etməli və əgər ləngimə hər hansı risklə bağlı deyilsə, onun qərarını gözləməlidir (maddə 1088).

3517. İcraçı başladığı işləri nə vaxtadək davam etdirməlidir?

İcraçı başladığı işləri sahibkarın özünün fəaliyyət göstərə biləcəyi vaxtadək davam etdirməlidir.

3518. İcraçının işləri aparması gedişində qəsdən və ya ehtiyatsızlıq üzündən vurulan zərərin məsuliyyəti məsələsi necə tənzimlənir?

Vurulan zərərin kompensasiyası üçün sahibkar qarşısında məsuliyyət daşıyır (maddə 1089).

3519. İşlərin aparılmasında məqsəd sahibkarı yaxınlaşmaqda olan təhlükədən qorumaq olduqda bu məsələ necə tənzimlənir?

İcraçının məsuliyyəti qəsd və kobud ehtiyatsızlıq üçün məsuliyyətin hədləri ilə məhdudlaşır.

3520. Əgər işlərin aparılması sahibkarın elan edilmiş və ya başqa şəkildə aşkar olunmuş iradəsinə ziddirsə bu məsələ necə tənzimlənir?

İcraçı zərəri qəsdən və ya ehtiyatsızlıq üzündən vurmamış olduqda belə, sahibkar qarşısında məsuliyyət daşıyır, amma icraçının öz müdaxiləsi olmadan da zərərin yarana biləcəyini sübuta yetirdiyi hallar istisna təşkil edir.

3521. İcraçı fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli olarsa, bu məsələ necə tənzimlənir?

Yalnız hüquqa zidd hərəkətlər və əsassız varlanma haqqında müddəalara uyğun məsuliyyət daşıyır.

3522. Əgər işlərin aparılması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlirsə, icraçının hüquqları hansılardır?

İcraçı xərclərin əvəzinin ödənilməsini və öhdəliklərdən azad olunmasını tələb

edə bilər. İcraçı lazımi vicdanlılıqla fəaliyyət göstərmişsə, bu qayda işlərin aparılmasının gözlənilən nəticə ilə qurtarmadığı halda da tətbiq olunur (maddə 1090).

3523. İşlərin aparmağa qəbul olunması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlmirsə, icraçı sahibkardan xərclərin əvəzinin ödənilməsini və öhdəliklərdən azad olunmasını hansı halda tələb edə bilər?

Yalnız işlərin aparılması prosesində sahibkarın varlandığı halda

3524. İşlərin tapşırıqsız aparılmasında sahibkarın mənafeyi və ehtimal olunan istəyi hansı halda nəzərə alınmır?

O halda nəzərə alınmır ki, belə işlərin aparılması sahibkarın ictimai vəzifələrinin və ya digər tələblərinin yerinə yetirilməsi ilə bağlı olsun.

58-ci FƏSİL
Əsassız varlanma kontekstində hüquqi tənzimləməyə dair suallar və cavablar

3525. Əsassız varlanma nədir?

Əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin (maddə 1091).

3526. Əsassız varlanma hansı halda baş verir?

Yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir.

3527. Əsassız varlanma nəticəsində əldə edilənləri qaytarmaq vəzifəsi necə tənzimlənir?

- Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır. Qaytarma vəzifəsi aşağıdakılara da şamil edilir:
- MM-in 157.5-ci maddəsinin tələbləri (mülkiyyətin müdafiəsi) nəzərə alınmaqla, əldə edilənlərdən götürülən faydaya;
- əldə edən şəxsin əldə etdiklərinə əsasən və ya onlar üçün kompensasiya kimi əldə etdiyinə və ya qəsdən əldə etmədiyinə;
- əldə edilənləri vermək mümkün olmadıqda, onların dəyəri ödənilir (maddə 1092).

3528. Hansı halda MM-in 1092.1 (Varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır.) və 1092.2-ci maddələrinə (Əldə edilənləri vermək mümkün olmadıqda, onların dəyəri ödənilir.) uyğun iddiaların irəli sürülməsi istisna edilir?

Varlanmış şəxs qaytarmanın tələb olunduğu anda daha özünün varlı olmadığını sübut edərsə. Varlanmadan əvvəl və ya bilavasitə varlanma zamanı bunun üçün hüquqi əsasın olmadığını bilən varlanmış şəxsə bu qayda şamil edilmir.

3529. Öhdəliyin icrası üçün deyil, varlanmış şəxsin hər hansı hərəkəti yerinə yetirməsi və ya yerinə yetirməməsi üçün varlanmış şəxsə nə isə verən, varlanmış şəxsin əməli gözlənilən məqsədə uyğun olmadıqda verdiyini geri tələb edə bilərmi?

Öhdəliyin icrası üçün deyil, varlanmış şəxsin hər hansı hərəkəti yerinə yetirməsi və ya yerinə yetirməməsi üçün varlanmış şəxsə nə isə verən, varlanmış şəxsin əməli gözlənilən məqsədə uyğun olmadıqda verdiyini geri tələb edə bilər (maddə 1093).

3530. Hansı hallarda qaytarma tələbi istisna edilir?

- Əgər məqsədə çatılması əvvəlcədən qeyri-mümkündürsə və verən bunu bilirdisə;
- əgər verən məqsədə çatmağa vicdansızcasına mane olmuşsa.

3531. Varlanmış şəxsin xərclərinin kompensasiyası kim tərəfindən ödənilir?

Əsassız varlanmış şəxsin heç bir hüquqi əsas olmadan əldə etdiyi əşyaya çəkilən xərclərin qaytarılması MM-in 157.6-cı (İstər vicdanlı sahib, istərsə də vicdansız sahib öz növbəsində əmlakdan gəlirin mülkiyyətçiyə düşdüyü vaxtdan sonra əmlaka sərf et-

diyi zəruri məsrəflərin əvəzinin ödənilməsini mülkiyyətçidən tələb edə bilər) və 157.7-ci maddələri (Vicdanlı sahib əmlaka zərər yetirmədən ondan ayrıla bilən öz yaxşılaşdırmalarını özündə saxlaya bilər. Yaxşılaşdırmaları bu cür ayırmaq mümkün olmadıqda vicdanlı sahib əmlakın dəyərindən artıq olmamaq şərti ilə, onu yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilər) ilə müəyyən edilmiş qaydada həyata keçirilir (maddə 1094).

3532. Əsassız varlanma obyektini qaytarmaq üçün müddət necə tənzimlənir?

Əsassız varlanma obyektini qaytarmaq hüququ məhrum olana öz hüququnun məlum olduğu vaxtdan ən geci iki il müddətin keçməsinə görə qüvvədən düşür. Qalan hallarda müddətin keçməsi ümumi göstərişlərə uyğun müəyyənləşdirilir (maddə 1095).

59-cu FƏSİL
Mülki hüquq pozuntuları (deliktlər) çərçivəsində yaranan suallar və cavablar

3533. Mülki hüquq pozuntusu nədir?

Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir). Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır (maddə 1096).

3534. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərər məsələsi qanunvericiliklə necə tənzimlənir?

Vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər (maddə 1097).

3535. Əgər zərər zərərçəkənin xahişi və ya razılığı ilə vurulmuşdursa o ödənilirmi?

Əgər zərər zərərçəkənin xahişi və ya razılığı ilə vurulmuşdursa, onun əvəzini ödəməkdən imtina edə bilər.

3536. Gələcəkdə zərər vurulması təhlükəsi barədə iddia qaldırıla bilərmi?

Gələcəkdə zərər vurulması təhlükəsi, bu cür təhlükəni yaradan fəaliyyətin qadağan edilməsi barədə iddiaya əsas verə bilər (maddə 1098).

3537. Əgər vurulmuş zərər onu vurmaqda davam edən və ya yeni zərər vurulması təhlükəsi törədən binanın, qurğunun istismarının və ya digər istehsal fəaliyyətinin nəticəsidirsə bu necə tənzimlənir?

Məhkəmə cavabdehin üzərinə zərərin əvəzini ödəməkdən əlavə, müvafiq fəaliyyəti dayandırmaq və ona xitam vermək vəzifəsini də qoya bilər.

3538. Məhkəmə müvafiq fəaliyyətin dayandırılması və ya ona xitam verilməsi barədə iddiadan hansı halda imtina edə bilər?

Yalnız o halda imtina edə bilər ki, həmin fəaliyyətin dayandırılması və ya ona xitam verilməsi dövlət mənafelərinə zidd olsun. Bu cür fəaliyyəti dayandırmaqdan və ya ona xitam verməkdən imtina edilməsi zərərçəkənləri həmin fəaliyyətlə vurulmuş zərərin əvəzinin ödənilməsi hüququndan məhrum etmir.

3539. Hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyırmı?

Məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir (maddə 1099).

3540. Dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və ya bu orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində, o cümlədən dövlət orqanının və ya yerli özünüidarə orqanının qanuna və ya digər hüquqi

akta uyğun gəlməyən aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin əvəzi kim tərəfindən ödənilir?

Azərbaycan Respublikası və ya müvafiq bələdiyyə ödəməlidir (maddə 1100).

3541. Qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qəti imkan tədbiri kimi həbsə almanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində fiziki şəxsə vurulmuş zərərin əvəzini kim ödəyir?

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq, Azərbaycan Respublikası qanunla müəyyənləşdirilmiş qaydada tam həcmdə ödəyir (maddə 1101).

3542. Təhqiqat, ibtidai istintaq, prokurorluq orqanlarının qanunsuz fəaliyyəti nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərər MM-in 1101.1-ci maddəsində nəzərdə tutulan nəticələrə (qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qəti imkan tədbiri kimi həbsə almanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində fiziki şəxsə vurulmuş zərərə) səbəb olmadıqda onun əvəzi necə ödənilir?

Qanunla müəyyənləşdirilmiş əsaslarla və qaydada ödənilir.

3543. Ədalət məhkəməsinin həyata keçirilməsi zamanı vurulmuş zərərin əvəzi hansı halda ödənilir?

O halda ki, hakimin təqsiri məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyənləşdirilsin.

3544. On dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın (azyaşlının) törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərər üçün kim məsuliyyət daşıyır?

On dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın (azyaşlının) valideynləri (övladlığa götürənlər) və ya qəyyumu, zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, məsuliyyət daşıyırlar (maddə 1103).

3545. Əgər qəyyumluğa möhtac azyaşlı müvafiq sosial xidmət müəssisəsində və ya qanuna görə onun qəyyumu olan digər oxşar müəssisədə olmuşdursa, azyaşlının vurduğu zərərin əvəzini ödəməkdə kim borcludur?

Həmin müəssisə əgər zərərin müəssisənin təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərərin əvəzini ödəməyə borcludur.

3546. Əgər azyaşlı sosial xidmət müəssisələri və ya ona nəzarət etməyə borclu olan digər müəssisənin və ya müqavilə əsasında nəzarət edən şəxsin nəzarəti altında olduğu dövrdə zərər vurmuşdursa, zərər üçün məsuliyyəti kim daşıyır?

Həmin müəssisə və ya şəxs zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərər üçün məsuliyyət daşıyır.

3547. Valideynlərin (övladlığa götürənlərin), qəyyumların, sosial xidmət müəssisələri və digər müəssisələrin azyaşlının vurduğu zərərin əvəzini ödəmək vəzifəsinə azyaşlı yetkinlik yaşına çatdıqda və ya zərərin əvəzini ödəmək üçün yetərli əmlak əldə etdikdə xitam verilirmi?

Xeyr.

3548. Əgər valideynlər (övladlığa götürənlər), qəyyumlar və ya Mülki Məcəllənin 1103.3-cü maddəsində göstərilmiş digər fiziki şəxslər (sosial xidmət müəssisələri və ya azyaşlıya nəzarət etməyə borclu olan digər müəssisənin və ya müqavilə əsasında nəzarət edən şəxs) ölmüşlərsə və ya zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək üçün yetərli vəsaitə malik deyildirlərsə, tam fəaliyyət qabiliyyətli olmuş zərərvuranın isə bu cür vəsaiti vardırsa, məhkəmə, halları nəzərə almaqla hansı qərar qəbul edə bilər?

Zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla zərərin əvəzinin tamamilə və ya qismən zərərvuranın özünün hesabına ödənilməsi barədə qərar qəbul edə bilər.

3549. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanların vurduqları zərər mülki hüquq pozuntusuna səbəb olduqda kim məsuliyyət daşıyır?

On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanların özləri ümumi əsaslarla müstəqil surətdə məsuliyyət daşıyırlar (maddə 1104).

3550. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı olmadıqda zərərin hamısını və ya çatışmayan hissəsini kim ödəməlidir?

Onun valideynləri (övladlığa götürənlər) və ya himayəçisi zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, ödəməlidir.

3551. Əgər on dörd yaşından on səkkiz yaşınadək olan və himayəçiliyə ehtiyac duyan yetkinlik yaşına çatmayan müvafiq sosial xidmət müəssisəsində və ya qanuna görə onun himayəçisi olan digər oxşar müəssisədə olmuşdursa, həmin müəssisə, zərərin hamısını və ya çatışmayan hissəsini hansı halda ödəməyə borcludur?

Zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə

3552. Valideynlərin (övladlığa götürənlərin), himayəçinin və müvafiq müəssisənin on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın vurduğu zərərin əvəzini ödəmək vəzifəsinə zərərvuran yetkinlik yaşına çatdıqda və ya yetkinlik yaşına çatdıqdan sonra zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı yarandıqda və ya yetkinlik yaşına çatanadək fəaliyyət qabiliyyəti əldə etdikdə xitam verilirmi?

Xeyr.

3553. Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərərin əvəzini kim ödəyir?

Onun qəyyumu və ya ona nəzarət etməli olan təşkilat, zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, ödəməlidilər (maddə 1105).

3554. Qəyyumun və ya nəzarət etməli təşkilatın fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxs tərəfindən vurulmuş zərərin əvəzini ödəmək vəzifəsinə həmin şəxsin sonradan fəaliyyət qabiliyyətli sayıldığı halda xitam verilmi?

Xeyr.

3555. Hansı halda məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla, zərərin hamısının və ya bir hissəsinin zərərvuranın özünün hesabına ödənilməsi barədə qərar qəbul edə bilər?

Əgər qəyyum ölmüşdürsə və ya zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək üçün yetərli vəsaitə malik deyildirsə, zərərvuranın isə belə vəsaiti vardırsa.

3556. Məhdud fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərərin əvəzini kim ödəyir?

Zərərvuran özü ödəyir (maddə 1106).

3557. Fəaliyyət qabiliyyətli fiziki şəxs və ya on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə mülki hüquq pozuntusu törətdikdə vurduğu zərər üçün məsuliyyət daşıyırmı?

Xeyr (maddə 1107).

3558. Fəaliyyət qabiliyyətli fiziki şəxs və ya on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə mülki hüquq pozuntusu törətdikdə, hansı halda məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla, zərərin əvəzini tamamilə və ya qismən ödəmək vəzifəsini zərərvuranın üzərinə qoya bilər?

Əgər zərərçəkənin həyatına və ya sağlamlığına zərər vurulmuşdursa.

3559. Mülki hüquq pozuntusu törətmiş şəxs spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən istifadə etməklə və ya başqa üsulla özünün hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətə özü gətirdikdə məsuliyyətdən azad edilirmi?

Xeyr.

3560. Əgər psixi pozuntu nəticəsində öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilməyən şəxs mülki hüquq pozuntusu törətmişdirsə, məhkəmə zərərin əvəzini ödəmək vəzifəsini kimin öhdəsinə qoya bilər?

Həmin şəxslə birlikdə yaşayan, zərərvuranın psixi pozuntusundan xəbərdar olmuş, lakin onun fəaliyyət qabiliyyəti olmayan sayılması məsələsini qaldırmamış arvadının (ərinin), valideynlərinin, yetkinlik yaşına çatmış uşaqlarının öhdəsinə qoya bilər.

3561. Ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyəti (nəqliyyat vasitələrindən, mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi və s.) nəticəsində mülki hüquq pozuntusu törətmiş fiziki və hüquqi şəxslər yüksək təhlükə mənbəyinin vurduğu zərərin əvəzini hansı şərtlə ödəməyə borcludurlar?

Zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirməsinlər (maddə 1108).

3562. Ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyət (nəqliyyat vasitələrindən, mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi və s.) nəticəsində mülki hüquq pozuntusu baş verdikdə, kim yüksək təhlükə mənbəyinin vurduğu zərərin əvəzini ödəməyə borcludur?

Zərərin əvəzini ödəmək vəzifəsi yüksək təhlükə mənbəyinə mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və i.a.) sahiblik edən fiziki və ya hüquqi şəxsin öhdəsinə qoyulur, bu şərtlə ki, zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirməsinlər.

3563. Yüksək təhlükə mənbəyinin sahibi hansı halda həmin mənbənin vurduğu zərər üçün məsuliyyət daşımır?

Digər şəxslərin hüquqa zidd hərəkətləri nəticəsində mənbənin onun sahibliyindən çıxdığını sübuta yetirərsə.

3564. Yüksək təhlükə mənbəyinin sahibi digər şəxslərin hüquqa zidd hərəkətləri nəticəsində mənbənin onun sahibliyindən çıxdığını sübuta yetirərsə, belə hallarda yüksək təhlükə mənbəyinin vurduğu zərər üçün məsuliyyəti kim daşıyır?

Mənbəyə hüquqa zidd yiyələnmiş şəxslər

3565. Yüksək təhlükə mənbəyinin sahibi həmin mənbənin onun sahibliyindən hüquqa zidd götürülməsində təqsirli olduqda məsuliyyət kimin üzərinə qoyula bilər?

Həm mənbə sahibinin, həm də yüksək təhlükə mənbəyinə hüquqa zidd yiyələnmiş şəxsin üzərinə qoyula bilər.

3566. Yüksək təhlükə mənbələrinin sahibləri bu mənbələrin qarşılıqlı təsiri (nəqliyyat vasitələrinin toqquşması və i.a.) nəticəsində üçüncü şəxslərə dəymiş zərər üçün necə məsuliyyət daşıyırlar?

Mülki Məcəllənin 1108.1-ci maddəsində nəzərdə tutulan əsaslar üzrə məsuliyyət daşıyırlar, yəni ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyəti (nəqliyyat vasitələrindən, mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi və s.) nəticəsində mülki hüquq pozuntusu törətmiş fiziki və hüquqi şəxslər yüksək təhlükə mənbəyinin vurduğu zərərin əvəzini ödəməyə borcludurlar, bu şərtlə ki, zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirməsinlər. Zərərin əvəzini ödəmək vəzifəsi yüksək təhlükə mənbəyinə mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və i.a.) sahiblik edən fiziki və ya hüquqi şəxsin öhdəsinə qoyulur.

3567. Yüksək təhlükə mənbələrinin qarşılıqlı təsiri nəticəsində onların sahiblərinə dəymiş zərərin əvəzi hansı əsaslarla ödənilir?

Ümumi əsaslarla.

3568. Heyvanın nəzarət altında olduğu, itdiyi və ya qaçdığı hallarda sahibi öz heyvanının başqalarına vurduğu zərərin əvəzini ödəməyə borcludurmu?

Bəli (maddə 1110).

3569. Heyvanın sahibinə hansı halda zərərin əvəzinin ödənilməsi öhdəliyi tətbiq edilmir?

Əgər heyvanın sahibi üçüncü şəxslərin müdafiəsi üçün zəruri tədbirlər görmüşdürsə.

3570. Hansı halda binanın sahibi binanın tamamilə və ya ayrı-ayrı hissələrinin uçması nəticəsində əmələ gələn zərərin əvəzini ödəməyə borclu deyildir?

Zərərin binanın lazımınca saxlanmamasından və ya qüsurundan irəli gəlmədiyi hallarda (maddə 1111).

3571. Zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin təqsiri üzündən baş verdiyi hallar istisna olmaqla, zərər binadan nəyinsə atılması və ya düşməsi, yaxud axıdılması nəticəsində vurulmuşdursa, məsuliyyəti kim daşıyır?

Müvafiq otağı tutan şəxs daşıyır.

3572. Tibb müəssisəsində müalicə zamanı (cərrahiyyə əməliyyatı, yanlış diaqnoz və s. nəticəsində) şəxsin sağlamlığına zərər vurulduqda, zərərvuran hansa şərtlə məsuliyyətdən azad edilir?

Zərərin onun təqsiri üzündən baş vermədiyini sübuta yetirərsə (maddə 1112).

3573. Birlikdə mülki hüquq pozuntusu törətmiş şəxslər vurulmuş zərər üçün zərərçəkən qarşısında necə məsuliyyət daşıyırlar?

Birgə məsuliyyət daşıyırlar (maddə 1113).

3574. Hansı əsasla məhkəmə zərəri birlikdə vurmuş şəxslərin üzərinə məsuliyyəti hissələr şəklində qoya bilər?

Zərərçəkənin ərizəsi ilə və onun mənafeləri üçün.

3575. Başqa şəxsin (qulluq, mənsəb və ya əmək vəzifələrinin icrası zamanı işçinin, nəqliyyat vasitəsini idarə edən şəxsin və i.a.) vurduğu zərərin əvəzini ödəmiş şəxsin həmin şəxsə hansı hüququ vardır?

Əgər qanunla ayrı miqdar müəyyənləşdirilməyibsə, ödənilmiş əvəz miqdarında geriyə tələb (reqres) (maddə 1114).

3576. Birlikdə vurulmuş zərərin əvəzini ödəmiş zərərvuran digər zərərvuranların hər birindən zərərçəkənə ödədiyi əvəzin hansı hissəsini tələb edə bilər?

Həmin zərərvuranın təqsirinin dərəcəsinə uyğun məbləğdə

3577. Birlikdə vurulmuş zərərin əvəzi ilə bağlı olaraq, zərərvuranların təqsir dərəcələrini müəyyənləşdirmək mümkün olmadıqda hissələr necə sayılır?

Bərabər

3578. Təhqiqat, ibtidai istintaq, prokurorluq və ya məhkəmə orqanları vəzifəli şəxsinin vurduğu zərərin əvəzinin ödənildiyi halda, əgər onun təqsiri məh-

kəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyənləşdirilmişdirsə, həmin şəxsə reqres hüququ vardır?

Azərbaycan Respublikasının həmin şəxsə reqres hüququ vardır.

3579. Hansı əsaslar üzrə zərərin əvəzini ödəmiş şəxslərin zərərvurmuş şəxsə reqres hüququ yoxdur?

Mülki Məcəllənin 1103-1105-ci maddələrində göstərilmiş əsaslar üzrə (on dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət, on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət, fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət).

3580. Zərərin əvəzinin ödənilməsi tələbini təmin edərkən məhkəmə zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsin üzərinə hansı öhdəliyi qoyur?

İşin hallarına uyğun olaraq zərərin əvəzini naturada ödəmək (eyni növlü və keyfiyyətli əmlak vermək, zədələnmiş əmlakı düzəltmək və i.a.) və ya vurulmuş zərərin əvəzini ödəmək öhdəliyini (maddə 1115).

60-cı FƏSİL
Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsinə dair suallar və cavablar

3581. Müqavilə öhdəliklərinin icrası zamanı, habelə hərbi qulluq, polisdə qulluq vəzifələrinin və digər müvafiq vəzifələrin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzi, əgər qanunda və ya müqavilədə daha yüksək məsuliyyət ölçüsü nəzərdə tutulmayıbsa, Mülki Məcəllənin hansı fəslində nəzərdə tutulmuş qaydalar üzrə ödənilir?

Fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi (maddə 1117)

3582. Fiziki şəxsə xəsarət yetirilərkən və ya onun sağlamlığı başqa şəkildə pozularkən zərərçəkənin malik olduğu, yaxud yəqin ki, malik ola biləcəyi və itirdiyi qazancın (gəlirin), habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi hansı şərtlə ödənilir?

Bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin (maddə 1118).

3583. İtirilmiş qazanc (gəlir) müəyyənləşdirilərkən nə cür ödənişlər nəzərə alınmır və zərərin əvəzinin ödənilməsi miqdarının azaldılmasına səbəb olmur (zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir)?

Zərərçəkənə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə pozulması ilə əlaqədar təyin edilmiş əlilliyə görə pensiya, eləcə də həm sağlamlığına zərər vurulanadək, həm də zərər vurulduqdan sonra təyin edilmiş digər pensiyalar, müavinətlər və digər bu cür ödənişlər və zərərçəkənin sağlamlığı pozulduqdan sonra əldə etdiyi qazanc (gəlir) da zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.

3584. Mülki Məcəllənin 1118-ci maddəsinə (sağlamlığı pozmaqla vurulmuş zərərin əvəzinin ödənilməsi həcmi və xarakteri) uyğun olaraq zərərçəkənə ödənilməli zərərin əvəzinin həcmi və miqdarı hansı qaydada artırıla bilər?

Qanunla və ya müqavilə ilə.

3585. Zərərçəkənin itirdiyi və əvəzi ödənilməli qazancının (gəlirinin) miqdarı necə müəyyənləşdirilir?

Onun xəsarətdən və ya sağlamlığının başqa şəkildə pozulmasından və ya əmək qabiliyyətini itirməsindən əvvəlki orta aylıq qazancından (gəlirindən) faizlər şəklində. Bu faizlər zərərçəkənin professional əmək qabiliyyətini itirməsi dərəcəsinə, professional əmək qabiliyyəti olmadıqda isə ümumi əmək qabiliyyətini itirməsi dərəcəsinə uyğun gəlməlidir (maddə 1119).

3586. Zərərçəkənin itirdiyi qazancın (gəlirin) tərkibinə nələr daxil edilir?

Onun həm əsas iş yerində, həm də əvəzçilik üzrə əmək və mülki hüquq müqavilələri əsasında əməyinin ödənilməsinin gəlir vergisi tutulan bütün növləri. Sahibkar-

lıq fəaliyyətindən götürülən gəlir, habelə müəllif qonorarı itirilmiş qazancın tərkibinə daxil edilir, bu zaman sahibkarlıq fəaliyyətindən götürülən gəlir müvafiq icra hakimiyyəti orqanının məlumatına əsasən daxil edilir. Qazancın (gəlirin) bütün növləri vergilər tutulanadək hesablanmış məbləğlərdə nəzərə alınır.

3587. Zərərçəkənin itirdiyi qazancı (gəliri) müəyyən edilən zaman nələr nəzərə alınmır?

Birdəfəlik xarakterli ödənclər, o cümlədən istifadə edilməmiş məzuniyyətə görə kompensasiya və işdən azad edilərkən işdənçıxma müavinəti nəzərə alınmır.

3588. Zərərçəkənin itirdiyi qazancı (gəliri) müəyyən edilən zaman nələr nəzərə alınır?

Müvəqqəti əmək iqtidarsızlığı və ya hamiləliyə və doğuşa görə məzuniyyət dövrü üçün ödənilmiş müavinət nəzərə alınır.

3589. Zərərçəkənin orta aylıq qazancı (gəliri) necə hesablanır?

Onun sağlamlığının pozulmasından əvvəlki on iki aylıq qazancının (gəlirinin) ümumi məbləğinin on ikiyə bölünməsi yolu ilə

3590. Zərər vurulanadək zərərçəkənin on iki aydan az işləmiş olduğu halda orta aylıq qazanc (gəlir) necə hesablanır?

Sağlamlığın pozulmasından əvvəlki faktik işlənilmiş aylar üçün qazancın (gəlirin) ümumi məbləğinin həmin ayların sayına bölünməsi yolu ilə

3591. Zərərçəkənin tam işləmədiyi aylar necə hesablanır?

Onun arzusu ilə tam işlənilmiş əvvəlki aylarla əvəz edilir və ya əvəz etmək mümkün olmadıqda hesabdan çıxarılır.

3592. Zərərin vurulduğu an zərərçəkənin işləmədiyi halda itirilmiş qazancın (gəlirin) müəyyənləşdirilməsi zamanı hansı qazanc nəzərə alınır?

Öz arzusu ilə onun işdən azad edilənədək əldə etdiyi qazanc və ya həmin ərazidə onun ixtisasından olan işçiyə verilən muzdun adi miqdarı altı manatdan az olmamaqla.

3593. Əgər xəsarət yetirilənədək və ya sağlamlığı başqa şəkildə pozulanadək zərərçəkənin qazancında (gəlirində) onun əmlak vəziyyətini yaxşılaşdıran sabit dəyişikliklər baş vermişdirsə (tutduğu vəzifə üzrə əmək haqqı artırılmışdırsa, daha yüksək maaşlı işə keçirilmişdirsə, əyani təhsil aldığı təhsil müəssisəsini bitirdikdən sonra işə girmişdirsə və zərərçəkənin əməyinin ödənilməsində dəyişikliyin və ya dəyişiklik imkanının sabitliyinin sübuta yetirildiyi başqa hallarda), onun orta aylıq qazancı (gəliri) müəyyənləşdirilərkən hansı qazanc nəzərə alınır?

Yalnız müvafiq dəyişiklikdən sonra aldığı və ya almalı olduğu qazanc (gəlir)

3594. On dörd yaşı tamam olmamış və qazancı (gəliri) olmayan yetkinlik yaşına çatmayana (azyaşlıya) xəsarət yetirildikdə və ya onun sağlamlığı başqa şəkildə pozulduqda kim sağlamlığın pozulması ilə bağlı çəkilən xərclərin əvəzini ödəməlidir?

Zərərin vurulması üçün məsuliyyət daşıyan şəxs (maddə 1120).

3595. Zərərçəkən azyaşlı on dörd yaşına çatdıqda, habelə qazancı (gəliri) olmayan on dörd yaşından on səkkiz yaşınadək yetkinlik yaşına çatmayana zərər vurulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxs zərərçəkənə sağlamlığın pozulması ilə bağlı xərclərdən əlavə ödəməyə borcludur?

Əmək qabiliyyətinin itirilməsi və ya azalması ilə bağlı zərərin əvəzini də, lakin altı manatdan az olmamaqla.

3596. Əgər yetkinlik yaşına çatmayanın sağlamlığı pozularkən onun qazancı olmuşdursa, zərərin əvəzi necə ödənilir?

Zərərin əvəzi bu qazancın miqdarı əsas götürülməklə, lakin altı manatdan az olmamaqla.

3597. Əvvəllər sağlamlığına zərər vurulmuş yetkinlik yaşına çatmayanın əmək fəaliyyətinə başladıqdan sonra hansı tələb hüququ vardır?

Əldə etdiyi qazanc əsas götürülməklə, lakin tutduğu vəzifə üzrə müəyyənləşdirilmiş muzdun və ya iş yeri üzrə eyni ixtisaslı işçinin qazancının miqdarından çox olmamaqla, zərərin əvəzinin ödənilməsi miqdarının artırılmasını tələb etmək.

3598. Zərərçəkənin (ailə başçısının) öldüyü halda kimlərin zərərin əvəzinin ödənilməsi hüququ vardır?

- Ölənin himayəsində olmuş və ya onun öldüyü günədək ondan dolanacaq təminatı almaq hüququna malik olmuş əmək qabiliyyəti olmayan şəxslər;
- öəxsin ölümündən sonra doğulmuş uşağı;
- ölənin himayəsində olmuş və onun on dörd yaşına çatmamış, yaxud bu yaşa çatsa da, tibb orqanlarının rəyinə əsasən sağlamlıq vəziyyətinə görə başqasının qulluğuna möhtac olan uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və işləməyən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü - əmək qabiliyyətindən asılı olmayaraq;
- ölənin himayəsində olmuş və onun ölümündən sonra beş ilə ərzində əmək qabiliyyətini itirmiş şəxslər (maddə 1121).

3599. İşləməyən və ölənin uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və qulluq etdiyi dövrdə əmək qabiliyyətini itirən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü zərərin əvəzinin ödənilməsi hüququnu həmin şəxslərə qulluq qurtardıqdan sonra itirirmi?

Xeyr.

3600. Ailə başçısının ölümü nəticəsində zərərin əvəzi kimlərə ödənilir?

- Yetkinlik yaşına çatmayanlara - on səkkiz yaşına çatanadək;
- on səkkiz yaşından yuxarı tələbələrə - əyani təhsil forması üzrə təhsil müəssisələrində təhsili bitirənədək, lakin ən çoxu iyirmi üç yaşınadək;
- əlli beş yaşından yuxarı qadınlara və altmış beş yaşından yuxarı kişilərə - ömürlük;
- əlilliyi olan şəxslərə - əlillik müddəti üçün;
- ölənin himayəsində olmuş uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan valideynlərdən birinə, arvada (ərə) və ya digər ailə üzvünə
- qulluq etdikləri on dörd yaşına çatanadək.

3601. Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan şəxslərə zərərin əvəzi ölənin Mülki Məcəllənin 1119-cu maddəsinin (Sağlamlığın pozulması nəticəsində itirilmiş qazancın (gəlirin) müəyyənləşdirilməsi) qaydalarına əsasən müəyyənləşdirilmiş qazancının (gəlirinin) hansı hissəsi miqdarında ödənilir?

Həmin hissəni onlar ölənin sağlığında öz dolanacaqları üçün alırdılar və ya almaq hüququna malik idilər (maddə 1122).

3602. Ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan şəxslərə ödənilən zərərin əvəzi müəyyənləşdirilərkən ölənin gəlirinin tərkibinə qazanc (gəlir) ilə yanaşı hansı ödənclər də daxil edilir?

Onun sağlığında aldığı pensiya və digər bu cür ödənclər

3603. Zərərin əvəzinin ödənilməsi miqdarı müəyyənləşdirilərkən hansı növ gəlirlər onlara zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir?

Ailə başçısının ölümü ilə əlaqədar şəxslərə təyin edilmiş pensiyalar və həm ailə başçısı ölməzdən əvvəl, həm də öldükdən sonra təyin edilmiş digər növ pensiyalar, habelə həmin şəxslərin götürdükləri qazanc (gəlir) və aldıqları təqaüd

3604. Ailə başçısının ölümü ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan hər kəsə təyin edilmiş əvəz miqdarı, hansı hallar istisna olmaqla, sonralar yenidən hesablanmamalıdır?

- Ailə başçısı öldükdən sonra uşaq doğulması;
- ölmüş ailə başçısının uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan şəxslərə əvəz ödənişi təyin edilməsi və ya əvəz ödənilməsinə xitam verilməsi.

3605. Əvəz miqdarı hansı qaydada artırıla bilər?

Qanunla və ya müqavilə ilə

3606. Əmək qabiliyyətini qismən itirmiş zərərçəkənin sağlamlığının pozulması ilə əlaqədar əmək qabiliyyəti sonralar zərərin əvəzinin təyin edildiyi məqamdakına nisbətən azaldıqda o, zərərin əvəzinin ödənilməsi vəzifəsinin həvalə olunduğu şəxsdən əvəz miqdarının müvafiq surətdə artırılmasını nə vaxt tələb edə bilər?

İstənilən vaxt (maddə 1123).

3607. Hansı halda zərərçəkənin sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək vəzifəsinin həvalə olunduğu şəxs əvəz miqdarının müvafiq surətdə azaldılmasını tələb edə bilər?

Əgər zərərçəkənin əmək qabiliyyəti zərərin əvəzinin təyin edildiyi məqamdakına nisbətən artarsa.

3608. Hansı halda zərərçəkən zərərin əvəzinin ödənilməsi miqdarının artırılmasını tələb edə bilər?

Əgər zərərin əvəzini ödəmək vəzifəsinin həvalə olunduğu fiziki şəxsin əmlak vəziyyəti yaxşılaşmışsa, əvəz miqdarı isə Mülki Məcəllənin 1116.3-cü maddəsinə uyğun azaldılmışdırsa

3609. Hansı hallarda zərər vurmuş fiziki şəxsin tələbi ilə məhkəmə, zərərin qəsdən törədilmiş hərəkətlərlə vurulduğu hallar istisna olmaqla, zərərin əvəzinin ödənilməsi miqdarını azalda bilər?

Əgər zərər vurmuş fiziki şəxsin əmlak vəziyyəti əlilliklə və ya pensiya yaşına çatmaqla əlaqədar olaraq zərərin əvəzinin ödənilməsinin təyin edildiyi məqamdakı vəziyyətə nisbətən pisləşmişdirsə.

3610. Hansı halda zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi miqdarı qanunla müəyyənləşdirilmiş qaydada indeksləşdirilməlidir?

Dolanacaq xərcləri artdıqda (maddə 1124).

3611. Yaşayış minimumu artırıldığı halda itirilmiş qazancın (gəlirin), zərərçəkənin sağlamlığının pozulması və ya ölümü ilə əlaqədar təyin edilmiş digər ödənişlərin əvəzinin ödənilməsi miqdarı nəyə mütənasib surətdə artırılır?

Yaşayış minimumunun artımına

3612. Zərərçəkənin əmək qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi necə ödənilir?

Aylıq ödənişlər yolu ilə (maddə 1125).

3613. Üzrlü səbəblər varsa, məhkəmə zərərin əvəzinin ödənilməsinə hüququ olan fiziki şəxsin tələbi ilə ona çatası ödənişləri necə təyin edə bilər?

Zərərvuranın imkanlarını nəzərə almaqla, bir dəfəliyə, lakin ən çoxu üç illiyə.

3614. Əlavə xərclərin ödənilməsi məbləğləri hansı zərurət olduqda tibb ekspertizasının rəyinə əsasən müəyyənləşdirilən müddətlər daxilində gələcək zaman üçün də təyin edilə bilər?

Putyovkaların alınması, gediş haqqının, xüsusi nəqliyyat vasitələri haqqının ödənilməsi də daxil olmaqla, müvafiq xidmətlərin və əmlakın dəyərinin qabaqcadan ödənilməsi zərurəti olduqda

3615. Həyata və ya sağlamlığa zərər vurulması üçün məsuliyyəti müəyyənləşdirilmiş qaydada təsdiq edilən hüquqi şəxsin yenidən təşkil edildiyi halda müvafiq ödənişləri icra etmək vəzifəsini kim daşıyır və zərərin əvəzinin ödənilməsi tələbləri də ona qarşı irəli sürülür?

Hüquqi şəxsin hüquq varisi , zərərin əvəzinin ödənilməsi tələbləri də ona qarşı irəli sürülür (maddə 1126)

3616. Həyata və ya sağlamlığa vurulmuş zərər üçün məsuliyyəti müəyyənləşdirilmiş qaydada təsdiq edilən hüquqi şəxsin ləğv olunduğu halda müvafiq ödənişlər zərərçəkənə verilmək üçün hansı hallar müəyyənləşdirilə bilər?

Qanunvericiliklə müəyyənləşdirilmiş qaydalara uyğun kapitallaşdırılmalıdır. Qanunvericiliklə ödənişlərin kapitallaşdırıla bildiyi başqa hallar da müəyyənləşdirilə bilər.

3617. Zərəçəkənin ölümü nəticəsində dəyən zərər üçün məsuliyyət daşıyan şəxslər dəfn xərclərini çəkmiş şəxsə həmin xərclərin əvəzini ödəməlidirlər. Hansı ödəniş zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir?

Bu xərcləri çəkmiş fiziki şəxsin dəfn üçün aldığı müavinət zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir (maddə 1127).

61-ci FƏSİL
Malın, işin və ya xidmətin qüsurları nəticəsində dəyən zərərin əvəzinin ödənilməsinə dair suallar və cavablar

3618. Malın, işin və ya xidmətin konstruksiya, resept və ya digər qüsurları (keyfiyyətsiz məhsul) nəticəsində, habelə mala (işə, xidmətə) dair yanlış və ya yarımçıq informasiya nəticəsində fiziki şəxsin həyatına, sağlamlığına və ya əmlakına dəyən zərərin əvəzini kimlər ödəməlidirlər?

Malın satıcısı və ya istehsalçısı, işi görmüş və ya xidməti göstərmiş şəxs (icraçı), təqsirli olub-olmadığına və zərərçəkənin onlar ilə müqavilə münasibətlərində olub-olmadığına baxmayaraq dəyən zərərin əvəzini ödəməlidirlər (maddə 128).

3619. Malın, işin və ya xidmətin konstruksiya, resept və ya digər qüsurları (keyfiyyətsiz məhsul) nəticəsində, habelə mala (işə, xidmətə) dair yanlış və ya yarımçıq informasiya nəticəsində fiziki şəxsin həyatına, sağlamlığına və ya əmlakına dəyən zərərin əvəzini malın satıcısı və ya istehsalçısı, işi görmüş və ya xidməti göstərmiş şəxs (icraçı), təqsirli olub-olmadığına və zərərçəkənin onlar ilə müqavilə münasibətlərində olub-olmadığına baxmayaraq dəyən zərərin əvəzini ödəməlidirlər. Malın, işin və ya xidmətin qüsurları nəticəsində əmlaka zərər vurulan hallarda bu qayda yalnız hansı şərtlə tətbiq edilir?

Keyfiyyətsiz məhsul digər əmlaka zərər vurmuş və həmin digər əmlak öz təyinatına görə əsasən istehlak məqsədi üçün istifadə edilmiş olsun

3620. Hansı halda məhsul keyfiyyətsiz məhsul sayılır?

Əgər məhsul bütün hallar nəzərə alınmaqla ondan gözlənilən etibarlılığı təmin etmirsə.

3621. Məhsul yalnız hansı halda keyfiyyətsiz sayılmır?

Sonradan dövriyyəyə daha yaxşı məhsulun daxil edilməsi nəticəsində.

3621. Mülki Məcəlləyə görə nələr məhsul sayılır?

İstənilən daşınar əşya digər daşınar və ya daşınmaz əşyanın bir hissəsi olduqda da, habelə elektrik cərəyanı.

3623. Əkinçilik nəticəsində əldə edilmiş və hələ emal olunmamış kənd təsərrüfatı məhsulları, heyvandarlıq, arıçılıq və balıqçılıq məhsulları (natural kənd təsərrüfatı məhsulları) məhsullara aid edilmir. Hansı üsulla əldə edilmiş məhsullar barəsində də eyni qayda tətbiq edilir?

Ov yolu ilə əldə edilmiş məhsullar

3624. Mülki Məcəlləyə görə kimlər istehsalçı sayılır?

Son məhsulu, məhsulun əsas ünsürünü və ya hissəsini istehsal etmiş şəxs. Öz adından, əmtəə nişanı ilə və ya digər fərqləndirici nişanla istehsalçı kimi çıxış edənlərin hamısı istehsalçı sayılırlar.

3625. Əgər istehsalçını müəyyənləşdirmək mümkün deyildirsə, hansı şəxs istehsalçı sayılır?

Hər hansı məhsul göndərən (bu barədə tələb verildikdən sonra bir ay ərzində onun istehsalçı barəsində zərərçəkənə məlumat verdiyi hallar istisna olmaqla) və ya ona bu məhsulu göndərmiş şəxs.

3626. Əgər istehsalçını müəyyənləşdirmək mümkün deyildirsə, hər hansı məhsul göndərən (bu barədə tələb verildikdən sonra bir ay ərzində onun istehsalçı barəsində zərərçəkənə məlumat verdiyi hallar istisna olmaqla) və ya ona bu məhsulu göndərmiş şəxs istehsalçı sayılır. Hansı idxal malına da bu qayda tətbiq edilir?

İstehsalçının adı məlum olsa da, məhsulu ilk satanın kim olduğunu müəyyənləşdirmək mümkün olmadıqda.

3627. Malın qüsurları nəticəsində vurulmuş zərərin əvəzini kim ödəməlidir?

Zərərçəkənin seçimi üzrə məhsulun satıcısı və ya istehsalçısı (maddə 1129).

3628. İşin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərərin əvəzini kim ödəməlidir?

İşi görmüş və ya xidməti göstərmiş şəxs (icraçı)

3629. Mal (iş, xidmət) haqqında tam və ya düzgün informasiya verilməməsi nəticəsində vurulmuş zərərin əvəzini kimlər ödəməlidirlər?

Mülki Məcəllənin 1129.1-ci (zərərçəkənin seçimi üzrə məhsulun satıcısı və ya istehsalçısı) və 1129.2-ci (işi görmüş və ya xidməti göstərmiş şəxs (icraçı) maddələrində göstərilmiş şəxslər.

3630. Keyfiyyətsiz məhsul nəticəsində vurulmuş zərəri məhsulun satıcısı ödədiyi halda hansı müddəalar tətbiq edilir?

Mülki Məcəllənin 1114.2-ci maddəsinin müddəaları (Birlikdə vurulmuş zərərin əvəzini ödəmiş zərərvuran digər zərərvuranların hər birindən zərərçəkənə ödədiyi əvəzin həmin zərərvuranın təqsirinin dərəcəsinə uyğun məbləğdə hissəsini tələb edə bilər. Təqsirin dərəcəsini müəyyənləşdirmək mümkün olmadıqda hissələr bərabər sayılır).

3631. Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulan zərərin əvəzi hansı halda ödənilməlidir?

Əgər zərər malın (işin, xidmətin) müəyyənləşdirilmiş yararlılıq müddəti ərzində əmələ gəlmişdirsə, ödənilməli, yararlılıq müddətinin müəyyənləşdirilmədiyi halda isə malın (işin, xidmətin) istehsal edildiyi gündən on il ərzində əmələ gəlmişdirsə (maddə 1130).

3632. Malın satıcısı və ya istehsalçısı hansı halda məsuliyyətdən azad edilir?

İşin və ya xidmətin icraçısı zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya istehlakçının maldan, işin, xidmətin nəticələrindən istifadə və onları saxlama qaydalarını pozması nəticəsində əmələ gəldiyini sübuta yetirərsə (maddə 1131).

3633. Malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərər üçün məsuliyyət halında sübutetmə yükü kimin öhdəsinə qoyulur?

Zərərçəkənin

62-ci FƏSİL
Vərəsəlik hüququnun ümumi müddəalarına dair suallar və cavablar

3634. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) hansı əsasla keçir?

Qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla (maddə 1133).

3635. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) nə zaman qüvvədə olur?

Miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

3636. Qanun üzrə vərəsəlik zamanı vərəsələr kimlər ola bilərlər?

Miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları (maddə 1134).

3637. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr kimlər ola bilərlər?

Miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq ola bilərlər.

3638. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsəliyə hansı hüquqi şəxslər çağırılırlar?

Mirasın açıldığı vaxtadək təşkil edilmiş hüquqi şəxslər (maddə 1135)

3639. Nikahdankənar uşaq hansı halda atasının vərəsəsi sayılır?

Atalıq qanunda nəzərdə tutulmuş qaydada müəyyənləşdirilmiş olsun (maddə 1136).

3640. Əgər nikahdankənar uşaq atasından əvvəl ölərsə, onun uşaqları atalarına çatası mirasdan pay tələb edə bilərlərmi?

Bəli.

3641. Kim nə qanun, nə də vəsiyyət üzrə vərəsə ola bilməz?

Miras qoyanın son iradəsini həyata keçirməsinə qəsdən maneə törətmiş və bununla da özünün və ya özünə yaxın şəxslərin vərəsəliyə çağırılmasına və ya miras paylarının artırılmasına kömək göstərmiş, yaxud vəsiyyət edənin vəsiyyətnamədə ifadə edilmiş son iradəsinə qarşı qəsdən cinayət və ya digər əxlaqsız hərəkət törətmiş şəxs nə qanun üzrə,nə də vəsiyyət üzrə vərəsə ola bilməz (ləyaqətsiz vərəsə), bu şərtlə ki, həmin hallar məhkəmə tərəfindən təsdiq edilsin (maddə 1137).

3642. Hansı halda valideynlər uşaqlarının qanun üzrə vərəsələri ola bilməzlər?

Valideynlik hüquqlarından məhrum edilmiş və mirasın açıldığı günədək bu hüquqları bərpa edilməmiş valideynlər (maddə 1138)

3643. Miras qoyanın saxlanması üzrə öhdələrinə qoyulmuş vəzifələrdən qəti surətdə boyun qaçıran şəxslər hansı halda qanun üzrə vərəsə ola bilməzlər?

Miras qoyanın saxlanması üzrə öhdələrinə qoyulmuş vəzifələrdən qəti surətdə boyun qaçıran şəxslər qanun üzrə vərəsə ola bilməzlər, bir şərtlə ki, bu hal məhkəmə tərəfindən təsdiq edilsin.

3644. Ləyaqətsiz vərəsənin vərəsəlik hüququndan məhrum edilməsinə əsas verən hal kimin iddiası üzrə məhkəmə tərəfindən müəyyənləşdirilməlidir?

Ləyaqətsiz vərəsənin vərəsəlik hüququndan məhrum edilməsindən müəyyən əmlak nəticələri əldə edən şəxsin iddiası üzrə (maddə 1139).

3645. Hansı halda vərəsəlik hüququnun itirilməsinə səbəb olan hərəkətlər törətmiş şəxs bu hərəkətlərinə baxmayaraq vərəsəliyə buraxılır?

Əgər miras qoyan vərəsəlik hüququnun itirilməsinə səbəb olan hərəkətlər törətdiyinin üstü açılmış şəxsi bağışlayarsa və bu qərarını vəsiyyətnamədə aydın şəkildə ifadə edərsə (maddə 1140)

3646. Bağışlamanın geri götürülməsinə yol verilirmi?

Xeyr.

3647. Vərəsəlik hüququndan məhrum edilmə vərəsəlik hüququndan məhrum edilmiş həmin şəxsin başqa miras qoyanın əmlakının vərəsəsi olmasına maneçilik törədirmi?

Törətmir (maddə 1141).

3648. Əgər şəxs mirası aldıqdan sonra məhkəmə tərəfindən ləyaqətsiz vərəsə sayılarsa, ləyaqətsiz vərəsə nələri qaytarmağa borcludur?

Vərəsəlik üzrə aldıqlarının hamısını bəhərlər və gəlirlər ilə birlikdə qaytarmağa (maddə 1142)

3649. Şəxsin ləyaqətsiz vərəsə sayılması barəsində iddianı maraqlı şəxslər hansı müddətə irəli sürməlidirlər?

Həmin şəxsin mirasa sahibliyə başladığı andan beş il ərzində (maddə 1143)

3650. Vərəsəlik hüququndan məhrum edilmiş şəxsin payı hansı qaydada bölüşdürülür?

Vərəsəliyə çağırılmış qalan vərəsələrə keçir və onların arasında paylarına mütənasib surətdə bölüşdürülür (maddə 1144).

3651. Miras nə zaman açılır?

Fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə (maddə 1145)

3652. Hansı gün mirasın açıldığı vaxt sayılır?

Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün (maddə 1146).

3653. Hara mirasın açıldığı yer sayılır?

Miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer (maddə 1147)

3654. Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer hansı yer sayılır?

Daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer

3655. Müvəqqəti xaricdə yaşamış və orada ölmüş Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer hara sayılır?

Onun xaricə getməzdən əvvəl Azərbaycan Respublikasında yaşadığı yer, bu yer məlum olmadıqda isə mirasın və ya onun əsas hissəsinin olduğu yer sayılır (maddə 1148).

3656. Xaricdə daimi yaşamış Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer hara sayılır?

Onun yaşadığı ölkə (maddə 1149)

3657. Azərbaycan Respublikasında yaşamış Azərbaycan Respublikası vətəndaşı xarici dövlətdə mirası hansı qanunvericiliyə uyğun alır?

Həmin dövlətin qanunvericiliyinə uyğun (maddə 1150)

3658. Mirasa (miras əmlaka) nələr daxildir?

Miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrinin (miras passivi) toplusu (maddə 1151).

3659. Ümumi mülkiyyətdə olan mirasa nələr daxildir?

Ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri

3660. Miras qoyan vəsiyyətnamənin tərtib edildiyi vaxt onda olmayan əmlakı vəsiyyətnamədə hansı halda nəzərdə tuta bilər?

Mirasın açılacağı vaxtadək bu əmlak onun mülkiyyəti olsun (maddə 1152) .

3661 Mirasın tərkibinə nələr daxil deyildir?

Şəxsi xarakter daşıyan və yalnız miras qoyana mənsub ola bilən əmlak hüquqları və vəzifələr, habelə qanunda və ya müqavilədə nəzərdə tutulan, yalnız kreditorun və borclunun sağlığında qüvvədə olan və onların ölümü ilə xitam verilən hüquq və vəzifələr (maddə 1153).

3662. Miras qoyanın mirasa daxil olmayan qeyri-əmlak hüquqlarını vərəsələr qanunda nəzərdə tutulan qaydada həyata keçirə və müdafiə edə bilərlərmi?

Bəli (maddə 1154).

3663. Hansı predmetlər mirasa daxil deyildir, vərəsələr arasında bölüşdürülmür, bərqərar olmuş adətə görə vərəsənin mülkiyyətinə verilir?

Ailə dəftər-kitabları (və ya yazıları), ailə xronikaları, xatirə və digər ayin predmetləri və qəbirlər (maddə 1155).

3664. Miras qoyanın şəxsiyyətinə, ailəsinə və ya bütün mirasa aid sənədlər necə müəyyən olunur?

Ümumi əmlak kimi qalır.

3665. Əgər vəsiyyət edən vəsiyyətnaməni tərtib etdikdən sonra vəsiyyətnamədə nəzərdə tutulan daşınmaz əmlakı həmin əmlakla əlaqədar əmlakı əldə etmək yolu ilə artırarsa, hansı halda bu əmlak mirasa daxil olmur?

Vəsiyyətnamə tərtib edildikdən sonra əldə edilmiş əmlaka dair yeni sərəncam verilmədikdə (maddə 1156).

3666. Əgər bir neçə vərəsə vardırsa, miras vərəsələr arasında bölüşdürülənədək vahid əmlak şəklində miras kimə mənsubdur?

Bütün vərəsələrə (maddə 1157)

3667. Hansı tələblər mirasın dəyərindən, həm də bütün başqa tələblərə, o cümlədən ipoteka və digər girovla təmin edilmiş tələblərə nisbətən üstün qaydada ödənilməlidir?

Sonuncu xəstəliyi zamanı miras qoyana qulluq və onun müalicəsi, dəfn, mirasın mühafizəsi və idarə edilməsi, əmək haqqı verilməsi və vəsiyyətin icrası üçün görülən işlərin ödənilməsinə dair tələblər.

3668. Miras şərikləri mirasın bölüşdürülməsinə qədər onu necə idarə edirlər?

Birgə (maddə 1157-1)

3669. İdarəçiliklə bağlı qərarlar vərəsələr tərəfindən onların miras paylarına mütənasib surətdə hansı səs çoxluğu ilə qəbul edilir?

Sadə

3670. Mirasın mühafizəsi (qorunması) ilə bağlı tədbirləri hər bir vərəsə digər miras şəriklərinin razılığı olmadan da həyata keçirə bilərmi?

Bəli.

3671. Mirasın idarə edilməsi ilə bağlı xərcləri vərəsələr hansı nisbətdə çəkirlər?

Vərəsələr özlərinin miras paylarına mütənasib surətdə

3672. Əgər vəsiyyət edən vərəsə üçün əşyanı yanlış qoymuşdursa, həmin əşyanın mülkiyyətçisi əşyanı hansı qaydada tələb edə bilər?

Ümumi qaydada (maddə 1158).

3673. Əgər ölənin əmlakında başqa şəxsin əmlakı gizli şəkildə mövcuddursa, bu münasibət necə tənzimlənməlidir?

Əmlakın bu hissəsi aşkar edilməli və müvafiq şəxsə verilməlidir.

63-cü FƏSİL
Qanun üzrə vərəsəlik üzrə hüquq münasibətlərinə dair suallar və cavablar

3674. Qanun üzrə vərəsəlik zamanı hansılar birinci növbədə bərabər pay hüquqlu vərəsələr sayılırlar?

Ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) (maddə 1159).

3675. Övladlığa götürülən və onun övladları qanun üzrə vərəsəlik zamanı hansı statusa malikdirlər?

Onlar övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar.

3676. Qanun üzrə vərəsəlik zamanı birinci növbədə duran vərəsələrin nəvələri, nəticələri və uşaqları hansı halda qanun üzrə vərəsə sayılırlar və hansı nsibətdə pay alırlar?

O halda ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsələri olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası paydan bərabər miras alırlar.

3677. Birinci növbədə duran vərəsələrin nəvələri, nəticələri və uşaqları, hansı halda vərəsə ola bilməzlər?

Əgər onların valideynləri mirasın qəbulundan imtina etmişlərsə.

3678. Övladlığa götürən və onun qohumları övladlığa götürülənin və onun övladlarına münasibətdə hansı statusa malikdirlər?

Ovladlığa götürən və onun qohumları övladlığa götürülənin və onun övladlarının vərəsələri kimi övladlığa götürülənin valideynlərinə və digər qan qohumlarına bərabər tutulurlar.

3679. Nə zaman övladlığa götürülənin valideynlərinə, onun yüksələn xətt üzrə digər qan qohumlarına, bacı və qardaşlarına qanun üzrə vərəsəlik hüququ mənsub olmur?

Övladlığa götürülən və ya onun övladları öldükdən sonra

3680. Qanun üzrə vərəsəlik zamanı hansılar ikinci növbədə bərabər pay hüquqlu vərəsələr sayılırlar?

İkinci növbədə - ölənin bacıları və qardaşları.

3681. Hansı halda miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları qanun üzrə vərəsə sayılırlar və hansı nisbətdə pay alırlar?

O halda ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası miras payından bərabər olaraq miras alırlar.

3682. Qanun üzrə vərəsəlik zamanı hansılar üçüncü növbədə bərabər pay hüquqlu vərəsələr sayılırlar?

Üçüncü növbədə - həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası.

3683. Nənənin anası və atası, babanın anası və atası hansı halda qanun üzrə vərəsə sayılırlar?

Mirasın açıldığı vaxt nənə və baba sağ olmadıqda.

3684. Qanun üzrə vərəsəlik zamanı hansılar dördüncü növbədə bərabər pay hüquqlu vərəsələr sayılırlar?

Dördüncü növbədə - xalalar və bibilər, dayılar və əmilər.

3685. Qanun üzrə vərəsəlik zamanı hansılar beşinci növbədə bərabər pay hüquqlu vərəsələr sayılırlar?

Beşinci növbədə - xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları

3686. Qanun üzrə vərəsəlikdə sonrakı növbənin vərəsəliyi hansı halda istisna edilir?

Əvvəlki növbənin vərəsələrindən, heç olmasa biri mövcuddursa (maddə 1160).

3687. Kimlər adları vəsiyyətnamədə çəkilmədiyi təqdirdə mirasdan dolanacaq təminatı (alimentlər) tələb edə bilərlər?

Miras qoyanın himayəsində olmuş və özlərini müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxslər (maddə 1161).

3688. Sağ qalan arvadın (ərin) vərəsəlik hüququ ər-arvadın birgə mülkiyyətindən hansı əmlaka aid deyildir?

Ər-arvadın birgə mülkiyyətindən ona çatası əmlak hissəsinə aid deyildir (maddə 1162).

3689. Boşanmış ər-arvadın vərəsəlik zamanı vəziyyəti necə olur?

Nikahı ləğv etmiş ər-arvad bir-birindən vərəsə ola bilməzlər (maddə 1163).

3690. Məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan nə zaman məhrum edilə bilər?

Arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə (maddə 1164)

3691. Hansı halda vərəsələri olmayan əmlak dövlətə keçir?

Əgər nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə yoxdursa və ya vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirsə (maddə 1165)

3692. Hansı halda vərəsələri olmayan əmlak ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin, müalicə, tərbiyə və sosial təminat müəssisələrinin mülkiyyətinə keçir?

Əgər miras qoyan şəxs həmin müəssisələrin təminatında olmuşdursa , qanunla dövlət mülkiyyətinə keçməli olan daşınar əmlak istisna olmaqla həmin şəxslərə məxsus daşınar əmlak onların mülkiyyətinə keçir

64-cü FƏSİL
Vəsiyyət üzrə vərəsəliyin hüquqi tənzimlənməsi çərçivəsində suallar və cavablar

3693. Fiziki şəxs ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini kimlərə miras qoya bilər?

Həm vərəsələr sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə (maddə 1166)

3694. Kimlər vəsiyyət edə bilər?

Vəsiyyətnamənin tərtib edildiyi məqamda öz hərəkətləri barəsində şüurlu mühakimə yürüdə bilən və öz iradəsini aydın ifadə edə bilən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli şəxs (maddə 1167)

3695. Vəsiyyətnamənin nümayəndə vasitəsilə tərtibinə yol verilirmi?

Xeyr. Vəsiyyətnaməni şəxsən vəsiyyət edən tərtib etməlidir (maddə 1168).

3696. Kimlər birgə vəsiyyətnamə tərtib edə bilər?

Yalnız ərlə arvad qarşılıqlı vərəsəlik haqqında birgə vəsiyyətnamə tərtib edə bilərlər. Bu vəsiyyətnamə ərin və ya arvadın tələbi ilə, lakin onların hər ikisinin sağlığında ləğv edilə bilər (maddə 1169).

3697. Hansı halda miras vərəsələr arasında bərabər bölüşdürülür?

Vəsiyyət edən vəsiyyətnamə ilə təyin edilmiş vərəsələrin miras paylarını müəyyənləşdirməmiş və ya hansı vərəsəyə hansı əmlakın verildiyini dəqiq göstərməmişdirsə (maddə 1170)

3698. Vəsiyyətnamə ilə bir neçə vərəsə təyin edilmişdirsə və vərəsələrdən birinə təyin edilmiş pay mirasın hamısından ibarətdirsə, miras necə bölünür?

Vəsiyyət üzrə bütün vərəsələr bərabər paylar almalıdırlar (maddə 1171).

3699. Əgər vəsiyyətnamə ilə təyin edilmiş vərəsələrin payları bütövlükdə mirasın hamısını əhatə etmirsə, vəsiyyətnamədən kənarda qalmış əmlaka nə tətbiq edilir?

Vəsiyyətnamədən kənarda qalmış əmlaka qanun üzrə vərəsəlik həyata keçirilir və əgər vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, bu cür vərəsəlik əmlakın bir hissəsinin vəsiyyət edildiyi qanun üzrə vərəsələrə də aid olunur (maddə 1172).

3700. Vəsiyyət üzrə vərəsələr arasında paylar hansı halda mütənasib artırılır?

Yalnız vəsiyyətnamə ilə təyin edilmiş vərəsələr olduqda, əgər vəsiyyət üzrə hər bir vərəsənin öz payı müəyyənləşdirilmişdirsə, lakin onların hamısının payları birlikdə götürüldükdə mirası tam əhatə etmirsə (maddə 1173)

3701. Vəsiyyət edən nəyi müəyyənləşdirməyi başqa şəxsə tapşıra bilməz?

Mirasdan kimin və hansı miqdarda pay almalı olduğunu (maddə 1174)

3702. Əgər vəsiyyət edən vərəsənin şəxsiyyətini bir neçə şəxsə uyğun gələ bilən əlamətlərlə müəyyənləşdirmişdirsə və onlardan hansını nəzərdə tutduğunu təyin etmək mümkün deyildirsə miras necə bölünür?

Onların hamısı bərabər pay hüququ ilə vərəsə sayılırlar (maddə 1175).

3703. Vəsiyyətnamədə birbaşa göstərişlə mirasdan məhrum edilmiş şəxs hansı əmlaka vərəsə ola bilməz?

Vəsiyyətnaməyə daxil olmamış əmlak hissəsinə, vəsiyyət üzrə vərəsələrin mirası qəbul etməkdən imtina etdikləri halda da, qanun üzrə vərəsə ola bilməz (maddə 1176).

3704. Vəsiyyətnamədə göstərilməmiş qanun üzrə vərəsələr hansı halda vəsiyyətnamədə nəzərdə tutulan əmlakı alırlar?

Əgər mirasın açıldığı məqamda vəsiyyət üzrə vərəsələrdən heç biri sağ deyildirsə və ya onların hamısı mirası qəbul etməkdən imtina etmişdirlərsə (maddə 1177)

3705. Qanun üzrə vərəsəlik hansı halda əmələ gəlmir?

Əgər vəsiyyətnamədə bütün miras, əmlak, vəsiyyət üzrə vərəsələr arasında bölüşdürülmüşdürsə, lakin mirasın açıldığı vaxt vərəsələrdən biri sağ deyildirsə (maddə 1178)

65-ci FƏSİL
Vəsiyyətnamənin forması barədə suallar və cavablar

3706. Vəsiyyətnamə hansı formada tərtib edilməlidir?

Həm notariat formasında və ya bunsuz yazılı vəsiyyətnamə formasında (maddə 1179)

3707. Vəsiyyətnamənin notarius tərəfindən yazılmasına hansı qaydada yol verilir?

Vəsiyyət edənin sözlərindən notariusun iki şahidin yanında yazmasına yol verilir (maddə 1180).

3708. Kimlər notariusa bərabər tutulur?

- Xəstəxananın, hospitalın, digər müalicə müəssisəsinin, sanatoriyanın baş həkimi, rəisi, onların tibbi hissə üzrə müavinləri və növbətçi həkimi və ya ahıllar, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrinin baş həkimi, xüsusi təhsil müəssisəsinin rəhbəri - əgər vəsiyyət edən bu müəssisədə müalicə edilirsə və ya yaşayırsa;
- axtarış, coğrafi və digər bu cür ekspedisiyaların rəisi - əgər vəsiyyət edən belə ekspedisiyadadırsa;
- dəniz və ya hava gəmisinin kapitanı - əgər vəsiyyət edən dəniz və ya hava gəmisindədirsə;
- hərbi hissənin, birləşmənin, müəssisənin və məktəbin komandiri (rəisi) - əgər hərbi hissənin yerləşdiyi məntəqədə notarius yoxdursa və əgər vəsiyyət edən hərbi hissədə hərbi qulluqçudursa və ya həmin hissədə qulluq edən mülki şəxs, yaxud onun ailə üzvüdürsə;
- azadlıqdan məhrumetmə yerinin rəisi - əgər vəsiyyət edən azadlıqdan məhrumetmə yerindədirsə (maddə 1181).

3709. Vəsiyyətnamə başqa şəxs tərəfindən imzalana bilərmi?

Əgər vəsiyyət edən hər hansı səbəbdən vəsiyyətnaməni özü imzalaya bilmirsə, onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər. Bu zaman vəsiyyət edənin hansı səbəbdən vəsiyyətnaməni imzalaya bilmədiyi göstərilməlidir (maddə 1182).

3710. Əgər vəsiyyət edən nitq-eşitmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə qabiliyyəti tam məhdud və savadsızdırsa, vəsiyyət sərəncamını o hansı qaydada tərtib etməlidir?

Notariusda iki şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin bu iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında tərtib etməlidir (maddə 1183).

3711. Görmə qabiliyyəti tam məhdud və ya savadsız olan vəsiyyət edən vəsiyyət sərəncamını hansı qaydada tərtib etməlidir?

Notariusda üç şahidin yanında tərtib etməlidir. Bu barədə müvafiq qeyd yazılıb ona oxunmalıdır.

3712. Əgər vəsiyyət edən nitq eşitmə-görmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq eşitmə-görmə qabiliyyəti tam məhdud və savadsızdırsa, vəsiyyət sərəncamını hansı qaydada tərtib etməlidir?

Notariusda dörd şahidin və işin məğzini ona izah edə bilən və vəsiyyətnamənin məzmununun vəsiyyət edənin iradəsinə uyğunluğunu öz imzası ilə təsdiqləyə bilən bir nəfər şəxsin yanında

3713. Vəsiyyətnaməni kimlər oxuya bilər?

Şahidlər yaza və oxuya bilərlər, lakin vəsiyyətnaməni onu yazan oxumamalıdır.

3714. Qeyddə nələr göstərilir və hansı qaydada təsdiqlənir?

Onu kimin yazdığı və vəsiyyət edənə oxuduğu göstərilməlidir. Qeyd şahidlər tərəfindən imzalanmalı və notarius tərəfindən təsdiqlənməlidir.

3715. Kimlər vəsiyyətin şahidləri ola bilməzlər?

Yetkinlik yaşına çatmayanlar, fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxslər, vəsiyyət üzrə vərəsələr və onların yüksələn və enən xətt üzrə qohumları, bacıları, qardaşları, arvadı (əri) və vəsiyyət tapşırığını alan (leqatari) (maddə 1184)

3716. Kimlər vəsiyyətnamənin məzmununa, tərtibinə, dəyişdirilməsinə və ya ləğvinə aid məlumatları miras açılanadək açıqlaya bilməzlər?

Notarius, vəsiyyətnaməni təsdiqləmiş digər şəxs, şahid, habelə vəsiyyətnaməni vəsiyyət edənin əvəzinə imzalamış şəxslər (maddə 1185)

3717. Ev vəsiyyətnaməsinə yol verilirmi?

Bəli, vəsiyyət edən vəsiyyətnaməni öz əli ilə yazıb imzalaya bilər (maddə 1186).

3718. Vəsiyyət edən öz əli ilə yazdığı və imzaladığı vəsiyyətnaməni zərfə qoyub bağlayaraq kimlərə verə bilər?

Üç şəxsin yanında notariusa və ya Azərbaycan Respublikası konsulluqlarının vəzifəli şəxslərinə verə bilər. Həmin şəxslərin orada olması onların zərfin üzərində notariat qaydasında (formasında) təsdiq edilmiş imzaları ilə müəyyən olunur (maddə 1187).

3719. Vəsiyyət edənin öz əli ilə yazdığı və imzaladığı vəsiyyətnaməni zərfə qoyub bağlayaraq üç şəxsin yanında notariusa və ya Azərbaycan Respublikası konsulluqlarının vəzifəli şəxslərinə verdiyi vəsiyyətnamənin saxlanması necə təmin edilir?

Onun notariusda (və ya Azərbaycan Respublikasının konsulluqlarında) rəsmən depozitə qoyulması ilə təmin edilməlidir.

3720. Vəsiyyətnamə texniki vasitələrdən istifadə edilərək tərtib edilə bilərmi?

Vəsiyyətnamənin mətni hamılıqla qəbul olunmuş texniki vasitənin köməyi ilə ifadə edilə bilər, lakin imzanı vəsiyyət edən qoymalıdır. Bu halda vəsiyyət edən vəsiyyətnaməni iki şahidin yanında tərtib etməli və imzalamalıdır (maddə 1188).

3721. Vəsiyyət edənin arzusu ilə qapalı vəsiyyət tərtib oluna bilərmi?

Bəli, bu halda şahidlər vəsiyyətnaməni onun məzmunu ilə tanış olmadan (qapalı

vəsiyyət) təsdiqləməlidirlər. Bu halda şahidlər vəsiyyətnamənin tərtibi zamanı vəsiyyət edənin yanında olmalıdırlar (maddə 1189).

3722. Qapalı vəsiyyətnaməni təsdiqləyərkən şahidlər nələri göstərməlidirlər?

Vəsiyyətnamənin vəsiyyət edən tərəfindən onların yanında tərtib edildiyini, lakin vəsiyyətnamənin məzmununu bilmədiklərini göstərməlidirlər.

3723. Tarixin göstərilməməsi hansı halda vəsiyyətnamənin etibarsızlığına səbəb olur?

Yalnız vəsiyyətnamənin tərtibi, dəyişdirilməsi və ya ləğvi zamanı vəsiyyət edənin fəaliyyət qabiliyyətli olmasına dair şübhələrin aradan qalxmadığı, habelə bir neçə vəsiyyətnamənin olduğu halda (maddə 1190)

3724. Maraqlı şəxslər vəsiyyətnamənin məzmunu ilə nə vaxt tanış edilir?

Vəsiyyət edən öldükdən sonra notarius gün təyin edərək maraqlı şəxsləri vəsiyyətnamənin məzmunu ilə tanış edir. Bu barədə müvafiq protokol tərtib edilməlidir. Əgər vəsiyyətnamənin qoyulduğu zərf möhürlənmişdirsə, möhürün salamatlığı qeyd edilməlidir (maddə 1191).

3725. Vəsiyyət edən hansı hallar üçün vəsiyyətnamədə başqa vərəsənin(ehtiyat vərəsənin) adını göstərə bilər?

Özünün təyin etdiyi vərəsənin miras açılanadək ölməsi və ya mirası qəbul etməməsi, yaxud vərəsəlik hüququndan məhrum edilməsi halı üçün (maddə 1192)

3726. Kimlər ehtiyat vərəsə ola bilər?

MM-in 1134-1136-cı maddələrinə görə (vərəsələr, hüquqi şəxslər vərəsələr kimi, nikahdankənar uşaqlar atanın vərəsələri kimi) vərəsə ola bilən istənilən şəxs ehtiyat vərəsə ola bilər.

66-cı FƏSİL
Mirasda məcburi pay haqqında suallar və cavablar

3727. Kimlərin vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır?

Vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısı miqdarında məcburi payı vardır (maddə 1193).

3728. Məcburi pay tələb etmək hüququ nə zaman yaranır?

Məcburi payı tələb etmək hüququ mirasın açıldığı an əmələ gəlir. Bu cür tələb hüququ vərəsəlik üzrə keçir (maddə 1194).

3729. Kimlər məcburi payı tələb etmək hüququ olan şəxs qarşısında birgə borclu kimi çıxış edirlər?

Digər vərəsələr

3730. Məcburi payın tam həcmi necə müəyyənləşdirilir?

Vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir (maddə 1195).

3731. Vərəsələrdən hər birinin məcburi payı müəyyənləşdirilərkən kimlər nəzərə alınır?

Əgər vəsiyyətnamə olmasaydı, miras almağa çağırıla biləcək qanun üzrə vərəsələrin hamısı nəzərə alınmalıdır. Vəsiyyət üzrə vərəsələr nəzərə alınmır (maddə 1196).

3732. Məcburi pay almaq hüququ olan şəxs hansı əmlakı məcburi paya daxil etməyə borcludur?

Miras qoyanın sağlığında ondan məcburi paya daxil edilmək şərti ilə aldıqlarının hamısını məcburi paya daxil etməyə borcludur (maddə 1197).

3733. Məcburi pay almaq hüququ olan, eyni zamanda vəsiyyət tapşırığını (leqatı) alan şəxs hansı halda məcburi pay tələb edə bilər?

Vəsiyyət tapşırığını (leqatı) alan şəxs vəsiyyət tapşırığından imtina edərsə, məcburi pay tələb edə bilər. Əgər o, vəsiyyət tapşırığından imtina etməzsə, məcburi paya hüququnu vəsiyyət tapşırığının dəyəri həddində itirir (maddə 1198).

3734. Miras qoyan əşyanı üçüncü şəxsə bağışladıqda, məcburi paya hüququ olan şəxs nə tələb edə bilər?

Əgər bağışlanmış əşya mirasa daxil olsaydı, onun məcburi payının arta biləcəyi məbləğdə məcburi payın tamamlanmasını tələb edə bilər (maddə 1200).

3735. Hədiyyə nə zaman hesaba alınmır?

Əgər mirasın açıldığı vaxtadək hədiyyənin verilməsindən iki il keçmişdirsə, hədiyyə hesaba alınmır.

3736. Əgər məcburi pay almaq hüququ olan şəxsə onun qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az əmlak vəsiyyət edilmişdirsə, o, hansı hüquqa malikdir?

O, vəsiyyət üzrə aldığı payın qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az olduğu hissəni tələb edə bilər (maddə 1201).

3737. Məcburi pay almaq hüququ olan vərəsə onu qəbul etməkdən imtina edə bilər, bu imtina digər vərəsələrin məcburi payının artmasına səbəb olurmu?

Xeyr, onun payı vəsiyyət üzrə vərəsələrə keçir (maddə 1202).

3738. Məcburi payın qəbul edilməsi və ya ondan imtina olunması hansı müddətdə həyata keçirilməlidir?

Mirasın qəbul edilməsi və ya ondan imtina olunması üçün müəyyənləşdirilmiş vaxt ərzində

3739. Məcburi pay almaq hüququndan məhrumetməni miras qoyan nə zaman həyata keçirə bilər?

Hələ öz sağlığında məhkəməyə müraciət etmək yolu ilə.

3740. Məcburi pay almaq hüququndan məhrumetmə barəsində məhkəmənin çıxardığı qərar nə vaxtdan etibarən qüvvədə olur?

Mirasın açıldığı andan. Miras qoyanın hələ öz sağlığında məhkəməyə müraciət etdiyi, lakin qərarın onun ölümündən sonra qəbul edildiyi halda da bu cür nəticə baş verir.

67-ci FƏSİL
Vəsiyyət tapşırığı (leqat) kontekstində yaranan suallar və cavablar

3741. Vəsiyyət tapşırığı – leqatın mahiyyəti nədən ibarətdir?

Vəsiyyət edən miras hesabına hər hansı öhdəliyin bir və ya bir neçə şəxsin xeyrinə icra olunmasını vərəsəyə həvalə edə bilər (maddə 1205).

3742. Vəsiyyət tapşırığının predmeti nələr ola bilər?

Miras əmlaka daxil olan əşyaların vəsiyyət tapşırığını alanın (leqatarinin) mülkiyyətinə, istifadəsinə və ya digər əşya hüququ ilə verilməsi, mirasa daxil olmayan əmlakın əldə edilməsi və ona verilməsi, müəyyən işin görülməsi, xidmətlərin göstərilməsi və i.a. (maddə 1206)

3743. Yaşayış otağından ömürlük istifadə hüququ özgəninkiləşdirilə bilərmi?

Özgəninkiləşdirilmir, vəsiyyət tapşırığını alanın vərəsələrinə keçmir (maddə 1208).

3744. Yaşayış otağından ömürlük istifadə hüququ vəsiyyət tapşırığını alanın ailə üzvlərinin həmin otaqda yaşamasına əsas verirmi?

Əgər vəsiyyətnamədə ayrı hal nəzərdə tutulmayıbsa, vermir.

3745. Vəsiyyət tapşırığının icrasının həvalə edildiyi vərəsə həmin tapşırığı hansı həddə icra etməlidir?

Miras qoyanın borclarından ödəməli olduğu hissəni çıxmaqla, vəsiyyət edilmiş mirasın həqiqi dəyəri hədlərində (maddə 1209)

3746. Əgər vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsə miras açılanadək ölərsə və ya mirasdan imtina edərsə, vəsiyyət tapşırığını icra etmək vəzifəsi onun payını almış digər vərəsələrə hansı şərtlə keçir?

Bu şərtlə ki, vəsiyyətdən ayrı hal irəli gəlməsin (maddə 1210).

3747. Vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsənin öldüyü halda, hansı halda vəsiyyət tapşırığını icra etmək öhdəliyinə xitam verilir?

Əgər vəsiyyət tapşırığının icrası onun iştirakı olmadan mümkün deyilsə (maddə 1211)

3748. Vəsiyyət tapşırığının icrası bir neçə vərəsəyə həvalə olunduqda, onların hər biri tapşırığı hansı bölgü ilə icra edir?

Əgər vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, onlardan hər biri vəsiyyət tapşırığını mirasdakı payına mütənasib surətdə alır (maddə 1212).

3749. Vəsiyyət tapşırığını alan hansı müddətdə icra olunmasını tələb edə bilər?

Vəsiyyət tapşırığının miras açılan gündən hesablanan üç illik iddia müddəti ərzində (maddə 1213)

3750. Vəsiyyət tapşırığının icrasının həvalə edildiyi vəsiyyət üzrə vərəsənin məcburi pay almaq hüququ da olduqda, o, vəsiyyət tapşırığını hansı həddə icra edir?

Yalnız vəsiyyət edilmiş əmlakın məcburi paydan əlavə aldığı hissəsi həddində (maddə 1214)

3751. Vəsiyyət tapşırığını alan miras qoyanın borcları üçün məsuliyyət daşıyırmı?

Xeyr (maddə 1215).

3752. Vəsiyyət tapşırığını alan vəsiyyət tapşırığını qəbul etməkdən imtina edə bilər. Bu halda mirasın müvafiq hissəsi kimə qalır?

Vəsiyyət tapşırığının həvalə olunacağı vərəsəyə (maddə 1216)

3753. Hansı halda vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsə onu icra etmək vəzifəsindən azad edilir?

Əgər vəsiyyət tapşırığını alan onu qəbul etməkdən imtina edərsə (maddə 1217)

3754. Əgər vəsiyyət tapşırığını alan miras açıldıqdan sonra vəsiyyət tapşırığının qəbuluna razılıq verməyə macal tapmadan ölərsə, vəsiyyət tapşırığını almaq hüququ kimə keçir?

Tapşırığı onun əvəzinə qəbul edəcək vərəsələrinə (maddə 1218)

3755. Vəsiyyətdə ümumi faydalı məqsədlər üçün hər hansı hərəkətin icrasının tapşırıldığı vərəsənin öldüyü halda bu öhdəliyin icrası kimə keçir?

Mirası qəbul etmiş digər vərəsələrə (maddə 1219)

3756. Vərəsəyə tapşırılmış hərəkətin icrasını ondan kimlər məhkəmə yolu ilə tələb edə bilərlər?

Vəsiyyətnamənin icraçısı, beləsi olmadıqda isə hər hansı vərəsə, habelə maraqlı siyasi partiya, ictimai birlik, həmkarlar ittifaqı və dini təşkilat, fond, dövlət hakimiyyəti və ya yerli özünüidarə orqanları

68-ci FƏSİL
Vəsiyyətnamənin dəyişdirilməsi və ya ləğvi zamanı yaranan münasibətlərin hüquqi tənzimlənməsinə dair suallar və cavablar

3757. Vəsiyyət edən vəsiyyətnaməni hansı üsullarla həmişə dəyişdirə və ya ləğv edə bilər?

- Əvvəlki vəsiyyətnaməni və ya onun yeni vəsiyyətnaməyə zidd hissəsini birbaşa ləğv edən yeni vəsiyyətnamə tərtib etməklə;
- notariat orqanına ərizə verməklə;
- vəsiyyətnamənin bütün nüsxələrinin vəsiyyət edən tərəfindən və ya onun sərəncamı ilə notarius tərəfindən məhv edilməsi ilə (maddə 1220).

3758. Sonradan tərtib edilmiş vəsiyyətnamə ilə ləğv edilən vəsiyyətnamə sonradan tərtib edilmiş vəsiyyətnamənin ərizə vermək yolu ilə ləğv edildiyi halda bərpa oluna bilərmi?

Xeyr (maddə 1221).

3759. Əgər vəsiyyət edən bir neçə vəsiyyətnamə tərtib etmişdirsə, lakin onlar bir-birini tamamlayır və tam əvəz etmirsə, bütün vəsiyyətnamələr qüvvədə qalır. Əvvəlki vəsiyyətnamənin göstərişləri hansı halda qüvvədə qalır?

Sonrakı vəsiyyətnamə ilə dəyişdirilmədiyi halda (maddə 1222)

3760. Əgər bir şəxs bir neçə vəsiyyətnamə tərtib etmişdirsə və onlardan yalnız biri notariat formasında tərtib edilmişdirsə, hansına üstünlük verilir?

Notariat formasında tərtib edilmiş vəsiyyətnaməyə (maddə 1223)

3761. Vəsiyyətnamə hansı hallarda qüvvədən düşür?

- Xeyrinə vəsiyyətnamə tərtib edilmiş şəxs vəsiyyət edəndən tez öldükdə;
- vəsiyyət edilmiş əmlak vəsiyyət edənin sağlığında itirildikdə və ya onun tərəfindən özgəninkiləşdirildikdə;
- yeganə vərəsə mirası qəbul etməkdən imtina etdikdə (maddə 1224).

3762. Vəsiyyətnamə, ümumiyyətlə, hansı hallar olduqda etibarsız sayılır?

Əqdlərin etibarsızlığına səbəb olan hallar olduqda (maddə 1225)

3763. Vəsiyyətnamə hansı hallarda məhkəmə tərəfindən etibarsız sayıla bilər?

Əgər vəsiyyətnamə MM ilə müəyyənləşdirilmiş qaydalar pozulmaqla, habelə şəxsin öz hərəkətinin mənasını başa düşə bilmədiyi və öz hərəkətini idarə edə bilmədiyi vəziyyətdə tərtib edilmişsə

3764. Mirasda olmayan əşyaya vərəsəliyə çağırmağa əsas verən vəsiyyət sərəncamı etibarlı hesab oluna bilərmi?

Etibarsızdır (maddə 1226).

3765. Əgər kiməsə miras əmlakda olmayan pul məbləği vəsiyyət edilmişsə, vəsiyyətnamənin bu cür sərəncamı etibarlı sayıla bilərmi?

Etibarsızdır.

3766. Vərəsənin mirası müəyyən dövr üçün və ya miras qoyanın öldüyü gündən deyil, sonralar alacağı barədə, habelə vərəsənin ölümündən sonra mirasın kimə keçməli olduğu barədə vəsiyyət sərəncamı etibarlı hesab oluna bilərmi?

Etibarsızdır.

3767. Vəsiyyət sərəncamı vərəsə tərəfindən sağlamlıq vəziyyətinə və ya digər obyektiv səbəblərə görə yerinə yetirilə bilmədikdə hansı qaydada etibarsız sayıla bilər?

Vərəsənin iddiası üzrə (maddə 1227)

3768. Vəsiyyətnamənin etibarsız sayıldığı halda bu vəsiyyətnamə ilə vərəsəlik hüququndan məhrum edilmiş vərəsə mirası hansı qaydada ala bilər?

Ümumi əsaslar üzrə (maddə 1229)

3769. Vəsiyyətnamənin qüvvədən düşmüş sayılması barədə iddia hansı müddətdə irəli sürülə bilər?

Mirasın açıldığı gündən iki il ərzində (maddə 1231)

3770. Hansı halda MM-in 1231.1-ci maddəsində nəzərdə tutulan iddia müddəti (mirasın açıldığı gündən iki il ərzində) mülkiyyətçinin iddiasına şamil edilmir?

Vəsiyyət edən özgəsinin əmlakını yanlış olaraq öz əmlakı kimi vərəsəyə vəsiyyət etdikdə

69-cu FƏSİL
Vəsiyyətnamənin icrası çərçivəsində yaranan suallar və cavablar

3771. Vəsiyyət sərəncamlarının dəqiq icrası məqsədilə vəsiyyət edən vəsiyyətnamə ilə həm vəsiyyət üzrə vərəsələr sırasından vəsiyyətnamənin bir və ya bir neçə icraçısını, həm də vərəsə olmayan başqa şəxsi təyin edə bilər. Başqa şəxsin təyin edildiyi halda vəsiyyətnamə icraçısının razılığı zəruridir. Bu razılığı o, hansı qaydada ifadə etməlidir?

Vəsiyyətnamənin özündə və ya vəsiyyətnaməyə qoşulmuş ərizədə yazmaqla (maddə 1233)

3772. Vəsiyyətnamənin icraçısı vəsiyyət edənin onun öhdəsinə qoyduğu vəzifədən hansı müddətdə imtina edə bilər?

İstənilən vaxt. Bu barədə o, vəsiyyət üzrə vərəsələri qabaqcadan xəbərdar etməlidir (maddə 1234).

3773. Vəsiyyət edən vəsiyyətnamənin icraçısını təyin etməyi üçüncü şəxsə tapşıra bilər. Həmin şəxs hansı öhdəliyi daşıyır?

Həmin şəxs miras açıldıqdan sonra dərhal vəsiyyətnamənin icraçısını təyin etməli və bu barədə vərəsələrə məlumat verməlidir. O, həmin tapşırığı yerinə yetirməkdən imtina edə bilər. Bu barədə də o, vərəsələrə ləngimədən məlumat verməlidir (maddə 1235).

3774. Nə vaxtdan etibarən vəsiyyətnamənin icraçısı mirası mühafizə və idarə etməyə başlamalıdır?

Mirasın açıldığı andan (maddə 1237).

3775. Əgər vəsiyyətnamənin bir neçə icraçısı vardırsa, təkbaşına hərəkətlərə hansı halda yol verilir?

Yalnız mirasın mühafizəsi məqsədilə. Qalan hallarda onlar arasında razılıq zəruridir (maddə 1238).

3776. Vəsiyyətnamənin icraçısı öz vəzifələrini əvəzsiz yerinə yetirir. Lakin hansı halda o, muzd da ala bilər?

Əgər vəsiyyətnamədə nəzərdə tutulmuşdursa (maddə 1239)

3777. Vəsiyyətnamənin icraçısı əmlakın mühafizəsinə və idarə edilməsinə çəkdiyi zəruri xərclərin əvəzinin hansı qaydada ödənilməsi hüququna malikdir?

Mirasdan ödənilməsi

3778. Vərəsə olmayan vəsiyyətnamə icraçısı hansı hallardan başqa, digər xərcləri mirasdan ödəyə bilməz?

MM-in 1249-cu maddəsində (Mirasa dair sərəncam verilməsinin yolverilməzliyi) nəzərdə tutulan hallardan başqa. Həmin maddəyə əsasən, digər vərəsələrin gəlməsini gözləməyən və mirasa sahiblik etməyə və ya onu idarə etməyə başlayan vərəsə, xəstəlik zamanı miras qoyana qulluq, onun müalicəsi və dəfn edilməsi, miras qoyanın öhdəsində olmuş şəxslərin saxlanması, əmək haqqının ödənilməsi, mirasın mühafizə

və idarə edilməsi xərclərindən başqa, mirasın açıldığı gündən altı ay keçənədək və ya miras hüququ haqqında şəhadətnamə alınanadək mirasa dair sərəncam verə bilməz.

3779. Vəsiyyətnamənin icraçısı öz funksiyalarını nə vaxtadək yerinə yetirir?
Bütün vərəsələr mirası qəbul edənədək (maddə 1240)

3780. Vəsiyyətnamənin icraçısı öz vəzifələrini yerinə yetirmədikdə, icraçının kənar edilməsi tələbi ilə məhkəməyə kim müraciət edə bilər?
Maraqlı şəxs (maddə 1241)

70-ci FƏSİL
Mirasın qəbul edilməsi və onun qəbulundan imtina olunmasına dair suallar və cavablar

3781. Nə zaman miras vərəsə tərəfindən qəbul edilmiş sayılır?

Vərəsə mirasın açıldığı yer üzrə notariat ofisinə mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə (maddə 1243)

3782. Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktik başladıqda nə hesab edilir?

Hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

3783. Fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli şəxslər mirası hansı qaydada qəbul edirlər?

Öz qanuni nümayəndələri vasitəsilə (maddə 1244)

3784. Vərəsə mirası hansı formalarda qəbul edə bilər?

Şəxsən və ya nümayəndə vasitəsilə (maddə 1245)

3785. Vərəsə mirası hansı müddət ərzində qəbul edə bilər?

Vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində (maddə 1246)

3786. Hansı müddət ərzində mirasın qəbuluna yol verilmir?

Miras açıldığı gündən altı ay keçdikdən sonra

3787. Əgər miras almaq hüququ digər vərəsələrin mirası qəbul etmədikləri halda yaranırsa, miras hansı müddətdə qəbul edilməlidir?

Onun qəbulu üçün müəyyənləşdirilmiş müddətin qalan hissəsi ərzində qəbul edilməli, bu müddət altı həftədən az olduqda isə altı həftəyədək uzadılmalıdır (maddə 1247).

3788. Mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddəti məhkəmə hansı halda uzada bilər?

Gecikdirmənin səbəbini üzrlü sayarsa (maddə 1248)

3789. Müddət qurtardıqdan sonra, hansı halda miras məhkəməyə müraciət edilmədən də qəbul oluna bilər?

Əgər mirası qəbul edən bütün digər vərəsələr razıdırlarsa

3790. Hansı halda mirasın qəbulunu gecikdirmiş vərəsəyə digər vərəsələrin aldığı və ya dövlətin mülkiyyətinə keçmiş əmlakdan pay qalan əmlakdan naturada verilir; ona çatası əmlakın qalan hissəsinin dəyərinin məbləği də verilir?

MM-in 1248.1-ci maddəsində nəzərdə tutulan halda (Mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş müddəti məhkəmə, gecikdirmənin səbəbini üzrlü sayarsa, uzada bilər. Müddət qurtardıqdan sonra, əgər mirası qəbul edən bütün digər vərəsələr razıdırlarsa, miras məhkəməyə müraciət edilmədən də qəbul oluna bilər)

3791. Digər vərəsələrin gəlməsini gözləməyən və mirasa sahiblik etməyə və ya onu idarə etməyə başlayan vərəsə nə vaxtadək mirasa dair sərəncam verə bilməz?

Xəstəlik zamanı miras qoyana qulluq, onun müalicəsi və dəfn edilməsi, miras qoyanın öhdəsində olmuş şəxslərin saxlanması, əmək haqqının ödənilməsi, mirasın mühafizə və idarə edilməsi xərclərindən başqa, mirasın açıldığı gündən altı ay keçənədək və ya miras hüququ haqqında şəhadətnamə alınanadək (maddə 1249)

3792. Əgər qanun üzrə vərəsə vəsiyyətnamənin olduğunu bilmədən mirasa sahiblik etməyə başlayarsa, vəsiyyət üzrə vərəsə isə vəsiyyətnamənin etibarsız olduğunu bilməzsə və ya qanun üzrə və vəsiyyət üzrə vərəsələr qanun üzrə daha yaxın vərəsələrin olduğunu və ya başqa vəsiyyətnamənin olduğunu bilməzlərsə, bu, hansı hüquqi nəticə yaradır?

İddia qaldırılanadək mirasdan aldıqları gəlir onlara qalır; onlar mirasa qoyduqları bütün kapitalı da tələb edə bilərlər (maddə 1250).

3793. Əgər səlahiyyətsiz şəxs mirasa daxil olan əşya üzərində həqiqi vərəsəyə münasibətdə etibarlı olan sərəncam vermişsə, mirasa daxil olan əmlakın hüquqi vəziyyəti nədən ibarət olur?

Səlahiyyətsiz şəxs mirasa daxil olan əşyaya sərəncam vermə nəticəsində əldə etdiklərini həqiqi vərəsəyə verməyə borcludur (maddə 1251).

3794. İrsi transmissiya nədir? Şərtləri nədən ibarətdir?

Əgər vərəsə miras açıldıqdan sonra, miras qəbul edilənədək ölərsə, mirasdan pay almaq hüququ onun vərəsələrinə keçir (irsi transmissiya). Ölmüş vərəsənin vərəsələri mirası onun qəbulu müddətinin sonunadək qalmış vaxt ərzində qəbul etməlidirlər. Əgər bu müddət üç aydan azdırsa, üç ayadək uzadılmalıdır (maddə 1252).

3795. Əmlakı irsi transmissiya üzrə almaqdan imtina edildikdə, hüquqi nəticə nədən ibarət olur?

Əmlak ölmüş vərəsələrlə birlikdə mirası qəbul etməyə çağırılmış şəxslərə keçir (maddə 1253).

3796. Vərəsə tərəfindən mirasın siyahısını tələb etmə müddəti nə qədərdir?

Vərəsə mirasın siyahıya alınmasını tələb edə bilər. Bunun üçün iki aylıq müddət verilir və bu müddət mirasın qəbulu üçün ümumi müddətə daxil olur (maddə 1254).

3797. Qəbul edilmiş miras üçün mülkiyyət hüququ hansı andan əmələ gəlir?

Qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır (maddə 1255).

3798. Vərəsə mirasın qəbulundan imtina edə bilərmi?

Bəli, edə bilər. Vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzrlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər. Mirasın qəbulundan imtina notariat orqanında rəsmiləşdirilməlidir (maddə 1256).

3799. Mirası qismən qəbul etmənin nəticələri nədən ibarətdir?

Hər hansı şərtlə və ya hər hansı müddətə mirası qismən qəbul etməyə və ya ondan

qismən imtina etməyə yol verilmir. Əgər vərəsə mirasın bir hissəsindən imtina edərsə və ya hər hansı şərt qoyarsa, hesab edilir ki, o, mirasdan imtina etmişdir (maddə 1257).

3800. Müxtəlif əsaslar üzrə vərəsəyə mirasdan bir neçə pay düşürsə, vərəsə bunlardan birindən və yaxud bütövlükdə imtina edə bilərmi?

Əgər müxtəlif əsaslar üzrə vərəsəyə mirasdan bir neçə pay düşürsə, o, bir payı qəbul edə, digərindən imtina edə bilər, yaxud bütün paylardan imtina edə bilər (maddə 1259).

3801. Vərəsə mirasdan başqa şəxslərin xeyrinə imtina edirsə, miras əmlakına mülkiyyət hüququ kimə keçir?

Vərəsə mirası qəbul etməkdən qanun üzrə və ya vəsiyyət üzrə vərəsələr sırasından başqa şəxslərin xeyrinə imtina edə bilər. Ləyaqətsiz vərəsə sayılmış və ya vəsiyyətnamənin birbaşa göstərişi ilə vərəsəlik hüququndan məhrum edilmiş şəxsin xeyrinə mirasdan imtina yolverilməzdir. Bu cür imtina barəsində digər vərəsələr məhkəməyə şikayət verə bilərlər (maddə 1261).

3802. Vərəsə mirasdan imtina edərsə, bu imtinanı kimin xeyrinə etdiyini bildirir. Vərəsə bunu bildirməzsə, imtina edilən pay necə bölüşdürülür?

Əgər vərəsə mirası qəbul etməkdən imtina etmişdirsə, lakin kimin xeyrinə imtina etdiyini bildirməmişdirsə, onun payı qanun üzrə vərəsəliyə çağırılmış vərəsələrin payına, vəsiyyətnamə ilə bütün əmlakın bölüşdürüldüyü halda isə vəsiyyət üzrə vərəsələrin payına əlavə edilir və onların arasında paylarına mütənasib surətdə bölüşdürülür, bu şərtlə ki, vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmasın (maddə 1262).

3803. Yeganə vərəsənin mirasdan imtina etməsinin hüquqi nəticələri nədən ibarətdir?

Əgər mirasdan imtina etmiş vərəsə həmin növbənin vərəsələri arasında yeganə vərəsədirsə, miras sonrakı növbənin vərəsələrinə keçir (maddə 1263).

3804. Əgər vərəsə mirasdan bir deyil, bir neçə şəxsin xeyrinə imtina edirsə, pay necə bölüşdürülür?

Əgər vərəsə mirası qəbul etməkdən bir neçə şəxsin xeyrinə imtina edirsə, onlardan hər birinin payını göstərə bilər. Belə göstəriş olmadıqda onun payı mirasın qəbulundan imtina xeyirlərinə edilmiş vərəsələr arasında bərabər bölüşdürülür (maddə 1264).

3805. Mirasdan nəvənin xeyrinə imtina edilə bilərmi? Bilərsə, hansı halda?

Mirasdan nəvənin xeyrinə imtina etməyə o halda yol verilir ki, mirasın açıldığı gün onun miras qoyanın vərəsəsi olmalı valideyni sağ olmasın və ya nəvə vəsiyyət üzrə vərəsə olsun (maddə 1265).

3806. Dövlət mirası qəbul etməzsə, miras əmlakının sonrakı taleyi necə olur?

Dövlət mirası qəbul etməkdən imtina edə bilməz (maddə 1266).

3807. Mirasdan hansı halda imtina etməyə yol verilmir?

Vərəsə mirasın açıldığı yer üzrə notariat orqanına mirası qəbul etməsi və ya vərəsəlik haqqında şəhadətnamə alınması barədə ərizə verdikdən sonra mirasdan imtina edilməsinə yol verilmir (maddə 1267).

3808. Mirasdan imtina geri götürülə bilərmi? Bilərsə, hansı hallarda?

Vərəsə mirası qəbul etməkdən imtina etdiyi barədə ərizəni geri götürə bilməz. Əgər vərəsə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxsdirsə, mirasdan imtinaya məhkəmənin icazəsi ilə yol verilir (maddə 1268).

3809. Miras əmlakını qəbul etmiş vərəsə faktik olaraq mirasa sahiblik etdikdən sonra imtina etmək istəyərsə, mirasdan imtina üçün qanunla müəyyən edilmiş müddətdə şəxsin mirası qəbul edib, faktiki sahiblik etdiyi ana şamil edilirmi?

Bəli, edilir. Mirasa sahiblik etməyə və ya onu idarə etməyə faktik başlamış vərəsə mirasın qəbulu üçün müəyyənləşdirilmiş vaxt ərzində mirasın qəbulundan imtina edə bilər. Bu barədə ərizə ilə o, notariat orqanına müraciət etməlidir (maddə 1269).

3810. Mirasdan imtina hüququ vərəsəlik üzrə vərəsələrə keçərsə, bu hüquq hansı müddətlə məhdudlaşır?

Mirasdan imtina hüququ vərəsəlik üzrə keçir. Əgər vərəsə mirasın qəbulundan imtina üçün müəyyənləşdirilmiş müddət bitənədək ölmüşdürsə, bu müddət vərəsənin ölümündən sonra qalmış vaxt bitənədək qurtarmır. Ölmüş vərəsənin bir neçə vərəsəsinin hər biri yalnız öz miras payından imtina edə bilər (maddə 1270).

3811. Mirasdan imtina üçün səlahiyyətli nümayəndə nəzərdə tutulurmu?

Mirasdan nümayəndə vasitəsilə imtina tapşırıqda (etibarnamədə) imtina səlahiyyətinin xüsusi nəzərdə tutulduğu halda mümkündür (maddə 1271).

3812. Mirasın qəbulu və ya ondan imtina ilə bağlı hallar hansı müddətə mübahisələndirilə bilər?

Mirasın qəbul edilməsi və ya qəbulundan imtina edilməsi barəsində mübahisə maraqlı şəxsin bundan ötrü müvafiq əsas olduğunu bildiyi gündən iki ay ərzində açıla bilər (maddə 1272).

3813. Mirasın qəbulu və ya ondan imtinanın nəticələri hansı andan yaranır?

Mirasın qəbulunun və ya qəbulundan imtinanın hüquqi nəticələri mirasın açıldığı andan baş verir (maddə 1273).

3814. Vərəsə qanunla müəyyən edilmiş müddətdə mirası qəbul və ya imtina etməzsə, hansı hüquqi nəticə yaranır?

Vərəsə MM ilə müəyyən edilmiş müddətlər daxilində mirası qəbul etmədikdə və ya ondan imtina etmədikdə, müvafiq olaraq MM-in 1262-ci (Mirasdan imtina zamanı payın birləşdirilməsi) və 1263-cü maddələri (Yeganə vərəsənin mirasdan imtina etməsi) tətbiq edilir, yəni digər vərəsələrə keçir (maddə 1273-1).

71-ci FƏSİL
Mirasın bölüşdürülməsi kontekstində yaranan suallar və cavablar

3815. Mirasın bölüşdürülməsi nədir?

Miras onu qəbul edən vərəsələrin razılaşması üzrə onlardan hər birinə qanun və ya vəsiyyətnamə üzrə düşən paya uyğun bölüşdürülür (maddə 1274).

3816. Mirasın bölüşdürülməsində üçüncü şəxslər iştirak edirmi? Hansı hallarda buna yol verilir və hüquqi nəticə nədən ibarətdir?

Miras qoyan vəsiyyətnamədə mirasın bölüşdürülməsi qaydasını müəyyənləşdirə bilər, o cümlədən mirası bölüşdürməyi üçüncü şəxsə etibar edə bilər. Üçüncü şəxsin qərarı aşkar ədalətsizdirsə, vərəsələr üçün məcburi deyildir. Bu halda bölgü məhkəmənin qərarı ilə aparılır (maddə 1275).

3817. Mirasdakı əmlakın naturada ayrılması hansı halda həyata keçirilə bilər?

Hər bir vərəsə həm daşınar, həm də daşınmaz əmlakdan öz payının naturada ayrılmasını tələb edə bilər, bir şərtlə ki, bu şəkildə ayırma mümkün olsun və ya qanunla qadağan edilməsin (maddə 1276).

3818. Miras şəriklərinin razılığına uyğun olaraq miras əmlakı satıldıqda ondan gələn gəlir vərəsələr arasında necə bölüşdürülür?

Miras şəriklərinin razılaşması üzrə bütün mirasın satılmasına və pulların vərəsələr arasında onların paylarına uyğun bölüşdürülməsinə yol verilir (maddə 1278).

3819. Miras şəriklərinin razılığı ilə bütün mirasın bir miras şərikinə keçməsinə hansı şərt daxilində yol verilir?

Miras şəriklərinin razılaşması üzrə bütün mirasın bir miras şərikinə keçməsi mümkündür. Öz növbəsində o, digər miras şəriklərinə müvafiq kompensasiya verməyə borcludur (maddə 1279).

3820. Mirasın bölüşdürülməsi müddəti necə dayandırılır?

Miras şərikləri razılığa gələ bilərlər ki, mirasın bölüşdürülməsi müəyyən müddətə dayandırılsın (maddə 1280).

3821. Mirasa daxil olan və təyinatına görə bölünməz olan daşınmaz əşyaya vərəsəlik üzrə mülkiyyət hüququ necə əldə edilir?

Əgər mirası qəbul edən bütün vərəsələrin razılaşması ilə ayrı qayda müəyyənləşdirməyibsə, bölünməsi təsərrüfat təyinatının itirilməsinə və ya zəifləməsinə səbəb olacaq əmlak bölüşdürülmür və vərəsələrin paylarına uyğun onların ümumi mülkiyyəti olur (maddə 1281).

3822. Kənd təsərrüfatı təyinatlı torpaqlar öz təyinatına görə Torpaq Məcəlləsində nəzərdə tutulan digər təyinatlı torpaqlardan fərqlənir. Vərəsəlik üzrə birdən artıq vərəsə olarsa, bu torpaqların bölüşdürülə bilməsi üçün əsas şərt nədir?

Əgər kəndli təsərrüfatının yerləşdiyi kənd təsərrüfatı təyinatlı torpağın mülkiyyətçisi vəsiyyətnamə ilə onu bir neçə vərəsəyə qoymuşdursa və ya vəsiyyətnamə qoyul-

mamışdırsa və qanun üzrə bir neçə vərəsə vardırsa, kənd təsərrüfatı təyinatlı torpaq orada yerləşən kəndli təsərrüfatı ilə birlikdə vərəsələr arasında bölüşdürülə bilər, bu şərtlə ki, bölgü nəticəsində vərəsələrdən hər birinə keçən torpaq sahəsi həyat qabiliyyətli təsərrüfatın mövcudluğunu təmin etsin. Bölgüyə yalnız vərəsələrin özlərinin təsərrüfatla məşğul olmağa hazırlaşdıqları halda yol verilir. Əgər vərəsələrdən heç biri təsərrüfatla məşğul olmaq istəməzsə, onların razılaşması üzrə torpaq orada yerləşən təsərrüfatla birlikdə satıla bilər və vərəsələr öz paylarını pul şəklində ala bilərlər (maddə 1282).

3823. Kənd təsərrüfatı təyinatlı torpaqların bölüşdürülməsinə hansı halda yol verilir?

Əgər kənd təsərrüfatı təyinatlı torpağın bölüşdürülməsi mümkün deyilsə, torpaq kəndli təsərrüfatında yaşayan və miras qoyanla birlikdə təsərrüfatı aparmış vərəsəyə, belə vərəsə olmadıqda isə təsərrüfat aparmağa iqtidarı və arzusu olan şəxsə verilməlidir (maddə 1283).

3824. Miras əmlakına daxil olan torpaq sahəsindən pay ala bilməyən şəxsə mirasdan pay hansı qaydada verilir?

Torpaq sahəsini ala bilməyən vərəsə başqa əmlakdan müvafiq pay, belə əmlak kifayət etmədikdə isə müəyyənləşdirilmiş qaydada müvafiq kompensasiya alır (maddə 1284).

3825. Əgər kəndli təsərrüfatı həyat təsərrüfatıdırsa və həyətin sonuncu üzvü vəsiyyətnamə qoymamışdırsa, həyətin ümumi əmlakı qanun üzrə vərəsələrə hansı şərtlə keçir?

Həyət təsərrüfatının dağılmaması şərti ilə (maddə 1285)

3826. Kəndli təsərrüfatına ümumi mülkiyyətin saxlanılması qaydası nədir?

Miras şəriklərinin razılaşması üzrə torpaq və orada yerləşən kəndli təsərrüfatı onların ümumi mülkiyyətində qala bilər (maddə 1286).

3827. Miras qoyan sağ olarkən anadan olmamış şəxs vərəsə ola bilərmi?

Miras qoyanın sağlığında mayası bağlanmış şəxs vərəsə qismində çıxış edir (maddə 1287).

3828. Mayası bağlanmış şəxsin miras əmlakının bölgüsü zamanı pay necə müəyyənləşir və hansı qaydada bölünür?

Əgər vərəsənin mayası bağlanmışdırsa, lakin o, hələ doğulmamışdırsa, mirasın bölüşdürülməsi yalnız həmin vərəsənin doğumundan sonra mümkündür. Əgər mayası bağlanmış, lakin hələ doğulmamış vərəsə sağ doğularsa, qalan vərəsələr mirası yalnız ona düşən payı ayırmaqla bölüşdürə bilərlər. Yeni doğulanın mənafelərinin müdafiəsi məqsədilə onun nümayəndələri bölgüdə iştiraka dəvət edilməlidirlər.

3829. Miras şəriklərinə qarşı sağlığında əmələ gəlmiş borc tələblərinin bərabər qaydada yox, vərəsələrdən yalnız birinin tam ödəməsi üçün onun üzərinə qoyulmasına yol verilirmi?

Miras şəriklərinin razılaşması üzrə bütün borc tələblərinin tam ödənilməsinin vərəsələrdən birinin öhdəsinə qoyulmasına, bunun əvəzində ona mirasdan müvafiq surətdə artırılmış pay verilməsinə yol verilir (maddə 1288).

3830. Pay almağın təmin edilməsi öhdəliyi nədir? Bu, kimin üzərinə qoyulur?

Hər bir miras şəriki digər miras şəriklərinin müvafiq payları almasını təmin etməyə borcludur. Miras şəriki bölgü nəticəsində tələb hüququ əldə etdikdə, digər miras şərikləri borclunun ödəniş qabiliyyətinə bölgü məqamında, bu cür öhdəliyin icra müddəti çatmadıqda isə öhdəliyin icrası məqamında öz paylarına uyğun kömək göstərməlidirlər (maddə 1289).

3831. Payın mütənasib azaldılmasına necə yol verilir?

Əgər vəsiyyətnamə ilə müəyyənləşdirilmiş payların cəminin bütün mirasdan çox olduğu aşkara çıxarsa, hər bir vərəsənin payı mütənasib surətdə azaldılır (maddə 1290).

3832. Əmlak bölüşdürülməsi zamanı yaranan mübahisələrə hansı qaydada baxılır? Bu zaman notariat orqanlarının rolu nədən ibarətdir?

Miras şərikləri arasında mirasın bölüşdürülməsi haqqında ixtilaflar olduqda, mübahisəyə məhkəmə baxır. Əmlakın bölüşdürülməsi zamanı məhkəmə bölüşdürülməli əmlakın xarakterini, miras şəriklərindən hər birinin fəaliyyətini və digər konkret halları nəzərə almalıdır. MM-in 1291-ci (Əmlakın bölüşdürülməsi zamanı mübahisələrə baxılması) və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 24.1-ci maddələrinin (Mübahisələrin məhkəməyə aidiyyəti) mənasına görə, vərəsələrin dairəsinin və vərəsəlik paylarının müəyyənləşdirilməsi ilə bağlı mübahisələrin həlli səlahiyyəti notariat haqqında qanunvericiliyə əsasən notariat orqanlarının hüquqi təyinatı və funksiyasından kənar olduğu üçün məhkəmələrə aiddir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1321.1 (Vərəsəliyə çağırılmış şəxslər mirasın açıldığı yerdəki notariat orqanından vərəsəlik şəhadətnaməsi tələb etmək hüququ) və 1325-ci (Miras şəriklərinə vərəsəlik şəhadətnaməsi verilməsi) maddələrinin tələblərinə uyğun olaraq, notariat orqanları vərəsəlik şəhadətnaməsinin verilməsi ilə bağlı qanunvericilikdə təsbit edilmiş vəzifələrini icra etməli, bu zaman məsələyə formal yanaşmayaraq mübahisələrin yaranmasının qarşısının alınmasına və vərəsələr arasında qarşılıqlı razılığın əldə edilməsinə çalışmalıdırlar.Müraciət edən şəxslərin vərəsə olması mübahisə predmeti deyilsə, mübahisə vərəsəlik paylarının həcmi ilə bağlıdırsa, notariat orqanları vərəsəlik payının nisbətini göstərmədən müvafiq sənədi verməlidirlər (Konstitusiya Məhkəməsinin 26 iyul 2021-ci il tarixli qərarı) (maddə 1291).

3833. Miras şərikinin öz payına sərəncam hüququ necə məhdudlaşır?

Hər bir miras şəriki öz miras payına dair sərəncam verə bilər. Miras şəriklərindən birinin öz payına dair sərəncam verməsi barədə müqavilə notarius tərəfindən təsdiqlənməlidir. Miras şəriki öz payından olan ayrı-ayrı predmetlərə dair sərəncam verə bilməz (maddə 1292).

3834. Satın almaqda üstünlük hüququ və bu hüququn xitam əsası nədir?

Miras şəriki öz payına dair sərəncam verərkən digər miras şəriklərinin satın almaqda üstünlük hüququ var. Satın almaqda üstünlük hüququ iki ay ərzində həyata keçirilməlidir. Bu hüquq vərəsəlik üzrə keçir. Pay miras şərikinə verildikdən sonra satın almaqda üstünlük hüququna xitam verilir (maddə 1293).

3835. Pay özgəninkiləşdirildikdə, paya qarşı tələb hüququ kimə keçir?

Payın özgəninkiləşdirildiyi halda kreditorun tələbini təmin etmək vəzifəsi payı əldə edənə həmin payın miqdarına uyğun olaraq keçir (maddə 1294).

3836. Mirasın bölüşdürülməsi zamanı qanunda xüsusi qayda müəyyən edilir. Bu qayda nədən ibarətdir?

Ailə təsərrüfatında əməyi ilə, miras qoyanın peşə və kommersiya fəaliyyətində iştirakla, özünün çəkdiyi xeyli xərclərlə, yaxud başqa şəkildə miras qoyanın əmlakının qorunmasına və artırılmasına xüsusi töhfə vermiş övlad (enən xətt üzrə qohum) miras qoyanın əmlakı bölüşdürülərkən onunla birlikdə qanun üzrə vərəsə sayılan və miras tələb edən qohumlarla bərabərləşdirilməsini tələb edə bilər (maddə 1297).

3837. Lakin yuxarıdakı qaydada istisna tətbiq edilir. Hansı halda xüsusi töhfə nəzərə alınmır?

Əgər qohum öz xidmətləri üçün muzd almışdırsa və ya muzd qabaqcadan müəyyənləşdirilmişdirsə və ya qohum göstərdiyi xidmətlər əsasında digər hüquqi əsaslar üzrə hər hansı tələb irəli sürə bilərsə, miras payının bərabərləşdirilməsi tələb edilə bilməz (maddə 1298).

3838. Vərəsələr arasında olduğu yer müəyyən edilməyən varsa, onların olduğu yeri müəyyən etmək vəzifəsi kimin (orqanın) üzərinə düşür?

Əgər vərəsələr arasında olduqları yer məlum olmayan şəxslər vardırsa, qalan vərəsələr onların olduqları yerin müəyyənləşdirilməsi və vərəsəliyə çağırılması üçün ağlabatan tədbirlər görməyə borcludurlar (maddə 1300).

3839. Əgər vərəsəliyə çağırılmış, yerində olmayan, lakin olduğu yer müəyyənləşdirilmiş vərəsə mirasdan üç ay ərzində imtina etməzsə, digər vərəsələr mirası bölüşdürmək niyyətləri barəsində ona bildiriş göndərməlidirlərmi?

Bəli (maddə 1301).

3840. Əgər bu cür vərəsə bildirişdən sonra üç ay ərzində özünün əmlak bölgüsü haqqında razılaşmada iştirak etmək arzusu barəsində digər vərəsələrə məlumat verməzsə, digər vərəsələr qarşılıqlı razılaşma üzrə əmlakı bölüşdürə bilər və yerində olmayan vərəsənin payını ayıra bilərlərmi?

Bəli.

3841. Əgər miras açıldıqdan sonra altı ay ərzində qaib vərəsənin olduğu yer müəyyənləşdirilməzsə və mirasın qəbulundan imtina barəsində ondan bir xəbər alınmazsa, digər vərəsələr MM-in 1301.2-ci maddəsində müəyyənləşdirilmiş qaydada (Əgər bu cür vərəsə bildirişdən sonra üç ay ərzində özünün əmlak bölgüsü haqqında razılaşmada iştirak etmək arzusu barəsində digər vərəsələrə məlumat verməzsə, digər vərəsələr qarşılıqlı razılaşma üzrə əmlakı bölüşdürə bilər və yerində olmayan vərəsənin payını ayıra bilərlər) əmlakı bölüşdürə bilərlərmi?

Bəli.

3842. Kimlərin ümumi mülkiyyətə daxil olan əmlaka vərəsəlikdə üstünlük hüququ var?

Miras qoyanla birlikdə əmlaka ümumi mülkiyyət hüququ olan vərəsələrin (maddə 1302)

3843. Hansı vərəsənin əmlak bölgüsü zamanı mirasdan yaşayış evini, mənzili və ya digər yaşayış otağını, habelə ev müxəlləfatı predmetlərini almaqda üstünlük hüququ var?

Miras açılanadək azı bir il miras qoyanla birlikdə yaşamış vərəsənin (maddə 1303)

3844. Üstünlük hüququnun həyata keçirilməsi zamanı miras bölgüsündə iştirak edən digər vərəsələrin əmlak hüquqları nəzərdə tutulmalıdır. Əgər əmlak onlara çatası payı almağa kifayət etməzsə, üstünlük hüququnu həyata keçirən vərəsələr hansı öhdəlik daşıyırlar?

Onlara müvafiq pul və ya əmlak kompensasiyası verməlidirlər (maddə 1304).

3845. Üstünlük hüququnu həyata keçirən vərəsələrin tələbi ilə məhkəmə kompensasiyanın həcmini nəzərə almaqla, ona hansı müddətə möhlət verə bilər?

On ildən çox olmayan müddətə (maddə 1305)

72-ci FƏSİL
Vərəsələr tərəfindən kreditorların təmin edilməsi çərçivəsində yaranan suallar və cavablar

3846. Hansı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir?

Mirasın notarius tərəfindən siyahıya alındığı hal istisna olmaqla (maddə 1307)

3847. Vərəsələr hansı halda mirasın açılması barədə miras qoyanın kreditorlarına məlumat verməyə borcludurlar?

Əgər ölənin borcları onlara məlumdursa (maddə 1309)

3848. Tələblərin ödənilməsi zamanı hansı kreditorlar üstünlüyə malikdirlər?

Miras qoyanın kreditorları vərəsənin kreditorları qarşısında (maddə 1313)

3849. Vərəsələri olmayan əmlak dövlətə keçdikdə, miras qoyanın borcları üzrə o, hansı qaydada məsuliyyət daşıyır?

Vərəsə kimi (maddə 1314)

3850. Əgər miras qoyan öz əmlakını kreditora vəsiyyət etmişsə, bu, kreditorun tələb hüququnun əvəzləşdirilməsi sayıla bilərmi?

Xeyr (maddə 1315).

73-cü FƏSİL
Mirasın qorunması kontekstində hüquqi münasibətlərin tənzimlənməsinə dair suallar və cavablar

3851. Mirasın qəbul edilməsinə qədər mirasın açıldığı yerdəki notariat orqanı, zərurət olarsa, mirasın qorunması üçün tədbirlər görür. Həmin qayda vərəsənin məlum olmadığı və ya onun mirası qəbul edib-etməməsinin bilinmədiyi hala da şamil edilirmi?

Bəli (maddə 1317) .

3852. Vərəsəlik şəhadətnaməsinin alınması məcburidirmi?

Qanunda nəzərdə tutulmuş hallarda məcburidir (maddə 1321)

3853. Vərəsəlik şəhadətnaməsində vərəsə kimi qeyd olunan şəxsin həmin şəhadətnamədə göstərilən hüquqa malik olması qəbul edilir. Hansı şərtlə bu, vərəsəlik şəhadətnaməsində vərəsə kimi qeyd olunan şəxsdən onun miras payına aid olan hər hansı bir predmeti, belə predmetlə bağlı hüququ və ya miras payına daxil olan hər hansı bir hüquqdan azad etməni əldə edən şəxsin xeyrinə də qüvvədədir?

Bir şərtlə ki, əldə edən vərəsəlik şəhadətnaməsinin düzgün olmadığını bilməmiş olsun.

3854. Vərəsəlik şəhadətnaməsi vərəsələrə nə zaman verilir?

Mirasın açıldığı gündən altı ay keçdikdən sonra istənilən vaxt (maddə 1322)

3855. Hansı halda vərəsəlik şəhadətnaməsi altı aydan tez də verilir?

Əgər notariat orqanında şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat varsa

3856. Əgər mirası qəbul etməyə çağırılmış vərəsə miras açıldıqdan sonra onu müəyyənləşdirilmiş müddətdə qəbul etməyə macal tapmadan ölərsə, onun vərəsələri ilkin miras qoyanın ölümündən sonra qalmış əmlaka vərəsəlik şəhadətnaməsi ala bilərlərmi?

Bəli (maddə 1324).

3857. Vərəsələrdən birinə mirasın bir hissəsi üçün vərəsəlik şəhadətnaməsinin verilməsi digər vərəsələri mirasın qalan hissəsi üçün şəhadətnamə almaq hüququndan məhrum edirmi?

Xeyr (maddə 1325).

1118-1361-4320-
9234-1904-4735

“Elm və təhsil” nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Çapa imzalanmış 20.11.2023
Şərti çap vərəqi 30,5. Sifariş № 508
Kağız formatı 70x100 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4